2023 № 5

MATERİALLARI

KONFRANS

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
THE MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

# KONFRANS MATERİALLARI

## МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
## CONFERENCE PROCEEDINGS

2023 № 5

SUMQAYIT - 2023

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
MINISTRY OF SCIENCE AND EDUCATION AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

# KONFRANS MATERİALLARI

## МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

## CONFERENCE PROCEEDINGS

**2023 № 5**

SUMQAYIT – 2023
СУМГАИТ – 2023
SUMGAYIT – 2023

**Sumqayıt Dövlət Universiteti**
**Konfrans materialları**


**REDAKSİYA HEYƏTİ**

**ELXAN HÜSEYNOV** *prof., rektor (baş redaktor)*
**RAMAZAN MƏMMƏDOV** *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
**ƏKBƏR AĞAYEV** *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
**NİGAR İSGƏNDƏROVA** *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*


**Сумгаитский государственный университет**
**Материалы конференций**


**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ**

**ЭЛЬХАН ГУСЕЙНОВ** *проф., ректор (главный редактор)*
**РАМАЗАН МАМЕДОВ** *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
**АКПЕР АГАЕВ** *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
**НИГЯР ИСКЕНДЕРОВА** *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*


**Sumgayit State University**
**Conference proceedings**


**EDITORIAL BOARD**

**ELKHAN HUSEYNOV** *prof., rector (chief editor)*
**RAMAZAN MAMMADOV** *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
**AKBAR AGAYEV** *prof. (executive secretary of the department of natural and technical sciences)*
**NIGAR ISGANDAROVA** *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

# DÖVLƏTLƏRARASI İQTİSADİ ƏLAQƏLƏR: MÜASİR ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

**BEYNƏLXALQ ELMİ KONFRANS**
***(25-26 may 2023-cü il)***

---

# МЕЖГОСУДАРСТВЕННЫЕ ЭКОНОМИЧЕСКИЕ СВЯЗИ: СОВРЕМЕННЫЕ ВЫЗОВЫ И ПЕРСПЕКТИВЫ

**МЕЖДУНАРОДНАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ**
***(25-26 мая 2023 год)***

---

# INTERSTATE ECONOMIC RELATIONS: MODERN CHALLENGES AND PERSPECTIVES

**INTERNATIONAL SCIENTIFIC CONFERENCE**
***(May 25-26, 2023)***

---

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

***Ümummilli lider Heydər Əliyevin***

***100 illik yubileyinə həsr olunur***

# DÖVLƏTLƏRARASI İQTİSADİ ƏLAQƏLƏR: MÜASİR ÇAĞIRIŞLAR VƏ PERSPEKTİVLƏR

**BEYNƏLXALQ ELMİ KONFRANSIN**

**MATERİALLARI**

***25–26 may 2023-cü il***

**МАТЕРИАЛЫ**

**МЕЖДУНАРОДНОЙ НАУЧНОЙ КОНФЕРЕНЦИИ**

# МЕЖГОСУДАРСТВЕННЫЕ ЭКОНОМИЧЕСКИЕ СВЯЗИ: СОВРЕМЕННЫЕ ВЫЗОВЫ И ПЕРСПЕКТИВЫ

***25–26 мая 2023 года***

**MATERIALS**

**INTERNATIONAL SCIENTIFIC CONFERENCE FOR THE**

# INTERSTATE ECONOMIC RELATIONS: MODERN CHALLENGES AND PERSPECTIVES

***May 25–26, 2023***

## TƏŞKİLAT KOMİTƏSİ *** ОРГАНИЗАЦИОННЫЙ КОМИТЕТ *** ORGANIZING COMMITTEE

***Sədr***

| | |
|---|---|
| Hüseynov E.B. | Rektor, professor |

***Sədr müavini***

| | |
|---|---|
| Məmmədov R.S. | Elm və İnnovasiyalar üzrə prorektor, professor |

***Üzvlər***

| | |
|---|---|
| Talıbov N.H. | Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, dosent |
| Atayev Q.N. | Beynəlxalq əlaqələr üzrə prorektor, dosent |
| Xəlilov E.Ş. | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, dosent |
| Hacıyev N.İ. | İqtisadi məsələlər üzrə prorektor |
| Məmmədov Ə.A. | Ümumi işlər üzrə prorektor |
| Yəhyayeva A.Y. | İqtisadiyyat və idaretmə fakültəsinin dekanı, dosent |
| Abdullayev L.İ. | Maliyyə və mühasibat uçotu kafedrasının müdiri, dosent |
| Pənahəliyeva M.Ö. | Dünya iqtisadiyyatı və marketinq kafedrasının müdiri, dosent |
| Mahmudova L.F. | İqtisadiyyat kafedrasının müdiri, dosent |
| Hüseynov Q.S. *(məsul katib)* | Biznesin təşkili və menecment kafedrasının müdiri, dosent |
| Xəlilov S.A. | Doktorantura və magistratura şöbəsinin müdiri, dosent |
| Orucov S.K. | Elmi hissənin müdiri, dosent |
| Fətullayeva S.A. | Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsinin müdiri |
| Cəlilli N.M. | Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti şöbəsinin müdiri |
| İsmayılov F.B. | İnformasiya Texnologiyaları Mərkəzinin direktoru |
| Məmmədova J.E. | Dil və Tərcümə Mərkəzinin direktoru |

## PROQRAM KOMİTƏSİ *** ПРОГРАММНЫЙ КОМИТЕТ *** PROGRAM COMMITTEE

| | | |
|---|---|---|
| ***Ziyad Səmədzadə*** | akademik | Azərbaycan |
| ***Vüsal Qasımlı*** | professor | Azərbaycan |
| ***Vahid Novruzov*** | professor | Azərbaycan |
| ***Nazim İmanov*** | professor | Azərbaycan |
| ***Sakit Yaqubov*** | professor | Azərbaycan |
| ***Tərbiz Əliyev*** | professor | Azərbaycan |
| ***Şəfa Əliyev*** | professor | Azərbaycan |
| ***Məhəbbət Məmmədov*** | professor | Azərbaycan |
| ***Qənimət Səfərov*** | professor | Azərbaycan |
| ***Qəzənfər Süleymanov*** | professor | Azərbaycan |
| ***Müslüm İbrahimov*** | professor | Almaniya |
| ***Recep Kök*** | professor | Türkiyə |
| ***Kərəm Karabulut*** | professor | Türkiyə |
| ***Vasiliy Bespyatıx*** | professor | Rusiya |
| ***Mixail Osipov*** | professor | Rusiya |
| ***Mixail Kulakov*** | professor | Rusiya |
| ***Emma Şaybakova*** | professor | Rusiya |
| ***Elena Kolesnik*** | dosent | Rusiya |
| ***Olqa Ostrovskaya*** | dosent | Rusiya |
| ***Rıstı Sabirova*** | dosent | Qazaxıstan |
| ***Vüqar Bayramov*** | dosent | Azərbaycan |
| ***Əli Məsimli*** | dosent | Azərbaycan |

**PLENAR İCLAS**
**ПЛЕНАРНОЕ ЗАСЕДАНИЕ**
**PLENARY SESSION**

# HEYDƏR ƏLİYEV İDEYALARI VƏ AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN STRATEGİYASI


**Səmədzadə Ziyad Əliabbas oğlu**
*Akademik, Milli Məclisin üzvü,Azərbaycan İqtisadçılar İttifaqının sədri, Bakı, Azərbaycan*
zsamedzade1940@gmail.com



***Açar sözlər:*** *yeni iqtisadi sistem, barter sövdələşmələri, xarici iqtisadi əməkdaşlıq, xarici iqtisadi əlaqələrin coğrafiyası, daxili bazar, rəqabətədavamlı məhsullar, tədiyyə balansı*


Sovetlər İttifaqının dağılması ərəfəsində və müstəqilliyimizin ilk illərində respublikada ictimai-siyası sabitliyin pozulması, iqtisadiyyatın idarə edilməsində buraxılan kobud səhvlər xarici iqtisadi əlaqələrə çox ağır zərbə vurmuşdu.

Onu da qeyd edək ki, SSRİ-nin dağılması ərəfəsində respublikamızda istehsal olunmuş məhsulların ümumi məbləği daxili istehlakdan orta hesabla 2 milyard manatdan çox idi. İttifaq ilə respublika arasında qeyri-ekvivalent mübadilələrdən danışarkən belə bir faktı bir daha qeyd etmək istərdik: Azərbaycanda istehsal edilmiş pambıq mahlıcının 86 faizi, yunun 87,4 faizi, fermentləşdirilmiş tütünün 88,3 faizi, konyak spirtinin 74,1 faizi digər regionlara yanacaq xammalı şəklində göndərilirdi ki, bu da respublikamızın SSRİ üçün həm də kənd təsərrüfatı xammalı bazası rolu oynadığını tam aydınlığı ilə sübut edirdi.

1991-ci ildə Azərbaycanın ixrac əməliyyatlarında 65 ölkə, idxal əməliyyatlarında 54 ölkə iştirak edirdi. 1991-ci ildə ənənəvi olaraq, ixracın 93,9 faizi keçmiş SSRİ respublikalarının payına düşürdü. Rusiya və Ukraynanın payı ixracda 72 faiz, idxalda isə 80 faiz təşkil edirdi. Bu mərhələdə Azərbaycanın beynəlxalq ticarəti bir neçə amilin ziddiyyətli təsiri altında idi.

Sovetlər İttifaqı dağıldıqdan sonra yeni müstəqil dövlətlər arasında iqtisadi əməkdaşlıq əsaslı surətdə siyasiləşmiş oldu. Bəziləri belə hesab edirdilər ki, uzun illər formalaşmış xarici iqtisadi əlaqələri araşdırmalar aparmadan, tənzimləmə mexanizmlərindən istifadə etmədən qurmaq lazımdır. Bu cür yanaşma iqtisadiyyatımıza ağır zərbələrlə nəticələndi. Yeni peyda olmuş "islahatçılar" iqtisadi əməkdaşlığın yeni, qeyri-standart yollarını tapmaq, qarşılıqlı surətdə faydalı maraqlara riayət etməklə, inkişaf elementləri olan müəssisələrin fəaliyyəti üçün tədbirlər görmək əvəzinə, sivil əməkdaşlığa əngəllər yaradan müxtəlif formalardan istifadə etməyi təkidlə tələb edirdilər ki, onlardan biri də bartet sövdələşmələri idi.

1993-cü ildə idxalın 15%-i, ixracın isə 18%-i barter sövdələşmələrinin payına düşürdü. Müxbir hesablaşmalarının aparılması da xeyli çətinləşmişdi. Mərkəzi banklar vasitəsilə aparılan klirinq hesablaşmaları da icbari olmuş, bu isə ödənişlər sisteminə təsir etmiş və bundan irəli gələn nəticələrə, məsələn, böyük ləngimələrə gətirib çıxarmışdı. Hesablaşmaların ləngiməsi ilə ticarət əməliyyatlarında məsrəflərin xeyli artmasından narahatçılıq keçirən iqtisadi strukturlar istehsalçı və istehlakçılarla birgə bu vəziyyətdən orijinal çıxış yolu tapdılar: barter sövdələşmələri sürətlə inkişaf etməyə başladı.

Bu barədə Heydər Əliyev hökumətin iclasında demişdi:

*"Ən nəhayət, barter məsələsi. Mən dedim, - Nazirlər Kabineti və Baş nazir mənə bu barədə ayrıca izahat verməlidir. Ancaq bir daha hamınıza deyirəm: barter mənim fərmanımla qadağan olunub və bu gün bir də qadağan edirəm. Deyirəm ki, bundan sonra kim bu işlə məşğul olacaqsa, o, çox ciddi cəzalanacaqdır.*

*Sonra deyirlər ki, qarşılıqlı hesablaşmadan çox sui-istifadə edirlər. Mən Nazirlər Kabinetinə tapşırıram ki, qarşılıqlı hesablaşma məsələsi ilə çox ciddi məşğul olsunlar. Çünki burada hər iki tərəf dövlət vəsaitini mənimsəyir. Hər iki tərəf. Ona görə də hər iki tərəf buna maraqlıdır. Amma bu, bizə, bizim dövlətimizə ziddir. Əgər onlar dövlətimizə, hökumətimizə zərər vurmaq istəyirlərsə, biz bunun qarşısını almalıyıq. Bunu Nazirlər Kabineti etməlidir və bununla ciddi məşğul olmalıdır.*

*Təəssüflər olsun ki, nazirliklərdə, şirkətlərdə müxtəlif belə fırıldaqlar bu gün, bu sözü əvvəl də demişəm, mövcuddur. Mən tələb edirəm ki, bunlara son qoyulsun. Tələb edirəm və bilin ki, çox ciddi tədbirlər görəcəyik"*[1].

İlk illərdə bütün yeni müstəqil dövlətlərdə xarici ticarəti sərbəstləşdirmək, gömrük, vergi sistemlərini formalaşdırmaq üçün qanunlar və normativ aktlar qəbul olunurdu. Yeri gəlmişkən, yeni müstəqil dövlətlər bir məqsəd kimi xarici əməliyyatlarla bağlı riskləri minimuma endirməyə çalışır, lakin təəssüf ki, buna heç də həmişə nail olmurdular. Enerji daşıyıcılarının daxili və dünya qiymətləri arasında böyük fərq yarandıqda, xarici iqtisadi əlaqələrdən sui-istifadə halları da özünü göstərirdi. Demək olar ki, rəsmi dairələrlə əlaqəli olan bir qrup adam, əslində dövlətə məxsus saysız-hesabsız sərvətlərin sahiblərinə çevrilirdilər.

Amma Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni iqtisadi sistemin tələblərinə cavab verən xarici iqtisadi əlaqələri qurmaq üçün böyük işlər görülməli idi. İlk növbədə, bu işə müvafiq nazirlik və idarələr, müəssisə və birliklər cəlb edilməli, müvafiq qanunvericilik bazası yaradılması tələb edilirdi. Xarici firma və şirkətlərin Bakıda, Azərbaycanın isə bir sıra xarici ölkələrdə nümayəndəliklərinin açılması, respublikada biznes qaydalarının tədrisi kurslarının təşkili, respublikanın xarici iqtisadi potensialına dair informasiyanı cəmləşdirən xüsusi informasiya bankının yaradılması, xarici əlaqələrin təkmilləşməsinə xidmət edən tədqiqatların, kompleks tədbirlərin miqyasının genişləndirilməsi, respublikanın fiziki və hüquqi şəxslərinin xarici iqtisadi-ticarət əlaqələrinə dair hesabatlarının hazırlanması, bu işin keyfiyyətinin yüksəldilməsi, dövri bülletenlərin buraxılmasının təşkil edilməsi, lazımi poliqrafiya bazasının yaradılması kimi məsələlər diqqət mərkəzinə çəkilməli idi. Bir sözlə, yeni iqtisadi sistemin tələblərinə cavab verən Azərbaycanın xarici əlaqələrinin, ölkələrlə iqtisadi əməkdaşlığının genişləndirilməsi üçün yaxşı təminat, möhkəm baza yaradılması tələb olunurdu [2, c.5, s.59,60].

1994-1995-ci illərdə hökumət tərəfindən xarici iqtisadi fəaliyyət haqqında əlavə tədbirlər görüldü. 1995-ci ilin sonunda enerji daşıyıcıları istisna olmaqla, bütün malların idxalının və ixracının kvotalanması və lisenziyalanması ləğv edildi. İdxal və ixrac üzərində nəzarət yalnız silaha və tibbi preparatlara şamil edilirdi. Lisenziya və kvotalardan tənzimlənmənin daha sivil bazar üsuluna – ixrac tariflərinə keçid ticarət əməliyyatlarında müxtəlif tipli müəssisələrin iştirakı üçün stimul yaradırdı.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyul tarixli fərmanı ilə təsdiq edilmiş idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının əsas məzmunu xarici ticarət sahəsində əsassız məhdudiyyətləri aradan qaldırmağa yönəldilmişdi. Mövcud qaydalara görə idxalda və ixracda kvota-lisenziya sistemi ləğv edilmiş, yalnız spirtli içkilərə və tütün məmulatına xüsusi icazənin verilməsi nəzərdə tutulmuşdu. Digər hallarda isə xarici iqtisadi fəaliyyət iştirakçıları heç bir məhdudiyyət qoyulmadan idxal-ixrac əməliyyatlarını həyata keçirə bilərdilər.

Keçid dövrünün birinci mərhələsində, həmçinin, qarşılıqlı ödəmələr probleminin həll edilməsi, iqtisadiyyatın dollarlaşmasının, barterləşməsinin qarşısının alınması, müəssisə və təşkilatlararası əlaqələrdə maliyyə intizamını möhkəmləndirən sivil qaydaların, prinsiplərin və mexanizmlərin tətbiq edilməsinə də ciddi ehtiyac yaranmışdı.

1994-cü il 20 sentyabrda “Əsrin müqaviləsi”nin reallaşması nüfuzlu xarici şirkətlərin Azərbaycan iqtisadiyyatına böyük həcmli investisiyaların qoymasını təmin etdi, gənc müstəqil dövlətin xariclə əməkdaşlığın coğrafiyasını köklü surətdə dəyişdi, ölkədə yeni iqtisadi sistemin formalaşması üçün əlverişli şərait yaratdı. Amma bütün bu proseslər hüç də asan başa gəlmirdi.

Ulu Öndər Heydər Əliyev ölkədə yeni iqtisadi sistemin qurulması prosesində meydana çıxan çətinliklərdən danışadaq deyirdi:

*“İqtisadiyyat ağır yollardan keçərək irəliləyir. Bəzilərinə, yəni bu işi bilməyən adamlara, yaxud da ki, nə bilim, hansısa şəxsi məqsəd güdən adamlara, ya Azərbaycanı dağıtmaq istəyən adamlara elə gəlirdi ki, hər şeyi dağıtmaq lazımdır, hər şeyi tezliklə özəlləşdirmək lazımdır, ondan sonra Azərbaycanın iqtisadiyyatı inkişaf edə bilər. Onlar naşı adamlardırlar. Nəinki naşı adamlardırlar, ağılsız adamlardır. Məsələn, görürsünüz, xarici investorun gəlib burada bu işə başlaması ilə və iki il müddətində bu zavodun yaranması üçün buna inam lazım idi.*

*Azərbaycanda bu işi görməyin səmərəsini nümayiş etdirmək, bildirmək lazım idi. Yoxsa, hər şeyi dağıt, hər şeyi özəlləşdir. Orada da yarıüstə qalacaqdı, burada da yarıüstə qalacaqdı. Bizim özəlləşdirmə proqramının ikinci mərhələsi həyata keçirilir və ardıcıl surətdə həyata keçiriləcəkdir. Ancaq özəlləşdirmənin əsas məqsədi istehsalı artırmaq, iqtisadiyyatı inkişaf etdirməkdir. Əgər bu məqsədə nail ola bilmiriksə, demək, bu özəlləşdirmənin heç bir əhəmiyyəti olmayacaq, olan şeylər də dağılacaqdır. Necə ki, bizim bəzi müəssisələri də dağıdıblar”.*

Azərbaycanın xarici ticarət əlaqələrinin genişlənməsində Prezident Heydər Əliyevin xarici ölkələrə rəsmi səfərləri zamanı imzalanan ikitərəfli ticari-iqtisadi sazişlər də çox mühüm rol oynayırdı. Xarici dövlətlərlə imzalanmış sazişlər güzəştli ticarət rejiminin tətbiqi, ikiqat vergitutmanın qarşısının alınması ticarət əlaqələrinin genişlənməsi üçün əlverişli zəmin yaradırdı. Dövlətçiliyi daha da möhkəmləndirmək, siyasi sabitliyi təmin etmək, investisiya mühitini yaxşılaşdırmaq üçün şərait yaradılırdı ki, bütün bunların da iqtisadi göstəricilərin dinamikasına, xarici əlaqələrin miqyasına müsbət təsiri artırdı.

Respublikamızda yeni iqtisadi sistemin formalaşması prosesi sürətləndikcə xarici iqtisadi əlaqələrin dinamikasında nəzərəçarpan dəyişikliklər müşahidə olunurdu. Artıq 1999-cu ildə 1994-cü ilə nisbətən xarici ticarət dövriyyəsi 389,8 faiz, ixrac 486,5 faiz, idxal isə 271,7 faiz artmışdı. Azərbaycan 2001-ci ildə dünyanın 114 dövləti ilə xarici ticarət əlaqələri qurmuşdu ki, bunlardan da 104-ü uzaq xaric, 10-u MDB ölkələri idi. Amma bu əlaqələrin səmərəliliyini artırmaq, idxal olunan məhsulların xeyli hissəsini, xüsusilə ərzaq məhsullarının yerli istehsal hesabına təmin etmək inkanlarından o qədərdə səmərəli istifadə olunmurdu.

XX əsrin 70-ci illərində Azərbaycanın digər sovet respublikaları ilə apardığı xarici iqtisadi əlaqələrin dəyər quruluşunda yüngül, yeyinti, maşınqayırma məhsulları 40%-dən çox idi. Müstəqilliyin ilk illərində bu müəssisələr iqtisadi əlaqələrin qırılması və maliyyə vəsaitləri olmadığına görə fəaliyyətlərini dayandırmışdı.

Ulu öndər Heydər Əliyev respublika iqtisadiyyatının inkişafı ilə bağlı çıxışlarında Azərbaycanın gələcəyinə inandığını, bunun üçün real imkanların, müəyyən etdiyi strateji xəttin dönməz olduğunu, bu strateji xəttin xalqımızın milli dövlət mənafelərinə yönəldiyini xüsusi vurğulayırdı.

“Bu proses mənim siyasətimin əsas hissələrindən biridir. Amma bu sahədə də əldə etdityimiz təcrübə bizə bir çox şeyləri öyrətdi. Biz bir çox tikiş fabriklərini özəlləşdirdik, sahibkarlar aldı, qapısına qıfıl vurub gedirlər. İndi nə fabrik, nə kollektiv var, nə də məhsul var. Bu təkcə bizdə deyildir. Xatirimdədir, 1994-cü ildə Budapeştdə ATƏT-in zirvə görüşü zamanı Macarıstanın Baş naziri ilə söhbət etdim. Onunla keçmişdən tanış idik. Mən sovet hökumətində rəhbər vəzifədə olanda da, o da Macarıstanın rəhbərlərindən biri idi. Ondan soruşdum ki, siz özəlləşdirməni çox sürətlə apardınız, nəticəsi nədir? Dedi ki, çox ağırdır. Soruşdum, niyə? Dedi ki, böyük fabrikləri, zavodları tez özəlləşdirdik ki, özəl sektor onları yaxşı işlətsin. Xarici ölkələrin investorları da özəlləşdirdilər Onlar gəlib aldılar, qıfıl vurdular, öz ölkələrinə çıxıb getdilər...”

Xarici ölkələrdən Azərbaycana ərzaq məhsulları gətirilir, rayonlarımızda istehsal olunan kənd təsərrüfatı məhsulları isə tədavül xərcləri çox olduğundan və emal müəssisələri kifayət qədər olmadığından əksər hallarda mal-qara yeminə çevrilirdi. İstehsal etdiyimiz məhsulların bəziləri isə emal olunmaq üçün xaricə çıxarılır və orada emal olunduqdan sonra respublikamıza gətirilirdi.

Prezident Heydər Əliyev sahibkarlarla görüşündə deyir:

*“Bir neçə məsələ ilə əlaqədar öz fikrimi bildirmək istəyirəm. Burada daxili bazarın qorunması məsələsi qoyuldu. Çox mühüm məsələdir. Azərbaycanın daxili bazarı hələ ki, ölkədə istehsal edilən məhsullarla tam şəkildə təmin olunmur. Bu da təbiidir. Bunun təbii səbəbləri var. Çünki Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə yaşanan böhran – siyasi, hərbi və iqtisadi böhran iqtisadiyyatı tamamilə dağıtmışdı. Əlbəttə, daxili bazarı yerli məhsulla təmin etmək üçün istehsal olmalıdır. Onlar da təbii ki, 1990-cı illərin ilk illərində lazımi səviyyədə yox idi. Ancaq Azərbaycan iqtisadiyyatı inkişaf etməyə başlayandan sonra, Azərbaycanda siyasi sabitlik yaranandan sonra, ölkəyə böyük həcmdə xarici sərmayələr cəlb ediləndən sonra, bu sahədə biz irəliləyişi müşahidə edirik.*

*Amma yenə də yerli istehsal bizim istədiyimiz səviyyəyə çatmayıb. Olan istehsalı biz gərək qoruyaq. Əlbəttə, bu məqsədlə Azərbaycanda istehsal olunan mallar gərək sərbəst şəkildə ölkəmizdə də istehlak olunsun. Bu məqsədlə buna oxşar malların idxalına da, əlbəttə ki, rüsumlar qoyulmalıdır. Bu, başqa ölkələrdə də var, bizdə də olmalıdır”.*

Müasir xarici iqtisadi siyasət üçün iki istiqamətin daimi qarşılıqlı əlaqəsi səciyyəvidir: liberallaşma və proteksionizm. Liberallaşma daxili bazarın aradan götürülməsinə yönələn qlobal siyasətin əsas istiqamətlərindən biridir.

Liberallaşmanın əksinə olaraq, proteksionizm siyasəti daxili bazarın və konkret yerli istehsalçıların ifrat xarici rəqabətdən müdafiəsinə yönəlir. Qeyd etmək lazımdır ki, Almaniyanın, Yaponiyanın, Koreya Respublikasının və Çinin iqtisadiyyatının yüksək səmərəliliyi həm liberallaşmanı fetişləşdirməyin açıq iqtisadiyyatın yaradıcı imkanlarından istifadə olunmasının, həm də düşünülmüş proteksionizm siyasətinin nəticəsidir [3, s.49-87].

Ötən əsrin sonlarında - XXI əsrin əvvəllərində respublikanın xaricdən idxal etdiyi məhsulların ümumi həcmində 1-ci və 2-ci yerləri Rusiya ilə Türkiyə tuturdu. 1998-ci ildə bu ölkələrin payına cəmi idxalın 38,4 faizi, 2002-ci ildə isə 26,3 faizi düşürdü. Respublikanın ixracında Rusiyanın və digər MDB ölkələrinin xüsusi çəkisi sürətlə aşağı düşürdü ki, bu da əsasən təsərrüfat əlaqələrinin subyektiv və obyektiv səbəblərdən qırılması, müəssisələrin fəaliyyətinin dayandırılması ilə bağlı idi. Məsələn, respublikanın ixracında Rusiyanın payı 1994-cü ildə 21,4 faizdən 2000-ci ildə 5,63 faizə, Ukraynanın payı isə 9 faizdən 1,35 faizə enmişdi.

Bütövlükdə, respublika üzrə idxalın 72,3 faizi, ixracın isə 97,3 faizi Avropa və Asiya qitəsi ölkələrinin payına düşürdü.

Artıq XX əsrin sonlarında MDB məkanında Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi Rusiya, Ukrayna, Qazaxıstandan sonra dördüncü yerdə idi. Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsi,

"Əsrin müqaviləsi"nin reallaşması ilə bağlı görülən tədbirlər ixrac-idxal balansında müsbət saldonu təmin etmək meyillərini ildən-ilə gücləndirirdi.

1993-cü ildə Azərbaycan Respublikası ilə 60 xarici ölkə arasında ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənmiş və 128 xarici dövlətlə idxal-ixrac əməliyyatları aparılmışdır.

*Bu gün Azərbaycan dövləti beynəlxalq əməkdaşlığın bütün səmərəli formalarından istifadə olunmasına dəstək verir, milli mənafeləri qorumaqla dünya bazarına çıxmaq, ixracın strukturunun təkmilləşdirilməsini strateji vəzifə kimi qiymətləndirir.*

Respublikanın ixracının strukturunda neft və neft məhsulları üstün yer tutur. Bunun obyektiv səbəbləri vardır. Amma əsas hədəf ondan ibarətdir ki, real sektorun digər sahələri daha sürətlə inkişaf etsin. Əlbəttə, bu o qədər də asan deyildir. Xarici bazara çıxmağın çox şərtləri var, lakin ən birinci şərt rəqabətə davamlı məhsullar istehsal etməkdir. Son illər sənayenin quruluşunun şaxələndirilməsi istiqamətində atılan addımlar, o cümlədən neft emalı, neft kimyası, maşınqayırma, metallurgiya, kənd təsərrüfatı məhsullarının emalı sahələrinin inkişafı istiqamətində atılan addımlar ölkəmizin ixrac potensialını genişləndirməyin əsaslarını möhkəmləndirir. Bir daha qeyd etmək istərdik ki, bu prosesdə də milli mənafelərin gözlənilməsi, milli dövlət mənafeləri ilə qloballaşma prosesi arasında ortaq məxrəcin tapılması ön plana çəkilir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il yanvarın 11-də imzaladığı Fərmana əsasən həmin ildən xarici ölkələrə daha çox ixrac missiyalarının həyata keçirilməsi, Azərbaycana isə alıcı missiyalarının təşkil olunması istiqamətində xeyli işlər görülür. Bununla yanaşı, ixracın dəstəklənməsi mexanizmləri və stimullaşdırıcı tədbirlərin əhatə dairəsi daha da genişləndirilir. Qeyri-neft məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsinə və ixracın həcminin artırılmasına dair konkret vəzifələr müəyyənləşdirilmişdir ki, bu da heç şübhəsiz ki, ixrac-idxal əməliyyatlarında sərhəd-keçid məntəqələrində tələb olunan sənədlərin sayının da azaldılmasına, sahibkarların ixrac-idxal missiyalarını daha asan həyata keçirə bilmələrinə yönəlib.

Azərbaycanın xarici ölkələrə ixrac missiyaları ildən-ilə artır. Aparılan araşdırmalar göstərir ki, imzalanan ixrac müqavilələrinin sayı, Azərbaycan şirkətlərinin dövlət büdcəsi hesabına beynəlxalq ərzaq sərgilərində vahid ölkə stendi ilə iştirak etməsi bütövlükdə ölkənin xarici ticarət siyasətinin səmərəliliyinin artmasına xidmət edir.

Bütün bunlar xarici iqtisadi əlaqələrin inkişafı ilə bağlı yeni hədəflərə çatmağı şərtləndirir. Dövlət başçısı İlham Əliyev deyir:

*"...Biz yeni bazarlara baxmalıyıq. Bu, Yaxın Şərqdir, Körfəz ölkələridir, digər ölkələrdir, Asiyadır, Çindir. Biz ora çıxmalıyıq. Buna görə biz artıq "Made in Azerbaijan" brendini yaradırıq. İndi xüsusi işlər gedir, vəsait ayrılıb. Bizim heyətlər bütün ölkələrə getməlidirlər, gəzməlidirlər, təqdimatlar keçirməlidirlər. Yoxsa biz burada gözləyirik ki, kimsə gəlib bizdən nə isə alacaq. İndi bütün şirkətlər, ölkələr bazarlar uğrunda mübarizə aparırlar. Ona görə, bu, yeni bir yanaşma olmalıdır. Həm dövlət orqanları təşkil etməlidir, həm sahibkarlar özləri maraqlı olmalıdırlar və mütləq burada valyutanın hərəkətinə də diqqət yetirilməlidir. Çünki ixraca gedən məhsulun pulu bəzi hallarda ya 50 faiz, ya da 100 faiz qayıtmır. Ona görə burada çox ciddi nəzarət olmalıdır. İndi ixracın təşviqi ilə bağlı yeni sistem qurulur və bu, orada da nəzərdə tutulur. Bu, 100 faiz şəffaf olmalıdır və heç bir pozuntuya yol verilməməlidir".*

Bu gün Azərbaycanın xarici iqtisadi əlaqələr coğrafiyası çox genişdir. Amma məhsul istehsalı, yeni bazarlara, xüsusilə də inkişaf etmiş ölkələrin bazarlarına çıxmaq üçün təşəbbüskarlıq daha da artırılmalıdır. Dövlət maraqlıdır ki, onun qeyri-neft sektorunun idxal-ixracında özünü göstərin uyğunsuzluqların aradan qaldırılması üçün yerli imkanlardan səmərəli istifadə etmək, emal sənayesinin quruluşunun təkmilləşdirilməsi, rəqabətə davamlılığının artırılması məsələləri daima diqqət mərkəzində saxlanılmalıdır. Bu müsbət balansa malik olmaq üçün xarici iqtisadi siyasət konsepsiyasının tərkib hissəsi olan daxili bazarın qorunmasında səmərəli mexanizmlərdən istifadə edilməlidir.

Əminliklə bildirmək istərdik ki, "Milli prioritetlər", "Böyük Qayıdış" I Dövlət Proqramında nəzərdə tutulmuş kompleks tədbirlər, eləcə də KOB subyektlərinin beynəlxalq bazara çıxış imkanlarını genişləndirmək üçün sistemli addımların atılması, ölkədə yaradıcı, təşəbbüskar və yüksək səmərəli biznesin inkişafı üçün maneələrin aradan qaldırılması istiqamətində görülən işlər Azərbaycan xarici iqtisadi əlaqələrinin inkişafına yeni təkan verəcəkdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Prezident Aparatında keçirilmiş müşavirədə giriş nitqi - 26 yanvar 2000-ci il.
2. Z.Səmədzadə "Azərbaycan iqtisadiyyatı 100 ildə", 5 cildlik. *"Qarabağ iqtisadiyyatı 100 ildə" V cild. Bakı,2022.*

3. Z.Səmədzadə “Çin qlobal dünya iqtisadiyyatında” Bakı,2009.

**РЕЗЮМЕ**
**ИДЕИ ГЕЙДАРА АЛИЕВА И СТРАТЕГИЯ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА**
***Самедзаде З.А.***

***Ключевые слова:*** *новая экономическая система, бартерные сделки, внешнеэкономические связи, внутренний рынок, структура экспорта и импорта, география внешнеэкономических связей, платежный баланс*

В статье показано что, на основе конкретных фактов о становлении и развитии внешнеэкономических связей Азербайджанского государства, характере и основных направлениях государственной политики, проводимой Общенациональным лидером Гейдаром Алиевым, за 30 лет нашей независимости значительно развилось экономическое сотрудничество нашей республики с зарубежными странами, в структуре, в географии экспорта и импорта произошли значительные изменения. Отмечается, что успешная реализация нефтяной стратегии Общенациональным лидера Гейдара Алиева создала прочную основу для укрепления экономической независимости Азербайджанского государства и улучшения инвестиционного климата в стране. Особо подчеркивается, что стратегические программы, которые будут реализованы в предстоящий период, окажут положительное влияние на дальнейшую диверсификацию внешнеэкономических связей Азербайджана и улучшение структуры экспорта.

**SUMMARY**
**IDEAS OF HEYDAR ALIYEV AND STRATEGY OF FOREIGN ECONOMIC RELATIONS OF AZERBAIJAN**
***Samadzadeh Z.A.***

***Key words:*** *new economic system, barter deals, foreign economic cooperation, geography of foreign economic relations, internal market, competitive products, balance of payments*

Based on specific facts about the formation and development of the foreign economic relations of Azerbaijan, the nature and main directions of the state policy implemented by the Great Leader Heydar Aliyev, it is shown in the report that during the past 30 years of our independence, the economic cooperation of our republic with foreign countries has significantly developed, significant changes have taken place in the structure and geography of exports and imports.

It is noted that the successful implementation of the oil strategy of Great Leader Heydar Aliyev created strong foundations for strengthening the economic independence of Azerbaijan and improving the investment environment in the country. It is specially emphasized that the strategic programs that will be implemented in the coming period will have a positive effect on the further diversification of Azerbaijan's foreign economic relations and the improvement of the export structure.

# HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏN VƏ MİLLİ MƏNAFEYƏ XİDMƏT EDƏN İQTİSADİ LAYİHƏLƏRİN ƏHƏMİYYƏTİ

**Bayramov Vüqar İbad oğlu**
*Milli Məclisinin deputatı, Bakı, Azərbaycan*

***Açar sözlər:*** *iqtisadi layihələr, neft strategiyası, region, iqtisadi siyasət, işğaldan azad edilmiş ərazilər*

Azərbaycanın Ümumilli Lideri Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişi zamanı ölkə üzrə ÜDM təxminən bugünkü məzənnə ilə 300 mlyn. manat idi. Amma hazırda Azərbaycan kosmik sənayeyə malik olan bir ölkəyə çevrilmişdir. Azərbaycan təkcə kosmik sənaye ilə bağlı tədbirlərdə iştirak etmir, eyni zamanda həmin tədbirlərə ev sahibliyi edir. Belə ki, 2023-cü ilin oktyabr ayının əvvəllərində kosmik sənaye ilə bağlı BMT-nin illik toplantısının Bakıda keçirilməsi gözlənilir. Təxminən 7 mindən artıq iştirakçının qatılacağı tədbirdə ABŞ, Yaponiya, Avropanın kosmik agentlikləri böyük nümayəndə heyəti ilə iştirak edəcəklər.

Əslində bütün bunlar göstərir ki, ötən müddətdə həm Azərbaycan iqtisadiyyatı həm də onun müxtəlif istiqamətləri keyfiyyətcə yenilənib və Azərbaycan regionda bir sıra hallarda hətta kosmik sənaye də daxil olmaqla qlobal məsələlərdə payı olan ölkəyə çevrilib. Biz təbii ki, Ümumilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdıqdan sonra reallaşdırdığı layihələrə, xüsusilə iqtisadi layihələrə diqqət yetirsək, onların içərisində 1994-cü ildə bağlanan “Əsrin müqaviləsi”nin bu kontekstdən çox vacib olduğunu qeyd edə bilərik [3, s.16]. Həmin dövrdə “Əsrin müqaviləsi”nin imzalanması mühüm addım idi. Nəzərə alaq ki, o zaman ölkə iqtisadiyyatında azalma müşahidə olunurdu və inflyasiyanın səviyyəsi praktiki olaraq 3 rəqəmli həddə idi. Bütün bunların fonunda Azərbaycan öz milli maraqları dairəsində 1994-cü il sentyabr ayının 20-də Bakıda imzalanan "Hasilatın pay bölgüsü" sazişi çərçivəsində öz maraqlarına və neft satışından əldə edilən gəlirlərdə öz xüsusi çəkisinin qorunub saxlanmasına nail ola bildi [5]. Belə ki, həmin dövr üçün bu kifayət qədər çətin hədəf idi. Xüsusilə, Azərbaycanın iqtisadi baxımdan güclü olmadığı bir dövrdə Ümummilli Liderin

uzaqgörən siyasəti nəticəsində ölkəmizin maraqları nəzərə alınmaqla bu layihənin həyata keçirilməsi mümkün oldu [6, s.362].

"Əsrin müqaviləsi" Azərbaycan üçün yalnız neft strategiyasının həyata keşirilməsi deyil, həm də bütövlükdə iqtisadi siyasətin maksimum şəkildə optimal olaraq müəyyənləşdirilməsi baxımından vacib bir layihə idi. Nəticə etibarilə bu müqavilənin imzalanması növbəti dövrlərdə neft sektorunun inkişaf etdirilməsinə və bu kontekstdən ölkəyə valyuta axınının güclənməsinə, təbii ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı maliyyə mənbələrinin formalaşmasına imkan yaratdı. Ötən müddətdə bu kontekstdə biz qeyri-neft sektorunun inkişafı ilə bağlı çox fərqli iqtisadi layihələrin reallaşmasını müşahidə etdik. Bura həm nəqliyyat layihələri, o cümlədən Bakı-Tiblisi-Qars dəmir yolu marşrutu, həm də enerji sektorunda hazırda Avropa Birliyinin enerji təhlükəsizliyində xüsusi rola malik olan Cənub Qaz Dəhlizinin reallaşması daxildir. Əslində bunlar Azərbaycanın artan iqtisadi gücünün bir göstəricisi idi [4]. Onu da qeyd edək ki, Cənub-Qaz Dəhlizi layihəsi reallaşan zaman Avropa Birliyinin bu layihəyə marağı çox da yüksək deyildi, çünki Şimal axını ilə bağlı ciddi danışıqlar aparılırdı. Etiraf etmək lazımdır ki, həmin dövrdə bu layihənin reallaşması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi nəticəsində mümkün oldu. Belə ki, layihənin smetası kifayət qədər böyük: 45 milyardlıq bir büdcəyə malik idi. Daha sonra bu büdcə 40 milyard dollara, sonda isə 38 milyard dollara qədər azaldı. Nəticədə bu gün biz Azərbaycanın Avropa Birliyinin ümumi mavi qaz istehlakında payının 6,7 faizə qədər yüksəlməsini müşahidə edirik. Eyni zamanda, Azərbaycan bu gün bir sıra Mərkəzi-Şərqi Avropa ölkələrinin qaz istehlakının, o cümlədən Bolqarıstanın qaz istehlakının 30%-dən çoxunu ödəyir. Yaxın perspektivdə bir sıra digər Avropa Birliyi ölkələrində təbii qazın nəqlinə başlanılması gözlənilir. Bu da təbii ki Azərbaycanın geo-siyasi və geo-iqtisadi mövqeyinin güclənməsi baxımından regionda çox vacib məsələlərdir.

Qarabağın işğaldan azad edilməsi kontekstində millət vəkili olduğum Füzuli royonunda bu istiqamətdə aparılan işlərlə bağlı çox qısa olaraq məlumat vermək istərdim. Əvvəla qeyd etmək istərdim ki, çox yaxın zamanlarda biz Laçın şəhəri və ətraf kəndlərində məskunlaşmanı müşahidə edəcəyik. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tezliklə Laçın şəhərində məskunlaşma olacaq və bu istiqamətdə çox intensiv işlər həyata keçirilir: bu məskunlaşmanı biz 2023-cü ildə Laçın şəhərində müşahidə edəcəyik. Fizuli şəhərində isə artıq şəhərin qurulması və məskunlaşma ilə bağlı intensiv işlər gedir [2, s.92]. 2024-cü ilin əvvəllərində təxminən iki minə yaxın ailənin şəhərdə məskunlaşması gözlənilir. Məktəb və sosial obyektlər, o cümlədən inzibati binaların inşaatı da çox intensiv şəkildə həyata keçirilir. Füzuli rayonunun iki kəndinin - Dövlətyarlı və Dədəli kəndlərinin "ağıllı kənd" layihəsi əsasında tikintisi sürətlə gedir. Bu baxımdan biz artıq yeni dövrə qədəm qoyuruq.

Dövlət başçımız İlham Əliyevə istinadən desək, Ümumilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağı azad görmək idi. Biz bu gün azad Qarabağın millət vəkilləri olaraq konfranslara qoşuluruq. Bu gün biz azad Qarabağın yenidən qurulması və bərpasını müşahidə edirik. Bu baxımdan əminliklə deyə bilərik ki, Ümumilli Liderin vəsiyyəti, tövsiyə və tapşırıqları cənab Prezdent İlham Əliyev tərəfindən yüksək səviyyədə həyata keçirilmişdir və bu islər davam etdirilməkdədir. Artıq 2030-cu ilədək Milli Prioritetlər müəyyənləşdirilmişdir, sosial-iqtisadi inkişaf porsesləri sürətləndirilməkdədir [1]. Azərbaycan bu gün 133 mlyrd. manatdan artıq ÜDM-ə malik bir ölkəyə çevrilib. Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları və Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması da məhz Ümumilli Lider Heydər Əliyevin vaxtilə bünövrəsini qoyduğu uzunmüddətli strateji siyasi və iqtisadi inkişaf modelinin dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirməsinin nəticəsi kimi qiymətləndirilməlidir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında. Bakı şəhəri, 2 fevral 2021-ci il, № 2469.
2. Əliyev, Ş.T. Ağdam və Füzuli rayonlarında postkonflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti// Jurnal "Geostrategiya", Bakı, 2022, №4. - s. 89-94.
3. Əliyev, Ş.T. Heydər Əliyev dühası və əsrin müqaviləsi// Jurnal "Geostrategiya", Bakı, 2017, №05(41). - s. 14-18.
4. Heydər Əliyev Azərbaycanı davamlı iqtisadi inkişafa aparan strategiyanın banisidir.Xalq qəzeti.- 2009.- 14 may.- s. 7.
5. Novruzov, V.T. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli. Azərnəşr. Bakı. 2004. – 288 s.
6. Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə. IV cild, Bakı – 2021. – 594 s.

**РЕЗЮМЕ**
**ЗНАЧЕНИЕ ЭКОНОМИЧЕСКИХ ПРОЕКТОВ ОПРЕДЕЛЕННЫХ ГЕЙДАРОМ АЛИЕВЫМ И СООТВЕТСТВУЮЩИХ НАЦИОНАЛЬНЫМ ИНТЕРЕСАМ**
***Байрамов В.И.***

***Ключевые слова***: *экономические проекты, нефтяная стратегия, регион, экономическая политика, освобожденные территории*

В статье рассматриваются реформы, проводимые Азербайджаном в направлении социально-экономического развития в современных условиях и их перспективы. В то же время представлена информация о проектах, обозначенных общенациональным лидером Азербайджана Гейдаром Алиевым. Отмечается важность этих экономических проектов, служащих национальным интересам, и преимущества, которые они принесут нашей стране в будущем. В продолжение этих проектов уделено место мероприятиям, реализуемым в экономической сфере Азербайджана.

**SUMMARY**
**THE IMPORTANCE OF ECONOMIC PROJECTS IDENTIFIED BY HEYDAR ALIYEV AND CORRESPONDING TO THE NATIONAL INTEREST**
***Bayramov V.I.***

***Key words:*** *economic projects, oil strategy, region, economic policy, liberated territories*

The article deals with the reforms carried out by Azerbaijan in the direction of socio-economic development in modern conditions and their prospects. At the same time, information is provided about the projects identified by the national leader of Azerbaijan, Heydar Aliyev. The importance of these economic projects serving the national interest and the benefits they will bring to our country for the future periods are mentioned. As a continuation of these projects, the measures implemented by Azerbaijan in the economic field were researched.

# QARABAĞIN DİRÇƏLDİLMƏSİNİN REGİONUN İNKİŞAFINDA STRATEJİ ROLU

**Gəncəliyev Tural Balaş oğlu**
*Milli Məclisin deputatı, Bakı, Azərbaycan*

***Açar sözlər:*** *orta güc, nəqliyyat-kommunikasiya, geostrateji reallıqlar, Qarabağ, türk dünyası*

Ümummilli lider Heydər Əliyevin 100 illiyi və Şuşanın bütün türk dünyasının mədəniyyət paytaxtı elan edildiyi bir şəraitdə Qarabağın dirçəldilməsi böyük əhəmiyyət daşıyır [1]. Azərbaycan Respublikası prezidentinin yaratdığı yeni geostrateji reallıqlar kontekstində Qarabağın dirçəldilməsi məsələsinin müzakirəsi çox aktualdır [2]. Bu yaxınlarda cənab prezident Şuşada Avrasiya geosiyasi məkanında siyasətin formalaşdırılması: keçmişdən bu günə və gələcəyə adlı mötəbər beyin mərkəzləri ilə birgə dəyirmi masa keçirmişdir. Bu beynəlxalq tədbir böyük Avrasiya məkanında gedən proseslərin, onun siyasətinin və iqtisadiyyatının formalaşmasında artıq Azərbaycanın, xüsusilə də Qarabağ bölgəsinin önəmli yer tutmağa başladığını, həmçinin ölkəmizin yeni bir iqtisadi güc mərkəzi kimi formalaşdığını göstərdi. Bunun təzahürlərini Qarabağın dirçəldilməsi fonunda atılan strateji addımlarda, strateji planlaşdırmada görmək olar. Qarabağın dirçəldilməsi Azərbaycanın təkbaşına, öz resursları hesabına həyata keçirilir [3]. II Qarabağ müharibəsindən 2 il müddət keçməsinə baxmayaraq bu bölgənin hərtərəfli dirçəldilməsi, yeni geostrateji dialoqların yaranması müşahidə olunur. Bu gün Zəngəzur dəhlizinin funksional hala gəlməsi yalnız Azərbaycanın deyil, eləcə də dünya siyasətinin gündəmindədir. Hazırda bütün dünya siyasətçiləri nəqliyyat-kommunikasiya məsələlərində Azərbaycanın açar bir ölkə olduğunu, xüsusilə də Zəngəzur dəhlizinin açılmasının labüdlüyünü qeyd edirlər.

Yeni formalaşan türk dünyasının, Türk Dövlətləri Təşkilatının bir güc mərkəzinə çevrilməsi çox önəmli bir faktdır. Ona görə də bu gün Azərbaycanın məhz orta dəhliz, orta güc kimi formalaşmasını xüsusi qeyd etmək lazımdır. Bunun Qarabağın dirçəldilməsi ilə böyük əlaqəsi vardır. Bu gün Qarabağın dirçəldilməsi həm də türk dünyasının dirçəldilməsi deməkdir. Hazırda Çindən Macarıstana qədər böyük geosiyasi arealı əhatə edən məkanın – Avrasiyanın məhz türk dünyası kontekstindən baxılmasına xüsusi diqqət yetirilməlidir. Bu baxımdan qeyd etmək lazımdır ki, yeni yaranan reallıqlar Azərbaycanın orta güc kimi meydana çıxmasına şərait yaratmışdır. Bu məqamda Azərbaycanı Çexiya ilə müqayisə etmək yerinə düşər. Azərbaycan və Çexiya həm əhalisinin sayına, həm də ərazisinin sahəsinə görə bərabər olan ölkələrdir. Qısa da olsa, Azərbaycanın bir güc kimi ortaya qoyduğu iqtisadi və siyasi təsir imkanlarını Çexiyanın müvafiq imkanları ilə müqayisə edək. Çexiya Avropa İttifaqının bir üzvü kimi Şərqi Avropa məkanında mühüm yer tutur. Ancaq Azərbaycan Qoşulmama Hərəkatının bir üzvü kimi heç bir siyasi və iqtisadi bloka daxil olmayan, yalnız öz gücünə əsaslanan bir ölkə kimi regionda formalaşdırdığı yeni geostrateji reallığı nəzərə almalıyıq.

Burada bir haşiyə çıxaraq Azərbaycanın orta güc kimi formalaşması ilə bağlı bir sıra məqamları bəzi ölkələrlə müqayisə edək. İlk olaraq Kanadanı götürsək deyə bilərik ki, o, ərazisinin sahəsinə görə dünyanın ikinci böyük ölkəsidir, eyni zamanda böyük iqtisadi resurslara və potensiala malikdir. Ancaq o, iqtisadi güc kimi dünya səviyyəsində mühüm addımlar atsa da, geosiyasi güc kimi formalaşmamışdır. Kanada NAFTA razılığına əsasən ABŞ və Meksika ilə birgə Şimali Amerikada yerləşən iqtisadi bir blokun tərkib hissəsidir. Onun bu qədər iqtisadi güc və potensiala malik olmasına baxmayaraq siyasi güc kimi formalaşmasının qarşısında məhdudiyyətlər vardır. Digər bir misal kimi Cənubi Koreyanı götürmək olar. Cənubi Koreya böyük iqtisadi gücə malikdir. Lakin yaxınlığında olan Şimali Koreya və Çin kimi güclər onun siyasi potensialının formalaşmasına mane olur. Başqa bir nümunə kimi Almaniyanı götürmək olar. O, Avropa İttifaqının ən böyük iqtisadi gücü, lokomatividir. Ancaq Almaniyanın siyasi bir güc olaraq Fransa ilə balanslaşdırılması Avropa İttifaqında müvafiq balanslaşdırılmış bir sistemin qurulmasına səbəb olmuşdur. Qeyd olunanlar bir daha sübut edir ki, bu gün Azərbaycan müqayisə olunan ölkələrə nisbətən az iqtisadi potensiala və daha kiçik əraziyə malik olmasına baxmayaraq ağıllı siyasət aparması, eləcə regionda olan geosiyasi vəziyyəti nəzərə alaraq atdığı addımlar nəticəsində nisbətən məhdud iqtisadi və siyasi resurslara malik orta güc ölkəsi kimi formalaşmağa nail olmuşdur. Hazırda bunu Qarabağ bölgəsinin dirçəldilməsində müşahidə etmək olar [4]. Qarabağın, Şuşanın dirçəldilməsindən sonra tez bir zamanda Azərbaycanın 1 milyona yaxın keçmiş məcburi köşkünlərinin öz doğma yurdlarına tam şəkildə qayıtmasına ümid etmək olar. Artıq bu prosesə artıq başlanılmışdır və onun uğurla yekunlaşması gözlənilir [5].

## Ədəbiyyat


1. Алиев, Ш.Т. Стратегическая важность возрождения Шуши в интенсификации социально-экономического развития Карабахского экономического района / VII Международная Научно-Практическая Конференция «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации», (шифр – МКСТР), Москва, 30 июня 2022. – с. 321-329.
2. Səmədzadə, Z.Ə. İşğaldan azad olunmuş ərazilərin bərpası proqramı və iqtisadi rayonlaşma məsələləri. “Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər” mövzusunda Respublika elmi konfransın materialları. Sumqayıt. 22-23 aprel 2021, №2, s.4-11.
3. Nəbiyev, R. Azərbaycan Respublikasının Qarabağda resursların səmərəli bölgüsünə istiqamətləndirilmiş struktur siyasəti. “İqtisadi islahatlar” elmi-analitik jurnal, № 1(2), s.11-22.
4. Алиев, Ш.Т., Аббасова, Ч.И., Гамидова, А.М. Оценка потенциала и пути развития Карабахского экономического района Азербайджана / VIII International Scientific and Practical Conference International forum: problems and scientific solutions held in Melbourne, Australia. Scientific collection «interconf», September 6-8, 2021, № 73, p. 7-15.
5. https://ojs.ukrlogos.in.ua/index.php/interconf/article/view/14257/13074.
6. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal “Geostrategiya”, Bakı, 2021, №4. – Səh. 67-72



**РЕЗЮМЕ**

**СТРАТЕГИЧЕСКАЯ РОЛЬ ВОЗРОЖДЕНИЯ КАРАБАХА В РАЗВИТИИ РЕГИОНА**

***Гянджалиев Т.Б.***

***Ключевые слова**: средняя держава, транспортно-коммуникационные, геостратегические реалии, Карабах, тюркский мир*

В статье отмечена актуальность возрождения Карабаха в рамках сложившихся геостратегических реалий. Были рассмотрены вопросы, связанные с формированием Азербайджана как средней силы, проведено сравнение с рядом стран. В статье подчеркивается, что возрождение Карабаха также означает возрождение тюркского мира.

.

**SUMMARY**

**THE STRATEGIC ROLE OF REVIVAL OF KARABAKH IN THE DEVELOPMENT OF THE REGION**

***Ganjaliyev T.B.***

***Key words**: middle power, transport-communication, geostrategic realities, Karabakh, Turkic world*

The relevance of the revival of Karabakh within the newly created geostrategic realities was mentioned in the article. Here, the points related to the formation of Azerbaijan as a middle power were included, and a comparison with a number of countries was made. The article also emphasizes that the revival of Karabakh also means the revival of the Turkic world.

## KARABAĞ VE DOĞU ZENGEZUR'DA EKONOMİK ALANDA TÜRKİYE-AZERBAYCAN İŞBİRLİĞİNİN STRATEJİK YÖNLERİ

**Kerem Karabulut**
*Atatürk Universiteti, Türkiyə, professor*

***Anahtar kelimeler:*** *Karabağ zaferi, Zengezur koridoru, ekonomi gelişimleri, teknoloji üreten, konsolosluk*

Öncelikle, bu günlere gelişimimizi sağlayan büyük lider Heydar Aliyevi rahmetle anıyorum. Çünki bir yönetim biliminde lider ve yönetici farkından bahsedilir. Demek ki, lider şudur: toplumunu çok iyi bilen ve kendisi karar vermeyi bilen, geleceği görüp toplumunu geleceğe yönelik hazırlayan kişidir.

90-lı yıllarda hem Azerbaycanın, hem Türkiyenin durumunun çok güclü deyildi. Türkiyenin ve Azerbaycanın 2020-deki zafere hazırlanması sonucunda Karabağ zaferi kazanıldı. Karabağ hem Azerbaycanın, hem Türkiyenin hakikatan içindeki yaraydı. Bunu başarmak harika bişey. Geleceğe yönelik bir hatırlatmada bulunmak istiyorum, Mustafa Kemal Atatürkün çok ünlü bir sözü var, kurtuluş savaşını kazandıkdan sonra diyor ki: “Siyasi ve askeri zaferler ne kadar büyük olursa olsunlar, ekonomik zaferlerle taçlandırılmazlarsa, o elde edilen zaferler kalıcı olmaz, söner gider”. Şimdi, Karabağ zaferi de böyle bir zafer, çok büyük bir zafer, siyasi ve askeri bir zaferdir.

Ama bunu ekonomik zaferle taçlandırmak lazım. İşte o taçlandırma gücü şimdi hem Azerbaycanda, hem Türkiyede var. Aynı zamanda Azerbaycanın mevcut yönetimi Haydar Aliyevin yönetim anlayışının devamı olduğu için Azerbaycanın büyük bir şansı var. Yani geleceğe yönelik olarak bu ekonomik zafer taçlandırıla bilir. Çünkü uluslararası ilişkilerde şu kural geçerlidir: ülkelerin menfaati geçerlidir. Ama Azerbaycan ve Türkiye ilişkilerinde bu eski tarihden beri böyle. İki ülkede menfaatten ziyade iki ülkenin menfaatinin birlikte kazanma ya da birlikte ilerletme kuralı geçerlidir. Belki de dünyada tek bu iki ülke arasında böyle birşey var.

Karabağ zaferi sonrası Türkiye ve Azerbaycanın bu birliktelikleri ve Zengezur koridorunun açılmasının hiç bir ülkeye zararı yok. Dünya barışına, huzuruna, bölgesel kalkınmaya katkısı var. İran da işin içinde olmak üzere. Zengezur koridoru konusunda özellikle İran tarafından bazen bu olayın aleyhine gibi davranışlar vardır. İranın bilmediği birşey vardır. Zengezur koridoru açıldığı zaman, belki de İranla Türkiye arasında ve İranla diğer Asya ülkeleri arasında bağlantıların oluşmasına yollar da açılacaktır [3].

Ülkelerin kalkınması deyince deniz kıyısı ve deniz ulaşımını iyi kullanan ülkelerin kalkınması kolaydır. Eğer bu imkan yoksa, demir yolu ağıyla bağlantılarının güçlendirilmesi ülkelerin kalkınmasını kolaylaştırır. Zengezur koridoru Bakü-Tbilisi-Kars demir yolundan sonra açılırsa ve Türkiye tarafında da Kars-Iğdır-Nahçıvan demir yolu da ona eklenirse, bölgede yeni bir kalkınma çağının başlanacağını ve dünya ülkelerinde menfaatın olacağını söyleye bilirim. Bunun sonucunda Türkiye ve Azerbaycanda turizm ve ticaret ilişkileri yaklaşık 3-4 katına çıkacaq. Aynı zamanda bu ülkeler arasındakı dış ticaret rakamı yaklaşık 4 milyar dolar civarındadır. Bunun 12-13 milyar dolara, hatta 15 milyar dolara çıkması bekleniyor.

Diğer tarafdan da Nahçıvanın önemi artacak. Mustafa Kemal Atatürkden bahs etmek istiyorum. 1921-deki Moskova antlaşmasının başında Atatürk vardı. Atatürk o zaman Ali Kemal beye diyor ki, Nahçıvan konusunda ısrar edin. Ali Kemal Atatürke antlaşma sırası döndüğünde diyor ki, Nahçıvan Azerbaycana bağlı özerk bir cumhuriyet olarak kaldı. Atatürkün söylediği söz aynen şudur: iyi oldu, sınırlarımız devam ediyor. Yani Türkiye ile Azerbaycanın bağının devam etdiğine 1921-de Atatürk seviniyor. Dolayısıyla Karabağın olması bu günleri belki de görerek uzun dönemde bizimle Azerbaycanın bu bağlantısının bölgesel açıdan ve her iki ülke açısından önemini ortaya koyan bir durumdur [1].

Bakü, Nahçıvan ve Türkiye arasındakı demir yolu ulaşımlarının Türk dünyası ile bağlantıların gelişeceğine, Türk dünyasındakı ülkelerin hem Azerbaycana hem de Türkiyeye karşı ilgilerinin, alakalarının, güvenlerinin artacağına, böylece dolayı ulaşım maliyetlerinin azalacağına ve onlar arasında ticaretin artacağına neden olucak. Kars demir yolu açılınca özellikle Karabağdakı üretimin, geleneksel ürünlerinin Türkiyede tanıtılması, satılması, Türkiye üzerinden turizm sektörü açısından da ilişkilerinin daha da geliştirilmesi gerektiğini söylemek lazım.

Şuşa beyannamesi ile Türkiye ve Azerbaycan stratejik mütefikliği yeni düzeye kalkdı. Yani şimdiye kadar olduğu gibi, bundan sonra da Türkiye ve Azerbaycan arasında bütün ekonomik ve siyasi konularda iş birliği devam edecek, bir-birinin güvenlik, ekonomi gelişimleri ile ilgilenecekler. Bu beyanname aslında özet olarak bunu ortaya koyuyor.

İşte bunları taçlandırmak için iki tane ortak kültürümüz olan uluslararası Nevruz festivalinin ya Türkiyede ya da Azerbaycanda yıldan-yıla değişecek şekilde tüm Türk dünyasının katılımıyla kutlanması

önem arz edebilir. Diğer tarafdan sağlık sektörü açısından benim özel bir önerim var: sağlık serbest bölgesi üzerinde çalışılmalıdır. Yani bu Türkiye, Azerbaycan, aynı zamanda benim içinde yaşadığım Erzurum, Iğdır illeri de ola bilir. Ya da Nahçıvanla Iğdıra sınır olan bir alanda sağlık serbest bölgesi kurularak bütün Türk dünyasının, Türkiye ve Azerbaycanın sağlık hizmetlerinde üst bir oluşuma gidile bilir diye öneriyorum [2].

Başka bir önerim Kafkasya Ticaret Birliği adı altında bir kurumun oluşturulması olabilir. Türkiye ve Azerbaycanın öncüllüyü ile bir çalışma yapılabilir. Karabağ zaferi bize gösterdi ki, bilim ve teknolojinin olmadığı durumda başarı olmaz.

Türkiye ve Azerbaycanın özellikle savunma sanayisinde, içinde bilim ve teknoloji de üreten bir merkezin kurulmasına ihtiyacı var. Ama bu dünyanın en üst teknolojisini üretecek bir merkez sıradan bir şey olmamalı. Şuşa ve Erzuruma bir konsolosluk açılması iki ülke arasındakı siyasi, ekonomik ilişkilerin gelişmesinde önemli rol oynayacaktır.

## KAYNAKÇA


1. Aslanlı, A. (2017). "Trans Hazar Enerji İş Birliğinin Türk Cumhuriyetleri Açısından Önemi". Bilig. Güz, Sayı: 83.
Müasir dünyada rəqəmsal texnologiyalar insan fəaliyyətinin bütün sahələrinə tətbiq olunur. Onlar sənaye və digər müəssisələrdə müştərilərlə iş prosesini və ya yeni məhsulların istehsalını sürətləndirirlər. Rəqəmsal texnologiyaların inkişafı turizm sənayesinə də təsir edib. Turizmdə rəqəmsal texnologiyalar dedikdə, qonaqpərvərlik və turizm sənayesinə informasiya dəstəyi vermək üçün informasiya-kommunikasiya texnologiyalarının və ya İT-nin tətbiqi başa düşülür. Turizmdə rəqəmsal texnologiyalar elektron səyahət və ya e-turizmlə də sinonimdir. Bu xidmət turizm sənayesində e-ticarət və İT sahəsində həllərin təhlilini, işlənməsini, tətbiqini təmin edir. Buraya həm də müxtəlif müştəri münasibətlərinin, bazar strukturlarının və iqtisadi proseslərin təhlili daxildir.

Müasir turizm bazarında İT-nin inkişafı üçün aşağıdakılar zəruridir:

• turizm ofislərində avtomatlaşdırılmış avadanlıqların quraşdırılması;

• şirkətlərdə turizm məhsulunun yaradılması, təşviqi və satışının avtomatlaşdırılması məqsədilə praktiki sistemlərin tətbiqi;

• işçilər tərəfindən verilənlər bazasının idarəetmə sistemlərindən istifadə;

• mehmanxanalarda yerlərin və müxtəlif biletlərin (hava, dəmir yolu, avtobus və s.) bronlaşdırılması məqsədilə telekommunikasiya sistemlərinin inkişafı;

• multimedia marketinq sistemlərinin tətbiqi [2, s.104].

Turizmdə rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı strategiyanın müddəaları aşağıdakılardır:

- ölkənin turizm məhsulunun ölkə daxilində və xaricdə təbliği üçün rəqəmsal platformanın yaradılması;

- əcnəbi turistlərin şəhərlərdə naviqasiyasına kömək edəcək, özünəxidmət göstərəcək çoxdilli xidmətlərin tətbiqi və inkişafı (turistin üstünlüklərindən asılı olaraq mehmanxanaların bronlaşdırılması, ekskursiyalar, yemək yerləri haqqında məlumat);

- turistlərin ictimai nəqliyyatda, o cümlədən metroda, avtobuslarda daha asan və sürətli səyahət etməsinə, şəhərdə baş verəcək tədbirlər haqqında məlumat almasına, muzeylərə və digər mədəniyyət müəssisələrinə ziyarət etmək məqsədilə endirimlər haqqında məlumatların əldə olunmasına imkan verən elektron turist kartının hazırlanması;

- göstərilən xidmət keyfiyyətini artırmaq və müştəri yönümlü olması üçün vahid sistemin inkişafı;

- virtual reallıq texnologiyalarının tətbiqi yolu ilə turistlərin şəhərlərin müxtəlif tipli görməli yerləri, muzeylərdəki eksponatlarla tanış olması üçün şəraitin yaradılması;

- məlumatların daha sürətli və keyfiyyətli toplanmasına və təhlilinə imkan verəcək böyük verilənlər texnologiyalarının tətbiqi və inkişafı;

- bilet almaq və mehmanxana bron etmək imkanı ilə turist marşrutunun onlayn qurulması xidmətlərinin inkişafı;

- özünüməşğulluq fəaliyyəti ilə məşğul olan şəxslərin turizm fəaliyyətinə cəlb edilməsi üçün elektron platformanın yaradılması (bələdçilər, təlimatçılar, tur bələdçiləri);

- sorğuların yaradılması üçün QR kodlarından istifadə etməklə, displey obyektləri üçün multimedia proqramlarının, GPS naviqasiyası ilə inteqrasiya imkanı olan audio və video bələdçilərin xidmətlərinin hazırlanması [3, s. 16].

Bu gün texnoloji imkanlarını genişləndirməyə sərmayə qoyan şirkətlər bunu istehlakçılara yüksək səviyyədə xidmət göstərmək və turizm bazarında rəqabət apara bilmək üçün edirlər.

Beləliklə, rəqəmsal texnologiyalar turizm sənayesinin inkişafında əsas amildir. Rəqəmsallaşma nəticəsində turizmin inkişaf tendensiyaları yeni həll yolları tapır. Rəqəmsal texnologiyalar məhz sifariş saytları və ya rəqəmsal platformalar, fərdiləşdirilmiş məhsul və xidmətlər sistemləri vasitəsilə məlumat və təcrübə mübadiləsi sayəsində yaradılır.

## Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022, 748 s.
2. Бакуцкая, Ю. В. Применение цифровых технологий в туризме / Ю. В. Бакуцкая, С. А. Казак // Наука и инновации в XXI веке: Актуальные вопросы, открытия и достижения: сборник статей IX Международной научно-практической конференции, Пенза, 17 июня 20182018. – С. 104-106
3. Вишневская Е. В. Влияние цифровых технологий на развитие туристского рынка / Е. В. Вишневская // Научный результат. Технологии бизнеса и сервиса. – 2019. – Т5. – №4. – С. 12-24
4. Кириллова, С. А. Цифровая трансформация туризма: тренды, задачи, способы решения / С. А. Кириллова // Известия Уфимского научного центра РАН. – 2020. – № 3. – С. 75-81



**РЕЗЮМЕ**

**ОСОБЕННОСТИ ПРИМЕНЕНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В ТУРИЗМЕ**

***Джамилзаде Ш.В.***

***Ключевые слова:*** *туризм, туристические предприятия, туристический продукт, информационные технологии (ИТ), цифровые технологии, Интернет*

В статье исследуется роль информационных технологий в туризме. На основе данных Госкомстата был проанализирован уровень использования интернета туристическими предприятиями в Азербайджане. Определены необходимые условия для развития информационных технологий на рынке современного туризма. Исследовано влияние процессов цифровой трансформации на туризм. Объяснены преимущества цифровых технологий в туризме.



**SUMMARY**

**FEATURES OF THE USE OF DIGITAL TECHNOLOGIES IN TOURISM**

***Jamilzade Sh.V.***

***Key words:*** *tourism, tourism enterprises, tourism product, information technologies (IT), digital technologies, internet*

The role of information technologies in tourism is studied in the article. Based on the data of the State Statistics Committee, the level of internet usage of tourism enterprises in Azerbaijan was analyzed. The necessary conditions for the development of information technologies in the modern tourism market have been determined. The impact of digital transformation processes on tourism has been studied. Advantages of digital technologies in tourism are explained.


# AZƏRBAYCANDA E-TİCARƏTİN İNKİŞAF PERSPEKTİVLƏRİ


**Dünyamalıyev İslam Elşən oğlu**

*Bakı Biznes Universiteti, Bakı, Azərbaycan*

*islam.dunyamaliyev98@gmail.com*



***Açar sözlər:*** *elektron ticarət, biznes əlaqələri, iqtisadiyyat, gəlir, onlayn*


E-ticarət və ya elektron ticarət internet vasitəsilə onlayn şəkildə malların və xidmətlərin alış və satış prosesidir. E-ticarət ənənəvi ticarətin informasiya və kommunikasiya texnologiyalarına inteqrasiyasından yaranıb təkmilləşmiş bir formasıdır. E-ticarət 1989-cu ildən yaransa da, 2000-ci illərin əvvəllərində internetin sürətli inkişafı ilə beynəxalq təcrübədə geniş istifadə olunmağa başlamışdır. Forbes-ə istinadən 2022-ci ildə dünya miqyaslı E-ticarət satışları 5,717 trilyon dollar təşkil etmişdir [1].

İnsider İntelligence saytına istinadən 2026-cı ildə proqnozlaşdırılan E-ticarət satışlarının ümumi dəyəri 8,148 trilyon dollar təşkil edəcək. 2023-cü il üçün isə bu rəqəm 6,310 trilyon dollar təşkil edir.




**Şəkil 1. Proqnozlaşdırılan E-ticarət satışlarının ümumi dəyəri (trilyon dollar ilə) [2]**

Azərbaycanda E-ticarətin yaranması 2000-ci illərin əvvəlinə təsadüf edir. E-ticarət platformalarının geniş miqyaslı inkişafı isə XX əsrin ikinci onilliyindən, xüsusilə də qeyri-neft sektorunun inkişafı ilə bağlı qanunların qəbul edilməsi ilə başlamışdır. Buna əlavə olaraq koronavirus pandemiyasının yayılması E-ticarətin inkişafına daha böyük töhfə verdi. Pandemiya səbəbilə bir çox ictimai iaşə obyektlərinin fiziki olaraq fəaliyyətini dayandırması insanları E-ticarətdən istifadə etməyə məcbur etdi və bu da öz növbəsində Azərbaycanda nağd ödənişlərin və E-ticarətin istifadəsinin inkişafına təkan verdi. Statista saytının təqdim etdiyi statistikaya uyğun olaraq Azərbaycanda E-ticarətin inkişaf tendensiyasına nəzər saldıqda koronavirus pandemiyasının 2020-2022-ci illərdə verdiyi təkanı aydın olaraq görmək olar. 2027-ci ilə qədər Azərbaycan Respublikasında E-ticarətin 3,446 milyon dollara çatacağı proqnozlaşdırılır.




**Şəkil 2. Azərbaycanda proqnozlaşdırılan E-ticarət satışlarının ümumi dəyəri (milyon dollar ilə) [3]**

Ölkəmizdə daxili və xarici bazarda E-ticarətin inkişaf tendensiyası heç də ürəkaçan deyil. Xarici bazara nəzər saldıqda E-ticarət alışlarının kifayət qədər yüksək, E-ticarət satışlarının isə inanılmaz dərəcə aşağı olduğunu görürük. Ölkəmizdə çoxlu sayda xarici bazarda satış edə biləcək şirkətlər var. Lakin onları E-ticarətdən çəkindirən bəzi problemlər var ki, bu problemlərin həll edilməsi vacibdir. Aşağıdakı problemlər sahibkarları və müştəriləri E-ticarətdən çəkindirir:

**1. Sahibkarların üzləşdiyi problemlər.** Sahibkarlar E-ticarətdən istifadə zamanı bir sıra problemlərlə üzləşirlər. Bu problemlərdən bəziləri aşağıdakılardır:

- Vergi problemi. Bildiyimiz kimi, E-ticarət ilə məşğul olanlar müəyyən miqdarda vergi ödəməlidirlər. Buna aksiz vergisi, ƏDV və s. kimi vergilər daxildir. E-ticarət ilə məşğul olanları təşviq etmək məqsədilə vergi güzəştləri edilə bilər.
- E-ticarət haqqında qanun. Azərbaycan Respublikasında E-ticarət haqqında qanun 2005-ci il may ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmuşdur. 2005-ci ildə nəinki Azərbaycanda, habelə digər ölkələrdə E-ticarət bir o qədər də inkişaf etməmişdi. Son illərdə E-ticarətin inkişafı ilə bir çox ölkələr E-ticarət ilə bağlı qəbul etdikləri qanunları dəyişdirmiş və ya təkmilləşdirmişlər. Azərbaycanda da E-ticarət haqqında qanunun yenidən dəyərləndirilməsinə və təkmilləşdirilməsinə ehtiyac vardır [4].

**2. Müştərilərin üzləşdiyi problemlər.** Sahibkarlardan əlavə E-ticarətdən və internet mağazalarından istifadə edən müştərilər də bir sıra problemlərlə üzləşirlər.

- Logistika problemləri. Bakıdan kənarda yerləşən rayonlarda ciddi logistika problemi mövcuddur. Bir çox rayonlarımızda E-ticarətlə alınan malları yalnız poçtdan götürmək mümkündür. Buna misal olaraq Çindən (Alibaba.com) alınan malları misal göstərmək olar. Bəzi mallar isə yalnız Bakıya çatdırılır. Bu malları əldə etmək üçün mütləq Bakıya gəlmək lazımdır. Buna misal olaraq Türkiyədən (Trendyol, HepsiBurada və s.) alınan malları misal göstərmək olar. Bu problemin həll edilməsi üçün ya mərkəzləşmiş logistika şirkətləri yaradılmalı, ya da çatdırılma şirkətlərinin regionlardakı fəaliyyətləri genişləndirilməlidir.
- E-ticarət zamanı aldadılma. Bəzi müştərilər E-ticarət zamanı aldadılma halları ilə üzləşirlər. Ən geniş yayılmış aldadılma halları kredit kart məlumatlarının oğurlanması, kartın leqallıq yoxlanışı, maksimum məxaric yoxlanışı və s. hallarda baş verir. Bir çox müştərilər E-ticarət zamanı əməl etməli olduqları təhlükəsizlik tədbirlərindən xəbərsizdirlər [5].

Azərbaycanda E-ticarət 2000-ci illərin əvvəllərindən istifadə edilməyə başlasa da, bu sahədə inkişaf son illərdə nəzərə çarpmağa başlamışdır. Buna baxmayaraq ənənəvi ticarət hələ də E-ticarəti üstələyir. Bunun əsas səbəbi yuxarıda qeyd olunan problemlərdən qaynaqlanır. Bu problemlərin həlli üçün dövlətin bəzi islahatlar aparması çox vacibdir. Xüsusilə E-ticarət haqqında 2005-ci ildə qəbul olunmuş qanunun yenidən gözdən keçirilməsi, müştərilərin və sahibkarların E-ticarət haqqında məlumatlandırılması, vergi güzəştləri və

islahatları, aldadılma hallarının qarşısının alınması üçün maarifləndirilmənin aparılması kimi tədbirlərin həyata keçirilməsi bu problemlərin həlli üçün ən önəmli çıxış yolları hesab oluna bilər.


### Ədəbiyyat

1. Dave Chaffey, David Edmundson-Bird, Tanya Hemphill. Digital Business and E-commerce Management, Pearson nəşriyyatı, 2019, səh. 27-35
2. https://www.forbes.com/advisor/business/ecommerce-statistics/
3. https://www.statista.com/outlook/dmo/ecommerce/azerbaijan#revenue
4. https://e-qanun.az/framework/10406
5. https://datadome.co/learning-center/7-types-of-ecommerce-fraud-how-to-prevent-them/



**ÖZET**
**AZERBAYCAN'DA E-TİCARETİN GELİŞİM PERSPEKTİFLERİ**
***Dünyamaliyev İ.E.***

***Anahtar kelimeler:*** *e-ticaret, iş ilişkileri, ekonomi, gelir, online*

Bilgi ve iletişim teknolojilerinin sürekli gelişimi, geleneksel ticaretin teknoloji ile bütünleşmesine E-ticaretin ortaya çıkmasına ve hızla gelişmesine yol açmıştır. Teknolojinin hızlı gelişimi ve koronavirüs pandemisinin E-ticaretin gelişmesinde büyük etkisi oldu. Dünyanın birçok ülkesinde hızlı bir gelişme trendine sahip olan E-ticaret, Azerbaycanda çok zayıf bir gelişme trendine sahiptir. Bu çalışmanın amacı Azerbaycanda E-ticaretin sorunlarını ortaya koymaktır. Bu araştırma çalışmasının sonuç bölümünde, E-ticaret sorunlarına yönelik çözümler önerilmiştir.



**SUMMARY**
**DEVELOPMENT PERSPECTIVES OF E-COMMERCE IN AZERBAIJAN**
***Dunyamaliyev I.E.***

***Key words:*** *e-commerce, business relations, economy, income, online*

The continuous development of information and communication technologies has led to the integration of traditional trade with technology - the emergence and rapid development of E-commerce. The rapid development of technology and the coronavirus pandemic have had a great impact on the development of E-commerce. E-commerce, which has a fast development trend in many countries of the world, has a very weak development trend in Azerbaijan. The purpose of this study is to reveal the problems of E-commerce in Azerbaijan. In the concluding part of this research work, solutions to E-commerce problems are recommended.


## MİLLİ İQTİSADİYYATDA DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ XARİCİ İQTİSADİ FƏALİYYƏTİN ROLU


**Əhmədov Məhəmməd Ələddin oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*mehemmed.ehmedov.57@mail.ru*



***Açar sözlər:*** *milli iqtisadiyyat, dayanıqlı inkişaf, xarici iqtisadi fəaliyyət, xarici ticarət, iqtisadi səmərəlilik.*


Müasir dövrümüzün əsas fərqli xüsusiyyətlərindən biri dünya ölkələri arasında qarşılıqlı asılılığın gündən-günə artması və dərinləşməsidir. Bu qarşılıqlı asılılıq həyatımızın bütün sahələrinə sirayət edən qloballaşma prosesləri ilə daha da güclənmişdir. Qloballaşma prosesləri başqa sahələrə nisbətən iqtisadi münasibətlərə getdikcə daha çox təsir edir. Belə ki, müasir xarici iqtisadi fəaliyyət və onun ayrı-ayrı sahələri dünya təsərrüfat əlaqələrinin qloballaşması nöqteyi-nəzərdən təhlil edilməli və öyrənilməlidir.

Hal – hazırda milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsinin əsas vasitələrindən biri xarici iqtisadi fəaliyyətin üstünlüklərindən istifadə etməklə iqtisadiyyatda ümumi səmərəliliyin yüksəldilməsinə nail olmaqdır.

Xarici iqtisadi fəaliyyət milli iqtisadiyyatların əsas fəaliyyət sahələrindən biridir. Müasir bazar iqtisadiyyatlı milli iqtisadiyyatları xarici iqtisadi fəaliyyətsiz təsəvvür etmək qeyri mümkündür. Xarici iqtisadi fəaliyyət milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinin əsas amillərindən birinə çevrilmişdir. Xarici iqtisadi fəaliyyət, xüsusi ilə, xarici ticarət əlaqələri hesabına dünya ölkələri bir tərəfdən ölkə istehlakçılarının xarici məhsullara olan tələbatlarını ödəmiş olur, digər tərəfdən isə milli istehsal sahələrinin daxili tələbatlardan çox istehsal etmiş olduğu məhsulları xarici bazarlarda reallaşdırmaqla öz valyuta ehtiyatlarını zənginləşdirmiş olurlar[1,s.116].

Xarici iqtisadi fəaliyyət dörd əsas növə ayrılır: xarici ticarət fəaliyyəti; istehsalat kooperasiyası; beynəlxalq investisiya əməkdaşlığı və valyuta və maliyyə kredit əməliyyatları. Xarici ticarət fəaliyyəti xarici iqtisadi fəaliyyətin əsas növüdür. Xarici ticarət fəaliyyəti-əmtəələrin, işlərin, xidmətlərin, informasiya və intellektual fəaliyyətin nəticələrinin mübadiləsi ilə əlaqədar sahibkarlıq fəaliyyəti və ya beynəlxalq biznes fəaliyyətinin bir növüdür.

İstehsalat kooperasiyası müəssisələrin və ya firmaların xarici partnyorlarla əməkdaşlıq formasıdır. İstehsalat kooperasiyası vahid məhsul üzrə texnologiyanın əmək bölgüsü proseslərində müxtəlif ölkə müəssisələrinin bir-biri ilə bağlılığıdır. Texnoloji proseslər üzrə əmək bölgüsü, hər şeydən əvvəl, bu proseslərin iştirakçılarının məhsul istehsalı ilə əlaqədar daxili və xarici bazarlarda tələbatların öyrənilməsindən başlayaraq onun istehlakçılara çatdırılmasına qədər olan mərhələlərin iştirakçı firmalar arasında bölüşdürülməsidir. İstehsalat kooperasiyası eyni cinsli istehsal və satış sahələri, elmi-texniki, investisiya və servis sahələri üçün xarakterikdir.

Beynəlxalq investisiya əməkdaşlığı maliyyə və maddi-texniki əməliyyatlar sahəsində ölkə müəssisələrinin xarici partnyorlarla birgə qarşılıqlı fəaliyyət formasıdır. Belə əməkdaşlığın məqsədi yerli maddi və əmək resurslarının yaratdığı imkanlardan səmərəli istifadə etməklə rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi və onların xarici bazarlarda satışının asanlaşdırılmasıdır. Bu isə əsasən birgə istehsal sahələrinin, müştərək müəssisələrin yaradılması yolu ilə həll edilir.

Valyuta və maliyyə kredit əməliyyatları. Bu əməliyyatlar, hər hansı xarici ticarət sövdələşmələrinin həyata keçirilməsini təmin edə bilən beynəlxalq maliyyə öhdəliklərinin yerinə yetirilməsi ilə əlaqədar maliyyə ödənişi formalarından və digər valyuta əməliyyatlarından ibarətdir [2,s.123].

Xarici iqtisadi fəaliyyət, onun formaları və problemləri haqqında iqtisad elmi tarixində çox müxtəlif nəzəriyyələr mövcud olmuşdur. Xarici iqtisadi fəaliyyət və onun tənzimlənməsi haqqında bəzi əsas iqtisadi baxışlara nəzər yetirək. Xronoloji baxımdan xarici iqtisadi fəaliyyətin birinci və əsas forması xarici ticarət olmuşdur. Xarici iqtisadi fəaliyyət barədə ilk nəzəriyyələr də beynəlxalq ticarət haqqında olmuşdur. Tarixən ilk belə iqtisadi təlim merkantilizm nəzəriyyəsi olmuşdur. Bu nəzəriyyə iqtisadiyyat elmində uzun müddət təxminən 300 ilə yaxın aparıcı mövqeyə malik idi. Merkantilizm nəzəriyyəsi bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Merkantilizm nəzəriyyəsi orta əsrlərdə kapitalist istehsal münasibətlərinin meydana gəldiyi dövr (XIV-XVII əsrlər), kapitalın ilkin yığımı dövründə yaranmış və geniş yayılmışdır. Merkantilist iqtisadçılara görə cəmiyyətin iqtisadi inkişafının əsasını xarici ticarət təşkil edir. “Merkantilizm” sözü XVIII əsrdə meydana gəlmiş və lüğəti mənası italyan dilində “merkantye” sözündən olub tacir deməkdir. Qeyd etmək lazımdır ki, sözün kökü ingilis dilində də eyni məna kəsb edir.

Merkantilistlər belə hesab edirlər ki, ölkənin qızıl və gümüş ehtiyatlarının artırılması ölkədaxili iqtisadi fəallığı stimullaşdırır, əhalinin məşğulluq səviyyəsinin və onun rifah halının yaxşılaşdırılmasına səbəb olur. Odur ki, dövlətin əsas vəzifəsi ixracın hər vasitə ilə inkişaf etdirilməsi, idxalın xüsusi ilə qiymətli metalların idxalının isə məhdudlaşdırmasıdır. Merkantilist iqtisadçılar xarici ticarəti daxili iqtisadi inkişafla qarşılıqlı əlaqədə nəzərdən keçirmişlər. Bununla da onlar tədiyyə balansı nəzəriyyəsini yaratmağa səy göstərməklə yanaşı xarici ticarətin inkişaf etdirilməsində proteksionist yanaşmanın əsasını qoymuşlar.

İqtisadiyyat elminin banisi hesab edilən ingilis iqtisadçısı Adam Smit özünün “Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqatlar” (1776) əsərində mütləq üstünlüklər nəzəriyyəsini formalaşdırmışdır. A.Smit mütləq üstünlüklər dedikdə mütləq xərclərin səviyyəsində olan fərqləri nəzərdə tutur. O, belə hesab edir ki, xarici ticarətin inkişaf etdirilməsinin əsasını istehsal xərclərində olan fərq təşkil edir. Bu o deməkdir ki, elə məhsullar idxal edilməlidir ki, onların istehsal xərcləri istehsalçı ölkədə aşağı olsun, eyni ilə elə məhsullar ixrac olunmalıdır ki, onların istehsal xərcləri istehsalçı ölkədə aşağı olsun.

D.Rikardo A.Smitin mütləq üstünlüklər nəzəriyyəsini inkişaf etdirməklə nisbi üstünlüklər nəzəriyyəsini yaratmışdır. O, bu nəzəriyyəni özünün “Siyasi iqtisadın və vergiqoymanın əsasları” (1817) adlı əsərində formalaşdırmışdır. Nisbi üstünlüklər nəzəriyyəsini yaratmaqda əsas məqsəd dünyanın istənilən hər hansı bir ölkəsinin xarici ticarətdən faydalanmaq imkanının olduğunu sübut etmək idi. D.Rikardonun nisbi üstünlüklər nəzəriyyəsinə görə dünya ölkələri iqtisadi resurslarla çox müxtəlif səviyyədə təmin olunduğundan ölkələr istehsalı yerli resurslara əsaslanan və istehsalının artırılması imkanı olan məhsulları ixrac etməli, istehsalı əksinə nadir və nisbətən bahalı istehsal resurslarına əsaslanan əmtəələri isə idxal etməlidirlər.

Müstəqillik illərində xarici iqtisadi fəaliyyətin əsas növü olan xarici ticarət fəaliyyəti üzrə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin xarici ticarət fəaliyyətinin bazar tələblərinə uyğun qurulması və idxal-ixrac əməliyyatlarının dövlət strukturları tərəfindən səmərəli tənzimlənməsi nəticəsində Azərbaycan Respublikası ilə ticarət əməliyyatları aparan ölkələrin sayı və ticarət dövriyyəsinin həcmi ilbəil artmışdır. 1992-ci illə müqayisədə 2021-cu ildə Azərbaycan

Respublikası ilə ticarət əlaqələrində olan ölkələrin sayi təxminən 3 dəfədən də çox, xarici ticarət dövriyyəsinin həcmi 14,7 dəfə, o cümlədən ixracın həcmi 16,1, idxalın həcmi isə 12,5 dəfə artmışdir.

2021-ci il üzrə Azərbaycan Respublikasının xarici ticarətinin əsas iqtisadi göstəricilərini nəzərdən keçirək. 2021-cu ildə Azərbaycan Respublikası dünyanın 147 ölkəsi ilə ticarət əlaqəsində olmuş, xarici ticarət dövriyyəsinin ümumi həcmi 35556,4 mln ABŞ dolları, o cümlədən idxal 11705,8 mln., ixrac isə 23850,6 mln.ABŞ dolları həcmində olmuşdur. Bu zaman xarici ticarətin müsbət saldosu 12144,8 mln. ABŞ dolları təşkil etmişdir.

Azərbaycan Respublikasında son illər əldə edilmiş yüksək iqtisadi göstəricilərin bünövrəsi əvvəlki dövrlərdə formalaşmışdır. Müstəqillik illərində ölkənin xarici ticarət dövriyyəsinin artması müxtəlif amillərlə bağlıdır. Birinci belə əsas amil ümümmilli lider Heydər Əliyev tərəfindən neft strategiyasının həyata keçirilməsi oldu. Bu məqsədlə 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" hesab olunan ilk neft kontraktı imzalandı. Bu kontrakt hesabına qısa müddətdə, təxminən altı il ərzində ölkənin neft sənayesinə ümumilikdə 60 milyard ABŞ dolları həcmində investisiyanın yönəldilməsi planlaşdırılırdı[3,249].

Neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın ixrac potensialı kəskin surətdə artdı. Əgər neft hasilatı 1997-ci ildə 9 mln.ton təşkil edirdisə, 2000-ci ildə bu göstərici 14,5 mln.tona çatdırılmışdı.

Sonrakı illərdə Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin digər əsas növləri olan birgə istehsalat kooperasiyalarının yaradılması, xarici investisiya axınının və beynəlxalq valyuta kredit əməliyyatlarının sürətlənməsi baş verdi. Son dövrlərdə isə əsas diqqət qeyri – neft istehsal sahələrinin və xidmət sahələrinin inkişafına, bu sahələrin ixrac potensialının artırılmasına yönəldilmişdir.

### Ədəbiyyat


1. Məhərrəmov A.M., Aslanov H.H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Dərslik. Bakı 2008, 400 s.
2. Mirzəyev X.Ə., Mirzəyev S.Q. "Tətbiqi xarici ticarət əməliyyatları" «QAPP-Poliqraf» Bakı, 2001s.
3. Mikayilova S.M. İqtisadi təhlükəsizliyin təmin olunmasının makroiqtisadi problemləri. Monoqrafiya. Bakı. Gənclik 2009, 400 s.



**РЕЗЮМЕ**

**РОЛЬ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ**

***Ахмедов М.А.***

***Ключевые слова***: *национальная экономика, устойчивое развитие, внешнеэкономическая деятельность, внешняя торговля, экономическая эффективность*

В статье рассматривается роль внешнеэкономической деятельности в обеспечении устойчивого развития национальной экономики. В связи с этим были разъяснены теоретические основы внешнеэкономической деятельности, в том числе взгляды теоретиков-классиков на внешнеэкономическую деятельность и внешнюю торговлю, являющуюся ее основным направлением. Здесь анализируется роль внешнеэкономической деятельности на основе экономических показателей Азербайджанской Республики и показывается ее значение.

**SUMMARY**

**THE ROLE OF FOREIGN ECONOMIC ACTIVITIES IN ENSURING THE SUSTAINABLE DEVELOPMENT OF THE NATIONAL ECONOMY**

***Akhmadov M.A.***

***Key words:*** *national economy, sustainable development, foreign economic activity, foreign trade, economic efficiency*

The article deals with the role of foreign economic activity in ensuring the sustainable development of the national economy. In this regard, the theoretical foundations of foreign economic activity were explained, including the views of classical theorists on foreign economic activity and foreign trade, which is its main direction. Here, the role of foreign economic activity is analyzed on the basis of the economic indicators of the Republic of Azerbaijan and its significance is sh*own.*


## SAHİBKARLIQDA RƏQƏMSAL İNNOVASİYALAR


**Əhmədova Əkimə Əmir qızı**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan*

*akimaahmedova@gmail.com*



***Açar sözlər***: *innovasiyalar, sahibkarlıq, rəqəmsal iqtisadiyyat, istehsal amilləri, informasiya texnologiyaları*

Məlumdur ki, sahibkarlığın iki əsas forması mövcuddur: bazar sahibkarlığı (geniş mənada marketinq) və innovativ sahibkarlıq (innovasiyaların yaradılması və həyata keçirilməsi). Sahibkarlığın mahiyyəti daha çox innovasiyalarda özünü göstərir. Burada istehsal amillərinin yeni, əvvəllər mövcud olmayan kombinasiyası yaranır [1].

İnnovativ sahibkarlıq kommersiya fəaliyyətinin bir növüdür, məqsədi iqtisadiyyatın bütün sahələrində texniki və texnoloji yeniliklər yaratmaq və innovasiyaları yaymaqla gəlir əldə etməkdir. Onun sadə sahibkarlıqdan fərqi odur ki, o, yeni texnologiyaların yaradılması, yeni idarəetmə formalarından istifadə və yeni məhsulların yaradılması və s. kimi müəssisənin inkişafının müasir yollarından istifadə edir.

Hal-hazırda bazarda güclü müəssisələr arasında böyük rəqabət var. Məhz innovasiya yönümlü müəssisə bu mübarizədə sağ qala biləcək. İnnovasiyalar yeni bazarlara çıxmağa, alıcıların yeni tələbinə cavab verməyə və s. kömək edir.

İnnovativ sahibkar-novatorlar (yeni elmi-tətbiqi məhsulun müəllifləri) və cəmiyyət, xüsusən də istehsal və istehlak sferaları arasında əlaqə rolunu oynayan xüsusi iş adamları növüdür. Belə sahibkar bir qayda olaraq təsvir, ideya və ya konseptual model şəklində inkişaf üçün təqdim olunan konkret məhsulun həyat qabiliyyətini qabaqcadan görməyi bacarmalıdır. Düzgün qurulduqda innovativ məhsullara və ideyalara əsaslanan biznes böyük gəlir əldə etmək potensialına malikdir. Onun əsas üstünlükləri rəqabətin aşağı səviyyəsi və yüksək istehlak tələbidir. Eyni zamanda müasir texnologiyaların tətbiqi sayəsində tez bir zamanda yüksək nəticələr əldə edilə bilər.

Rəqəmsal iqtisadiyyat şəraitində innovativ problemlərin həllinə yönəlmiş innovativ sahibkarlıq fəaliyyəti üçün xüsusi imkanlar yaranır. Rəqəmsal iqtisadiyyat istehsal və istehlak sferasında, iqtisadiyyat və cəmiyyətdə fiziki və rəqəmsal (virtual) obyektlərin inteqrasiyasına əsaslanan iqtisadiyyatın inkişafının yeni mərhələsidir. Belə inteqrasiya şəbəkə kommunikasiyalarının genişlənməsinə, insanların, proseslərin, verilənlərin və obyektlərin yüksək sürətli əlaqəsinə gətirib çıxarır, yeni dəyərlər yaratmağa, insan təfəkkürünün üfüqlərini genişləndirməyə imkan verir. Veb sayta sahib olmaq və onlayn alış-veriş etmək imkanı rəqəmsal iqtisadiyyatın kiçik bir hissəsidir. Təkcə internet əməliyyatları deyil, istehsalla bağlı bütün proseslər rəqəmsal məkana köçürülür. Artıq indi çoxmilyonluq dövriyyəyə malik olan və öz biznesini internet üzərindən aparan və real dünyada fiziki təmsilçiliyi olmayan şirkətlərin nümunələri çoxdur [2].

Müasir dövrdə biznes sahibkarlarının innovasiyalara münasibətini dəyişdi. Biznes sahibkarları başa düşdü ki, rəqəmsal həllər aşağı kapital xərcləri ilə istehsal proseslərinin optimallaşdırılması sayəsində tam modernləşdirmədən fərqli olaraq daha böyük effekt əldə etməyə imkan verir.

Bazar yenidən formalaşır, müəssisələr müxtəlif texnologiyalarla iş formatlarını axtarır. Burada resurs hasilatı və emal sahəsi, xüsusən metallurgiya, kimya və neft emalı sahələrində texnoloji proseslərin optimallaşdırılması ilə bağlı süni intellekt sahəsində həllər maraq doğurur.

İnnovasiyanın ən vacib amili innovativ maliyyə resurslarıdır ki, bu da gələcək yüksək gəlirlər naminə bu gün qoyulmuş kapitalın mövcudluğu və əlçatanlığı ilə müəyyən edilir. Müasir bazarda istehsal sahəsində daha perspektivli ideyalar qadcetlərin, layfxakların, təbii və sağlam qida məhsullarının istehsalı, həmçinin tullantıların utilizasiyası və onların xammal kimi istifadəsi ilə bağlıdır.

Bu gün innovativ rəqəmsal texnologiyalar əsasən malların satışının və təqdim edilməsinin müasir və rentabelli üsulları (“ağıllı rəflər” texnologiyası, mağazalarda tam özünəxidmət, təmassız ödəniş sisteminin tətbiqi) ilə təmsil olunur. İlk növbədə bu reklam sahəsini (internet-mağazada məhsulların yeni təqdim formatı, "ağıllı" bannerlər və lövhələr, nativ reklam) və istirahət fəaliyyətini (virtual reallıq sistemləri, kiber idman, yeni nəsil onlayn kinoteatrlar) əhatə edir.

Kənd təsərrüfatında innovasiyalar iqlim şəraitindən və regiondan asılı olmayan yeni tipli fermaların yaradılmasına yönəlib. Robot idarəetmə və monitorinq sistemlərinin, kənd təsərrüfatı texnologiyasının və heyvandarlığın qeyri-standart metodikalarının tətbiqi, o cümlədən müasir texnologiyalar sayəsində yeni məhsul növlərinin (torpaqdan istifadə etmədən bütün il boyu bitki yetişdirməyə imkan verən aeroponik fermalar, ferma-mağazalar və s.) yaradılması böyük potensiala malikdir.

Bu gün kiçik biznes üçün innovativ ideyalar tapmaq çətin deyil, bunun üçün potensial müştərilərin tələbi öyrənilməli və artıq bazarda mövcud olan ən perspektivli istiqamətlər təhlil edilməlidir. Yeni məhsulun təqdimi həmişə yüksək risk ilə əlaqələndirilir, çünki istehsal prosesi böyük maliyyə qoyuluşları tələb edir. Eyni zamanda, ideyanın özü istehlakçı üçün maraqsız ola bilər və ya qısamüddətli populyarlıq effekti verə bilər. Buna görə də məhsulun inkişaf potensialına malik olması, istehsal gücünün asanlıqla başqa məqsədlərə uyğunlaşdırılması vacibdir.

İnnovasiyaların tətbiqi məqsədləri kimi aşağıdakıları qeyd etmək olar:

1) Prinsipial olaraq innovativ inkişafa əsaslanan yeni biznes fəaliyyətlərinin və xidmətlərin formalaşdırılması;

2) Xarici müştərilər üçün biznesdə artıq mövcud olan xidmətlərin təkmilləşdirilməsi, onların mövcud

işləmələrə inteqrasiyası;

3) İstənilən biznes üçün universal olan daxili proseslərə yönəlmiş innovasiyalar (çağrı mərkəzinin işi, logistika, satınalma və s.).

Hər bir halda innovasiyalar şirkətin fəaliyyət istiqamətlərini optimallaşdırmağa və onun təhlükəsizliyini təmin etməyə imkan verir. Ənənəvi avtomatlaşdırma ilə müqayisədə rəqəmsal innovasiyanın məqsədlərinin fundamental yeniliyi biznesin prinsipial olaraq yeni sahələrinin açılmasıdır. Ənənəvi informasiya texnologiyalarının inkişafı zamanı yeni biznes sahələri tematik olaraq əsas fəaliyyətdən kənara çıxmırdısa (məsələn, klassik ticarətin alternativi kimi elektron ticarət), innovasiyaların tətbiqi zamanı yeni istiqamətlərin mahiyyəti çox vaxt əsas biznesdən prinsipial şəkildə fərqlənir.

Beləliklə, innovativ sahibkarlığın bütün növlərinin əsasını alıcılar və istehlakçılara yönəlmiş innovasiyaların tətbiqi və praktiki istifadəsi yolu ilə yeni növ məhsullar (mallar, xidmətlər) və texnologiyaların yaradılması və inkişafı ilə xarakterizə olunan iqtisadi fəaliyyət təşkil edir. İnnovativ işləmələrin biznesdə tədbiqinin yeganə metodu sınaq və səhv metodudur. Eyni zamanda müxtəlif növlər üçün ilkin məhdudiyyətləri müəyyən etmək lazımdır. Müəssisə innovasiyalar üçün biznes istiqamətlərinin toplusunun məhdudlaşdırılması və ya təklif olunan həllərin hansı texnoloji yanaşmalar əsasında qurulmasının müəyyən edilməsi kimi digər meyarları nəzərdən keçirə bilər. Yeni təkliflərin riyazi və ya elmi faktlara əsaslanması vacibdir.

Təəssüf ki, elmi və intellektual məhsullardan yerli biznesin praktikasında kifayət qədər istifadə olunmur. Ölkə iqtisadiyyatında innovativ sahibkarlıq fəaliyyəti ilə tam məşğul olan təsərrüfat subyektləri hələ də azdır. İnnovativ sahibkarlığın inkişafına iqtisadiyyatın, maddi istehsalın ümumi vəziyyəti təsir edir. İqtisadi böhranlar və inkişafın qeyri-müəyyənliyi zamanı sərmayə gəlirinin azalması ilə stimullar praktiki olaraq azala bilər.

Sənayedə yüksək texnologiyaların mənimsənilməsi və yeni elm tutumlu məhsulların buraxılması kommersiya təşviqi tədbirlərinin həyata keçirilməsi ilə birlikdə dünyanın əksər sənayeləşmiş ölkələri üçün davamlı iqtisadi artım üçün əsas amillərdir. Buna görə də innovativ sahibkarlığın problemi bu gün kifayət qədər aktualdır, çünki bu fəaliyyət növü həm milli, həm də dünya iqtisadiyyatı üçün irəliyə doğru bir addımdır.

## Ədəbiyyat

1.Abdurazzakov O. S. Texnoloji transferlər yolu ilə innovativ fəaliyyətin genişləndirilməsi istiqamətləri. İ.e.ü.f.d... diss. 5311.01. 2017, 154 s., s.141

2. Abbasov V. H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı, BDU, 2012, 424 s.

3. Aslanzadə İ.A., Tağıyev A.H., İnnovasiya menecmenti, Bakı, AzTU, 2018, 367 s.

4. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, Kooperasiya nəşriyyatı, 2017, 536 s.

**РЕЗЮМЕ**

**ЦИФРОВЫЕ ИННОВАЦИИ В ПРЕДПРИНИМАТЕЛЬСТВЕ**

***Ахмедова А.А.***

***Ключевые слова:*** *инновации, предпринимательство, цифровая экономика, факторы производства, информационные технологии.*

В статье рассматриваются виды и формы предпринимательской деятельности и особенности цифровых инноваций в предпринимательстве. Анализируется роль и значение цифровых инноваций в предпринимательской деятельности в современных условиях. Отмечено, что научные и интеллектуальные продукты недостаточно используются в трудовой деятельности.

**SUMMARY**

**DIGITAL INNOVATIONS IN ENTREPRENEURSHIP**

***Akhmedova A. A.***

***Key words:*** *innovations, entrepreneurship, digital economy, factors of production, information technologies.*

The article deals with the types and forms of entrepreneurial activity and the features of digital innovation in entrepreneurship. The role and importance of digital innovations in entrepreneurial activity in modern conditions is analyzed. It is noted that scientific and intellectual products are not used enough in labor activity.

## REGİONAL İNTEQRASİYA FORMALARI VƏ ONLARIN TƏŞKİLİNİN ZƏRURİLİYİ

**Əliyeva Sədaqət Yusub qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
ilqarosmanov1975@mail.ru

***Açar sözlər:*** *regional iqtisadi inteqrasiya, inteqrasiya, vahid bazar, azad ticarət zonası, Gömrük İttifaqı*

Məlumdur ki, inteqrasiya ərazilərin birləşən iqtisadiyyatlarının vəziyyəti kimi başa düşülür. İnteqrasiyanın ənənəvi mahiyyəti hissələrin bütövlükdə birləşməsi ilə bağlıdır.

İqtisadiyyatda inteqrasiya qarşılıqlı uyğunlaşma prosesi, iqtisadi və sənaye əməkdaşlığının genişləndirilməsi, iki və ya daha çox dövlətin milli iqtisadiyyatlarının birləşməsi, iqtisadi həyatın beynəlmiləlləşməsi forması kimi başa düşülür.

Regional iqtisadi inteqrasiyanın (RİI) mahiyyəti daha ümumi şəkildə aşağıdakı tərifdə açıqlanır: "RİI - dövlətlər arasında iqtisadi maneələrin aradan qaldırılmasına aparan uzun prosesdir. Eyni zamanda, bu prosesi koordinasiya etmək məqsədilə müvafiq alətlərdən istifadə edilməlidir. Deməli bu proses beynəlxalq iqtisadiyyatda baş verən proses olmaqla bərabər, ölkələr və dövlətlər arasında heç bir iqtisadi maneənin olmaması lazım olan bir dövlətdir ki, vahid mexanizm kimi fəaliyyət göstərə bilər".

Çox vaxt RİI-nin mahiyyətinin nəzərdən keçirilməsinə ümumiləşdirici yanaşma tendensiyası müşahidə olunur, bu prosesi dünya iqtisadiyyatının qloballaşması ilə eyniləşdirərək iki anlayış arasında heç bir fərqli yanaşma yoxdur. Xüsusilə, dünya iqtisadiyyatının qloballaşması nəzəriyyəsinin nümayəndələri sənaye-iqtisadi inteqrasiya proseslərini qloballaşma proseslərinin inkişafının və dünyanın müxtəlif regionlarında milli iqtisadiyyatların birləşməsinin nəticəsi hesab edirlər [3, s.38].

RİI - milli iqtisadiyyatlar arasında dərin sabit münasibətlərin və beynəlxalq əmək bölgüsünün (BƏB) inkişafına, onların iqtisadiyyatlarının müxtəlif forma və səviyyələrində qarşılıqlı əlaqəsinə əsaslanan ölkələrin birləşməsi prosesidir.

İnteqrasiya prosesinin əsasında aşağıdakı amillər (səbəblər) dayanır:
- BƏB-in dərinləşməsi;
- beynəlxalq iqtisadi əlaqələrin sürətli inkişafı;
- dünya iqtisadiyyatlarının artan beynəlmiləlləşməsi;
- ETT-nin sürətləndirilməsi;
- milli iqtisadiyyatların açıqlıq dərəcəsinin artırılması.

İnteqrasiya qlobal və regionlar səviyyəsində baş verir. Bu obyektiv prosesi stimullaşdırmaq məqsədilə dünya iqtisadiyyatını tənzimləyən və iqtisadi suverenliyin bir hissəsini milli dövlətlərin əlindən alan xüsusi regional iqtisadi təşkilatlar yaradılır.

RİI öz inkişafında bir sıra mərhələlərdən keçir:
1. Azad ticarət zonası (ATZ).
2. Gömrük ittifaqı.
3. Vahid bazar.
4. İqtisadi birlik.
5. Tam iqtisadi inteqrasiya.

Tipologiya müxtəlif millətlərə mənsub şirkətlərin ayrı-seçkiliyinin ləğvi və istehsal amillərinin hərəkətinin liberallaşma dərəcəsi meyarları əsasında hazırlanmışdır. Hər bir sonrakı mərhələ əvvəlkindən istehsal amillərinin hərəkətinin daha yüksək liberallaşması ilə fərqlənir.

Bütün bu addımlar və ya inteqrasiya növləri ümumi xüsusiyyətə malikdir. Bu, bu və ya digər inteqrasiya növünə daxil olmuş ölkələr arasında müəyyən iqtisadi maneələrin aradan qaldırılmasından ibarətdir. Nəticədə birlik daxilində azad rəqabətin cərəyan etdiyi vahid bazar məkanı formalaşır. Bunun sayəsində bütün ölkələr əmək məhsuldarlığının yüksəlməsindən, eləcə də xarici iqtisadi əlaqələrə gömrük nəzarəti xərclərinə qənaətdən faydalanır.

ATZ iqtisadi inteqrasiyanın ən sadə və geniş yayılan formalarından hesab olunur ki, onun daxilində iştirakçı ölkələr arasında ticarət məhdudiyyətləri və hər şeydən əvvəl gömrük tarifləri və kvotalar ləğv edilir. Burada üçüncü ölkələrlə münasibətlərdə hər birinin öz siyasəti var. ATZ-lərin yaradılması daxili bazarda yerli və xarici əmtəə istehsalçıları arasında rəqabəti gücləndirir ki, bu da bir tərəfdən iflas riskini artırır, digər tərəfdən istehsalın təkmilləşdirilməsi və innovasiyaların tətbiqi üçün stimuldur. Gömrük rüsumlarının və qeyri-tarif məhdudiyyətlərinin ləğvi, bir qayda olaraq, sənaye mallarına şamil edilir, kənd təsərrüfatı məhsulları üçün idxalın liberallaşdırılması məhduddur. Bu, Avropa Birliyi (AB) üçün xarakterik idi və indi

Şimali Amerika regionunda və Latın Amerikasında da müşahidə olunur. İqtisadi inteqrasiya birlikləri yüksək iqtisadi inkişaf mərhələsində yaranır.

RİI, inteqrasiyanın hansı formada baş verməsindən asılıdır. ATZ və gömrük ittifaqı formalaşdırarkən iştirakçı ölkələr bazarı genişləndirməyə və öz aralarında ticarət üçün əlverişli mühit yaratmağa çalışır, eyni zamanda üçüncü ölkələrdən olan rəqiblərin bazara daxil olmasının qarşısını alır. İqtisadi inteqrasiyanın inkişafı, şübhəsiz ki, tərəflər üçün müsbət təsirlər və müəyyən mənfi nəticələrə malikdir [1, s.73].

ATZ şəraitində ölkələr yalnız bu birlikdəki tərəfdaşları ilə münasibətlərdə öz milli bazarlarının qorunmasından könüllü şəkildə imtina edirlər, üçüncü ölkələrə münasibətdə isə kollektiv deyil, fərdi şəkildə hərəkət edirlər, yəni iqtisadi suverenliklərini qoruyub saxlayırlar.

Gömrük İttifaqı RİI-nin spesifik növü kimi çıxış edir. Həmin ittifaq çərçivəsində onun üzvlərinin üçüncü ölkələrlə olan əlaqələri kollektiv şəkildə müəyyənləşdirilir. Hər iki halda dövlətlərarası münasibətlər yalnız mübadilə sferasına aiddir ki, burada iştirakçı ölkələrə qarşılıqlı ticarət və maliyyə hesablaşmalarının inkişafında bərabər imkanlar təmin edilir. Beləliklə, birlik üzvləri üçüncü ölkələrə qarşı birgə tarif səddi qoyurlar. Bu, formalaşmaqda olan vahid regional bazar məkanını daha etibarlı şəkildə qorumağa və beynəlxalq arenada vahid ticarət bloku kimi çıxış etməyə imkan verir. Amma, bu inteqrasiya birliyinin iştirakçıları xarici iqtisadi suverenliklərinin bir hissəsini itirirlər.

İnteqrasiya birliklərinin inkişafının üçüncü mərhələsi vahid bazardır. Daha mürəkkəb forma öz iştirakçılarına sərbəst qarşılıqlı ticarət və vahid xarici ticarət tarifi ilə yanaşı, bütün istehsal amillərinin hərəkətinə maneələrin tam aradan qaldırılmasını, habelə iqtisadi münasibətlərin uyğunlaşdırılmasını təmin etmək üçün nəzərdə tutulan məhz vahid bazardır. Vahid bazarın fəaliyyəti ilə sosial və regional inkişafı təşviq etmək baxımından ümumi fondlar formalaşdırılır, dövlətlərarası idarəetmə və nəzarət orqanları yaradılır, hüquq sistemi təkmilləşdirilir.

Burada Gömrük İttifaqının bütün xüsusiyyətləri qorunub saxlanılır. Bundan əlavə, vahid bazar çərçivəsində müxtəlif istehsal amillərinin hərəkətinə məhdudiyyətlər aradan qaldırılır ki, bu da bu tip inteqrasiya birliyinə üzv olan ölkələrin iqtisadi qarşılıqlı asılılığını artırır.

İqtisadi birliyin formalaşması Gömrük İttifaqı və ya vahid bazardan xeyli ləng gedir. Ölkələrdə iqtisadi birlik inkişaf etdikcə regional inteqrasiyanın ən yüksək mərhələsi – tam iqtisadi interasiya üçün ilkin şərtlər formalaşır. O, yuxarıda göstərilən bütün formaları ümumi iqtisadi pul-maliyyə siyasətinin reallaşdırması ilə birləşdirir. Bu inteqrasiya formasının əsas xüsusiyyəti dövlətlərarası idarəetmə strukturlarının yaradılması və vahid sosial-iqtisadi siyasətin reallaşdırılmasıdır [2, s.128].

Beləliklə, inteqrasiya bloklarının formalaşması onların iqtisadi potensialını əhəmiyyətli dərəcədə artırır, ticarət-kooperasiya və istehsal əlaqələrinin genişlənməsinə şərait yaradır. Bunu bir çox inteqrasiya qruplarının, o cümlədən Aİ, NAFTA, MERCOSUR və s.-nin inkişafı təsdiq edir. Bundan əlavə, ölkələrin regional çərçivədə iqtisadi yaxınlaşması iqtisadi inteqrasiyada iştirak edən ölkələrin firmaları üçün əlverişli şərait yaradır, onları üçüncü ölkə firmalarının rəqabətindən müəyyən dərəcədə qoruyur. Bu, həm də qabaqcıl texnologiyanın yayılmasına kömək edir. Milli iqtisadiyyatların qarşılıqlı əlaqəsi müxtəlif intensivlik dərəcələrində, müxtəlif miqyaslarda baş verir, ayrı-ayrı regionlarda özünü daha aydın şəkildə göstərir. Daha geridə qalmış ölkələr üçün bu, resursların xaricə axmasına gətirib çıxarır, daha güclü tərəfdaşların xeyrinə yenidən bölüşdürməsi baş verir. Bundan əlavə, vaxtaşırı iştirakçı ölkələrin və qruplar daxilində maraqların toqquşması yaranır.

## Ədəbiyyat


1. Коробейникова, С. Г. Международная экономическая интеграция: сущность и эволюция понятия / С. Г. Коробейникова // . – 2008. – № 1. – С. 70-74
2. Лещукова, И. В. Сущность и формы международной экономической интеграции / И. В. Лещукова // Инновационная наука. – 2017. – Т. 1, № 4. – С. 127-129
3. Сариева, Д. Ш. К вопросу о сущности международной экономической интеграции / Д. Ш. Сариева // Chronos. – 2019. – № 10(37). – С. 38-40


**РЕЗЮМЕ**

**ФОРМЫ РЕГИОНАЛЬНОЙ ИНТЕГРАЦИИ И НЕОБХОДИМОСТЬ ИХ ОРГАНИЗАЦИИ**


***Алиева С.Ю.***



***Ключевые слова:*** *региональная экономическая интеграция, интеграция, единый рынок, зона свободной торговли, таможенный союз*



Развитие любой страны во многом зависит от уровня ее участия в интеграционных объединениях. Страны вступают в различные формы интеграционных объединений и на разных основаниях. Статья посвящена основным видам форм региональной интеграции и их организационным особенностям. В статье раскрывается сущность понятия интеграции.

Рассмотрены основные формы региональной интеграции и объяснены особенности каждой из них. Объяснены преимущества региональных интеграционных форм.

**SUMMARY**
**FORMS OF REGIONAL INTEGRATION AND THE IMPORTANCE OF THEIR ORGANIZATION**
***Aliyeva S.Y.***

***Key words***: *regional economic integration, integration, single market, free trade zone, Customs Union*

The development of any country largely depends on the level of its participation in integration associations. Countries enter into various forms of integration associations and on different grounds. The article is devoted to the main types of forms of regional integration and their organizational features. The article reveals the essence of the concept of integration. The main forms of regional integration are considered and the features of each of them are explained. The advantages of regional integration forms are explained.

## MÜASİR DÖVRDƏ REGİONLARDA TURİZMİN DAYANIQLI İNKİŞAFI

**Əliyeva Şöhrət İzzət qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*Sh_aliyev@mail.ru*

***Açar sözlər***: *ov turizmi, mədəni irs, turizm bazarı, turizm infrastrukturu, turizm strategiyası*

Respublikada turizm çox qədim ənənələrə və tarixə malikdir. Azərbaycanda turizm potensialı ilə turizm sektorunun inkişaf səviyyəsi arasındakı uyğunsuzluğun müzakirəsi uzun müddətdir davam edir. Son on ildə turizm sənayesi dörd dəfə artıb. Lakin turizm sektorunda bir çox nailiyyətlər əldə olunsa da, aşağıdakı bəzi problemlər qalmaqdadır:

• Turizm sektorunda kadr hazırlığı keyfiyyət və kəmiyyət baxımından əmək bazarının tələblərinə cavab vermir, bu da xüsusən bölgələrdə turizm obyektlərində xidmət və idarəetmə səviyyəsinin qeyri-kafi olması ilə nəticələnir;

• Turizm obyektlərinin əsasən Bakıda cəmləşməsi və bölgələrə turist axınının asanlaşdırılması üçün kifayət qədər nəqliyyat infrastrukturunun (hava limanları, dəmir yolu və su yolu) olmaması;

• Ölkənin tanıtma səviyyəsinin qeyri-kafi olması və ölkənin regionlarında turizm məlumat mərkəzlərinin olmaması;

• Rayonlarda xarici dil biliyinin yetərli olmaması;

• Turizm sektorunda araşdırmalar üçün qeyri-kafi statistik məlumat bazası;

• Xarici qonaqlar arasında turist məmnuniyyətinin mütəmadi monitorinqi sisteminin olmaması;

• Xarici vətəndaşlar üçün sərhəd-keçid məntəqələrində sürətli zolaq sayının yetərli olmaması;

• Ətraf mühitin qeyri-kafi qorunması gələcək nəsillər üçün təbii irsin qorunması baxımından həll edilməsi vacib olan bir problemdir;

• Turizm sektoruna kifayət qədər özəl və xarici investisiyanın qoyulmaması. Milli və regional səviyyədə bu sahənin inkişafı üçün cəlbedici investisiya mühiti yaradılmalıdır.

• Bu sektorda donorların birləşməsi və bir-birini tamamlaması zəifdir. Dağınıq inzibati strukturlar, inteqrasiya edilmiş bir turizm strategiyasının olmaması və donor yardımının daha çox yerli xarakerli olması səbəbindən bütün müvafiq məlumatları əldə etmək çətindir. Keçmiş, hazırki və gələcək layihələr üçün mövcud ehtiyaclar haqqında məlumatları özündə əks etdirən vahid bir əlaqələndirici sistemin mövcudluğu turizm sektoru üçün faydalı olardı [3].

Digər tərəfdən Azərbaycan qədim tarixi, mədəni irsi, əlverişli coğrafi mövqeyi, təbiəti, milli folkloru ilə Asiya, Avropa və Yaxın Şərq bölgəsinə yaxın, müxtəlif maraqların kəsişdiyi bir ölkədir. Turizm sektoru hökumət tərəfindən qeyri-neft sektorunun inkişafında prioritet bir sektor olaraq təyin edilir və dövlət tərəfindən dəstəklənir. Konfrans zalları və otellər də daxil olmaqla uyğun biznes infrastrukturu və müvafiq təcrübə əldə edilərək iri miqyaslı beynəlxalq tədbirlərin keçirilməsi üçün şərait yaradılmışdır.

Azərbaycan müxtəlif turizm növlərinin: mədəniyyət, sağlamlıq, dağ və qış, idman, biznes, çimərlik turizmi, ekoturizm, ov turizminin inkişafı üçün potensiala malikdir. Azərbaycan üçün əsas turizm bazarına daxildir: yerli əhali, qonşu ölkələrin və körfəz ölkələrinin turistləri, MDB, Kanada, Aİ, Çin, Yaponiya, Hindistan, ABŞ və başqa ölkələrin turistləri [4, s. 224].

Hökumət turizm sektorunun inkişafı üçün ardıcıl dəstək verir. Xüsusilə, ölkədə turizm infrastrukturunun inkişafına və beynəlxalq standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılmasına yönəlmiş "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" AR Perzidentinin 1 sentyabr 2016-cı il tarixli 2295 saylı Fərmanı qanunvericilik bazası və dövlət tənzimləmə

mexanizmləri, mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, bölgələrdə turizm fəaliyyətinin təşviqi, yeni turizm marşrutlarının yaradılması, rəqabətqabiliyyətli qiymət təklifinin təmin edilməsini əhatə edir.

Bu sektorda dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində atılan digər addım Dövlət Turizm Agentliyinin yaradılması haqqında 20 aprel 2018-ci il tarixli Prezident Sərəncamıdır [1].

Prioritet istiqamətlər turizm mənbələrinin və bir sıra turizm xidmətlərinin, turizmlə əlaqəli digər mədəni fəaliyyətlərin genişləndirilməsini və müasir standartlara uyğunlaşdırılmasını hədəfləyir. Turizm sektorunun inkişaf istiqamətləri aşağıdakılardır:

• Bölgələrdə turizm infrastrukturunun yüksək beynəlxalq standartlara çatdırılmasına yönəlmiş məqsədli layihələrin həyata keçirilməsi;

• Turizm sektoru işçilərinin daha yüksək səviyyəli xidmətlər göstərmək bacarıqlarının artırılması;

• Ölkənin bütün bölgələrində turizm fəaliyyətinin innovativ məhsul inkişafı ilə yanaşı marketinq yolu ilə stimullaşdırılması;

• Bu sektora investisiya cəlb etmək məqsədi ilə müasir informasiya və kommunikasiya kanalları vasitəsilə tanıtma fəaliyyətinin genişləndirilməsi.

Turizm iqtisadiyyatına kapitalın və büdcə investisiyalarının axını göstərir ki, bu problemlərin səbəblərini institusional komponentdə axtarmaq lazımdır [5, s. 437]. Tədqiqat Azərbaycanın bölgələrində turizmin inkişafına mane olan bir sıra institusional maneələri müəyyən etməyə imkan verir. Turizm sektoru böyük bir potensiala sahib olsa da, çox həssas sahədir və xidmət göstərənlər üçün bacarıqlarını artırmaq, xüsusilə yemək çatdırma sahəsi, restoran və kafe, barlar üçün gigiyena və təmizlik standartlarının gətirilməsi vacibdir [2, s. 302].

GZİT təhlili əsasında aşağıdakılar müəyyən edilmişdir:

• Müştəri xidmətinin keyfiyyəti, istirahət mərkəzlərində ixtisaslı işçilərin azlığı;

• Yerli mətbəx kifayət qədər təbliğ olunmamışdır;

• Tarixi və mədəni abidələrlə bağlı kifayət qədər təbliğat materiallarının olmaması, baxmayaraq ki, kifayət qədər turistlər üçün atraksionlar var (tarixi, mədəni, milli mətbəx);

• Turizmin mövsümi xarakterini nəzər alaraq yeni turizm məhsullarının həmin kənd yerlərində inkişaf etdirilməməsi;

• Aİ standartlarına uyğun münasib qiymətli otellərin azlığı.

Araşdırmalar zamanı məlum olmuşdur ki, turizm sektoru rayonun inkişafı üçün əsas strateji hədəflərdən biri olmalıdır. Turizm sektoruna dəstək dövlətin Yol Xəritəsində göstərilən müddəalarda öz əksini tapır. Turizmin orta və uzun müddətli inkişafı həm də aktiv ekoturizm sayəsində digər sektorları, məsələn, kənd təsərrüfatını, ipək, qida və süd istehsalını da inkişaf etdirər, əhalinin yaxşı rifah içində yaşamasına və kənd yerlərində turizmin inkişafına gətirib çıxarar.

Turizm sektorunun iqtisadi potensialı əhəmiyyətlidir, bir çox işsiz sakinləri qəbul edə bilər, lakin hal-hazırda sektorun inkişafı zəifdir və bir çox çətinliklərlə qarşılaşır. Ona görə də bu sahəyə ilk müdaxilələr vacibdir, lakin bu da öz təsirini göstərmək üçün xeyli vaxt ala bilər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında 2014-2020-ci illər daşınmaz tarixi və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafina dair Dövlət Proqramı, Bakı, 2013.
2. Aleksandrova A.Y.: Mejdunarodnıy turizm: Uçeb.posobie dlya vuzov. M., Aspekt Press, 2002, 470 s.
3. http://www.qebele-ih.gov.az/en/page/34.html
4. "Milli iqtisadiyyatın modernləşməsi: Mövcud vəziyyət və gələcək perspektivlər" mövzusunda elmi-praktiki konfransın materialları. AMEA İqtisadiyyat İnstitutu. Bakı, 2011, 256 s.
5. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. Bakı, 2007, 513s.



**РЕЗЮМЕ**

**УСТОЙЧИВОЕ РАЗВИТИЕ ТУРИЗМА НА СОВРЕМЕННЫХ РЕГИОНАХ**

***Алиева Ш.И.***

***Ключевые слова:*** *охотничий туризм, культурное наследие, рынок туризма, инфраструктура туризма, стратегия туризма*

Туризм является прибыльной и экологически чистой отраслью с точки зрения народного хозяйства, важным звеном инновационного развития страны. Развитие туризма в регионах останется приоритетом развития в диверсификации экономики на ближайшие годы. Последовательная политика по развитию сферы туризма, реализуемая в стране в рамках соответствующих государственных программ, создала благоприятные условия для интеграции страны в международный

туристический рынок и формирования современной индустрии туризма. Практически во всех регионах Азербайджана есть различные виды туризма.

**SUMMARY**
**SUSTAINABLE DEVELOPMENT OF TOURISM IN MODERN REGIONS**
***Aliyeva Sh.I.***

***Key words:*** *hunting tourism, cultural heritage, tourism market, tourism infrastructure, tourism strategy*

Tourism is a profitable and environmentally friendly industry in terms of the national economy, an important part in the country's innovative development. The development of tourism in the regions will remain a development priority in the diversification of the economy for the coming years. A consistent policy for the development of the tourism sector, implemented in the country within the framework of relevant state programs, has created favorable conditions for the integration of the country into the international tourism market and the formation of a modern tourism industry. Practically in all regions of Azerbaijan there are various types of tourism.

# MİLLİ TURİZMİN İNKİŞAFINDA YARANAN PROBLEMLƏR

**Əmirov İmran Balamirzə oğlu, Mirzəbəyov Araz Əliosman oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*imran_amirov@mail.ru; araz.mirze@gmail.ru*

***Açar sözlər:*** *turizm sənayesi, turist, xidmət, resurs, bazar, təbiət, qoruq*

İndiki gündə dövlətimizin iqtisadi inkişafında prioritet verdiyi istiqamətlərdən biri milli turizmin davamlı inkişaf etdirilməsindən ibarətdir. Hazırda Azərbaycan Respublikası (AR) davamlı inkişaf strategiyası ilə irəliləməklə milli iqtisadiyyatda yeni-yeni nailiyyətlər qazanmaqla özünün makroiqtisadi göstəricilərini yüksəltməkdədir. Belə ki, ümumi daxili məhsul (ÜDM) göstəricisinin ötən ildə artması nəticəsində onun 133,8 mlrd.man. təşkil etməsi, eləcə də qeyri-neft sektorunun 9,1% (69826 mln.man) çoxalması cari ildə də iqtisadiyyatımızın artıma meyilli olacağını proqnoz etməyə əsas verir [1]. AR-nın Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına istinadən 2022-ci ildə ÜDM istehsalının 51,1 %-i sənaye, 8,2 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 6%-i nəqliyyat və anbar təsərrüfatı, 4,8 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,8 %-i tikinti, 1,6 %-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,4 %-i informasiya və rabitə sahələrinin, 14,7 %-i digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,4 %-ni təşkil etmişdir (şəkil 1). Hesablamalara görə ölkə üzrə 2022-ci ildə əhalinin hər nəfərinə ÜDM-in 13292,2 manatı düşmüşdür [2].




**Şəkil. 2022-ci ildə Azərbaycan Respublikasında ÜDM istehsalının strukturunda turizmin xüsusi çəkisi (%-lə)**

Milli turizm biznesinin ölkə ərazisində inkişaf etdirilməsi ilə əlaqədar görülən tədbirlərin həyata keçirilməsinə baxmayaraq bu sferanın inkişafına mənfi təsir göstərən bir sıra problemlər aradan qaldırılmalıdır. Respublikada tanınmış otellərin uğurlu fəaliyyətinə baxmayaraq buradakı mövcud *qiymət və*

*tariflər əlverişli* həddə deyildir. AR-da lüks şəraitli (VİP) nömrələrdə sutkalıq qiymət 1000-2000 manat arasında dəyişsə də ABŞ, Birləşmiş Ərəb Əmirliyi, Şimali Kipr və Türkiyə kimi dövlətlərlə müqayisədə olduqca yüksəkdir. Bu səbəbdən ölkəmizə gələn turistlərin əksəriyyəti istirahətdən çox səyahət etmək məqsədi ilə gəlirlər ki, bu da onların qısa müddətdə ölkəmizdə qalmaları ilə nəticələnir.Turizmdə yaranan əsas problemlərdən biri gələn turistlərin *turizm günlərinin sayının az* olmasıdır. Ölkə ərazisində fəaliyyət göstərən turizm obyektləri ilin bütün fəsillərində davamlı xidmət göstərmirlər. Bu şirkətlərin il ərzində 2-3 ay fəaliyyət göstərməsi onların xərclərinin çoxalmasına səbəb olur. Belə olduğu təqdirdə isə turizm müəssisələrinin büdcəsinin xərcləri bir fəslin üzərinə düşür ki, bu da nəticədə qiymətlərin yüksəlməsinə səbəb olur.

Azərbaycanda turizm biznesinin davamlı inkişafında maneə törədən amillərdən biri də *Xəzər dənizinin ekoloji baxımdan çirkləndirilməsindir*. Dənizə tökülən çirkli suların təmizləyici qurğulardan keçərək yenidən təmizlənməsi tədbirlərinin görülməsinə baxmayaraq Xəzərdə olan batmış və korroziyaya uğramış gəmilərin metal konstruksiyaları ekoloji təhlükə yaradır. Bununla yanaşı dənizin dibində baş verən vulkanik püskürmələr də Xəzərin sularında ekoloji baxımdan təhlükə yaratmaqda davam edir. Qonşu dövlətlərin ərazilərindən, xüsusilə Rusiya Federasiyaından axıdılan çirkab sularının davamlı olaraq dənizə tökülməsi Xəzərin ekoloji baxımdan təmiz olmamasına səbəb olur. Xəzər dənizinin sularının təmizlənməsi ilə əlaqədar kompleks tədbirlərin görülməsi və yaranan ekoloji gərginliyin aradan qaldırılması şübhəsiz ki, çimərlik turizminin sürətlə inkişafına gətirib çıxara bilər.

Turizm sənayesinin inkişafında nəzərə çarpan problemlərdən də biri bu sferada *kadrların dünya standartlarının tələblərinə cavab verə bilməməsidir*. Hazırda bu kadrların hazırlanması ilə əlaqədar ali təhsil müəssisəsinin (Azərbaycan Turizm və Menecment Universiteti-2006) fəaliyyət göstərməyinə baxmayaraq beynəlxalq standartlara cavab verən səriştəli kadrlara daha çox ehtiyac duyulur.

Ölkəmizdə turizm biznesinin sürətli inkişafına mənfi təsir edən məsələlərdən biri turistlərə göstərilən *xidmət səviyyəsinin aşağı olmasından* ibarətdir. Göstərilən xidmətlərin aşağı səviyyədə həyata keçirilməsi respublikaya gələn və yaxud gəlmək istəyən turistlərin sayını azaldır. İstirahətə gələnlərə göstərilən xidmətlərin səviyyəsinin düşük olması birbaşa olaraq rəqabətin aşağı olması ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, turizm sektoru inkişaf edən ölkələrdə bu sahədə fəaliyyət göstərən qurumlar, iş adamları, otellər, sanatoriya-kurort müəssisələri və s. göstərdikləri xidmətlərin səviyyəsinin artırılması nöqteyi-nəzərdən bir-biri ilə rəqabət aparırlar. Bu təcrübəni ölkə daxilində fəaliyyət göstərən turizm təşkilatları da tətbiq etməli və göstərdikləri xidmətlərin səviyyəsini beynəlxalq standartlara çatdırmalıdırlar [3].

Turizmdə meydana gələn problemlərdən biri Azərbaycana gəlmək istəyən turistlərə *aviabiletlərinin baha qiymətə* satılmasıdır. Adətən turistlər qiyməti bir qədər aşağı olan reyslərlə istirahət edəcəyi məkanlara getməyi üstün tuturlar. Bu səbəbdən də ölkəmizə gələnlərin sayı azalmaqla yanaşı, yolların açıldığı təqdirdə ölkədən gedən insanların sayında yaxın gələcəkdə artım müşahidə edilə bilər. Respublikada təşkil edilən beynəlxalq idman yarışları (Formula 1 avtomobil yarışları), musiqi festivalları (Avroviziya), sərgilər, kino festivalları və digər beynəlxalq xarakterli tədbirlər turist axınının çoxalmasında önəmli rol oynaya bilər. Bunun üçün isə həm dövlətin, eləcə də iş adamlarının köməyi ilə ilin bütün fəsillərinə uyğun turizm infrastrukturu yaradılmalıdır [4, s.192].

Respublikamızda milli turizmin inkişafına neqativ təsir edən amillərdən biri də turizmin genişləndirilməsinə səbəb ola bilən və bu sənayenin inkişafına güclü təkan verən *reklam fəaliyyətidir*. Ölkə ərazisində mövcud turizm obyektləri haqqında mediada və digər yazı-çap materialları, habelə regionlar üzrə bukletlər, xəritələr və digər reklam vasitələri yetərli miqdarda deyildir.Turizm sənayesinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər və yeni tikilən obyektlərə dair informasiya xarakterli materiallar demək olar nəzərə çarpmır. Turizmin inkişaf etdirilməsində xüsusi əhəmiyyətə malik olan tarixi abidələrimizi və məşhur tanınmış turizm obyeklərimizi tərənnüm edən reklam vasitələri, turizm məhsulları bütün turizm məkanlarında nümayiş etdirilməlidir.

Turizm sənayesinin inkişafında əngəl yaradan və onun genişləndirilməsində mühüm rol oynayan məsələlərdən biri də turizm abidələrinin *mühafizə* edilməsidir. Ölkənin müvafiq orqanları tərəfindən turizm marşrutları üzrə mövcud abidələrin mühafizə tədbirləri gücləndirilməlidir. Bundan başqa, ölkə ərazisində turizmin cəlbediciliyinin yüksəldilməsinə səbəb olan tarixi abidələrimizin konservasiyası və bərpa olunması məsələləri ön plana çəkilməlidir [5].

Ölkəmizin dünya turizm bazarında layiqli yer tutaraq tanınması və milli turizmin davamlı inkişaf etdirilməsi indiki gündə dövlətimizin prioritet kimi qəbul etdiyi məsələlərdəndir. Buna görə də, beynəlxaslq miqyasda əməkdaşlığın gücləndirilməsi, xarici ölkələrdə sərgilərin keçirilməsi, müxtəlif müasir vasitələrdən və texnologiyalardan istifadə edərək turizm məkanlarının audio-vizual materiallarının yayılması olduqca vacibdir.

Beləliklə, turizm sənayesinin ölkəmizdə inkişaf perspektivlərinin və amillərinin araşdırılması aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilən turizm sənayesinin inkişaf etdirilməsi dövlətçiliyimizin gücləndirilməsinin əsas prioritet istiqamətlərindəndir. Turizm sferasının inkişafı nəticəsində ölkə büdcəsinə mədaxil edilən gəlirlərin artırılması dövlətimizin və xalqımızın milli maraqlarına tamamilə uyğundur;

2. Turizm sənayesinin inkişaf etdirilməsi üzrə dövlətimizin siyasətinə uyğun olaraq müvafiq layihələr həyata keçirilməlidir. Qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilmiş turizm biznesinin inkişaf etdirilməsində dövlət və özəl strukturları birgə yerli özünüidarə orqanları ilə əlaqələrdən hərtərəfli istifadə olunması regionların inkişafında yaranan bir sıra problemləri aradan qaldırar;

3. Regionlarda turizmin daha da genişləndirilməsi məqsədilə turizm infrastrukturlarının və turizm məhsullarının yaradılmasına münbit şərait yaradılmalıdır. AR-da turizm potensialından rasional istifadə edilməsi ÜDM-in tərkibində bu sektorun xüsusi çəkisini artırmaqla məşğulluq problemlərinin aradan qaldırılmasını təmin edəcəkdir və s.

### Ədəbiyyat


1. Cabbarov M. Azərbaycanda ÜDM artıb https://az.trend.az/business/3698683.html Elektron resurs istinad tarixi: 20.03.23
2. https://www.stat.gov.az/news/index.php?lang=az&id=5403 Elektron resurs istinad tarixi: 9.03.23
3. Həmzəoğlu M. Turizm xidmətləri sahəsində əsas problemlər. Elektron resurs istinad tarixi: 31.03.23 http://www.anl.az/down/meqale/xalqcebhesi/xalqcebhesi_mart2009/71424.htm
4. Abadov M. Azərbaycan turizmi və onun inkişaf problemləri Bakı: Şərq-Qərb, 2014, 248 s.
5. Rəhimov S. Turizmin inkişafını ləngidən amillər Mədəniyyət- 20.01.10.- s. 7. http://www.anl.az/down/meqale/medeniyyet/2010/yanvar/104279.htm



**РЕЗЮМЕ**

**ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ В РАЗВИТИИ НАЦИОНАЛЬНОГО ТУРИЗМА**

***Амиров И.Б., Мирзебеков А.А.***

***Ключевые слова:*** *индустрия туризма, турист, услуга, ресурс, рынок, природа, заповедник*

Цель статьи - исследовать негативное влияние индустрии туризма, играющей важную роль в социально-экономическом развитии нашей страны, на перспективу развития. Наряду с государственной поддержкой развития сферы туризма здесь описаны создание благоприятных условий, эффективное использование имеющихся ресурсов и проблемы, возникающие в сфере туризма.

Выявляются факторы, влияющие на развитие туристического сектора в Азербайджане, прогнозируется увеличение количества приезжающих туристов путем восстановления ресурсов на территории страны.



**SUMMARY**

**PROBLEMS ARISING IN THE DEVELOPMENT OF NATIONAL TOURISM**

***Amirov I.B., Mirzabeyov A.A.***

***Key words:*** *tourism industry, tourist, service, resource, market, nature, reserve*

The aim of the article is to investigate the negative effects of the tourism industry, which plays an important role in the socio-economic development of our country, on the prospective development. Along with state support for the development of the tourism sector, creating of favorable conditions, effective use of existing resources and problems arising in tourism are described here.

By clarifying the factors affecting the development of the tourism sector in Azerbaijan, the increase of tourists coming as a result of the restoration of the resources in the territory of the country is predicted.


## ŞİMALİ MAKEDONİYA RESPUBLİKASININ AVROPA İTTİFAQI İLƏ İNVESTİSİYA ƏMƏKDAŞLIĞI


**[1]Hümbətəliyeva Səadət Əsgər qızı, [2]Şenay Hacımustafa**

*[1]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*[2]Cənub-Şərqi Avropa Universiteti, Şimali Makedoniya*

saadethumbataliyeva@mail.ru



***Açar sözlər:*** *investisiya, əməkdaşlıq, Avropa İttifaqı, ticarət, ticarət dövriyyəsi, siyasi fikir ayrılıqları.*

Şimali Makedoniya ilə Aİ arasında ticarətin inkişafı daha güclü iqtisadi əlaqələrin inkişafına, daha güclü iqtisadi əlaqələr isə birbaşa xarici investisiya axınının artmasına səbəb olub. BXİ ŞMR-in milli iqtisadiyyatının inkişafında əsas rollardan birini oynayır. Onlar bir tərəfdən beynəlxalq şirkətlərə öz fəaliyyətlərini diversifikasiyalaşdırmağa kömək edirlər, digər tərəfdən isə alıcı dövlətlərə iqtisadi, siyasi və sosial sferalarını təkmilləşdirmələrini təmin edirlər.

Avropa İttifaqı Makedoniyanın əsas ticarət və investisiya tərəfdaşıdır. Ölkədə hər il artan çoxlu sayda Avropa firması mövcuddur. Şimali Makedoniya Respublikasının coğrafi mövqeyi bu dövlətin Aİ ölkələrindən Birbaşa Xarici İnvestisiyalara çıxış əldə etməsinə şərait yaradır və bu imkanlardan Balkan dövlətinin hökumətinin maraqları naminə maksimum istifadə olunur.

***Cədvəl.***

**2016-2020-ci illərdə ŞMR-na Avropa investisiyası**

| İllər | Birbaşa Avropa investisiyalarının məbləği (mln ABŞ dolları) | Avropa İnvestisiyalarının payı (%) |
|---|---|---|
| 2016 | 3 118,77 | 83,16 |
| 2017 | 2 979,27 | 83,47 |
| 2018 | 2 926,46 | 80,71 |
| 2019 | 3 482,82 | 82,26 |
| 2020 | 3 663,65 | 79,12 |

***Mənbə:** [1; s.158].*

Ölkələrə nəzər salsaq, əsas investorlar bunlardır:

Böyük Britaniya (ŞMR iqtisadiyyatında ümumi BXİ-nin 18,7%-i), Avstriya (12,6%), Yunanıstan (11,4%) və Hollandiya (8,7%). Bu ölkələr üçün ŞMR investisiya baxımından, əsasən, nisbətən aşağı istehsal xərcləri, eləcə də təbii ehtiyatlara (münbit torpaq, mis, ağac və s.) çıxış imkanlarına görə cəlbedicidir. Əlavə olaraq qeyd edək ki, Böyük Britaniya heç də həmişə ŞMR-nın əsas investorlarından biri olmayıb və 2013-cü ildən Şimali Makedoniyaya öz investisiya axınını artırmağa başlayıb. Bu sərmayənin ən bariz nümunəsi ŞMR ərazisində zavod açan avtomobil sektorunun nümayəndəsi “Johnson Matthey”-dir. Bu investisiya 65 milyon avro təşkil edib. Bu şirkətin uğur hekayəsinə döşək və yastıq şirkəti “Comfy Angel”, sonra isə İT sektoru şirkəti olan “Endava” qoşuldu [2; s.39].

Böyük Britaniyanın Aİ-ni tərk etdiyini nəzərə alsaq, 2020-ci ildə Aİ-nin ŞMR iqtisadiyyatında BXİ payı əhəmiyyətli dərəcədə azalmışdır. Qeyd etmək lazımdır ki, investisiyaların sayına baxmayaraq, Avstriya maliyyə və bank sektorunun ən çox rast gəlindiyi birbaşa investisiya sektorlarının müxtəlifliyinə görə demək olar ki, birinci yerdədir. Bank sektoruna misal olaraq, Makedoniya bazarında bank və sığorta xidmətlərinin keyfiyyətinə görə liderə çevrilmiş Sparcasse bankını göstərmək olar. Bu şirkət azsaylı şirkətlərdən biridir ki, onun törəmə müəssisəsinin açılmasında əsas motiv bazara çıxışdır. ŞMR ərazisində filialını açmaqla Sparcasse 10 il əvvəl fəal şəkildə filiallarını açmağa başladığı qonşu ölkələrin bazarlarına da çıxış əldə etdi. Bu bank ŞMR bazarında 20 ildən artıqdır ki, fəaliyyət göstərir [2; s.41]. Avstriya həmçinin enerji bazarında “EVN Makedoniya”, telekommunikasiya sektorunda “VİP” və “Telecom”, tikinti sektorunda “Soravia Group” və s. ilə təmsil olunur [3; s.47].

Siyasi fikir ayrılıqlarına baxmayaraq, qonşu Yunanıstan Şimali Makedoniyada birbaşa investisiyalar üzrə Aİ-nin ilk 3 ölkəsindən biridir. Yunan şirkəti olan “OCTA” Şimali Makedoniyada ən böyük yanacaq tədarükçüsü və dövriyyəyə görə ŞMR-də 3-cü ən böyük şirkətdir. Onun gəliri 300 milyon avroya yaxındır. Ondan sonra təxminən 70 milyon avro gəlirlə "USJE-Titan" gəlir. Bu şirkət Makedoniya bazarında tikinti materiallarının istehsalı ilə məşğul olan yeganə şirkətdir. Makedoniya bazarında növbəti böyük yunan şirkəti pərakəndə ticarətlə məşğul olan və dövriyyəyə görə 24-cü yerdə olan “Veropoulos”dur. Bu investisiya “Veropoulos” üçün növbəti məntiqi addım idi, çünki o vaxta qədər şirkət yalnız Yunanıstan bazarında fəaliyyət göstərirdi və coğrafi baxımdan diversifikasiya və genişlənməyə ehtiyacı var idi.

Hollandiya təhsil, maliyyə idarəçiliyi və ticarət sahələrində Şimali Makedoniyanın əsas tərəfdaşlarından biridir. Birbaşa investisiyalar sahəsində Hollandiya kapitalının nümayəndələri aşağıdakı şirkətlərdir: dekorativ çiçəklərin - orkide istehsalı üçün yüksək texnologiyalı laboratoriyası olan “Antura” şirkəti, daha sonra qoruyucu geyimlər, mebel parçaları istehsal edən “Vima Fashion” toxuculuq şirkəti və s. [5; s.72].

Makedoniya bazarında ən böyük Avropa mühəndislik şirkəti “Van Hool”-u qeyd etməmək mümkün deyil. Şimali Makedoniya ərazisində bu Belçika şirkəti avtobusların istehsalı və ixracı ilə məşğul olur. Bu şirkətin sahibi Filip Van Hul hesab edir ki, ölkədə əla biznes mühiti var və dəfələrlə öz ölkəsindən investorları ŞMR iqtisadiyyatına sərmayə qoymağa dəvət edib [3; s.60].

Əvvəlki nümunələrdən də göründüyü kimi, Avropa investisiyaları müxtəlif sahələrə yönəldilmişdir. İnvestisiyaların yönəldildiyi sahə təkcə Şimali Makedoniyadan deyil, həm də investorun özündən, bəzi hallarda isə onun konkret olaraq hansı sahələrdə ixtisaslaşmasından asılıdır. Beləliklə, aşağıdakı sahələri ayırd etmək olar:

• enerji – bu sənaye ŞMR-də zəif inkişaf etmişdir.

Yunanıstan və ya Avstriya kimi ölkələr buraya sərmayə qoyur;

• maliyyə və bank sektoru - Makedoniya bazarında bu sektordakı korporasiyaların əksəriyyəti Avropalıdır;

• tikinti və tikinti materiallarının istehsalı - dövlət tikinti şirkətləri özəlləşdirildikdən sonra onların bir çoxu iflas mərhələsində idi. Onlar ya xarici investorlar tərəfindən alınıb, ya da bağlanıb yerində yeniləri açılıb;

• telekommunikasiya və İT sektoru – yüksək xərclərə görə bu sahələrdə Makedoniya şirkətləri yoxdur ki, bu da investisiya prosesini xeyli asanlaşdırır [4; s.125].

Avropa sərmayələri Yuqoslaviyanın dağılmasından sonra cəlb edilib, lakin bu, Aİ-yə və Aİ-yə daxil olmaq və Şimali Makedoniyaya Avropanın birbaşa investisiyalarını artırmaq üçün ölkənin adını dəyişməyə qərar verən Baş nazir Zoran Zaev dövründə daha fəal şəkildə həyata keçirilib. Onu da əlavə etmək lazımdır ki, Avropa investisiyalarının artmasına investisiyaların dövlət tənzimlənməsinin yumşaldılması da təsir göstərmişdir (Məsələn, Danimarka üçün 25%-dən az əmlaka malik dividendlərə görə vergi 5%, əmlak 25%-dən çox olan dividendlərə görə–15%, Estoniya üçün - 25% -dən az əmlaka 0%, əmlak 25% -dən çox olduqda - 5%). Şimali Makedoniya ərazisində Avropa layihələrini ətraflı təhlil etdikdən sonra belə nəticəyə gəlirik ki, söhbət uğur hekayələrindən gedir. Ölkədə ən çox istehsalla məşğul olan və bununla da məşğulluğu artıran çoxlu sayda şirkətlər açılmışdır. Bundan əlavə, investisiyalar adambaşına düşən ÜDM, işsizlik səviyyəsi, orta əmək haqqı və s. kimi iqtisadi göstəriciləri yaxşılaşdırmaqla bütövlükdə iqtisadiyyata kömək edir. Siyasi arenada ŞMR 15 ildir ki, bütün səyləri ilə Aİ-yə daxil olmağa çalışır. Qeyd etmək lazımdır ki, ŞMR hökumətinin nöqteyi-nəzərindən Aİ-yə daxil olmaq Makedoniyaya Avropanın birbaşa investisiyasıları ölkəyə cəlb etmək prosesinə kömək edəcək. Makedoniyanın Aİ strukturlarına bu inteqrasiyası 1994-cü ildə, Skopyenin Avropa Fare proqramının fondlarından maliyyə aldığı zaman başladı [5; s.83].

1995-ci ilin dekabrında ölkə Aİ ilə diplomatik əlaqələr qurub, 1997-ci ilin aprelində isə onunla ticarət və əməkdaşlıq sazişi imzaladı. 1999-cu ilin dekabrında Brüsseldə demokratiyanın qeyri-kafi səviyyədə olması bəhanəsi ilə Aİ-yə assosiativ üzvlüklə bağlı danışıqların qeyri-müəyyən müddətə təxirə salınması barədə qərar qəbul edildi. Yalnız 2000-ci ilin iyununda Makedoniya Aİ üzvlüyünə potensial namizəd statusu əldə etdi. 2004-cü ilin noyabrında prezident və baş nazir, xarici işlər naziri arasında keçirilən görüşdə Makedoniyanın bu təşkilata üzv olması xahişi ilə Aİ-yə müraciət etmək qərara alınıb. 2004-cü ilin martında Aİ-nin Dublində keçirilən sammitində Makedoniya Aİ-yə üzvlük üçün rəsmi ərizə verdi. 2005-ci ildə Avropa İttifaqı Makedoniyaya Avropa İttifaqına üzv olmaq üçün rəsmi "namizəd ölkə" statusunun verilməsi qərarını təsdiqləyib. ŞMR-in 10 illik namizəd statusundan sonra araşdırma aparılıb və onun nəticələri göstərib ki, Avropa İttifaqına ölkə vətəndaşlarının 30%-dən az hissəsi etibar edir [6; s.19].

2005-2018-ci illər üçün dövlət qanunlarında edilən bir sıra dəyişikliklər AB tərəfindən müsbət qiymətləndirilib, lakin Yunanıstanla münaqişə 2019-cu ilə qədər əsas siyasi maneə olub və Aİ qərarlarına böyük təsir göstərib. 2011-ci ildən bəri dövlət və Aİ arasında iqtisadi əlaqələr yaxşılaşmaya meyllidir və AB ilə Makedoniya arasında ticarətin artması və bu ölkədə açılan Avropa şirkətlərinin payı buna sübutdur. 2018-ci ildə Makedoniya ÜDM (1991-2020-ci illər üçün) baxımından rekord yüksək 130-cu yerdə idi və bu, 12,669 milyard ABŞ dollarına və ya Avropa İttifaqının ÜDM-nin 0,08%-nə bərabər idi [8]. Makedoniya hökumətinin fikrincə, iqtisadi baxımdan bu kiçik pay Makedoniyanın Aİ-yə daxil olmamasının səbəblərindən biridir. Nümunə olaraq Makedoniyalı siyasətçilər 2018-ci ildə ÜDM-i 12,32 milyard ABŞ dolları və ya Aİ-nin ümumi ÜDM-in 0,078%-ni təşkil edən Maltanı göstərirlər. Ancaq problemə daha dərindən baxsanız, əlavə etmək yerinə düşər ki, 2018-ci ildə Makedoniyanın adambaşına düşən ÜDM 6074 ABŞ dolları, Maltanın adambaşına düşən ÜDM isə 31,058 ABŞ dollarıdır. Beləliklə, Makedoniya adambaşına düşən ÜDM-ə görə 73-cü, Malta isə 25-ci yerdə idi. Belə ki, Makedoniyanın əhalisi Maltanın əhalisindən 4 dəfə çoxdur [7].

Şimali Makedoniyada Avropanın birbaşa investisiya payı ümumi BXİ-nin 80%-i ətrafında dalğalanır. Nəticə etibarı ilə, dövlət böyük ölçüdə iqtisadi cəhətdən Avropa ölkələrindən asılıdır və Aİ-yə daxil olmaq üçün uğursuz cəhdlərə və külli miqdarda pul və vaxt xərclənməsinə baxmayaraq AB Makedoniyanın ən böyük xarici iqtisadi tərəfdaşı olaraq qaldı.

Makedoniyanın bütövlükdə Aİ ilə əməkdaşlığının perspektivlərini ətraflı təhlil etsək, onu da əlavə etmək yerinə düşər ki, Makedoniyanın Avropa İttifaqına mümkün qəbulu Aİ-yə heç bir təsir göstərməyəcək. İlk növbədə ona görə ki, dövlət kiçik və yoxsuldur, ikincisi, Aİ Makedoniya Avropa Birliyinə daxil olmadan

bu dövlətin ərazisində bütün imtiyazları aktiv şəkildə malikdir. Bu üstünlüklərə aşağıdakılar daxildir: Ölkədə fəaliyyət göstərən Avropa şirkətləri üçün aşağı vergi yükü, rüsum ödəməkdən azad olmaq, ucuz işçi qüvvəsi və s. Digər tərəfdən, Makedoniya hökumətinin bütün ümidi Avropa Birliyinin əlindədir. Aİ-yə daxil olmaq dövlət üçün kifayət qədər çətin məsələ oldu. Ölkədəki yaşayış səviyyəsini bəzi Avropa ölkələrinin, məsələn, Almaniya, Lüksemburq, Belçika, Böyük Britaniya və s.-nin həyat səviyyəsi ilə müqayisə etmək olmaz. Makedoniyada orta əmək haqqı bütün Aİ ölkələrində olan orta əmək haqqından aşağıdır. Məsələn, ölkədə orta əmək haqqı Lüksemburqdakı orta əmək haqqının 11%-ni təşkil edir. Bolqarıstanda orta əmək haqqı Makedoniyadakı orta əmək haqqını 8,74% üstələyir [9].

Makedoniya hökuməti dəfələrlə bəyan edib ki, onların strategiyası vətəndaşların həyatını yaxşılaşdırmaq üçün ölkənin Aİ-yə daxil olmaqdır. Hökumətin həll edə bilmədiyi bütün problemləri AB-nin həll edəcəyinə dair böyük gözləntilər Makedoniyanın AB-yə üzv olmaq istəyinin əsasını təşkil edir.

## Ədəbiyyat


1. Efimova, E., Sherov-Ignatevm V. Russian Foreign Direct Investments in the Eurasian Economic Union.,The Russian Economy and Foreign Direct Investment. Taylor & Francis, -2017 - C.154-172.
2. Koval, A. G., Trofimenko, O. Y. Theoretical concepts of trade policy development and analysis: Evolution and modern challenges in the context of the international trading system transformation// Вестник Санкт-Петербургского университета. -2020. Т.36. Вып.1. – С 27–48.
3. Kostovska, O., Hristovski, I., Trade dynamics, revealed comparative advantage, and international competitiveness: Evidence from Macedonia/ Ekonomski Anali. – 2018. P.29-59.
4. Mkrtumova, A. Importance of economic integration for modern development of Russia/Цинфровая экономика в социально-экономическом развитии России, 2018 – С-189.
5. Maksakova M.A., Tjapko G.G. Saradnja Rusije i zemalja zapadnog Balkana u savremenoj etapi: mogucnosti, rizici i perspektive // Argumenti. - Godina X, br. 27. - 2016. - S. 71-89.
6. The Effects of Trade Agreements on Trade: Asymmetric Partners and Types of Agreements. 2013, Vol 18, N 1.
7. Посольство РФ в РСМ: Выступление посла С.А. Базденкина на открытии выставки по случаю 25-летия дипломатических отношений 14.04.2019г.: URL: https://cutt.ly/UbDsFfr .
8. Расследование РБК: как россиянин стал самым богатым человеком Македонии: URL: https://www.rbc.ru/magazine/2017/10/59c2aa029a 79473e38382464 (дата обращения 08.04.2021).
9. Газпром экспорт Северная Македония. http://www.gazpromexport.ru/partners/macedonia/



**РЕЗЮМЕ**

**ИНВЕСТИЦИОННОЕ СОТРУДНИЧЕСТВО РЕСПУБЛИКИ СЕВЕРНАЯ МАКЕДОНИЯ С ЕВРОПЕЙСКИМ СОЮЗОМ**

***Гумбаталиева С.А., Шенай Х.***

***Ключевые слова**: инвестиции, сотрудничество, Евросоюз, торговля, товарооборот, политические разногласия*

Развитые торговые отношения и членство в различных интеграционных группах помогают отдельному государству быстрее развиваться и укрепить экономические и политические отношения с другими странами. Правильно выбранное интеграционное объединение и крепкие торговые отношения внутри данной организации помогают развитию любой страны. Евросоюз является ярким примером экономического и политического объединения стран уже 31 лет со дня вступления в силу Маастрихтского договора. Включая в себя 28 стран Европы, данная организация со своими преимуществами привлекает слаборазвитых в политической и экономической сферах стран. ЕС предлагает отдаленную перспективу членства Боснии и Герцеговине, Сербии, Черногории, Северной Македонии, Албании и Косово в обмен на фундаментальные структурные реформы.



**SUMMARY**

**INVESTMENT COOPERATION OF THE REPUBLIC OF NORTH MACEDONIA WITH THE EUROPEAN UNION**

***Humbataliyeva S.A., Shenay H.***

***Key words**: investment, cooperation, the European Union, trade, trade turnover, political differences*

Developed trade relations and membership in various integration groups help an individual state to develop faster and strengthen economic and political relations with other countries. A well-chosen integration association and strong trade relations within this grouping help the development of any country. The European Union has been a vivid example of the economic and political unification of countries for 31 years since the entry into force of the Maastricht Treaty. Including 28 European countries, this grouping with its advantages attracts countries that are underdeveloped in the political and economic spheres. The EU offers the distant prospect of membership to Bosnia and Herzegovina, Serbia, Montenegro, Northern Macedonia, Albania and Kosovo in exchange for fundamental structural reforms.

# AZƏRBAYCANIN YÜNGÜL SƏNAYESİNİN MİLLİ BRENDLƏRİN FORMALAŞDIRILMASI VƏ DÜNYA BAZARLARINA ÇIXARILMASI İSTİQAMƏTLƏRİ

**Kərimov Şəhriyar Müslət oğlu**
*Azərbaycan Texnologiya Universiteti, Bakı, Azərbaycan*
sehriyarkerimov00@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, yüngül sənaye, milli brendlər, dünya bazarları, yüngül sənayenin inkişaf problemləri, yüngül sənayenin inkişaf istiqamətləri*

Qeyd edək ki, sənayenin inkişafında ikinci əsas vəzifə yerli yüngül sənayenin texniki və texnoloji cəhətdən geriliyinin aradan qaldırılmasıdır. Müəssisələrin yüksək investisiya və innovasiya fəallığı sənayenin inkişafının üçüncü əsas vəzifəsidir. Bu vəzifənin həlli dünya bazarının tələblərinə uyğun olaraq malların istehsalının texnoloji səviyyəsini və rəqabətqabiliyyətliliyini durmadan artırmağa imkan verər. Yüngül sənaye mallarının istehsalının inkişafında dördüncü əsas vəzifə qeyri-qanuni mal idxalının qarşısının alınmasıdır. Yeni çağırışlar şəraitində ölkəmizin yüngül sənayesinin inkişafına investisiyalar, kadr potensialı, xammal ehtiyatları, infrastrukturların inkişaf səviyyəsi, istehlakçı zövqü, davranışları və s. kimi amillər önəmli dərəcədə təsir edir [4 s.39].

Azərbaycanda yüngül sənayenin hazırki vəziyyəti şəkil 1-də əks olunmuşdur.




**Şəkil 1. Yüngül sənayenin əsas sahələrində yaradılan dəyər (Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib)**

Şəkil 1-dən görünür ki, yüngül sənaye məhsulunun əsas hissəsi toxuculuq sənayesinin payına düşür. Məsələn, 2021-ci ildə yüngül sənaye üzrə 521,8 milyon AZN-lik məhsul istehsal olunub ki, bunun 70,8%-i toxuculuq, 24,9%-i geyim, 4,3%-i isə dəri və dəri məmulatları istehsalı sahəsinin payına düşür. Tədqiq olunan dövrlər ərzində toxuculuq sektorunda ən çox 2021-ci ildə 369,5 milyon AZN olmaqla məhsul istehsal olunub ki, bu da 2015-ci ilə görə 11,7 dəfə, 2018-ci ilə görə 48,8%, 2020-ci ilə görə isə 53,3% çoxdur [1].

Bunlarla bərabər, Azərbaycanda yüngül sənayedə fəaliyyət göstərən müəssisələrin say dinamikasını da vermişik (bax: şəkil 2)




**Şəkil 2. Yüngül sənaye müəssisələrinin sayı (Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib)**

Şəkil 2-dən tədqiq olunan dövrlər ərzində bütün yüngül sənaye müəssisələrinin sayının davamlı olaraq artdığını görürük. Yalnız 2016-cı ildə 2015-ci ilə nisbətən həmin sahə müəssisələrinin sayının azalmasını müşahidə edirik. Bunun əsas səbəbini 2015-ci ildə ölkədə milli valyutamızın devalvasiyası ilə əlaqələndirmək olar.

Araşdırmalar göstərir ki, Azərbaycanda yüngül sənaye müəssisələrinin sayının yetərli olmaması həmin sahə məhsullarına tələbatın ödənilməsi səviyyəsinə təsir göstərir. Bildiyiniz kimi, yüngül sənaye məhsullarının əksəriyyəti xaricdən gətirilir ki, bu da sahədə mövcud vəziyyəti daha da gərginləşdirir. Yüngül sənayesinin inkişafına təsir edən digər mühüm amil xammalın emalı üçün emal müəssisələrinin illik istehsal gücünün kifayət qədər olmamasıdır.

Fəaliyyətdə olan emal müəssisələrinin məhsulları dünya bazarında rəqabət apara bilmədiyi üçün xarici bazarlara çıxarılmır. Bir sözlə, istehlakçının zövqünə uyğun keyfiyyətli məhsulların istehsalı hələ lazımi səviyyədə deyil. Toxuculuq sənayesinin inkişafı, əsasən, sənayenin xammal istehsalçısı olan kənd təsərrüfatı müəssisələri və onun məhsullarını emal edən sənaye sahələri ilə inteqrasiyası hesabına baş verir. Bu prosesin dərinləşməsi və keyfiyyətcə təkmilləşdirilməsi ilə kənd təsərrüfatı xammalı istehsal edən, emal edən və xidmət göstərən sənaye, müəssisə və təşkilatların səmərəli fəaliyyəti təmin edilir.

Toxuculuq və geyim istehsalında keyfiyyət və qiymət tarazlığı, gəlir səviyyəsi, əhali və demoqrafik struktur, iqlim və coğrafi xüsusiyyətlər, dizayn və moda, məhsul markası, sosial və ekoloji standartlara uyğun istehsal və digər rəqabət xüsusiyyətləri və funksiyaları istehlakçı seçiminə təsir göstərir. Standart hazır paltarlar tələbin aşağı gəlir elastikliyinə malik mallardır. Məhsulun keyfiyyətinin və müxtəlifliyinin yüksəldilməsi problemləri konkret xammalın istehsalından son hazır məhsulun buraxılmasına qədər olan bütün proseslərlə sıx bağlıdır. Bu sahədə məhsulun keyfiyyətini kökündən yaxşılaşdırmaq üçün yeni növ pambıq, yun və ipək liflərinin istehsalı ilə məşğul olmaq lazımdır. Digər tərəfdən, məhsulun keyfiyyətini onu formalaşdıran təkmil istehsal-texniki baza yaratmaq, yeni qabaqcıl texnologiyalardan istifadə etməklə artırmaq olar.

Yüngül sənaye innovasiya fəallığının səviyyəsini yüksəltmək və iqtisadiyyatın digər sahələrində, eləcə də son istehlak malları bazarında tələbat olan innovativ məhsulların istehsalı üçün əhəmiyyətli istehsal, kadr, texniki və texnoloji ehtiyatlara malik olmaq lazımdır. COVID-19-un yayılması yüngül sənaye məhsullarına olan tələbatı artırmışdır. Həmin sahə məhsullarına artan tələbat səbəbindən dövlət ehtiyatı üçün strateji malların siyahısını genişləndirmək lazımdır [6, s.134]. Texnologiya platforması innovasiya iştirakçılarına texnologiya transferi mərkəzləri ilə sıx koordinasiyada ən aşağı əməliyyat xərcləri ilə layihələri təşviq etməyə imkan verir [5, s.7]. Yüngül sənaye müəssisələrinin idarəetmə sisteminin təkmilləşdirilməsi, innovativ infrastrukturunun inkişafı, həmin sənaye müəssisələrinin fəaliyyətinin müasir tələblərə uyğun təşkili və s. kimi məsələlər bilavasitə onların maliyyə təminatı sisteminin hansı səviyyədə olması ilə bağlıdır. Bu baxımdan daxili maliyyə mənbələri yüngül sənayenin fəaliyyətində önəmli yer tutur [3, s.22]. Azərbaycanda AİZ-lərin qabaqcıl dünya təcrübəsinin tətbiqi prosesləri intensivləşdikcə belə zonaların qeyri-neft sektorlarının inkişafını sürətləndirmək, ölkənin ixrac potensialını artırmaq, bu sahədə mövcud iqtisadi potensialı reallaşdırmaq əsas məqsədlərdəndir. Belə zonaların ölkə regionlarının, eləcə də əmək və təbii ehtiyatlarından səmərəli istifadənin təşkilində əhəmiyyəti artacaq [2, s.333-334]. AİZ-lərin tətbiqi yüngül sənayenin inkişafına da öz töhfəsini verəcəkdir.

Azərbaycanda yüngül sənayenin inkişafı proseslərində milli brendlərin hazırlanmasına xüsusi diqqət yetirilməlidir və bunun üçün xammal imkanları yetərincədir. Amma, yüksək texnologiyaların transfer edilməsi və potensial xarici şirkətlərin ölkəmizin yüngül sənaye sahəsinə gəlməsi üçün məqsədli işlər görülməlidir:

– yüngül sənaye müəssisələrinin modernləşdirilməsi, onların innovativ inkişafı və dünya təcrübəsinin daha dərindən öyrənilməsi istiqamətlərində təsirli tədbirlərin görülməsinə ehtiyac vardır;

– yüngül sənayenin yüksək texnologiyalı inkişafının təmin edilməsi məqsədilə ölkəmizdə yüksək və "ağıllı" texnologiyalar əsaslı müasir yüngül sənaye kompleksləri, tekstil klasterlərinin və parklarının yaradılması vacibdir;

– yüngül sənaye müəssisələrinin investisiya və innovasiya fəaliyyətinin dəstəklənməsi, bu sahədə milli brendlərin yaradılması və dünya bazarlarına çıxarılması prioritetlərinin reallaşdırılması üçün məqsədli proqramların, tədbirlər kompleksinin həyata keçirilməsi zəruridir və s.

**Ədəbiyyat**


1. Azərbaycan statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022, 748 s.
2. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2022, – 422 s.

3. İsmayılova, S.Ə. Azərbaycan Respublikasında yüngül sənayenin inkişafının sosial-iqtisadi məsələləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2018, – 28 s.
4. Məmmədov, F.Ə., Abbasova, Ş.R., Quliyeva, Y.K. Azərbaycan Respublikasında yüngül sənaye sektorunun inkişafına təsir edən amillərin qiymətləndirilməsi. Azərbaycan Texnologiya Universiteti, İnnovasiyalı iqtisadiyyat və menecment, №3, 2022, s.35-39.
5. Дежина, И.Г. Технологические платформы как инструмент укрепления связей в инновационной системе России// Стратегия. – 2014. – № 4. – С. 6–9.
6. Федорова, Т.А. Влияние пандемии на инновации в легкой промышленности / Т.А.Федорова, А.И.Шинкевич, Р.П.Иванова// Инновационная деятельность. – 2020. – № 4(55). – с. 130-136.

**РЕЗЮМЕ**
**ФОРМИРОВАНИЕ НАЦИОНАЛЬНЫХ БРЕНДОВ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА И ПУТИ ВЫХОДА НА МИРОВЫЕ РЫНКИ**
***Каримов Ш.М.***

***Ключевые слова:*** *Азербайджан, легкая промышленность, национальные бренды, мировые рынки, проблемы развития легкой промышленности, направления развития легкой промышлен ности*

В статье рассматриваются проблемы развития легкой промышленности Азербайджана и возможности выхода национальных брендов на мировые рынки. Для этого исследуется и обобщается потенциал развития легкой промышленности. Проанализировано современное состояние легкой промышленности Азербайджана и рассмотрены имеющиеся возможности. Обращено внимание на важность развития легкой промышленности на основе высоких технологий и вопросы формирования национальных брендов. Даны рекомендации и предложения по выводу национальных брендов в сфере легкой промышленности Азербайджана на мировые рынки.

**SUMMARY**
**FORMATION OF NATIONAL BRANDS AND DIRECTIONS OF ACCESS TO THE WORLD MARKETS OF LIGHT INDUSTRY OF AZERBAIJAN**
***Karimov Sh.M.***

***Key words:*** *Azerbaijan, light industry, national brands, world markets, problems of light industry development, directions of light industry development*

The problems of the development of light industry in Azerbaijan and the possibility of national brands entering world markets are considered in the article. The potential for the development of light industry is investigated for this purpose. The current situation of Azerbaijan's light industry and the available possibilities in this sphere are analyzed. Attention is paid to the importance of the development of light industry based on high technologies and the formation of national brands. Recommendations and proposals on the conclusion of national brands in the field of light industry of Azerbaijan to world markets are given in the end of the aricle.

## MEHMANXANALARDA TƏYİN OLUNAN TƏHLÜKƏSİZLİK STANDARTLARI

**Qafarlı Əli Rauf oğlu**
*Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan*
*aligafarli123@gmail.com*

***Açar sözlər:*** *xidmət sektoru, otel təsərrüfatı, siyasi böhran, təhlükəsizlik, otellərdə təhlükəsizlik*

Təhlükəsizlik həyatımızın hər mərhələsində ehtiyac duyduğumuz ən əsas ehtiyaclardan biridir. Özümüzü təhlükəsiz hiss etməsək, nə rahat yemək yeyə, nə də həyatımızın dadını ala bilərik. İşgüzar səfərlərdə, konfranslarda, bayramlarda və xüsusi günlərdə istifadə etdiyimiz otellər təhlükəsiz deyilsə, müştəri itkisinə səbəb olur. Otellər qaldığınız müddətcə ikinci eviniz kimi xidmət edir.

Sizdən bir oteldən nə gözlədiyinizi soruşsalar, cavabınız nə olardı? Təmizlik, mehriban yanaşma, rahatlıq, ehtiyacları həll etmək demək olar. Amma bunlardan daha vacib bir şey var ki, o da "təhlükəsizlik"-ə ehtiyacdır. Əgər mehmanxanada mühafizə xidməti tam və lazımi qaydada yerinə yetirilmirsə, digər xidmətləri qeyd etməyə ehtiyac qalmayacaq.

Otellər qaldğınız müddətdə eviniz kimi olub. Evinizdə oğurluq, basqın kimi hadisələrlə qarşılaşmaq istəmədiyiniz kimi, otellərdən də bunu gözləyirsiniz. Bir sözlə, qalacağınız otel nə qədər təhlükəsizdirsə, bir o qədər üstünlük verir [5].

Otellərdə sağlamlıq və təhlükəsizlik niyə vacibdir? Çünki:

1. Kadr dəyişikliyini azaltmağa kömək edir:

Qonaqpərvərlik sənayesi yüksək dövriyyə sürətinə malikdir, çünki iş yerləri mövsumi xarakter daşıyır və daha gənc demoqrafik təbəqəni cəlb edir ki,onlar təcrübə qazandıqca daha sonra digər sənaye sahələrinə keçirlər. Yüksək dövriyyənin digər səbəbi işçilərin məruz qaldığı gündəlik sağlamlıq və təhlükəsizlik problemləri ola bilər. Otel rəhbərliyi müntəzəm təhlükəsizlik təlimləri keçirməklə iş risklərini minimuma endirməklə yüksək dövriyyə sürətini azalda bilər.

2. Keyfiyyətli müştəri xidməti üçün reputasiya inkişaf etdirir:

Əgər mehmanxananız keyfiyyətli müştəri xidməti,təhlükəsizlik və sanitar xidmət göstərmək üçün nüfuz qazanırsa, siz mövcud müştəriləri qoruyub saxlamaqla asanlıqla yeni müştəriləri cəlb edə bilərsiniz. Otellər rəqəmsal bir dövrdə fəaliyyət göstərir ki, şirkətinizin saytında və ya sosial mediada yeməyiniz, pis sanitar vəziyyətiniz və ya qonaqlar üçün qeyri-adekvat təhlükəsizlik tədbirləri ilə bağlı pis baxış otelinizin rezervasiyalarını əhəmiyyətli dərəcədə azalda bilər.

3. Mənfəəti artırır:

Effektiv sağlamlıq və təhlükəsizlik protokollarının birləşdirilməsi yeni müştəriləri cəlb etməyə kömək edə bilər ki,bu da gəlirlərinizi artırır [3].

Təhlükəsizlik bölməsinin funksiyası müxtəlifdir və mehmanxananın fəaliyyətində mühüm rol oynayır. Bölmənin əsas funksiyası, otelin daxilində yerləşəm sahələrə, xaricində yerləşən ərazilərə nəzarət etmək və keşik çəkməkdir. Bundan başqa, bölmənin funksiyasında otelin əməkdaşlarının təhlükəsizlik qaydaların əməl etməsini tələb etmək, kənar və şübhəli şəxslərin, otelin qadağan olunmuş yerlərinə daxil olmasının qarşısını almaq, qonaqların otelin daxili intizam qaydalarına riayət etməsinə nəzarət etmək,yanğından mühafizə qaydalarına diqqət yetirmək və s. daxildir. Mehmanxanada böyük tədbirlər keçirilən zaman, bölmənin işçiləri səfərbər olunur, nəzarət ikiqat artır, məsuliyyət çoxalır. Təhlükəsizlik bölməsinin əməkdaşları, nömrədə yaşayanların yanına qonaq qismində gələnlərin şəxsiyyəti ilə tanış olmalı, nömrəyə zəng etməli, qonağı qəbul edib və ya etmədiyini soruşmalı, və gələn qonağın şəxsiyyətini təsdiq edən sənədə əsasən jurnala məlumatları yazmalıdır. Mehmanxanada yaşayan qonağın əşyaları, nömrədə yaddan çıxıb qalıbsa, akt tərtib olunur və saxlama kamerasına təhvil verilir. Sonradan, anketə əsasən qonağın ünvanına xəbər göndərilir [1].

Fövqəladə vəziyyətlərə təhlükəsizlik xidmət adekvat reaksiya verməyə borcludur. Terrorizmin geniş yayıldığı müasir cəmiyyətdə bu, çox mühüm amildir. Mehmanxanalarda cinayətlər çox vaxt 19.00 ilə gecə 05.00 arasında baş verir. Bu vaxtlar işçilər öz yerlərində xüsusən mərtəbələrdə olmaya bilər. Son illərdə elektron kilidlərin tətbiq olunması nömrələrin təhlükəsizliyini etibarlı edib. Plastik açarlar baş inzibatçının ofisində kodlaşdırılır və qonağa verilir. Bu açarın kodu qonaq mehmanxanadan gedəndən sonra öz qüvvəsini itirir. Televizor monitorları vasitəsilə müşahidə aprılması nömrələrdə oğurluğun və oteldə qonaqlara qarşı zorakılığın sayını azaldıb.

Nəzərə almaq lazımdır ki, otel personalının bilməli olduğu və qonaqların təhlükəsizliyində istifadə etdiyi müəyyən standartlar mövcuddur. Bu standartlar artıq neçə ildir otelçilik sahəsində var və tətbiq olunur. Qeyd edilən standartlar əsasən bunlardır:

• Qonaqlar və onların qiymətli əşyalarına diqqət etmək.

Qonaqlar qətl, adam qaçırma,otel işçiləri və ya kənar şəxslər tərəfindən təhdid olunma kimi əməllərdən qorunmalıdır. Gigiyenik təzə qida və içməli su ilə təmin edilməlidir. Qonaqların otağı təhlükəsiz və kilidləmə sistemi ilə qorunmalıdır. Bu tip qapıların əlavə üstünlükləri onların smart kartlar və maqnit zolaqları ilə idarə olunan elektron qurğular tərəfindən dəstəklənməsidir.

• Otel resurslarının qorunmasını təmin etmək.

Otel rəhbətliyi tez xarab olan bütün qida məhsullarının nəzarətini həyata keçirməlidir.Bütün mehmaxana kompleksi müvafiq zərərverici hadisələrə qarşı müəyyən mexanizmlərdən istifadə etməlidir [2].

• Qapıların kilidli olmasından əmin olun.

Siqaret fasiləsi və ya hər hansı məsələ üçün çölə çıxıdığınızda qapıların kilidli olduğuna əmin olun. Qapı kilidli olmadıqda istənməyən şəxslərin qapıdan keçməsi onlara çətinlik törətməz.

• Təhlükələri müəyyən edib onlarla mübarizə aparmaq.

Sağlamlıq və təhlükəsizlik oteldə işləyən hər kəsin məsuliyyətidir. Bütün qonaqların, ziyarətçilərin və işçilərin hər zaman təhlükəsiz olmasını təmin etmək üçün hər kəsi təhlükələri aşkar etməyə və onlarla tez və effektiv şəkildə məşğul olmağa təşviq edin.

• Evakuasiya planını öyrənmək.

Evakuasiya planları hər mərtəbə üçün nəzərdə tutulmuşdur, ona görə də işçilərin yanğın və ya fövqəladə hallar zamanı qonaqlara oteli təhlükəsiz tərk etmələrinə kömək etmək üçün evakuasiya planlarını – pilləkənlər,liftlər,eskalatorlar və s. bilmələri vacibdir.

• Avadanlıqlardan düzgün istifadə etmək.

İstər mətbəxdəki məişət texnikası, istərsə də tozsoran kimi sadə bir şey olsun, bütün işçilərin istifadə edəcəyi avadanlıqlar üzrə düzgün təlim keçilməlidir. Onlar nasaz avadanlığı dərhal aşkar etməli və bu nasazlığı mümkün qədər tez aradan qaldırmalıdır.

• Yerdə olan şüşə qırıqlarını,zibilləri təmizləmək.

Oteldəki hər kəsin təhlükəsizliyi üçün ortalıqda olan "problemləri" minimuma endirmək üçün tökülən zibil və ya şüşə qırıqlarını təmizləmək lazımdır.Əgər təmizlənməsə ciddi işçi və ya qonaq zədələnmələrinə səbəb ola bilər [4].

Bu standartlardan əlavə bəzi standartlar mövcuddur ki, bunlar ümumi olaraq otellərdə istifadə olunur.Bunlar aşağıdakılardır:

Yanğın Təhlükəsizliyi Standartları: Yanğın təhlükəsizliyi otellər üçün kritik məsələdir. Otelin qonaq otaqlarından tutmuş mətbəxə qədər istənilən hissəsində yanğın baş verə bilər. Otellər ciddi yanğın təhlükəsizliyi qaydalarına riayət etməli və müvafiq yanğınsöndürmə sistemləri quraşdırılmalıdır. Otellər həmçinin qonaqların və işçilərin yanğın zamanı nə etməli olduqlarını bilmələrini təmin etmək üçün müntəzəm yanğın təlimləri keçirməlidir.

Elektrik Təhlükəsizliyi Standartları: Elektrik təhlükəsizliyi otel təhlükəsizliyi standartlarının digər mühüm aspektidir. Otellər bütün elektrik sistemlərinin, o cümlədən naqillərin, sxemlərin və cihazların yaxşı vəziyyətdə olmasını və təhlükəsizlik standartlarına cavab verməsini təmin etməlidir. Potensial təhlükələri müəyyən etmək və düzəltmək üçün mütəmadi olaraq elektrik yoxlamaları aparılmalıdır.

Struktur Təhlükəsizlik Standartları: Binanın zəlzələ və qasırğa kimi təbii fəlakətlərə tab gətirə bilməsini təmin etmək üçün otellər ciddi struktur təhlükəsizlik standartlarına cavab verməlidir. Hər hansı struktur çatışmazlıqları aşkar etmək üçün mütəmadi olaraq yoxlamalar aparılmalı və onların aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Qida Təhlükəsizliyi Standartları: Qida ilə yoluxan xəstəliklərin yayılmasının qarşısını almaq üçün otellər qida təhlükəsizliyi standartlarına uyğun olmalıdır. Qida təhlükəsizliyi standartlarına qida məhsullarının düzgün saxlanması, daşınması və hazırlanması, mətbəxlərin və qida xidmət sahələrinin müntəzəm yoxlanılması daxildir.

Fövqəladə hallara cavab standartları: Otellər həmçinin yanğınlar, təbii fəlakətlər, tibbi fövqəladə hallar və təhlükəsizlik insidentləri də daxil olmaqla bir sıra potensial fövqəladə hallara cavab vermək üçün effektiv "fövqəladə hallara cavab" planlarına malik olmalıdır.Bu planlara fövqəladə vəziyyət barədə qonaqların və işçi heyətinin məlumatlandırılması, ilk tibbi yardımın göstərilməsi, binanın boşaldılması və fövqəladə hallar xidmətləri ilə əlaqənin aydın prosedurları daxil edilməlidir.

Təlim və təhsil standartları: Nəhayət, mehmanxanalar işçilərinin təhlükəsizlik prosedurları və standartları üzrə adekvat təlim keçməsini və maarifləndirilməsini təmin etməlidir. Buraya yanğın təhlükəsizliyi, fövqəladə halların aradan qaldırılması və təhlükəsizlik prosedurları üzrə müntəzəm təlimlər, həmçinin qida təhlükəsizliyi və digər müvafiq təhlükəsizlik standartları üzrə təlimlər daxildir.

Təhlükəsizlik Standartları: Otellər qonaqlarının, işçilərinin və əmlakının təhlükəsizliyini təmin etməlidir. Onların müvafiq təhlükəsizlik tədbirləri olmalıdır, məsələn, CCTV kameraları, təhlükəsizlik işçiləri və otelin ərazisinə nəzarət edilən giriş. Otellər həmçinin təhlükəsizlik insidentlərini idarə etmək üçün fövqəladə prosedurlara malik olmalıdırlar.

Otellər üçün təhlükəsizlik standartlarının önəmi:

Qonaqların Təhlküəsizliyi: Otellərdə təhlükəsizlik standartlarının ən mühüm səbəbi qonaqların təhlükəsizliyini qorumaqdır. Otellər qonaqların qaldıqları müddətdə özlərini təhlükəsiz hiss etmələrini təmin etməlidir. Təhlükəsizlik standartlarının həyata keçirilməsi qonaqlara zərər verə biləcək qəza və hadisələrin qarşısını ala bilər.

Qanuni uyğunluq: Təhlükəsizlik standartlarınına uyğunluq otellər üçün məcburidir. Uyğunsuzluq mübaisələr, cərimələrvə hətta otelin bağlanması kimi hüquqi sonluqlar ilə nəticələnə bilər.

Reputasiya: Təhlükəsizlik standartları otelin reputasiyasında mühüm rol oynayır. Təhlükəsizlik standartlarına riayət edən otellər qonaqlar tərəfindən daha etibarlı sayılır. Təhlükəsizlik standartları həmçinin qonaqların ümumi təcrbüəsinə və məmnunluğuna kömək edir.

İşçilərin Təhlükəsizliyi: Təhlükəsizlik standartları təkcə qonaqları deyil, həm də otel işçilərinin təhlükəsizliyini təmin edir. Təhlükəsiz iş şəraiti, lazımi təlim və təhlükəsizlik texnikası iş yerində qəzaların və xəsarətlərin qarşısını ala bilər.

Nəticə etibarilə,otelin təhlükəsizliyi həm qonaqlar, həm də işçilər üçün kritik məsələdir. Qəzaların, cinayətlərin və fövqəladə halların qarşısını almaq üçün otellərin effektiv təhlükəsizlik tədbirlərinə malik olmasını təmin etmək vacibdir. İşçilər üçün düzgün təlim, ciddi təhlükəsizlik protokolları və etibarlı fövqəladə hallara cavab planları otel təhlükəsizliyini təmin etməyin yollarından bəziləridir. Bundan əlavə, qonaqlar təhlükəsizliklərini daha da artırmaq üçün qapılarını kilidləmək, otel seyflərindən istifadə etmək və

ətrafdan xəbərdar olmaq kimi ehtiyat tədbirləri görə bilərlər. Təhlükəsizliyə üstünlük verməklə, otellər bütün qonaqlar və işçilər üçün təhlükəsiz və rahat mühit yarada bilər və bu, hamı üçün xoş və yaddaqalan təcrübəyə səbəb ola bilər.

**Ədəbiyyat**

1. Ağakərimov M.M. Otel. Bakı, 2008. 207 s.
2. Uttarakhand Open University. Safety, Security and Travel Documentation. İndia 2022. 84 s.
3. https://www.amenitiz.com
4. https://www.sfceurope.com
5. https://astrayonetim.com
6. https://lemanpirimova.wordpress.com

**РЕЗЮМЕ**
**СТАНДАРТЫ БЕЗОПАСНОСТИ, УСТАНОВЛЕННЫЕ В ОТЕЛЯХ**
***Кафарлы А.Р.***

***Ключевые слова**: сфера услуг, гостиничный бизнес, политические кризисы, безопасность, безопасность в отелях.*

Как известно, сфера услуг является одной из самых прибыльных в наше время. Вследствие этого, страны мира формируют линию политики в данном направлении. Устранение проблем безопасности в системе гостиничного бизнес-хозяйства считается одним из самых актуальных вопросов современности. К таким проблемам относятся политические кризисы, массовые убийства и т.д. В него входят такие факторы, как обеспечение безопасности туристов и персонала, что считается одним из ключевых моментов в системе гостиничного хозяйства. Кроме того, все вопросы, связанные с безопасностью в отелях, следует доводить до сведения персонала.

**SUMMARY**
**SAFETY STANDARDS SET IN HOTELS**
***Qafarli A.R.***

***Key words**: service sector, hotel economy, political crises, security, security in hotels*

As it is known, the service sector is one of the most profitable sectors in modern times. As a result of this, the countries of the world are forming a policy line in this direction. Eliminating security problems in the hotel economy system is considered one of the most urgent issues of the modern era. Such problems include political crises, etc. as.

Ensuring the safety of tourists and staff is considered one of the main factors in the hotel economy system. In addition, all issues related to security in hotels should be communicated to the staff.

# SAHİBKARLIQ SUBYEKTLƏRİNİN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏR

**Qasımova Zülfiyyə Mirzə qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*qasimovazulfiyya75@gmail.com*

***Açar sözlər:** xarici iqtisadi fəaliyyət (XİF), müəssisə, sahibkarlıq subyektləri, istehsal, məhsul*

Məlumdur ki, müəssisə müəyyən iqtisadi məqsədə çatmaq üçün təşkil edilmiş əmlaka əsaslanan təsərrüfat vahididir, yəni iqtisadi vahiddir ki, müstəqil qərarlar qəbul edir, məhsulların istehsalı və satışı üçün faktiki olaraq istehsal amillərindən istifadə edir, gəlir əldə etməyə və başqa məqsədlərə nail olmağa çalışır. Müəssisələr şərait, məqsədlər və fəaliyyət xarakteri baxımından fərqlidir. Sahibkarlıq fəaliyyətinin daha dərindən öyrənilməsi məqsədilə müəssisələr adətən təsərrüfat fəaliyyətinin növü və xarakterinə, mülkiyyət formalarına, kapitalın mülkiyyətinə və ona nəzarətə, hüquqi statusuna və digər xüsusiyyətlərinə görə təsnif edilir. Müəssisə öz fəaliyyətini reallaşdırmaq məqsədilə müəyyən iqtisadi resurslara (və ya istehsal amillərinə) - iqtisadi səmərə əldə etmək yolunda istifadə olunan elementlərə malik olmalıdır. Adətən iqtisadi ədəbiyyatda müəssisənin malik olduğu və istehsal fəaliyyətində istifadə etdiyi hər şey onun mülkiyyəti adlanır. Sahibkarlıq subyektləri bu mülkiyyətdən istifadə etməklə özlərinin xarici iqtisadi fəaliyyətini (XİF) genişləndirməyə səy göstərir.

XİF, sahibkarlıq subyektlərinin mənfəətini artırmaqla bərabər, istənilən ölkənin iqtisadi artımının təmin edilməsində də əsas rol oynayır. XİF, iqtisadiyyatın inkişafının ən önəmli tərkib hissəsi olmaqla yanaşı, onun əsas istiqamətidir. XİF dedikdə, sahibkarlıq subyektlərinin beynəlxalq iqtisadi münasibətlərdə iştirakı ilə bağlı olan kommersiya fəaliyyətini də başa düşə bilərik.

İstehsal səviyyəsini yüksəltmək və iqtisadi səmərə əldə etmək məqsədilə sahibkarlıq subyektləri xarici iqtisadi ticarət əməliyyatlarını reallaşdırmalıdırlar. Beynəlxalq işgüzar əlaqələr həmin subyektlərin

ixrac səviyyəsinin artmasına kömək edir və bu da mənfəətin artmasına şərait yaradır. Müəssisənin XİF-i istehsal, mal və xidmətlərin idxalı və ixracı, beynəlxalq bazara çıxışı ilə qlobal inteqrasiya və kooperasiya ilə əlaqəli iqtisadi fəaliyyət sahəsidir. XİF, investorları cəlb etmək və xarici şirkətlər arasında tərəfdaşlar tapmaq məqsədi daşıyır. Bu, şirkətə satış bazarlarının genişləndirilməsi və onun mal və xidmətlərinin satışı, beynəlxalq əmək bölgüsündə (BƏB) iştirak, istehsalın beynəlxalq ixtisaslaşması və kooperasiyası kimi bir sıra üstünlüklər verir. Yerli sahibkarlıq subyektlərin XİF-in reallaşdırılmasında iqtisadi səmərə əldə etməyə arxalanır və aşağıdakı konkret motivləri rəhbər tuturlar:

- dünya bazarında məhsul bazarlarını genişləndirməklə mənfəətlərin maksimuma çatdırılması;
- xarici ticarət bazarında xammal, yeni texnologiyalar və komponentlər əldə etmək imkanı;
- xarici investisiyaların cəlb edilməsi yolu ilə istehsalın modernləşdirilməsi və dünya bazarında rəqabət qabiliyyətinin artırılması;
- iqtisadiyyatın inkişafına töhfə verərək BƏB-də, istehsalın ixtisaslaşması və kooperasiyasında iştirak;
- xarici şirkətlərdən yaranan yerli məhsullar bazarında rəqabətin güclənməsi;
- öz ölkəsində olmayan nadir resursların axtarışı;
- uğurlu inkişafı üçün ən əlverişli coğrafi mövqeyin olması;
- xarici ölkələrdən potensial müştərilərin cəlb edilməsi;
- xarici ticarət bazarlarında ucuz resurslar əldə etmək imkanının olması;
- xarici bazarlara çıxış zamanı gəlir itkisi ilə bağlı risklərin minimuma endirilməsi və daxili bazardan tam asılılığın qarşısının alınması.

XİF-in aparılmasına bir sıra amillər mane ola bilər. Bunlara aşağıdakılar daxildir:

- siyasi və hərbi münaqişələr;
- iqtisadi böhran;
- məhsulların keyfiyyətinə təsir edən istehsalın texniki təchizatının aşağı səviyyədə olması;
- digər ölkələrin sanksiyaları və digər iqtisadi məhdudiyyətləri;
- dövlət tənzimlənməsinin balanssız mexanizmi;
- iki ölkə arasında hüquqi bazanın mükəmməl olmaması.

XİF-in inkişafına bir sıra amillər təsir edir ki, onları aşağıdakı kimi qruplaşdırmaq məqsədəuyğundur:

- iqtisadi (iqtisadi inteqrasiya, kapitalın ixracı, ixrac sənayesinin iqtisadi stimullaşdırılması və s.);
- siyasi (siyasi inteqrasiya, siyasi münasibətlərin xarakteri);
- sosial (nəqliyyatın, rabitənin, xidmətlərin inkişaf səviyyəsi);
- ərazi-coğrafi (dünyada xammal və əmək ehtiyatlarının qeyri-bərabər paylanması).

Siyasi amillər sahibkarlıq subyektlərinin XİF-in dövlət tənzimlənməsinə önəmli təsir göstərir, xüsusən də hərbi münaqişələrdən, sanksiyalardan və digər məhdudiyyətlərdən asılıdır. Sahibkarlıq subyektləri öz siyasətlərini dövlət qanunlarına uyğun olaraq planlaşdırmalıdır. İqtisadi amillərə aiddir iqtisadi artım templəri, ÜDM dinamikası, neftin qiyməti, valyuta məzənnələri, inflyasiya, işsizlik səviyyəsi, rəqabət səviyyəsi və s. Bu amillər ümumən vətəndaşların alıcılıq qabiliyyətinə və müəssisə məhsullarının xarici bazarda istehlak strukturuna təsir göstərir. Sahibkarlıq subyektlərinin XİF-nə təsir göstərən sosial amillər sosial qrupların strukturunu, istehlakçıların üstünlüklərinin bölüşdürülməsini, cəmiyyətin yaş və cins strukturunun paylanma dinamikasını, əhalinin yaşayış səviyyəsini, əmək haqqı gözləntilərini və s. əhatə edir. Texnoloji amillər dünya bazarında istehsalın inkişaf tendensiyalarına və orada yeni texnologiyaların tətbiqinə təsir göstərən elmi-texniki yeniliklərdir. Bunlara elmi kəşflər, patent hüququ və sənayedə dəyişikliklər, internetin və mobil amillərin sənayeyə təsiri daxildir.

Elmi-texniki (birgə elmi-texniki fəaliyyət, beynəlxalq məlumat mübadiləsi) və ekoloji amillərin əhəmiyyəti texnoloji və ekoloji problemlərə müxtəlif yanaşmalar səbəbindən danılmaz olaraq artır. XİF-in xüsusiyyətlərini nəzərə alaraq, bu amilləri daxili və xarici omaqla iki qrupa bölmək lazımdır. Xarici amillərə aşağıdakılar daxildir: - ölkədəki iqtisadi vəziyyət; - elmi-texniki tərəqqi; - ölkədəki siyasi vəziyyət; - ölkənin inkişafı üçün dəqiq strateji planların olmaması; - iqtisadi qloballaşma və s.

Daxili amillərə aşağıdakılar daxildir: - sahibkarlıq subyektlərinin kadrları; - istehsal texnologiyaları; - logistika; - marketinq və s.

Sahibkarlıq subyektlərinin XİF-nin inkişafına təsir edən bir sıra başqa amillər də var.

1. Dünya ölkələrinin qeyri-bərabər inkişafı. İstənilən ölkənin öz inkişaf səviyyəsi, iqtisadi strukturu, istehsalın ixtisaslaşması var.

2. İnsan, maliyyə, əmək resurslarındakı fərqlər. Artıq əmək ehtiyatları olan və əlavə işçi axınına ehtiyacı olan ölkələr vardır.

3. Siyasi münasibətlərin xarakteri. Dostluq əlaqələrinin olması siyasi əlaqələrin möhkəmlənməsinə, xarici ticarətin inkişafına kömək edir.

4. Elmi-texniki inkişafın müxtəlif səviyyəsi. Alimlərin, tələbələrin, texnologiyaların daimi mübadiləsi təcrübənin zənginləşməsinə, informasiya, bilik, bacarıqların mübadiləsinə, XİF-in inkişafına töhfə verən bacarıqların mənimsənilməsinə kömək edir.

5. Coğrafi yerləşmənin xüsusiyyətləri, təbii-iqlim şəraiti və s [1, s.117].

XİF-in inkişafı BƏB-in daha da dərinləşməsi, əmək nəticələrinin intensiv, rasional mübadiləsi, əlaqələrin daha da möhkəmlənməsi, transmilli korporasiyaların məhsuldar fəaliyyəti və s. ilə bağlıdır. Bütün amilləri qiymətləndirərək hər birində mümkün dəyişiklikləri proqnozlaşdırmaq olar.

Sahibkarlıq subyektləri müasir idarəetmə konsepsiyalarını və hər şeydən əvvəl marketinqi tətbiq etməklə xarici bazarlarla uğurla işləməyi bacarırlar. Xarici bazarlar orada təklif olunan mallara daha yüksək tələblər qoyur. Bunun səbəbi istehsalçılar arasında gərgin rəqabətdir. Xarici bazarların, onların imkanlarının öyrənilməsi daha zəhmətli və çətindir, çünki müxtəlif mənbələrdən çoxlu məlumat və tədqiqatçılardan daha yüksək ixtisas tələb edir. Bazar araşdırması XİF-in təşkili və təkmilləşdirilməsində müəssisənin idarəetmə aparatı tərəfindən elmi və praktiki cəhətdən əsaslandırılmış, ixtisaslı, səmərəli idarəetmə qərarlarının qəbulu üçün məlumat mənbəyidir [4, s.58].

Sahibkarlıq subyektlərinin XİF-i müxtəlif səviyyələrdə tənzimləyici təsirə məruz qalır. Odur ki, sahibkarlıq subyektlərinin XİF-nin institusional mühitinin öyrənilməsi zəruridir. Sahibkarlıq subyektlərinin XİF-nin institusional mühitinin hərtərəfli təhlili onların fəaliyyətlərinin səmərəliliyinə təsirini qiymətləndirmək üçün istiqamətləri müəyyənləşdirməyə və metodoloji yanaşmaları formalaşdırmağa imkanı verir. XİF-in subyektləri olan sahibkarlara tətbiq edilən institusional dəyişikliklər beynəlxalq təcrübədə uğur qazanmış idxal və ixrac üzrə müəyyənləşdirilmiş qayda, norma və tələblərə uyğun olmalıdır [3, s.97].

Ümumiyyətlə, təsir dairələrini genişləndirmək və mənfəəti artırmaq istəyən bir çox sahibkarlıq subyektləri beynəlxalq bazarlara çıxmaq vəzifəsini qarşılarına qoyurlar. Bu gün, rəqəmsal iqtisadiyyatın fəal inkişafı və formalaşması məqamında istənilən sahibkarlıq subyekti üçün qlobal bazara daxil olarkən onların güclü tərəflərini təkcə iqtisadi nöqteyi-nəzərdən qiymətləndirməklə bərabər, bu prosesdə iştirak səviyyəsini də nəzərə almaq vacibdir. Sahibkarlıq subyektləri daim dəyişən mühitdə işləmək məcburiyyətində qalır, ayaqda qalmağa çalışırlar. Hazırda sahibkarlıq subyektlərinin qarşısında duran əsas vəzifə rəqəmsal iqtisadiyyatın tələblərinə uyğun fəaliyyət göstərməkdir. Rəqəmsal iqtisadiyyatın inkişafı yeni rəqabət növünün - hiperrəqabətin yaranmasına səbəb olmuşdur. Hiperrəqabətin sistem elementləri çoxsəviyyəli və çoxölçülüdür: yeni biliklər (səriştələr), idarəolunma qabiliyyəti, dinamizm, uyğunlaşma, mobillik, innovasiya, səmərəlilik və s. Bu elementlər dünya liderlərinin və texnoloji cəhətdən inkişaf etmiş transmilli şirkətlərin üstünlüklərini müəyyənləşdirir. Rəqəmsal iqtisadiyyat şəraitində sahibkarlıq subyektlərinin XİF-ində müəyyən sayda önəmli dəyişikliklər aşağıdakılarla bağlıdır:

1) əhəmiyyətli resursa çevrilmiş informasiyanın istehsal amili kimi meydana çıxması;

3) İKT-nin istifadəsi hesabına tranzaksiya xərclərinin azaldılması;

4) istehsala əsaslanan İKT-nin reallaşdırılmasında insan amilinin rolunun artması;

5) informasiya resursundan fəal istifadə etməklə qeyri-müəyyənlik amilinin əhəmiyyətinin azaldılması.

Sahibkarlıq subyektlərinin XİF-ində rəqəmsallaşma prosesi istehsal və idarəetmə prosesinə geniş spektrli rəqəmsal xidmətlərin, məhsulların və sistemlərin fəal şəkildə tətbiqi ilə xarakterizə olunur.

Sahibkarlıq subyektləri öz müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və xarici bazarda səmərəli işləmək məqsədilə aşağıdakı istiqamətlərdə XİF-i reallaşdırmalıdırlar (şəkil).

Bu gün sahibkarlıq subyektlərinin XİF-i beynəlxalq sərgilərdə iştirakdan, unikal məhsulların ölkə təmsilçisi kimi təqdim edilməsindən, sərgilərdə iştirak edən ölkələr arasında beynəlxalq əlaqələrin inkişaf etdirilməsindən ibarətdir. Beynəlxalq ticarət beynəlxalq iqtisadi inteqrasiyanın ən inkişaf etmiş yollarından biridir. İstənilən ölkədə iqtisadi resurslar fərqli şəkildə bölüşdürülür, yəni bu, istənilən ölkənin fərqli iqtisadi potensiala malik olduğunu göstərir. Məsələn, bir ölkədə təbii sərvətlər həddindən artıq ola bilər, digərində isə bu resurs tamamilə yox ola bilər. Bunun nəticəsində bu resursların vahid bölgüsü tələb olunur ki, bu da BƏB-in formalaşmasına gətirib çıxarır, yəni ölkələr arasında müəyyən resursların mübadiləsi baş verir. XİF-in inkişafı xüsusi yüksək texnoloji resurslar tələb edir. Bu gün dünyada bir çox müəssisə və təşkilatlar XİF-lə məşğuldurlar. Bu göstərici nə qədər yüksəkdirsə, ölkənin inkişaf səviyyəsi də bir o qədər yüksəkdir.

Sahibkarlıq subyektlərinin gələcək uğuru onların fəaliyyətinin hərtərəfli təhlili vəziyyətindən asılıdır. XİF-in hərtərəfli təhlili həmin subyektlərin iqtisadi fəaliyyətinin istehsalla birbaşa və ya dolayısı ilə əlaqəli bütün aspektlərinin mərhələli tədqiqi prosesidir. Bir çox hallarda sahibkarlıq subyektləri öz məhsullarının satış istiqamətlərini müxtəlif bazarlar hesabına şaxələndirirlər. XİF-in hərtərəfli təhlilinin düzgün və vaxtında aparılması, ən əsası isə onun reallaşdırılmasının yaxşı təşkili sahibkarlıq subyektlərinin taktiki-strateji

idarəetməsinin səmərəliliyinin açarıdır. Ənənəvi olaraq XİF-in hərtərəfli təhlili həmin fəaliyyətlə məşğul olan sahibkarlıq subyektlərində ixrac, idxal və digər əməliyyatların uçotunun və valyuta nəzarətinin təşkili çərçivəsində reallaşdırılır. Bu günə qədər nəzəriyyə və təcrübə XİF-in hərtərəfli təhlilinin aparılması üçün bir sıra üsullar toplanmışdır ki, bunlar onların hesablanması üçün göstəricilər və alqoritmlər toplusudur [2, s.73].




**Şəkil. Sahibkarlıq subyektlərində XİF-in əsas istiqamətləri**

Sahibkarlıq subyektlərinin XİF-nin təhlili aşağıdakıları həll etmək üçün istifadə olunur:

1. Sahibkarlıq subyektlərinin öz xidmətlərini təklif etdiyi bazarda ixrac və idxalın həcminin hesablanması.
2. Müəssisələrin ixrac və idxalının həcminin ölkənin iqtisadi göstəricilərinə təsiri.
3. XİF-də iştirak edən sahibkarlıq subyektlərinin sayı.
4. Müqavilə öhdəliklərinin dinamikasının və strukturunun təhlili.
5. İxrac (idxal) əməliyyatlarında vəsaitlərin dövriyyəsinin təhlili.
6. Öhdəliklərin müəssisənin ödəmə qabiliyyətinə, likvidliyinə və maliyyə sabitliyinə təsirinin təhlili.

XİF-in təhlili zəhmət tələb edən prosesdir. Sahibkarlıq subyektləri beynəlxalq bazarda fəaliyyət göstərdiyindən və öz məhsulları ilə yanaşı fəaliyyət göstərdiyi ölkəni də təmsil etdiyi üçün bu təhlilə tələblər daha yüksəkdir. Bu təhlil bir sıra amillərə xüsusi diqqət yetirməyi tələb edir:

1. İxrac və idxal əməliyyatlarının müddəti. İstehlakçı təşkilatların və satıcıların bir-birindən uzaq yerləşdiyindən, bu, əlavə vaxt tələb edir.
2. Xarici valyutada hesablaşma əməliyyatları.
3. Malların və xidmətlərin daşınması üçün bir sıra xərclərin olması.
4. Gömrük nəzarətindən keçmək [5, s.455].

Beləliklə, əminliklə deyə bilərik ki, sahibkarlıq subyektlərinin XİF-nin təhlili bir sıra xüsusiyyətlər tələb edən və diqqəti cəlb edən daha dərin və zəhmətli bir prosesdir. Bu təhlil onların öz resurslarından nə

qədər səmərəli istifadə etdiyini, əməliyyatlar apardığını, habelə menecerlərin öz səlahiyyətlərini nə dərəcədə səmərəli reallaşdırdıqlarını mühakimə etməyə imkan verir ki, bu da son nəticədə həmin subyektlərin XİF-nin tam təhlilini verir.

### Ədəbiyyat


1. Аметова, Н. У. Факторы развития внешнеэкономической деятельности предприятия / Н. У. Аметова // Симферополь: Общество с ограниченной ответственностью «Издательство Типография «Ариал», 2020. – С. 116-119
2. Гринчевская, Я. А. Факторы и условия развития комплексного анализа внешнеэкономической деятельности предприятия / Я. А. Гринчевская, Л. В. Колбацкий // Актуальные вопросы современной экономики. – 2021. – № 7. – С. 71-78
3. Кених, Н. В. Экономические факторы стимулирования внешнеэкономической деятельности предприятия / Н. В. Кених // Modern Economy Success. – 2022. – № 4. – С. 97-101
4. Рубцова, Н. А. Внешнеэкономическая деятельность как фактор эффективного развития предприятий / Н. А. Рубцова // Национальные интересы: приоритеты и безопасность. – 2013. – Т. 9, № 12(201). – С. 54-62
5. Фазлыева, А. Ф. Анализ финансово-хозяйственной деятельности предприятия осуществляющей внешнеэкономическую деятельность / А. Ф. Фазлыева, Л. Х. Курбанаева // Прага: Научно-издательский центр "Мир науки" (ИП Вострецов Александр Ильич), 2016. – С. 453-456



**РЕЗЮМЕ**

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ВНЕШНЕЭКОНОМИЧЕСКУЮ ДЕЯТЕЛЬНОСТЬ СУБЪЕКТОВ ПРЕДПРИНИМАТЕЛЬСТВА**

***Гасымова З.М.***

***Ключевые слова:*** *внешнеэкономическая деятельность (ВЭД), предприятие, субъекты предпринимательства, производство, товар*

Принимая во внимание роль предпринимательской деятельности в увеличении доходов бюджета и развитии экономики страны, мы видим насколько актуальна тема статьи. В статье обосновывается необходимость развития деятельности субъектов предпринимательства. Исследована роль внешнеэкономической деятельности в расширении деятельности субъектов предпринимательства и увеличении их прибыли. Изучены факторы, влияющие на внешнеэкономическую деятельность субъектов предпринимательства, и направления развития.



**SUMMARY**

**FACTORS AFFECTING THE FOREIGN ECONOMIC ACTIVITY OF BUSINESS ENTITIES**

***Gasimova Z.M.***

***Key words:*** *foreign economic activity (FEA), enterprise, business entities, production, goods*

Taking into account the role of entrepreneurial activity in increasing budget revenues and developing the country's economy, we see how relevant the topic of the article is. The article substantiates the need to develop the activities of business entities. The role of foreign economic activity in expanding the activities of business entities and increasing their profits has been studied. The factors influencing the foreign economic activity of business entities and directions of development are studied.


## İNTEQRASİYA PROSESLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ


**Qazıyeva Səbinə Tahir qızı, Məmmədova Elnarə Məmmədəli qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*ilqarosmanov1975@mail.ru*



***Açar sözlər:*** *inteqrasiya, iqtisadiyyat, ticarət, maliyyə, istehsal*


İnteqrasiya proseslərinin inkişafı müasir dünya iqtisadiyyatının ən mühüm xarakterik xüsusiyyətidir və iqtisadi inteqrasiya ölkələrə xammal, yanacaq, əmək ehtiyatlarından daha səmərəli istifadə etməyə, ərazi əmək bölgüsünü yaxşılaşdırmağa kömək edir. Əsasən ticarətə əsaslanan adi iqtisadi əməkdaşlıqdan iqtisadi inteqrasiya hərtərəfli əlaqələrin daha da dərinləşməsi, ayrı-ayrı ölkələrin istehsal proseslərinin birləşməsi ilə fərqlənir. İqtisadi inteqrasiya müxtəlif ölkələrin milli iqtisadiyyatlarının qarşılıqlı əlaqəsi və qarşılıqlı uyğunlaşmasıdır, onların tədricən iqtisadi birləşməsinə səbəb olur [2, s.35].

İqtisadi inteqrasiya aşağıdakı xüsusiyyətlərlə səciyyələnir: inteqrasiya birliyinin iştirakçılarının iqtisadi siyasətinin uyğunlaşdırılması, milli qanunvericiliyin koordinasiyası, assosiasiyaya daxil olan

ölkələrin istehsalında ixtisaslaşmanın mövcudluğu, birliyə daxil olmayan ölkələrə qarşı birgə siyasət [5, s.124-125].

Hazırda beynəlxalq ticarət getdikcə daha çox istehsal amillərinin (kapital, əmək və texnologiya) beynəlxalq hərəkətinin müxtəlif formaları ilə tamamlanır, nəticədə təkcə hazır məhsul deyil, həm də onun istehsal amilləri xaricə hərəkət etməyə başlayır. Malın qiymətində olan mənfəət təkcə dövlət sərhədləri daxilində deyil, xaricdə də yaranmağa başladı. Beynəlxalq əmtəə və xidmət ticarətinin inkişafının və istehsal amillərinin beynəlxalq hərəkətinin təbii nəticəsi iqtisadi inteqrasiya oldu. Ən sadə misal Yaponiya ilə ABŞ arasında avtomobil ticarətini göstərmək olar: yaponlar kasıb insanlar üçün qənaətcil kiçik avtomobillərin, amerikalılar isə varlılar üçün prestijli bahalı avtomobillərin istehsalında ixtisaslaşıblar. Nəticədə, həm yaponlar, həm də amerikalılar hər bir ölkənin hər növ avtomobil istehsal etdiyi bir vəziyyətdən faydalanır.

İnteqrasiya bloklarının inkişafının ikinci ilkin şərti olan beynəlxalq istehsal kooperasiyası müxtəlif ölkələrdən olan işçilərin eyni istehsal prosesində (yaxud bir-biri ilə əlaqəli müxtəlif proseslərdə) birgə iştirak etdiyi istehsalın təşkili formasıdır. Beləliklə, Amerika və Yapon avtomobilləri üçün bir çox komponent hissələri başqa ölkələrdə istehsal olunur və yalnız əsas müəssisələrdə yığılır. Beynəlxalq əməkdaşlıq inkişaf etdikcə istehsalı beynəlxalq miqyasda təşkil edən və dünya bazarını tənzimləyən transmilli korporasiyalar formalaşır.

İnteqrasiya şərtləri:

a) inkişaf etmiş infrastruktur;

b) hökumətin siyasi qərarlarının olması (inteqrasiya üçün şərait yaradılması - siyasi və iqtisadi əsas).

İnteqrasiya səviyyələri:

a) makroiqtisadi (dövlət səviyyəsi);

b) mikroiqtisadi (şirkətlərarası).

XXI əsrin əvvəllərində inteqrasiya prosesləri geniş vüsət alır. Əsas səbəb texnoloji tərəqqi, dünyanın siyasi xəritəsindəki əsaslı dəyişikliklər, müxtəlif qitələrin xalqlarının sosial-mədəni həyatında getdikcə yeni və mürəkkəb ziddiyyətlərin artması, keçmişdən miras olaraq qalan bir çox vəzifələrin həll olunmamış qalması və digərləridir. Ümumiyyətlə, regional iqtisadi inteqrasiya dünya iqtisadiyyatının indiki mərhələsinin xarakterik xüsusiyyətidir.

XX əsrin sonlarında regional iqtisadiyyatların sürətli və ahəngdar inkişafı və inteqrasiya qruplarında iştirak edən ölkələrin dünya bazarında rəqabət qabiliyyətinin artırılması üçün güclü alətə çevrilmişdir. Beynəlxalq maliyyə institutları beynəlxalq valyuta-maliyyə təşkilatları kimi valyuta-maliyyə münasibətləri sahəsində əməkdaşlığı reallaşdırmaq məqsədilə beynəlxalq hüquqa uyğun olaraq və beynəlxalq müqavilə əsasında yaradılır.

Beynəlxalq maliyyə institutları əsasən II Dünya Müharibəsindən sonra formalaşmağa başladı. Onların baş verməsi bir sıra səbəblərlə əlaqələndirilir:

- iqtisadiyyatın beynəlmiləlləşməsi və qloballaşma proseslərinin güclənməsi;
- pul-kredit münasibətlərinin dövlətlərarası tənzimlənməsinə ehtiyac;
- dünya valyuta sisteminin, qiymətli kağızlar bazarlarının, qiymətli metalların davamlı inkişafı problemlərinin həllinin zəruriliyi.

Bəzi müəlliflər "beynəlxalq təşkilatlar" termini ilə yanaşı, "beynəlxalq institutlar" terminindən də istifadə edir, bu anlayışı daha geniş hesab edir və təkcə beynəlxalq təşkilatları deyil, həm də siyasi xarakter daşımayan müqaviləyə əsaslanan dövlətlərin daimi birliklərini əhatə edir. Beynəlxalq maliyyə təşkilatları aşağıdakılara əsaslanır:

- beynəlxalq maliyyə münasibətlərinin sabitləşməsini təmin etmək;
- pul-kredit və maliyyə münasibətləri sahəsində beynəlxalq siyasəti işləyib hazırlamaq və reallaşdırmaq;
- dövlətlərarası valyuta-kredit və maliyyə tənzimlənməsini reallaşdırmaq.

Beynəlxalq təşkilatların xarakterini müəyyən edən üç əsas meyar vardır: üzvlük xarakteri, coğrafi ölçü, funksional ölçü. Təsnifatın ən fundamental əsası üzvlüyün xarakteridir [1, s.89]

İnteqrasiya prosesləri regionlararası ticarətin inkişafına kömək edir. Regionlararası ticarətin inkişafı qonşu dövlətlərin iqtisadiyyatlarının sabit münasibətlərə, iqtisadi maraqlara və əmək bölgüsü qanunauyğunluqlarına əsaslanan ümumi təsərrüfat kompleksində birləşməsi prosesi ilə sıx bağlıdır. Eyni zamanda, regionlararası ticarət milli iqtisadiyyatların sürətli inkişafına və dünya bazarında rəqabət qabiliyyətinin artmasına təsir edən səmərəli alətdir. Beləliklə, regionlararası ticarət bir çox dövlətlərdə milli iqtisadiyyatların inkişafına töhfə verən əsas amillərdən birinə çevrilmişdir. Dövlətlərin regional inteqrasiyası qonşu ölkələrin regional iqtisadi qruplara (birliklərə) birləşməsi və milli təsərrüfat subyektlərinin qarşılıqlı fəaliyyəti ilə bağlı prosesdir. Belə birliyin məqsədi ticarət və investisiya sahələrində qarşılıqlı fəaliyyət üçün milli maneələri aradan qaldırmaq, dövlətin və ayrı-ayrı regionların təsərrüfat subyektləri üçün bərabər şərait

yaratmaqdır. İnteqrasiya proseslərinin tədqiqi onun formalaşması üçün əsas prinsipləri və ilkin şərtləri müəyyənləşdirir. İdeal olaraq inteqrasiya prinsipləri milli-dövlət maraqlarının aliliyinə, qarşılıqlı maraqların tam nəzərə alınmasına, könüllülük, bərabərlik və qarşılıqlı faydaya əsaslanmalıdır. Lakin regionlararası ticarət problemlərini nəzərə alsaq, bu prinsiplərin siyahısı xeyli genişlənir. Beynəlxalq münasibətlərin əsas problemləri müasir beynəlxalq hüququn müddəalarına əsaslanan və ən yüksək hüquqi qüvvəyə malik olan inteqrasiyanın prinsipləri və ya hamı tərəfindən qəbul edilmiş normalarının köməyi ilə həll edilir. İnteqrasiya prinsipləri BMT Nizamnaməsində və Beynəlxalq Hüququn Prinsipləri haqqında Bəyannamədə öz əksini tapmışdır ki, onlardan dördü dövlətlərin iqtisadi qarşılıqlı fəaliyyətinə həsr edilmişdir [3, s.210]:

1. Dövlətlərin bir-biri ilə əməkdaşlığı dövlətin vəzifələrində əks olunur:

- suveren bərabərlik və müdaxilə etməmək prinsiplərinə riayət etməklə bütün sahələrdə beynəlxalq əlaqələri reallaşdırmaq;

- bütün ölkələr, xüsusən də inkişaf etməkdə olan ölkələr üçün iqtisadi artımı təşviq etmək məqsədilə əməkdaşlıq etmək. Bu sənədi qəbul edən dövlətlər ayrı-ayrı dövlətlərin sərhədlərindən asılı olmayaraq regionlararası ticarəti təşviq etməyə borcludurlar.

2. Xalqların bərabər hüquqları və öz müqəddəratını təyinetmə hüququ - xalqların iqtisadi inkişaf yolunu müstəqil və digər dövlətlərin müdaxiləsi olmadan müəyyən etmək hüququ, iqtisadi əməkdaşlıqda dövlətlər tərəfindən bu hüquqa hörmət edilməsi. Bu baxımdan, əhalisi əksər hallarda etnik xalqlardan ibarət olan sərhədyanı rayonlar müəyyən hallarda bundan yararlana bilərlər.

3. Dövlətlərin suveren bərabərliyi - dövlətin öz siyasi, sosial, iqtisadi və mədəni sistemlərini sərbəst seçmək və inkişaf etdirmək hüququ. Bu baxımdan, müxtəlif sahələrdə əməkdaşlıq heç də həmişə ayrı-ayrı ölkələrin siyasi maraqlarının prioritetləri ilə üst-üstə düşmür. Bu baxımdan nəzərə almaq lazımdır ki, inteqrasiya əlaqələrinin bu elementləri siyasi amillərin təsirini neytrallaşdırdığı halda regionlararası ticarətin inkişafı üçün mühüm prinsip əməkdaşlıqdır.

4. Dövlətlərin öz öhdəliklərini vicdanla yerinə yetirmələri [2, s.38].

Ölkələr arasında xarici iqtisadi əlaqələrin dinamik inkişafı regional inteqrasiyanın prinsiplərini genişləndirən və konkretləşdirən tədqiqatların yaranmasına səbəb olmuşdur.

İnteqrasiya prosesləri bir sıra mərhələlərdən keçmişdir. İnteqrasiya proseslərinin hər bir sonrakı mərhələsi əvvəlkindən inteqrasiya birliyi çərçivəsində istehsal amillərinin hərəkətinin daha yüksək dərəcədə liberallaşması ilə fərqlənir. Ən yüksək mərhələdə iqtisadi, sosial və pul siyasətinin uyğunlaşdırılması və unifikasiyası, fövqəlmilli hakimiyyətin bərqərar olması baş verir. Birincisi, azad ticarət zonası yaradılır - iştirakçı ölkələr arasında ticarətdə daxili gömrük rüsumları azaldılır. Ölkələr bu assosiasiya çərçivəsində tərəfdaşları ilə münasibətlərdə öz milli bazarlarının qorunmasından könüllü şəkildə imtina edirlər, lakin üçüncü ölkələrlə münasibətlərdə kollektiv deyil, fərdi şəkildə hərəkət edirlər. Azad ticarət zonasının istənilən iştirakçısı öz iqtisadi suverenliyini qorumaqla, bu inteqrasiya birliyinə üzv olmayan ölkələrlə ticarətdə öz xarici tariflərini müəyyənləşdirir. Azad ticarət zonasının yaradılması başa çatdıqdan sonra inteqrasiya blokunun iştirakçıları gömrük ittifaqına keçirlər. İndi artıq xarici tariflər unifikasiya olunur, vahid xarici ticarət siyasəti aparılır - ittifaqın üzvləri üçüncü ölkələrə qarşı birgə tarif baryeri yaradırlar [4, s.27].

İnteqrasiya birliklərinin inkişafının üçüncü mərhələsi ümumi bazardır. İndi daxili vəzifələrin minimuma endirilməsinə müxtəlif istehsal amillərinin - investisiyaların (kapitalların), işçilərin, məlumatların (patentlər və nou-hau) ölkədən ölkəyə hərəkətinə məhdudiyyətlərin aradan qaldırılması əlavə edilir. İqtisadi unifikasiyanı başa çatdırmaq məqsədilə həmçinin vergi səviyyələrinin bərabərləşdirilməsi, iqtisadi qanunvericiliyin, texniki və sanitar standartların unifikasiyası, milli kredit-maliyyə strukturlarının və sosial müdafiə sistemlərinin əlaqələndirilməsi zəruridir. Bu tədbirlərin görülməsi iqtisadi cəhətdən birləşmiş ölkələrin həqiqətən vahid regiondaxili bazarının yaradılmasına gətirib çıxaracaqdır. Bu inteqrasiya mərhələsi adətən iqtisadi birlik adlanır [6, s. 93].

İnteqrasiya birliklərinin inkişafının üçüncü mərhələsi 2000-ci illərin əvvəllərindən indiyədək davam edir. Onu açıq, multimodal regionalizm və meqaregionalizm kimi xarakterizə etmək olar. Bu dövrün mühüm hadisəsi Çinin 2001-ci ildə ÜTT-yə daxil olması oldu. Bundan dərhal sonra ölkə xarici bazarlara ixracını əhəmiyyətli dərəcədə genişləndirməyə başladı. Məhz bu ekspansiyaya qarşı çıxmaq yeni regionalizmə keçidin ilk səbəbi oldu, bu zaman ölkələr getdikcə proteksionist ticarət və siyasi alətlərdən istifadə etməyə başladılar. Əvvəlki tendensiyadan müəyyən dərəcədə fərqli olaraq, dünyada satıla bilən əlavə dəyərin artması nəticəsində bazarların daha çox açıqlığının və şəffaflığının təmin edilməsinə ehtiyac yarandı. Bu, regional birliklər çərçivəsində məhsulun keyfiyyət standartlarına, istehsal prosedurlarına və digər əlaqəli proseslərə vahid yanaşmanın inkişafı ilə reallaşdırılır.

XXI əsrin əvvəllərinin inteqrasiya tarixində xüsusi yeri postsovet məkanında iqtisadi inteqrasiya prosesləri və ilk öncə Avrasiya İqtisadi Birliyinin (AİB) yaradılması tutur. AİB müəyyən formada regional inteqrasiyanın bir çox ənənəvi alətlərini götürdü və yenidən formatlaşdırdı. Məsələn, hazırda AİB ticarətdə

qeyri-tarif tənzimlənməsi üçün daxili prosedurların unifikasiyası və uyğunlaşdırılması üzərində fəal işləyir. Məsələn, AİB maşınqayırma məhsullarının ticarətini tənzimləyən qeyri-tarif tədbirləri kimi qablaşdırma və etiketləmə, sertifikatlaşdırma, uyğunluğun qiymətləndirilməsi və s. kimi son dərəcə geniş məsələləri tənzimləyir.

### Ədəbiyyat


1. Булатов А.С. Мировая экономика / под ред. Булатова А.С. – М.: Юрист. 2009.- 188 с.
2. Кобелева, О.А. Международная экономичекая интеграция и международные экономические институты / О. А. Кобелева // . – 2014. – № 6. – С. 37-38
3. Ибрашев У. Ж. Анатомия европейской интеграции. - Алматы, 2003. – С. 210
4. Обуховский, В.В. Теории международной экономической интеграции [Текст] / В.В. Обуховский // Экономика XXI века. – 2015. – №1. – С. 27–46.
5. Лебедева М. Мировая политика. М.: Аспект пресс, 2003, 351 с
6. Tinbergen J. International Economic Integration [Text] / J. Tinbergen // Amsterdam, 2015. – P. 93.



**РЕЗЮМЕ**
**ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИНТЕГРАЦИОННЫХ ПРОЦЕССОВ**
***Газыева С.Т., Мамедова Э.М.***

***Ключевые слова:*** *интеграция, экономика, торговля, финансы, производство*

Развитие и углубление интеграционных процессов считается одним из основных перспективных направлений для любой страны. Так как они помогают развитию стран и облегчают выход местных производителей на зарубежные рынки. Это в конечном итогеб оказывает важное влияние на увеличение доходов бюджета страны. Этим тема статьи актуальна. В статье описаны основные особенности интеграционных процессов и перспективы развития. Дана информация об основных условиях и уровнях интеграции. Изучены основные этапы интеграционных процессов и их роль в развитии международной торговли.



**SUMMARY**
**PROSPECTS FOR THE DEVELOPMENT OF INTEGRATION PROCESSES**
***Qaziyeva S.T., Mammadova E.M.***

***Key words:*** *integration, economics, trade, finance, production*

The development and deepening of integration processes is considered one of the main promising areas for any country. Because integration processes help the development of countries and facilitate the entry of local producers into foreign markets. This ultimately has an important impact on increasing the country's budget revenues. Therefore, the topic of the article is relevant. The article describes the main features of integration processes and development prospects. Information about the main conditions and levels of integration is given. The main stages of integration processes and their role in the development of international trade are studied.


## İŞSİZLİYİN AZALDILMASINDA PEŞƏ TƏLİMİ KURSLARININ ƏHƏMİYYƏTİ


**Qurbanova İntizar Mirzəli qızı**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*
*q.intizar@mail.ru*



***Açar sözlər:*** *işsizlik, məşğulluq, peşə təlimi, Məşğulluq Xidməti, Regional Peşə Tədris Mərkəzləri*


**Giriş.** İşsizlik probleminin qlobal xarakter aldığı indiki dövrlərdə dövlətin inkişaf strategiyasının hazırlanmasında əsas diqqət işsiz və işaxtaran əhalinin məşğulluğunun təmin edilməsinə yönəldilir. Hər bir işaxtaranın keyfiyyətli və rahat həyat şəraiti yaratması baxımından əmək bazarında özünə layiqli mövqe tutması üçün tələbatlı bir peşəyə yiyələnmək imkanlarının olması çox vacib məsələdir. Müşahidələr göstərir ki, keyfiyyətli təhsil almış və yaxşı bir peşəyə yiyələnmiş insanlar özlərinə inamlı olurlar və həyatın müxtəlif sahələrində qarşılaşdıqları problemləri nisbətən asan həll etməyi bacarırlar. Bu baxımdan Məşğulluq xidmətinin nəzdində fəaliyyət göstərən Regional Peşə Tədris Mərkəzlərinin əhəmiyyətli rolu vardır. Hazırda Azərbaycanda belə mərkəzlərin sayı dörddür, Bakı, Naxçıvan, Gəncə, Göyçay şəhərlərində fəaliyyət göstərirlər.

**Peşə təliminin təşkili.** Təhsilin istənilən sahəsində, o cümlədən peşə təhsilində dövlətlə yanaşı iqtisadiyyatın və bütövlükdə cəmiyyətin iştirakı və köməyi mütləqdir. Ölkə əhalisinin sayı ilbəil artır, fərdi sahibkarlıq müəssisələrinin sayının artmasına və yeni-yeni iş yerlərinin açılmasına baxmayaraq hələ də işsizlik ən mühüm problemlərdən biri kimi qalmaqdadır. İnsanların münasib işlə təmin olunması üçün ilk növbədə onların lazımlı peşəyə mükəmməl yiyələnməsi vacibdir. Burada peşə təhsili verilməsini təşkil edən

müəssisələrin bir sistem şəklində fəaliyyət göstərməsi lazımdır. Bunlardan birincisi Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələri, ikincisi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq Xidmətinin nəzdində yaradılmış Regional Peşə Tədris Mərkəzləri və üçüncüsü böyük istehsalat birliklərinin nəzdində fəaliyyət göstərən Peşə Təlimi və Tədris Mərkəzləridir.

İşsiz əhalinin peşə təlimi imkanlarının artırılması geniş sosial-iqtisadi funksiyaların yerinə yetirilməsinə yönəldilməlidir: ölkənin əmək potensialının inkişafı, işsizlikdən müdafiə vasitəsi kimi yaxşı bir peşəyə (sənətə) sahib olmaq, iqtisadi fəal əhalinin lazımlı ixtisaslara uyğun peşəkar işçi qüvvəsinə çevrilməsi və s. Həyata keçirilməkdə olan məşğulluq siyasətinin mühüm tərkib hissələrindən biri kimi işsiz və qeyri-məşğul əhalinin peşə təliminə cəlb edilməsi ölkə iqtisadiyyatının inkişafına, işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsinə, məşğulluğun təmin olunmasına bir köməkdir.

Məşğulluq xidmətinin Peşə Tədris Mərkəzlərində reallaşdırılan peşə təlimini fasiləsiz təhsilin bir hissəsi hesab etmək olar. Buradakı peşə hazırlığı öz keyfiyyətinə və nəticəyönümlülüyünə görə peşə təhsilindən nəinki geri qalmalı deyil, hətta vətəndaşların məşğulluğuna böyük dəstək verməlidir. Lakin kadrların lazımi səviyyədə hazırlanması üçün burada müasir tədris texnologiyalarının, əlverişli şəraitin yaradılması vacib məsələdir. Bu məsələlərin həyata keçirilməsində işəgötürənlər də öz maliyyə dəstəyi və təhsil standartları ilə birlikdə  peşə təhsilinə hərtərəfli kömək göstərməlidirlər.

Hazırlanmış yeni peşə standartları əmək bazarının tələblərinə uyğun peşəkar, rəqabətqabiliyyətli kadrların hazırlanmasını təmin etməklə yanaşı, həmin mütəxəssislərin beynəlxalq əmək bazarına çıxışına da təminat verir. Bütün bunların tətbiqi sayəsində gənclərə yüksək səviyyədə peşə təhsili almaq şəraiti yaranır, tələbatlı peşə-ixtisas təhsili və bacarıqlara yiyələndikdən sonra onlar əmək bazarına daxil olarkən münasib işi tapmaqda çətinlik çəkmirlər, əksinə, seçim şansları daha çox olur. Rəqabətəqabil mütəxəssis kimi onlara tələbatın çox olması yüksək əməkhaqqı təklif edilən işi seçməklə öz yaşayış səviyyələrini də keyfiyyətli şəkildə təmin etməyə onlara imkan yaradır.

Qeyd edək ki, məşğulluq probleminin həll olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq Xidmətinin nəzdində 2007-ci ildən başlayaraq Bakı Regional Tədris Mərkəzi fəaliyyət göstərir. Əmək bazarının mövcud tələblərini nəzərə alaraq işaxtaran və işsiz vətəndaşları münasib işlə təmin etmək məqsədilə onların peşə hazırlığı, yenidən hazırlığı və ixtisasartırma kurslarına cəlb olunmasında bu mərkəzin mühüm rolu vardır. Daha sonra belə mərkəzlər Naxçıvan şəhərində, Göyçay rayonunda və Gəncə şəhərində də açılmışdır.

Bu mərkəzlərdə 70-dən artıq peşə üzrə kurslar təşkil olunur, bunlardan ən çox tələb olunanlar bunlardır: ofisiant, katibə-referent, bərbər, xalçaçı, tikişçi, toxucu, qənnadçı, sürücü, tornaçı, qaynaqçı, mebel quraşdırıcısı, çilingər, presləyici, inşaatçı-rəngsaz, ərzaq malları satıcısı, satıcı-nəzarətçi kassir, dülgər, frezerçi, suvaqçı, zərgər, videooperator, kompüterçi dizayner, geniş profilli dəzgahçı, elektrik montyoru, sığorta agenti və s.

Peşə kurslarının təşkilində təlimə cəlb olunanların seçilməsi, qruplaşdırılması zamanı onların əvvəlki peşə və ixtisası, iş təcrübəsi, peşə meylləri, bacarıq və vərdişləri, digər sosial-psixoloji amillər, tədris müəssisəsinə hansı məsafədə yerləşməsi və s. fərdi xüsusiyyətləri ilə yanaşı və mütləq şəkildə əmək bazarında onların öyrənəcəyi peşəyə təlbatın nə səviyyədə olması, regional xüsusiyyətlər və ehtiyaclar da nəzərə alınmalıdır. Bütün bunlar isə son nəticəyə - qaneedici işlə təmin olunmağa gətirib çıxarmalıdır.

**Peşə təliminə cəlb olunanların statistikası.** Aşağıdakı cədvəldə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq Xidmətinin nəzdində fəaliyyət göstərən Regional Peşə Tədris Mərkəzlərində və özəl təşkilatlarda təlimə cəlb olunanların sayı barədə məlumatlar verilmişdir. Cədvəldən göründüyü kimi 2022-ci ildə peşə təlimi kurslarına cəlb edilənlərin sayı cəmi 4575 nəfər olmuşdur. Məlumatların yerləşdiyi dövrdə onlardan 2827 nəfər kursu bitirmiş, cəmi 1752 nəfər işlə təmin olunmuşdur.

***Cədvəl.***

**Peşə Hazırlığı Mərkəzlərinin 2022-ci il üzrə göstəriciləri (nəfər)**

| Təhsil müəssisəsinin adı | Təlimə cəlb olunmuşlar | Davam edir | Xaric olunmuşlar | Bitiriblər | İşlə təmin olunmuşlar |
|---|---|---|---|---|---|
| Bakı Regional Peşə Tədris Mərkəzi (RPTM) | 1086 | 128 | 251 | 707 | 466 |
| Göyçay RPTM | 601 | 90 | 83 | 428 | 243 |
| Gəncə RPTM | 803 | 158 | 198 | 447 | 397 |
| Naxçıvan RPTM | 229 | 0 | 10 | 219 | 109 |
| Özəl | 1856 | 500 | 330 | 1026 | 537 |
| **Cəmi** | **4575** | **876** | **872** | **2827** | **1752** |

***Mənbə:*** Tədris müəssisələri ilə bağlı hesabat. *Dma. gov.az/tedris-muessisleri* [2]

2022-ci ildə Məşğulluq Agentliyinin peşə hazırlığına cəlb etdiyi vətəndaşlar əsasən informasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi, insan resursları mütəxəssisi, xarici dil, ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar, bağban, aşpaz, qənnadçı, şirniyyatçı, ofisiant, dayə, dərzi peşələri üzrə hazırlanmışlar.

2023-cü ildə peşə təliminə cəlb edilənlərin sayı 2190 nəfərdir və əsasən aşağıdakı peşələr üzrə kurslar təşkil olunmuşdur: elektrik maşın, aparat və cihazların sazlayıcısı; elektrik avadanlıqlarına xidmət və təmiri üzrə elektrik montyoru; bərpa olunan enerji avadanlıqlarının quraşdırıcısı; qrafik dizayner; tikiş avadanlıqlarının operatoru; tikişçi; dərzi; aşpaz; ofisiant; informasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi; ərzaq və qeyri-ərzaq malları satıcısı; nəzarətçi-xəzinədar [1].

İşsizlərin sayı ilə müqayisədə yuxarıdakı rəqəmlər çox aşağıdır, daha çox işsiz şəxsin tələbatlı peşələrə yiyələnməsi və onlarda sahibkarlıq qabiliyyətinin formalaşdırılması üçün şərait yaradılmalıdır.

**Nəticə.** Belə qənaətə gəlmək olar ki, məşğulluq xidmətlərinin nəzdində Regional Peşə Tədris Mərkəzlərinin sayının artırılmasına ehtiyac var. Bu yolla işsiz və işaxtaranların peşə təliminə və ixtisasartırma və yenidən hazırlanma kurslarına cəlb edilməsi və yerli əmək bazarının kadr ehtiyaclarının səmərəli şəkildə ödənilməsinə və bununla da regionların inkişafına nail olmaq olar. Buna görə də hər iqtisadi regionda Regional Peşə Tədris Mərkəzinin yaradılması məqsədəuyğundur.

Bundan başqa, Məşğulluq Xidməti orqanlarının məsuliyyəti və səlahiyyətləri artırılmalıdır. Onlar öz fəaliyyətlərində obyektivliyi qorumalıdırlar. Məhsuldar işə görə onların fəaliyyətlərinin qiymətləndirilməsi, mükafatlandırma və s. stimullaşdırıcı tədbirlərin təşkili yaxşı nəticə verə bilər.

## Ədəbiyyat

1. Peşə və ixtisaslar üzrə hesabat. *Dma. gov.az/peshe-ve-ixtisaslar*
2. Tədris müəssisələri ilə bağlı hesabat. *Dma. gov.az/tedris-muessisleri*

**РЕЗЮМЕ**
**ЗНАЧЕНИЕ КУРСОВ ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКИ ДЛЯ СОКРАЩЕНИЯ УРОВНЯ БЕЗРАБОТИЦЫ**
***Гурбанова И.М.***

***Ключевые слова:*** *безработица, трудоустройство, профессиональное обучение, служба занятости, региональные центры профессионального обучения*

В статье отмечается, что одним из важнейших вопросов является привлечение безработных к курсам профессионального обучения для повышения их обеспеченности работой и обучения профессиям в соответствии с потребностями рынка труда. При этом отмечается важная роль региональных центров профессионального обучения, функционирующих при службе занятости, и важность увеличения их количества. Также в статье приведены статистические данные о количестве лиц, привлеченных к профессиональному обучению.

**SUMMARY**
**THE IMPORTANCE OF VOCATIONAL TRAINING COURSES IN REDUCING UNEMPLOYMENT**
***Gurbanova I.M.***

***Key words:*** *unemployment, employment, vocational training, employment service, regional vocational training centers*

The article notes that one of the most important issues is to involve the unemployed in vocational training courses to increase their job security and training in professions in accordance with the needs of the labor market. At the same time, the important role of regional vocational training centers operating under the employment service, and the importance of increasing their number, are noted. The article also provides statistical data on the number of persons involved in vocational training.

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ: RƏQƏMSALLAŞMA VƏ İNNOVASİYA ÜÇÜN ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ

**Mahmudova Lalə Fəqail qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*mahmudovalala2021@mail.ru*

***Açar sözlər:*** *rəqəmsal transformasiya, innovasiya, texnologiya, iqtisadiyyat, investisiya*

Müasir dövrdə rəqəmsallaşma və innovasiya siyasəti dövlətin prioritetləri sırasında yer alır. Dünyada gedən proseslərə nəzər saldıqda görərik ki, ölkələrin inkişafı innovasiyalı iqtisadiyyatdan və rəqəmsal texnologiyaların tətbiqindən çox asılıdır. Müəssisələrə yeni texnikaların, yüksək texnologiyaların cəlbi ilə məhsul və xidmətlərin istehsalının yeni sferaya keçirilməsi, rəqəmsal transformasiyasının sürətlənməsi ilə

səmərəliliyin təmin edilməsi ölkə iqtisadiyyatının inkişafına təsir göstərən əsas faktorlardan hesab olunur. Azərbaycanda rəqəmsallaşma və innovasiyanın səviyyəsi günü-gündənn artır. Rəqəmsal transformasiya sahəsində ciddi işlər həyata keçirilir. Bu sahədə realizə edilən işlər innovasiyalı inkişafı stimullaşdırır. Bu səbəbdən dövlət bu sahəyə xüsusi diqqət göstərir. Çünki rəqəmsallaşma səmərəlilik və şəffaflığı təmin edən əsas vasitələrdəndir. Rəqəmsallaşma sahəsində həyata keçirilən işlərin müsbət nəticəsidir ki, 2022-ci il üçün Dünya Bankının "GovTech Yetkinliyi İndeksi" hesabatında 198 ölkə üzrə indeksdə Azərbaycan rəqəmsallaşmanın yüksək səviyyəsinə görə I pillədə qərarlaşaraq ölkələrin 35 %-nin daxil ola bildiyi 69 ölkədən ibarət qrupda yer alır [1].

Azərbaycanda rəqəmsal infrastrukturun yaradılması ilə rəqəmsal dayanıqlılığın təmin edilməsinin, rəqəmsal iqtisadiyyatn bərqərar olmasının əsas məqsədi region ölkələri arasında Azərbaycan Respublikasının (AR) rəqəmsal mərkəzə çevrilməsi ilə əlaqədardır. Rəqəmsal iqtisadiyyat: Ölkələrin informasiya-kommunikasiya infrastrukturunun keyfiyyətinə əsaslanan, hökumətin, istehlakçıların və müəssisələrin öz mənafelərinə uyğun İKT – dən istifadə bacarığının olduğu iqtisadiyyatdır [2, s. 26].

Ölkədə informasiya cəmiyyətinin qurulması, rəqəmsal idarəetmənin təkmilləşdirilməsi, milli innovasya sisteminin yaradılmasının sürətlənməsi və bu sahədəki münasibətlərin tənzimlənməsi ilə bağlı bir çox qanunlar, fərman və sərəncamlar, dövlət proqramları, strateji yol xəritələri qəbul edilmişdir. Azərbaycanda bu sahədə praktiki olaraq görülən işlərə işğaldan azad olunmuş Şuşa, Füzuli və s. kimi rayonlarda ağıllı kənd və ağıllı şəhər konsepsiyalarının reallaşdırılmasını, 454 sayda xidmət göstərən elektron hökümət portalının yaradılmasını, innovasiya-akselerasiya mərkəzlərinin istifadəyə verilməsi, sosial innovasiyalar sahəsində mütərəqqi addımların atılmasını, elm müəssisələri ilə dövlət-özəl tərəfdaşlığının genişləndirilməsini, yüksək texnologiya parklarının (YTP), sənaye məhəllələrinin yaradılmasını, yaşıl enerji mənbələrinə keçidi misal göstərə bilərik. Məhz qeyd edilən işlərin reallaşdırılmasının, bu sahədə əldə olunan inkişafın kökündə ölkənin daxili siyasətilə yanaşı onun xarici siyasəti də xüsusi əhəmiyyət malikdir. Azərbaycan rəqəmsallaşma və innovasiya sahəsində inkişaf etmiş ölkələrlə, nəhəng texnologiya şirkətləri ilə sıx əlaqələr yaradır, inkişaf etdirir, bu əlaqələrin hesabına dünya təcrübəsi mənimsənilir, müasir texnikalar, texnologiya məhsulları ölkəyə cəlb olunur, intellektual məhsul istehsalı stimullaşdırılır, ixtisaslı kadr potensialı formalaşdırılır.

Rəqəmsallaşma və innovasiya sahəsində Azərbaycanın yüksək səviyyədə əməkdaşlıq etdiyi ölkələrdən biri də məhz Türkiyə Respublikasıdır. Ona görə ki, Türkiyə son illərdə yüksək texnologiyalar sahəsində sürətlə inkişaf edir, innovativ yanaşma bütün sahələrə tətbiq olunur. Müasir texnoloji məhsulların istehsalı, ağıllı şəhər və kənd konsepsiyalarının reallaşdırılması, rəqəmsal idarəetmənin təkmilləşdirilməsi Türkiyənin bu sahədəki inkişafının bariz nümunəsidir. Əldə edilən uğurların əsas səbəbləri kimi bu sahələrə investisiya yatırımlarının cəlb edilməsi, təhsil sisteminin dünya standartlarına cavab verməsi, yüksək texnologiyaların istehsalı, beynəlxalq iqtisadi əlaqələrinin dərinləşməsini göstərə bilərik. Türkiyə ilə əməkdaşlıq, iki ölkə arasında təcrübə mübadiləsi ilə innovasiya və rəqəmsallaşmanın genişlənməsinə birbaşa təsir edir. Azərbaycan və Türkiyə arasında uzun illər ərzində iqtsadi, sosial, təhsil, hərbi, texniki və s. onlarla istiqamətlərdə çoxsahəli əməkdaşlıqlar həyata keçirilir. Həyata keçirilən əməkdaşlıqlar hər iki ölkə iqtisadiyyatının diversifikasiyasına, sürətli inkişafına səbəb olur. Azərbaycan-Türkiyə arasındakı əlaqələri daha dərindən anlamaq üçün bir sıra rəsmi qurumların statistik məlumatlarını nəzərdən keçirək.




**Şəkil. Son 5 ildə Azərbaycan-Türkiyə arasında ticarət dövriyyəsinin həcmi, min abş dolları ilə (Mənbə: ARDGK-nın statistik məlumatlarına əsasən müəllif tərəfindən tərtib olunmuşdur) [4].**

Şəkildə AR Dövlət Gömrük Komitəsi tərəfindən son 5 ildə Azərbaycan-Türkiyə arasında reallaşdırılan ticarət dövriyyəsinin həcmi verilmişdir. Göründüyü kimi verilmiş müddət ərzində iki ölkə arasında ticarət dövriyyəsinin həcmində artım dinamikası müşahidə olunmuşdur. Bütün dövrlərdə ixracın həcmi idxalı üstələmişdir. 2022-ci il yanvar-dekabr ayları üçün verilən statistik məlumatlara əsasən Azərbaycanın ticarət dövriyyəsinin həcmi 52 milyard 686 milyon dollar təşkil etmişdir. Türkiyə ilə ticarət dövriyyəsinin həcmi 5 milyard 842 milyon dollar (11,09 %) olmuşdur. Bu da ixracatın 9,29 %-ni, idxalın isə 15,80 %-ni təşkil edir.

AR Mərkəzi Bankının 2022-ci il üçün birbaşa xarici investisiyalarla bağlı yayımladığı statistik hesabatlara əsasən yanvar-dekabr ayları ərzində ölkə iqtisadiyyatına cəlb olunmuş 6 milyard 276 milyon dolların 18,9 %-i, yəni 1 milyard 187 milyonu məhz Türkiyə Respublikasının payına düşür. 2022-ci ildə sıralamaya əsasən Türkiyə Azərbaycana ən çox yatırım edən ikinci ölkə olmuşdur. Həmçinin həmin dövr ərzində Azərbaycandan xarici ölkələrə birbaşa investisiya qoyuluşları 1 milyard 152 milyon 617 min dollar təşkil etmişdir. Bu məbləğin 21,4 %-i, yəni 246 milyon 587 min dolları məhz Türkiyə iqtisadiyyatına yatırılmışdır. Bu göstəriciyə əsasən Türkiyə Azərbaycanın ən çox yatırım etdiyi ölkədir. Bildiyimiz kimi investisiya prosesləri innovasiyaların tətbiqini və rəqəmsallaşmanı stimullaşdıran əsas hərəkətverici qüvvədir. Bu səbəbdən iki ölkə arasında münasibətlərin yüksək səviyyədə inkişafı birbaşa investisiya proseslərinə də təsir göstərir.

İndi isə son dövrlər daha da sürətlə inkişaf edən Azəbaycan və Türkiyə Respublikaları arasında innovasiya və rəqəmsallaşma sahəsində birgə əməkdaşlıq çərçivəsində reallaşdırılan layihələrə, görülən işlərə və bu əməkdaşlıqların gələcək perspektivlərinə nəzər salaq. Rəqəmsallaşma və innovasiya sahəsində əməkdaşlıq hər iki ölkənin iqtisadi inkişafını və rəqabət qabiliyyətini artırmaq məqsədi daşıyır. Bu əməkdaşlığın nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar:

- texnologiya transferi: Texnologiya transferi vasitəsilə hər iki ölkənin innovasiya potensialı artıb. Bu yolla hər iki ölkə daha sürətli irəliləyiş əldə edir;

- yeni biznes imkanları: rəqəmsallaşma və innovasiya sahəsində yeni iş imkanları yaranır. Bu imkanlar iki ölkə arasında ticarət əlaqələrinin artması və yeni müəssisələrin yaranması ilə nəticələnir;

- əməkdaşlıq layihələri: İki ölkə arasında əməkdaşlıq layihələri innovasiya və rəqəmsallaşma sahəsində birgə həllərin hazırlanması məqsədi daşıyır. Bu layihələr sayəsində ağıllı şəhərlər, süni intellekt, kibertəhlükəsizlik kimi mövzularda ortaq araşdırmalar aparılır və bu sahələr üzrə yeni texnologiyalar inkişaf etdirilir;

- investisiyalar: hər iki ölkənin rəqəmsallaşma və innovasiyaya yönələn investisiyalarını artırıb. Bu investisiyalar müdafiə sənayesi, enerji, nəqliyyat və telekommunikasiya kimi strateji sektorlara qoyulur.

Türkiyə ilə rəqəmsallaşma sahəsində həyata keçirilən mühüm işlərdən biri elektron ticarətin həcminin artırılması ilə bağlı atılmış addımlar olmuşdur. Elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən, İnternet şəbəkəsi vasitəsi ilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyətdir [3]. Bu zaman artıq xərclər aradan qalxır, səmərəlilik təmin edilir və sahibkarlıq fəaliyyəti inkişaf edir. Azərbaycanda rəqəmsal ticarətin həcmi günü-gündən artmağa davam edir. AR Mərkəzi Bankının 2023-cü ilin fevral ayı ilə bağlı yayımladığı statistik bülletenə əsasən bu ay ərzində nağdsız əməliyyatların həcmi 2 milyard 877 milyon manat təşkil etmişdir. Bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə artım deməkdir. Nağdsız ödənişlər vasitəsilə rəqəmsal ticarətin həcmi isə 2 milyard 252 milyon manat olmuşdur. Məhz bu inkişafın nəticəsində bir sıra imkanlar və təhdidlər meydana çıxır ki, bu da bu sahədə əməkdaşlığın inkişafını zəruri edir. Əvvəldə də qeyd olunduğu kimi Azərbaycan bu istiqamətdə Türkiyə ilə əməkdaşlıqların həyata keçirilməsinə başlamışdır. Belə ki, 2017-ci ildə bu istiqamətdə Türkiyə və Gürcüstanla müqavilə, 2021-ci ildə isə Türkiyə ilə ticarətin rəqəmsallaşması üzrə anlaşma memerondumu imzalamışdır. Həmçinin Türkiyənin müxtəlif rəqəmsal satış platformaları ilə də əməkdaşlıqlar həyata keçirilir. Azərbaycan və Türkiyə arasında rəqəmsal ticarət əməkdaşlığı iki ölkə arasında ticarət əlaqələrini daha da inkişaf etdirmək məqsədi daşıyır. Bu gün rəqəmsal ticarət ənənəvi ticarət üsullarını əvəzləyir və buna görə də rəqəmsal ticarətin əhəmiyyəti daima artır. Azərbaycan və Türkiyə rəqəmsal ticarət sahəsində əməkdaşlıq etməklə ticarət həcmini artırmaq, kommersiya əməliyyatlarını daha sürətli və səmərəli etmək, biznes qurumları arasında kommersiya əlaqələrini asanlaşdırmaq məqsədi daşıyır. Bu əməkdaşlıq çərçivəsində elektron ticarət infrastrukturunun inkişafı və modernləşdirilməsi istiqamətində birgə layihələr həyata keçirilir. İki ölkə arasında rəqəmsal hesab-fakturalar, rəqəmsal ödənişlər və digər rəqəmsal ticarət alətləri kimi sahələrdə də əməkdaşlıq mövcuddur. Azərbaycan və Türkiyə arasında rəqəmsal ticarət əməkdaşlığı KOB-ların rəqəmsallaşmasına kömək etmək üçün xüsusilə vacibdir. İki ölkə arasında kommersiya əməliyyatlarının rəqəmsallaşdırılması KOB-ların kommersiya fəaliyyətini asanlaşdıracaq, daha

səmərəli edəcək və beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artıracaq. Bu əməkdaşlıq vasitəsilə həm Azərbaycan, həm də Türkiyə rəqəmsal ticarətdə regional liderliyə doğru irəliləyəcək.

Azərbaycan və Türkiyə arasında texnologiya sahəsindəki əməkdaşlıq müxtəlif sahələri özündə cəmləşdirir, müdafiə sənayesi də bu sahələrdən biridir. İki ölkə arasında texnoloji əməkdaşlıq sahəsindəki işlərə baxdıqda, pilotsuz uçuş aparatları, inkişaf edən silah sistemləri, zirehli texnikalar, raket sistemləri və daha bir çox müasir texnologiyaları qeyd edə bilərik. 14 sentyabr 2021-ci il tarixində rəqəmsal transformasiya ilə əlaqədar olaraq Azərbaycan və Türkiyə işçi qrupunun yol xəritəsi imzalanmışdır. Bu yol xəritəsi süni zəka, sosial innovasiyalar, e-hökumət platforması, məlumat analitikası ilə bağlı əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcək, Azərbaycan və Türkiyə arasında rəqəmsal transformasiya sahəsində gələcək əməkdaşlığa imkan yaradacaq və iki ölkə arasında ticarət əlaqələrinin böyüməsinə, möhkəmlənməsinə töhfə verəcək. İlk növbədə, yol xəritəsi sayəsində iki ölkə arasında rəqəmsal transformasiya sahəsində ortaq baxış müəyyənləşəcək. Bu baxış rəqəmsal xidmətlər, infrastruktur və texnologiyalar sahəsində inkişaf etməyə və onların beynəlxalq standartlara çatmasına yardım edəcək.

Azərbaycan və Türkiyə arasında texnologiya sahəsindəki əməkdaşlıq və əlaqələr “Texnofest” kimi beynəlxalq tədbirlər vasitəsilə daha da güclənir. Əksər hallarda, Texnofest Azərbaycan və Türkiyəli şirkətlər, startaplar və innovatorlar arasında bir forum kimi fəaliyyət göstərir. Bu forum iki ölkədəki texnologiya şirkətlərinin, inkişaf etmiş startapların və innovatorların yeni ideyalarını, texnologiyalarını və həllərini bölüşmələrinə və əlaqələrinin gücləndirilməsinə imkan verir. Azərbaycan və Türkiyə texnologiya sahəsindəki inkişafı və yenilikləri bölüşmək üçün bir platform kimi xidmət edir. “Texnofest” kimi tədbirlər Azərbaycan və Türkiyə arasındakı texnologiya əlaqələrinin və texnologiya sahəsindəki inkişafının artırılmasına töhfədir.

Azərbaycan -Türkiyə arasında rəqəmsallaşma və innovasiya sahəsində əməkdaşlığın növbəti mərhəsləsi məhz işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilir. Azərbaycan Türkiyənin yüksək texnologiya şirkətləri ilə bir çox istiqamətdə əməkdaşlıqlara başlamışdır. Qarabağda birgə yüksək texnoparkların yaradılması işi ilə əlaqədar əməkdaşlıqlar həyata keçirilir. Belə ki, Türkiyənin məşhur YTP-si olan “GOSB” AR İnnovasiya Agentliyi ilə birlikdə memorandum imzalamışdır. Məhz bu əməkdaşlığın nəticəsi olaraq elmi-tədqiqatların reallaşması, yüksək texnologiyaların istehsalı, tətbiqi, ixtisaslı kadrların yetişdirilməsi həyata keçiriləcəkdir.

İki ölkə arasında mövcud olan əlaqələr və birgə layihələr bu sahədəki iş birliyinin möhkəmlənməsini, innovasiya və texnologiyalar sahəsində əməkdaşlıq perspektivlərini daha da gücləndirir. Azərbaycan və Türkiyə rəqəmsallaşma və innovasiya sahəsində ortaq məqsədləri olan iki ölkədir. Buna görə də hər iki ölkə innovasiya ekosistemlərini inkişaf etdirmək və rəqəmsallaşma sahəsində imkanlarını artırmaq üçün addımlar atır. Həyata keçirilməsi nəzərdə tutulan layihələr yeni texnologiyaların, xüsusən də süni intellekt, kibertəhlükəsizlik, məlumat analitikası, bulud hesablamaları, əşyaların internetinin inkişafına və tətbiqinə yönəlib. Bundan əlavə, Azərbaycan və Türkiyə arasında rəqəmsallaşma və innovasiya sahəsində əməkdaşlıq təkcə bu iki ölkə üçün deyil, həm də regional əməkdaşlıq üçün vacibdir. İki ölkə bu sahədə regional liderliyə doğru irəliləyir, Mərkəzi Asiya, Qafqaz və Yaxın Şərq kimi region ölkələri üçün nümunədir.

Rəqəmsallaşma və innovasiyalar sahəsində əməkdaşlıq hər iki ölkənin iqtisadi inkişafına, məşğulluğun yaradılmasına və sosial rifahına töhfə verir. Bu əməkdaşlığın əhəmiyyəti gündən-günə artır və hər iki ölkə rəqəmsal transformasiya və innovasiya sahəsində uğurlarını davam etdirməyi hədəfləyir və s.

### Ədəbiyyat


1. Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə birinci pilləyə yüksəlib - https://ereforms.gov.az/az/media/xeberler/azerbaycan-yuksek-reqemsallasma-seviyyesine-gore-birinci-pilleye-yukselib-666.
2. Bayramov, Ə.İ. Rəqəmsal inqilab: milli iqtisadiyyatın gələcəyi. Monoqrafiya. Bakı nəşriyyatı, 2021. - 256 s.
3. Elektron ticarət haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 10 may 2005-ci il № 908-IIQ.
4. Xarici ticarətin vəziyyəti haqqında arayış. ARDGK - https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda.

**РЕЗЮМЕ**
**АЗЕРБАЙДЖАН И ТУРЦИЯ: ПЕРСПЕКТИВЫ СОТРУДНИЧЕСТВА В ОБЛАСТИ ЦИФРОВИЗАЦИИ И ИННОВАЦИЙ**
***Махмудова Л.Ф.***

***Ключевые слова:*** *цифровая трансформация, инновации, технологии, экономика, инвестиции.*

Азербайджанская Республика проводит важные работы в области цифровой трансформации и инноваций, чтобы обеспечить развитие страны с учетом требований времени, современных вызовов и мировых тенденций. В этой сфере страны мира осуществляют тесное сотрудничество по многим направлениям с крупными технологическими компаниями. Благодаря этому сотрудничеству объем работы, проделанной в области цифровизации и инноваций, в последние годы увеличился. В данной статье анализируется текущее состояние цифровизации и инноваций в Азербайджане, уровень сотрудничества между Азербайджаном и Турцией в этих направлениях, определяются влияние и перспективы этого сотрудничества.

**SUMMARY**
**AZERBAIJAN AND TURKEY: COOPERATION PERSPECTIVES FOR DIGITALIZATION AND INNOVATION**
***Makhmudova L.F.***

***Key words:*** *digital transformation, innovation, technology, economy, investment*

The Republic of Azerbaijan is carrying out important works in the field of digital transformation and innovation in order to ensure the development of the country, taking into account the requirements of the time, modern challenges, and global trends. In this field, the countries of the world are realizing close cooperation in many directions with huge technology companies. Due to these collaborations, the volume of work done in the field of digitization and innovation has increased in recent years. In this article, the current state of digitization and innovation in Azerbaijan, the level of cooperation between Azerbaijan and Turkey in these directions are analyzed, and the impact and perspectives of this cooperation are determined.

# DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ KADR POTENSİALININ GÜCLƏNDİRİLMƏSİ

**Məmmədova Elnarə Şəmsi qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*Mamedovaelnara80@gmail.com*

***Açar sözlər:*** *işçi heyyəti, kadr potensialı, kadr axını, insan resursları, sosial-iqtisadi problemləri*

Hər bir ölkənin müxtəlif illərdə mövcud iqtisadi prinsiplərə və sosial şəraitə uyğun olaraq fərqli formalarda işçi heyyətinin seçilməsi, onların vəzifələrinin təyin olunması və hüquqlarının qorunması üçün dövlət orqanları tərəfindən müxtəlif staegiyaların, metodların, prinsiplərin təhlili əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifələr özünü məhz dövlətin kadr siyasətində öz əksini tapır.

Kadrların idarə edilməsi funksiyası bir bölmədir və ümumi funksiyaları müəyyən edir:

- təşkilatın kadr siyasəti üçün materialların hazırlanması və hazırlanması;
- kadrlara tələbatın cəlb edilməsi üzrə təşkilatın işinin təşkili;
- işçilərin uyğunlaşdırılması işinin təşkili;
- mövcud kadr potensialının öyrənilməsi;
- işçilərin attestasiyasının yaradılması;
- işçilərin karyera yüksəlişinin planlaşdırılması;
- rəhbər vəzifələr üçün kadrların formalaşdırılması və onlarla işin qurulması;
- işçilərin təliminin və ixtisasının artırılmasının təşkili;
- təşkilatda intizam nəzarəti və münaqişəli vəziyyətlərin basdırılması mümkündür;
- işçilərin müəyyən tələblərə əsasən işə qəbul edilməsində əmək müqavilələrinin bağlanılması, əmək haqqının təyin edilməsini;
- işçi heyyətinin müavinətinin təyin edilməsi ilə yanaşı mükafatların və sertifikatların verilməsi üzrə həvəsləndirməsin həyata keçirilməsi;
- işçilərin müəssisələrdə əvvəlcədən təyin edilmiş prinsiplərə əməl olunmasına ciddi nəzarət;
- işsizlərin müəssisələrdə boş vakansiyala qəbul edilməsi, onların yerdəyişməsi və ya iş yerindən azad olunması qanunvericiliyə uyğun olaraq yerinə yetirilir;
- kadrlarla bağlı kargüzarlığın təşkili;
- işə cəlb olunan kadrların fərdi uçot məlumatlarının təşkili, işçilərə aid olan məlumatların emalı;
- pensiyaların hesablanması və qeydiyyatı;
- kadrlar üzrə statistik hesabatların hazırlanması;

• işçilərə aid icazə vərəqlərinin, xarakter məktublarının və müxtəlif orqanlardan qəbul olunan suallara cavabların hazırlanması;
• iş dəftərlərinin sifarişi, saxlanılması və işçilərə verilməsi;
• işçilərin məzuniyyət cədvəllərinin hazırlanması;
• kadr axınının səbəblərini öyrənmək və mövcud nöqsanlarla bağlı tədbirlər həyata keçirmək;
• işçi heyyətinin idarə edilməsi ilə əlaqəli yerli və beynəlxalq təcrübəni təhlil etmək və təşkilatda tətbiq etmək;
• işçilərin fəaliyyətini qiymətləndirir.

Qeyd edək ki, artıq bütün dünya ölkərində müəssisələr və təşkilatlar özəlləşdirilərək özünümaliyyələşdirmə sistrminə daxildir. Təbii ki, bu proseslər dövlət nəzarəti altında keçirilsə də, müəssisələr verilən sərbəstlik onların daha yüksək səviyyədə inkişafına şərait yaradır. Bu baxımdan müəssisələr gəlirlərinin çox, xərclərinin daha az olması üçün davamlı olraq daha ixtisaslı mütəxəssisləri cəlb etməkdə daha maraqlıdırlar. Çünki, kadr siyasətinin düzgün və səmərəli idarə olunması həmin müəssisədə işin daha məhsuldar və keyfiyyətli olmasına təsir vacib amillərdəndir. Bu gün üçün işə qəbul edilən namizədlər arasından beynəlxalq standartlara cavab verən kadrlar daha şanslıdırlar. Təcrübə östərir ki, innavativ metodların həyata keçirilməsi və daim təkmilləşdirilməsi məhz bu cür namizədlərin payına düşür. [2, s. 21].

Sahiblarların, müəssisə və şirkət rəhbərlərinin həyata keçirdiyi səmərəli kadr siyasəti işçi potensialının inkişaf etdirilməsində və bu siyasətin davamlı olaraq təkmilləşdirilməsində xüsusi rolunu mütləq qeyd etmək lazımdır. Müəssisənin inkişaf etdirlməsi, onun azad bazar iqtisadiyyatı şəraitində rəqabətə tab gətirməsi, dəyərlərinin formləaşması üçün müəssisə rəhbəri daim məsuliyyət hiss etməli olan səlahiyyətli şəxsdir. Müəssisə rəhbəri tərəfindən həyata keçirilən yüksək təşkilatçılıq mədəniyyəti işçilər arasında korporativ dəyərlərin və münasibətlərin formalaşmasına təsir göstərir.

Ölkə iqtisadiyyatının iqtisadi-siyasi inkişafında, xüsusi ilə sosial-iqtisad məsələlərinin həllində fəaliyyət göstərən bütün orqanların işgüzar münasisibətlərinin səmərəli təşkil edilməsi məhz kadr potensialının düzün seçilməsindən birbaşa asılıdır.

İşçi heyyətinin keyfiyyətinin və məhsuldarlığının təhlili zamanı onları qiymətləndirməyə imkan verən vahid meyyarların təyin olunması vacid məsələlərdəndir. Kadrların yerinə yetirdiyi fərqli iş fəaliyyət nəticələrini qiymətləndirərkən işin səmərəlilik göstəricilərinin müqayisə olunması yetəri qədər dəqiq, haqlı və qənaətbəxş qiymətləndirilmədir.

Kadrların səmərəli işləməyə motevasiya edilməsinə müəssisə daxilində sağlam rəqabəti təmin edən qərarlar vasitəsi ilə də köməyi ilə də həyata keçirmək olar. Bura peşəkarlığa əsaslanan işə qəbul sisteminin tətbiqi, işçilərin peşə ixtisasından və şəxsi bacarıq və istedadından yararlanaraq vəzifədə yüksəldilməsi, müvafiq əmək haqqı sisteminin tətbiqi daxildir**.**

Kadr və kadr potensialı ilə işin səmərəliliyini artırmağa nail olunmasına effektiv diqqət və fərqlı əlaqə sistemi yaradılmalıdır. Səmərəliliyin artmasına səbəb olan cəhətlərdən biri də yeni kommikasiya və suni intellekt texnologiyalarından istifadədir. Bu baxımdan, informasiya texnologiyaları sahəsində yeniliklər gələcəkdə səmərəliliyin artırılmasına daha da böyük təsir göstərəcək.

İşçinin karyera planının formalaşdırılması üçün qeyd olunan tədbirlərin həyata keçirilməsi vacibdir;
❖ işçilərin istedlarının müqayisəli təhlili aparılır;
❖ işçinin biznes rəqabəti ilə bağlı zəif və güclü tərəfləri araşdırılır;
❖ təhlillərə əsasən gələcək illər üçün proqnozlar modeli qurulur;
❖ yerinə yetiriləcək layihələrin mərhələləri müəyyən edilir;
❖ işçinin tələbata uyğun ixtisaslaşdırılması üçün təkliflər hazırlanır (hazırlıq, təkmilləşdirmə dərslər və s.);
❖ işçinin ixtisasi təkmilləşdirilərək yeni vəzifələrə təyin olunması üçün müəyyən tələblərin qəbul olunur.
❖ Kadrların idarə edilməsi və kadr potensialının yaradılması mürəkkəb sistem və prosesdir. İşçilərin düzün və ədalətli idarə edilməsi müxtəlif kadrların vəzifə dərəcələrinin ilə müəyyən edilən prinsiplər, metodlar, cavabdehlik və təlimlər çərçivəsində həyata keçirilən fəaliyyətin məcmusudur. Təbii ki, bu cür məsələlər müəssisə və şirkətlərin işçilərin idarə olunması ilə bilavasitə bağlıdır. İşçi heyyətinin idarə idarə olunması özü müəyyən istiqamətlərdən ibarətdir: [1, s. 186].
❖ kadr siyasəti: kadr seçiminin xüsusi, nəzəri təlimatları, məqsədləri, səlahiyyət növü, işçinin iş qrafiki, müəssisələrdə isə - rəqabətli biznes layihələri, müştərək razılaşmalar, müəssiədaxılı nizam-intizam qaydaları;

❖ kadr seçimi: tələb olunan sahələr üzrə ixtisaslara üzrə vacib və köməkçi işçi heyyətinin ststistikasının hesablanması; boş vakansiya yerlərinin və fəhlə dərəcələrinin müəyyən edilməsi; kadrların peşəkar seçimi; kadrların formalaşdırılması;

❖ kadr adaptasiyası: Kadrların işə qəbulu, iş yerinin dəyişdirilməsi prosesində işçilərin dəyişən xarici və daxili qaydalara əsasən, istehsal, əmək, dəyişmə prosesinə və məişət şəraitinə uyğun işlərin həyata keçirilməsi ;

❖ kadrların motivasiyası: Faydalı əmək əmsalının artırılması, qarşıya qoyulan tapşırıqların anında və məhsuldar yerinə yetirilməsi arzusu ilə şəxsi heyətin mükafatlandırılması və mənəvi motevasiyalaşdırılması;

❖ işçi heyyətinin dəyərləndirilməsi: Qəbul olunan kadrların real bacarıqlarının öyrənilməsi; kadrların müavinətlərinin təyin olunması; işçi heyyətinin attestasiyası; funksiyaların bölgüsü;

❖ kadrların yerləşdirilməsi: ixstisaslı xidmət sahələrinə kadrların cəlb olunmasının planlaşdırılması; iş mühiti və əmək müavinəti; işçilərin yer dəyişməsi; tapşırıq təlimatı; işçilərin müəyyən müddətdən bir kursların keçirilməsi, ixtisas seçimi və onun təkmilləşdirilməsi.

Hal-hazırda işçi heyyətin araşdırılması, onların müqayisəsi, vəzifəsinın dəyişdirilməsi, yerinə yetirəcəyi işin səlahiyyələrinin təyin olunması, həmçinin təlim-tərbiyəsi zamanı onların peşə və şəxsi keyfiyyətlərini və bacarıqlarını aşkara çıxaran düzgün qayda və qanunlardan yararlanmaq lazımdır. Burada bir sıra üsullardan istifadə olunur, o cümlədən sosial məsələlərlə bağlı anket doldurmaq, kadrların dünyagörüşü, qavrama templəri və s. testlər, idarəetmə situasiyaları, qrup müzakirələri bilmək üçün tətbiq olunur.

İşçi heyyətinin bacarıq və istedadının təhlili və dəyərləndirilməsi vahid sistem əsasında aparılmalıdır. Burada ən mühüm xüsusiyyət təşkilatın hər bir şöbə müdiri üçün müxxtəlif ixtisas şərtlərinin qəbul edilməsidir. Digər xüsusiyyət isə hər bir işçinin xüsusi bacarığının aşkara çıxarılması və işçinin istedad və bacarığının ədalətli dəyərləndirilməsidir. Növbəti cəhət icraçı rəhbər işçilər tərəfindən ehtiyac olan işçi qrafikinin tərtib olunması və bu qrafikdə rəhbər vəzifələrə layiq olan işçilərin işə qəbul olunmasıdır. Burada ümumi tələblərlə yanaşı, yerinə yetiriləcək işin məzmunu və həcmi nəzərə alınmaqla hər bir rəhbərə fərdi və xüsusi şərtlər qarşıya qoyulur.

Təşkilatlarda və müəssisələrdə kadr potensialının idarə edilməsinin əsas məqsədi işçilərin potensialını və innovativ ideyalarının yüksək səviyyədə artırmağa nail olmaqdır. İnsan təşkilatların ən qiymətli sərvətidir və digər texnoloji avadanlıqların və onların məhsuldarlığı müəsissənin mənafeyi uğrunda istifadəsi, müəssisənin gəlirinə təsir gücü və keyfiyyət və kəmiyyətin müəyyən şəkildə birlikdə işləməsinə şərait bir elementdir. Kadr potensialının səmərəli təhlil və idarə olunması, ixtisasartırma və kursların keçirilməsini təmin edilməsi, qiymətləndirmə, əmək haqqının ödənilməsi və mükafatlandırma kimi motevasiya məsələlərini həyata keçirir. Bu proses yerinə yetirilməsi zamanı işçi qüvvəsi ilə əlaqəli fərqli məsələlərin həll yolu tapılması üçün müəssisədə vaxtinda və ədalətli qərarların tərtib olunmuş, planlaşdırılmış, fəqləndirilmiş və ixtisaslaşmış işçiləri iş yerlərində saxlamalı və onlara qaydalara və tələblərə əsasən rəhbərlik etməlidirlər. Bu cür iş rejimi kadr siyasətinin həyata keçirilməsinin ən düzgün şərtlərindən biridir. İşçi heyyətinin səmərəli və ədalətli idarə edilməsi qəbul edilmiş vacib şərtləri əhatə edir: [3, s. 254].

✓ təşkilatların və şirkətlərin spesifik strategiyasına uğun gələn işçi heyyətinin bacarığına və təcrübəsinə tələbatın müəyyən edilməsi;
✓ bazarda işçi axıçılığının statistikasının illər üzrə təhlili və məşğulluq səviyyəsinin müqayisəsi;
✓ işçilərin karyera planlaması;
✓ fəaliyyət motivasiya tədbirlər planının proqqnozlaşdırılması;
✓ laboratoriyaların keyfiyyət göstəricilərinin nəzərətdə saxlanılması;
✓ gəlirin, əmək müavinətinin və işçinin tələbatının öyrənilməsi;
✓ şirkət daxilində işçilərin aktiv sosial vəziyyətinin öyrənilməsi;
✓ təşəbbüskar əməyin həvəsləndirilməsi;
✓ yeni standartlara cavab verən laboratoriyaların tətbiqi;
✓ kadrların peşəkar ixtisaslaşdırılması;
✓ problemli məsələlərin həll yollarının tapılası;
✓ işçilərə psixoloji dəstəyin göstərilməsi.

İşçi heyyətinin bacarıq və istedadlarının üzə çıxarılmasında daha praktik əhəmiyyət kəsb edən məsələlərə aşağıdakılar daxildir:

❖ kadrlarınsəmərəli əmək bölgüsü və onların ixtisasa uyğun yerləşdirilməsi;

❖ təşkilat və onun şöbələri üçün hansı sahələr və neçə işçi tələb olunduğunu müəyyən etmək;

❖ yeni kadrların yerləşdirilməsi və ixtisassız işçilərin işdən azad olunması və ya təlimlərin keçirilməsi;

❖ işçilərdən potensialları dairəsində yararlanmaq;

❖ işçi qüvvəsini lazımı səviyyədə hazırlığını təşkil etmək və bu baxımdan zəruri olan xərcləri müəyyən etmək;

❖ işçilərlə tələbatın planlaşdırılması;

İşçilərin gələcək illər üçün praqnozlaşdırılmasında kadr marketinqi vacibdir. Kadr marketinqinin ən mühüm vəzifələrindən biri işçilərə tələbatın müəyyən edilməsi və onun ödənilməsi məsələləridir. Eyni zamanda, kadr marketinqi bazar prinsiplərinə əsaslanan kadr siyasəti və marketinq fəaliyyətinin birgə formada fasiləsiz idarə olunmasından ibarətdir. Həmin fəaliyyət daxili və xarici amilləri, əmək bazarı amillərini nəzərə alaraq müvafiq məlumatların əldə edilməsini, kadrların marketinq planının tərtib edilməsini və müvafiq tədbirlərin görülməsini nəzərdə tutur.

## Ədəbiyyat

1.Mediyev R. «Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti», Bakı: Şərq-Qərb 2008, 215 s.

2.Горелкин А.В., Молодежь как субъект обеспечения устойчивого развития Российского общества и национальной безопасности России. Вестник Кемеровского государственного университета 2015 № 2 (62) Т. 2, с.24-26

3.Мехтиев Р.Э. Национальная идея Азербайджана в эпоху глобальных трансформаций. В 2 кн. Книга II / Рамиз Мехтиев. – М.: Политическая энциклопедия, 2017.– 365 с.

**РЕЗЮМЕ**

**УКРЕПЛЕНИЕ КАДРОВОГО ПОТЕНЦИАЛА ДЛЯ ОБЕСПЕЧЕНИЯ УСТОЙЧИВОГО РАЗВИТИЯ**

***Мамедова Э.Ш.***

***Ключевые слова:*** *персонал, кадровый потенциал, кадровый поток, человеческие ресурсы, социально-экономические проблемы*

В статье упоминается о важности укрепления кадрового потенциала для обеспечения социально-экономического развития страны. Уровень развития общества и результат деятельности любой организации напрямую связаны с уровнем использования их трудового потенциала. В настоящее время разработка индекса устойчивого человеческого развития является достаточно основным и важным вопросом в нашей республике. В нашей республике непрерывная специализация рабочей силы по всем направлениям, рост кадрового потенциала в соответствии с новыми требованиями, создаст необходимость применять новые концепции.

**SUMMARY**

**STRENGTHENING STAFF CAPACITY IN ENSURING SUSTAINABLE DEVELOPMENT**

***Mammadova E.Sh.***

***Key words:*** *staff, staff potential, staff flow, human resources, socio-economic problems*

In the article, it is mentioned that it is important to strengthen the personnel potential in order to ensure socio-economic development in the country. The level of development of society and the result of the activity of any organization is directly related to the level of utilization of their labor potential. Currently, the development of the sustainable human development index is a fairly basic and important issue in our republic. In our republic, the continuous specialization of the workforce in all fields, the cultivation of personnel potential in accordance with new requirements, considers it necessary to apply new concepts.

# AZƏRBAYCANIN İQTİSADİ-SİYASİ MÜHİTİNDƏ "ƏSRİN MÜQAVİLƏSİ"NİN ROLU

**Məmmədova Səxavət Tofiq qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*vuqar.memmedov7272@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan, neft, xarici investisiyalar, qlobal arena, iqtisadi inkişaf, inteqrasiya*

Ölkəmizdə müasir iqtisadi siyasətin əsas prioritetlərindən biri iqtisadiyyatın diversifikasiyasıdır. Bu baxımdan köklü dəyişiliklərin, islahatların aparılmasına zəmin yaradan sazişlərin bağlanılması, sərəncamların verilməsi, qərarların qəbul edilməsi əsasında kompleks tədbirlər planının həyata keçirilməsi vacib hədəf kimi seçilmişdir. Azərbaycan iqtisadiyyatının inkişafını təmin edən ən önəmli sahə 150 illik bir tarixi olan neft sənayesidir. Neft azərbaycanın ən dəyərli milli sərvəti, beynəlxalq aləmdə tanınmasının ən bariz nümunəsidir. Azərbaycan neft tarixinin yeni bir dövrü Ulu öndər Heydər Əliyevin şah əsərlərindən biri

olan “Əsrin müqaviləsi”ndən başlanır. Bu müqavilə ilə Azərbaycanın qlobal arenaya çıxışı reallaşdı, Azərbaycan öz ayaqları üstündə dura bilən qüdrətli bir ölkəyə çevrildi.

Yaxın keçmişə nəzər salsaq Azərbaycan iqtisadiyyatının diversifikasiyasında “Əsrin müqaviləsi”nin böyük əhəmiyyətinin bir daha şahidi olarıq. Fikrimizcə, Azərbaycanın müasir iqtisadi inkişaf strategiyasının təməli məhz „Əsrin müqaviləsi”ndən başlanır. Müqavilənin həm beynəlxalq geosiyasi, həm də geoiqtisadi əhəmiyyəti çox böyükdür. Belə ki, bu tarixi saziş 70 illik bir müddət ərzində SSRİ-nin bir struktur vahidi kimi tanınan, yenicə müstəqillik əldə etmiş Azərbaycanın dünyada, qlobal arenada tanınmasına böyük təkan verdi. Müqavilə Azərbaycanla yanaşı region dövlətlərinə məxsus olan karbohidrogen ehtiyatlarının alternativ istehsalının, eyni zamanda ixracının həyata keçirilməsi üçün də yeni iqtisadi imkanların açılması baxımından da əhəmiyyətli oldu. İlk dəfə olaraq Xəzər dənizində beynəlxalq əməkdaşlıq baş tutdu. Gələcəkdə realllaşdırılacaq yeni transmilli enerji layihələrinin, kommunikasiya layihələrinin təməli məhz bu müqavilədə qoyuldu. “Əsrin müqaviləsi” vasitəsilə Azərbaycan xarici ökələrin maliyyə resursları ilə yanaşı texnoloji resurslsrından da yararlana bildi. Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, qlobal dünya iqtisadiyyatına inteqrasiyasına, region dövlətlərlə müqayisədə həyata keçirdiyi transmilli layihələr hesabına tərəfdaşlıq əlaqələrinin inkişafına da təsir göstərdi. Bu müqavilə imzalandıqdan sonra nəinki neft sənayesinə, eyni zamanda digər sahələrə də xarici investisiyaların həcmi artmağa başladı. Azərbaycanın iqtisadi mühiti ilə bərabər siyasi və sosial mühitində də müsbətə doğru dəyişiliklər baş verdi.

"Əsrin müqaviləsi"nin bağlanmasından az sonra dünyanın 21 ölkəsinə məxsus 43 şirkətlə 27 neft müqaviləsi bağlandı ki, onların hesabına Azərbaycanda neft sənayesinin inkişafına üst-üstə 60 milyard ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutuldu [6]

“Əsrin müqaviləsi” iki əsas dövrə ayrılır:

1. 1994-2017-ci illər - Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 20 sentyabr 1994-cü ildə Xəzər dənizinin Azərbaycana aid olan hissəsində “Azəri” və”Ciraq” adlanan yataqlarında birgə işləmə haqqında müqavilə bağlanaraq hasil ediləcək neftin pay bölgüsü qərara alındı. Bu müqavilədə dünyanın ən iri 11 şirkəti iştirak etdi. Belə ki, "Əsrin müqaviləsi"ndə 13 ən məşhur neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta) dünyanın 8 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) təmsil edirdi [2]. Aşağıdakı cədvəldə həmin şikətlərin pay bölgüsü öz əksini tapmışdır (cədvəl1).

***Cədvəl 1.***

**“Əsrin müqaviləsi”ndə şirkətlərin payları**

| s/s | Ölkələr | Şirkətlər | Müqavilədəki investisiya payı |
|---|---|---|---|
| 1 | Azərbaycan | ADNŞ (SOCAR) | 20 |
| 2 | Böyük Britaniya | British Petroleum" | 17,12 |
| 3 | ABŞ | Amoco | 17,01 |
| 4 | ABŞ | UNOCAL | 11,2 |
| 5 | Rusiya | Lukoil | 10,0 |
| 6 | ABŞ | Penzzoil | 9,81 |
| 7 | Norveç | Statoil | 8,56 |
| 8 | ABŞ | McDermott | 2,45 |
| 9 | Böyük Britaniya | Ramco | 2,08 |
| 10 | Türkiyə | Türk petrolları şirkəti | 1,75 |

***Mənbə:*** *Məlumatlar [2] əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən də göründüyü kimi yenicə müstəqillik qazanmış kiçik bir dövlət dünyanın güc strukturları olan, inkişaf etmiş, beynəlxalq siyasi və iqtisadi arenada öz sözünü demiş ölkələrlə saziş imzalayaraq onların investisiya imkanlarından istifadə imkanı əldə etmişdir. Bu nəhəg ölkələrlə bir sazişdə iştirak etmək olduqca çətin idi. Buna baxmayaraq Azərbaycan ölkəsinin arxasında müdrik, uzaqgörən bir siyasətçi Heydər Əliyev dururdu.

2. 2017-2050-ci illər- 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, “Chevron”, “Inpex”, “Statoil”, “ExxonMobil”, “TP”, “Itochu” və “ONGC Videsh Limited” şirkətlərinin rəsmiləri saziş imzalandı [3]. Sazişdə iştirak etmiş ölkələrin şirkətlərinin pay bölgüsünə nəzər salaq (cədvəl 2):

*Cədvəl 2.*

**"Yeni əsrin müqaviləsi"ndə şirkətlərin pay bölgüsü**

| s/s | Ölkələr | Şirkətlər | Müqavilədəki investisiya payı |
|---|---|---|---|
| 1 | Böyük Britaniya | BP | 30,37 |
| 2 | Azərbaycan | AzACG (SOCAR) | 25 |
| 3 | Macarıstan | MOL | 9,57 |
| 4 | Yaponiya | Inpex | 9,31 |
| 5 | Norveç | Equinor | 7,27 |
| 6 | ABŞ | ExxonMobil | 6,79 |
| 7 | Türkiyə | TP | 5,73 |
| 8 | Yaponiya | Itochu | 3,65 |
| 10 | Hindistan | ONGC Videsh Limited | 2,31 |

***Mənbə:** Məlumatlar [3] əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən də məlum olur ki, şirkətlər arasında sazişdə Rusiyanı təmsil edən "LUKoyl" şirkəti yoxdur. Çünki, şirkət 2002-ci ildə 10%-lik payını 1,375 milyard ABŞ dolları müqabilində Yaponiyanın İNPEX neft şirkətinə satmışdır.

Bu sazişdən aşagıdakı iqtisadi gözləntilər mövcuddur:

1.SOCAR-ın 11.65% iştirak payının bu sazişdən sonra 25% olması.

2. Portnyor olan beynəlxalq şirkətlər tərəfindən Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödənilməsi.

3. Mənfəət neftinin 75 faizinin Azərbaycana çatması.

4. Azərbaycanın ümumi mənfəət göstəricisinin 89,1 faiz təşkil etməsi.

5. Gələcəkdə "Azəri-Çıraq-Günəşli"yə 40 milyard dollardan çox investisiya qoyuluşu potensialının olması.

Müstəqillik illərində ölkə iqtisadiyyatına 263 milyard ABŞ dollarına yaxın investisiya yatırılmışdır ki, bunun da 50%-i xarici sərmayələrdir [5].

Ümumi investisiya qoyuluşunun 60 faizdən çoxu qeyri-neft sektorunun inkişafına yönəldilmişdir [3].

Bütün bunlara əsasən 15 ilin əsas iqtisadi göstəricilərinin artım dinamikasına nəzər salsaq "Əsrin müqaviləsi"nin Azərbaycan iqtisadiyyatında əvəzsiz rolunun bir daha şahidi ola bilərik (cədvəl 3).

*Cədvəl 3.*

**2003 - 2018-ci illərdə Azərbaycanda əsas iqtisadi göstəricilərin artım tempi**

| s/s | Göstəricilər | Artım tempi (dəfə) |
|---|---|---|
| 1 | ümumi daxili məhsul istehsalı | 3,2 |
| | o cümlədən qeyri-neft sahəsində ÜDM | 2,8 |
| | sənaye məhsulu istehsalı | 2,6 |
| | qeyri-neft sənayesi | 2,2 |
| | kənd təsərrüfatı məhsulları istehsalı | 2 |
| 2 | dövlət büdcəsinin gəlirləri | 13,5 |
| 3 | ölkənin strateji valyuta ehtiyatları | 28 |

***Mənbə:** Statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Ölkənin strateji valyuta ehtiyatları 2022-ci ilin 11 ayında da 12.3% və ya 6.5 milyard ABŞ dolları artaraq 59.8 milyard ABŞ dollarına çatmışdır [1].

2022-ci ildə Dövlət Neft Fondunun (ARDNF) aktivləri 8,9% artaraq bu il yanvarın 1-nə 49 033,6 milyon ABŞ dolları təşkil etmişdir. Məlumata görə, ötən il ARDNF-in büdcə gəlirləri 16 296 milyon manat, büdcə xərcləri isə 7 988,3 milyon manat olmuşdur [4].

Apardığımız təhlillərə əsasən "Əsrin müqaviləsi"nin Azərbaycanın iqtisadi-siyasi mühitindəki rolunu aşağıdakı müdəalarla yekunlaşdıraraq iki qrupa ayırmaq olar:

1. Müqavilənin daxili əhəmiyyətini şərtləndirən amillər:

- ölkədə hər bir sahədə köklü iqtisadi və sosial islahatların həyata keçirilməsi;
- iqtisadi artıma nail olunması;
- strateji valyuta ehtiyatlarının artması
- ölkədə müasir sosial və mədəni infrastrukturun formalaşması;
- işsizlik səviyyəsinin azaldılması;
- qeyri-neft sektorunun inkişafı və s.

2. Ölkənin xarici mühitə inteqrasiyanı şərtləndirən amillər:

- yeni müstəqillik qazanmış bir ölkənin qlobal iqtisadi-siyasi mühitə sürətli inteqrasiyası;
- inkişaf etmiş ölkələrlə tərəfdaşlıq mövqelərinin qurulması və möhkəmləndirilməsi;
- neft, qaz və enerji resurslarının dünya bazarına çıxarılmasının təmin edilməsi;
- ölkənin qlobal nəqliyyat və logistika sisteminə qoşulması;
- qabaqcıl ən iri xaruici şirkətlərin ölkəyə investisiya axınınn cəlb edilməsi;
- regionda güclü lider statusunun əldə edilməsi və s.

Ən nəhayət, "Əsrin müqaviləsi" ölkəmizin yeraltı və yerüstü təbii sərvətlərinə sahiblənməsinə, müstəqil dövlət olaraq inkişafına, iqtisadi və strateji mövqeyinin, hərbi qüdrətinin möhkəmlənməsinə zəmin yaratdı. Bunun da nəticəsi olaraq milli maraqlarının müdafiə əzmini təsdiqləyərək müstəqilliyin əsas təminatçısı kimi əldə olunan nəaliyyətləri və qəhrəman oğulları Azərbaycana "44 Günlük II Qarabağ müharibəsi"ndə Şanlı Qələbəni qazandırdı. İşğaldan azad edilmiş ərazilərdə də quruculuq işlərinin müasir standartlara uyğun aparılmasında "Əsrin müqaviləsi" nəcicəsində əldə edilmiş nəaliyyətlərin rolu olduqca böyükdür.

## Ədəbiyyat


1. https://apa.az/az/finance/azerbaycanin-strateji-valyuta-ehtiyatlari-60-mlrd-dollara-catib-740093
2. https://az.wikipedia.org/wiki/%C6%8Fsrin_m%C3%BCqavil%C9%99si
3. https://aztv.az/az/news/1338/esrin-muqavilesi-azerbaycani-qlobal-dunya-iqtisadiyyatinin-terkib-hissesine-ceviren-layihe
4. https://report.az/maliyye-xeberleri/ardnf-in-aktivleri-49-milyard-dollari-kecib/
5. https://www.azerbaijan-news.az/posts/detail/nazir-kecen-il-olke-iqtisadiyyatina-153-milyard-dollar-investisiya-yatirilib-169279
6. www.socar.gov.az



**РЕЗЮМЕ**

**РОЛЬ «КОНТРАКТА ВЕКА» В ЭКОНОМИЧЕСКОЙ И ПОЛИТИЧЕСКОЙ СРЕДЕ АЗЕРБАЙДЖАНА**

***Мамедова С. Т.***

***Ключевые слова:*** *Азербайджан, нефть, иностранные инвестиции, мировая арена, экономическое развитие, интеграция*

«Контракт века» - одна из самых почетных страниц, написанных Гейдаром Алиевым, всемирно известным, дальновидным политиком, имеющим беспримерные заслуги в истории Азербайджана. Результаты этого соглашения использовались в каждом проекте и реформе с 1994 года. Неоспоримый факт, что экспорт нефти и газа имеет большое значение в развитии нашей страны и является основой ее экономического и политического развития, а также ее интеграции в мировое хозяйство.

В статье проанализировано место и значение «Контракта века» в экономической и политической среде Азербайджана и сделаны определенные выводы.



**SUMMARY**

**THE ROLE OF THE CONTRACT OF THE CENTURY IN THE ECONOMIC AND POLITICAL ENVIRONMENT OF AZERBAIJAN**

***Mammadova S.T.***

***Key words:*** *Azerbaijan, oil, foreign investment, world arena, economic development, integration*

The "Contract of the Century" is one of the most honorable pages written by Heydar Aliyev, who is a world-famous, far-sighted politician with unparalleled merits in the history of Azerbaijan. The results of this agreement have been used in every project and reform since 1994. Yes, it is an indisputable fact that the export of oil and gas is of great importance in the development of our country and is the basis of its economic and political development, as well as its integration into the world economy.

The article analyzes the place and significance of the "Contract of the Century" in the economic and political environment of Azerbaijan and draws certain conclusions.


# İNSAN KAPİTALININ DƏYƏRLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ SAĞLAMLIQ VƏ SOSİAL KAPİTALIN BƏZİ İNKİŞAF PROBLEMLƏRİ VƏ ONUN HƏLLİ YOLLARI


**[1]Məmmədova Şəfiqə Səfər qızı, [2]Əliyev Əli Müşrəvan oğlu**

*[1]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*[2]Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan*

*shafiga_mammadova@mail.ru; alialiyev.unecsyo@gmail.com*



***Açar sözlər:*** *insan kapitalı, sağlamlıq, sosial kapital, milli rifah və sərvət, ailə, gənclər*

Keçən əsrin axırlarında BMT-nin Baş Assambleyasında dünya ölkələrinin irəli sürdükləri Davamlı İnkişafı Konsepsiyasında insan resursları, onların peşəkarlığı, təhsili, sağlamlığı, intellektual qabiliyyəti və yaradıcılığı, başqa sözlə insan kapitalının (İK) cəmiyyətin, o cümlədən ölkənin inkişafında aparıcı mövqeyə malik olması öz əksini tapmışdır. Qeyd edilən dövrlərdə Dünya Bankının (DB) qiymətləndirmələrinə görə, ölkədə milli rifahın – sərvətin yaradılmasında İK 64 %, əsas kapital 16 %, təbii kapital 20 % rola malik olmuşdur. Artıq XXI əsrin əvvəllərində, daha doğrusu DB-nın 2018 və 2021-ci ildə "Millətlərin dəyişən sərvətləri"nə aid hesabatlarında (CWON-2021), xüsusilə inkişaf etmiş ölkələrin məcmu milli sərvətlərinin yaradılmasında İK daha çox rola malik olmuşdur, yəni bu göstəricinin səviyyəsi 70-90% arasında dəyişmişdir [1] və [2]. İK ümumi qlobal sərvətin ən mühüm komponenti olaraq qalmaqda davam edir. Ölkələr daha yüksək iqtisadi səviyyələrə çatdıqca, İK ümumiyyətlə sərvətdə daha çox paya malik olur. DB-nın müəyyən etdiyi insan kapitalı indeksi (HCİ) İK-nın əsas meyarlarını özündə birləşdirir: sağlamlıq, təhsilin kəmiyyəti və keyfiyyəti və gözlənilən gələcək gəlirlər, qazanclar. Məhz tam sağlamlıq və tam təhsil insanların həyat səviyyəsinin keyfiyyətini, gəlirlərini və sərvətlərin yaranmasının bazası kimi çıxış edir.

Deməli, İK-nın meyarları insanda toplanmış və gəlir gətirmək qabiliyyətinə malik olan ölçü meyarlarıdır [3]. Məhz, həmin meyarlar da insanın cəmiyyətdə tutduğu mövqeyini, o cümlədən bütövlükdə ölkənin, dövlətin davamlı, rəqabətli inkişafını, yüksək həyat keyfiyyətini, insanların sağlam və xöşbəxt həyat tərzini müəyyənləşdirir. Bu mənada xalqın, dövlətin inkişafı onun əhalisinin, insanlarının uzun, sağlam və yaradıcı həyatları ilə sıx bağlıdır. Hal-hazırda ölkələrin inkişafı üç əsas göstərici ilə: ölkənin hər nəfərinə düşən ümumi milli gəlirlə müəyyən edilən gəlir, savadlılıq səviyyəsini göstərən təhsil və sağlamlıqla bağlı olan uzunömürlülük indeksləri ilə təyin olunan insanın inkişafı indeksi (İİİ) ilə müəyyən olunur. Bu göstəricilər, daha doğrusu, İK-nı müəyyən edən meyarlar içərisində ən vacib tərkib elementi kimi sağlamlıq, başqa sözlə sağlamlıq kapitalını, İK-ya özünəməxsusluğu və dolayısı ilə təsir edən, dəyərləndirilməsi və ölçülməsi hələ mümkün olmayan sosial kapitalı ayrıca qeyd etmək lazımdır. Məhz, sağlamlıq faktoru, sağlamlıq kapitalı insanın, ölkənin sərvətini yaradan məhsuldar işçi qüvvəsinin hər növ gəlir gətirən aktiv əmək fəaliyyətinin artmasına səbəb olan sağlam əqli, fiziki qüvvəsini, iş qabiliyyətini, xəstəliklərə qarşı immunitetini və s. sağlamlıq faktorlarını özündə birləşdirir. Sosial kapital daha geniş əhatə dairəsinə malik olmaqla ölkədə institutların keyfiyyətini, insanların ümumi məqsəd naminə birgə fəaliyyət səviyyəsini, səylərini, o cümlədən gənclərin, evliliyə hazırlaşmaq istəyən cavanların düzgün, optimal münasibətlərini və ünsiyyətini əhatə edir. Bununla əlaqədar, sağlam xalq-dövlət, sağlam həyat tərzi, xöşbəxt ailə həyatının qurulması gənclərin sağlamlığı və xüsusilə də, evliliyə hazırlanması ölkədə İK-nın inkişafının təməl faktorlarından biri kimi dəyərləndirilə bilər.

Müasir dövrdə sosial dövlətin yaradılması birbaşa cəmiyyətin – insanların inkişafı ilə əlaqədardır [14, s. 14-20]. Məhz araşdırmanın əsas məqsədi sağlamlıq və sosial kapitalın inkişafı istiqamətində sağlam gənclər-ailə təməlinin qurulması problemlərinin tədqiqidir.

İK-nın, o cümlədən sağlamlıq və sosial kapitalın inkişafı onlara yönəldilən investisiyalardan çox asılıdır. Bu investisiyalar mikro-insanların fərdi, ailə, makro-dövlət, mezo-firmalar, şirkətlər, qismən də meqo-beynəlxalq təşkilatlar səviyyəsində həyata keçirilir. DB İK-nın qiymətləndirilməsində iki yanaşmanın mövcudluğunu təklif edir: İK-ya yönəldilən investisiyaların miqdarının ölçülməsi və bu investisiyaların nəticələrinin dəyərləndirilməsi. Birinci yanaşmada makrosəviyyədə dövlətin təhsilə, sağlamlığa və s. investisiya xərclərini ölçmək mümkündürsə, bu halda şəxsi və digər investisiyaları dəyərləndirmək mümkün olmur, ikinci yanaşmada investisiyalar nəticəsində ömür boyu əldə edilən gəlirlərin diskontlaşdırılmış dəyəri ilə bağlıdır. Məqalədə tədqiq edilən problemi makro-dövlət səviyyəsində həyata keçirilə bilən investisiyalara aid etmək olar. Tədqiq edilən problemin həllindən nəinki millətin cələcəyi olan gənclər, gənc ailələr bütövlükdə ölkəmiz, dövlətimiz faydalana bilər.

Qeyd etdiyimiz kimi, sağlamlıq və sosial kapitalın məqalədə araşdırılan bir sıra inkişaf istiqamətləri cəmiyyətdə insanların bir-birilə ictimai münasibətlərindən başqa, ilk öncə gənclərin, bir-birilə ailə qurmağa hazırlaşan insanların ünsiyyətindən, ümumi rifah və məqsəd naminə münasibətlərinin qurulmasından çox asılıdır. Bu gün ailə bağlarının qurulmasına, eyni zamanda sonradan cəmiyyət üçün müasir dövrdə bəlaya çevrilən boşanmalara səbəb olan amillər çoxdur. Fikir ayrılıqları, sağlamlıq, qərarsızlıqlar, bir-birini başa düşməmək və s. kimi problemlər ailə əlaqələrinin pozulmasına gətirib çıxarır. Bu problemlər adi bir yaşam münaqişələri, ziddiyyətləri, problemləri kimi görünsə də, əslində belə kiçik çatışmazlıqlar bütövlükdə ölkənin, millətin inkişafında böyük problemlərə yol açır. "Ailə-kiçik bir dövlətdir" ifadəsi boş yerə deyilmiş bir söz deyil. Məhz, ölkənin inkişafı bu "kiçik dövlətlər"dən çox asılıdır. Təbii ki, ailədə, cütlüklər arasında problemlər olur və olmaqda davam edir və bunların olması da labüddür. Əlbəttə, evlənməyə hazırlaşan gənclər, kişi və qadınlar problemlərini birlikdə həll edərək bir-biini başa düşməyə çalışmalıdırlar. Bu işdə onlara İK-nın inkişafı istiqamətində dövlətin, ictimaiyyətin qaygısı da əvəzedilməz bir amil və dayaqdır.

Qeyd etmək lazımdır ki, İK-ya birbaşa təsir göstərən müasir ailə modeli hər kəs üçün müxtəlif ola bilər və bu modellər reallıqlarla, yaşam, düşüncə, müasir dövrdə formalaşan həyat tərzi, sağlamlıq, zəruri bilgilər və s. faktorlardan asılıdır. Fikrimizcə, müasir ailə modelinin əsasında ailə qurmağa hazırlaşan gənclərin sağlamlığı və bir-birini düzgün başa düşməsi az rol oynamır. Bir-birini başa düşməsi üçün isə sosial kapitalın mövcudluğu, düzgün ünsiyyətin qurulması vacibdir. Ünsiyyət qurmaqla, sosial kapital elementlərinə malik olmaqla insanlar, o cümlədən gənclər digər problemlərini də həll etməkdə çətinlik çəkməzlər. Məhz yaranan problemlərin əsasında da maddi sıxıntılarla yanaşı, ünsiyyət çatışmazlığı, sosial kapitalın olmaması durur. Gənclər arasında ailədə bir-birinə qarşılıqlı hörmət əlbəttə, vacib məsələlərdəndir. Amma bəzən sevginin əsas olduğunu deyirlər. Fikrimizcə, insanlar əvvəl bir-birini sevərək evlənir, daha sonra bu sevgi hörmətə çevrilir. Bu hörmətin yaranmasında isə gənclərin sağlamlığı, evliliklə bağlı zəruri məlumatlar da az rol oynamır.

Müasir dövrün ailə problemlərini nəzərə alaraq fikrimizcə, dağılan hər bir ailənin ayrılma problemi tərəflərin, gənclərin evlilikdən öncə bir-birini düzgün tanıması, ünsiyyətin qurulması və evliliyə (həm sağlamlıq, həm ailə büdcəsi və s. baxımından) hazır olmamasıdır. Azərbaycan Respublikasında ümumi nigah və boşanmaların statistikası aşagıdakı cədvəldə göstərilmişdir.

***Cədvəl.***

**Azərbaycan Respublikası üzrə 2010-2021-ci illərdə nigah və boşanmaların dinamikası**

| İllər | Nigahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə düşən | |
|---|---|---|---|---|
| | | | Nigahların sayı | Boşanmaların sayı |
| 2010 | 79172 | 9061 | 8,9 | 1,0 |
| 2011 | 88145 | 10747 | 9,7 | 1,2 |
| 2012 | 79065 | 11087 | 8,6 | 1,2 |
| 2013 | 86852 | 11730 | 9,3 | 1,3 |
| 2014 | 84912 | 12088 | 9,0 | 1,3 |
| 2015 | 68773 | 12764 | 7,2 | 1,3 |
| 2016 | 66771 | 13114 | 6,9 | 1,4 |
| 2017 | 62923 | 14514 | 6,5 | 1,5 |
| 2018 | 62484 | 14857 | 6,4 | 1,5 |
| 2019 | 63869 | 17148 | 6,4 | 1,7 |
| 2020 | 35348 | 14628 | 3,5 | 1,5 |
| 2021 | 56314 | 17191 | 5,6 | 1,7 |

***Mənbə:*** *[5, s. 358]*

Cədvəl 1.-in məlumatlarından göründüyü kimi, 2010-2021-ci illərdə Azərbaycanda Qarabağ müharibəsi ilə əlaqədar olaraq 2020-ci il istisna təşkil etməklə, bağlanan nigahların sayında xüsusilə 2013-2017-ci illərə nisbətən 2020-2021-ci illərdə azalma müşahidə edilsə də, əksinə qeyd edilən illərdə boşanmaların sayında artım (xüsusilə 2019-cu ildə) baş vermişdir. Təkcə 2021-ci ildə qeydiyyat şöbələri tərəfindən 56314 nigah və 17191 boşanma halları qeydə alınıb və əhalinin 1000 nəfərinə nigahların sayı əmsalı 5,6, boşanmaların sayı əmsalı isə 1,7 təşkil etmişdir. Nəzərə alsaq ki, 2021-ci ildə nigahda olanların əksəriyyətini – 83 %-ni (46708) və məhz boşanmaların sayının 88 %-ni (15191) 15-29 yaşda gənclər təşkil edir, onda bir daha ölkədə İK-nın vəziyyətinə neqativ təsir edən gənclərin ailə problemlərinin dinamikasında artım olduğunu demək mümkündür [6]. Boşanmaların səbəblərinin aradan qaldırılması, möhkəm ailə təməlinin qurulması problemlərini həll etməkdə fikrimizcə, ölkədə Sağlam Gənclər-Ailə Məsləhət və İnformasiya Mərkəzinin yaradılması və fəaliyyəti müsbət rol oynaya bilər (Mərkəzin strukturu və onun bölmələrinin adları şəkildə göstərilmişdir).

Gənclərin evliliyə hazır olması dedikdə, onların evlilik məsuliyyəti və problemlərini tam aidiyyati ilə dərk etmələri və qavramaları başa düşülməlidir. Bu səbəbdən də evliliyə hazırlıq, evlilikdən sonra bir çox ailələrdə ən kiçik məişət problemlərindən tutmuş, cinsi hazırsızlıq, bu səpkidə olan problemlərin öhdəsindən gələ bilməmək, onların aradan qaldırılmasında mütəxəssislərə müraciətlərin olunmaması və komplekslərin yaranması, tərəflərin bir-birini anlamamasına, əksər vaxtlarda boşanmalara gətirib çıxarır. Hansı səbəblərdənsə, ayrılma olmadıqda isə məcburi evlilik həyatının davam etməsi əlavə stress və əsəb gərginliyinin yaranmasına gətirib çıxarır. Nəticədə, əgər ailədə uşaqlar dünyaya gələrsə, bu da uşaqların əlavə sosial, psixoloji zədələr alması, onların diqqətdən kənarda qalması və cəmiyyət üçün sosial cəhətdən passiv, özünü təsdiq etmək qabiliyyətindən məhrum, arzu olunmayan düşüncəyə sahib olan fərdlərin formalaşması ilə nəticələnir ki, bu fərdlərin də əksəriyyəti öz növbələrində gələcək ailə həyatlarında oxşar talelər yaşamağa məcbur olurlar.




**Şəkil. Sağlam Gənclər-Ailə Məsləhət və İnformasiya Mərkəzinin təklif olunan strukturu**

Hal-hazırda mövcud olan tələblərə görə, gənclərin artıq qərar verib evliliyə hazırlaşan zaman nigahın qeyd edilməsindən qabaq tələb edilən zəruri xəstəliklərin, xüsusilə talasemiya və s. mövcudluğu (onlar barəsində gənclərin xəbərdar olması və gələcək övladlarının taleyi ilə bağlı məsuliyyətli qərarların qəbulu və s. ilə bağlı) barəsində tələblər (əgər evlənənlərdə bu xəstəliklər aşkar olunarsa) gəncləri çıxılmaz vəəziyyətə salır və onların əksəriyyəti çətin də olsa, evlənmək qərarından əl çəkməyərək, gələcək övladlarının sağlamlığını təhlükədə qoyurlar. Bu da bütövlükdə xalqın sağlamlığına, ölkənin inkişafına (İİİ ilə əlaqədar olaraq) zərbə vurur. Bu səbəbdən də ölkədə ən azından 18-20 yaşına çatmış gənclərin icbari sağlamlıq qeydiyyatından keçmələri zərurəti evliliyə hazırlaşan gənclərin qərarlarına müsbət təsir etməklə, (onların sağlamlıqlarının vaxtında qayğısına qalmaları ilə bağlı) xalqımızın sağlam genofonunun qorunub saxlanmasına səbəb olur. Yuxarıda qeyd edilən problemləri həll etmək, millətin, xalqın sağlamlığını qorumaq, düzgün sosial ünsiyyəti qurmaq, sağlam və xöşbəxt həyat tərzi yaşamaq məqsədilə gənclər, yeni qurulmaqda olan ailələr, həmçinin yeni qurulmuş ailələr üçün gənclərin, dövlət əhəmiyyətli evliliyə hazırlıq-məsləhət mərkəzinin yaradılmasını və bu sahəyə diqqətin artırılmasını zəruri hesab etmək olar. Bu mərkəz sağlam gənclərin formalaşmasına, ilk öncə sağlam ailə qurmaq istəyən fərdlərin psixoloji vəziyyətlərinin öyrənilməsinə, köməklik göstərilməsinə və s. məsələlərin həllinə yardımçı ola bilər. Beləliklə, bütün qeyd edilən tədbirlərin həyata keçirilməsi, problemlərin həll ediməsi respublika əhəmiyyətli Sağlam Gənclər-Ailə Mərkəzinin yaradılması ilə mümkün ola bilər. Sağlam Gənclər–Ailə Mərkəzi əsasən məsləhət-informasiya xarakterli olmaqla aşağıdakı istiqamətləri özündə birləşdirə bilər:

1. Gənclərin icbari sağlamlıq qeydiyyatı (əlbəttə, bu məsələnin hüquqi-qanun bazası hazırlanmaqla);
2. Qadın və kişi psixologiyası;
3. Qadın və kişinin sağlamlığı (HİV, QİÇS, Hepatit A; B; C; D, talasemiya və s. xəstəliklərin aşkarlanması və onlara qarşı mübarizə);
4. Evliliyə hazırlıq;
5. Ailənin sosial həyatı və cəmiyyətdə tutduğu mövqe;
6. Gənclərin sosial ünsiyyətinin qurulması;
7. Ailənin maddi-məişət həyatının düzgün qurulması və planlaşdırılması;
8. Arzu olunmayan hamiləliyin qarşısının alınması;
9. Uşaqların ailədə rolu, tərbiyəsi, valideynlərin uşaqlara təsiri, uşaqların sağlamlığı, düzgün psixoloji vəziyyətinin formalaşdırılması təhsili, cəmiyyət üçün faydalı bir şəxs kimi formalaşması və s.

Son nəticə kimi qeyd etmək olar ki, əgər evliliyə hazırlaşan gənclər düzgün məlumatlandırılaraq və məqsədli şəkildə istiqamətləndirilərək zəruri bilgilərə öncədən malik olarlarsa, cəmiyyətin sağlam təməli qoyula bilər və ölkəmizdə sağlam gənclər-ailələr formalaşa bilər. Fikrimizcə, bütün bunları mərkəzləşdirilmiş şəkildə Sağlam Gənclər-Ailə Məsləhət və İnformasiya Mərkəzi həyata keçirə bilər və ölkədə İK-nın inkişaf etdirilməsinə və nəticədə milli rifahın yüksəlməsinə kömək edə bilər.

Qeyd etmək lazımdır ki, Dünya Bankı Qrupu 2017-ci ili İnsan Kapitalının İnkişaf Layihəsinin başlangıcı ili elan etmişdir [7] və dünyanın 30 ölkəsi bu layihənin ilkin iştirakçıları olmuşdur. 1990-cı ildən isə BMT-nin İnkişaf Proqramı insan inkişafı haqqında hər il məruzə nəşr etdirir. 1995-ci ildə Azərbaycan Respublikası üçün İİİ 0,162 (belə ki, vahid 100 %-ə uyğundur) təşkil etsə də, bu göstərici ilbəil artaraq 2017-ci ildə 0,757-ə yüksəlmişdir [8]. Azərbaycan Respublikası 2015-ci ildə 122 ölkə arasında İİİ reytinqinə görə 78-ci, 2017-ci ildə isə 189 ölkə və ərazi üzrə 80-ci yerdə qərarlaşmışdır. Ölkəmiz bu yeri Livan və Makedoniya ilə bölüşür. 2018-ci ildə isə Azərbaycan İİİ reytinqinə görə [9 və 10] daha da yüksələrək 157 ölkə arasında 69-cu yerdə olmuşdur.

## Ədəbiyyat


1. The Changing Wealth of Nations/ Building a Sustainable Future // Washington: World Bank. 2018, - 235 p., Официальный сайт Всемирного Банка: World bank.org. PDF
***Key words:*** *digital economy, digital agriculture, qualified personnel, staffing, geo information system, strategy, geo information system digitization, smart garden, smart greenhouse, smart farm, smart field, digitization of selection data, genobank.*

Agriculture is one of the largest sectors of the economy of the Republic of Uzbekistan, the mainstay of food security and welfare of the rural population.

It helps to increase the efficiency of agricultural activities through the processing of large numbers and digital data, the storage of technological solutions and equipment, and the improvement of the delivery system to consumers. However, we cannot say that the digital economy is widely introduced in all sectors of the economy. In particular, the peculiarities of the agricultural sector lead to a slow pace of development of innovations in "digital agriculture".

In our opinion, digital agriculture is a set of activities aimed at implementing the relationship between the collection, generalization, coordination, analysis and use of data from various sources during the activities of agricultural enterprises using modern digital technologies. Digital agriculture means the integration of digital technologies in all aspects of the agricultural sector and requires open and free access.

Agriculture is such a network that it requires not only an adequate database, but also many years of practical farming experience. The reason is that if digital information comes to a conclusion by processing

data from different sources, an experienced farmer will be able to make a comprehensive assessment of external factors.

While digital agriculture will enable the country to achieve new efficiency indicators, it will further expand its potential when combined with the experiences of farmers.

Digitization of agricultural activity means not only the use of digital information to determine and improve the efficiency of a particular type of activity, but also the introduction of an optimal time and method of obtaining information on all issues faced by farmers in their daily activities.

In our country, the issue of digitalization of the economy, the organization of activities aimed at the modernization of all sectors on the basis of digital technologies is becoming one of the urgent tasks of today. In particular, as stated in the Address of the President of the Republic of Uzbekistan Shavkat Mirziyoyev to the Oliy Majlis on December 29, 2020, "optimization of the number of employees and work processes through the widespread introduction of digital technologies, training of all employees to work on modern information technologies" [1]. As a result, the following can be achieved through the digitization of agriculture:

- the rule of law is ensured;
- A strong economy will be created;
- saves money;
- Prosperous life of the people is ensured;
- Citizens' rights and freedoms are fully guaranteed;
- Public safety and legal advocacy will ensure the country's defense capability, security;
- corruption cases decrease;
- Eliminate dissatisfaction in agriculture.

On this basis, we need to implement the Digital Uzbekistan-2030 program. The digital economy will increase GDP by at least 30 percent, dramatically reducing corruption. The analysis conducted by leading international organizations also confirms this. Therefore, it is necessary to carry out digital transformation in the economy, the development of national information technologies and attract investment in this area "[2].

Decree of the President of the Republic of Uzbekistan dated January 8, 2019 PF-5614 "On additional measures to further develop the economy and increase the effectiveness of economic policy" defines and develops the Strategy for the development of the national digital economy (Digital Uzbekistan-2030) [3].

At the same time, the Decree of the President of the Republic of Uzbekistan dated April 17, 2019 No PF-5708 "On measures to improve public administration in agriculture" was adopted and the issue of digitalization of agriculture was identified as one of the main tasks and activities of the Ministry of Agriculture. [4].

Based on the experience of developed countries, there are opportunities to organize effective activities by digitizing agriculture in the following areas (Figure 1).

| Fundamentals of agricultural digitization | |
|---|---|
| **digitization of geoinformation systems (especially gis, esri, mapinfo, smallword)** | digitization of information such as price changes, resource allocation, market conditions |
| **digitization of information on external influences on crops** | digitization of radio frequency identification systems |
| **digitization of smart garden, smart greenhouse, smart farm, smart field systems** | digitization of registers, registers and normative information |
| **digitization of information on selection, genobank, breeds and plants** | digitization of agricultural management systems and services |

**Figure 1 Directions of agricultural digitization**

In general, by digitizing agriculture, we can have the following opportunities:

first, data becomes a primary resource and it does not dwindle;

secondly, the volume of trading space on the Internet is not limited and it allows to provide real-time data on the sale of agricultural products;

thirdly, there is an opportunity to provide one type of agroservice;

fourth, it will be possible to minimize external natural factors that are a key feature of agriculture. It all depends on the size and speed of the internet database.

Based on the above, we can say that digital agriculture is a system that is equally effective for all link entities that grow and serve products, and its implementation can save a lot of time and resources.

But in turn, there is an issue related to the organization and use of digital agriculture, which creates a demand for qualified professionals with in-depth knowledge of the industry and modern technical and technological knowledge. The introduction of digital agriculture requires qualified personnel with a number of different specialties. In particular, it covers such areas as agronomist, economist, programmer, engineer, IT specialist, breeder.

In order to introduce a management system based on the digitization of agriculture in developed countries, the following requirements are set for qualified personnel. Including:

- Have a quality higher education in accordance with the STEM (Science - specialty, Technology - technology, Engineering - engineering, design and engineering, Mathematics - mathematics) approach;
- Manager - the ability to think systematically, creatively and quickly make independent decisions;
- have a culture of digital data distribution and service, information security, etc.

Here, the STEM (Science - specialty sciences, Technology - technology, Engineering - engineering, design and engineering, Mathematics - mathematics) approach itself requires not only specialized knowledge, but also knowledge of engineering, technology and mathematics. One of the main problems facing the education system is the integration of all these areas. This can be explained by the complexity of solving problematic tasks such as educational directions, teaching methods, textbooks, teachers and material and technical base.

Conclusions and suggestions Our country is taking the first steps towards digitalization of the digital economy, especially agriculture, and in the future it is expected to focus on this. In such circumstances, in our opinion, the following tasks are required to train qualified specialists in the field of agricultural digitization and to prevent staff shortages or the involvement of personnel in several different areas for one function. Including:

- Development of a system of training of digital agricultural specialists, ensuring the opening of new directions and disciplines in the university, which trains personnel for the agricultural sector;
- Strengthening the material and technical base of higher education institutions for the digital agricultural system, systematic provision with modern devices, technologies, programs and engineering developments;
- Pay special attention to the financing of scientific and innovative projects in the institutes and universities, including research institutions, which train personnel for the agricultural sector;
- Improving skills, education mechanisms in foreign countries with developed digital economy. Development of a system of financing and financial incentives from the "El Yurt Umidi" Fund and other financial sources;
- Introduction of new educational standards in the curricula of agricultural universities;
- development of new qualification requirements for digital agricultural personnel, optimization of all processes in the agricultural sector through digitization of professional services of agricultural consulting centers;
- It is expedient to develop organizational and economic mechanisms for opening joint routes not only with foreign universities and departments, but also with national universities and their departments, in conditions where digital agricultural personnel are required to have a thorough knowledge of several areas.

In short, the introduction of digital technologies in agriculture has the potential not only as a necessary infrastructure of the production process, but also as an area of direct application of artificial intelligence in the production process, the creation and development of agricultural systems. It is also closely related to the further expansion of the application of the digital economy in agriculture, the level of knowledge accumulated, the development of science, technical and technological equipment of production processes and the ability to control processes at all stages of the product life cycle.

## References


1. Address of the President of the Republic of Uzbekistan Shavkat Mirziyoyev to the Oliy Majlis. December 29, 2020. https://president.uz/uz/lists/view/4057
2. Decree of the President of the Republic of Uzbekistan No. PF-6079 of October 5, 2020 "On approval of the Strategy" Digital Uzbekistan - 2030 "and measures for its effective implementation."
3. Decree of the President of the Republic of Uzbekistan dated January 8, 2019 PF-5614 "On additional measures to further develop the economy and increase the effectiveness of economic policy."
4. Decree of the President of the Republic of Uzbekistan dated April 17, 2019 No PF-5708 "On measures to improve the system of public administration in agriculture."

**XÜLASƏ**

**RƏQƏMSAL KƏND TƏSƏRRÜFATININ DAVAMLI İNKİŞAF MƏSƏLƏLƏRİ VƏ ONUN İXTİSASLI KADRLARLA TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ**

***Ravşanov A.D.***

***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat, rəqəmsal kənd təsərrüfatı, ixtisaslı kadrlar, kadr təminatı, geoinformasiya sistemi, strategiya, geo informasiya sisteminin rəqəmsallaşdırılması, ağıllı bağ, ağıllı istixana, smart ferma, smart sahə, seçim məlumatlarının rəqəmsallaşdırılması, genobank*

Məqalədə rəqəmsal kənd təsərrüfatı konsepsiyası, kənd təsərrüfatının rəqəmsallaşdırılmasının mühüm aspektləri və əsas istiqamətləri, habelə bu prosesdə ixtisaslı kadrlara olan tələblər təqdim olunur və kadr sisteminin təkmilləşdirilməsi ilə bağlı şərhlər verilir.

**РЕЗЮМЕ**

**ВОПРОСЫ УСТОЙЧИВОГО РАЗВИТИЯ ЦИФРОВОГО СЕЛЬСКОГО ХОЗЯЙСТВА И ВОПРОСЫ ОБЕСПЕЧЕНИЯ ЕГО КВАЛИФИЦИРОВАННЫМИ КАДРАМИ**

***Равшанов А.Д.***

***Ключевые слова:*** *цифровая экономика, цифровое сельское хозяйство, квалифицированные кадры, кадровое обеспечение, геоинформационная система, стратегия, цифровизация геоинформационной системы, умный сад, умная теплица, умная ферма, умное поле, оцифровка селекционных данных, генобанк*

В статье представлены понятия цифрового сельского хозяйства, важные аспекты и основные направления цифровизации сельского хозяйства, а также требования к квалифицированным кадрам в этом процессе и комментарии по совершенствованию кадровой системы.

## II BÖLMƏ *** II СЕКЦИЯ *** II SECTION

# AZƏRBAYCANIN DÜNYA DÖVLƏTLƏRİ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ

# ИСТОРИЧЕСКИЕ ЗАСЛУГИ ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ И РАЗВИТИИ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА С ГОСУДАРСТВАМИ МИРА

# HISTORICAL SERVICES OF HEYDAR ALIYEV IN THE FORMATION AND DEVELOPMENT OF ECONOMIC RELATIONS OF AZERBAIJAN WITH OTHER STATES

## ƏT VƏ SÜD EMALI SƏNAYESİNİN İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ


**[1]Abbasov Vahid Hacıbəy oğlu, [2]Qorçiyeva Tərlan Kəniş qızı**

*[1]Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*

*[2]Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, Bakı, Azərbaycan*

*vahid.abbasov.56@mail.ru ; terlanqorciyeva1975@gmail.com*



***Açar sözlər:*** *ət emalı, süd emalı, qida sənayesi, idxal, istehlak, istehsal və emal*


Müasir dövrdə ət və süd emalı sənayesinin iqtisadi inkişafı Heydər Əliyev ideyalarından qaynaqlanan aqrar islahatlarla əlaqədar olub, otuz ildən artıq bir dövrü əhatə edən zəngin elmi-praktiki təcrübəyə əsaslanmaqla həyata keçirilməkdədir. Ümummilli Liderin 1990-cı ildən etibarən məskunlaşdığı Naxçıvan Muxtar Respublikasında və 1995-ci ildən etibarən bütün ölkədə həyata keçirməyə başladığı torpaq və kənd təsərrüfatı ilə əlaqədar iqtisadi islahatlar böyük uzaqgörənliklə və qətiyyətliliklə həyata keçirilməyə başladı. Azərbaycanda aqrar sahənin inkişafının torpaq islahatlarının nəticələrindən asılı olacağını qeyd edən Ulu Öndər bu islahatları birdəfəlik kompaniya kimi deyil, daimi bir proses kimi, dəyişən iqtisadi şəraitlərə uyğun olaraq, kənd təsərrüfatına yararlı olan pay torpaqlarından necə istifadə etmək, torpağı əkib-becərmək üçün maddi-texniki, maliyyə və insan resurslarından necə istifadə etmək, kənd təsərrüfatı istehsalını sənaye əsasları üzərində necə inkişaf etdirmək məsələlərinə yaradıcı mövqedən yanaşılmasını vacib hesab edirdi. Bütün dünya ölkələrində olduğu kimi uzun illərdir ki, ardıcıl olaraq kənd təsərrüfatına dövlət himayədarlığı siyasətinin aparılması sayəsində istehsalçılara güzəştli şərtlərlə texnika, gübrə, cins mal-qara və s. resursların təklif olunması ilə yanaşı, kəndli təsərrüfatlarının torpaq vergisi istisna olmaqla bütün növ vegilərdən azad edilməsi, subsidiyalar və digər maliyyə yardımlarının göstərilməsi bu gün də Prezident İlham Əliyev tərəfindən ardıcıl aparılan siyasətin yeni inkişaf mərhələsində uğurla davam etdirilməsindən xəbər verir.

Ət və süd emalı sənayesi qida sənayesinin ən mühüm fəaliyyət sahələrindən biri olaraq, ölkəmizin ərzaq və qida təhlükəsizliyinin təmin olunma səviyyəsini müəyyən edən istehsal sahələrindən biridir. Bununla yanaşı, qida sənayesi həm də bütövlükdə ərzaq kompleksinin normal və harmonik inkişafına şərait yaradılmasına aktiv təsir göstərir, ərzaq bazarının ayrı-ayrı seqmentlərində kənd təsərrüfatı xammalından istifadə olunmaqla, müxtəlif növ qida məhsullarının bazara təklif olunmasına şərait yaradır. Nəticədə ərzaq məhsulları istehlakçılarının seçim imkanları genişlənərək, müxtəlif qida məhsullarına tələbatların ödənilməsi və kənd təsərrüfatında geniş təkrar istehsalın həyata keçirilməsi mümkün olur. Ona görə də ət və süd emalı sənayesinin inkişafı strateji əhəmiyyət kəsb edən fəaliyyət sahəsi kimi qəbul edilərək, həm son istehlak məhsulları bazarında, həm də istehsal istehlakı bazarında aktiv rola malikdir.

Ət və süd emalı müəssisələrinin 60%-ə qədərinin Bakı, Sumqayıt və Xırdalan şəhərlərində yerləşməsi normal hal kimi qarşılanmasa da, əsas xammal istehsalçılarından uzaq məsafədə olmasına baxmayaraq, istehsalçılardan birbaşa asılılığın olmamasından xəbər verir. Bu da xammal istehsalçılarının fəaliyyətlərinin pərakəndəliyi, onların xüsusilə südün tədarükü və emalında mütəşəkkilliyinin zəif olması ilə əlaqədardır. Ona görə də emal müəssisələri tərəfindən kəndli təsərrüfatlarının xammallarına təklif etdikləri bazar qiymətləri bir sıra hallarda onları qane etmir. Bu baxımdan xırda təsərrüfatlar kimi fəaliyyət göstərən xammal istehsalçıları assosiasiyalarda və satış kooperativlərində birləşməklə, emal müəssisələrinə

münasibətdə vahid mövqedən çıxış edərək, xammallara arzu olunan bazar qiyməti səviyyələrinin formalaşmasına nail ola bilərlər. Bu səbəbdən istər ət, istərsə də süd sənayesi müəssisələrinin inkişafında müxtəlif qəbildən olan problemlər özünü göstərir. Bu problemlər müəssisələrin xammalla təminatı, istehsal güclərinin ilin müxtəlif dövrlərində qeyri-bərabər yüklənməsi, xammalın tələb edilən vaxt intervalında emalı, məhsulların tələb edilən vaxt müddəti ərzində reallaşdırılması, bazarda gedən dəyişikliklərə və istehlakçı tələbinə çevik uyğunlaşma ilə əlaqədar özünü göstərir. Sadalanan problemlərin həllinə nail olma ət və süd sənayesi müəssisələrinin inkişaf xüsusiyyətləri haqqında ətraflı bilgilərə malik olma əsasında mümkündür.

Ət və süd sənayesinin inkişafının xarakterik xüsusiyyətlərinin daha dərindən başa düşülməsi üçün ilk növbədə sözügedən fəaliyyətlərdə tədarük və istehsal seqmentlərinin səmərəli təşkili və idarə edilməsi məsələlərinə ehtiyac yaranmaqdadır. Bu fəaliyyətlər ət emalı müəssisələrində heyvanların diri və kəsilmiş çəkidə tədarükünü, heyvanların kəsimqabağı saxlanıldığı ferma və yaxud təsərrüfatların fəaliyyətini, heyvanların kəsim sexləri, ətin ilkin emalı, kolbasa məmulatlarının istehsalı, yarımfabrikatların hazırlanması, saxlama kameralarını, dərinin və digər tullantıların emalını və s. fəaliyyətləri əhatə etməkdədir. Ölkə əhalisinin ət və ət məhsullarına tələbatının ödənilməsi əsas etibarı ilə mal-qara, qoyun və quş ətinin və bu ətlərdən xammal kimi istifadə edilməklə alınan ət məhsullarının hesabına ödənilir. Bütün növ ət və ət məhsullarının cəmi istehsalı 2007-2021-ci illər ərzində demək olar ki, 63,5%-ə qədər artsa da, hər nəfərə düşən istehlak 32,4 kq-dan 41,2 kq-a qədər və yaxud 24,2% artmışdır. Baxılan illər ərzində əhalinin hər nəfərinə mal əti və ət məhsullarının istehlakı 15,0 kq-dan 16,3 kq-a qədər, yaxud 8,7%, qoyun və keçi əti və ət məhsullarının istehlakı 7,5 kq-dan 8,9 kq-a qədər, yaxud 18,7%, quş ətinin istehlakı isə 10,5 kq-dan 14,6 kq-a qədər, yaxud 39,0% artmışdır [1].




**Şəkil 1. Bütün növ ət və ət məhsullarının ehtiyatları və istifadələri, ton [3].**

Müqayisə olunan dövrdə əhalinin şəxsi istehlakına yönəldilən ət və ət məhsullarının həcmi 65,2% artmışdır ki, bunun da 1,7%-ə qədəri idxal məhsullarının artımı hesabına baş vermişdir. Bütövlükdə isə son on beş ildə bütün növ ət və ət məhsullarının ölkəyə idxalı 84,1%-dən çox artmışdır. Ölkədə istehsal olunan ət və ət məhsullarının 6,9%-i ət emalı sənayesində qida məhsullarının istehsalında istifadə olunmuşdur. Son 15 ildə isə emala yönəldilən ət məhsullarının həcmi isə 29 dəfəyə qədər artmışdır ki, bu da milli inkişaf proqramlarında qida sənayesinin inkişafına investisiya və kapital qoyuluşlarının artımı ilə bilavasitə əlaqədardır.

Əhalinin ət və ət məhsullarının istehlakının artması əsas etibarı ilə idxal olunan məhsullar hesabına baş vermişdir. Əhalinin hər nəfəri hesabına istehsal edilən ət və ət məhsullarının lazımi səviyyədə olmaması, bu məhsullar bazarının idxaldan asılılıq səviyyəsinin güclənməsinə gətirib çıxarmışdır. Belə ki, aparılan tədqiqatlar göstərir ki, müqayisə olunan dövrdə yaradılmış ət və ət məhsullarının ehtiyatlarında idxalın payı 5,4 %-dən 15,0%-ə qədər artmışdır. Bu məhsullar bazarının getdikcə idxaldan asılılığının güclənməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından arzu edilən hal deyil. Bu vəziyyətin qarşısının alınması üçün heyvandarlığın inkişafının dəstəklənməsi üzrə tədbirlərin davam etdirilməsinin alternativi yoxdur. Heyvandarlıq məhsulları üzrə idxaldan asılılıq səviyyəsinin azaldılması üçün ailə-kəndli təsərrüfatlarının potensialının artırılmasının mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, milli inkişaf proqramlarında ətlik və südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının fəaliyyətlərinin genişləndirilməsi təcrübəsinin dəstəklənməsinə xüsusi diqqət göstərilməkdədir. Hazırda ölkəmizdə ət və ət məhsullarının istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr mövcuddur. Ət sənayesinin gələcəyi bu sahənin xammal bazası kimi çıxış edən və ət istehsalı ilə məşğul olan müəssisə və təsərrüfatların fəaliyyətindən asılıdır. Bu müəssisə və təsərrüfatlarda istehsal edilən ətin ucuzlaşdırılması istiqamətində tədbirlərin işlənib hazırlanması və reallaşdırılması ət məhsullarının da ucuzlaşdırılmasına zəmin yaradır. Bunun üçün ölkəmizdə sözügedən sahənin dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter daşımalı və heyvandarlığın inkişafı daha da stimullaşdırılmalıdır.

Süd sənayesinin də özünəməxsus inkişaf xüsusiyyətləri var. İlk növbədə onu qeyd etmək lazımdır ki, bu sahənin sürətli inkişafı və əhalinin südə və süd məhsullarına tələbatının dolğun ödənilməsi xammal bazası kimi çıxış edən südçülük istiqamətli heyvandarlığın inkişafından asılıdır. Sözügedən sahənin inkişafı çox böyük kapital qoyuluşları tələb edir və onun bazarın tələblərinə uyğunlaşması çətinliklərlə müşayiət olunur. Belə ki, bazara südün və süd məhsullarının artırılmasına imkan verə biləcək südçülük istiqamətli naxırın formalaşdırılması üçün bir neçə il lazım gəlir. Bu, həm də ölkədə südün tələbatdan artıq istehsal olunduğu (ölkəmiz üçün bu hal xarakterik deyil) vəziyyət üçün də deyilə bilər. Belə ki, məsələn, südün ölkə əhalisinin tələbatından artıq istehsal edildiyi dövrdə südçülük istiqamətli naxırın ixtisar edilməsi də çətinliklərə gətirib çıxarır.

Hazırda Azərbaycanda istehsal edilən südün böyük əksəriyyəti ailə və fərdi sahibkar təsərrüfatlarının payına düşür. Bu təsərrüfatların demək olar ki, əhəmiyyətli hissəsi özlərinin fiziki və iqtisadi ölçülərinə görə kiçik təsərrüfatlardır və bu təsərrüfatlardan südün toplanılması və süd emalı müəssisələrinə çatdırılması böyük çətinliklər yaradır. Ona görə də təsərrüfatlarda istehsal edilən eyni həcmdə südün qiyməti ilə emal müəssisələri tərəfindən bazara təklif edilən eyni həcmdə südün bazar qiyməti arasında bir neçə dəfə fərq özünü göstərir. “İri təsərrüfatların parçalanması ilə baş verən xırda təsərrüfatçılığın meydana gəlmə prosesi dayansa da, bu təsərrüfatların ilkin emal müəssisələri ilə iqtisadi və texnoloji əlaqələri hələ də qənaətbəxş səviyyədə deyildir. Emal müəssisələrinin inhisarçılıq mövqeləri qalmaqda davam edir. Kənd təsərrüfatı xammallarının tədarük və satış qiymətləri arasında kəskin differensiallaşma qalmaqdadır” [2, s.244].

Emal müəssisələrinin əldə etdiyi xammalın qiyməti ilə hazır məhsulun qiyməti arasında kəskin fərqin yaranmaması və əhali təbəqələrinin südə və süd məhsullarına tələbatının ödənilməsi üçün südün toplanılmasında mütərəqqi texnologiyaların tətbiqinə ehtiyac var. Qeyd edək ki, sözügedən texnologiyalar inkişaf etmiş ölkələrdə tətbiq edilir və həmin texnologiyaların tətbiqinə qədər qeyd edilən ölkələr müəyyən inkişaf yolu keçmişlər. Belə ki, bu ölkələrin süd istehsalı ilə məşğul olan təsərrüfatları istehsal etdikləri südü həmin anda deyil, bir sutkadan sonra emal müəssisələrinə sata bilirlər ki, bu da onların tətbiq etdiyi texnologiyanın – təsərrüfatlarda südün soyudulmasına və onun keyfiyyət xüsusiyyətlərinin qorunub saxlanılmasına imkan verə biləcək soyuducu sisternlərdən istifadə sayəsində mümkün olmuşdur. Həmin ölkələrdə belə bir vəziyyətin yaranması onların süd emalı sənayesinin inkişafına da güclü təkan vermişdir. Bu təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi süd sənayesinin inkişafına və əhali təbəqələri üçün süd və süd məhsullarının ucuzlaşmasına gətirib çıxara bilər. Ümumiyyətlə, ölkəmizin süd sənayesi üçün təbii xammallardan düzgün istifadə edilməməsi, bəzi süd emalı müəssisələrində istifadə edilən əsas fondların mənəvi və fiziki aşınmaya məruz qalması, emal müəssisələri tərəfindən tədarük edilən südün keyfiyyətinin heç də həmişə texnoloji tələblərə cavab verməməsi, süd emalı müəssisələrinin bazar fəaliyyətinin tələbləri əsasında idarə edilməsində yaranmış çətinliklər, innovativ texnologiyalara uyğun kadrların çatışmadığı kimi problemlər mövcuddur. Hazırda ölkəmizin kənd təsərrüfatında süd istehsalı ilə məşğul olan ailə təsərrüfatlarının sayı minlərlədir. Bu təsərrüfatlar tərəfindən bazara təklif edilən südün həcmi ayrı-ayrılıqda çox kiçik olduğundan təsərrüfatların heç biri südün bazar qiymət səviyyəsinə təsir edə bilmir. Belə rəqabət şəraitinə malik bazar mükəmməl rəqabətli bazardır.

Qida sənayesi və bunun ən vacib tərkib elementi sayılan ət və sud sənayesinin gələcək inkişafı yeni kadr potensialına əsaslanmaqla daxili və kənardan cəlb olunan investisiyalar hesabına, yeni və müasir bazar konyukturuna cavab verən texnologiyalara əsaslanmalıdır. Fəaliyyət göstərən müəssisələr isə kiçik və orta həcmli ilkin və təkrar emal sahələrinin modernizasiyası əsasında yenidən qurulmaqla fəaliyyət göstərməyə başlamalıdır. Sənayenin ayrı-ayrı sahələri üzrə məhsul istehsalına sərf edilmiş xərclərin quruluşunun təhlili göstərir ki, bütövlükdə sənaye üzrə cəmi xərclərdə material xərcləri 67,5 % təşkil edirsə, qida məhsulları sənayesində material xərclərinin xüsusi çəkisi 83,5 %-dən çoxdur. Bütövlükdə emal sənayesi üzrə əsas fondların modernləşməsi ilə əlaqədar olaraq, amortizasiya ayırmalarının cəmi xərclərdəki xüsusi çəkisi son altı ildə 3,2-dən 6,5 %-ə, yaxud da 2 dəfəyə qədər artmışdır. Qida sənayesi üzrə xərclərin tərkibində əsas fondlara amortizasiya xərcləri isə müqayisə olunan dövrdə 8,4 %-dən 4,2 %-ə qədər azalmışdır. Bu azalma əmək haqlarında da müşahidə olunmuşdur. Qeyd olunan xərclərin azalması bu fəaliyyət sahələrində yeni texnologiyaların və avadanlıqların zəif tətbiq olunması ilə əlaqədardır.

Qida sənayesi müəssisələrinin modernləşdirilməsi süd emalı müəssisələrindən başlanmalıdır. Süd ən tez xarab olan məhsullar sırasına daxildir və məhz bu emal sahəsində daha çox sayda müxtəlif çeşidli məhsullar istehsal edilir. Süd məhsullarının yerlərdə lazımi səviyyədə emal olunmaması əhalinin qidalı ərzaq məhsulları ilə vaxtaşırı təmin edilməsində fasilələrin yaranmasına səbəb olur. Çünki süd xammal kimi süd emalı müəssisələrinin əsas xammalı hesab olunur. Başqa sənaye sahələrindən fərqli olaraq süd emalı sənayesində istifadə olunan köməkçi materiallar, ancaq qablaşdırıcı və tara materiallarından ibarətdir. Süd emalı texnologiyasında istifadə oulnan maya və digər komponentlər əsas və köməkçi materialların tərkibində aşağı xüsusi çəkiyə malikdir. Yerlərdə kiçik həcmli süd emalı sexlərinin yaradılması heyvandarlıq məhsulları

istehsalı üzrə sahibkarlıq sahələrinin inkişaf etdirilməsinə, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə, yerlərdə ərzaq təminatının yaxşılaşdırılmasına təsir edən əsas amillərdən biridir. Bununla belə heyvandarlıq məhsullarının, xüsusilə də süd məhsullarının istehsalında sahələrarası əlaqələrin səmərəliliyinin yüksəldilməsi üçün südün yerlərdə emalçılar tərəfdən alınması ilə əlaqədar başlanan işlərin təkmilləşdirilməsi məqsədəuyğun olardı. Bu tədbirin mahiyyəti ondan ibarətdir ki, emal müəssisələri xüsusi soyuducularla təchiz oluna bilən texniki avadanlıqlar və maşınlarla təchiz olunmaq imkanlarına malikdirlər. Bu da imkan verər ki, kəndli təsərrüfatlarında istehsal olunan süd məhsullarının yüksək keyfiyyətlə emal müəssisələrinə təhvil vermək imkanı qazanılacaq və bundan həm süd istehsalçıları, həm də emalçılar əlavə gəlir götürmək imkanı qazanacaqlar. Burada əsas məsələ tərəflərin maraqlarını qarşılıqlı surətdə hüquqi cəhətdən əsaslandırmaqdan və bu maraqların reallaşdırılmasından ibarətdir. Ayrı-ayrı konkret fəaliyyət sahələri standart qərarların və qanunvericilik aktlarının olmasına baxmayaraq, sahələrarası əlaqələrdə hələ standart qanunlar tətbiq etmək mümkün deyildir. Fərdi qanunlardan doğan kooperasiya qaydaları isə hələ təkmil və işlək qanun halına salınmamışdır.

Süd məhsullarının istehsalı və emalı zamanı qısamüddətli və uzunmüddətli məqsədlərin həyata keçirilməsində, mənafelərdə ziddiyyətlər meydana gəlir. Bu ziddiyyətləri zəiflətmək və bəzən də qismən aradan qaldırmaq üçün kütləvi surətdə mini emal texnologiyalarının ölkə ərazisində yayılmasına imkan verən layihələrin reallaşmasına başlanmalıdır. Bütün bu layihələrin reallaşdırılması son mərhələdə süd məhsullarının istehsalının ictimai faydalılığının yüksəldilməsinə xidmət edir. İstehsal və emal sahələrinin kompleks inkişaf proqramlarının həyata keçirilməsi süd istehsalında mövsümiliyin zəifləməsində və xammalların tam istifadə olunmasında zəruri şəraitlərin yaranmasına imkan verir.




**Şəkil 2. Süd və süd məhsullarının ehtiyatları və istifadəsi, ton [4].**

Süd və süd məhsullarının istehsalı və istehlakına dair statistik məlumatların təhlilindən məlum olur ki, 2007-2021-ci illər ərzində istehsalın həcmi 65,8%, əhalinin şəxsi istehlakına yönəldilən məhsulların həcmi isə 72,3% artmışdır. Ət və ət məhsullarından fərqli olaraq süd məhsullarının emallılıq səviyyəsi daha yüksək olub, 93,3% təşkil etmişdir ki, bu qəbildən olan məhsulların həcmi müqayisə olunan dövrdə 63,3% artmışdır. Bütövlükdə götürdükdə süd və süd məhsullarının idxalında 2,2 dəfəyə qədər artım müşahidə olunsa da, 2014-cü illə müqayisədə idxalın həcmi 28,4% azalmışdır ki, bu da süd və süd məhsullarının emalında baş verən müsbət dəyişikliklərdən xəbər verir. Süd istehsalı ilə emal sənayesi arasında iqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsi bazar iqtisadiyyatı şəraitində aqrar-sənaye inteqrasiyası iştirakçılarının idarəetmə formalarının və istehsal-iqtisadi əlaqə formalarının təkmilləşdirilməsindən ibarətdir. İqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsinin digər şərtlərindən biri təkrar xammalların sənaye emalına cəlb edilə bilməməsidir ki, bu da emal sənayesinin zəif texniki bazaya malik olması südün emalından sonra əldə olunan təkrar xammalın kənd təsərrüfatı heyvanlarının yemlənməsində və istifadə olunmasında qiymətlərin razılaşdırıla bilməməsidir.

Südçülükdə sahələrarası əlaqələrin səmərəliliyinin yüksəldilməsi üçün südçülük istehsalının təmərküzləşməsi və ixtisaslaşması, süd emalı üzrə sənaye müəssisələrinin istehsal güclərinin yeniləşdirilməsi və optimal yerləşdirilməsi, daşınması və istifadəsi reallaşa biləcək və daim tələbat duyulan məhsulların istehsalına başlanması, heyvandarlıq və emal sənayesi sahələri ilə təsərrüfatlararası səmərəli kooperasiya və inteqrasiya əlaqələrini təmin edən təsərrüfatçılıq qurumlarının yaradılması, təkrar xammalların istifadəsi üzrə əsas istiqamətlərin seçilməsi və s. tədbirlərin reallaşdırılması zəruridir.

## Ədəbiyyat

1. Adambaşına əsas növ heyvandarlıq məhsullarının istehlakı - https://www.stat.gov.az/source/food_balances/,
2. Abbasov, V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri(monoqrafiya), Bakı, 2012, 424 s.
3. Bütün növ ət və ət məhsullarının ehtiyatları və istifadələri - https://www.stat.gov.az/source/food_balances/
4. Süd və süd məhsullarının ehtiyatları və istifadələri - https://www.stat.gov.az/source/food_balances/



**РЕЗЮМЕ**

**ЭКОНОМИЧЕСКИЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ МЯСНОЙ И МОЛОЧНОЙ ПРОМЫШЛЕННОСТИ**

***Аббасов В.Г., Горчиева Т.К.***

***Ключевые слова:*** *мясопереработка, переработка молока, пищевая промышленность, импорт, потребление, производство и переработка*

В статье мясомолочная перерабатывающая промышленность представлена как одно из важнейших направлений деятельности пищевой промышленности, а также рассмотрены социально-экономические факторы, способные создать условия для обеспечения продуктами питания и пищевой безопасности. Рассмотрены вопросы использования сельскохозяйственного сырья в отдельных сегментах рынка мясной и молочной продукции, предложения его рынку, расширения возможностей потребителей, удовлетворения спроса на различные продукты питания, осуществления экстенсивного воспроизводства в мясомолочной перерабатывающей промышленности.

**SUMMARY**

**ECONOMIC FEATURES OF THE DEVELOPMENT OF THE MEAT AND DAIRY INDUSTRY**

**Abbasov V. H., Gorchieva T.K.**

***Key words:*** *meat processing, dairy processing, food industry, import, consumption, production and processing*

The article presents the meat and dairy processing industry as one of the most important activities of the food industry, and also considers the socio-economic factors that can create conditions for ensuring food and food security. The issues of using agricultural raw materials in certain segments of the meat and dairy products market, offering them to the market, empowering consumers, meeting the demand for various food products, and implementing extensive reproduction in the meat and dairy processing industry are considered.


# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN MAHİYYƏTİNƏ YANAŞMALAR: MÜƏSSİSƏ SƏVİYYƏSİNDƏN DÖVLƏT SƏVİYYƏSİNƏ


**Aslanov Habil Hüseyn oğlu, Məmmədov Mülkəddin Rövşən oğlu**

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*

*dosent1966@mail.ru, Mulk1996@mail.ru*



***Açar sözlər:*** *milli təhlükəsizlik, iqtisadi təhlükəsizlik, müəssisənin iqtisadi təhlükəsizliyi, dövlətin iqtisadi təhlükəsizliyi, beynəlxalq iqtisadi təhlükəsizlik, iqtisadi diplomatiya*


Təhlükəsizlik insanın, cəmiyyətin, dövlətin, bəşəriyyətin əsas, ilkin ehtiyaclarından biridir. Onun mahiyyəti yuxarıda qeyd olunan subyektlərin mövcudluğuna təhlükə yaradan məsələləri əks etdirmək, qarşısını almaq, aradan qaldırmaq, habelə onların təmin edilmədən həyatın, rifahın, inkişafın və tərəqqinin fundamental maraqlarını məhv etmək bacarığı kimi üzə çıxa bilər. İqtisadi təhlükəsizlik ümumi təhlükəsizlik sistemində xüsusi yer tutur. L.Abalkin, V.Zabrodski, A.Krysin, A.Şavaev, V.Şlıkov, V.Yaroçkin və başqaları kimi bir çox xarici alimlər dövlətin iqtisadi təhlükəsizliyi problemləri ilə məşğul olurlar. Bu sahədə elmi işlərin sayının az olması öyrənilən problemin çox da uzaq olmayan dövrdən araşdırılmağa başlanması ilə izah edilir. Sistemli yanaşmaya əsaslanan müəssisənin iqtisadi təhlükəsizliyi probleminin müxtəlif aspektləri İ.V.Berezanın, A.M.Bondarenkonun, P.A.Gerasimovanın, L.İ.Donetsin, M.M.Zatserklyaninin elmi işlərinə həsr olunsa da, A.F.Melnikova, E.A. Oleynikova, A.V.Kozaçenko, S.M.Şkarlet və başqalarının araşdırmalarında bu problem öz aktuallığını itirməmişdir. Məhz buna görə də bu məqaləni yazmaqda məqsəd dövlətin və müəssisənin iqtisadi təhlükəsizliyinin mahiyyətini, onun tərkib hissələrini həm dövlət səviyyəsində, həm də müəssisə səviyyəsində müəyyən etməkdir.

BMT-nin beynəlxalq təhlükəsizlik sənədlərində o, aşağıdakı kimi müəyyən edilmişdir: "Təhlükəsizlik" - insanın, cəmiyyətin və ətraf mühitin həddindən artıq təhlükədən qorunması vəziyyətidir. Bu yanaşma ilə belə çıxır: "Təhlükəsizlik" - təhlükə mənbələrini və onların mümkün qurbanlarını, hadisələrin səbəb olduğu zərərin məqbul ehtimalı ilə dövlətin təhlükəsizliyini ehtiva edən real proseslərin və

sistemlərin mahiyyətidir. Təhlükəsizliyin yuxarıdakı tərifi təbii olaraq təhlükə və risk anlayışları arasındakı əlaqədən irəli gəlir: “Təhlükəsizlik” məqbul risk şəraitində obyektlərin və sistemlərin vəziyyətidir [12, 17].

Təhlükə, təhlükəsizlik və risk anlayışı təhlükəsizlik nəzəriyyəsinin əsas (fundamental) sistem anlayışları hesab olunur. Bəzi mənbələrə görə, “təhlükəsizlik” anlayışı təqribən 1190-cı ildən istifadə olunmağa başlanmış və özünü hər hansı təhlükədən qorunan hesab edən insanın sakit ruh halı kimi nəzərdə tutulmuş və ya semantik məna kəsb etmişdir. Sonralar bu anlayış dövlətin xalqın rifahının və təhlükəsizliyinin təmin edilməsini əsas məqsəd kimi qoyması ilə bağlı yeni şərh alır. Onun mahiyyəti ondan ibarət idi ki, bu, müvafiq orqanlar tərəfindən həyata keçirilən maddi, iqtisadi və siyasi şəraitlə təmin edilən real təhlükənin olmaması nəticəsində yaranan sakitlikdir [7, 8].

Konsepsiyanın məzmununun müxtəlif mənbələrdən təhlili göstərir ki, geniş mənada “təhlükəsizlik” anlayışı şəxsiyyətin, cəmiyyətin və dövlətin xarici təhdidlərdən təhlükəsizliyini təmin etmək üçün sosial fəaliyyətin nəticəsidir, dar mənada fərdin, cəmiyyətin və dövlətin həyati mənafelərinin daxili təhlükələrdən qorunması vəziyyətidir..

Beləliklə, “təhlükəsizlik” anlayışı ümumi mənada fərdin, cəmiyyətin, dövlətin həm daxili, həm də xarici təhlükəsizlik problemlərini əks etdirir.

Hazırkı "təhlükəsizlik" anlayışı mürəkkəb sistemlər olan idarəetmənin həm şaquli, həm də üfüqi səviyyələrini təmin etmək üçün fəaliyyət obyektlərini ayırmağa imkan verir. Mühafizə fəaliyyətinin şaquli obyektlərinə aşağıdakılar daxildir: şəxsi təhlükəsizlik; ictimai təhlükəsizlik; dövlət təhlükəsizliyi.

Təhlükəsizliyin üfüqi səviyyələrinə aşağıdakıların təmin edilməsi daxildir: siyasi, hərbi, iqtisadi, informasiya, elmi-texniki, enerji, sosial, ekoloji, nüvə, texniki, texnogen, resurs, innovativ, hüquqi, mədəni, intellektual, demoqrafik, genetik, kriminogen və digər fəaliyyətlər.

Şaquli səviyyələr fərdin, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin edən fəaliyyətləri təmin etməli və sistem kimi həyati əhəmiyyətli obyektlərin zədələnməsinin qarşısının alınmasını, onların təhlükəsizliyini təmin etməlidir. Bu tələblərin həyata keçirilməsi dövlətin mövcud olduğu tarixi dövrün reallıqlarından, onun qüdrətinin, hərbi, xüsusilə də icra və məhkəmə strukturlarının imkanlarından xeyli dərəcədə asılıdır.

Dövlətin təhlükəsizliyinin ən mühüm tərkib hissəsi onun iqtisadi təhlükəsizliyidir, çünki iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin müstəqilliyinin təminatı, cəmiyyətin sabitliyinin və səmərəli fəaliyyətinin, uğurların əldə edilməsinin şərtidir. Bu onunla izah olunur ki, iqtisadiyyat cəmiyyətin, dövlətin və fərdin fəaliyyətinin həyati aspektlərindən biridir və deməli, milli təhlükəsizlik anlayışı iqtisadiyyatın, onun həyat qabiliyyətini qiymətləndirmədən mənasız olacaq. Bu baxımdan iqtisadi təhlükəsizliyin təmin edilməsi ən mühüm milli prioritetlərdən biridir. İqtisadi təhlükəsizlik konsepsiyasının hazırlanmasında elmin rolu çox mühüm və məsuliyyətlidir. Problemin mahiyyətini açmaq, real təhlükələri müəyyən etmək, onlara qarşı etibarlı və effektiv üsullar təklif etmək prinsipial əhəmiyyət kəsb edir. Təbii ki, iqtisadi təhlükəsizlik ölkənin etibarlı müdafiə qabiliyyətinin təmin edilməsi, cəmiyyətdə sosial əmin-amanlığın qorunması, ekoloji fəlakətlərdən qorunması kimi komponentlərlə yanaşı, üzvi şəkildə dövlət təhlükəsizliyi sisteminə daxil edilir. Burada hər şey bir-birinə bağlıdır və bir istiqamət digərini tamamlayır: zəif və səmərəsiz iqtisadiyyatda hərbi təhlükəsizlik ola bilməz, necə ki, sosial münaqişələrlə parçalanmış cəmiyyətdə nə hərbi təhlükəsizlik, nə də effektiv iqtisadiyyat ola bilməz. Lakin təhlükəsizliyin müəyyən aspektlərini nəzərə alsaq, onların iqtisadi aspektlərindən yan keçmək olmaz. İqtisadi təhlükəsizlik ənənəvi olaraq iqtisadi sistemin ən mühüm keyfiyyət xarakteristikası kimi qəbul edilir ki, bu da onun əhalinin normal həyat şəraitini saxlamaq, milli iqtisadiyyatın inkişafı üçün resurslarla dayanıqlı təmin etmək qabiliyyətini, habelə dövlət maraqlarını, milli-iqtisadi əsaslandırmanın ardıcıl həyata keçirilməsini müəyyən edir.

İqtisadi təhlükəsizliyin özü mürəkkəb daxili struktura malikdir və burada onun üç mühüm elementini ayırd etmək olar: iqtisadi müstəqillik, özünü inkişaf etdirmək və tərəqqi etmək bacarığı.

Beləliklə, dövlətin iqtisadi təhlükəsizliyi milli iqtisadiyyatın müstəqilliyini, onun sabitliyini və davamlılığını, özünü daim yeniləmək və təkmilləşdirmək qabiliyyətini təmin edən şərtlər və amillər məcmusudur.

İqtisadi təhlükəsizlik ölkənin təsərrüfat subyektlərinin qarşısında duran praktiki vəzifə kimi, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid prosesində, xüsusi mülkiyyətin yaranması prosesində keçid hadisələri ilə yaranmışdır. Bu problemin - müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi probleminin aktuallığının təsdiqi və müəssisə rəhbərləri tərəfindən bu aktuallığın dərk edilməsi müəssisə idarəetməsinin təşkilati strukturunda yaradılmasıdır (baxmayaraq ki, bu, böyük maliyyə və sənaye konqlomeratlarına aiddir). Eyni zamanda, bəzi xarici müəlliflər müstəqil təhlükəsizlik xidmətinin yaradılmasını tövsiyə edir və bu strukturlar üçün müxtəlif variantlar təklif edirlər. Digərləri ABŞ-da mövcud olan və hüquq-mühafizə sahəsində özəl sahibkarlıq fəaliyyətinin müasir xarici təcrübəsini təhlil edən A.V.Krysin tərəfindən təsvir

edilənə bənzər “qeyri-dövlət iqtisadiyyatı obyektləri üçün obyektlərarası təhlükəsizlik sistemi”ndən istifadə etməyi təklif edirlər [10].

Qeyd etmək lazımdır ki, tez-tez bu xidmətlərin funksiyaları belə müəssisənin təhlükəsizliyinə endirilir. Eyni zamanda, struktur bölmələrində iqtisadi təhlükəsizliyin və onun səviyyəsinin qiymətləndirilməsi üçün yaxşı işlənmiş və etibarlı şəkildə fəaliyyət göstərən elmi sistem, onların işinin nəzəri əsası yoxdur. Bu da təbii ki, belə struktur bölmələrinin səmərəliliyini azaldır.

Müəssisənin iqtisadi təhlükəsizliyi, fikrimizcə, müəssisənin idarə edilməsinə situasiya yanaşması kontekstində müəssisə rəhbərliyinin iqtisadi maraqlarının onunla əlaqəli təsərrüfat subyektlərinin maraqları ilə zaman və məkanda uyğunlaşdırılması tədbiri kimi qəbul edilməlidir. . Müəssisənin iqtisadi təhlükəsizliyinin bu cür başa düşülməsi bu konsepsiyanı müəyyənləşdirmək üçün edilən cəhdlərlə ziddiyyət təşkil etmir, çünki bütün bu cəhdlər kimi, xarici mühitin iqtisadi vəziyyətə əhəmiyyətli, hətta daha həlledici təsirinin tanınmasından irəli gəlir. Müəssisənin iqtisadi təhlükəsizliyinin təklif olunan anlayışı arasındakı əsas fərq müəssisənin həmişə mənfi vəziyyətə təsir göstərə bilməməsi səbəbindən müəssisənin fəaliyyətini xarici mühitin mənfi təsirindən tam qorumağın qeyri-mümkünlüyünün tanınmasıdır. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, müəssisənin iqtisadi maraqları xarici və daxili mühitin subyektlərinin - müəssisənin işçilərinin, səhmdarların, həmtəsisçilərin, istehlakçıların, təchizatçıların, rəqiblərin, investorların maraqları ilə uyğunlaşdırılarsa, o zaman iqtisadi təhlükəsizlikdədir. Dövlət və bütövlükdə cəmiyyət, müasir idarəetmə prinsiplərindən istifadə etməklə xarici mühitdəki dəyişikliklərə vaxtında reaksiya vermək, reaksiyanın sürəti və adekvatlığı, müəssisənin dəyişən bazar şəraitinə uyğunlaşmasını təmin edir. Bu, belə bir fikrə gətirib çıxarır ki, müəssisənin iqtisadi təhlükəsizliyi dövlətin və ümumiyyətlə, milli təhlükəsizliyin iqtisadi təhlükəsizliyinin tərkib hissəsidir.

“Milli təhlükəsizlik” kateqoriyasından ilk dəfə ABŞ-ın 26-cı prezidenti T. Ruzvelt 1904-cü ildə gələcək Panama kanalı zonasında hərbi əməliyyatı ölkənin milli təhlükəsizliyinin maraqları ilə əsaslandırarkən istifadə etmişdir. Bu gün qanunvericilik səviyyəsində milli təhlükəsizlik problemi dünyanın əksər ölkələri tərəfindən müəyyən edilib[15].

“İqtisadi təhlükəsizlik” termini 1985-ci ildə BMT Baş Assambleyasının 41-ci sessiyasında “Beynəlxalq İqtisadi Təhlükəsizlik” qətnaməsinin qəbul edilməsi ilə rəsmiləşib. 42-ci sessiyada növbəti addım atıldı - Beynəlxalq İqtisadi Təhlükəsizlik Konsepsiyası qəbul edildi.

Bu gün elmi ədəbiyyatda iqtisadi təhlükəsizlik kateqoriyası müxtəlif cür şərh olunur.

Beləliklə, məsələn, V.Tambovtsevin fikrincə, “...müəyyən bir sistemin iqtisadi təhlükəsizliyi şəraitində onun istehsal altsisteminin dövlətin məqsədlərinə çatmaq qabiliyyətini təmin edən xüsusiyyətlərinin məcmusu kimi başa düşülən bütün sistem” [12].

V.A.Savin hesab edir ki, "iqtisadi təhlükəsizlik dövlətin həyati mənafelərinin müdafiəsi sistemidir. Mühafizə obyektləri bunlar ola bilər: bütövlükdə ölkənin milli iqtisadiyyatı, ölkənin müəyyən regionları, iqtisadiyyatın müəyyən sahələri, "İqtisadi təhlükəsizlik dövlətin həyati mənafelərinin müdafiəsi sistemidir, hüquqi və fiziki şəxslər sahibkarlıq subyekti kimi” [5].

L.İ.Abalkinin fikrincə, “iqtisadi təhlükəsizlik iqtisadi sistemin dinamik, səmərəli inkişaf etməyə və sosial problemləri həll etməyə imkan verən və dövlətin müstəqil iqtisadi siyasət işləyib hazırlamaq və həyata keçirmək imkanı olan vəziyyətidir” [1]. Deməli, sözün ümumi mənasında iqtisadi təhlükəsizlik dedikdə, əhalinin normal həyat şəraitini saxlamaq, milli iqtisadiyyatın inkişafı üçün resurslarla davamlı təminat imkanlarını müəyyən edən iqtisadi sistemin ən mühüm keyfiyyət xarakteristikası başa düşülməlidir.

S.M.Şkarlet semantikaya konseptual yanaşmaları və "təhlükəsizlik" anlayışını müəyyən edir, yəni: statik (dövlət kimi təhlükəsizlik) və dinamik (fəaliyyət kimi təhlükəsizlik) [19]. Bütün təzahürlərində təhlükəsizlik kateqoriyasının müasir konsepsiyasının əsasını məhz dinamik yanaşma təşkil edir ki, ona görə “təhlükəsizlik” subyektin aktiv qarşılıqlı əlaqəsinə və onun mövcudluq şəraitinə əsaslanır və onun öz fəaliyyəti zamanı mənimsədiyi özünü dərk edir və onları idarə etməyi bacarır.

Müəssisənin iqtisadi təhlükəsizliyinin mahiyyəti, K.S.Qoryaçevanın fikrincə, onun iqtisadiyyatının (iqtisadi sisteminin) belə bir vəziyyətindədir ki, bu, tarazlıq və hər hansı bir təhlükənin mənfi təsirinə qarşı müqaviməti, onun sabitliyini və fəaliyyətini təmin etmək qabiliyyəti ilə xarakterizə olunur [3 ].

"Müəssisənin iqtisadi təhlükəsizliyi" anlayışının əhəmiyyətli sayda tərifini ümumiləşdirərək, o, "korporativ resursların (kapital ehtiyatları, kadrlar, informasiya və texnologiya, maşın və avadanlıqlar) və sahibkarlıq imkanlarının belə bir vəziyyəti kimi müəyyən edilə bilər: sabit fəaliyyət, dinamik tədqiqat və inkişaf, texniki və sosial inkişaf üçün xarici və daxili təhlükələrə qarşı durmaq”.

İqtisadi təhlükəsizliyin təmin edilməsi problemlərindən danışırıqsa, bu gün onların həllinə bir neçə yanaşma mövcuddur. Çox vaxt müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi qarşıdurma, müxtəlif iqtisadi təhlükələrdən qorunmaqdan keçir. İqtisadi təhlükəsizlik kateqoriyasının mahiyyətinin müəyyənləşdirilməsinə bu cür yanaşma məntiqlə sübut edir ki, onu istənilən səviyyədə təmin etmək üçün

yalnız informasiyanın mühafizəsi tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi lazımdır. Praktikada bunun üçün iki səviyyəli sistemlərdən istifadə edilmişdir. Birinci səviyyədə - təhlükəsizlik xidmətinin təşkili və informasiyanın mühafizəsi və kommersiya casusluğuna qarşı mübarizə. İkinci səviyyədə - komandada müvafiq iqlimin yaradılması, yəni diqqətlilik və maksimum məsuliyyətin psixoloji mühiti, personalın sədaqəti.

Fikrimizcə, bu yanaşma həddən artıq bəsitdir, çünki iqtisadi təhlükəsizlik probleminin yalnız informasiyanın mühafizəsi səviyyəsinə endirilməsi problemin mahiyyətinə məhəl qoymur, xarici mühitin təsirini və təhlükə mənbələrinin çoxşaxəliliyini nəzərə almır. Təbii ki, informasiya itkiləri çox vacibdir və təhlil edilməli və nəzərə alınmalıdır, lakin müəssisənin iqtisadi təhlükəsizliyini təkcə bununla azaltmaq mümkün deyil. Bu anlayış daha geniş və daha həcmlidir.

Məhz buna görə də sonradan təhlükəsizliyin müəssisənin xarici mühitin mənfi təsirindən və risklərdən qorunmasının təsiri nöqteyi-nəzərindən təhlil edən başqa bir yanaşma ortaya çıxdı. Bu yanaşma xüsusilə xarici material resursları və bazar mənbələrindən asılılığı yüksək olan müəssisələr üçün aktualdır. İqtisadi təhlükəsizliyə təhdidlərin əsas mənbəyi xarici mühitdir. Müəssisənin hər bir hərəkəti yalnız mühit buna imkan verdikdə mümkündür. Müəssisə daim xarici mühitlə qarşılıqlı əlaqədə olur və bununla da özünə yaşamaq imkanı verir. Bunun üçün geniş əlaqələr sistemi mövcuddur. Beləliklə, iqtisadi təhlükəsizliyin “təhlükə” anlayışına əsaslanan kateqorik strukturu yenisi ilə – risk anlayışı ilə əvəzlənir. İqtisadi təhlükəsizlik strategiyasında risk anlayışı özündə iki aspekti ehtiva edir: qiymətləndirmə və risklərin idarə edilməsi. Qeyd edək ki, bu yanaşma əvvəlkindən daha mütərəqqi olsa da, bir sıra çatışmazlıqları da ehtiva edir. Bunlardan biri iqtisadi təhlükəsizliyin “...təhlükəsizlik vəziyyəti…” kimi qəbul edilməsidir. İqtisadi cəhətdən təhlükəsiz inkişafın həyata keçirilməsini iqtisadi sistemin xarici mühitin qeyri-müəyyənliyi və hərəkətliliyi şəraitində uyğunlaşma qabiliyyətinə qədər azaldır. Bu isə ona gətirib çıxarır ki, onun inkişaf perspektivlərini qabaqcadan görmək imkanı yox olur.

İqtisadi təhlükəsizliyin komponentlərinin siyahısı təhlil səviyyəsindən və müəssisənin yerləşdiyi konkret şəraitdən asılı olaraq dəyişə bilər. Beləliklə, E.A.Oleinikov yeddi əsas funksional komponenti ayırır: maliyyə, intellektual və kadr, texniki və texnoloji, siyasi və hüquqi, ekoloji, informasiya və güc [5]. Bənzər bir siyahı müəssisənin iqtisadi təhlükəsizliyinin doqquz komponentini, yəni iqtisadi, sosial-siyasi, maliyyə, intellektual və kadr, elmi və texnoloji, hüquqi, informasiya, ətraf mühit və gücləri araşdıran L. I. Donets və N. V. Vaşçenko tərəfindən təklif olunur. Onların fikrincə, inteqrasiya olunmuş müəssisə təhlükəsizlik sistemi yaradılarkən bu komponentlərin hər biri diqqətlə təhlil edilməli və nəzərə alınmalıdır [4].

Müəssisənin iqtisadi təhlükəsizliyinin dövlətin iqtisadi təhlükəsizliyinin və bütövlükdə milli təhlükəsizliyin tərkib hissəsi olduğunu nəzərə alaraq, müəssisənin iqtisadi təhlükəsizliyinin formalaşması və tərkib hissələrinin siyahısı ilə bağlı fikirlərimizi təqdim etmək istərdim. Dövlətin iqtisadi təhlükəsizliyinin strukturuna əsaslanaraq və dövlətin iqtisadi təhlükəsizliyinin onun öz iqtisadi sisteminin formalaşmasında və inkişafında müstəqil olduğunu nəzərə almaq lazımdır.

**Ədəbiyyat**


1. Абалкин Л.И. Экономическая безопасность России: угрозы и их отражение // Вопросы экономики. Издательство: Мысль,1994, №12, 47-51с.
2. Герасимов П. А. Экономическая безопасность банка: концептуальный подход / П. А. Герасимов // Банковские услуги. Издтельство: БЕК, 2006, № 4, 20−29с.
3. Горячева К. С. Механізм управління фінансовою безпекою підприємства : автореф. дис. на здобуття наук. ступеня канд. екон. наук : спец. 08.06.01 «Економіка, організація і управління підприємствами» / К. С. Горячова., К. Издательство: Мысль, 2006, 16 с.
4. Донець Л. І. Економічна безпека підприємства : навч. посіб. / Л. І. Донець, Н. В. Ващенко. − К. : Центр учб. літератури, 2008, 240 с.
5. Економіка підприємства : навч. посіб. для студ. / за заг. ред. П. В. Круша, В. І. Подвігіної, Б. М. Сердюка. − 2 вид., стер. − К. : Ельга-Н, КНТ, 2009, 780 с.
6. Забродский В., Капустин Н. Теоретические основы оценки экономической безопасности отрасли и фирмы // Бизнес-информ., 1999, №15-16, 35-37с.
7. Зацеркляний М. М. Основи економічної безпеки : навч посіб. / М. М. Зацеркляний, О. Ф. Мельников. К. : КНТ, 2009, 337 с.
8. Иванов М. Кадровая безопасность / М. Иванов // Бизнес и безопасность. Издательство: Мысль, 2009, № 1. 30−38с.
9. Клейнер Г. Стратегический менеджмент: актуальные проблемы и новые направления / Г. Клейнер // Проблемы теории и практики управления. Издтельство: Мысль, 2009, № 1,15−22с.

10. Крысин А.В. Безопасность предпринимательской деятельности. – М.: Финансы и статистика, 1996, 384 с.
11. Козаченко А. В. Экономическая безопасность предприятия: сущность и механизм обеспечения : монография / А. В. Козаченко, В. П. Пономарев, А. Н. Ляшенко, К.: Либра, 2003, 280 с.
12. Мішина І. Г. Економічна безпека в умовах ринкових трансформацій: автореф. дис. на здобуття наук. ступеня канд. екон. наук : спец. 08.00.01 «Економічна теорія та історія економічної думки» / І. Г. Мішина. Донецьк, 2007, 20 с.
13. Молодецький С. Економічна безпека бізнесу як важлива складова національної системи безпекотворення / С. Молодецький // Бизнес и безопасность. 2008, № 6, 30−32с.
14. Орлов В.І., Духов В.Є. Основи економічної безпеки фірми. Харків: ТОВ „Прометей - Прес", 2004, 284 с.
15. Чернявский А. А. Промышленный шпионаж и безопасность предпринимательства : учеб.-метод. пособие / А. А. Чернявский. К. : МЗУУП, 1994, 64 с.
16. Шаваев А.Г. Концептуальные основы обеспечения безопасности негосударственных объектов экономики, М.:, 1994, 281 с.
17. Шлыков В.В. Комплексное обеспечение экономической безопасности предприятия. СПб. Издательство: Проспекты, 1999, 138 с.

**РЕЗЮМЕ**
**ПОДХОДЫ К СУЩНОСТИ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ: ОТ УРОВНЯ ПРЕДПРИЯТИЯ К УРОВНЮ ГОСУДАРСТВА**
***Асланов Г.Г., Мамедов М.Р.***

***Ключевые слова:*** *национальная безопасность, экономическая безопасность, экономическая безопасность предприятия, экономическая безопасность государства, международная экономическая безопасность, экономическая дипломатия*

Экономическая безопасность может быть обеспечена за счет постоянного повышения социально-экономического развития страны. В этом отношении экономическая безопасность является настолько базовой стороной экономики, что она должна обеспечивать ее истинное, честное и эффективное обеспечение, а также национальные интересы и интересы страны. В связи с этим некоторые страны мира с 1990 г. приступили к разработке стратегий национальной и экономической безопасности. В данном документе среди факторов, связанных с общей безопасностью, комплексностью и обеспечением экономической безопасности, основное место занимает передний план. В статье проанализированы сущностные признаки экономической безнравственности, ее характеристики на уровне предприятия и государства, а также различные взгляды на экономическую безопасность.

**SUMMARY**
**APPROACHES TO THE ESSENCE OF ECONOMIC SECURITY: FROM THE ENTERPRISE LEVEL TO THE STATE LEVEL**
***Aslanov H.H., Mammadov M.R.***

***Key words:*** *national security, economic security, enterprise economic security, state economic security, international economic security, economic diplomacy*

Economic security can be ensured by constantly increasing the socio-economic development of the country. In this respect, economic security is such a basic aspect of the economy that it must ensure its true and honest and effective provision, as well as the national interests and interests of the country. In connection with these, some countries of the world have started to develop national and economic security strategies since 1990. In this document, among the factors related to general security, comprehensiveness and provision of economic security, which takes the main place, is in the foreground. In the article, the essential features of economic immorality, its characteristics at the enterprise and state level, as well as various views on economic security have been analyzed.

## AZƏRBAYCANIN NEFT SƏNAYESİNİN İNKİŞAF PRİORİTETLƏRİ

**Babayeva Tuğra Piriş qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*tuqra_babayeva@mail.ru*

***Açar sözlər:*** *neft, ölkə, iqtisadiyyat, inkişaf, sənaye*

İnhisarçılığın qarşısını almaq, ehtiyatların həddindən artıq istismarını aradan qaldırmaq, istehsal prosesində yeni texnologiyalardan istifadəni genişləndirmək, mütərəqqi qabaqcıl dünya təcrübəsi əsasında iqtisadiyyatı köklü şəkildə yenidən qurmaq lazım oldu. Bu vəzifələrin yerinə yetirilməsi ölkədə dinamik, sabit, dayanıqlı iqtisadiyyatın yaradılmasına töhfə verməli və davamlı inkişaf üçün zəmin yaratmalı idi.

Ölkənin bazar iqtisadiyyatına keçidinin ilk illərində, yəni 1990-cı illərin əvvəllərində ölkədə ÜDM lazımi səviyyədə deyildi, işsizlik görünməmiş səviyyəyə yüksəldi, məşğulluq isə görünməmiş rekord həddə düşdü, inflyasiya hiper səviyyəyə çatmışdır. Neft kompleksi istisna olmaqla, sənaye istehsalı çox aşağı səviyyəyə düşdü, ərzaq bazarının 80-85% idxaldan asılılığı yarandı [8, s.123].

Ölkədə iqtisadi siyasətin ən mühüm prioritetinə çevrilmiş davamlı inkişafın təmini üçün yuxarıda qeyd olunan problemlərin hamısının həlli çox vacib idi. Lakin bu problemlərin həlli üçün böyük vəsait lazım idi. Amma bu vəsait nə dövlət büdcəsində, nə də başqa mənbələrdə olub. O zaman ölkənin yeganə ümid yeri yalnız bir mənbə idi - xarici sərmayə üçün investorları cəlb edə biləcək yeganə sahə neft-qaz sektoru idi. Ölkəmiz müstəqillik əldə etdikdən üç il sonra, 1991-ci ildən davam edən gərgin və çox çətin danışıqlar nəticəsində 1994-cü ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanması və bu sazişdə nəzərdə tutulan tədbirlərin reallaşdırılması sayəsində Azərbaycan iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu mərhələnin əhəmiyyəti ondan ibarət idi ki, bu sazişlə elan edilmiş "Neft Strategiyası" və "Açıq qapı" siyasəti ölkəyə birbaşa və portfel investisiyaları şəklində böyük həcmdə beynəlxalq kapitalın cəlb edilməsinin əsasını qoydu.

Məhz bu səbəbdən neft-qaz sektoru sürətlə inkişaf edərək iqtisadiyyatın digər sahələrinin inkişafı üçün əlverişli şərait yaratmış, ölkədə davamlı inkişafın əsası qoyulmuşdur. Təhlil olunan dövrdə ölkənin davamlı inkişafını təmin edən bütün parametrlərin, o cümlədən ÜDM-in həcminin, məşğulluğun səviyyəsinin, valyuta ehtiyatlarının dinamik artımı, işsizliyin azaldılması təmin edilmişdir.

Məlumdur ki, Azərbaycan əhəmiyyətli neft ehtiyatlarına malikdir və bu ehtiyatların hasilatı durmadan artır. Belə ki, əgər 1997-ci ildə neft hasilatı 9 milyon tona yaxın idisə, 2010-cu ildə bu özünün ən yüksək həddinə, təxminən 5,6 dəfə artaraq 50,8 milyon tona çatmışdır. 2020-ci ildə isə neft hasilatı 34,532 milyon ton təşkil etmişdir.

Yuxarıda deyilənlərə əsaslanaraq ölkə iqtisadiyyatının inkişafında neft sənayesinin rolunun yüksək qiymətləndirməklə yanaşı, qeyri-neft sektorunun inkişafına da xüsusi diqqət yetirilməsi tələb olunur [5, s.84].

Azərbaycan kifayət qədər xammal ehtiyatına malik olmaqla öz iqtisadiyyatının neft emalı sənayesini inkişaf etdirmək üçün də tarixi şans əldə etmişdir.

Təsdiq olunmuş strateji yol xəritələri sırasında kimya sənayesinin inkişafı neft-qaz sənayesi ilə sıx qarşılıqlı əlaqədə nəzərdən keçirilir ki, bütün bunlar da "Azərbaycan Respublikası Neft-qaz sənayesinin (o cümlədən kimya məhsullarının) inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulub [2].

Ümumiyyətlə, Azərbaycanın neft ehtiyatları respublikanın strateji sərvətlərindən biridir. Məhz zəngin faydalı qazıntı ehtiyatlarının, xüsusən də karbohidrogen yataqlarının olması sayəsində Azərbaycan öz iqtisadiyyatının açıqlığını nümayiş etdirib və bununla da xarici investisiyaları cəlb edib. Ancaq uzun müddət yalnız neft sənayesinə arxalanaraq iqtisadiyyatın bərpasına ümid etmək məqsədəuyğun deyil. Sənayenin belə birtərəfli inkişafı qara və əlvan metallurgiya, maşınqayırma, yüngül və yeyinti sənayesi kimi mühüm sənaye sahələrinin xüsusi çəkisinin azalmasına səbəb olur.

Məlumdur ki, Azərbaycan sənaye-aqrar respublikadır. Azərbaycanın şaxələndirilmiş iqtisadiyyatı zəngin və müxtəlif faydalı qazıntıların istifadəsinə əsaslanır. Sənayenin inkişafı neft və qazla yanaşı, dəmir, sink, molibden filizləri, qaya duzu, tərkibində yod və brom olan qazma suları, gips, əhəngdaşı, bitum, gil, mərmər və digər faydalı qazıntılar, eləcə də hidroenergetika ehtiyatlarını əhatə edir. Respublikanın kənd təsərrüfatı tərəvəz, meyvə, pambıq, tütün və subtropik bitkilərin becərilməsi üzrə ixtisaslaşıb. Müvafiq olaraq, ölkə sənayesinin strukturunda kənd təsərrüfatı xammalının ilkin emalı ilə məşğul olan sənaye sahələri xüsusi yer tutur.

Dünyanın bir çox ölkələrində milli məhsulda əlavə mənfəət və əlavə dəyər əldə etmək üçün neft emalının həcminin artırılmasına xüsusi diqqət yetirilir. Dünyada neft-kimya kompleksinin payı demək olar ki, 7%, İEÖ-də isə 10%-ə çatır. Dünyada neft və qaz xammalının emal məhsullarının satışından əldə edilən gəlirlərin ümumi həcmi 3 trilyon ABŞ dollarına yaxındır ki, bu da ümumilikdə dünya neft bazarlarının göstəricilərinə bərabərdir. Üstəlik, neft və qaz xammalı əsasında alınan neft-kimya məhsullarının həcmi ildən-ilə artır. Ən yüksək inkişaf etmiş neft-kimya sənayesi Çin, ABŞ, Yaponiya, Almaniya, Braziliya, Fransa, Cənubi Koreya, Hindistan və başqalarında cəmləşmişdir. Məsələn, Çində neft-kimya kompleksi məhsullarının illik istehsalı 740-750, ABŞ-da 580-590, Yaponiyada 390, Almaniyada 260, Braziliyada 150-160, Fransada - 135–140, Cənubi Koreyada - 130–140, Hindistanda - 110, Böyük Britaniya - 99, İtaliya - 89, Sinqapur - 82, Hollandiya - 77, Rusiya - 73 milyard ABŞ dollarıdır. [6, s.709].

Odur ki, Azərbaycanda da neft-kimya kompleksinin emal şəbəkəsinin fəaliyyətinin köklü şəkildə yenidən qurulması, ən müasir texnologiyalardan istifadə ilə yeni müəssisələrin yaradılması və dövlət müəssisələri ilə yanaşı, özəl sektorun inkişafı zəruridir.

Bu sahələrin inkişafına hələ H.Əliyevin XX əsrin 70-80-ci illərində Azərbaycana rəhbərlik etdiyi dövrlərdə təkan verilmişdi. Bu dövrdə bir sıra kimya və neft-kimya qurğuları işə salınmış, bu sahədə kadr, elmi-texniki potensial formalaşdırılmış, sahənin sürətli inkişafı müasir texnologiyalar əsasında mümkün olmuşdur [3, s.5].

Respublikada maşınqayırma və metal emalının yaranması neft hasilatı ilə bağlı olmuşdur. Qazma və istismar avadanlığı istehsalının müxtəlif növlərini mənimsəmiş neft maşınqayırması aparıcı sənayedir. Təəssüf ki, respublikanın neft avadanlıqları bazarını əsasən xarici şirkətlər təmsil edir: Halliburton (ABŞ), Schlumberger (Fransa), Kvaerner (Norveç), AkerMaritime (Norveç). Xarici firmaların monopoliyasına görə neft konsorsiumlarının bu sənayedə yerli müəssisələrlə əməkdaşlığı çox aşağı səviyyədədir. Bu, neft sənayesinə böyük investisiyaların multiplikator effektinin aşağı olmasının səbəbidir. Gələcəkdə neft maşınqayırma zavodlarının yenidən təşkili Xəzərdə neft və qaz hasilatının intensivləşməsi nəticəsində canlanan bazarın tələbatını ödəməyə yönəldilməlidir.

Bütün yuxarıdakıları yekunlaşdıraraq Azərbaycanın neft sektorunun inkişafı üçün strateji prioritetlər arasında aşağıdakıları müəyyən etmək olar:

- neft amilindən istifadə hesabına qeyri-neft sənayesinin davamlı inkişafının təmini, rəqabətqabiliyyətli məhsulların istehsalının reallaşdırılması, ixrac potensialının artırılması [4, s.152];
- Azərbaycan iqtisadiyyatının enerji təchizatının etibarlılığının təmin edilməsi;
- geoloji kəşfiyyat işlərinin vaxtında aparılması, yeni neft yataqlarının hazırlanması və işlənməsi;
- yüksək əlavə dəyərə malik enerji daşıyıcılarının yerli istehsalının inkişafının stimullaşdırılması və neft məhsullarının keyfiyyətinin yüksəldilməsi;
- Azərbaycanın ərazisində neft emalı komplekslərinin modernləşdirilməsi;
- neftə və onun emalı məhsullarına daxili tələbatın sabit, fasiləsiz və sərfəli şəkildə ödənilməsi;
- ölkənin icmal büdcəsinin mədaxil hissəsinə və digərlərinə bir sıra sabit daxilolmaların təmin edilməsi.

Azərbaycanın dünya neft bazarındakı mövqeyi çox əhəmiyyətlidir. Azərbaycanda neft sənayesinin vəziyyəti və perspektivləri ən çox istehsal, ehtiyatlar və ixrac baxımından qiymətləndirilir.

Azərbaycanın yüksək inkişaf etmiş iqtisadi dövlətə çevrilməsi üçün neft sənayesinin inkişafını daxili bazara yönəltmək, neft-kimya istehsalını inkişaf etdirmək, karbohidrogen ehtiyatlarının çıxarılmasına nəzarəti təkmilləşdirmək lazımdır. Azərbaycan üçün neft sənayesinin inkişafının strateji məqsədləri maksimum və davamlı iqtisadi effekti təmin edən neft hasilatı səviyyəsini saxlamaq, neft emalı və nəqliyyat infrastrukturunu inkişaf etdirmək, neft məhsullarına daxili və ixrac tələbatını təmin etməkdir.

Bundan başqa, Azərbaycanın yüksək iqtisadi inkişaf etmiş dövlətə çevrilməsi üçün neft sənayesinin inkişafının daxili bazara yönəldilməsi, neft-kimya zavodlarının layihələndirilməsi, karbohidrogen ehtiyatlarının çıxarılmasına nəzarətin artırılması məqsədəuyğundur.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatında neft hasilatının aparıcı rolu büdcə gəlirlərinin mühüm hissəsini təmin etməsində və həmin gəlirlərin mühüm sosial-iqtisadi problemlərin həllinə yönəldilməsində özünü göstərmişdir. Bununla belə, neft sənayesinin üstünlüyü uzunmüddətli perspektivdə iqtisadiyyatın balanssız inkişafına gətirib çıxara, onu dünya enerji bazarlarındakı vəziyyətdən, beynəlxalq siyasi vəziyyətdən və digər neqativ halların yaranmasından asılı vəziyyətə sala bilər. Bu baxımdan Azərbaycanda neft-qaz sənayesinin strateji inkişafının ən səmərəli istiqamətlərinin araşdırılmasına, ölkə iqtisadiyyatının dayanıqlı və tarazlaşdırılmış artımının təmin olunmasına yönəlmiş tədqiqatlar xüsusi aktuallıq kəsb edir.

## Ədəbiyyat


1. Azərbaycan Statistik Göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.
2. "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 6 dekabr, 2016
3. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya kompleksi: potensialın qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, 156 s.
4. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, 185 s.
5. Məmmədova S.M., Əliyev Ə.İ. Azərbaycanın neft-qaz sənayesinin iqtisadi inkişaf perspektivləri. Audit № 2, Cild 24, 2019, s.83-954.
6. Алиев Ш.Т., Лачинов Э.Т. Проблемы и перспективы организации перерабатывающих отраслей нефти и газа в Азербайджане. Российское предпринимательство, март, 2017, том 18, № 5, с.703-710
7. Афонасьев М.А. Управление рисками в нефтяной промышленности // Инициативы молодых - науке и производству: Сборник статей II Всероссийской научно-практической конференции для

молодых ученых и студентов. Пенза: Пензенский государственный аграрный университет, 2021, с. 18-20.
8. Панахов Э.И. Роль нефтяного сектора в обеспечении устойчивого развития в Азербайджане. Економіка та держава, 2020, № 10, с. 121–125
9. Силичев М.А. Классификация рисков и их особенности в проектах нефтегазовых компаний. Московский экономический журнал, 2020, №1, с.488-492
10. Хуснутдинова Э.В. Особенности функционирования и текущее состояние нефтяной отрасли // Природопользование и устойчивое развитие регионов России: сборник статей II Всероссийской научно-практической конференции. Пенза: Пензенский государственный аграрный университет, 2020, с. 240-244.
11. https://www.oilfund.az/report-and-statistics/report-archive
12. https://minenergy.gov.az/az/neft/neft-senayesinin-inkisaf-tarixi

**РЕЗЮМЕ**
**ПРИОРИТЕТЫ РАЗВИТИЯ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА**
***Бабаева Т.П.***

***Ключевые слова:*** *нефть, страна, экономика, развитие, промышленность*

Перед экономикой Азербайджана, получившей независимость в 1991 году, стояли важные задачи перехода к новой экономической и политической системе. Трансформация в новую систему требует от общества нового экономического мышления, новых экономических отношений, новых экономических взглядов и подходов, нового экономического поведения, новой системы экономических отношений и т.д. В связи со всем этим для обеспечения развития экономики страны необходимо было перейти к новой системе отношений собственности, разгосударствлению собственности, развитию различных форм собственности, таких как государственная, частная, акционерная, смешанная, а также развивать мелкое и среднее предпринимательство, обеспечивать социальное благосостояние населения.

**SUMMARY**
**DEVELOPMENT PRIORITIES OF THE OIL INDUSTRY OF AZERBAIJAN**
***Babayeva T.P.***

***Key words****: oil, country, economy, development, industry*

Azerbaijan's economy, which gained independence in 1991, was faced with the important tasks of transforming into a new economic and political system. The transition to a new system required a new economic thinking, new economic relations, new economic views and approaches, a new economic behavior, a new system of economic relations, etc. from the society. In connection with all this, in order to ensure the development of the country's economy, it was necessary to transition to a new system of property relations, denationalize property, develop various forms of ownership such as state, private, joint stock, mixed, widely apply small and medium entrepreneurship, and ensure the social welfare of the population.

# NEFT-QAZ XAMMALLARI HESABINA NEFT-KİMYA EMAL MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**Bəxtiyarova Aidə Ziyad qızı**
*Azərbaycan Dövlət Neft və Sənaye Unversiteti, Bakı, Azərbaycan*
*aida.baxtiyarovaa1@gmail.com.*

***Açar sözlər:*** *Azərbaycan, qeyri neft-qaz sektoru, neft-kimya sahəsi, neft-kimya emalı müəssisələri, rəqabətqabiliyyətlilik, neft-kimya müəssisələrinin ixrac potensialı*

Qeyd edək ki, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra iqtisadiyyat quruculuğunun təmin olunması, milli iqtisadi inkişaf modelinin formalaşdırılması və ilk növbədə neft-qaz sənayesinin lokomotiv rolunun bərpa edilməsi istiqamətində zəruri addımlar atmalı idi. Lakin ilk vaxtlar bunlar mümkün olmamışdır. Ancaq bu il 100 illiyini qeyd edəcəyimiz Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bu məsələlər mümkün olmuşdur. Heydər Əliyevin uzaqgörən siyasəti və apardığı davamlı iqtisadi siyasət nəticəsində "Əsrin Kontraktı" 1994-cü il sentyabrın 20-də imzalanmış və 1995-ci ildən başlayaraq ölkədə makroiqtisadi sabitlik təmin edilmiş, neft sənayesinin bərpa olunmasına, onun maddi-texniki bazasının gücləndirilməsinə başlanılmışdır.

Neft sənayesinin inkişaf etməsi və yeni hasilat quyularının qazılması tezliklə neft sənayesinin bərpa olunmasına və Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsində, onun lokomotiv rolunun ön plana çıxarılmasına imkan vermişdir. Lakin həmin dövrdə Azərbaycanda iqtisadiyyatın digər sahələrində çox acınacaqlı vəziyyət yaranmışdı. Sovetlər birliyi dövründə yüksək istehsal

imkanlarına və texniki gücə malik olan bir çox sənaye sahələri, o cümlədən kimya və neft-kimya sənayesi, metallurgiya, cihazqayırma və digər sənaye sahələrinin vəziyyəti o qədər də yaxşı halda deyildi. İttifaq əhəmiyyətli iri müəssisələr demək olar ki, öz fəaliyyətlərini dayandırmış və xüsusilə neft-kimya müəssisələrinin iqtisadi – təsərrüfat əlaqələrinin itirilməsi, keçmiş SSRİ respublikaları ilə xammal təminatı zəncirinin qırılması və bununla bağlı çətinliklərin yaranması neft-kimya müəssisələrinin istehsal güclərindən demək olar ki, istifadə etməyə imkan verməmiş və buna görə də bir neçə iri müəssisələr dayanmışdır [1, s.76].

Xüsusilə, Sumqayıt sənaye mərkəzində olan müəssisələr öz güclərindən çox aşağı səviyyədə istifadə etməyə məcbur olmuşlar. 1990-cı ilədək olan dövrdə Azərbaycanda və əsasən Sumqayıtda olan onlarla kimya və neft-kimya sənayesi kompleksi müəssisələrinin hesabına 300-400 adda kimya və neft-kimya məhsulları istehsal olunurdu. Lakin 1995-ci illərin ortalarında artıq bunların sayı yüzdən aşağı idi və əksəriyyəti çox az bir miqdarda istehsal olunurdu. Xarici iqtisadi əlaqələr böyük ölçüdə itirilmiş, qarşılıqlı neft-kimya məhsullarının mübadiləsi minimuma enmiş və birgə müəssisələrin yaradılmasında təkliflər demək olar ki, yox idi. Azərbaycanda fəaliyyət göstərən neft-kimya sənayesinin əsas avadanlıqları öz istismar dövrünü bitirmişdilər və bu sahəyə yeni investisiyaların gətirilməsi, yüksək texnologiyaların işlənilməsi lazım gəlirdi.

Belə bir şəraitdə Azərbaycanda neft-qaz xammallarının emalı baxımından da problemlər var idi:

1. Neft-qaz xammalları hələ ki, həmin dövrdə ölkənin neft və qaza olan tələbatını belə ödəməyə imkan vermirdi.

2. Neft və qaz kontraktlarının hər birində öhdəliklər var idi və ölkəmiz istehsal olunan məhsulların çox hissəsini xarici bazarlara çıxarmağa məcbur idi və demək olar ki, hazırda da belədir və bu məhsulların yalnız istehsalı artdıqca neft-kimya müəssisələrinin istehsal gücləri daxilində rəqabət qabiliyyətli emal müəssisələrinin yaradılması mümkün ola bilər. Təəssüf ki, keçən dövr ərzində Azərbaycanda neft-kimya sənayesinin müasir mənzərəsini təsəvvür etsək bir sıra məqamları qeyd edə bilərik:

1. Mövcud olan əsas neft emalı komplekslərinin texnoloji modernizasiya edilməsi bir neçə dəfə aparılsa da, onların istehsal gücləri səviyyəsində işləməsi demək olar ki, qeyri-mümkündür və buna görə də yeni müasir qurğuların tikilməsinə və daha yüksək texnoloji əsaslı istehsalatların yaradılmasına ehtiyac vardır.

2. Azərbaycanda neft-kimya müəssisələrinin əsas xammal təminatı EP-300 (Etilen-propolen) qurğusundan asılıdır və bu qurğu 1987-ci ildən istismar olunur. Qurğu kifayət qədər unikaldır və qeyd edək ki, bu qurğuda məhz Ulu Öndər Heydər Əliyevin tarixi səyləri nəticəsində Azərbaycan üçün ayrılmış və Sumqayıtda tikilmişdir və bununla bağlı uzun illər ərzində çox gərgin mübarizə getmiş və həmin qurğunun Azərbaycanda tikilməsi üçün Heydər Əliyev dəfələrlə səylər göstərmiş və nəhayət buna nail ola bilmişdir [5, s.432]. Ep-300 qurğusu unikallığı ilə fərqlənir, demək olar ki, layihə gücü 500-600 min tondan çox neft xammalının və yan məhsulların emalını təmin edə biləcək bir qurğudur. Lakin bunun əksər komponentləri və avadanlıqları demək olar ki, öz istismar müddətini başa vurmuşdur. Əvvəldə qeyd etdiyimiz kimi, bu qurğuda modernizasiya işləri aparılsa da, fikrimizcə Azərbaycanda yaxın perspektivdə "EP-450" emal qurğusunun tikintisinə çox ciddi ehtiyac vardır. Bu həm də yeni yaradılan SOCAR Polimerin istehsal xətlərinin və texnoloji qurğularının etilen-propilen xammallarına olan ehtiyaclarını ödəmək baxımından kifayət qədər strateji əhəmiyyət kəsb edir.

Yüksək texnologiyalar əsaslı polipropilen istehsalına imkan verən SOCAR Polimerin yaradılması prosesləri hələ 1990-cı illərin sonlarında başlamışdır. Sonraki illərdə bunlarla bağlı önəmli addımlar atılsa da, layihənin reallaşdırılması mümkün olmamışdı. Belə ki, SOCAR Polimer qurğusunun əvvəlki adla Polipropilen istehsalatının Azərbaycana gətirilməsi üçün hətta 1992-ci il oktyabr ayının 31-də o dövrdə Azərbaycanın baş nazirinin iştirakı ilə İtaliyanın Milan şəhərində görüşlər keçirilmiş və kontrakt imzalanmışdı. Bunun üçün zəruri işlər görülmüş və həmin qurğunun çox qısa müddət ərzində – 36 ay ərzində Sumqayıtda tikilməsi üçün zəruri addımlar atılmış, ilkin ödənişlər edilmiş və yüz milyonluq dollar dəyərində olan kontraktın reallaşdırılması üçün işlər görülmüş, müvafiq ərazi ayrılmış, tikinti və layihə işlərinin aparılması üçün zəruri sənədlər hazırlanmış, toponimiya və torpaq işləri görülmüş və bu qəbildən olan digər hazırlıq işləri aparılmışdır. Təəssüf ki, sonraki mərhələlərdə kimya sənayesinin idarə edilməsində olan dəyişikliklər, Zaqafqaziyada tək olan neft-kimya müəssisəsi – Sumqayıt "Sintezkauçuk" İstehsalat Birliyinin strukturunun ləğv edilməsi, onun bazasında "Azərikimya" Dövlət Şirkətinin tərkibində "Sintezkauçuk" zavodunun yaradılması bu layihənin icrasını ləngitmişdir və digər tərəfdən həmin dövrdə layihəyə təzyiqlər də var idi. Ancaq ədalət naminə qeyd edək ki, hökumət strukturları həmin layihənin nə dərəcədə vacib olduğunu dərk etmişlər və müvafiq yoxlamalardan sonra layihənin icrasının davam etdirilməsi məqsədəuyğun hesab olunmuşdur.

Təəssüf ki, bu sahədə olan tədbirləri axıra çatdırmaq mümkün olmamış və "Azərikimya" Dövlət Şirkətinin strukturunda bununla bağlı fəaliyyət heç də həmin dövrün imkanları səviyyəsində aparılmamış və uzun illər ərzində həmin layihənin icrası yarımçıq qalmışdır. Nəticədə çox qiymətli bir dövr itirilmiş və şübhəsiz həmin dövrdə olan qiymətlər sonraki illərdə xeyli dəyişmiş və qeyd edə bilərik ki, SOCAR Polimer layihəsi təxminən 850 milyon avro məbləğində başa gəlmişdir. Göründüyü kimi, bu sahədə itirdiyimiz həm maliyyə resursları, həm də vaxt olmuşdur. Lakin müasir dövrdə bu resurslardan və yeni tikilmiş yüksək texnologiyalar əsaslı avadanlıqlardan səmərəli istifadə etməklə itirilmiş gəlirlərin müəyyən hissəsinin bərpa edilməsi və daha çox neft xammalının emal olunması mümkündür [3. s.13; 4, s.48]. Amma ilk növbədə neft emalı üçün daha müasir texnologiyalar əsaslı qurğuların tikilməsinə ehtiyac vardır [2, s.72]. Bütün bunlar Azərbaycanda neft-kimya kompleksinin rəqabət qabiliyyətinin artmasını ləngidən amillərdəndir.

Digər məsələlərə də fikrimizi yönəltmək istərdik və burada da Azərbaycanda neft-kimya sənayesinin istehsal zənciri üzrə digər həlqələrdən səmərəli istifadə edilməsi və Azərbaycanın özündə, həm də regionda kifayət qədər ehtiyat olan bir çox neft-kimya məhsullarının istehsalı üçün imkanlardan səmərəli istifadə olunmamasını qeyd edə bilərik:

– Azərbaycanda neft emalı nəticəsində alınan olefinlər, yan qazlar, propilen və etilen əsasında istehsal olunan çoxlu sayda məhsullar – poliefirlər, butadien və s. sıxılmış qazlardan dünyanın neft-kimya bazarında yüksək dəyərə malik olan neft-kimya məhsullarının istehsalı mümkündür;

– Azərbaycanda çoxlu sayda şin məhsullarına ehtiyac vardır, lakin belə bir zavodun olmaması təəssüf doğurur və hesab edirik ki, Azərbaycanda neft-kimya sənayesinin yaxın perspektivdə ən gəlirli sahələrindən biri də müasir şin zavodunun tikilməsidir və zaman-zaman bununla bağlı informasiyalar da mövcud olmuşdur;

– Bir neçə Çin şirkətinin bu layihəyə maraq göstərdiyini qeyd edə bilərik. Azərbaycan bu sahədə Çin, Cənubi Koreya, eyni zamanda İtaliya, Türkiyə şirkətləri ilə sıx əməkdaşlıq etmək imkanına və perspektivinə malikdir;

– Digər perspektivli istehsal sahəsi isə rezin – texnika məmulatlarının istehsalı ilə bağlıdır. Bu gün həmin məmulatlara Azərbaycanın müxtəlif sənaye sahələrində –profillərin hazırlanmasında, mebel sənayesində, cihazqayırma sənayesində çox ciddi ehtiyac vardır. Təəssüf ki, bu imkanlardan da yetərincə istifadə olunmur;

– Yaxın illərdə Azərbaycanda neft-kimya sənayesinin rəqabət qabiliyyətinin artırılması üçün bir sıra yeni istehsal sahələrinin təşkili tələb olunur. Eyni zamanda, neft-kimya məhsullarının ixrac potensialının artırılması üçün daha çox neft məhsullarının ölkəmizdə emal olunması və ondan alınan ilkin neft-kimya xammalının neft-kimya müəssisələrinə yönəldilməsi planlı şəkildə həll olunmalı və bunun üçün Azərbaycanda yeni neft emalı zavodunun tikintisi tələb olunur və s.

## Ədəbiyyat


1. Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya komplekslərinin qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, 156 s.
2. Бакай, О.Н. Компетенции как средство реализации стратегии предприятий нефтехимической отрасли/ О.Н.Бакай // Экономика и управление. 2014. № 9(107). 70-74 с.
3. Золотухина Т.В. Организационно-экономическое обеспечение модернизации предприятий нефтеперерабатывающей промышленности. Дисс. к.э.н. Нижний Новгород, 2014, 27 с.
4. Псарева Н.Ю. Технологии управления цепями поставок нефтехимической продукции в условиях цифровизации/ Н.Ю.Псарева, М.В.Шинкевич// Вестник БИСТ (Башкирского института социальных технологий). 2021, № 1(50), 45-51 с.
5. Aliyev, Sh.T. Strategic role of Sumgayit in the development of petrochemical industry of Azerbaijan / The International Conference on Actual Problems of Chemical Engineering - APCE 2020. - Azerbaijan State of Oil and Industry University. 24-25 december 2020. p.430-435.



**РЕЗЮМЕ**

**МЕЖДУНАРОДНЫЙ ОПЫТ В ПОВЫШЕНИИ КОНКУРЕНТОСПОСОБНОСТИ НЕФТЕХИМИЧЕСКИХ ПЕРЕРАБАТЫВАЮЩИХ ПРЕДПРИЯТИЙ ЗА СЧЕТ НЕФТЕГАЗОВЫХ СЫРЬЕВЫХ РЕСУРСОВ**

***Бахтиярова А.З.***

***Ключевые слова:*** *Азербайджан, ненефтегазовый сектор, нефтехимическая сфера, нефтехимические перерабатывающие предприятия, конкурентоспособность, экспортный потенциал нефтехимических предприятий*

Рассматривается международный опыт в повышении конкурентоспособности нефтехимических предприятий за счет эффективного использования нефтегазовых сырьевых ресурсов. С этой целью обращено особое внимание на

интенсификацию эффективной организации перерабатывающей промышленности в стране с учётом использования опыта нефтедобывающих стран. Обоснована важность повышения производства и увеличения экспортного потенциала нефтехимических перерабатывающих предприятий с активным использованием нефтегазовых сырьевых ресурсов в Азербайджане. Подготовлен ряд рекомендаций и даны предложения по повышению конкурентоспособности нефтеперерабатывающих предприятий на основе приоритетов развития ненефтяного сектора страны.

**SUMMARY**
**INTERNATIONAL EXPERIENCE IN INCREASING THE COMPETITIVENESS OF PETROCHEMICAL PROCESSING FACILITIES THROUGH OIL AND GAS RAW MATERIALS**

***Bakhtiyarova A. Z.***

***Key words:*** *Azerbaijan, non-oil and gas sector, petrochemical sector, petrochemical processing enterprises, competitiveness, export potential of petrochemical enterprises*

International experience in increasing the competitiveness of petrochemical enterprises through the efficient use of oil and gas raw materials is considered in the article. Special attention is paid to intensifying the effective organization of the processing industry in the country, taking into account the experience of oil-producing countries. The importance of increasing the production and export potential of petrochemical processing enterprises with the active use of oil and gas raw materials in Azerbaijan is justified. A number of recommendations and proposals to increase the competitiveness of oil refiners based on the development priorities of the non-oil sector of country are given then.

## BƏLƏDİYYƏLƏRİN İQTİSADİ VƏ MALİYYƏ ƏSASLARININ YARADILMASI PROBLEMLƏRİ

**Əhmədzadə Mehman İmamverdi oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
axmedzade49@gmail.com

***Açar sözlər:*** *bələdiyyə, özünüidarə, hakimiyyət, icra, vəzifə, səlahiyyət, büdcə*

Azərbaycanda həyata keçirilən demokratik islahatların əsas həlqələrindən biri bələdiyyələrin formalaşdırılmasıdır. Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Müstəqil Azərbaycan Respublikasında "yerli özünüidarə", "bələdiyyə" kimi terminlər ilk dəfə 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Konstitusiya ilə təsbit edilmişdir. Əsas qanunun 142-ci maddəsinə əsasən yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bütün dünyada ümumən yerli özünüidarəni həyata keçirən bələdiyyələrin, eyni zamanda yerli hakimiyyət orqanlarının funksiyalarını yerinə yetirən qurumlar olması ideyası qəbul edilmişdir. Azərbaycanda 1999-cu ilin dekabrında keçirilmiş seçkilər nəticəsində yaradılan və indiyədək fəaliyyət göstərən bələdiyyələrin yerli hakimiyyət səlahiyyətlərinin cüzi hissəsinə yiyələndiyi və bu səlahiyyətlərin əsasən yerli icra hakimiyyətləri tərəfindən icra olunduğu inkar edilmir. Yerli hakimiyyətin həyata keçirilməsi sahəsində yerli icra hakimiyyətlərinin və bələdiyyələrin səlahiyyətlərinin müqayisəli təhlilini aparmazdan əvvəl, qanunvericiliyin müddəalarına müraciət edək.

Azərbaycan Respublikasının Konstitusiyasının "Yerlərdə icra hakimiyyəti" adlanan 124-cü maddəsinə uyğun olaraq yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər. Konstitusiyanın bu normasının tətbiq edilməsi qaydaları Azərbaycan Respublikası Prezidentinin 16 iyun 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamə ilə tənzimlənir. Müasir dövrdə qüvvədə olan "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir) uyğun olaraq yerli icra hakimiyyətinin başçısı yerli icra hakimiyyətlərinin fəaliyyətinin təşkili və həyata keçirilməsi üzrə ona Konstitusiya və qanunla həvalə olunmuş vəzifələri aşağıdakı istiqamətlərdə həyata keçirir:

- ərazinin sosial-iqtisadi inkişafı;
- aqrar bölmənin inkişafı;
- ərazidə maliyyə, vergi və büdcə sahələrində dövlət siyasətinin həyata keçirilməsi;
- istehlak bazarı və sahibkarlığın inkişafı;
- müvafiq ərazidə əhalinin sosial müdafiəsi və gender bərabərliyinin təmin edilməsi sahələrində dövlət siyasətinin həyata keçirilməsi;
- insanların sağlamlığının, ərazinin sanitar-epidemioloji şəraitinin yaxşılaşdırılması, ekoloji təhlükəsizliyin təmin edilməsi;
- əmək, əməyin mühafizəsi və əhalinin məşğulluğunun təmin edilməsi;
- şəhər və mənzil-kommunal təsərrüfatı və abadlaşdırma sahəsində dövlət siyasətinin həyata keçirilməsi;
- ətraf mühitin mühafizəsinin həyata keçirilməsi;

– təmir-tikinti, memarlıq və şəhərsalma sahəsində dövlət siyasətinin həyata keçirilməsi;
– təhsil və mədəniyyət sisteminin inkişafı;
– uşaqlar və gənclər siyasəti, bədən tərbiyəsi, idman və turizmin inkişafı;
– kütləvi informasiya vasitələri, siyasi partiyalar, dini qurumlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətin təşkil edilməsi;
– qanunçuluq, ictimai asayişin qorunması, təhlükəsizlik və mülki müdafiə;
– dövlət əmlakının idarə edilməsi, dövlət torpaq kadastrı və torpaqların monitorinqi sahələrində tədbirlərin həyata keçirilməsi [3].

Yuxarıda göstərilən vəzifələrin məzmununu təhlil edərək yerli hakimiyyətin həyata keçirilməsi üzrə səlahiyyətlərin bütünlükdə yerli icra hakimiyyətinin başçısına həvalə olunduğunu təsdiq etmək mümkündür. Azərbaycan Respublikası Konstitusiyasının "Bələdiyyələr" adlanan 9-cu fəslinin normaları yerli hakimiyyətin yerli icra hakimiyyətləri ilə yanaşı olaraq bələdiyyələr tərəfindən də həyata keçirilməsini ehtiva edirlər (1). Əsas Qanunun normalarının tətbiqi məqsədilə qəbul edilmiş hüquqi aktların normalarına diqqət yetirmək zəruridir.

Azərbaycan Respublikasında bələdiyyələrin yaradılması, yerli öznüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirən "Bələdiyyələrin statusu haqqında" Qanun (2.07.1999-cu il) Konstitusiyanın 144-cü maddəsi ilə bələdiyyələrə həvalə edilən səlahiyyətlərin icrasını hüquqi cəhətdən hərtərəfli tənzimləməyə imkan verir. Qanunda bələdiyyələrin fəaliyyətinin əsaslarını əks etdirən aşağıdakı proqramlar təsbit edilir: 1. Yerli sosial-müdafiə və sosial inkişaf proqramları; 2. Yerli iqtisadi inkişaf proqramları və 3. Yerli ekoloji proqramlar.

Göstərilən proqramların bələdiyyələr tərəfindən həyata keçirilməsini təmin edən vəzifələrin və yerli icra hakimiyyəti başçısının Əsasnamə ilə müəyyən edilən vəzifələrinin müqayisəli təhlili hüquq-mühafizə, təhlükəsizlik və mülki müdafiə istisna olmaqla, yerdə qalan vəzifələrin bələdiyyələrə və yerli icra hakimiyyəti başçılarına həvalə olunduğunu təsdiq edir. Misal üçün, bələdiyyələrin sosial-iqtisadi sahədə səlahiyyətlərinə aşağıdakı məsələlərin həlli aid edilir:
– dövlətin iqtisadi inkişaf proqramında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələrin inkişafı üzrə yerli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi;
– bələdiyyə torpaqlarının və əmlakının istifadəsinin səmərəliliyinin yüksəldilməsi;
– yerli sosial müdafiə və sosial inkişaf proqramlarının həyata keçirilməsi;
– yerli şəraitdə ekoloji tarazlığın təmin olunması [2].

Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək üçün əmlak və maliyyə-büdcə hüquqları ilə təmin edilməlidir. Yerli özünüidarənin iqtisadi əsasını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli-büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil etməlidir. Qeyd etmək lazımdır ki, bələdiyyələrin iqtisadi və maliyyə müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlər 1999-2001-ci illərdə intensiv xarakter daşıyırdı. Həmin illərdə qəbul edilmiş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış qanunlar və digər normativ aktlara aşağıdakılar aiddir: 1. "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (07.12.1999-cu il); 2. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu (07.12.1999-cu il); 3. "Dövlət əmlakının bələdiyyələrə verilməsi qayda və müddətləri haqqında Əsasnamə" (Azərbaycan Respublikası Prezidentinin 11.06.2001-ci il Fərmanı ilə təsdiq edilmişdir); 4. "Yerli özünüidarə haqqında" Avropa Xartiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (25.12.2001-ci il); 5. "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu (27.12.2001-ci il).

Yerli özünüidarə sisteminin yaradılması istiqamətində 1999-2001-ciillərdə həyata keçirilmiş sürətli normayaradıcılıq prosesi sonrakı mərhələdə aşağıdakı tədbirlərin həyata keçirilməsi ilə nəticələnə bilərdi. "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun (07.12.1999-cu il) 4-cü maddəsinə uyğun olaraq dövlət mülkiyyətində olan və bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektləri, əhalinin ümumi istifadəsində olan obyektlər və digər dövlət əmlakı onların mülkiyyətinə verilməli idi.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Qanunun və "Dövlət əmlakının bələdiyyələrə verilməsi qaydası və müddətləri haqqında Əsasnamə"nin normalarının icrasını təmin etmək üçün ilk növbədə yerli icra hakimiyyəti orqanları ilə bələdiyyələr arasında bu və ya digər vəzifələrin yerinə yetirilməsi sahəsində yol verilən təkrarlamaların və mübahisələrin aradan qaldırılması zəruri şərt hesab olunurdu. Bununla əlaqədar Yerli Özünüidarə Haqqında Avropa Xartiyasına uyğun olaraq, Milli Məclisin regional məsələlər daimi komissiyası tərəfindən "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi hazırlanmış və Milli Məclisin

müzakirəsinə təklif edilmişdir [4, s. 1]. "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Qanun indiyədək qəbul edilməyib, yerlərdə dövlət əmlakının (mənzil-kommunal, təhsil, səhiyyə, sosial və mədəniyyət obyektləri və digər dövlət əmlakı) bələdiyyələrin sərəncamına verilməsi ilə bağlı məsələlər həll edilməyib.

Yerli özünüidarə-xalq hakimiyyətinin formasıdır. Bu müddəanın Konstitusiya ilə təsdiq edilməsi şəhərlərdə, rayonlarda, qəsəbələrdə və kəndlərdə yerli hakimiyyətin həyata keçirilməsi üzrə səlahiyyətlərin bələdiyyələrə verilməsi zərurətini yaratmış olur. Bununla da, Azərbaycan Respublikasında Yerli Özünüidarə haqqında Avropa Xartiyasına uyğun olaraq yerli hakimiyyətin bələdiyyələr tərəfindən həyata keçirilməsinə nail olmaq mümkündür [5, s. 84].

Bələdiyyələr qanunla müəyyənləşdirilən funksiyaları yerinə yetirmək üçün zəruri pul vəsaitləri fondları ilə təmin olunmalıdır. Yerli maliyyənin əsasını yerli büdcə təşkil edir. Yerli büdcənin gəlirləri yerli vergi və yığımlar, qeyri-vergi gəlirləri, dövlət büdcəsindən daxilolmalar hesabına yaradılır. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, inzibati ərazi vahidləri üzrə yaradılan yerli büdcə iki hakimiyyət orqanı arasında bölüşdürülür. Yerli büdcənin əsas hissəsi yerli icra hakimiyyətinin sərəncamına, cüzi hissəsi isə bələdiyyənin ixtiyarına ayrılır. Bu isə ərazidə idarəçilik xərclərinin miqyasının ifrat dərəcədə genişlənməsi və lüzumsuz maliyyələşdirmə əməliyyatlarının aparılması ilə nəticələnir [6, s. 85].

Yuxarıda aparılan tədqiqat aşağıdakı müddəalarla yekunlaşdırmaq mümkündür:

– birincisi, "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul və tətbiq edilməsi yolu ilə yerli hakimiyyət səlahiyyətlərinin optimal bölgüsünün təmin edilməsinin zəruriliyi etiraf olunmalıdır;

– ikincisi, yerli ərazidə dövlət əmlakının bələdiyyələrə verilməsinə dair "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (07.12.1999-cu il) normalarının icrası təmin olunmalıdır;

– üçüncüsü, inzibati ərazinin (şəhər, rayon, qəsəbə, kənd) maliyyə resurslarının səfərbərliyə alınması və məqsədli təyinat üzrə istifadəsinin təmin edilməsi üçün yerli icra hakimiyyətinin sərəncamında olan dövlət büdcəsi ilə yerli büdcənin birləşdirilməsi yolu ilə vahid yerli büdcənin yaradılması və icra olunması məqsədəmüvafiqdir və s.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2021, 67 s.
2. "Bələdiyyələrin statusus haqqında" Azərbaycan Respublikasının Qanunu (02.07.1999-cu il). Elektron resurs: www.e-qanun.az.
3. "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir). Elektron resurs: www.e-qanun.az.
4. Əliyev, Ş. Bələdiyyələrin səlahiyyətləri genişlənir. "Xalq qəzeti", № 34 (24904), 13 fevral 2005-ci il, s.1.
5. Əhmədzadə, M.İ. Bələdiyyə hüququnun inkişafının əsas istiqamətləri// Audit jurnalı, №4/2003, s. 83-88.
6. Əhmədzadə, M.İ. Sumqayıt şəhər büdcəsi – 2006, Bakı, "RDS" mətbəəsi, 2006, 90 s.



**РЕЗЮМЕ**

**ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ЭКОНОМИЧЕСКИХ И ФИНАНСОВЫХ ОСНОВ МУНИЦИПАЛИТЕТОВ**

***Ахмедзаде М.И.***

***Ключевые слова:*** *муниципалитет, самоуправление, власть, исполнение, задачи, полномочия, бюджет*

Статья посвящается проблемам организации системы местного самоуправления в Азербайджане. Рассматриваются правовые основы управления населенных пунктов местными исполнительными властями и муниципалитетами, особое внимание уделено процессу ускоренного нормотворчества, осуществленному под руководством Президента Гейдара Алиева по направлению создания системы местного самоуправления на основе принципов Европейской Хартии Самоуправления. Обосновываются пути решения проблем передачи государственного имущества муниципалитетам, расширения их полномочий, формирования и исполнения единого местного бюджета территории.



**SUMMARY**

**PROBLEMS OF ESTABLISHING ECONOMIC AND FINANCIAL BASIS OF MUNICIPALITIES**

***Ahmadzade M.I.***

***Key words:*** *municipality, self-government, authority, implementation, duty, authority, budget*

*The article is devoted to the problems of organizing the local self-government system in Azerbaijan. The legal basis for the* management of residential areas by local executive authorities and municipalities is reviewed, Special attention was paid to the rapid norm-making process carried out under the leadership of President Heydar Aliyev in 1999-2001 in order to create a local self-government system in accordance with the principles of the European Charter on Local Self-Government in Azerbaijan. Solutions to

the problems related to transfer of state property to municipalities, expansion of their powers, creation and implementation of a single local budget in the territories have been substantiated.

## TƏŞKİLATIN MADDİ-İSTEHSAL EHTİYATLARININ UÇOTU VƏ AUDİTİNİN TƏŞKİLİ

**Fətdayeva Zərxanım Həşim qızı**
*Sumqayıt Dövlət Universitetinin nəznində Sumqayıt Texniki Kolleci, Sumqayıt, Azərbaycan*
*fatdayeva62@mail.ru*

***Açar sözlər:*** *maddi-istehsal ehtiyatları, audit, əmək predmeti, istehsal ehtiyatları, tədarük*

İstehsal prosesində əmək predmeti kimi istifadə olunan müxtəlif istehsal elementləri istehsal ehtiyatları adlanır. Onlar hər istehsal tsiklində istifadə olunur və öz dəyərini istehsal olunan məhsullara tam köçürür.

Materialların uçotunu düzgün təşkil etmək üçün uçot vahidlərinin təsnifatını, qiymətləndirilməsini və seçilməsini nəzərə almaq lazımdır.

İstehsal ehtiyatları aşağıdakı xüsusiyyətlərə görə ayrılırlar:

- texniki  xüsusiyyətlərə görə (ölçü, marka, çeşid, profil və digər xüsusiyyətlər);
- istehsal prosesində funksional roluna və təyinatına görə.

Maddi-istehsal ehtiyatları (MİE) - istehsal prosesində əhəmiyyətli yer tutur. İstehsal prosesində onların dəyəri hazır məhsula təsir göstərdiyi üçün istehsal məhsulunun maya dəyərində onların payı böyükdür.

Maddi-istehsal ehtiyatları hər bir konkret istehsal tsikli ərzində şirkətin cari əməliyyatlara investisiya etdiyi dövriyyə vəsaitlərinin məcmusudur.

Beləliklə, maddi-istehsal ehtiyatları tamamilə istehlak edilən və dəyərini hazır məhsula köçürən əmək predmetləridir. Kommersiya təşkilatının xərclərinin strukturunda xüsusi çəkisi var, onların uçotu və qiymətləndirilməsi maliyyə nəticələrinə təsir göstərir.

İstehsalatda maddi ehtiyatların daimi tədarükü, saxlanması və buraxılışını təşkil etmək üçün rasional təşkil edilmiş anbar təsərrüfatı böyük rol oynayır, çünki müəssisə və ya təşkilatın fəaliyyətində istehsal tempinin, eləcə də hazır məhsulların satışının tam koordinasiyasını əldə etmək həmişə mümkün olmur. İstehsal anbarlarında maddi ehtiyatların analitik uçotu kartotekada olan anbar uçotu kartlarından istifadə etməklə aparılır [1].

Analitik hesablar üzrə məlumatlar dövriyyə-qalıq cədvəllərində ümumiləşdirilir. Analitik uçot hesablarından  istehsal ehtiyatlarının saxlanmasına və hərəkətinə nəzarət edilməsi, onların qiymətləndirilməsi, anbar uçotunun məlumatları ilə müqayisəsi, habelə inventarizasiyanın yekunlaşdırılması üçün istifadə olunur.

Kompüter texnologiyası anbar uçotu prosesini sürətləndirə və təkmilləşdirə bilər. Bu halda emal gündəlik və ya istehsal malları daxil olduqda həyata keçirilir. İstehsalın idarə edilməsinin ehtiyaclarını informasiya ilə təmin etmək üçün müəssisənin tələbinə cavab verə biləcək istehsal ehtiyatlarının mövcudluğu və hərəkətinin uçotu metodikasının hazırlanması vacibdir.

İstehsal ehtiyatlarının operativ mühasibat uçotu metodunun daha səmərəli rol oynaması üçün hər bir qrupun bir neçə yarımqrupa bölünməsi daha məqsədəuyğun olardı ki, yarımqrupda adların sayı yüzü keçməsin. Bunu  aylıq əmtəə-nəqliyyat qaimələrini, materialların buraxılması qaimələrini və daxil olma haqqında məlumatı tərtib etməklə asanlıqla və sadə şəkildə etmək olar. Həmçinin avtomatlaşdırılmış uçot zamanı proqram həm qruplar, həm alt qruplar, həm də ayrı-ayrı növlər üzrə analitik kontekstdə  məlumatı formalaşdırmaq imkanına malikdir.

Çox vaxt şirkətlər və müəssisələrdə idarəetmə çətinləşir, məsələlərin həllinin operativliyinə tələblər artır və nəticədə onlar mükəmməl istehsal ehtiyatlarının idarə edilməsi sisteminə müraciət etməyə məcbur olurlar [2].

Maddi-istehsal ehtiyatlarının auditinin səmərəliliyinin artırılmasının əsas meyarlarından biri analitik prosedurlardır. Maddi-istehsal ehtiyatlarının təhlili və auditi metodikasının inkişafına şirkətdaxili standartın, habelə tipik ehtiyat auditi səhvlərinin təsnifatının hazırlanması daxildir.

Maddi ehtiyatların tədarükü, saxlanması, buraxılması və yerləşdirilməsini fasiləsiz təşkil etmək üçün rasional təşkil edilmiş anbar istehsalı böyük rol oynayır. Məsələ burasındadır ki, hazır məhsulların əldə edilməsi, saxlanması və satışa çıxarılması şərtlərini razılaşdırmaq həmişə mümkün olmur.

Çoxdan işlənib hazırlanmış və uzun illər tətbiq olunan metodlar öz təyinatını itirib. Onlar

planlaşdırılmış dövlət tərəfindən tənzimlənən qiymətlər şəraitində əl əməyi sisteminə yönləndirilmişdir. Buna əsaslanaraq deyə bilərik ki, istehsal ehtiyatlarının mövcudluğu və hərəkətinin analitik uçotunun təşkili və aparılması metodikasının təkmilləşdirilməsi və yeni yollarının axtarılmasının vaxtıdır.

Yuxarıda göstərilənlərə əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, maddi-istehsal ehtiyatların uçotu və auditi zamanı aktivin xüsusiyyətlərini yadda saxlamaq və nəzərə almaq vacibdir. Maddi-istehsal ehtiyatlarının xüsusiyyətlərinin öyrənilməsi onlar arasındakı əsas oxşarlıqları və fərqləri müəyyən etməyə, analitiklər və auditorlar arasında qarşılıqlı əlaqə imkanlarını başa düşməyə imkan verəcəkdir. Hər müəssisə istehsaldaxili ehtiyatların meydana çıxması, habelə onların işlənib hazırlanması və satışının köməyi ilə ehtiyatların uçotunu və auditini asanlaşdıra və təkmilləşdirə bilər. Təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə əsas maneə olan qeyri-likvid ehtiyatların həcminin azaldılması da çox vacibdir.

## Ədəbiyyat


1. Abbasov Q.Ə. Muhasibat uçotu. Dərslik, Bakı: Elm və təhsil, 2015, 510 s.
2. Səbzəliyev S.M., Quliyev V.M İdarəetmə uçotu. Dərslik. Bakı: Elm və təhsil, 2014, 518 s.
4. “Mühasibat uçotu haqqında ” Azərbaycan Respublikasının Qanunu. Bakı-2004



**РЕЗЮМЕ**

**ОРГАНИЗАЦИЯ УЧЕТА И АУДИТА МАТЕРИАЛЬНО-ПРОИЗВОДСТВЕННЫХ ЗАПАСОВ ОРГАНИЗАЦИИ**

***Фатдаева З.Х.***

***Ключевые слова:*** *материально-производственные ресурсы, аудит, предмет работы, производственные ресурсы, снабжение.*

В статье представлена информация по учету, классификации и оценке материально-производственных резервов на предприятии в современных условиях. При этом были проанализированы пути повышения эффективности аудита материально-производственных ресурсов. Отмечена важность всего этого для предприятия. Указано, что эффективная организация учета и ревизии материально-производственных ресурсов на предприятии имеет большое значение.



**SUMMARY**

**ORGANIZATION OF ACCOUNTING AND AUDIT OF INVENTORIES OF THE ORGANIZATION**

***Fatdayeva Z.H.***

***Key words:*** *material and production resources, audit, subject of work, production resources, supply.*

The article provides information on accounting, classification and evaluation of material and production reserves at the enterprise in modern conditions. At the same time, ways to improve the efficiency of the audit of material and production resources were analyzed. He noted the importance of all this for the enterprise. Therefore, it was indicated that the effective organization of accounting and audit of material and production resources at the enterprise are great importance.


# KƏND TƏSƏRRÜFATI SİSTEMİNİN TRANSFORMASİYASI MƏSƏLƏLƏRİ


**Hacıyeva Zülfiyyə Elman qızı, Pənahova Günay Telman qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*haciyeva-zulfiyye@inbox.ru ; g.penapova@gmail.com*



***Açar sözlər:*** *kənd təsərrüfatı, qida sistemi, texnoloji innovasiya, kənd təsərrüfatı sistemlərinin transformasiyası, kiçik fermerlər*


Kənd təsərrüfatının transformasiyası ideyası olduqca yenidir və yüksək potensiala müsbət təsirə baxmayaraq, Azərbaycanda rəqəmsallaşma kənd təsərrüfatı obyektlərinin yalnız kiçik bir hissəsində istifadə olunur. Və buna görə də, əvvəlki kimi, aqrar-sənaye kompleksinin və müəssisələrinin əksəriyyəti səmərəsiz, təbii sərvətlərə, torpağın keyfiyyətinə ziyan vurmaqla, aşağı əmək məhsuldarlığı ilə işləyir. Əhalinin sayı artdıqca müəssisələr daha intensiv işləməyə məcbur olur ki, bu da torpaq ehtiyatlarının keyfiyyətinə mənfi təsir göstərir. Torpaq köhnəlir, su hövzələri tükənir və çirklənir, mal-qara əziyyət çəkir. Çoxsaylı problemlər və istehsalın və məhsulun keyfiyyətinin artması üçün məhdud imkanlar rəqəmsal texnologiyaların tətbiqinə obyektiv kömək edir. Bu, yüksək əmək məhsuldarlığı və müxtəlif kateqoriyalı kadrlardan istifadənin optimallaşdırılması ilə təbii ehtiyatlardan maksimum səmərəli istifadə etməyə imkan verəcək ki, bu da öz növbəsində müəssisələrin likvidliyinə müsbət təsir göstərəcək.

Qeyri-kənd təsərrüfatı sektorlarında məşğulluq imkanlarının yaranması, işçi qüvvəsinin kənd təsərrüfatından qeyri-kənd təsərrüfatı sektorlarına hərəkəti və qalan təsərrüfatların aqrar sektorda tədricən konsolidasiyasını zəruri edir. Bu baxımdan məhsulların tədarük oluna biləcəyi bazarlar və onlara çıxış

olmadan bu proses mümkün deyil. Əksər hallarda onların yaranması üçün kənd yerlərinin şəhər mərkəzlərinə yaxın olması və onlarla kənd təsərrüfatı sektoru ilə iqtisadiyyatın digər sahələri arasında qarşılıqlı əlaqə və hər iki istiqamətdə kommunikasiya imkanlarını təmin edən əlaqələrin olması zəruridir. Qida sistemində və tədarük zəncirlərindəki inkişaflar əkinçilik sistemlərində müvafiq dəyişikliklərə təkan verir. Onlar həm bilavasitə - yeni istehsal üsullarının və texnologiyalarının inkişafı yolu ilə, həm də dolayısı ilə - əmək və kapitalın, sonra da torpaq ehtiyatlarının yenidən bölüşdürülməsinə səbəb olan istehsal amilləri bazarlarında dəyişikliklər nəticəsində baş verir. Bundan əlavə, kənd təsərrüfatı sistemlərinin transformasiyası məhsuldarlığı artıran texnologiyaların meydana çıxması və onların qəbulunu asanlaşdıran siyasətlərin qəbulu kimi təchizat zəncirinin "yuxarı axınındakı" dəyişikliklərlə əlaqələndirilir [1, s.187].

Müxtəlif ölkələrdə giriş bazarlarının liberallaşdırılması ilə daha böyük kommersiya təsərrüfatları hibrid məhsul sortları və keyfiyyətli toxumlar da daxil olmaqla yüksək məhsuldar girişlərin mövcudluğundan istifadə etdilər. Bununla belə, kiçik fermerlər öz əməliyyatlarını genişləndirmək və texnologiyalara və bazarlara çıxışı asanlaşdırmaq üçün siyasətlərin, infrastrukturun və institusional tədbirlərin olmaması səbəbindən çox vaxt geridə qalırlar. Qlobal giriş bazarları konsolidasiya edildikdən sonra, giriş və texnologiyaları təmin edən aqrar-sənaye firmaları inkişaf etməkdə olan kiçik ölkələrdə kiçik təsərrüfatlara investisiya qoymaqda maraqlı olmaya bilər. Müvafiq olaraq, bazar uğursuzluqlarını həll etmək və kiçik fermerlərin ehtiyaclarını ödəmək üçün, xüsusən kənd yerlərinin inkişafı üzrə məsləhət xidmətləri və fermerlərin kollektiv fəaliyyətinə dəstək kimi ictimai malların təmin edilməsi yolu ilə siyasət müdaxilələrinə ehtiyac var. Transformasiya prosesinə başlamaq və davam etdirmək üçün kənd əhalisinin əhəmiyyətli hissəsinin mənafeyi naminə aqrar sektorun məhsuldarlığında davamlı artımı stimullaşdıran mübadilə rejimləri yaratmaq lazımdır. Onlar tez-tez giriş xərclərini ödəmək üçün əməliyyat xərclərinin azaldılmasını və satış qiymətlərinin artırılmasını, eləcə də kiçik sahibkarların kənd təsərrüfatı tədarük zəncirlərində iştirakı üçün əlverişli şərait yaradan təchizat zəncirinin mübadilə mexanizmlərini gücləndirməyi əhatə edir [2, s.38].

Kənd təsərrüfatı istehsalının artımı və şaxələndirilməsi qida sənayesinin inkişafı və müvafiq olaraq kənd yerlərində məşğulluq və gəlir əldə etmək imkanlarının artırılması üçün ilkin şərtdir. Torpaq çatışmazlığı istehsalın artımını məhdudlaşdıran əsas amillərdən biri olduğundan, əkin sahələrinin məhsuldarlığının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Bu problemin həlli yolu yüksək məhsuldar sortlar və təkmilləşdirilmiş gübrə birləşmələri kimi müasir fiziki imkanlardan, həmçinin qarışıq əkin və əkinsiz əkin kimi resursa qənaət üsullarından istifadə etməklə davamlı intensivləşdirmədir [3, s.87].

Davamlı məhsuldarlıq artımı alternativ yanaşmalar vasitəsilə əldə edilə bilər. Bunlardan biri aqroekologiyadır, elmi və ənənəvi bilikləri birləşdirən təcrübələrdən istifadə edən sistemdir. Transformasiyanın müəyyən mərhələsində aqrar sektorda əmək məsrəfləri yüksəlir və texnikanın və digər vəsaitlərin istifadəsində sinerji effekti yaranır ki, bu da hətta kiçik təsərrüfatlardan da mexanikləşdirməyə marağa səbəb olur. Bu, öz növbəsində, avadanlıqların icarə bazarının inkişafı üçün stimul yaradır, bunun sayəsində kiçik istehsalçılar öz təsərrüfatlarında işləri mexanikləşdirmək imkanı əldə edirlər.

Aqrar sahənin inkişafında informasiya-kommunikasiya texnologiyaları böyük əhəmiyyət kəsb edir. Onlar kənd təsərrüfatı məhsullarının regional bazarlarının subyektlərinin fəaliyyətini, əsas funksional istiqamətləri, o cümlədən sektoral planlaşdırma və proqnozlaşdırmanı, məhsulun keyfiyyətinə nəzarəti, idarəetmənin müxtəlif səviyyələrində innovasiya prosesinin sürətini əhatə edir. İstehsal dövrünün müxtəlif mərhələlərinin monitorinqi və tənzimlənməsi və kənd təsərrüfatı işlərinə hazırlıq üçün yüksək texnoloji metodlardan istifadə etməklə kənd təsərrüfatının rəqəmsal istiqamətdə inkişafında böyük uğurlar əldə edilmişdir. Yeni yüksək texnologiyalı üsullar kənd təsərrüfatı heyvanlarının və qida sənayesində istifadə olunan bitkilərin, xammalın keyfiyyətini yaxşılaşdırır, torpağın münbitliyini qoruyur. Kənd təsərrüfatının səmərəli inkişafı üçün müasir innovativ texnologiyaların tətbiqi ilə yanaşı, həm də ixtisaslı kadrlar, rəqəmsal bacarıqlar üzrə təhsil müəssisələrinin formalaşdırılması, rəqəmsal səriştələrə malik yeni nəsil mütəxəssislər və avtomatlaşdırılmış istehsalatda işləmək bacarığı kimi məsələlər öz həllini tapmalıdır.

**Ədəbiyyat**


1. Abbasov İ.D. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, Şərq-Qərb nəşriyyatı, 2013, 712 s.
2. Серова Е.В. Аграрная Экономика. М., ГУ ВШЭ, 1999, 199 с.
3. Зинченко А.П. Сельскохозяйственные предприятия: экономика-статистический анализ. М.: Финансы и статистика, 2012, 160 с.

**РЕЗЮМЕ**
**ВОПРОСЫ ТРАНСФОРМАЦИИ СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ СИСТЕМЫ**
***Гаджиева З. Э., Панахова Г.Т.***

***Ключевые слова:*** *сельское хозяйство, продовольственная система, технологические инновации, трансформация сельскохозяйственных систем, мелкие фермеры*

В странах, где сельское хозяйство является основным источником занятости, рост производительности является основной движущей силой изменений. В статье были затронуты такие вопросы, как технологические инновации, изменения в структуре производства и улучшение доступа к рынкам. В то же время в статье освещаются вопросы трансформации сельскохозяйственных систем.

**SUMMARY**
**ISSUES OF TRANSFORMATION OF THE AGRICULTURAL SYSTEM**
***Hajiyeva Z. E., Panahova G.T.***

***Key words:*** *agriculture, food system, technological innovation, transformation of agricultural systems, small farmers*

In countries where agriculture is the main source of employment, productivity growth is the main driver of change. The article touched upon issues such as technological innovation, changes in the structure of production and improved access to markets. At the same time, the article highlights the issues of transformation of agricultural systems.

# ANBAR LOGİSTİKASI PROSESİNİN FORMALAŞDIRILMASI YOLLARI

**Həmidova Almaz Məmmədağa qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
almashamidova@mail.ru

***Açar sözlər:*** *logistika prosesi, anbar sistemi, anbar, təchizat zənciri, anbar logistikası*

Təchizat zəncirində material axınlarının hərəkəti əsasən onun tərkib hissəsi olan nəqliyyat- anbar sistemindən istifadə etməklə baş verir. Müxtəlif istiqamətli anbarlar bu sistemin əsas nöqtələridir. Dünyada çox sayda anbarların olması şirkətlərin mallarını, resurslarını hardasa saxlamaq zərurəti ilə bağlıdır. Məhz anbarlar sayəsində müasir müəssisələr öz fəaliyyətlərini uğurla həyata keçirmək imkanına malikdir.

Anbarların idarə edilməsi ictimai istehsalın zəruri elementidir. O, xalq təsərrüfatının bütün sahələrinə xasdır və mürəkkəb struktura malikdir. Bu fəaliyyətin bir sıra mühüm funksiyaları mövcuddur. Bunlara aşağıdakılar aiddir:

- məhsulun keyfiyyətinin qorunması;
-ehtiyatların rasional yerləşdirilməsi;
- məhsulun nəqlinin bütün mərhələlərində bütün yüklərin daşınması əməliyyatlarının yerinə yetirilməsi.

Anbar logistikası şirkətin bütün ehtiyatlarını və onların daşınmasını idarə etmək texnikasıdır, habelə saxlama və çatdırılma prosesinin düzgün paylanması və uçotudur. Bütün istehlakçı tələbatını minimal maliyyə və vaxt xərcləri ilə ödənilməsini təmin edən və biznes sahiblərinə sabit mənfəət gətirən bu sahəyə tələbat vardır. Logistika baxımından anbar müxtəlif funksiyaları yerinə yetirmək üçün nəzərdə tutulmuşdur [1]:

- İstehlakçıların tələbinə cavab verən istehlak məhsulunun yaradılması;
- İstehsal prosesinin fasiləsizliyini təmin edən anbarlama;
- Malların daşınması;
- Alıcının tələbi nəzərə alınmaqla çeşidin korreksiyası və formalaşdırılması;
- Müxtəlif müştərilərdən gələn sifarişləri birləşdirərək və eyni anda bir neçə alıcıya çatdırmaqla xərclərin azaldılması;
- Müvafiq xidmətlərin göstərilməsi: qablaşdırma, yoxlama, açılma, yığılma, yükün emal edilməsi;
-Çatdırılmalara nəzarət, yükün çatışmazlığının və artıqlığının qarşısının alınması;
-Yükün qəbulu və boşaldılması, habelə nəqliyyat logistikasının digər prosesləri.

Anbar logistikasının əsas vəzifəsi bir neçə axından ibarət olan anbar tərkibinin idarə edilməsidir [2]:

1. Daxil olan-qəbul edilmiş məhsullar boşaldılmalı, yoxlanılmalı və emal olunmalıdır.
2.Daxili-qəbul edilmiş məhsullar daşınmalı, yer dəyişməli, çeşidlənməli, sənədləşdirilməlidir.
3. Çıxan -çıxan məhsullar qablaşdırılmalı, göndərilməli və sənədləşdirilməlidir.

Anbar logistikasının formalaşmasında onun təşkili prinsipləri nəzərə alınmalıdır. Anbar logistikası bütün təşkilatın dəqiq və əlaqələndirilmiş işini tələb edir. Hər bir logistika prosesi bacarıqla və tələblərə

uyğun aparılmalıdır, əks halda problemlər yaranır. Buna görə anbar logistikasının və saxlanmasının təşkili bir neçə prinsipə əsaslanmalıdır. Bu prinsiplərə aşağıdakılar aiddir [3]:

1. Anbarların sayı. Əvvəlcə anbarların sayı müəyyən edilməlidir. Onların azlığı yükün sistematik şəkildə daşınmasına və müvafiq olaraq xərclərin artırılmasına səbəb olur. Onların çoxluğu saxlama xərclərinin artmasına səbəb olur. Eyni zamanda qazanc dəyişməz olaraq qalır. Yalnız bütün müsbət və mənfi tərəfləri müəyyən etdikdən sonra son qərar vermək olar. Buna görə anbarların sayını hesablamaq üçün təcrübəli logistlərlə əlaqə saxlamaq tövsiyə olunur. Yalnız onlar təşkilatın bütün ehtiyaclarını ödəyəcək və xərcləri minimuma endirəcək məkanı dəqiq hesablamağa köməklik edəcəkdir.

2. Mülkiyyət növü. Təşkilatın növbəti addımı nəyin daha uyğun olacağını anlamaqdır: məkanın icarəsi və ya alınması. Bəzi hallarda xüsusi autsorsinq agentliklərinə müraciət etmək sərfəli olur. Almaq və ya icarəyə götürmək daha ucuz başa gələcək və biznes daha sürətli inkişaf edəcək. Autsorsinq daha baha başa gələcək, lakin işin keyfiyyətini artıracaq. Bu üsul yalnız çox yüksək nəqliyyat xərcləri və aşağı mənfəət şəraitində məqsədəuyğundur.

3. Yerləşməsi. Sonrakı xərclər və yekun rentabellik mərkəzin yerləşməsindən asılıdır. Ona görə də müəyyən etmək lazımdır ki, yaşayış nöqtəsinin hansı hissəsindən ən az xərclə tez bir zamanda sifariş gətirə bilərsiniz. Əlverişli ərazi nəqliyyat xərclərini azaldacaqdır. Ən yaxşısı şirkətə yaxın yerləri seçməkdir. Lakin texniki amillərə görə bu həmişə mümkün olmur. Anbara gedən bir neçə bir- birini əvəzləyə bilən yolların olmasını təmin etmək də tövsiyə olunur.

Müasir logistika anbarı bir-biri ilə əlaqəli elementlərdən ibarət və özünəməxsus quruluşa malik olan, həmçinin material axınlarının emalı, yüklərin yığılması, emalı və müştərilər arasında paylanması üzrə bir sıra vəzifələri yerinə yetirən mürəkkəb texnoloji qurğudur.

Eyni zamanda anbarları mürəkkəb logistika sistemləri kimi təsnifləşdirən bir sıra xassələr, texniki həllər, anbar fəaliyyətinin həyata keçirilməsi üçün avadanlıq və anbarlarda emal olunan malların müxtəlif sənədləşdirmə xüsusiyyətləri mövcuddur. Bununla belə anbar yüksək səviyyəli təchizat zənciri olan sistemin elementlərinə aiddir. Bu zəncir anbar sisteminin ən vacib şərtlərini yaradır, optimal fəaliyyət göstərməsi üçün məqsədlərini, əsas tələblərini nizama salır, həmçinin yükün vaxtında emalına şərait yaradır. Bu səbəbdən anbar təchizat zəncirinin bir hissəsi olmalıdır. Yalnız belə bir yanaşma anbarın əsas funksiyalarının effektiv şəkildə yerinə yetirilməsini və yüksək likvidlik səviyyəsinə nail olunmasını təmin edəcəkdir. Bu halda nəzərə alınmalıdır ki, hər bir variantda müəyyən bir anbar üçün anbar sisteminin normaları bir-birindən çox fərqlənir, buraya təkcə elementlər deyil, həm də bu elementlərin qarşılıqlı əlaqəsindən ibarət olan strukturun özü də daxildir. Anbar sistemini formalaşdırarkən ən vacib prinsipi rəhbər tutmaq lazımdır: yalnız müstəqil qərar geri ödəməyə səbəb ola bilər.

Əsas şərt anbarın daxilində və xaricində funksional vəzifələrin aydın şəkildə başa düşülməsi və sifarişin emalının tam təhlili olacaqdır. Elastik imkanların yayılması əlverişli praktiki göstəricilərlə azaldılmalıdır. Bu o deməkdir ki, xərclərin hər biri iqtisadi cəhətdən əsaslandırılmalıdır, yəni kapital qoyuluşları ilə əlaqəli demək olar ki, hər hansı bir texniki və texnoloji həllin tətbiqi populyar tendensiyalardan və bazarda təklif olunan texniki imkanlardan deyil, aktuallıqdan irəli gəlməlidir.

Mövzunu daha dərindən başa düşmək üçün "logistika prosesi" termininin özünü araşdırmaq lazımdır. Proses müəyyən texnologiyadan istifadə edərək, daxilolmaları müştəri üçün xüsusi dəyərə malik xaricolmalara çevirə bilən davamlı, məqsədyönlü bir-biri ilə əlaqəli fəaliyyətlər toplusudur.

Logistika prosesinin xüsusiyyətləri aşağıdakılardır:

1. Təchizat zəncirlərindən istifadə edərək həyata keçirilən logistik idarəetmə proseslərinə diqqət yetirmək - resursların və aktivlərin toplanması, bölüşdürülməsi və hərəkəti;

2. Müəssisələrin idarə edilməsinə yönəlmiş qaydalar toplusu kimi logistikanın tədqiq obyektinə yönəldilmiş diqqət - resurs təchizatı sistemləri zənciri ilə hərəkət edən resursların axını.

Logistika prosesinin bütün əsas komponentlərinin əmək qabiliyyəti qarşılıqlı əlaqədə və bir-birindən asılı olmalıdır. Bu üsul təkcə anbar işçilərinin fəaliyyətini düzgün idarə etməyə deyil, həm də anbarda malların hərəkətini minimum itki ilə planlaşdırmağa və nəzarət etməyə imkan verir.

Bütün prosesi üç əsas növə bölmək olar [4]:

1. Təchizat xidmətinin əlaqələndirilməsi ilə bağlı əməliyyatlar;

2. Yüklə və yükün sənədləri ilə bağlı əməliyyatlar;

3. Satış şöbəsinin idarə edilməsinə yönəlmiş əməliyyat.

Təchizat şöbəsinin idarə edilməsi satınalma əməliyyatlarının köməyi ilə və təchizat zəncirinə nəzarət etməklə həyata keçirilir. Əsas təchizat problemi istehlakçı sifarişlərinin tam yerinə yetirilməsi ilə müəyyən dövr üçün anbarın emal imkanlarının səviyyəsinə uyğun olaraq mal və sifarişlərlə vaxtında təmin edilməsindən ibarətdir. Yuxarıda göstərilənləri nəzərə alaraq qeyd etmək olar ki, ehtiyatın artırılması anbarda boş yerin olmasına və satış şöbəsinin imkanlarına uyğun olaraq müəyyən edilməlidir.

Ehtiyatların doldurulması və sifarişlərin göndərilməsinin tənzimlənməsi yük axınlarının emalının balanslaşdırılmış sürətini, anbarın mövcud həcmindən və saxlanması üçün lazımi şəraitdən daimi istifadəni təmin etməyə, ehtiyatların saxlanma müddətini azaltmağa və bununla da anbarın dövriyyəsini artırmağa imkan verir. Anbarda düzgün logistika prosesinin yeganə təminatı rentabellikdir.

Müvafiq olaraq logistika prosesini formalaşdırarkən aşağıdakılara nail olmaq zəruridir:

1. Xərcləri azaltmağa və yüklərin emalı prosesini yaxşılaşdırmağa kömək edən iş sahələrini qurarkən anbarın düzgün planlaşdırılması;
2. Avadanlıqların yerləşdirilməsi üçün boş yerdən səmərəli istifadə;
3. Müxtəlif anbar əməliyyatlarını yerinə yetirən, qaldırıcı və nəqliyyat aparatlarının parkını azaldan universal avadanlıqların olması;
4. Əməliyyat xərclərinin azaldılması və anbarın ötürücülüyünün artırılması məqsədilə anbardaxili hərəkət marşrutlarının azaldılması;
5. Daşımaların partiyalarının birləşdirilməsi və nəqliyyat xərclərinin azaldılması üçün mərkəzləşdirilmiş çatdırılmadan istifadə;
6. Məlumat mübadiləsi, pul axını və sənəd dövriyyəsi ilə bağlı vaxtı və xərcləri əhəmiyyətli dərəcədə azaltmaq üçün informasiya sisteminin imkanlarından istifadə edilməsi.

## Ədəbiyyat


1. Гаджинский, А. М. Логистика. Учебник для бакалавров. 21-е изд. М.: Дашков и К°, 2013, 224 с.
2. Гайдаенко А. А. Логистика. М.: ИНФРА-М, 2017, 272 с.
3. Аникин, А. Б. Логистика производства: теория и практика. М.: Юрайт, 2019, 454 с.
4. Санкт-Петербург. [Электронный ресурс] // Портал для профессионалов в логистике. URL: http://www.logistics.ru.



**РЕЗЮМЕ**

**ПУТИ ФОРМИРОВАНИЯ ПРОЦЕССА СКЛАДСКОЙ ЛОГИСТИКИ**

***Гамидова А. М.***

***Ключевые слова:*** *логистический процесс, складская система, склад, логистическая цепь, складская логистика*

Тема складской логистики является одной из важнейших и фундаментальных в сфере логистических услуг, существует множество факторов, влияющих на успех формирования логистических процессов на предприятии. В статье рассматривается система организации логистических процессов в рамках складской логистики. Показывается и конкретизируется информационный инструментарий для оптимизации логистических аспектов хозяйственной деятельности. Разбирается тема формирования складской логистики и логистического процесса в целом. Определяется понятие логистического склада, учитываются особенности логистического процесса. Обоснованы множество условий и поставлены функциональные задачи.

**SUMMARY**

**WAYS OF FORMING A WAREHOUSE LOGISTICS PROCESS**

***Hamidova A. M.***

***Key words:*** *logistics process, warehouse system, warehouse, logistics chain,warehouse logistics*

The concept of a logistics warehouse is definitely defined, the peculiarities of the logistics process are taken into account. Many conditions are justified and functional tasks are set. The article discusses the system of organization of logistics processes in the framework of warehouse logistics. The information tools for optimization of logistic aspects of economic activity are shown and specified. The topic of the formation of warehouse logistics and the logistics process as a whole are studid in the article.


# NƏQLİYYAT LOGİSTİKASININ MÜƏSSİSƏLƏRİN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNDƏ ROLU


**Hüseynova Məlahət Soltan qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*huseynovyusif2003@mail.ru*



***Açar sözlər:*** *nəqliyyat, logistika, nəqliyyat logistikası, xarici iqtisadi fəaliyyət (XİF), ticarət, yükdaşıma, müəssisə, istehsal*


Milli iqtisadiyyatın inkişafı yeni artım imkanlarının axtarışını tələb edir. Bu imkanlardan biri də makroiqtisadi səviyyədə logistik sistemlərin formalaşmasıdır. Dünya iqtisadiyyatının qloballaşma prosesləri fasiləsizliyi təmin etmək məqsədilə malların hərəkəti sistemində iştirakçıların konsolidasiyası ilə ifadə

olunan logistika anlayışından istifadəni zəruri etmişdir. Dünya iqtisadiyyatı resurs təminatçıları, logistika sistemləri, istehsal müəssisələri və bazarlar arasında getdikcə daha çox qarşılıqlı əlaqə ilə daha çox inteqrasiya olunur. Bu cür əlaqələr tamamilə təbii olaraq regional birliklər formasını alır, iştirakçıların coğrafi yaxınlaşmasını və miqyasda qənaət əldə olunmasını asanlaşdırır.

Logistika şirkətin dayanıqlı şəkildə inkişaf etməsinə, bazarda oxşar xidmətlər göstərən və ya oxşar məhsulları istehlakçıya təqdim edən digər müəssisələrlə rəqabət aparmağa imkan verən əsas amillərdən biridir. Logistika əsasında dövriyyə sahəsinin inkişafı üçün strateji planların hazırlanması istehsal infrastrukturunun rolunu artırmağa və onu əsas vəzifə kimi qəbul etməyə imkan verir. Logistika fəaliyyətində idarəetmənin əsas obyekti kimi material axını seçilir ki, bu da iqtisadi proseslərə baxışı xeyli asanlaşdırır. Material axınının idarə edilməsi müəssisə fəaliyyətinin ən mühüm aspektlərindən biridir [4, s.77].

Logistika zəncirlərinin və paylama kanallarının qurulması mürəkkəb prosesdir ki, onun uğurla reallaşdırılması təchizat, paylama, anbar, nəqliyyat və istehsal logistikası, habelə inventarların idarə edilməsi kimi bir sıra logistik vəzifə və proseslərin reallaşdırılmasını tələb edir. Təchizatın əsas vəzifəsi xammal və ya bitməmiş mal ehtiyatlarını lazımi səviyyədə saxlamaqdır.

İqtisadiyyatın qloballaşması şəraitində beynəlxalq logistika sürətlə inkişaf edir. Beynəlxalq logistika zəncirinin formalaşmasının mühüm şərti onun həlqələri arasında riskin bölünməsi, beynəlxalq logistika çərçivəsində təsərrüfat subyektlərinin səmərəliliyinin asılı olduğu sərt və yumşaq amillərin müəyyən edilməsidir. Bu, əsas və köməkçi logistik əməliyyatlar, onların həyata keçirilməsini müəyyən edən sərt və yumşaq amillər arasında uyğunluqların axtarışını əhatə edir. Müəssisənin xarici iqtisadi fəaliyyətində (XİF) beynəlxalq tədarük zəncirlərinin idarə edilməsinin səmərəliliyinin artırılmasının əsas şərtləri sifarişin yerləşdirilməsi və yerinə yetirilməsi, tədarük və satınalma, istehsalın planlaşdırılması və logistika idarəçiliyinin vahid sistemə inteqrasiyası, o cümlədən yardımın göstərilməsidir. Beynəlxalq təchizat zəncirlərinin idarə edilməsi malların tədarükü üçün vaxt və xərcləri optimallaşdırmağa imkan verən müəssisənin XİF-ni idarə etmək üçün effektiv strategiyadır. Qlobal nəqliyyat və logistika zəncirlərini, kanallarını və ya sistemlərini inkişaf etdirməzdən əvvəl müəssisələr özünü beynəlxalq bazarda həqiqətən qlobal şirkət kimi yerləşdirməlidir.

Bir çox sənaye müəssisələri istehsal üçün optimal tədarük mənbələri axtararaq, digər ölkələrdəki təchizatçılardan material alırlar. Öz növbəsində, belə şirkətlərin kommersiya xidmətləri təkcə region daxilində deyil, digər ölkələrə də satışları genişləndirməyə çalışır. İri sənaye müəssisələri, bir qayda olaraq, həm iki ayrı ölkə daxilində, həm də bir neçə tranzit mexanizmindən istifadə etməklə daşımaları reallaşdırmaq üçün resurs və imkanlara malikdirlər.

Müasir biznesdə təşkilatlar özlərini regionlarla və milli sərhədlərlə məhdudlaşdırmırlar, onlar daim əməliyyatların yerinə yetirilməsi variantlarını axtarırlar: innovativ kommunikasiya vasitələri, maliyyə axını sxemləri, səmərəli təchizat zəncirləri, nəqliyyat, kommersiya müqavilələri. Bununla əlaqədar olaraq sənaye müəssisələrinin XİF-nin maddi-texniki təminatı mürəkkəb təchizat zəncirlərindən istifadə etməklə material axınlarının hərəkətinə və daşınma ilə bağlı vəzifələrin yerinə yetirilməsinə yönəldilir.

Ölkələr arasındakı fərqlər bu sahədə çalışan logistika fəaliyyəti ilə məşğul olan şəxslərdən müxtəlif əlavə bacarıqlar və geniş təcrübə tələb edir.

Rəqabət qabiliyyəti, alınan materialların yüksək keyfiyyəti, genişmiqyaslı istehsala qənaət qlobal miqyasda logistika prinsiplərinin effektiv əlaqələndirilməsini tələb edir. Bu zaman təkcə ayrı-ayrı dövlətlərin xüsusiyyətlərini deyil, həm də təchizat zəncirlərinin qurulmasının ümumi prinsiplərini nəzərə almaq lazımdır [3, s.530].

Çox vaxt material axınlarının müxtəlif ölkələrin sərhədləri boyunca daşınması və uzun məsafələrə daşınmaların təşkili zamanı keyfiyyətli təchizat zəncirinin və ümumilikdə logistikanın təşkilində bir çox problemlər yaranır. Bir qayda olaraq, problemlərin əksəriyyəti dil baryeri və spesifik milli adətlərlə bağlıdır. İqtisadi problemlər tariflər və vergi sistemləri ilə bağlıdır, dövlətlərin özlərinin ayrıca öz qanunvericiliyi, iqtisadi sistemi, infrastrukturu və təkcə bir dövlət daxilində deyil, bütün dünyada biznes proseslərinə güclü təsir göstərən digər amillər mövcuddur.

Əksər hallarda daşıyıcı yükün hərəkəti və onun yeri haqqında məlumat verir. Əgər yolda və ya daşınma məntəqələrindən birində yük gecikmələri baş verərsə, effektiv idarəetmə qərarı qəbul etmək üçün göndərici və alıcı problemin səbəbini bilməlidir.

Çox vaxt daşıyıcı tərəfindən təqdim olunan məlumat dil maneələri ilə əlaqədar təhrif olunmuş formada alınır. Vasitəçi şirkətlər bölmələrində koordinasiya olmadıqda informasiyanın ötürülməsi problemini daha da ağırlaşdıra bilərlər.

Müasir dünyada mal, xidmət və kapital axınının həcminin və müxtəlifliyinin artması nəticəsində dünya ölkələrinin iqtisadi qarşılıqlı asılılığının artması kimi qloballaşma prosesləri aktuallaşır. Bu proses

dövlətin və müəssisələrin iqtisadiyyat, mədəniyyət, idarəetmə və s. kimi fəaliyyətinin müxtəlif sahələrini əhatə edir. Bu şəraitdə logistika sistemlərinin beynəlxalq səviyyədə tətbiqi istiqamətindəki əsas tendensiyaları və maneələri nəzərə almaq vacibdir , bu xüsusilə müəssisələr ixrac məhsulları ilə xarici bazara çıxdıqda aktuallaşır.

XİF-də logistika üsullarının tətbiqi zamanı həll edilməli olan problemlər aşağıdakılardır:

- qiymətlərə nəzarətin qurulması;
- daşınma, alış və paylama kanallarının seçimi;
- malların daşınması üçün ən sərfəli tariflərin tətbiqi;
- tərəfdaş ölkələr arasında gömrük qanunvericiliyinin şərtlərinə əməl olunması;
- məhsul standartlarına uyğunlaşma;
- istehlak bazarlarında fərqlərin müəyyənləşdirilməsi [2, s.256].

Hazırda nəqliyyat logistikasının əsas məqsədi lazımi xammalın və malların müəyyən vaxt çərçivəsində minimum xərclərlə çatdırılmasının müntəzəmliyini, etibarlılığını və sürətini təmin etməkdir. Nəqliyyat-logistika prosesinin iştirakçıları bunlardır: müəssisə - istehsalçı, nəqliyyat şirkətləri, logistika şirkətləri, sifarişçi - məhsulların alıcısı. Onlar bir-biri ilə müəyyən münasibətlər kompleksi (hüquqi, maliyyə, kommersiya) ilə bağlıdır. Bu münasibətlər beynəlxalq qanunvericilik və daxili normativ hüquqi aktlarla tənzimlənir. Xarici ticarət əməliyyatının məqsədəuyğunluğu müəyyən edilərkən nəqliyyat-logistika amilinə mühüm, bəzən isə həlledici rol verilir. Bu amil məhsulların çatdırılması ilə bağlı xərclərin səviyyəsini xarakterizə edir. Bu xərclərin dəyərinə bir sıra amillər təsir edir:

- regionların ərazi uzaqlığı;
- daşınan məhsulların xüsusiyyətləri;
- trafikin həcmi;
- nəqliyyat növü (nəqliyyat növü: avtomobil, dəniz, hava, dəmir yolu, multimodal, nəqliyyat);
- çatdırılmaların sürəti və müntəzəmliyi;
- təhlükəsizliyin təmin edilməsi yolları (malların daşınması üçün xüsusi şərtlər);
- əməliyyatlara xidmət göstərilməsi (hüquqi, maliyyə, təşkilati).

Xarici iqtisadi fəaliyyətin nəqliyyat-logistika təminatı məhsulların istehsalçıdan istehlakçıya çatdırılması prosesidir. Amma bu proses malların daşınması ilə məhdudlaşmır. Bu, hüquqi, maliyyə (beynəlxalq hesablaşmalar), təşkilati, kommersiya tipli bütün hərəkətlər və xidmətlər sistemidir. Nəqliyyat-logistika dəstəyinin əsas mərhələləri: məhsulların hazırlanması, əsas nəqliyyata çatdırılması, yükləmə və son mərhələlər: boşaldılması, sənədləşmə işləri və qəbul edilmiş yükün ünvana çatdırılması. İri yük ekspeditor şirkətləri hal-hazırda bütün xidmətlər spektrini təqdim edir, malların daşınması üzrə logistik xidmətlər göstərir. Bu şirkətlər yük sahiblərinin maraqlarını qoruyur.

Müasir beynəlxalq nəqliyyat logistikasında ən mühüm tendensiya konteynerlərdə yük daşımalarının həcminin durmadan artmasıdır. Konteynerlərin istifadəsi XX əsrin 70-ci illərindən etibarən başlamışdır. Beynəlxalq logistika proseslərin axını və xammal və məhsulların transsərhəd mübadiləsidir. Bu proses zamanı mallar bir dövlətdən digərinə daşınmasını həyata keçirməzdən əvvəl, yükün özü xaricdə və onu istehsal edən dövlətin sərhədində çoxlu sayda gömrük prosedurlarından və yoxlamalarından keçməli olacaq.

Beynəlxalq daşımalar müxtəlif nəqliyyat növləri ilə həyata keçirilir. Məsələn:

1. Dəniz nəqliyyatı
2. Su nəqliyyatı
3. Dəmir yolu nəqliyyatı
4. Avtomobil nəqliyyatı
5. Hava nəqliyyatı
6. Boru kəməri nəqliyyatı

Nəqliyyatın köməyi ilə mallar istehsal yerindən istehlak yerinə köçürülür. Malların daşınması xüsusi xidmət növüdür. Dünya əhalisinin davamlı artımı nəqliyyat xidmətlərinin səviyyəsinin və həcminin artırılmasını tələb edir.

Azərbaycanda müxtəlif nəqliyyat növləri ilə beynəlxalq daşımaların mövcud vəziyyətini təhlil etmək üçün aşağıdakı şəkillərin məlumatlarından istifadə etmək olar (şəkil 1-2).

Şəkil 1-dən Azərbaycanda nəqliyyat növləri üzrə yükdaşımaların 2010-cu ildən 2020-ci elədək davamlı olaraq artdığını görə bilərik. Məsələn, 2019-cu ildə bu artım 19,7%, 2015-ci ilə görə 5,8%, 2018-ci ilə görə isə 2,2% artmışdır. Lakin 2020-ci ildə 2019-cu ilə görə 24,7%, 2021-ci ildə isə 21,3% azalmışdır.




*Mənbə:* ARDSK

**Şəkil 1. 2010-2021-ci illər ərzində Azərbaycanın nəqliyyat sektorunda yükdaşımaların həcmi, min ton**

2021-ci ildə yükdaşımaların əsas hissəsi, yəni 58,0%-i avtomobil nəqliyyatının payına düşür.




*Mənbə:* ARDSK

**Şəkil 2. 2021-ci ildə nəqliyyat növləri üzrə yükdaşımaların strukturu**

Sənaye müəssisələrinin innovativ modernləşdirilməsi şəraitində ölkə daxilində yük daşımalarının böyük hissəsini yerinə yetirən və iqtisadi əlaqələrin xərclərinə və sürətinə, rəqabət qabiliyyətinə və cəlbediciliyinə önəmli təsir göstərən avtomobil nəqliyyatının rolu əhəmiyyətli dərəcədə artır. Müasir dövrdə uğurlu fəaliyyəti üçün zəruri şərt yükdaşımaların və avtomobil nəqliyyatı xidmətləri bazarının inkişaf xüsusiyyətlərinin nəzərə alınmasıdır.

Beynəlxalq iqtisadi münasibətlər sistemində dəniz nəqliyyatı dünya iqtisadi əlaqələrinin reallaşdırılmasında ən mühüm elementdir. Dəniz nəqliyyatı dünya iqtisadiyyatının qloballaşmasına öz təsirini göstərir. Dəniz nəqliyyatının fəaliyyəti bütünlüklə beynəlxalq ticarətlə müəyyənləşdirilir. Onun həcmi, coğrafiyası və əmtəə strukturu bu nəqliyyat sahəsinin inkişafına, onun ixtisaslaşmasına və fəaliyyətinin təşkilinə həlledici təsir göstərir.

Dünya iqtisadiyyatının inkişafı ilə dəniz nəqliyyatının inkişafında yeni meyillərin meydana çıxması əlaqələndirilir. İnteqrasiya proseslərinin güclənməsi iqtisadi maraqların qloballaşması amillərini formalaşdırır və dəniz nəqliyyatı dünya iqtisadi əlaqələrinin iqtisadi sabitliyinin ən mühüm şərtinə çevrilir. Beynəlxalq nəqliyyat xidmətləri bazarında qloballaşma prosesləri şəraitində dünya iqtisadi əlaqələrinin əlverişli fəaliyyət göstərməsi müəyyən dərəcədə ticarət gəmiçiliyinin təkmilləşdirilməsindən asılıdır.

İqtisadiyyatın qloballaşması, öz növbəsində, dəniz sənayesinə önəmli dərəcədə təsir göstərir. Gəmiçilik ən liberallaşdırılmış və qlobal sənayelərdən biridir. Nəqliyyatın inkişafı telekommunikasiyanın inkişafı, ticarətin liberallaşdırılması və beynəlxalq standartlaşdırma ilə birlikdə dünya iqtisadiyyatının

qloballaşmasının dörd fundamental amilindən biridir ki, bu da limanların və gəmiçilik şirkətlərinin xidmətlərinin səmərəliliyini artırır.

Məlumdur ki, dünya iqtisadiyyatının qloballaşması dünya ticarətinin həcminin artmasına səbəb olmuşdur. Qloballaşma prosesinin daha da inkişaf edəcəyi ehtimalı olduğundan, dünya ticarətinin həcmi, xüsusən də onun dəniz komponenti yaxın gələcəkdə artmağa davam edəcəkdir. İqtisadiyyatın qloballaşması və ticarətin inkişafı nəticəsində dəniz nəqliyyatı xidmətlərinə tələbat artacaq.

Beynəlxalq ticarət getdikcə daha çox ölkələri cəlb edir, yükdaşıma texnologiyalarına, daşıma prosesini müşayiət edən texnoloji və informasiya proseslərinin avtomatlaşdırılmasına və informasiyalaşdırılmasına yeni tələblər və keyfiyyət meyarları formalaşdırır. Konteyner daşımaları qloballaşmanın ümumi tendensiyaları və beynəlxalq ticarətin informasiyalaşdırılması kontekstində inkişaf edir. Yüklərin daşınması üçün konteyner texnologiyası bu gün təkcə dəniz deyil, həm də quru daşımaları daxil olmaqla, nəqliyyat xidmətləri bazarının qloballaşmasını nəzərdə tutur.

Nəqliyyatın inkişafının əsas perspektivli tendensiyalarından biri iriləşdirilmiş yük bölmələri ilə, əsasən konteynerlərdə yük daşımalarının həcminin artmasıdır. Konteynerlərdə daşınan yüklərin həcmi birbaşa mal ticarətinin həcmi ilə bağlıdır.

Beləliklə, sənaye müəssisələrinin xarici bazarlara çıxması məqsədilə beynəlxalq nəqliyyat logistikasını yaxşılaşdırmaq üçün bir sıra ümumi tövsiyələr irəli sürülə bilər:

1. Nəqliyyat xərcləri elə olmalıdır ki, ümumi logistika xərcləri minimal olsun. Bu, nəqliyyat xərclərinin tarazlığına və nəqliyyat xidmətlərinin keyfiyyətinə nail olmaq yolu ilə əldə edilə bilər ki, bunun meyarları ilk öncə daşımanın sürəti və etibarlılığı olmalıdır.

2. Beynəlxalq logistika bir çox problemlərlə üzləşir. Bəziləri milli xüsusiyyətlərə görə şərait fərqliliyindən yaranır və onlara uyğunlaşmaq lazımdır. Digərləri sadə inzibati razılaşmalarla aradan qaldırıla bilər, digərləri gömrük ittifaqlarının yaradılması ilə həll olunur. Müəssisə xarici bazarlara çıxmaq üçün müxtəlif variantlardan istifadə edə bilər. Müəssisə özü məhsullarını ixrac edir və ya yerli distribyutorların xidmətlərindən istifadə edir. Onların hər birinin logistik fəaliyyətin aparılmasının öz üstünlükləri var. Lakin son vaxtlar vahid inteqrasiya olunmuş bazarda qlobal əməliyyatlara doğru tendensiya müşahidə olunur.

3. Multimodal daşıma nəqliyyat xidmətlərinin etibarlılığını artırır, malların maya dəyərini və çatdırılma müddətini azaldır. Bu, müxtəlif nəqliyyat növlərinin inteqrasiyasını, bütün marşrut üzrə yükdaşıma gecikmələrinin minimuma endirilməsini təmin edir.

Beləliklə, müəssisələrin XİF-nin səmərəliliyinin təmin edilməsində nəqliyyat-logistika əməliyyatlarının rolunu təhlil və qiymətləndirdikdən sonra belə qənaətə gəlmək olar ki, nəqliyyat logistikası beynəlxalq əməkdaşlıq sferasıdır. Nəqliyyat logistikası sosial məhsulun həcmini, müştərilərin sayını və bununla da müəssisənin gəlirliliyini artırır.

## Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022, 748 s.
2. Куденко, М. С. Использование логистических систем во внешнеэкономической деятельности / М.С. Куденко, Э. В. Попова // Экономика и маркетинг в XXI веке: проблемы, опыт, перспективы: сборник материалов XV международной научно-практической конференции, Донецк, 22–23 ноября 2018. – С. 252-257.
3. Селиванов А. В., Буркацкий М. А. Роль логистики во внешнеэкономической деятельности промышленных предприятий. Решетневские чтения. 2017, с.530-531
4. Умнов, В. А. Анализ существующих подходов к логистике в аспекте внешнеэкономической деятельности организаций / В. А. Умнов, А. А. Плюхина // Вестник РГГУ. Серия: Экономика. Управление. Право. – 2018. – № 4(14). – С. 74-89



**РЕЗЮМЕ**

**РОЛЬ ТРАНСПОРТНОЙ ЛОГИСТИКИ ВО ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЙ**

***Гусейнова М.С.***

***Ключевые слова:*** *транспорт, логистика, транспортная логистика, внешнеэкономическая деятельность (ВЭД), торговля, грузоперевозки, предприятие, производство*

В статье выяснена роль транспортной логистики в развитии страны и ее предприятий. Изучены преимущества каждого из видов транспорта и логистики во внешнеэкономической деятельности предприятий. Приведена информация об основных видах транспорта, используемых в международных грузоперевозках. В целях облегчения экспорта промышленных предприятий на внешние рынки выдвинуты рекомендации по совершенствованию международной транспортной логистики.

**SUMMARY**
**THE ROLE OF TRANSPORT LOGISTICS IN THE FOREIGN ECONOMIC ACTIVITY OF ENTERPRISES**
***Huseynova M.S.***

***Key words:*** *transport, logistics, transport logistics, foreign economic activity (FEA), trade, cargo transportation, enterprise, production*

The article clarifies the role of transport logistics in the development of the country and its enterprises. The advantages of each type of transport and logistics in the foreign economic activity of enterprises are studied. Information about the main types of transport used in international cargo transportation is given. In order to facilitate the export of industrial enterprises to foreign markets, recommendations were put forward to improve international transport logistics.

# AZƏRBAYCANDA YÜKSƏK TEXNOLOGİYALARIN TƏTBİQİ HESABINA NEFT-KİMYA EMAL MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASI YOLLARI

**İsmayılova Güləndam Şahiddin qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan*
ismayilovagulendam@gmail.com

***Açar sözlər:*** *Azərbaycan, neft-kimya kompleksi, neft-kimya emal müəssisələri, rəqabətqabiliyyətlilik, neft-kimya emal müəssisələrinin rəqabətqabiliyyətlilik problemləri, yüksək texnologiyalar*

Sənaye sektorunun və bütövlükdə ölkə iqtisadiyyatının inkişafı kontekstində neft-kimya sənayesinin rolu şübhəsizdir. Neft-kimya emalı müəssisələri bütövlükdə ölkə iqtisadiyyatının inkişafı üçün əsas ola bilər. Neft-kimya sənayesində istehsal olunan məhsullar gələcəkdə mürəkkəb konstruksiyalar, binalar, tikililər və məişət əşyaları ixtira etmək üçün yüksək texnologiyalı sənayelərdə istifadə edilə bilər. Ona görə də neft-kimya emalı müəssisələrinin yüksək texnologiyaların tətbiqi hesabına rəqabətqabiliyyətliliyinin yüksəldilməsi vacib məsələlərdən biridir. Neft-kimya sənayesinin vəziyyəti və inkişafı milli rəqabət qabiliyyətinin səviyyəsinə, iqtisadi artım tempinə, ölkənin və əhalinin rifahına öz təsirini göstərir [6, s. 403].

Neft-kimya emalı müəssisələrinin rəqabət qabiliyyəti onun inkişaf səviyyəsini və bazarda mövqeyini müəyyən edən mühüm xüsusiyyətdir. Neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin müəyyən edilməsi ilə bağlı ən aktual praktiki vəzifələrə aşağıdakılar aid edilə bilər: onların əmtəə bazarındakı mövqeyinin müəyyənləşdirilməsi, neft-kimya emalı məhsulları ilə yeni bazarlara çıxmaq imkanlarının qiymətləndirilməsi, yeni məhsulların istehsalının təşkili, investisiya fəaliyyəti üçün planların hazırlanması, neft-kimya emalı məüssisələrinin inkişaf etdirilməsi, optimal istehsal proqramının və istehsal güclərindən mümkün istifadə səviyyəsinin müəyyən edilməsi, istehsalın təşkilinin və müəssisənin idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi, real bazar dəyərinin hesablanması və s [5, s. 263].

Neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması innovasiyalar hesabına mümkündür. Müasir şəraitdə innovasiyalar Azərbaycan sənayesinin inkişafında əsas rol oynayır. Elm və texnologiya sahəsində əldə olunan nailiyyətlər iqtisadi artımın dinamikasını və rəqabətqabiliyyətlilik səviyyəsini əvvəlcədən müəyyən edir. İnnovasiyaya həm hadisə, həm iqtisadi həyatda yeni nəyinsə meydana çıxması, həm də iqtisadi effektlər yaradan proses kimi baxmaq olar. Hazırda Azərbaycanda neft-kimya sənayesinin inkişafı ölkə üçün həlledici əhəmiyyət kəsb edir və həm büdcə mexanizmi, həm də dövlətin fəaliyyətinə multiplikativ təsir mexanizmi vasitəsilə regional inkişafın əsaslarından biri kimi çıxış edir.

Neft-kimya müəssisələrinin innovativ fəaliyyətini aktivləşdirmək üçün əsas vəzifələrdən birinə həmin müəssisələrin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi və sənayenin ümumi strukturunda elm tutumlu məhsulların xüsusi çəkisinin artırılmasını təmin edən investisiya və innovasiya siyasətinin həyata keçirilməsi daxildir [8, s. 432]. Hazırda kompleksin müəssisələrinin işgüzar fəallığının artması, əlavə dəyərdə yüksək xüsusi çəkiyə malik innovativ məhsulların buraxılışının xüsusi çəkisinin artması hesabına sənayedə istehsalın həcm və mənfəətini artırmaq mümkündür. Təkcə innovativ məhsul yaratmaq kifayət deyil. O, istehlakçı tərəfindən qəbul edilməli və təqdir edilməli olan rəqabətqabiliyyətli məhsula çevrilməlidir. Buna yalnız istehlakçı nöqteyi-nəzərindən məhsulun alınmasına qərar verərkən onun ən vacib xüsusiyyətlərindən biri olan yüksək keyfiyyətli innovativ aktiv xidmətlərin köməyi ilə nail olmaq olar. Bu xüsusilə yüksək texnologiyalı məhsullar üçün doğrudur. Buna uyğun olaraq, innovativ fəaliyyət, xüsusən də müəssisədə rəqabət mühitini formalaşdıran və müəssisənin rəqabət qabiliyyətini təmin edən mal və xidmətlərin əsas xüsusiyyətlərinə nail olmağa yönəldilməlidir.

Müasir şəraitdə istehsalın səmərəliliyinin və neft-kimya müəssisələrinin innovativ fəaliyyətinin artırılmasına yeni texnologiyalar, rəqabətqabiliyyətli neft-kimya məhsullarının yeni növlərində ifadə olunan innovasiya proseslərinin inkişafı yolu ilə nail olmaq olar. Bunun üçün dövlətin və xarici investorların dəstəyi tələb olunur. Neft-kimya müəssisələrini yüksək innovativ inkişaf səviyyəsinə, rəqabətqabiliyyətli innovativ məhsul hazırlamaq və istehsal etmək qabiliyyətinə çatdırmaq üçün daha çox investisiya, o cümlədən xarici investisiyaların cəlb edilməsi, o cümlədən ən son yerli və xarici texnologiyaların, elmi işlərin tətbiqi vacibdir.

Digər tərəfdən, avadanlıq və texnologiyanın daim yenilənməsi innovasiya prosesini rəqabətqabiliyyətli məhsul istehsalının, daxili və dünya bazarlarında neft-kimya emalı müəssisələrinin mövqelərinin qazanılmasının, qorunub saxlanılmasının, məhsuldarlığının, səmərəliliyinin, innovativ fəallığının artırılmasının əsas şərtinə çevirir. Beləliklə, neft-kimya emalı müəssisələrinin inkişafının elmi-texniki və innovativ sferasında əsas məqsədlər resursa qənaət edən yüksək səmərəli texnologiyaların işlənib hazırlanmasına və tətbiqinə, elmi-texniki innovasiyalara tələbatın artırılmasına yönəlmiş innovativ fəaliyyətin stimullaşdırılması, elmi-tədqiqat sahəsində kadr potensialının inkişafı və neft-kimya kompleksinin hərtərəfli texniki cəhətdən yenidən təchiz edilməsidir. Lakin müəssisədə keyfiyyətli idarəetmə sistemi tətbiq edilmədən buna nail olmaq mümkün deyil. Ona görə də neft-kimya emalı müəssisələrində tətbiq olunan keyfiyyətin idarə edilməsi sisteminə xüsusi diqqət yetirilməlidir [7, s. 310].

Dünya iqtisadi sistemində baş verən qlobal rəqabət mühiti, transformasiyalar neft-kimya sənayesi kimi mütərəqqi istehsal kompleksinin gücləndirilməsini, bu sahədə yeni iqtisadi vasitələrin (məsələn, texnoparkların, xüsusi iqtisadi zonaların və s.) tətbiq edilməsinin və həmin sahənin innovativ əsaslarla inkişafının sürətləndirilməsini zəruri edir. Hazırda demək olar ki, neft-kimya emalı müəssisələri iri məhsuldar qüvvələr və səmərəli istehsal sahələrinə malikdir ki, onlardan tam gücü ilə istifadə olunmalıdır. Bundan əlavə, neft-kimya emalı müəssisələrinin müasir texnologiyalar əsasında fəaliyyətinin gücləndirilməsi və daim modernləşdirilməsi prosesləri sürətləndirilməlidir [1, s. 71].

Neft-kimya emalı sənayesində istehsal olunan məhsulların təkmilləşdirilməsi məqsədilə onların keyfiyyətinə, çeşidinə və buraxılış həcminə ciddi nəzarət olunmalıdır. Neft-kimya emalı sənayesinin rəqabətə davamlı inkişafı bir sıra daxili və xarici amillərdən asılıdır. Xarici amillərə daxildir: bazarda məhsulların rəqabət qabiliyyətini təmin edən xammal və materialların dəyəri əsasında müəssisənin istehsal fəaliyyətinin təşkili; neft-kimya emalı müəssisələrinin uzunmüddətli investisiya layihələrində iştirakı; neft-kimya emalı sənayesinin davamlı inkişafında dövlət investisiyalarından istifadənin stimullaşdırılması; mütəxəssislərin hazırlanması və yenidən hazırlanması prosesinin təkmilləşdirilməsi. Daxili amillərə isə bunlar daxildir: müəssisənin enerji və resursa qənaət edən texnologiyalarının dəfələrlə tətbiqi ilə istehsal; emal məhsullarının istehsalında sərf edilən əmək, material və enerji xərclərinin aşağı səviyyəsi; innovativ texnologiyaların tətbiq hesabına xammalın ehtiyatla emalı; nanotexnologiyaların tətbiqi və s [2, s. 108].

Neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yollarından biri kimi onun modernləşdirilməsi çıxış edir. Neft-kimya emalı sənayesi daim modernləşdirilməyə ehtiyacı olan əsas sahələrdən biridir. Neft-kimya emalı sənayesinin məqsədyönlü modernləşdirilməsi yüksək keyfiyyətli neft-kimya emalı məhsullarına tələbatın ödənilməsi imkanlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırmaqla, istehsalda yüksək əlavə dəyərli məhsulların payını artırmaqla ölkə iqtisadiyyatının sabitliyinin təmin edilməsinə əhəmiyyətli töhfə verə bilər. Bunun üçün neft-kimya emalı müəssisələrinin modernləşdirilməsinin optimal sxem və mexanizmlərinin seçilməsi və onların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması ilə bağlı bir çox məsələlərin həlli tələb olunur. Neft-kimya emalı sənayesinin texnoloji modernləşdirilməsini stimullaşdıran və onun səmərəliliyinin artırılmasını təmin edən şərait və amillərin müəyyən edilməsinə və təhlilinə diqqət yetirilməsi bu baxımdan əhəmiyyətlidir [4, **s. 3].** Neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün strateji istiqamət kimi məhz müasir yüksək texnologiyalar sisteminin formalaşmasına əsaslanmaqla modernləşdirilməsidir. Ümumiyyətlə, neft-kimya emalı müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması üçün müasir yüksək texnologiyalar sisteminin formalaşmasına əsaslanan modernləşdirilməsi onların iqtisadi inkişafının lazımi tempini və keyfiyyətini təmin etməyə imkan verir. Çünki, neft-kimya emalı müəssisələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində klasterlərin rolu da vardır. Neft-kimya xammalı potensialından istifadənin səmərəliliyinin artırılması və yüksək əlavə dəyərə malik bir sıra emal mərhələlərini birləşdirən mexanizmlərindən biri kimi məhz innovativ-ərazi klasterləri çıxış edir. Klasterlərin inkişafı iri müəssisələrlə kiçik və orta müəssisələrin səmərəli qarşılıqlı əlaqəsinə əsaslanır [3, s. 236].

Rəqabətqabiliyyətli neft-kimya emalı müəssisələri üçün ilkin şərtlər innovativ texnologiyaların istifadəsi, klasterlərin formalaşdırılması, dövlət-özəl tərəfdaşlıq, investisiya fəaliyyəti üçün maliyyə və vergi güzəştləri, habelə müasir informasiya-kommunikasiya texnologiyaları alətlərindən səmərəli istifadədir. Ona görə də neft-kimya müəssisələri xarici amillərin təsiri ilə yanaşı, xarici iqtisadi fəaliyyət çərçivəsində

fəaliyyət göstərərək idarəetmənin səmərəliliyinin yüksəldilməsində əsas amil kimi avtomatlaşdırılmış informasiya sistemləri və texnologiyalarından yüksək səmərəli istifadəni təmin etməlidirlər.

Beləliklə, neft-kimya emalı müəssisələrinin yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətliliyinin artırılması və inkişafının əsas prioritetləri bunlardır:

- bazarda tələbat olan neft-kimya kompleksinin məhsullarının istehsalı üçün mövcud olanların modernləşdirilməsi və yeni istehsal güclərinin yaradılması;
- kompleksin müəssisələrinin karbohidrogen xammalı ilə stabil təminatı;
- qeyri-ənənəvi neft və qaz ehtiyatlarının, biokütlənin emalı texnologiyalarının, polimer materialların təkrar emalının inkişafı yolu ilə neft-kimya emalı sənayesinin xammal bazasının şaxələndirilməsi;
- kompleksin müəssisələrini xammalla təmin etmək və hazır məhsulların istehlakçılara daşınması üçün infrastrukturun inkişafı;
- karbohidrogen ehtiyatlarının dərindən emalı sektorlarının formalaşdırılması məqsədilə kiçik və orta sahibkarlığın infrastrukturunun inkişafı;
- neft-kimya sənayeisndə klasterlərinin əksər müəssisələrin kompleks problemlərinin həlli üçün istifadəsi məqsədilə regionlararası əməkdaşlığın inkişafı, o cümlədən infrastrukturun inkişafı, elmi potensial və əmək resursları ilə təminat ilə bağlı və s.

## Ədəbiyyat


1. Əliyev, Ş.T. Azərbaycanın kimya və neft-kimya kompleksi: potensialın qiymətləndirilməsi və yenidən qurulması istiqamətləri. Bakı: Elm və təhsil, 2012, 156 s.
2. Səmədova, T. Rəqabət qabiliyyətinin yüksəldilməsində innovasiyanın rolu. İpək yolu, 2017, №3, s.106-113.
3. Галиуллина, Л.И. Инновационное развитие химической и нефтехимической промышленности как фактор повышения отраслевой конкурентоспособности. Казанский национальный исследовательский, 2014, с. 236-238.
4. Золотухина, Т.В. Организационно-экономическое обеспечение модернизации предприятий нефтеперерабатывающей промышленности. Дисс. к.э.н. Нижний Новгород, 2014, 27 с.
5. Тертышник, М.И. Оценка конкурентоспособности нефтехимических предприятий / М.И.Тертышник // Азимут научных исследований: экономика и управление. – 2021. – Т. 10. – № 4(37). – С. 263-266.
6. Шарапов, А.Р. Адаптивное управление как фактор конкурентоспособности предприятий нефтехимической отрасли / А.Р.Шарапов, А.А.Гилязова // Вестник Казанского технологического университета. – 2012. – Т. 15. – № 8. – С. 403-409.
7. Шинкевич, А.А. Управление качеством инноваций в нефтехимической промышленности / А.А.Шинкевич, В.Р.Медведева, Р.Р.Халитов // Вестник Казанского технологического университета. – 2014. – Т. 17. – № 21. – С. 305-311.
8. Aliyev, Sh.T. Strategic role of Sumgayit in the development of petrochemical industry of Azerbaijan / The International Conference on Actual Problems of Chemical Engineering - APCE 2020. - Azerbaijan State of Oil and Industry University. 24-25 december 2020. p.430-435.


**РЕЗЮМЕ**

**ПУТИ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ НЕФТЕХИМИЧЕСКИХ ПРЕДПРИЯТИЙ НА ОСНОВЕ ВЫСОКИХ ТЕХНОЛОГИЙ В АЗЕРБАЙДЖАНЕ**


***Исмаилова Г.Ш.***



***Ключевые слова:*** *Азербайджан, нефтехимический комплекс, нефтехимические перерабатывающие предприятия, конкурентоспособность, проблемы конкурентоспособности нефтехимических перерабатывающих предприятий, высокие технологии*



В статье рассматриваются пути повышения конкурентоспособности нефтехимических предприятий Азербайджана за счет интенсивного использования высоких технологий в современных условиях. Обобщены вопросы интенсивного применения высоких технологий в современный период. Рассмотрена важность конкурентоспособности в повышении объёма и обеспечении эффективности нефтехимических перерабатывающих предприятий. Подготовлен ряд рекомендаций и даны предложения по повышению конкурентоспособности предприятий нефтехимического комплекса, который является одним из важнейших в нефтегазовом секторе страны.

**SUMMARY**
**WAYS TO INCREASE THE COMPETITIVENESS OF PETROCHEMICAL ENTERPRISES BASED ON HIGH TECHNOLOGIES IN AZERBAIJAN**
***Ismayilova G.Sh.***

***Key words:*** *Azerbaijan, petrochemical complex, petrochemical processing enterprises, competitiveness, problems of competitiveness of petrochemical processing enterprises, high technologies*

Ways to increase the competitiveness of Azerbaijan's petrochemical enterprises due to the intensive use of high technologies in modern conditions are investigated in the article. The importance and the issues of intensive use of high technologies in the current period are summarized. The significance of competitiveness in increasing the volume and ensuring the efficiency of petrochemical processing enterprises is considered. Recommendations and proposals to increase the competitiveness of enterprises of the petrochemical complex, which is one of the most important in the country's oil and gas sector are given in the end.

# AZƏRBAYCANDA MİKRO, KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN VƏZİYYƏTİ VƏ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

**İsmayılova Lyudmila Famil qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
lyuda.ismayilova.75@mail.ru

***Açar sözlər:*** *sahibkarlıq, sahibkarlıq subyektləri, iqtisadi rayonlar, sektor, iqtisadiyyatın şaxələndirilməsi*

Ölkəmizdə iqtisadi artımın və iqtisadiyyatın şaxələndirilməsinin əsas mənbəyi və göstəricisi kimi mikro, kiçik və orta sahibkarlığın inkişaf səviyyəsi və miqyası çıxış edir. Qeyd etməliyik ki, hər bir inkişaf etmiş ölkənin iqtisadiyatının əsasında kiçik və orta biznes durur. Bu isə səbəbsiz deyildir. Belə ki, müvafiq sahə ölkənin ictimai həyatında əhalinin iştirak etməsi ilə bağlı imkanlarını genişləndirir, sağlam rəqabəti formalaşdırır, sosial-iqtisadi sabitliyə şərait yaradır və son nəticə etibarilə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə səbəb olur. Sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və ya iri olduğunun müəyyən olunması üzrə bir sıra kriteriyalar vardır ki, onların da sayı çoxdur. Buna baxmayaraq təcrübədə ən çox diqqət çəkən kriteriyalar həmin subyektlərdə çalışan işçilərin orta sayı və illik dövriyyənin həcmidir. Qeyd olunan sektorun inkişaf məsələlərini və xüsusiyyətlərini aşkar etmək üçün həmin sektorun cari vəziyyətini və inkişaf istiqamətlərini qiymətləndirmək lazımdır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektləri iki qrupda birləşir. Bunlardan biri fərdi sahibkarlar, digəri mikro, kiçik və orta müəssisələrdir. Fərdi sahibkar dedikdə, hüquqi şəxs yaratmadan müəssisənin yeganə sahibi olanlar başa düşülür.

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin cari vəziyyətini qiymətləndirərkən onların iqtisadi fəaliyyətin növləri üzrə bölgüsü və dinamikası, eləcə də regionlar üzrə bölgüsü diqqət çəkir. Bu məsələlər haqqında əsas statistik informasiya mənbələri Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin apardığı müəssisələrin ümumi və seçmə müşahidələridir .

***Cədvəl 1.***

**2018-2021-ci illər üzrə Azərbaycanda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı [1]**

| İllər | Sahibkarlıq subyektlərinin ümumi sayı | Mikro sahibkarlıq subyektlərinin sayı | Kiçik sahibkarlıq subyektlərinin sayı | Orta sahibkarlıq subyektlərinin sayı |
|---|---|---|---|---|
| 2018 | 244883 | 237815 | 4930 | 2138 |
| 2019 | 271304 | 262622 | 5956 | 2726 |
| 2020 | 316370 | 307717 | 5943 | 2710 |
| 2021 | 355906 | 346371 | 6856 | 2879 |

Cədvəl 1-in məlumatları əsasında aparılan hesablamalar göstərir ki, sahibkarlıq subyektlərinin ümumi sayı 2018-ci illə müqayisədə 2019-cu ildə 10,8%, 2019-cu illə müqayisədə 2020-ci ildə 16,6%, 2020-ci illə müqayisədə 2021-ci ildə 12,5% artmışdır. 2018-ci ildə bütün sahibkarlıq subyektlərinin tərkibində mikro sahibkarlıq subyektlərinin payı 97,1%, kiçik sahibkarlıq subyektlərinin payı 2%, orta sahibkarlıq subyektlərinin payı 0,9% təşkil etmişdir. 2019-cu ildə bu göstəricilər uyğun olaraq 96,8%, 2,2% və 1% təşkil etmişdir. 2020-ci ildə yenə də bu göstəricilər müvafiq olaraq 97,3%, 1,9% və 0,8% olmuşdur. Nəhayət, 2021-ci ildə bütün sahibkarlıq subyektlərinin tərkibində mikro sahibkarlıq subyektlərinin payı 97,3%, kiçik

sahibkarlıq subyektlərinin payı 1,9% və orta sahibkarlıq subyektlərinin payı isə 0,8% təşkil etmişdir. Hesablamalar göstərir ki, bütün sahibkarlıq subyektlərinin tərkibində istər mikro, istər kiçik, istərsə də orta sahibkarlıq subyektlərinin payı elə də ciddi dəyişikliyə uğramamışdır.

*Cədvəl 2.*

**2020-2021-ci illərdə Azərbaycanda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayının iqtisadi rayonlar üzrə bölgüsü [3]**

| Göstəricilər | 2020 | | | 2021 | | |
|---|---|---|---|---|---|---|
| | Mikro | kiçik | orta | Mikro | kiçik | orta |
| Ölkə üzrə cəmi: | 307717 | 5943 | 2710 | 346171 | 6856 | 2879 |
| Bakı şəhəri | 145568 | 4130 | 1700 | 167655 | 4788 | 1843 |
| Naxçıvan MR | 8330 | 167 | 118 | 8064 | 173 | 120 |
| Abşeron-Xızı iqtisadi rayonu | 27944 | 394 | 183 | 31804 | 478 | 195 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 6855 | 65 | 36 | 7405 | 76 | 37 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 14822 | 130 | 92 | 16825 | 167 | 86 |
| Qarabağ iqtisadi rayonu | 11854 | 114 | 51 | 13498 | 129 | 52 |
| Qazax-Tovuz iqtisadi rayonu | 13175 | 133 | 64 | 14155 | 129 | 70 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 11418 | 124 | 73 | 12248 | 136 | 78 |
| Lənkəran-Astara iqtisadi ray. | 16861 | 141 | 72 | 19704 | 164 | 70 |
| Mərkəzi Aran iqtisadi rayonu | 14902 | 158 | 79 | 15434 | 178 | 90 |
| Mil-Muğan iqtisadi rayonu | 9573 | 101 | 63 | 10253 | 112 | 57 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 15541 | 147 | 15 | 16675 | 183 | 97 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 1113 | 28 | 95 | 1537 | 38 | 12 |
| Şirvan-Salyan iqtisadi rayonu | 9761 | 111 | 69 | 10914 | 105 | 72 |

Cədvəl 2-nin məlumatlarından istifadə etməklə aparılan hesablamalar göstərir ki, 2020-ci ildə ölkə üzrə mikro sahibkarlıq subyektlərinin tərkibində Bakı şəhəri 47,3%-lə birinci yerdə durur. İkinci yerdə Abşeron-Xızı iqtisadi rayonu 9,1%, üçüncü yerdə isə 5,5% xüsusi çəki ilə Lənkəran-Astara iqtisadi rayonu durur. 2021-ci ildə bu göstəricilər Bakı şəhəri üzrə 48,4%, Abşeron-Xızı iqtisadi rayonu üzrə 9,2% , Lənkəran-Astara iqtisadi rayonu üzrə isə 5,7% olmuşdur. 2020-ci ildə ölkə üzrə kiçik və orta sahibkarlıq subyektlərinin tərkibində də Bakı şəhəri birinci yerdə, Abşeron-Xızı iqtisadi rayonu ikinci, Lənkəran-Astara iqtisadi rayonu üçüncü yerdə durur.

Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vəziyyətinin qiymətləndirilməsi zamanı diqqət çəkən digər məsələlərdən biri də mülkiyyət növləri üzrə müvafiq subyektlərin sayı göstəricisidir.

Cədvəl 3-ün məlumatlarından görünür ki, 2020-ci ildə bütün mikro, kiçik və orta sahibkarlıq subyektlərinin tərkibində qeyri-dövlət mülkiyyətindən olan subyektlərin payı xeyli yüksək olmuşdur. Belə ki, bu pay 99,4% olmuşdur. Dövlət mülkiyyətindən olan subyektlərin payı isə 0,6% təşkil etmişdir. 2021-ci ildə qeyd olunan göstəricilərin xüsusi çəkisi dəyişməmişdir. Qeyri-dövlət mülkiyyətindən olan sahibkarlıq subyektlərinin tərkibində isə ən yüksək çəki xüsusi mülkiyyətdən olan subyektlərə məxsus olmaqla hər iki dövrdə 98,9% təşkil etmişdir.

Cədvəl 3-ün məlumatlarından da göründüyü kimi hər iki dövrdə bütün mikro, kiçik və orta sahibkarlıq subyektlərinin tərkibində mikro sahibkarlıq subyektlərinin sayı üstünlük təşkil edir. Bunun səbəbi isə onunla izah oluna bilər ki, mikro sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün həm az sayda işçi, həm də ilkin kapital kimi çox da böyük olmayan məbləğdə vəsait tələb olunur.

*Cədvəl 3.*

**2020-2021-ci illərdə Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin mülkiyyət növləri üzrə bölgüsü [2]**

| Mülkiyyət növləri üzrə sahibkarlıq subyektlərinin bölgüsü | Cəmi | 2020 | | | Cəmi | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | mikro | kiçik | orta | | mikro | kiçik | Orta |
| Cəmi | 316370 | 307717 | 5943 | 2710 | 355906 | 346171 | 2879 | 6856 |
| Dövlət mülkiyyəti | 1811 | 782 | 414 | 615 | 1808 | 800 | 419 | 589 |
| Qeyri-dövlət mülkiyyəti o cümlədən: | 314559 | 306935 | 5529 | 2095 | 354098 | 345371 | 2290 | 6437 |
| Xüsusi mülkiyyət | 311296 | 304548 | 4960 | 1788 | 350443 | 342691 | 1957 | 5795 |
| Xarici mülkiyyət | 2519 | 1890 | 427 | 202 | 2822 | 2117 | 222 | 483 |
| Birgə mülkiyyət | 744 | 497 | 142 | 105 | 833 | 563 | 159 | 111 |

Digər məsələlərdən biri də mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyətin növləri üzrə bölgüsüdür.

**Cədvəl 4**

**2020-2021-ci illərdə Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növlərinə görə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı [3]**

| İqtisadi fəaliyyət növləri | Cəmi | 2020 | | | Cəmi | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | mikro | kiçik | orta | | mikro | kiçik | Orta |
| İqtisadi fəaliyyət növləri üzrə cəmi | 316370 | 307717 | 5943 | 271 0 | 355906 | 346171 | 6856 | 2879 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq | 3264 | 2849 | 277 | 138 | 3527 | 3096 | 293 | 138 |
| Sənaye | 14007 | 12583 | 780 | 644 | 19490 | 17942 | 889 | 659 |
| Mədən çıxarma sənayesi | 713 | 597 | 76 | 40 | 880 | 761 | 80 | 39 |
| Emal sənayesi | 12447 | 11490 | 598 | 359 | 17368 | 16295 | 697 | 376 |
| Elektrik enerjisi, , qaz və buxar istehsalı, bölüşdürülməsi | 261 | 92 | 34 | 135 | 294 | 118 | 48 | 128 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 586 | 404 | 72 | 110 | 948 | 768 | 64 | 116 |
| Tikinti | 11670 | 10447 | 770 | 453 | 14658 | 13369 | 837 | 452 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 103707 | 101141 | 1925 | 641 | 119306 | 116246 | 2285 | 775 |
| Nəqliyyat və anbar təsərrüfatı | 65987 | 65527 | 285 | 175 | 71616 | 71108 | 336 | 172 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 20513 | 20286 | 149 | 78 | 21693 | 21404 | 192 | 97 |
| İnformasiya və rabitə | 6939 | 6605 | 221 | 113 | 7739 | 7348 | 269 | 122 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 7282 | 7021 | 216 | 45 | 8253 | 7975 | 221 | 57 |
| Təhsil | 6358 | 6223 | 91 | 44 | 7161 | 6970 | 149 | 42 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 3793 | 3461 | 241 | 91 | 3945 | 3582 | 277 | 86 |
| Digər sahələr | 72850 | 71574 | 988 | 288 | 78518 | 77131 | 1108 | 279 |

Cədvəl 4-ün məlumatlarından aydın görünür ki, 2020-2021-ci illərdə Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə bütün mikro, kiçik və orta sahibkarlıq subyektlərinin tərkibində ən yüksək xüsusi çəkiyə ticarət, nəqliyyat vasitələrinin təmiri, ondan sonra isə nəqliyyat və anbar təsərrüfatı malikdir. Belə ki, bu xüsusi çəki ticarət, nəqliyyat vasitələrinin təmiri fəaliyyət növü üzrə 2020-ci ildə 32,8%, nəqliyyat və anbar təsərrüfatı fəaliyyət növü üzrə 20,9% təşkil etmişdir. 2021-ci il üzrə bu çəki müvafiq olaraq 33,5% və 20,1% təşkil etmişdir. 2020-ci ildə bütün iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin

tərkibində ticarət, nəqliyyat vasitələrinin təmiri fəaliyyət növü üzrə mikro sahibkarlıq subyektlərinin xüsusi çəkisi 97,5% (101141:103707), 2021-ci ildə isə 97,4% (116246:119306) təşkil etmişdir. Nəqliyyat və anbar təsərrüfatı fəaliyyət növü üzrə bu göstərici hər iki dövrdə 99,3% təşkil etmişdir.

Beləliklə, müvafiq sahədə aparılan araşdırmalar aşağıdakı bir sıra nəticələrə gəlməyə imkan verir:

- 2018-2021-ci illər ərzində bütün mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı davamlı olaraq artmışdır;
- 2020-2021-ci illərdə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü qeyri-bərabərdir. Belə ki, müvafiq subyektlərin böyük əksəriyyəti Bakı şəhərində cəmləşmişdir.
- 2020-2021-ci illərdə mülkiyyət növlərinə görə müvafiq sahibkarlıq subyektlərinin böyük əksəriyyəti qeyri-dövlət mülkiyyətindədir;
- 2020-2021-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin tərkibində iki sahə: ticarət, nəqliyyat vasitələrinin təmiri və nəqliyyat, anbar təsərrüfatı nisbətən daha yüksək xüsusi çəkiyə malikdir. Fikrimizcə, bu da həmin sahələrdə kapitalın dövriyyəsinin sürətli olması və ilkin kapital olaraq nisbətən aşağı məbləğin tələb olunması ilə bağlıdır.

**Ədəbiyyat**

1. www.stat.gov.az
2. Azərbaycan rəqəmlərdə, statistik məcmuə, Bakı, Narıncı nəşriyyat evi MMC, 2022, 748 s.
3. Azərbaycanın statistik göstəriciləri, ARDSK, Bakı, Səda nəşriyyatı, 2021, 752 s.

**РЕЗЮМЕ**
**НЕКОТОРЫЕ ВОПРОСЫ СОСТОЯНИЯ И РАЗВИТИЯ МИКРО, МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА**
***Исмаилова Л.Ф.***

***Ключевые слова:*** *предпринимательство, предпринимательские субъекты, экономические районы, сектор, диверсификация экономики*

Диверсификация экономики страны и повышение ее конкурентоспособности в большей степени зависит от развития предпринимательского сектора. Поддержка устойчивого развития микро-, малого и среднего предпринимательства в крупных масштабах на уровне страны и региона выступает приоритетным направлением экономической политики государства. В статье говорится о некоторых вопросах, отражающих состояние и развитие микро-, малого и среднего предпринимательства в Азербайджане. Здесь рассматриваются вопросы количества соответствующих хозяйствующих субъектов, их динамики, распределения по экономическим районам и формам собственности.

**SUMMARY**
**MIKRO, SMALL AND MEDIUM ENTERPRISE IN AZERBAIJAN SOME ISSUES OF ITS STATE AND DEVELOPMENT**
***Ismailova L.F.***

***Key words:*** *agricultural sector, innovation, technological transfer, management object, economic development, risk, cluster*

Diversification of the country's economy and increasing its competitiveness largely depends on the development of the business sector. Support for the sustainable development of micro, small and medium-sized businesses on a large scale at the level of the country and the region is a priority in the economic policy of the state. The article talks about some issues that reflect the state and development of micro-, small and medium-sized businesses in Azerbaijan. Here the issues of the number of relevant economic entities, their dynamics, distribution by economic regions and forms of ownership are considered.

## AZƏRBAYCANIN NEFT-KİMYA SƏNAYESİNİN İXRAC POTENSİALININ ARTIRILMASINDA İDARƏETMƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏHƏMİYYƏTİ

**Kərimli Faiq Xanoğlan oğlu**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
*karimli.faig@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan, neft-kimya sənayesi, ixrac potensialı, idarəetmə mexanizmi, idarəetmə mexanizminin təkmilləşdirilməsi, idarəetmə mexanizminin səmərəliliyinin təmin olunması.*

Müasir dövrdə Azərbaycanın neft-kimya sənayesinin inkişafının əsas xüsusiyyətlərindən biri onun miqyasının artmasıdır ki, bu da onun uzunmüddətli və sabit inkişafının əsasını qoyur və iqtisadiyyatda struktur dəyişikliklərinə əhəmiyyətli təsir göstərir, milli iqtisadiyyatın inkişafına və rəqabət qabiliyyətinin səviyyəsinə təsir göstərir və ümumilikdə iqtisadiyyatın artım tempini təmin edir. Neft-kimya sənayesi milli iqtisadiyyatın aparıcı sahələrindən biri kimi təkmilləşdirilmiş idarəetmə üsullarının və qabaqcıl istehsal texnologiyalarının tətbiqini tələb edir. Müəssisələrin idarə edilməsi üçün optimal təşkilati strukturun layihələndirilməsi, səmərəli istehsal sistemlərinin yeni resurslarından istifadə etməklə texnoloji proseslərin səviyyəsinin yüksəldilməsi, neft-kimya istehsalının idarə edilməsinin mütərəqqi üsullarının mənimsənilməsi həmin sənayenin rəqabət qabiliyyətinin təminatı baxımından önəmli şərtdir.

Yeni çağırışlar şəraitində neft-kimya sənayesinin əsas xüsusiyyətlərindən biri onun idarəetmə sistemi ilə bağlıdır. Əgər idarəetmə sistemi düzgün qurularsa, bu həmin sənaye sahəsinin inkişafına müsbət istiqamətdə təsir göstərər. Odur ki, yeni çağırışlar şəraitində ölkədə neft-kimya sənayesinin inkişafı məqsədilə onun idarəetmə sisteminin təkmilləşdirilməsi aktual problemlərdəndir. İdarəetmə sistemlərinin təkmilləşdirilməsi probleminin aktuallığı bir sıra səbəblərlə bağlıdır:

1. Əmtəə və xidmətlərin istehsalının səmərəliliyinin yüksəldilməsində idarəetmə amilinin artan əhəmiyyəti, təşkilati, informasiya və insan resurslarından daha dolğun istifadənin tələb olunması.

2. Əmək məhsuldarlığının artması əsasında idarəetmə fəaliyyətinin intensivləşdirilməsi zərurətinin meydana çıxması.

3. İdarəetmənin keyfiyyətinə tələblərin artması.

4. İdarəetmə heyətinin informasiya yükünün əhəmiyyətli dərəcədə artması.

5. İdarəetmə prosesinin, təşkilati strukturun mürəkkəbləşməsi və müəssisə tərəfindən alınan məlumatların əhəmiyyətli dərəcədə artması [5, s.1238].

Hazırda neft-kimya sənayesinin aktual problemlərindən biri resurslardan istifadənin optimallaşdırılmasına, tullantıların minimuma endirilməsinə, əməyə qənaətə yönəlmiş idarəetmə sisteminin formalaşdırılmasıdır ki, bu da resurs qənaətinin idarə edilməsi üçün təşkilati strukturların inkişafı strategiyasının hazırlanmasını tələb edir. Artan rəqabət şəraitində idarəetmə strategiyası istənilən müəssisənin həyatının və uğurunun əsasını təşkil edir. Müəssisənin idarəetmə strategiyası kommersiya və istehsal fəaliyyətinin inkişafı üçün prioritetləri müəyyən edən uzunmüddətli plan kimi başa düşülür. Strategiya təşkilat üçün xüsusi və davamlı davranış xəttini və mövcud resurslar dəstindən istifadəni müəyyən edir.

Neft-kimya müəssisələri bazarda aktiv inkişafı təmin etmək üçün rəqabətqabiliyyətlilik sahəsində effektiv həllər tələb edir. Sürətlə dəyişən bazar mühitində idarəetmə sistemi müvafiq idarəetmə qərarlarının vaxtında və keyfiyyətli qəbulunu təmin etməlidir. Effektiv kadr idarəetmə sisteminin yaradılması məqsədilə neft-kimya müəssisələri üçün strategiyanın formalaşdırılması məsələləri xüsusilə aktuallaşır. Neft-kimya sənayesində istehsal həcminin artması, təsərrüfat əlaqələrinin genişlənməsi şəraitində kadrların idarəetmə sistemi daha da mürəkkəbləşir. Belə şəraitdə həmin sənaye sahəsində idarəetmənin məqsəd və vəzifələri hər bir işçi kateqoriyası üçün onların yerinə yetirdiyi funksiyalara uyğun olaraq müəyyənləşdirilməlidir [1, s.9].

Neft-kimya sənayesinin inkişafı onun idarəetmə sistemindən xeyli dərəcədə asılıdır. Odur ki, bu sektorda idarəetmə sisteminin təkmilləşdirilməsi tələb olunur. Bunun üçün ilk öncə, həmin sənayedə idarəetmə heyətinin strukturu optimallaşdırılmalıdır. İdarəetmə heyətinin strukturunun təşkili elə optimallaşdırılmalıdır ki, gələcəkdə normal fəaliyyət göstərə bilsin. Odur ki, həmin sənaye sektorunda idarəetmə strukturunu tətbiq edərkən aşağıdakı zəruri tələblər nəzərə alınmalıdır: idarəetmə kadrları çevik və ixtisaslı işçilərdən ibarət olmalıdır; kadrların idarə edilməsi strukturu optimal olmalıdır; idarəetmə strukturuna daxil olan kadrlar bütün fəaliyyət sahələrində qənaətcil olmalıdır; kadrların idarə edilməsi aparatının etibarlı işi təmin edilməlidir və s.

Ümumiyyətlə, kadrların səmərəli idarə edilməsi onların real iqtisadiyyatın sektorları və regionları arasında bölüşdürülməsi və istifadəsini, həmin sektorlarda işçi qüvvəsinə olan tələbatın müəyyənləşdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi üzrə tədbirlərin görülməsini özündə əks etdirir [3, s.349]. Təkcə neft-kimya sənayesi deyil, həm də bütün sənaye sahələrinin iqtisadi səmərəliliyi onlarda işləyən fəhlə və qulluqçuların idarə edilməsinin səmərəliliyindən asılıdır. Məhz buna görə də sənaye müəssisələrində kadrların idarəetmə sisteminin səmərəliliyinin artırılması və təkmilləşdirilməsi bu gün ən aktual problemdir. Bu problemlərin həlli xeyli dərəcədə idarəetmə qərarlarından asılıdır.

İdarəetmə qərarı, müəssisənin vəzifə və məqsədlərinə nail olmağı təmin edən məqsədyönlü, bir-biri ilə əlaqəli, məntiqi ardıcıllıqdan ibarət olan idarə heyətinin ən vacib iş növüdür. İdarəetmə qərarı məqsədin seçilməsi vasitəsi, prosesi və nəticəsi, habelə ona nail olmaq üsuludur. İdarəetmə prosesinin metodologiyasında idarəetmə qərarının qəbulu müxtəlifdir. Bunlar maliyyə resurslarının inkişafı, marketinqi,

istehsalı, bölüşdürülməsi, eləcə də idarəetmə prosesində planlaşdırma, təşkiletmə, motivasiya, nəzarət, koordinasiya ilə bağlı qərarlar ola bilər.

İdarəetmə qərarlarının qəbul edilməsi prosesi sistemli yanaşma metoduna əsaslanır ki, bu da bütün sistemin fəaliyyətini təkcə onun hissələrinin strukturunun və onlar arasındakı əlaqələrin təhlili əsasında deyil, həm də sistemə nüfuz etməklə başa düşməyə imkan verir. Müəssisənin mənfəəti, onun məhsul və ya xidmətlərinə tələbat, müəssisənin idarə edilməsi və fəaliyyətinin səmərəliliyi, kadrların motivasiyası və s. qəbul edilən idarəetmə qərarlarından asılıdır.

Odur ki, neft-kimya sənayesində idarəetmə qərarlarını hazırlayarkən və qəbul edərkən onların keyfiyyəti xüsusilə diqqət mərkəzində saxlanılmalıdır ki, bu da əsasən yekun nəticəni müəyyənləşdirir və aşağıdakı amillərdən asılıdır: ilkin məlumatın keyfiyyəti, onun etibarlılığı, kifayət etməsi, müdaxilədən qorunması və səhvlər, təqdimat forması; qəbul edilən qərarın optimal və ya rasional xarakteri; qəbul edilmiş qərarların vaxtında verilməsi; qəbul edilən qərarların mövcud idarəetmə mexanizminə uyğunluğu; qərarların hazırlanmasında, qəbul edilməsində və onların reallaşdırılmasının təşkilində iştirak edən kadrların ixtisasları; idarə olunan sistemin qəbul edilmiş qərarları icra etməyə hazır olması və s.

Qeyd edək ki, hər gün on minlərlə mütəxəssis və vəzifəli şəxs minlərlə müəssisə və təşkilatda idarəetmə qərarlarının formalaşdırılmasında iştirak edir. Bu qərarların əksəriyyəti yerli əhəmiyyətlidir, lakin bəziləri bütün ölkənin iqtisadiyyatına həlledici təsir göstərir. Ölkənin və onun istənilən vətəndaşının taleyi qəbul edilən qərarların keyfiyyətindən asılıdır [2, s.19]. İdarəetmə səviyyəsi nə qədər yüksək olarsa, texniki-iqtisadi göstəricilərin, psixoloji, sosial və digər aspektlərin dəyişməsi ilə bağlı qəbul edilən və reallaşdırılan qərarların əhəmiyyəti bir o qədər böyük olur.

Neft-kimya sənayesi həm mürəkkəb iri istehsal sistemləri, həm də açıq iqtisadi sistemlər hesab edilə bilər. Bu o deməkdir ki, onlara təsir edən amillər müxtəlifdir. Odur ki, həmin sektorda yüksək fəaliyyət və idarəetməyə nail olmaq məqsədilə bu amillərin təsirini təhlil etmək lazımdır. Beləliklə, neft-kimya sənayesində idarəetmə qərarları problemin həlli üçün tələblərə cavab verən və həmin sənaye müəssisələrinin məqsədlərinə çatmasına töhfə verən ən optimal variantın (təklif olunan alternativlərdən) seçilməsi prosesi kimi başa düşülməlidir. Neft-kimya sektoruna daxil olan müəssisələrin rəqabət qabiliyyətinə nail olunması məqsədilə müəssisə rəhbərliyi vasitəsilə innovasiyaların tətbiqinə və inkişafına kömək edəcək şərait yaratmaq lazımdır. Azərbaycanda həmin sahə müəssisələrinin rəqabət qabiliyyətinə nail olunması məqsədilə onları innovativ şəkildə inkişaf etdirmək lazımdır [6, s.102].

Neft-kimya sənayesi müəssisələrinin təşkilati strukturunun layihələndirilməsi idarəetmə sisteminin səmərəliliyini artırmaq vasitələrindən biridir ki, bu da mürəkkəb və vaxt aparan prosesdir. Yerli sənaye müəssisələrində idarəetmənin təşkilati strukturunun elmi əsaslarla yenidən qurulması, işlənməsi və ya layihələndirilməsi zərurəti, yeni idarəetmə standartlarına keçid, ixtisaslı menecerlərin çatışmazlığı müəssisə üçün optimal təşkilati strukturun seçilməsi probleminin əhəmiyyətini və aktuallığını müəyyən edir. Təşkilati strukturun hər bir növü öz üstünlükləri və mənfi cəhətlərinə malikdir və konkret müəssisənin inkişaf strategiyasına uyğun olaraq formalaşa bilər.

Neft-kimya sənayesinin inkişafı xeyli dərəcədə onun idarəetməsinin təşkilati strukturunun təkmilləşdirilməsindən asılıdır. İdarəetmənin təşkilati strukturunun təkmilləşdirilməsinin əsas məqsədlərinə daxildir: idarəetmə qərarlarının qəbulunun mərkəzləşdirilməsinin rasional səviyyəsinin təmin edilməsi; idarəetmə qərarlarının qəbulu texnologiyasının təkmilləşdirilməsi, onların əmək intensivliyinin azaldılması; idarəetmənin təşkilati strukturunun parametrlərinin bütün göstəricilərini optimallaşdırmağa imkan verən idarəetmə qərarlarının və digər yeniliklərin hazırlanması, icrası və qəbulu zamanı hüquq və vəzifələrin bölüşdürülməsinin rasionallaşdırılması və s.

Son illər Azərbaycanda neft-kimya sektorunda aparılan islahatların əsas istiqamətlərindən biri onun idarəetmə sisteminin təkmilləşdirilməsidir. Bununla bağlı müxtəlif qanunvericilik aktları qəbul edilmişdir. Belə qanunvericilik aktlarından biri "Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" ölkə prezidentinin sərəncamıdır. Həmin sərəncamın müddəalarının icra edilməsi nəticəsində Azərbaycanın yeni neft strategiyasının uğurla reallaşdırılmasına nail olunmuş, Azərbaycanın enerji təhlükəsizliyinin təminatı istiqamətində önəmli işlər görülmüş, müasir tələblərə uyğun səmərəli idarəetmə sistemi formalaşdırılmışdır [4**]**.

Beləliklə, hesab edirik ki, neft-kimya sənayesinin idarəetmə sisteminin təkmilləşdirilməsinin bir sıra istiqamətləri daha çox diqqət çəkir:

– Neft-kimya sənayesinin idarəetmə proseslərinin avtomatlaşdırılması yolu ilə idarəetmə sisteminin təkmilləşdirilməsi və neft-kimya sənayesinin təşkilati-iqtisadi yolla idarəetmə sisteminin təkmilləşdirilməsi zəruridir;

– Neft-kimya sənayesi Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biridir, onun müəssisələri məhsulların keyfiyyətini artırmaq məqsədilə effektiv idarəetmə üsullarını, yeni istehsal texnologiyalarını tətbiq etməlidirlər;

– Neft-kimya sənayesinin rəqabətqabiliyyətliliyini təmin etmək və istehsalın səmərəli təşkili üçün yeni resurslardan və daxili ehtiyatlardan, əməyin stimullaşdırılması metodlarından istifadə etməklə optimal təşkilati struktur qurmaq və texnoloji səviyyəni yüksəltmək, qabaqcıl idarəetmə üsullarını inkişaf etdirmək lazımdır, bütün bunlar son nəticədə neft-kimya sənayesinin əsasını təşkil edən idarəetmə sisteminin təkmilləşdirilməsi səviyyəsindən asılıdır və s.

## Ədəbiyyat


1. Akın C.N. Sənaye müəssisələrində heyətin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2016, 24 s.
2. Ataşov B.X. İdarəetmənin nəzəri-metodoloji və təcrübi aspektləri. // "Kooperasiya" elmi-praktiki jurnal, №4 (35), 2014, s.19-25.
3. Əliyeva A.Ə. İnsan resurlarının formalaşması və idarə edilməsinin təmzimlənməsi. "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransın materialları, Bakı: UNEC, 2021, s.349-354.
4. Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2 aprel 2010.
5. Попова Д.И. Анализ и совершенствование управленческой деятельности организации / Д. И.Попова // – 2021. – № 31. – С. 1238-1244.
6. Khankishiyev, F.Kh. Ways to increase the economic efficiency of individual entrepreneurship in the petrochemical industry // Audit 2021, 1 (31), s.95-105.



**РЕЗЮМЕ**

**ВАЖНОСТЬ СОВЕРШЕНСТВОВАНИЯ МЕХАНИЗМОВ УПРАВЛЕНИЯ В ПОВЫШЕНИИ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА НЕФТЕХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА**

***Керимли Ф. Х.***

***Ключевые слова:*** *Азербайджан, нефтехимическая промышленность, экспортный потенциал, механизмы управления, совершенствование механизмов управления, обеспечение эффективности механизмов управления*

Исследованы вопросы совершенствования механизмов управления в повышении экспортного потенциала нефтехимической промышленности Азербайджана в современный период. С этой целью исследована существующая сырьевая база и возможности, рассмотрены перспективы развития потенциала нефтехимической промышленности в стране. Обоснована важность повышения экспортного потенциала и расширения производства экспортноориентированной продукции нефтехимической промышленности, которая является одной из важных сфер нефтегазового сектора. Анализированы процессы структурных изменений и форм управления нефтехимической сферы, рассмотрены важнейшие механизмы совершенствования управления этой сферой. Подготовлены рекомендации и даны предложения по совершенствованию механизма управления нефтехимической промышленностью.



**SUMMARY**

**THE IMPORTANCE OF IMPROVING MANAGEMENT MECHANISMS IN INCREASING THE EXPORT POTENTIAL OF THE PETROCHEMICAL INDUSTRY OF AZERBAIJAN**

***Karimli F.Kh.***

***Key words:*** *Azerbaijan, petrochemical industry, export potential, management mechanisms, improvement of management mechanisms, ensuring the effectiveness of management mechanisms*

The issues of improving the management mechanisms in increasing the export potential of the petrochemical industry of Azerbaijan in the modern period are investigated. The existing raw material base and opportunities, prospects for the development of the potential of the petrochemical industry in the country are considered for this purpose. The importance of increasing the export potential and expanding the production of export-oriented products of the petrochemical industry, which is one of the important areas of the oil and gas sector, is justified. The processes of structural changes and forms of management of the petrochemical sphere are analyzed, the most important mechanisms for improving the management of this sphere are considered. Recommendations and proposals to improve the management mechanism of the petrochemical industry are given in the end.

## TƏRSİNƏ LOGİSTİKA ANLAYIŞI VƏ ONUN ŞİRKƏTLƏR BAXIMINDAN ROLU

**Qardaşov Vüqar Lətifağa oğlu**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
*vuqarqardasov98@gmail.com*

***Açar sözlər:*** *logistika, tərsinə logistika, şirkət, təkrar emal, istehsal*

Tərsinə logistika anlayışı 1970-ci illərdə müxtəlif sahələrdə tərsinə kanallar və ya tərsinə axın olaraq göstərilir. 1980-ci ildə isə konseptual olaraq ilk tərsinə logistika anlayışı Lambert və Stock tərəfindən istifadə olunmuşdur. 1992-ci ildə Stock tərəfindən təqdim olunan bir araşdırmada da tərsinə logistika anlayışı tullantıların təkrar emalı, yox edilməsi və təhlükəli maddələrin idarə olunması, resursların təkrar emalı, təkrar istifadəsi məqsədilə istifadə olunan logistikanın bir rolu olaraq ifadə olunmuşdur.

1998-ci ildə ifadə olunan anlayışa görə tərsinə logistika xammal, yarımfabrikat, məmulatların və ya məhsullara aid qablaşdırma materiallarının istehsal, paylama və ya istehlak nöqtələrindən yenidən istehsal müəssisələrinə göndərilməsinin maliyyə baxımından effektiv şəkildə planlaşdırılması, tətbiq olunması və nəzarət edilməsi prosesidir.

Tərsinə logistika istifadə olunmuş, istifadə müddəti keçmiş məhsulların geri toplanması, bu məhsulların yenidən istifadə olunması, təkrar emalı və məhv edilməsi ilə bağlı bütün fəaliyyətlərdir:

**- Birbaşa təkrar istifadə:** Şirkətə geri qaytarılan məhsulda zədə olmadığı və ya heç istifadə olunmadığı təqdirdə məhsula sadə bir baxım sonrası həmin məhsulun yenidən istifadə olunmasıdır.

**- Təmir:** Məhsulda yaranan zədə səbəbilə şirkətə geri qaytarılan məhsulun təmir edilərək müştərilərə çatdırılmasıdır.

**- Məhsul yeniləşdirmə:** Zədələnmiş və ya köhnəlmiş məhsulların hissələrinin dəyişdirilərək yenilənməsidir.

**- Yenidən istehsal:** Məhsulun yenidən istifadə oluna bilən hissələrlə təkrar istehsalıdır.

**- Məhsulun qismən istifadəsi:** Məhsulun yenidən istifadə oluna bilən az saydakı hissələrinin istifadə olunduğu və digər hissələrin başqa məhsullardan çıxardılaraq montajının edildiyi fəaliyyətdir.

**- Təkrar istehsal:** Birbaşa və ya digər üsullarla məhsul hissələrinin istifadə oluna bilmədiyi vəziyyətlərdə bu hissələrin təkrar istehsal müəssisələrinə göndərilərək xammal halına gəlməsinin təmin olunmasıdır [2, s.524].

Təkrar emalda məhsul istifadə olunduqdan sonra xüsusiyyətini itirir və tullantı olaraq dəyərləndirilir. Tullantı hesab olunan məhsullar fiziki və kimyəvi olaraq proseslərdən keçirildikdən sonra xammala çevrilir. Təkrar emala gedən məhsulun xammal olaraq istehsala getməsi ilə resursların lazımsız israfı azalır, tullantıların azalması ilə təbiətə dəyən ziyan azaldılır və təbiət sistemi qorunur [4, s.1827].

**- Yandırılma və basdırılma:** Təkrar istifadəsi və ya təkrar istehsala göndərilməsi mümkün olmayan məhsulların məhv edildiyi fəaliyyətdir.

İrəli istiqamətli və tərsinə logistika mərhələləri dəyərləndirildiyi zaman onlar arasında mövcud olan fərqlər nəzərə çarpır (Sxem 1). İrəli istiqamətli logistika mərhələləri istehsal müəssisələrindən son istifadəçi və ya paylayıcılara doğru olan axını ifadə edərək planlaşdırma, tədarük, sifariş, istehsal, ehtiyatların idarə olunması, daşıma, anbarlama və müştəri xidmətləri kimi başlıca fəaliyyətləri əhatə edir. Tərsinə logistika isə son istehlakçı və ya paylayıcıdan istehsal müəssisələri, təkrar emal müəssisələri və tullantıların atılma mərkəzlərinə doğru olan logistik mərhələləri əhatə edir. Tərsinə logistika mərhələləri aşağıdakılardır:

- istifadə olunmuş məhsulların toplanması;
- müayinə, seçim və sinifləndirilməsi;
- hissələrə ayrılması;
- məhsulun bərpası;
- məhvetmə prosesləri.




***Mənbə:** [2, s.526]*

**Sxem 1. İrəli və tərsinə logistikada məhsulların axın istiqamətləri**

İrəli istiqamətli logistika ilə tərsinə logistika arasında bir sıra fərqlər mövcuddur. Həmin fərqlər aşağıdakılardır:

***Cədvəl.***

**İrəli və tərsinə logistika arasındakı fərqlər**

| **İrəli istiqamətli logistika** | **Tərsinə logistika** |
|---|---|
| Logistika planlaşdırması nisbətən daha asan edilə bilir | Geri qaytarılacaq məhsullardakı müəyyənsizliklərə görə təxmin etmək daha çətindir |
| Bir mərkəz nöqtədən bir çox nöqtəyə doğru daşıma mövcuddur | Fərqli nöqtələrdən tək mərkəzə doğru daşıma mövcuddur |
| Məhsul keyfiyyəti standartdır | Geri qaytarılan məhsulun keyfiyyəti standart deyil |
| Məhsulun paketlənməsi standartdır | Geri qaytarılan məhsulun paketlənməsi adətən zədələnə bilir |
| Məhsulun qiyməti standartdır | Geri qaytarılan məhsulun qiyməti bir sıra səbəblərdən təsirlənə bilir |
| Xərclərə mühasibat sistemləri ilə nəzarət edilir | Tərsinə logistika xərcləri daha az aşkardır |
| Məhsulun həyat dövrünə nəzarət oluna bilir | Qaytarılan məhsulun həyat dövrünə nəzarət daha çətindir |

***Mənbə:** [ 3,s. 114].*

Təbii resursların səmərəli şəkildə istifadəsinin təmin olunması, istifadə olunmuş məhsulların bir sıra proseslərdən sonra yenidən istifadə olunması, tullantıların ətraf mühitə zərərinin minimuma endirilməsi, istifadə müddəti bitmiş məhsulların yığılaraq məhv edilməsi və ya təkrar istifadəsi mövzusundakı hüquqi tənzimləmələr səbəbindən tərsinə logistika müasir dövrdə əsas məsələlərdən biri halına gəlmişdir.

İstifadə olunmuş məhsulların dəyər qazanması ilə yanaşı, qanunvericilik və təlimatlar, istehlakçı şüuru və ətraf mühitə qarşı sosial öhdəliklərin artması kimi səbəblər tərsinə logistikanın dəyər qazanmasında önəmli rol oynamaqdadır.

Bazar və rəqabət şərtləri nəzərə alındığında tərsinə logistikanın şirkətlər üçün önəmli üstünlüklər təklif etdiyini demək mümkündür. Azalan xammal istehlakı, geri qazanılmış materiallara əlavə olunan dəyər və tullantıların azalması səbəbilə müəssisələrə əlavə gəlir gətirən tərsinə logistika fəaliyyətləri müəssisələrin müştərilərin gözündə ətraf mühit şüurlu bir görüntü formalaşdırmaları, müştərilərlə daha yaxın və effektli əlaqələr qurmaları baxımından da üstünlük formalaşdırır [5, s.1164].

Tərsinə logistika avtomobil, elektronika, kompyüter, kimya, dərman və s. sahələrdə tətbiq edilir. Tərsinə logistika tətbiq edən şirkətlər arasında BMW, Delphi, HP və s. kimi şirkətlər üstünlük təşkil edir [1, s.320].

## Ədəbiyyat


1. Karaçay G. Tresine lojistik: Kavram ve işleyiş // - Adana: Çukurova üniversitesi sosyal bilimler enstitüsü dergisi - 2005. c 14, s 1, - s. 317-332
2. Öçal B. Tersine lojistik uygulamalarının çevresel ve sosyal sürdürülebilirliğe etkisi // - Isparta: Süleyman Demirel Üniversitesi İktisadi ve idari bilimler fakültesi dergisi, -2021. c 26, s 4, - s. 521-532
3. Öztürk O. Tersine lojistik // - Bursa: Ekin yayın evi, -2020. - s. 112-129
4. Sivaslıoğlu F. Tersine lojistik faaliyetlerinde geri dönüşümün, ülke ekonomisine ve işletmelere yararları // - İstanbul: Social mentality and researcher thinkers journal, - 2020. c 37, s 6, - s. 1821-1831
5. Yıldırımalp A., Yıldırımalp S., İslamoğlu E. Tedarik sürecinde bir anahtar süreç: Tersine lojistik // IV International caucasus-central Asia foreign trade and logistics congress, - İstanbul: İstanbul üniversitesi ulaştırma ve lojistik fakültesi, - 07-08.09.2018, -2018, - s. 1160-1169



**ÖZET**

**ŞİRKETLER BAKIMINDAN TERS LOJİSTİK KAVRAMI VE ROLÜ**

***Gardaşov V.L.***

***Anahtar kelimeler:*** *lojistik, tersine lojistik, şirket, geri dönüşüm, imalat*

Modern zamanlarda kullanılmış ürünlerin değerinin artması, tüketici bilinci ve çevreye karşı sosyal yükümlülüklerin artması gibi nedenler tersine lojistiğin değerinin artmasında önemli rol oynamaktadır. Araştırma çalışmasının temel amacı, işletmeler açısından tersine lojistiğin rolünü ve faydalarını araştırmaktır. Araştırma çalışmaları, verimliliğin sağlanması, müşteri memnuniyetinin sağlanması ve sosyal yükümlülüklerin yerine getirilmesi açısından pratik öneme sahiptir. Araştırma çalışmasında tersine lojistiğin işletmelerin gelişimindeki rolü ve işletmelere getirdiği yenilikler ele alınmıştır.

**SUMMARY**

**THE CONCEPT OF REVERSE LOGISTICS AND ITS ROLE FROM THE POINT OF VIEW OF COMPANIES**

***Gardashov V.L.***

***Key words:*** *logistics, reverse logistics, enterprise, recycling, manufacturing*

In modern times, reasons such as the increase in value of used products, consumer awareness and the increase in social obligations towards the environment play an important role in the increase in value of reverse logistics. The main objective of the research work is to investigate the role of reverse logistics from the point of view of enterprises and its benefits. Research work has practical importance in terms of achieving efficiency, achieving customer satisfaction, and fulfilling social obligations. The role of reverse logistics in the development of enterprises and the innovations it brings to enterprises were discussed in the research work.


# TİKİNTİ SEKTORUNUN RƏQABƏTQABİLİYYƏTLİ İNKİŞAFINDA İNJİNİRİNQ XİDMƏTİNİN ROLU


**Qasımov Ruslan İsgəndər oğlu**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan*

ruslan.gasimov.041@gmail.com



***Açar sözlər:*** *tikinti sektoru, tikinti şirkətləri, rəqabətqabiliyyətlilik, injinirinq xidməti, layihə*


Azərbaycan Respublikasında qeyri neft sektorunun inkişaf etməsi ölkədə neft hasilatının azalması fonunda obyektiv tələbata çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə təsdiq olunmuş milli iqtisadiyyatın inkişafına həsr olunmuş Strateji Yol Xəritəsində ölkə iqtisadiyyatının əsas sektorlarının inkişaf etdirilməsi ən mühüm istiqamətlərdən biri kimi təsbit olunmuşdur.

Strateji Yol Xəritəsində xüsusi olaraq qeyd olunur ki, ölkə əhalisi qənaətbəxş qiymətlərlə mənzil ilə təmin olunmalı, yəni mülki təyinatlı tikinti sektoru respublikada inkişaf etdirilməlidir [5].

Tikinti sənayesində dünya təcrübəsi göstərdi ki, tikinti biznesinin optimallığının yüksəldilməsi formalarından biri injinirinqdir, yəni layihələrin hazırlanmasından tikinti işlərinin sonuna qədər tikinti proseslərinin bütün mərhələlərinin mühəndis təminatının yaxşılaşdırılmasıdır.

Ümumi texniki məzmununa görə mühəndis injiner fransız sözü ingenieur sözündən yaranmış, həmin sözün kökü isə latın sözü ingenium (bacarıq, ixtiraçılıq) sözündən yaranmışdır. Burada söhbət məqsədlərə nail olmaq üçün maddi vasitələrin inşası barəsində informasiya yaradıcısından, yaxud həmin vasitələrin hazırlanması üsulundan gedir.

Belə bir anlayışı injinirinq fəaliyyəti ilə məşğul olan şirkətin fəaliyyət seqmentinin, məcmu halında tikinti obyektlərinin inşaat işləri ilə məşğul olanların ən yaxşı xarakterizə olunması kimi təqdim etmək olar.

“İnjineriya” ilə bağlı digər anlayışlar da vardır. Amerika mühəndislərinin peşəkar inkişafı Şurası (American Engineers' Council for Professional Development-ECPD) injineriya anlayışına aşağıdakı məzmunu vermişdir:

“Strukturların, maşınların, aparatların, istehsal proseslərinin layihələşdirilməsi üçün elmi prinsiplərin elmi tətbiqi, həmçinin onların ayrılıqda və bir-biri ilə uzlaşdırılmış halda tətbiqi; həmçinin onların həmin üsul ilə dizaynının konstruksiyası və idarə edilməsi; ayrı-ayrı rejimlərdə onların davranışlarının öncədən bildirilməsi.

Milli praktikada “injinirinq”, “injineriya”, “mühəndis fəaliyyəti” mahiyyət etibarı ilə sinonim kimi işlədilir. Həmin sözləri layihə öncəsi və layihə sənədləri paketinin yaradılması prosesi ilə, məlumatların əldə edilməsi ilə, mühəndis fikirlərinin nəticəsinin ifadə olunması ilə, icazə və satış aktların formalaşdırılması proseduraları ilə əlaqələndirirlər.

Aşağıdakı anlayışlardan da görünür ki, bu öhdəliklərə daxil olan məsələlər bilavasitə layihə sənədlərinin hazırlanmasına aiddir.

Bütün bunlara baxmayaraq “mühəndis”, mühəndislik”, “mühəndis işi” terminologiyasını daha dəqiq hesab etmək olar. Daha sonra mövcud reallıqlardan çıxış edərək bütün söz birləşmələrində “injinirinq” anlayışını istifadə etmək olar. Həmin termin müasir tikinti praktikasında “idarəetmə” mənasında da işlədilir.

Eyni zamanda “İnfra-M” nəşriyyat evində dərc edilən “Böyük hüquqi lüğətdə” “injinirinq” anlayışı aşağıdakı kimi xarakterizə olunur [1, s.534] “…sənaye, infrastruktur və digər obyektlərin yaradılması məsələlərinin işlənilməsi ilə bağlı fəaliyyət sferası hər şeydən öncə kommersiya əsasları ilə müxtəlif mühəndis konsultasiya xidmətlərinin göstərilməsi formasında təqdim olunur. İnjinirinqin əsas növlərinə layihədən öncə, layihə və layihədən sonra icra edilən xidmətlər, istehsal edilən məhsulun istismarı, idarə olunması və reallaşdırılması ilə bağlı tövsiyə edici xidmətlər.

XX əsrin 80-ci illərində BMT-nin Avropa İqtisadi Komissiyasının məlumatlarına görə - injinirinq elə bir xüsusi fəaliyyət növüdür ki, həmin fəaliyyət bilavasitə müəssisələrin və infrastruktur obyektlərinin tikintisi və istismarı ilə bağlıdır.

İşgüzar fəaliyyətə başlayan developerlər, yaxud özlərini investisiya yatırımçıları adlandıranlar injinirinq dedikdə tikinti işlərinin təşkilati maliyyə məsələlərinin həll edilməsini başa düşürlər və bu xidmət növünü texniki-model və informasiya xidmətlərindən fərqləndirirlər. Lakin burada onlar bir vacib məsələni nəzərdən qaçırırlar ki, təşkilati vəzifələr texnoloji bazis üzərində ancaq üstqurumdur, onları sistemin texniki modelini yaratmadan və həyata keçirmədən reallaşdırmaq qeyri-mümkündür, onların özü-özlüyündə mühəndis termini ilə heç bir əlaqəsi yoxdur.

Digər sadələşdirilmiş təsəvvürdə isə injinirinqə texniki iş və layihə menecmenti arasında yer verilir, yəni injinirinq qismən texniki və qismən də idarəetmə kimi təsəvvür edilir. Belə olan təqdirdə hər şeydən öncə mühəndis fəaliyyəti ümumi xarakterli sənədlərin texniki hissəsinin hazırlanmasına aid edilir-tikinti podratları müqavilələrinin texniki əlavələrinin hazırlanması (tərkibinə həmçinin EPC və EPCM daxildir), eyni zamanda layihələşdirilən obyektlərin texniki tapşırıqları, sövdələşmələrin keçirilməsi zamanı müsabiqə sənədlərinin texniki tapşırıqları daxildir. Modeli əsasən təşkilatın tərəfdarları hazırlayırlar və onların mərhələlər üzrə dəqiqləşdirmələr aparmaq səlahiyyətləri yoxdur. Burada təfsilatlara ehtiyac investisiyaların əsaslandırılması üçün lazımdır.

Fikrimizi bir qədər fərqli sözlərlə ifadə edərək qeyd etmək lazımdır ki, injinirinqi yeni obyektlərin istifadəyə verilməsi və istismarı ilə bağlı mühəndis-texniki sahəyə aid layihə və praktiki işlər və xidmətlərin məcmusu kimi də təqdim etmək olar.

Beləliklə, injinirinq elm və istehsal arasında, yəni qovşağında yerləşir, istehsal fəaliyyətinin texnoloji (texniki) bazasını formalaşdırır.

Avropa İqtisadi Komissiyasında formalaşdırılmış və mühəndis cəmiyyəti tərəfindən qəbul olunmuş təsnifatda injinirinqin bir neçə növü barəsində fikirlər irəli sürülür. Ən geniş yayılanları- konsultasiya, tikinti, texnoloji, kompleks injinirinqi hesab olunur və onların içərisində kompleks injinirinqi xüsusi ilə seçilir.

Kompleks injinirinqə yuxarıda göstərilən funksiyalar daxildir: layihələşdirmə, avadanlığın tədarükü, tikinti-montaj işlərinə rəhbərlik, sənaye obyektinin istismara verilməsi.

Qeyd etmək lazımdır ki, kompleks injinirinq müqaviləsi çərçivəsində ixtisaslaşdırılmış şirkət mütəmadi olaraq bir sıra xidmətləri göstərir. Buraya maliyyələşdirmənin təşkili (əlavə investisiyaların cəlb edilməsi), maddi-texniki resursların tədarükünün idarə olunmasının sahmana salınması, CMP-nin yerinə yetirilməsi, nəhayət kənar obyektin istifadəyə verilməsi daxildir.

Bir məsələyə də xüsusi olaraq diqqət yetirmək lazımdır ki, bənzər şirkətlərin özlərinin tikinti işləri aparmaq imkanları yoxdur, onların əsas vəzifəsi-tikinti və digər işlərin yerinə yetirilməsi üçün cəlb olunmuş layihəçilərin, inşaatçıların və tədarükçülərin işinin idarə olunması daxildir. Ölkəmizdə tikintinin inkişafı (devolopment) və injinirinq sahəsində ixtisaslaşan bir çox şirkətləri məhz bu yol ilə gedirlər.

Tikinti injinirinqi əsas funksiyaların personallaşdırılmasının yoxluğunu qabardır. Bu isə öz növbəsində konkret şəraitdə düzgün qərar qəbul edilməsinə imkan yaradır, nəticədə isə məsrəflərin azalması mümkün olur, tikinti işlərinin müddəti qısalır. Tikinti layihələri rəngarəngliyi ilə seçilir. Onların reallaşdırılması müxtəlif funksiyalar vasitəsi ilə mümkündür və həmin funksiyaları subpodratçılar və yaxud baş podratçılar, layihəçilər və yaxud sifarişçilər yerinə yetirirlər. Optimal variant-tikinti layihələrinin icra olunması ilə peşəkar injinirinq şirkətinin məşğul olmasıdır.

Belə bir şirkət maliyyə, texnoloji, əmək və material resursların səmərəli istifadə edilməsi üçün müxtəlif alətlərdən istifadə edir. Peşəkarların çalışdığı injinirinq şirkətinin mütəxəssisləri tikintiyə aid bütün məsələlərdə olduqca səriştəlidirlər. Müxtəlif elmi mənbələrin [2, 3, 4] təhlili göstərdi ki, tikinti injinirinqi - qurğuların və binaların layihələşdirilməsidir, müxtəlif texniki məsələlər üzrə məsləhətlərin verilməsinin təşkili ilə məşğul olan xüsusi sahədir.

İnjinirinq təminatının tərkibinə aşağıdakılar daxildir:

- ən yeni mühəndis sistemlərinin tikintidə istifadə edilməsi ilə bağlı məsləhətləşmələrin təşkili;
- yeni avadanlıqların, innovasiya materiallarının tikintidə istifadə olunması və mütərəqqi texnologiyaların tikinti işlərində tətbiq edilməsi üçün tikinti işlərini planlaşdıran və icra edənlərin yönləndirilməsi.

İnjinirinq xidmətlərinin göstərilməsinin əsas formaları isə aşağıdakılardır:

1. İlkin məlumatların toplanılması, layihənin icrasına başlamazdan öncə texniki tapşırığın hazırlanması, ixtisaslaşdırılmış bölmə üzərində iş, öz fəaliyyətinin layihələşdirilməsi.
2. Müxtəlif tikinti işlərinin yerinə yetirilməsi mərhələlərindən ibarət tikinti layihələrinin reallaşdırılmasında iştirak etmə payı: layihələşdirmə prosesinin idarə olunması, tədarükün təmin olunması, tikinti işlərinin təşkili və idarə olunması.
3. Tikinti auditi və yaxud sifarişçiyə texniki ekspert məsləhətlərinin verilməsi.

Tikinti işlərinin bütün mərhələlərini mühəndis xidmətləri ilə təmin edən tikinti injinirinqi sənaye binaları və texnoloji qurğuların tikilməsinin səmərəliləşdirilməsi və ucuzlaşdırılmasında mühüm rol oynayır. Beləliklə, mühəndis məsləhətlərinin göstərilməsi xidməti tikinti işlərinin hazırlıq mərhələsinin sürətlənməsinə səbəb olur və bununla da tikinti işlərinin əsas müddəti qısaldılır, zəruri infrastruktur yaradılır, nəticədə tikinti obyektinin istismara hazır olması müddəti sürətlənir.

## Ədəbiyyat


1. Большой юридический словарь/ Под ред. А. Я. Сухарева. - 3-е изд., доп. и перераб. - М.:ИНФРА-М, 2007. - 858 с.
2. Виленский П.Л., Лившиц В.Н., Смоляк С.А. Оценка эффективности проектов.-М.: Дело, 2001, 832 с.
3. Дидковская О.В. Система стоимостного инжиниринга как основа управления стоимостью строительства / Нормирование и оплата труда в строительстве. 2013, № 1, С. 19-25
4. Корпоративное управление организационным развитием: монография / Под ред. Ю.П. Анискина. - М.: Издательство «Омега-Л», 2007, 411 с.
5. https://ru.sputnik.az/azerbaijan/20161207/407988873/utverjdeni-strategiceskie-dorojnie-karti-nasionalnoy-ekonomiki.html - Спутник-Азербайджан Международное информационное агентство

**РЕЗЮМЕ**
**РОЛЬ ИНЖЕНЕРНЫХ УСЛУГ В КОНКУРЕНТНОМ РАЗВИТИИ СТРОИТЕЛЬНОГО СЕКТОРА**
***Гасымов Р.И.***

***Ключевые слова:*** *строительный сектор, строительные организации, конкурентоспособность, инжиниринговая служба, проект*

В статье рассматривается роль инжиниринговых услуг в конкурентном развитии строительной отрасли. Отмечается, что использование инжиниринговых услуг имеет важное значение в конкурентоспособном развитии строительного сектора как одного из ненефтяных секторов в Азербайджане. В связи с этим в статье широко трактуются сущность и особенности инженерной службы, основанные на различных взглядах. В продолжение исследования раскрываются состав, функции и основные формы инженерного обеспечения строительства, а также выдвигается ряд выводов в этом направлении.

**SUMMARY**
**THE ROLE OF ENGINEERING SERVICES IN THE COMPETITIVE DEVELOPMENT OF THE CONSTRUCTION SECTOR**
***Gasimov R.I.***

***Key words:*** *construction sector, construction companies, competitiveness, engineering service, project*

The article deals with the role of engineering services in the competitive development of the construction sector. It is noted that the use of engineering services is important in the competitive development of the construction sector as one of the non-oil sectors in Azerbaijan. In this regard, the nature and characteristics of the engineering service are widely interpreted based on different views in the article. In the continuation of the research, the composition, functions and main forms of engineering support in construction are disclosed, and a number of conclusions are put forward in this direction.

# MÜƏSSİSƏLƏRİN XARİCİ BAZARLARA ÇIXIŞINDA FİRMADAXİLİ PLANLAŞDIRMANIN ROLU

**Məmmədova Səidə Rəhim qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
seidememmedova@mail.ru

***Açar sözlər:*** *planlaşdırma, firmadaxili planlaşdırma, biznes plan, müəssisə, bazar*

Yaxşı qurulmuş ERP-sistemləri potensial investorların gözündə şirkətin reytinqini əhəmiyyətli dərəcədə artırır, onun idarəetmə təcrübəsi beynəlxalq standartlara cavab verən açıq təsərrüfat subyekti kimi mövqe tutmasına kömək edir. Beləliklə, ERP-sistemini tətbiq etməklə onun aktivlərinin strukturu dəyişir və bütövlükdə şirkətin likvidliyi artır. Dövriyyə aktivlərinin payında debitor borcların azalması müşahidə olunur, bütövlükdə kapitalın ümumi dövriyyəsini artırmaqla şirkətin vəsaitlərindən daha səmərəli istifadə olunur. Həmçinin iş ritminin artması, ehtiyatların planlaşdırılması və onların sanasiyası və nəzarətinin mütərəqqi metodlarının tətbiqi hesabına müəssisənin dövriyyə vəsaitlərinə tələbatının azalması da müşahidə olunur. Bunlar ERP-sisteminin tətbiqinin birbaşa iqtisadi səmərəsini müəyyən edən əsas elementlərdir. Müasir ERP-sisteminin tətbiqinin səmərəliliyinə dair məlumatlar aşağıdakı cədvəldə təqdim olunmuşdur.

***Cədvəl.***

**Müasir ERP-sisteminin tətbiqinin səmərəliliyi [2]**

| *Sənaye sahələri üzrə göstəricilər, orta hesabla* | *(%)* |
|---|---|
| Sığorta ehtiyatlarının azalması (anbarlarda minimum qalıqların səviyyəsi) | 40 |
| Anbar sahələrinin azaldılması | 25 |
| Ehtiyatların dövriyyəsinin artması | 65 |
| Vaxtında çatdırılmanın artırılması | 80 |
| İstehsal nasazlıqlarının azaldılması | 35 |
| Hazır məhsulların daşınmasında gecikmələrin azaldılması | 45 |
| Satış sonrası xidmətlərin təkmilləşdirilməsi | 60 |
| Xərclərin daha dəqiq uçotu | 30 |
| Nəqliyyat-tədarük xərclərinin azaldılması | 60 |
| Hesabat dövrünün bağlanması müddətinin azalması | 500 (5 dəfə) |
| Hesablaşmalarda vəsaitlərin dövriyyəsinin artırılması | 30 |
| İnzibati və idarəetmə heyətinin xərclərinin azaldılması | 30 |
| Sənədlərin gündəlik hazırlanmasının aradan qaldırılması | 90 |
| Başa çatmamış istehsalın azaldılması | 50 |
| İstehsal dövrünün qısaldılması | 50 |
| Yeni məhsulların işlənib hazırlanması dövrünün qısaldılması | 60 |
| Büdcənin hazırlanması vaxtının qısaldılması | 70 |

ERP-sisteminə investisiyaların qaytarılması sistemin özündən deyil, onun dəstəklədiyi biznes proseslərin səmərəliliyinin artırılmasından irəli gəlir. Xərclərin səmərəlilik göstəricisini əldə etmək üçün hesablanmalı olan sistemin istifadəsinin səmərəliliyi, ilk növbədə, uğurlu biznes strategiyasının həyata keçirilməsindən asılıdır [3]. Şirkətin əsas fəaliyyət göstəricilərinin bu və ya digər səviyyəsinə nail olunmasını nəzərə almadan, şirkətin bazar mövqeyini əsaslı surətdə yaxşılaşdırmaq üçün nəzərdə tutulmuş informasiya texnologiyalarının düzgün və səmərəli tətbiqindən danışmaq mümkün deyil. Sistem müəssisənin strateji və taktiki məqsədlərinə çatmaq üçün uyğunlaşdırılmalıdır.

ERP-sistemində tətbiqin səmərəliliyini azalda bilən ziddiyyətlər var. Sistemlər həm sistemi müşayiət edən personaldan, həm də əməliyyat heyətindən yüksək ixtisas tələb edir. Həmçinin fəaliyyətlərində ERP-sistemlərindən istifadə edən idarəetmə heyətinin ixtisasına yüksək tələblər qoyulur.

Sistemlər çox bahadır və onların müəssisəyə tətbiqi uzun müddət tələb edir ki, bu da bir çox müəssisələrdə sistemlərin geniş şəkildə tətbiqinə mane olur. ERP-sisteminin tətbiqi dəyəri şirkət rəhbərliyi tərəfindən dərhal əlavə qazanc gətirəcək strateji investisiya kimi nəzərdən keçirilməlidir, buna görə də bir çoxları təşkilatları üçün bu sistemlərdən istifadə etməkdən imtina edirlər. Sistemin uzun və çətin tətbiqi

şirkətin biznes işinin ciddi şəkildə nəzərdən keçirilməsi zərurəti ilə bağlıdır. Bunu həyata keçirmək çox çətindir və dəyişikliklər üçün müəyyən səviyyədə biznesın hazırlığı tələb olunur.

Vergi və mühasibat hesabatlarının forma və prosedurları ilə bağlı problemlər mövcuddur. Onlar çox intensiv şəkildə dəyişir və bir çox ERP-sistem tərtibatçıları yeni tələbləri sistemə vaxtlı-vaxtında tətbiq etmirlər. Bu isə əməliyyat heyətinin mənfi reaksiyasına səbəb olur və iqtisadçıların və mühasibat işçilərinin iş qabiliyyətini aşağı salır.

Əgər şirkətlər ERP-sistemini tətbiq edərkən korporativ strategiyaya əhəmiyyət vermirlərsə və ondan yalnız taktiki tapşırıqların yerinə yetirilməsi üçün texnologiya kimi istifadə edirlərsə, o zaman əldə edilən mübahisəsiz üstünlüklərə baxmayaraq, şirkətin işində əsaslı irəliləyişlər olmaya da bilər. Bu cür layihələrdə müqayisəli səmərə çox vaxt o qədər kiçik olur ki, bir çoxları müasir sistemləri gərəksiz bahalı hesab etməyə başlayırlar. Seçilmiş ERP-sisteminin tətbiqi ilə bağlı qərar qəbul edərkən ən vacib məsələ biznes strategiyasını müəyyən etmək və bu strategiyanı həyata keçirən avtomatlaşdırılmış sistemin həlli üçün nəzərdə tutulan məqsəd və vəzifələrdə əks etdirməkdir.

## Ədəbiyyat


1. Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B. Müasir informasiya sistemlərinin idarə edilməsi. Bakı: "MSV NƏŞR", 2016 s.
2. Абдикеев Н.М. и др. Реинжиниринг бизнес-процессов Изд. 2, испр.,Букинист, 2017, 587 с.
3. Kevin Wei WangThe IT factor in a global business transformation: An interview with Lenovo's CIO//McKinsey quarterly [Elektron resurs]. - Giriş rejimi: https://www.mckinsey.com/capabilities/mckinsey-digital/our-insights/the-it-factor-in-a-global-business-transformation-an-interview-with-lenovos-cio



**РЕЗЮМЕ**
**ЭФФЕКТИВНОСТЬ ПРИМЕНЕНИЯ ЕРП-СИСТЕМ**
***Шыхыева А.А.***

***Ключевые слова***: *ERP, ERP-система, стратегия, противоречия, модули, оценка*

Внедрение ERP-системы представляет собой инструмент, ориентированный на повышение эффективности бизнеса. В этой статье представлен обзор систем планирования ресурсов предприятия (ERP) и рассматривается эффективность внедрения систем ERP. Показана связь автоматизированной системы со стратегией предприятия, проанализированы преимущества, получаемые благодаря этой системе, а также исследованы причины, побудившие предприятия перейти на ERP-систему. Эффективность внедрения современной ERP-системы представлены усреднёнными показателями по отраслям промышленности. Указано на противоречия в системе.



**SUMMARY**
**EFFICIENCY OF ERP-SYSTEMS` APPLICATION**
***Shikhieva A.A.***

***Key words:*** *ERP, ERP system, strategy, contradictions, modules, evaluation*

The implementation of an ERP system is a tool aimed at improving business efficiency. This article provides an overview of Enterprise Resource Planning (ERP) systems and examines the effectiveness of implementing ERP systems. The connection between the automated system and the strategy of the enterprise is shown, the benefits obtained from this system are analyzed, and the reasons that prompted enterprises to switch to the ERP system are investigated. The effectiveness of the implementation of a modern ERP system is represented by average indicators by industry. The contradictions of the system are shown.


# MİLLİ SƏVİYYƏDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODOLOJİ YANAŞMALAR


**Talıbova Nigar Eldar qızı**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
*nigart86@gmail.com*



***Açar sözlər***: *təhdid, təhlükə, iqtisadi təhlükəsizlik, metod, inkişaf, ölkə, cəmiyyət, iqtisadiyyat*


Təhlükəsizlik, bu sahədə sahəsində vahid dövlət siyasətinin, müxtəlif xarakterli, cəmiyyətin, dövlətin və fərdin həyati mənafelərinə təhdidlərə adekvat olan tədbirlər sisteminin reallaşdırılması ilə əldə edilir. Ölkənin təhlükəsizlik obyektlərinin mühafizəsinin tələb olunan səviyyəsini yaratmaq və saxlamaq üçün bu sahədə münasibətləri tənzimləyən hüquq normaları sistemi hazırlanır, dövlət və idarəetmə orqanlarının əsas

fəaliyyət istiqamətləri müəyyənləşdirilir, təhlükəsizlik orqanları və onların fəaliyyətinə nəzarət mexanizmi formalaşdırılır və ya tənzimlənir.

Təhlükəsizliyi müəyyənləşdirmək üçün iki yanaşma var. Birinci yanaşma, təhdid anlayışının istifadəsinə, ikinci yanaşma, məqsədə nail olmaq üçün iqtisadi konsepsiyalara əsaslanır.

Təhdid və təhlükələrin iqtisadi təhlükəsizliyinə təsiri cəmiyyətdə və dövlətdə formalaşan müxtəlif amillərdən, onların dəyişməsindən birbaşa asılıdır. Nəzərə alsaq ki, təhdidlər real və potensial təhlükələrdən ibarətdir, o zaman görərik ki, iqtisadi təhlükəsizliklə bağlı fəaliyyətlər əsas etibarilə təhdidlərin proqnozlaşdırılmasından, habelə onların lokallaşdırılmasının daha səmərəli metod və vasitələrin üsul və reallaşdırılmasından ibarətdir [1, s.55].

İstənilən ölkədə innovativ cəmiyyət və iqtisadiyyat yaratmaq kimi strateji məqsədə nail olmaq üçün əlverişli şərait yaratmağa yönəlmiş sistemli tədbirlər hazırlamaq lazımdır. Bu problemin spesifikliyi və müxtəlifliyi sistemli və hərtərəfli həllini tələb edir. Bu yanaşma dövlət siyasətinə əsaslanan tədbirlərin hazırlanması və reallaşdırılmasını özündə ehtiva etməlidir. İlk növbədə, iqtisadi təhlükəsizlik təmin edilməli və bu sahədə dövlət siyasəti balanslaşdırılmış və ardıcıl hüquqi-normativ bazaya əsaslanmalıdır. Bu baxımdan, aydındır ki, iqtisadi təhlükəsizlikdə hüquqi tədbirlərin əhəmiyyətini qiymətləndirmək çox çətindir, çünki onların reallaşdırılması və sonrakı tətbiqi təkcə iqtisadi təhlükəsizliyin müxtəlif forma və üsullarının qanuniliyindən deyil, iqtisadi təhlükəsizliyin təmin edilməsi, təşkili və nəhayət onun nəticələrindən asılıdır. İqtisadi təhlükəsizliyin hüquqi təminatı dedikdə, dövlət orqanlarının iqtisadi təhlükəsizlik sistemi çərçivəsində fəaliyyətləri ilə bağlı qarşılıqlı asılı və əlaqələndirilmiş məqsədlər, vəzifələr, prinsiplər və əsas tendensiyalar kimi səlahiyyət və vəzifələrinin gücləndirilməsi nəzərdə tutulur.

İqtisadi təhlükəsizlik, əsas etibarilə milli iqtisadiyyatın müstəqilliyini inkişaf etdirən, eləcə də onun sabit inkişafını və davamlılığını təmin edən müxtəlif şərait və amilləri ifadə edən nəzəri termindir. İqtisadi təhlükəsizliyin təminatı ölkənin müstəqilliyinin təminatı, cəmiyyətin sabitliyinin və səmərəli fəaliyyətinin ilkin şərtidir. Beləliklə, iqtisadi təhlükəsizlik əsas milli prioritetdir. Ölkənin iqtisadi təhlükəsizliyi mürəkkəb çoxölçülü strukturdur. Milli təhlükəsizlik sistemi çərçivəsində ölkənin suverenliyinin, habelə milli və dövlət maraqlarının müxtəlif səviyyələrdə ardıcıl reallaşdırılmasını təmin edir. Beləliklə, ölkənin mühüm milli prioritetlərdən birinin iqtisadi təhlükəsizliyin təmin edilməsi olduğunu deyə bilərik.

İqtisadi sahədə milli təhlükəsizliyin və maraqlarının qorunması dövlət siyasətinin əsas istiqamətləridir. İstənilən ölkənin dövlət siyasətinin ən önəmli tərkib hissələrindən biri məhz iqtisadi təhlükəsizliyin təmin edilməsidir və bu olmadan davamlı və mütərəqqi inkişaf sadəcə mümkün deyil, özünəməxsus alət və üsullara malikdir [2, s.5].

Ölkənin iqtisadi təhlükəsizliyinin ümumi məqsədi kimi onun iqtisadiyyatının lazımi vəziyyətinə nail olunmasını müəyyənləşdirmək lazımdır. İstənilən ölkədə iqtisadi təhlükəsizliyin tədqiqat obyekti onun ərazisi, predmeti isə əhalisidir.

Dövlətin iqtisadi sistemində iqtisadi təhlükəsizliyin mahiyyətini və məzmununu tam formada aydınlaşdırmağa imkan verən bir neçə problem blokunu ayırmaq olar (şəkil 1):

İqtisadi təhlükəsizliklə bağlı problemlərin əsas bloklarının vaxtında diaqnostikası və monitorinqi və yaranan təhdidlərin aradan qaldırılması bütövlükdə ölkənin milli təhlükəsizliyinin səviyyəsini yüksəldəcəkdir. Çünki iqtisadi təhlükəsizlik dövlətə xidmət edən əsas fəaliyyət istiqamətidir.

İqtisadi təhlükəsizliyin mahiyyəti onun meyar və göstəricilərin vahid sistemində ortaya çıxır. Bu zaman əsas meyar həmin anlayışın mahiyyətini əks etdirən ən önəmli proseslərdən istifadə etməklə iqtisadiyyatın vəziyyətinin təhlilidir. Meyarların qiymətləndirilməsi aşağıdakı kimidir:

- resurslardan istifadə imkanları və onların inkişafı;
- resurslardan, kapitaldan və əməkdən istifadənin səmərəliliyinin təhlili;
- ölkə iqtisadiyyatının rəqabət qabiliyyəti;
- suverenlik, habelə təhlükələrə qarşı mübarizənin müasir üsullarından istifadə;
- ictimai asayişin, sosial sabitliyin təmin edilməsi və sosial mühitdə mümkün münaqişələrin qarşısının alınması [3, s.49]

Ölkənin iqtisadi təhlükəsizliyini təmin edərkən onun səviyyəsini və bütün mümkün təhdidləri düzgün qiymətləndirmək çox vacibdir, əks halda dövlətin iqtisadiyyatını səmərəli şəkildə qorumaq mümkün olmayacaqdır. Ölkənin iqtisadi təhlükəsizliyinin retrospektiv, indiki və gözlənilən səviyyələrini nəzərə almadan dövlətin milli iqtisadiyyatının təhlükəsizliyinin təmin edilməsi səviyyəsinə adekvat qiymət vermək demək olar ki, mümkün deyil. İqtisadi təhlükəsizlik təhlükəsizliyin təmin edilməsinin ən vacib obyektidir ki, bu da onu dövlət və cəmiyyət üçün prioritet fəaliyyət sahəsinə aid etməyə imkan verir. İqtisadi təhlükəsizliyin yüksək səviyyəsi o zaman təmin olunacaq ki, dövlət hüquqi və iqtisadi tənzimləməsi ilə səmərəli və vaxtında məşğul olsun.




***Mənbə:** müəllif tərəfindən tərtib olunub*

**Şəkil 1. Ölkənin iqtisadi təhlükəsizlik problemlərinin əsas blokları**

İqtisadi təhlükəsizliyi qiymətləndirmək üçün ölkənin inkişaf vektoru və iqtisadi təhlükəsizliyin aşağıdakı kimi prioritet vəzifələrinin müəyyənləşdirilməsi zəruridir:

- davamlı inkişafın təmin edilməsi;
- maliyyə sisteminin inkişafının sabitləşdirilməsi;
- dövlət idarəetmə sisteminin inkişafı;
- insan potensialının inkişafı;
- bütün sahələrdə və fəaliyyət sahələrində innovativ inkişafı təmin etmək üçün optimal normativ-hüquqi bazanın yaradılması [4, s.45].

Cəmiyyətin təhlükəsizlik məqsədlərinə nail olunmasının monitorinqi və nəzarəti elmi cəhətdən əsaslandırılmış sərhədlərə və müəyyən kəmiyyət göstəricilərinə malik olan iqtisadi təhlükəsizlik meyarları sisteminin, habelə sosial-iqtisadi inkişafın təmin edilməsi üçün metodoloji prinsiplərin müəyyənləşdirilməsini tələb edir. Ölkənin iqtisadi mühitinin mövcud vəziyyətini və onun inkişaf potensialını müəyyənləşdirməyə imkan verən iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi üçün optimal metodologiyanın müəyyənləşdirilməsi də tələb edilir. Ölkədə iqtisadi təhlükəsizliyin vəziyyətini qiymətləndirmək və izləmək üçün müxtəlif göstəricilərdən istifadə olunur. İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi metodologiyası məhz onun inkişafının səmərəliliyinin qiymətləndirilməsi kimi çıxış edən fəaliyyət göstəriciləri toplusuna əsaslanır.

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi məqsədilə onun hazırkı vəziyyətini və mövcud təhdidlərlə əlaqədar təmin olunmasının mümkün istiqamətlərini əks etdirən kəmiyyət və keyfiyyət xarakteristikalarının müəyyənləşdirilməsinə əsaslanan bir neçə metoddan istifadə olunur. Bu, modellər qurmağa və öyrənilən iqtisadi sistemlərin təhlilini aparmağa, bu sistemlərin inkişafına dair proqnozlar verməyə imkan verir. Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin səviyyəsini kəmiyyətcə qiymətləndirmək üçün müxtəlif metodlardan istifadə olunur. Ümumiləşdirilmiş formada, onları 4 qrup şəklində təsvir edə bilərik (şəkil 2).




***Mənbə:*** *müəllif tərəfindən tərtib olunub*

**Şəkil 2. İqtisadi təhlükəsizliyin əsas metodları**

Bununla yanaşı, iqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsinin əsas metodlarından başqa, bir sıra digər metodları da mövcuddur. Həmin metodları şəkil 3 vasitəsilə əks etdirə bilərik.




***Mənbə:*** *müəllif tərəfindən tərtib olunub*

**Şəkil 3. İqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsi metodları**

İqtisadi təhlükəsizliyin qiymətləndirilməsinin bu metodlarının hər birinin müsbət və mənfi cəhətləri var, istifadə olunan materialdan, kompüter hesablamaları və müvafiq proqram təminatından asılı olaraq müxtəlif dərəcələrdə ifadə olunur. Buna görə problemdən asılı olaraq müəyyən bir metodun sürətli və elastik bağlantısı ilə bu metodların birgə istifadəsi daha təsirli hesab olunur.

İstənilən dövlət özlərinin iqtisadi təhlükəsizliyini qiymətləndirmək məqsədilə, əsasən ekspert metodlarından istifadə edirlər. Bu metod tədqiq olunan proseslərin bütün xüsusiyyətlərini təsvir etmək üçün nəzərdə tutulmuşdur. Problemlərin istənilən sahəsində öz fikirləri və bilikləri əsasında mütəxəssislər tərəfindən formalaşdırılan məntiqi qərar qəbuletmə qaydaları istifadə olunur. Bunlara, xüsusən, ardıcıl qərarlar istifadə edərək iqtisadi təhlükəsizliyin faktiki göstəricilərinin tanınmasının nəticələrinin təhlilinə əsaslanan böhran səviyyəsinin və ərazilərin iqtisadi təhlükəsizliyə təhdid dərəcəsinə görə sıralanması, iqtisadi təhlükəsizlik göstəricilərinin təklif olunan dəstləri üzərində təlim keçdikdən sonra alınan qaydaların qəbul edilməsi daxildir.

Beləliklə, iqtisadi təhlükəsizlik kifayət qədər mürəkkəb iyerarxik struktura malik çoxşaxəli kateqoriyadır. İqtisadi inkişafın təmin edilməsində, dövlətin milli maraqlarının təmin edilməsində önəmli rola malikdir. Ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin effektiv qiymətləndirilməsi təhdidləri vaxtında müəyyənləşdirməyə və onların mənfi nəticələrinin qarşısını almağa imkan verir. Bununla belə, bu gün ölkənin iqtisadi təhlükəsizlik səviyyəsini qiymətləndirmək, göstəricilər sistemini, habelə onların hədd dəyərlərini müəyyənləşdirmək üçün vahid metod yoxdur.

Ölkənin iqtisadi təhlükəsizliyi sferasının milli təhlükəsizlik sahəsinin bir hissəsi olaraq qiymətləndirilməsinin metodları, göstəriciləri və yanaşmalarının təhlili göstərdi ki, onlardan geniş istifadə mövcuddur. İqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsi üçün vahid bir metod yoxdur. Bundan əlavə, iqtisadi təhlükəsizliyin kəmiyyətcə qiymətləndirilməsində istifadə olunan müxtəlif metod və göstəricilərin həm üstünlükləri, həm də mənfi cəhətləri var, bu da onlardan hər hansı birinə üstünlük verməyi mümkünsüz edir. Odur ki, istənilən hadisəni qiymətləndirmək, diaqnoz etmək və proqnozlaşdırmaq üçün çoxölçülü bir metodikanın tətbiqinə əsaslanacaq metodoloji bir yanaşma hazırlamaq lazımdır. Bu, problemin müxtəlif tərəflərini öyrənməyə, daimi monitorinqlər aparmağa və iqtisadi təhlükəsizliyə mövcud olan təhdidləri azaltmaq üçün bütün səviyyələrdə təsirli, elmi cəhətdən əsaslı tədbirlər görməyə imkan verəcəkdir.

**Ədəbiyyat**


1. Əkbərli T. Böhran şəraitində iqtisadi təhlükəsizliyə təsir edən amillərinin səciyyəvi cəhətləri. İpək yolu, №.2, 2022, s.48-57
2. Аксенова, А. А. Оценка уровня экономической безопасности (на примере технологической безопасности) / А. А. Аксенова, И. Г. Шиндикова // Инновационная экономика: перспективы развития и совершенствования. – 2020. – № 7(49). – С. 5-12
3. Крохичева, Г. Е. Оценка уровня экономической безопасности государства / Г. Е. Крохичева, Э. Л. Архипов, С. С. Липатников // Матрица научного познания. – 2019. – № 3. – С. 47-52
4. Шестиперова, Е. Ю. Сравнительный анализ методов оценки экономической безопасности региона / Е. Ю. Шестиперова // Russian Economic Bulletin. – 2020. – Т. 3, № 4. – С. 44-48



**РЕЗЮМЕ**

**МЕТОДИЧЕСКИЕ ПОДХОДЫ К ОЦЕНКЕ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ НА НАЦИОНАЛЬНОМ УРОВНЕ**

***Талыбова Н.Э.***

***Ключевые слова:*** *угроза, опасность, экономическая безопасность, способ, развитие, страна, общество, экономика*

В статье раскрывается сущность понятия безопасности. Определены место и роль экономической безопасности в системе безопасности страны. Обоснована необходимость обеспечения экономической безопасности в стране. Рассмотрены основные блоки проблем страны, связанные с экономической безопасностью. Для оценки экономической безопасности изучены методы, основанные на определении ее основных характеристик, отражающих ее современное состояние и возможные направления обеспечения по отношению к существующим угрозам.

**SUMMARY**

**METHODOLOGICAL APPROACHES TO ASSESSING ECONOMIC SECURITY AT THE NATIONAL LEVEL**

***Talibova N.E.***

***Key words:*** *threat, danger, economic security, way, development, country, society, economy*

The article reveals the essence of the concept of security. The place and role of economic security in the country's security system is determined. The necessity of ensuring economic security in the country is substantiated. The main blocks of the country's problems related to economic security are considered. To assess economic security, methods based on determining its main characteristics, reflecting its current state and possible directions for its provision in relation to existing threats, have been studied.


# AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASINDA HEYDƏR ƏLİYEV İRSİ


**Tağıyev Arif Məmmədhəsən oğlu**

*Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan*

*a_taqiev@mail.ru*



***Acar sözlər:*** *ümummilli lider, beynəlxalq inteqrasiya, xarici siyasət, dünya iqtisadiyyatı, strategiya*


Bu gün biz əminliklə və böyük fəxr hissi ilə qeyd edə bilərik ki, artıq dünya ictimaiyyəti Azərbaycanı birmənalı olaraq Cənubi Qafqazın ən inkişaf etmiş və hazırda da dinamik inkişafa malik, mütərəqqi islahatçı, biznes mühitinə və investisiyalara açıq, yüksək reytinq qabiliyyətli, müstəqil beynəlxalq siyasət həyata keçirən, özünün fərqli milli iqtisadi inkişaf strategiyası və modeli olan bir ölkə kimi tanımaqdadır. Bütün beynəlxalq qiymətləndirmə qurumları tərəfindən təqdim edilən hesabatlarda ölkəmiz öz mövqeni daima yaxşılaşdıran, bu siyahıda yüksək yer tutan və dinamik inkişafa nail olan ölkələr sırasında yer almaqdadır. Xüsusi fərəh hissi doğuran fakt odur ki, Azərbaycan bu nailiyyətlərə özünün qısa bir tarixi

zaman kəsiyində mövcud olan müstəqillik dövründə nail olmuşdur və bu inkişafın bünövrəsi məhz Ümummilli liderimiz Heydər Əliyev tərəfindən dağılmaqda olan dövlətçilik və iqtisadiyyat üzərində qurulmuşdur.

Tarixi araşdırmalar göstərir ki, hər bir ölkənin, millətin, xalqın müstəqilliyinin qorunmasında, ölkənin milli iqtisadiyyatının formalaşması və inkişafında, onun təhlükəsizliyinin qorunmasında güclü tarixi şəxsiyyətlərin əvəzsiz və danılmaz rolu olmuşdur. Son əsrlər bəşəriyyətə bir çox görkəmli şəxsiyyətlər, dövlət xadimləri, müdrik və uzaqgörən siyasətçilər bəxş etmişdir. Bu gün Azərbaycan xalqı da fəxr edə bilər ki, zəmanəmizdə onun da dünyanın tanınmış siyasi və dövlət xadimləri sırasında layiqli yer tutmuş Heydər Əliyev kimi dahi rəhbəri olmuşdur. Ulu öndər Heydər Əliyev hazırda bütün sivil dünyada Azərbaycanın rəmzinə çevrilmişdir.

Onun dünya siyasi liderləri arasındakı nüfuzunun nə dərəcədə yüksək olması elə müxtəlif vaxtlarda dünyanın tanınmış siyasi liderləri tərəfindən onun haqqında söylədikləri fikirlərdə öz əksini tapmışdır:

“ Vladimir Putin, Rusiya Federasiyasının Prezidenti: "Heydər Əliyev dünyada hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi idi."

II Elizaveta, Böyük Britaniya Kraliçası: "Ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində və Azərbaycanın inkişafında Heydər Əliyevin xidmətləri əvəzolunmazdır"

II İohann Paul, mərhum Roma papası: "Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası dünya birliyində layiqli yer tutdu."

Corc Buş (kiçik), Amerika Birləşmiş Ştatlarının eks-prezidenti: "Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq münasibətlərinin qurulmasında, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında onun şəxsi töhfəsi həyati əhəmiyyət daşıyır"

Rəcəb Tayyib Ərdoğan, Türkiyə Respublikasının Prezidenti: "Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və çiçəklənməsi naminə fədakar xidməti, habelə bölgədə və bütövlükdə dünyada sülhün bərqərar olması sayəsində türk və dünya tarixində layiqli yer tutur."

Jak Şirak, Fransanın eks-prezidenti:"Bu fövqəladə şəxsiyyət Azərbaycanı çiçəklənməyə gətirib çıxardı. Heydər Əliyevin göstərdiyi qəhrəmanlığı, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirəm." “[3].

Odur ki, böyük öndərimizin adı xalqımız tərəfindən həmişə dərin hörmət və ehtiramla anılır və anılacaqdır. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu öndərin təxminən 25 illik rəhbərliyi dövründə respublikamız həm sovet, həm də müstəqil dövlətçiliyi dövründə güclü inkişaf yolu keçmiş, müasir milli iqtisadiyyatımızın bünövrəsi qoyulmuşdur. Heydər Əliyev həm o zamankı Azərbaycan Respublikasının ali rəhbəri kimi, həm də Sovet İttifaqı rəhbərliyində əsas vəzifələrdən birini tutduğu dövrlərdə var qüvvəsini və bacarığını daimi olaraq Azərbaycanın siyasi-ictimai və sosial-iqtisadi yüksəlişinə həsr etmiş, onun müstəqilliyinin qorunmasının, dünyanın siyasi və iqtisadi arenasında nüfuzunun yüksəlməsinin, nəhəng quruculuq işlərinin təşəbbüskarı, təşkilatçısı və icraçısı olmuşdur.

Heydər Əliyev irsinin tədqiqatçıları birmənalı olaraq qeyd edirlər ki, dövlətçiliyimizin qorunmasında o, siyasi və iqtisadi amilləri heç vaxt bir-birindən ayırmazdı. Belə bir tarixi fakt mövcuddur ki, Alfred Nobel XX əsrin əvvəllərində Azərbaycanda olarkən burada olan vəziyyəti xarakterizə edərək qeyd edirdi ki, “Burada neft, qaz və siyasət çox sıx şəkildə bir-birinə qarışıb”. İkinci dəfə ölkəmizdə belə bir vəziyyət XX əsrin sonunda, 90-cı illərin əvvəlində mövcud olmuşdur. Müstəqilliyin ilk illərində ölkəmizdə bir tərəfdən yaranmış müharibə vəziyyəti, digər tərəfdən isə baş verən hakimiyyət davası, hakimiyyətə qeyri sağlam, təcrübəsiz, səriştəsiz və naşı siyasətlərin gəlməsi nəticəsində ölkəmiz dünyada və regionda təcrid olunmuş vəziyyətinə düşmüş, iqtisadi əlaqələr tamamilə pozulmuş, iqtisadi və maliyyə böhranı ölkəni bürümüş, daxili və xarici siyasətdə xaos yaranmışdır. Bu dövrdə vəziyyət artıq o yerə çatmışdır ki, dərin sosial-iqtisadi böhranlar fonunda ölkəmiz üçün son dərəcə strateji əhəmiyyət kəsb edən bir çox yaxın və uzaq ölkələrlə Azərbaycan arasında qarşıdurma vəziyyəti yarada biləcək ziddiyyətlər meydana gəlmişdi. Demək olar ki, bu dövrdə Azərbaycan özünün əvvəlki dövrlərdə mövcud olmuş bütün iqtisadi əlaqələrini itirmiş, ölkə iqtisadiyyatı dərin böhran vəziyyətinə düşmüş, vaxtilə minlərlə insanların çalışdıqları böyük müəssisələr, zavod və fabriklər bağlanmış, əhalinin həyat səviyyəsi son dərəcə pisləşərək ciddi sosial konfliktlərlə müşahidə olunaraq cəmiyyətdə narazılıqların yaranmasına səbəb olmuşdu.

Nəticədə, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev ilk günlərdən ölkədə siyasi-ictimai və sosial-iqtisadi mühitin sabitləşdirilməsi ilə bərabər ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri aradan qaldırmaq istiqamətində siyasət yürütməyə başladı.

Ulu öndərin müstəqil Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının vacibliyi haqqında fikirləri onun AR Milli Məclisinin sədri vəzifəsinə seçilərkən 15 iyun 1993-cü il tarixli çıxışında belə qiymətləndirilmişdir: “Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə

bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir. Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimal qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə – Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Baltikyanı dövlətlər, Moldova ilə biz daha geniş, qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu, çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir. ” [1. s.13-15].

Heydər Əliyev müstəqilliyin ilk illərində Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayaraq onun acı nəticəsi kimi dünya ictimaiyyətinin Azərbaycanı tanımaması, problemlərimiz haqqında məlumatlı olmaması, haqq səsimizi eşitməməsini göstərirdi. Odur ki, hakimiyyətə gəldiyi ilk günlərdən onun tərəfindən xarici siyasət kursunda ölkənin dövlətçilik və iqtisadi mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edilməyə başlandı. İlk növbədə, yaxın qonşu ölkələrlə, o cümlədən Türkiyə, Rusiya, İran, Gürcüstan kimi strateji əhəmiyyət kəsb edən ölkələrlə, daha sonra ABŞ, Avropa dövlətləri, Çin Xalq Respublikası, Yaponiya və digər Uzaq Şərq ölkələri ilə siyasi və iqtisadi münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək istiqamətində əməli işlərə başlandı. Müstəqil Azərbaycan dövlətinə daim dəstək verən qardaş Türkiyə ilə, ən yaxın qonşumuz olan İran ilə, digər müsəlman ölkələri ilə siyasi-iqtisadi əlaqələrin yeni bir formatda, Azərbaycanın mənafeləri formatında qurulmasına nail olundu.

Qısa müddət ərzində çox səriştəli şəkildə aparılan beynəlxalq siyasət nəticəsində Azərbaycanın ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Çin kimi dünya təsərrüfatı sistemində və siyasi arenasında mütləq nüfuza malik ölkələr timsalında müttəfiqlər qazanması Heydər Əliyev xarici siyasətinin uğuru olmaqla Azərbaycanın dünya təsərrüfatı sisteminə inteqrasiyasına yeni yollar açmaqla bərabər , ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək etdi. Bu dövrün uğurlu xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycanın nüfuzlu beynəlxalq və regional təşkilatlara, o cümlədən, BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İƏT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər bu kimi beynəlxalq təşkilatların üzvü olmaqla yeni beynəlxalq münasibətlərinin yaradılması, yenidən qurulması və daha yüksək səviyyəyə qaldırması olmuşdur.

Heydər Əliyevin xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri onun balanslaşdırılmış xarakter daşıması olmuşdur. Azərbaycanın əlverişli geosiyasi və coğrafi məkanda yerləşməsi, Şərqlə Qərb, Şimalla Cənub arasında təbii körpü rolunu oynaması və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malik olması xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, regionda maraqları olan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə etməyi, onları neytrallaşdırmağı zəruri edirdi.

Bütün bunları çox gözəl anlayan Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə xüsusi əhəmiyyət verməyə başladı. Azərbaycanın o dövrdəki iqtisadi vəziyyətini nəzərə alan Heydər Əliyev ilk növbədə ölkəyə xarici investisiyaların cəlb olunması istiqamətində lazımi işlərin görülməsini təmin etdi. Ölkəyə xarici investisiyaların cəlb olunması üçün ilk növbədə neft və qaz layihələrinin reallaşdırılmasını və onun dünya bazarlarına çıxarılmasını təmin etmək lazım idi. 1994-cü ildə çox böyük maneə və çətinliklərə baxmayaraq "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsinin bağlanması ilə bu istiqamətdə ilk addım atıldı. "Əsrin müqaviləsi"nə cəlb edilən dünyanın güc mərkəzlərini təşkil edən ölkələrin nüfuzlu beynəlxalq şirkətlərinin təmsil olunması məhz ölkəmizdə beynəlxalq iqtisadi maraqların balanslaşdırılması və neytrallaşdırılması istiqamətində Heydər Əliyev siyasətinin təzahürü idi. “Məhz belə bir şəraitdə H.Əliyevin şəxsi nüfuzu və həyata keçirdiyi məqsədyönlü xarici və daxili siyasəti nəticəsində hakimiyyətə gəldiyi vaxtdan təxminən bir il sonra, yəni 1994-cü ilin sentyabrın 20-də Bakıda dünyanın 8 aparıcı ölkəsini təmsil edən 13 məşhur neft şirkətləri ilə “Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” (AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü” haqqında saziş imzalandı ki, sonradan bu saziş öz əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını aldı” [2].

Dünyada və regionda gedən prosesləri nəzərə alan Ulu öndər transmilli nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasına xüsusi önəm verirdi. Bu mənada onun, hələ qədim zamanlardan mövcud olan

"Qədim İpək yolu"nun yeni layihəsi kimi TRASEKA və ya "Avropa-Qafqaz-Asiya", eyni zamanda Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin, “Bakı–Tbilisi–Ceyhan”, Bakı–Tbilisi–Ərzurum və digər beynəlxalq layihələrin reallaşdırılması istiqamətində apardığı titanik fəaliyyət bu gün Azərbaycanı regionun ən güclü dövlətinə çevirməklə bərabər onu dünya siyasi arenasında və təsərrüfat sistemində nüfuzlu bir tərəfdaşa çevirmişdi.

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi respublikamızın dünya miqyasında nüfuzunu daha da artırmış, mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq bütün dünya ictimaiyyəti birmənalı olaraq Azərbaycanı iqtisadi potensial baxımından regionun lider ölkəsi hesab edir və onunla hesablaşır. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30-dək ölkəsinə ixrac edilir.

Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan bir ölkəyə çevrilməsinə real imkanlar yaranmışdır. Son dövrlərdə Rusiya-Ukrayna müharibəsi fonunda Avropaya Rusiya qazının ötürülməsində yaranan problemlər bir çox Avropa ölkələrinin Azərbaycana, onun təbii qaz təhcizatçısına çevrilməsinə maraqları xeyli artmışdır. Azərbaycan bu gün həm özünün, hə də Orta Asiya ölkələrinin karbohidrogen ehtiyatlarının Avropaya və digər dünya ölkələrinə çatdırılması üçün ən optimal variantlardan biridir. Təsadüfü deyil ki, son dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir çox Avropa və Orta Asiya ölkə rəhbərləri ilə görüşləri intensivləşıb. Cənab İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi “Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz" [3].

### Ədəbiyyat


1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar Birinci kitab: iyun, 1993 – may, 1994 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1997. – 612 s.
2. Əyyubov, V.S., Tağıyev A.M.”Azərbaycan iqtisadiyyatı postkonflikt dövründə: mövcud vəziyyət və strateji prioritetlər.”Dayanıqlı inkişaf” Cild 1, № 1. 2021. MDU s.13-20
3. https://aztc.gov.az



**РЕЗЮМЕ**

**НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА В ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В МИРОВУЮ ЭКОНОМИКУ**

***Тагиев А.М.***

***Ключевые слова:*** *общенациональный лидер, международная интеграция, внешняя политика, мировая экономика, стратегия*

В статье содержится краткий обзор неоценимых заслуг общенационального лидера азербайджанского народа Гейдара Алиева в укреплении государственности, возрождении экономики страны и интеграции ее в мировое хозяйство после его второго прихода к власти. Именно после прихода к власти Г.Алиев, как широко мыслящий политик, смог вывести нашу молодую республику на политическую и экономическую арену мира. Поэтому в статье достаточно места уделяется незаменимой роли Гейдара Алиева в интеграции Азербайджана в мировую экономику и в формировании его стратегии.



**SUMMARY**

**HEYDAR ALIYEV LEGACY IN THE INTEGRATION OF AZERBAIJAN INTO THE WORLD ECONOMY**

***Taghiyev A.M.***

***Key words:*** *national leader, international integration, foreign policy, world economy, strategy*

The article includes a brief overview of the invaluable services of Heydar Aliyev, the National Leader of the Azerbaijani people, in strengthening statehood, reviving the country's economy and integrating it into the world economy after coming to power for the second time. It was after coming to power that H. Aliyev, as a broad-minded politician, was able to bring our young republic to the political and economic arena of the world. Therefore, in the article, the indispensable role of Heydar Aliyev in the integration of Azerbaijan into the world economy and in the formation of its strategy is given ample space.


## BİZNES FƏALİYYƏTİNDƏ MOTİVLƏŞDİRMƏNİN ÜSTÜNLÜKLƏRİ


**Tağıyeva Aidə Valeh qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*aidatagiyeva02@gmail.com*



***Açar sözlər:*** *biznes, motivasiya, uğur, motivatorlar, daxili və xarici motivasiya*

Motivasiya dedikdə insanın motivləri, onu hərəkətə sövq edən və uğur qazanmasına imkan verən proses başa düşülür. Başqa bir tərif də var, motivasiya insanların təşkilatlanmasını, fəaliyyətini müəyyən edən və davranışlarına nəzarət edən insan fəaliyyətinin təşkilidir.

Hər halda, istənilən layihə iş üçün qəbul olunduqda motivasiya xüsusilə önəmlidir, lakin bəzən müəyyən mərhələdə onun icrası dayandırılır. Bu vəziyyətin yaranma səbəblərindən biri də motivasiyanın haradan gəldiyini düzgün anlamamaqdır.

Əslində, motivasiya daha çox nəticədir. Motivasiyalı insan, nailiyyətlərini adekvat qiymətləndirən, öz gücünə inanan və qarşısına yeni məqsədlər qoyandır. O, nə üçün çalışdığını və hansı faydaları əldə edə biləcəyini bilir və bu ona enerji verir. Ona görə də, ən çətin anda belə ilk addımı atıb hərəkətə başlamaq vacibdir. İştah yeməklə gəldiyi kimi, işdə və həyatda uğur qazanmaq motivasiyası da ilk maneələri və çətinlikləri dəf etməklə gələcək. İstənilən təşkilatın rəhbərliyi qarşısında duran aktual məsələ kadrların motivasiyasıdır. Bununla belə, motivlər insanın davranış və hərəkətlərini müəyyən edir ki, bu da onun nöqteyi-nəzərindən məqsədə çatmağa və ehtiyacın ödənilməsinə səbəb olmalıdır [1. s. 9].

Motivasiya - təşkilat üzvlərinin onlara həvalə edilmiş vəzifələrə və plana uyğun olaraq təşkilati məqsədlərə nail olmaq üçün fəaliyyət göstərmələri üçün daxili motivasiya yaratmaq prosesidir. Motivasiyalar insanların hərəkətlərinə məqsəd və istiqamət verən psixoloji stimullardır. Bu stimullar özümüzdən gəlir.

Psixologiyada motivasiyanın müxtəlif növləri var:

- daxili motivasiya - ən təsirli motivasiyadır, çünki bu, fəaliyyətin məzmunu ilə bağlıdır. Əgər iş xoşdursa, zövq verirsə, həvəslə yerinə yetirilir;

- xarici motivasiyaya - maddi və qeyri-maddi həvəsləndirmələr (yəni mükafatlar, bonus almaq üçün daha çox işləmək və s.) aiddir ki, bu da insanı xarici amillərdən asılı olaraq iş görməyə sövq edir.

Belə bir fikir də vardır ki, güclü daxili motivasiyaya malik olan işçiləri rəhbər vəzifələrə götürmək daha məqsədəuyğundur. Onlar öz komandalarına daha effektli təsir edirlər və onu uğura aparırlar. Ancaq təcrübədən göründüyü kimi, biznesdə uğur qazanmaq üçün həvəsləndirmə səviyyələrinə etibar etmək daha səmərəlidir. Motivasiyanın 4 səviyyəsi qeyd olunur.

1. Pul. Ən aşağı səviyyədir. Bu motivasiya səviyyəsinə malik insanlar yalnız daha çox qazanmaq istəyi ilə hərəkətə gəlirlər. Onları idarə etmək ən çətindir, çünki gələcək üçün işləmirlər.

2. Şəxsi fayda. Bu, iş - status, təcrübə, əlaqələr, işləyən avtomobil və ya hətta evə yaxın bir yer vasitəsilə istədiyiniz faydaları əldə etmək istəyidir. Belə insanlarla işləmək də asan deyil, onlar üçün stimullar vacibdir və iş nə vaxtsa onlar tərəfindən tamamilə nifrətə çevrilə bilər.

3. Şəxsi inam. Bu səviyyədə istənilən yerdə peşəkar olmaq istəyi ilə idarə olunan insanlar var. Onlar nəticə əldə etmək üçün vəzifələrini yaxşı yerinə yetirsələr də, düzgün hesab etdikləri öz prinsiplərinə əməl edirlər.

4. Vəzifə borcu. İnsanı öz şirkəti naminə 100% ən yaxşısını etməyə təşviq edən ən yüksək səviyyədir.

Komandada daha yüksək motivasiya səviyyəsinə malik insanları seçmək və ya sonradan sadəcə məqsədlər və ideyalar vasitəsilə motivasiyanı artırmaq daha yaxşıdır [2, s. 5].

Kadrların idarə edilməsi üçün biznes motivatorları mühüm əhəmiyyət kəsb edir. Komandanı motivasiya etmək çətindir, ona görə də bir çox şirkətlər bu məqsədlə kənardan mütəxəssislər cəlb edirlər. Ancaq menecerin tək başına istifadə edə biləcəyi effektiv biznes motivatorları da var.

- Korporativ görüşlərin keçirilməsi. Birincisi, təlim düşərgəsində hər bir işçiyə şirkətin məqsədləri çatdırıla bilər. Əgər şirkətin əsas məqsədləri işçilərə aşılanıbsa və onlar öz üzərlərinə düşən öhdəlikləri anlayırlarsa, çox güman ki, şirkətin motivasiyası artacaqdır. İkincisi, görüşlər özünü vahid komandanın bir hissəsi kimi hiss etməyə, əhval-ruhiyyəni yüksəltməyə imkan verir.

- İşgüzar oyunların təşkili – işçilərdə həyəcan doğurur. Buraya əlavə xarici stimulların verilməsi, həmçinin qalibə mükafatın vəd olunması aid edilir.

- Planların, statistikanın formalaşdırılması. Statistik qrafiklər hər bir işçinin ümumi nəticəyə töhfəsini qiymətləndirməyə imkan verir. Bundan hamı faydalanır: kollektiv öz nailiyyətlərini görməyə və onlarla fəxr etməyə başlayır, menecer - vaxtında tədbir görmək üçün istehsalın səviyyəsi və problemlərini araşdıra bilir.

Həmçinin menecerin işçilərinin necə yaşadığını, hobbilərinin nə olduğunu bilməsi, mümkün olduqca dərslərində köməklik etməsi (istirahət günü və ya lazımi vaxtda plandankənar məzuniyyət vermək və s.) arzuolunandır. Bu cür imkanlar işdə uğur qazanmaq motivasiyasına birbaşa təsir göstərir: həyatda hər bir şey öz qaydasında gedirsə, insan daha yaxşı və daha həvəslə işləyir.

Motivasiyanın artırmasının əsas səbəblərini qeyd edək.

Motivasiya insana enerji verir. Bir insanda hormonların sərbəst hərəkəti artan motivasiya ilə bağlıdır. Qədim dövrlərdə belə atalarımız buna ehtiyac duyurdu:

- endorfinlər - onlara döyüş ağrılarına dözməyə kömək edir.
- adrenalin - təhlükəyə tez cavab vermək hissi yaradır;
- dopamin və serotonin nəticəni təmin edən hərəkətləri təkrar etməyə məcbur edir.

Eyni mexanizmlər bu gün də işləyir və biz onlardan şüursuz istifadə edə bilərik. Məsələn, görüləcək işlər siyahısından tamamlanmış bir tapşırığı keçmək insanı enerji ilə dolduran və yeni tapşırıqları yerinə yetirmək üçün güc verən endorfinləri qüvvətləndirir. Bu eyni hormonlar çətin tapşırıqları yerinə yetirərkən, stresli vəziyyətləri aradan qaldırarkən və bununla, qürur duyduqda ifraz olunur. Əsas motivator olan qorxuya cavab olaraq adrenalin ifraz olunur (məsələn: döyüş və ya uçuş zamanı). Biznesdə və həyatda uğur qazanmaq üçün motivasiyanın artırılmasında hormonların rolu haqqında biliklər aşağıdakı yollarla istifadə edilə bilər: insanı həqiqətən həyəcanlandıran layihələri seçmək, işə salmaq və ya işçilərə işlərinin dəyərini çatdırmaq. Hər iki halda, nəticənin aydın şəkildə başa düşülməsi adrenalinin sərbəst buraxılmasına və tapşırıqları yerinə yetirmək üçün enerjinin görünməsinə kömək edir. Tapşırığa həvəs nə qədər yüksək olarsa, iş bir o qədər səmərəli olar və insan ondan bir o qədər az yorğunluq hiss edər.

Motivasiya insanı daha xoşbəxt edir. Qarşısına məqsədlər qoyan və onlara çatan insan qürur, sevinc, məmnunluq hissi yaşayır. Buna görə də psixoloqlar uğurları daha tez-tez xatırlatmaq üçün mürəkkəb tapşırıqları sadə olanlara bölməyi məsləhət görürlər. Obyektiv qiymətləndirmə insanı xoşbəxt edir və daxili motivasiyanı artırır. Motivasiya başqalarını həvəsləndirir. Yaxşı bir nümunə də yoluxucu ola bilər. Ətrafda öz işi ilə məşğul olan, daimi gümrahlıq və enerji nümayiş etdirən bir insan varsa, çox güman ki, onlara yaxın başqaları da özlərini müsbət hiss edəcək və onu mənimsəyəcəklər. Komandada bu ya lider, ya da işçilərdən biri ola bilər. Bu qayda real həyatda da işləyir. Həyati enerjisi yüksək olan insanlar digərlərini cəlb edirlər. Onların yaxşı əhval-ruhiyyəsi başqalarına ötürülür. Öz enerjilərini ətrafa hiss etdirərək, onları da hədəfə doğru getməyə məcbur edirlər.

Motivasiya performansı artırır. Uğur qazanmaq üçün çox çalışmaq lazımdır. Motivasiya insanı maksimum səy göstərməyə məcbur edir, əldə etmək istədiyi nəticəni həyata keçirməyə imkan verir. Çikaqo Universitetlərinin alimləri bu qənaətə gəliblər ki, motivasiya hər halda faydalı ola bilər. Onlar məhsuldarlığı artıran amilləri araşdıraraq, işçiləri mükafatlandırmaq üçün ən əlverişli məqamı müəyyənləşdiriblər. Belə ki, mürəkkəb tapşırığı bir neçə kiçik hissəyə bölsəniz və maaş ödəsəniz və ya kiçik tapşırıqları yerinə yetirdiyiniz üçün bonus versəniz, işçilər iş prosesindən məmnun qalacaqlar və daha çox çalışacaqlar.

Motivasiya öz öhdəliklərinizi xatırlamağa və vaxtı daha səmərəli idarə etməyə kömək edir. Motivasiyalı insan nə üçün çalışdığını bilir və buna görə də hər şeyi daha həvəslə edir. Bu o deməkdir ki, bir anda motivasiya yox olarsa, hər şeyin niyə başladığını və artıq nə qədər səy göstərildiyini özünüzə xatırlatmaq vacibdir. Üstəlik, insanlar nəticəyə diqqət yetirir, vaxtında olmaq üçün cədvəllərini bacarıqla planlaşdırırlar. Bundan əlavə, onlar daha az tənbəl olurlar və tapşırıqları sonraya təxirə salmırlar, çünki ümumi məqsədə çatmaqda hər birinin rolunu başa düşürlər.

Motivasiya özünü inkişaf etdirməyə kömək edir. Biznesdə və həyatda uğur qazanmaq üçün yüksək motivasiya gec-tez özünü təkmilləşdirməyin nə qədər vacib olduğunu açıq şəkildə göstərir. Uğurlu insanların öz təcrübələrini paylaşdıqları kitabları oxumaqla, həvəsləndirici videolara baxmaqla yaxşı vərdişləri inkişaf etdirmək olar [3, s. 92].

İQ səviyyəsini - həyati enerji əmsalını yüksək səviyyədə saxlamaq mühüm rol oynayır. Güman edilir ki, insanı irəli getməyə və başqalarını fikirlərinizlə doldurmağa təşviq edən hərəkətverici qüvvə kimi çıxış edən məhz odur. Yeri gəlmişkən, insan İQ ilə doğulur, lakin enerjisini boş yerə sərf edərək, özünü boş hiss edir və nəticədə məhsuldarlığını itirir. Bu kəsiri doldurmaq üçün insan həmişə sevdiyi işlə məşğul olmalıdır, hədəfləri barədə aydın təsəvvür yaratmalıdır. İşçilərin İQ-ni artırmaq üçün kadrlarla işləyərkən menecer onların hər birinə öz potensialını üzə çıxarmağa kömək edə bilər, onlar üçün iş təsvirlərini, o cümlədən qiymətli son məhsulu aydın şəkildə təyin edə bilər, onların böyüməsini və inkişafını təşviq edə bilər. Motivasiya özünə güvən verir. Öz nailiyyətlərini dərk etmək özünə hörməti artırır, insanı özünə inamlı edir. Fəaliyyət isə inamın ardınca gəlir. Özünə inananlar daha tez qərar verir, daha həvəslə irəliləyir, hətta riskə gedirlər. Belə bir fikir var ki, biznesdə uğur üçün motivasiya qarşısı alınan uğursuzluqların sayına vurulan fəaliyyətdən ibarətdir. Başqa sözlə desək, insanın nailiyyətləri və uğurlu əməliyyatları nə qədər çox olarsa, uğursuzluqları da az olarsa, məqsədə bir o qədər inamla gedər. Həyatda çətinliklər olduqca tez-tez baş verə bilər və hər dəfə onlara görə özünüzə inamınızı itirməmək üçün müxtəlif yanaşmalardan, üsullardan, məsələn, oyunlaşdırmadan istifadə edə bilərik.

Oyunlaşdırma biznesdə uğur qazanmaq üçün motivasiyanı artırmaq yoludur. Bu termin oyun texnikalarının iş proseslərinə daxil edilməsinə aiddir. Məsələ insanları həyəcanlandırmaqdır, çünki insanlar oyunu sevirlər. Insight ONE-nin 2014-cü ildəki nəticələrinə görə, insanların 58%-i oyun oynayır (mobil və ya onlayn), oyunçuların orta yaşı 30-dur. Oyunlaşdırmanın lehinə, ofisdən kənarda işçilərin sevimli məşğuliyyətlərinə qərq olmağa hazır olmaları və iş yerində yuxuya gedə bilmələridir.

Oyunlaşdırmanı tətbiq edərkən onun prinsiplərinə riayət etmək vacibdir:

- bir iş oyunu təşkil edərkən, onun məqsədləri, nəticəni ölçmək üçün bir sistem üzərində düşünmək lazımdır;
- qaliblərin uğurlarını qeyd edəcəkləri bir növ tablo hazırlanmalıdır (başqaları da onların xidmətlərini görsələr, onda insanlar özlərindən daha çox razı olurlar);
- iş oyunlarının nəticələri ayın sonunda deyil, dərhal daxil edilməlidir (əmək məhsuldarlığını artırmaq üçün tapşırıq bir neçə kiçik hissəyə bölünməlidir).

Nəhayət, təşəbbüskarlıq təşviq edilməlidir: işçilər özlərini məqsədə necə nail olmağı seçməkdə sərbəst hiss etdikdə (əgər onlara iş deyil, nəticə üçün məsuliyyət həvalə olunubsa), onlar bir mütəxəssis kimi böyüyürlər və şirkət də onlarla birlikdə böyüyür.

Bundan əlavə, oyun üsulları heyətin emosional rifahına müsbət təsir göstərir, komandada dostluq dəstəkləyici münasibətlərin qurulmasına kömək edir və işçilər özlərini daha faydalı hiss edirlər.

Motivasiyanın yüksəldilməsi yolları aşağıdakılardır:

- Biznes uğurunda motivasiyanın rolunu qiymətləndirmək çətindir, lakin bununla yanaşı, özünü intizam da vacibdir. Bu, təkcə strategiya üzərində düşünmək, planlar qurmaq və onlara sadiq qalmaq deyil. İnsanların enerjilərini bərpa etməyə kömək edən məsləhətlərə də əməl etməsi vacibdir.
- Bir anda bir hərəkət etmək lazımdır. Çoxvəzifəli olmaq çox vaxt insanın diqqətini bir prosesə cəmləməyə və hər şeyi mümkün qədər yaxşı etməyə mane olur. Ancaq əhəmiyyətsiz tapşırıqları belə növbəli sıralasaq, vəziyyətə əhəmiyyətli dərəcədə təsir edə bilərik.
- İstənilən çevrilmədə sevinmək lazımdır. Bir çox insanların problemi, özlərini başqaları ilə müqayisə etdikləri üçün özlərini aşağı qiymətləndirmələridir. Eyni zamanda, özünüzü özünüzlə müqayisə etsəniz, ancaq bir il, beş il əvvəl kim idinizsə, daxili motivasiyanı əhəmiyyətli dərəcədə artıra və işdə, həyatda uğur qazana bilərsiniz.
- Öz taleyinin ağası olmaq lazımdır. Bunun üçün özünə inamı, intizamı, nikbinliyi inkişaf etdirmək, qarşısına iddialı məqsədlər qoyub onlara nail olmağı bacarmaq, həmçinin məsuliyyət daşımaq vacibdir. Çox güman ki, bu cür keyfiyyətlərə malik olan şəxs başqaları üçün - həmkarları və ya tabeliyində olanlar üçün yaxşı nümunə olacaq.

Nəticədə motivasiya insanların nailiyyətlərinin fərqində olması ilə birbaşa bağlı olduğundan, uğur qazanmaq üçün yalnız öz zəif cəhətlərini görməyi dayandırmalı və güclü tərəflərinə ciddi diqqət yetirməlidir.

- özünüzü daha az tənqid etmək, nailiyyətlərə daha çox sevinmək, bu böyük bir mənbə verir;
- ağlabatan olmaq, istənilən vəziyyətdə düzgün nəticə çıxarmaq;
- uğurlu insanlarla ünsiyyət qurmaq və onlardan yaxşı vərdişlər, həyata və biznesə münasibət də daxil olmaqla öyrənmək;
- daim təkmilləşdirmək, hərtərəfli inkişaf etmək.

Yaxşı motivatorlar da bunlardır: müsbət düşüncə, məqsədlərin vizuallaşdırılması. Hara getdiyini aydın görmək vacibdir [4, s. 65 ].

Uğurlu insanlar aşağıdakı vərdişləri tövsiyə edirlər:

- rejimi tənzimləmək və günəş çıxmazdan əvvəl oyanmaq;
- məşqlər və ya səhər qaçışı etmək, çünki hərəkət həyatdır;
- sağlam bitki qidaları seçərək səhər yeməyinə əmin olmaq.

Nəhayət, məqsədə gedən yolda tapşırıqlarınızı daha effektiv şəkildə yerinə yetirmək üçün hər gün yeni bir şey öyrənmək lazımdır.

Davamlı olmaq və təslim olmamaq da vacibdir və əgər bir şey alınmırsa, sınaqdan keçirmək və ən sərfəli həll yolunu axtarıb tapmaq lazımdır.

Bu sadə məsləhətlərə əməl etmək məqsədəuyğundur:

- gündən-günə daha yaxşı inkişafa nail olmaq üçün hər gün öz üzərində çalışmaq;
- səni ruhlandıran işlərlə məşğul olmaq;
- nə olursa olsun işi həmişə yüksək keyfiyyətlə yerinə yetirmək;
- öyrənməyi heç vaxt dayandırmamaq, bacarıqları daim inkişaf etdirmək;
- səbəbləri yox, imkanları axtarmaq;
- həmişə vədlərə əməl etmək;
- düşmələr qaçılmazdır, əsas odur ki, onlardan sonra qalxmaq;
- problemlərə deyil, onların həlli variantlarına diqqət yetirmək;
- mehriban və nəcib olmaq;
- yalnız fiziki deyil, həm də psixi vəziyyətə diqqət yetirmək.

Nəhayət, həyatda nizam evdə nizamla başlayır.

Hədəflərə çatmaq yolunda ən vacib amil motivasiyadır. Lazım gələrsə, düzgün prioritetləşdirməyə və ya daha çox səy göstərməyə kömək edən də motivasiyadır. Əsas odur ki, tək özünü deyil, həm də kollektivi komanda kimi böyütmək, şirkəti yetişdirmək və inkişaf etdirmək üçün motivasiya etmək lazımdır.

## Ədəbiyyat


1. Ермакова Н. С. Мотивация и стимулирование трудовой деятельности: учеб. пособие / АНОО ВО "СИБИТ", Омск: Изд-во Ом ГТУ, 2021, 148 с.
2. Борискина Т. Б. Мотивация и стимулирование персонала: учебно-методическое пособие/ Т. Б. Борискина, О. С. Пескова, О. В. Юрова, А. И. Чунаков; Волг ГТУ., Волгоград, 2018, 128 с.
3. Сладкевич В.П. Мотивационный менеджмент. К.:МАУП, 2001, 161 с.
4. Карамнова Н.В. Мотивация и стимулирование трудовой деятельности государственных служащих: учебное пособие / Н.В. Карамнова, В.М. Белоусов. Мичуринск: Изд-во Мичуринского ГАУ, 2020, 175 с.



**РЕЗЮМЕ**

**ПРЕИМУЩЕСТВА МОТИВАЦИИ В БИЗНЕСЕ**

***Тагиева А.В.***

***Ключевые слова:*** *бизнес, мотивация, успех, мотиваторы, внутренняя и внешняя мотивация*

Мотивация в бизнесе является одним из главных факторов успеха и служит для достижения амбициозных целей. Не все понимают, что такое истинная мотивация и ее источник, не умеют ею управлять, а потому не могут использовать личный потенциал своих сотрудников. Принято считать, что мотивация – это энергия, некая внутренняя сила, которая заставляет человека идти вперед и усерднее работать.



**SUMMARY**

**ADVANTAGES OF MOTIVATION IN BUSINESS**

***Taghiyeva A.V.***

***Key words:*** *business, motivation, success, motivators, internal and external motivation*.

Motivation in business is one of the main factors for success and serves to achieve and achieve ambitious goals. Not everyone understands what true motivation is and its source, does not know how to manage it, and therefore cannot use the personal potential of their employees. It is generally accepted that motivation is energy, a kind of internal force that makes a person go forward and work harder.


# AZƏRBAYCANIN DÜNYA DÖVLƏTLƏRİ İLƏ İQTİSADİ ƏLAQƏLƏRİNİN FORMALAŞDIRILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ


**Tağıyeva Vəfa Eldar qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan*

nurana.tagizade@mail.ru



***Açar sözlər:*** *neft, müqavilə, siyasi xadim, iqtisadi, əlaqə, coğrafi mövqe*


Azərbaycan Respublikası qədim tarixə malik olduğu kimi, həm əlverişli iqlim şəraitinə həm də mühüm coğrafi mövqeyə malikdir. Onun coğrafi mövqeyinin üstünlüklərindən biri də Respublikanın Avropa ilə Asiyanın darvazasında yerləşməsidir. Vətənimiz Azərbaycan ön Asiyada yerləşir. Böyük ipək yolunun Azərbaycan ərazisindən keçməsi, onun qərblə şərq arasındakı strateji əhəmiyyətli mövqe tutması onu bütün dünyaya tanıtdırmışdır. Azərbaycan Respublikası həm də zəngin təbii resurs potensialına malikdir. Onun ərazisində zəngin karbohidrogen ehtiyatı olduğu kimi, zəngin mineral resurslar, eyni zamanda yüksək keyfiyyətli əlvan metallar vardır. Rəngarəng iqlim ehtiyatları Azərbaycanın yerüstü təbii ehtiyatlarının növ zənginliyinə gətirib çıxarmışdır ki, bu da müxtəlif nov meyvə-tərəvəz, bostan bitkiləri, iqtisadi əhəmiyyətli şəkər çuğunduru və lifli bitkilərin yetişməsinə şərait yaratmışdır.

Bütün bunlarla yanaşı Azərbaycan eyni zamanda zəngin flora və faunaya malikdir. Respublikada olan bitki və heyvanların növ tərkibinin müxtəlifliyini qorumaq üçün müxtəlif qoruqlar və yasaqlıqlar salınmışdır [5, s 173].

Azərbaycanın tarixinin qədim olmasını dünyanın qabaqcıl coğrafiyaşunaslarının ölkəmiz haqqındakı söylədiyi fikirlərdən görmək olur. Belə ki, b. e. ə. I əsrdə yaşamış, yunan alimi Strabon öz yazdığı «Coğrafiya» adlı kitabında Azərbaycanın Kürboyu düzənliklərinin hətta Babil və Həbəş ərazilərindən də əkinçilik üçün yararlı olduğunu vurğulamışdır. XV əsrdə yaşamış Bakuvi hələ o dövrdə

Azərbaycan iqliminin rəngarəng olduğunu müəyyən etmiş və dünyada 7 iqlim tipinin olduğunu, Azərbaycan ərazisinin hətta 4 və 5-ci iqlim qurşağında yerləşdiyini sübut etməyə çalışmışdır [2, s 87].







*Azərbaycanın coğrafi mövqeyi*

Bütün bu üstünlüklərə malik olması məhz Azərbaycanın ətraf regionundakı dövlətlərin nəzər diqqətini cəlb etmişdir. Belə ki, yadelli işğalçılar Azərbaycan ərazisinə hücum etmiş və torpaqlarımızı ələ keçirməyə çalışmışdır. Ona görə də Azərbaycan xalqının və dövlətinin başı daima bəlalar çəkmişdir. Lakin Respublikamıza olan bu təqiblərin qarşısı Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçıları tərəfindən alınmışdır. Görkəmli siyasi xadim Heydər Əliyev Azərbaycanın istər siyasi, istərsə də iqtisadi qüdrətinin yüksədilməsində mühüm rol oynamışdır.

Azərbaycan Respublikası Böyük ipək yolunun üzərində yerləşdiyi kimi həm də Xəzər dənizinin sahillərində strateji mövqedə yerləşir [3, s 87].







*Xəzər dənizi*

Xəzər 5 ölkənin dənizidir. Azərbaycan Xəzər dənizi vasitəsi ilə Qazaxıstan, Rusiya, Türkmənistan, İran Respublikası ilə həmsərhəddir. Xəzərin Azərbaycan akvatoriyası zəngin karbohidrogen ehtiyatları ilə zəngindir. Burada Azəri, Çıraq, Günəşli kimi iqtisadi əhəmiyyətli neft yataqları vardır ki, bunlar da Azərbaycanın dünyaya tanınmasında mühüm əhəmiyyət kəsb edir [1. s.76] .

.





*Azəri, Çıraq, Günəşli neft yataqları*

Ulu Öndərin Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə, xalqın firavan yaşamasına dair göstərdiyi xidmətlərdən biri də, !994-cü ildə imzaladığı "Əsrin müqaviləsi", adlı neft ixracı sazişi idi. Müqavilə zamanı dünyanın 13 iri transmilli şirkəti bu forumda iştirak etmişdir. Əsrin müqaviləsi, Azəri, Çıraq, Günəşli neft yataqlarının sahibi Azərbaycan, ABŞ, Türkiyə, Yaponiya, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, Norveç, Rusiya dövlətləri arasında imzalanmışdır.



*Əsrin müqaviləsi*

Qafqaz ölkələri arasında Azərbaycan Respublikası ABŞ-ın ən böyük ticarət marağında olan dövlətdir. Cənubi Qafqaz Region ölkələri arasında xarici sərmayələr ən çox Azərbaycana qoyulmuşdur. Azərbaycan Respublikasının ABŞ-la xarici ticarət dövriyyəsi getdikcə artır. Respublikadan ABŞ -a əsasən xam neft və yanacaq məmulatları ixrac olunur. İdxal məhsullarına isə istehsalı baha başa gələn qızıl məmulatları, təyyarə və onun avadanlıqları, nəqliyyat vasitələri, cihazlar, dəzgahlar, borular, və s. daxildir.

Azərbaycan məhz neft müqaviləsi ilə dünya iqtisadiyyatına inteqrasiya etmişdir. Azərbaycanın iqtisadi gücünün formalaşmasında xarici ölkələrin qoyduğu investisiyaların əhəmiyyəti böyükdür [2, 147] .



*Azərbaycanın təbii ehtiyatlar xəritəsi*

Azərbaycan Respublikası quruda Gürcüstan Respublikası, Rusiya Federasiyası, Türkiyə və İran İslam Respublikası və bədnam qonşularımız Ermənistan ilə həmsərhəddir. Onun Rusiya Federasiyası ilə güclü iqtisadi əlaqələri vardır. Azərbaycanın yetişdirdiyi meyvə-tərəvəz və bağ-bostan bitkiləri Rusiya bazarında ən çox istehlak olunan təsərrüfat məhsulları hesab olunur. Ölkə başçıları İlham Əliyevlə Vladimir Putin arasında müttəfiqlik memarandumu imzalanılmışdır ki, bu da təməli Ulu Öndər tərəfindən qoyulmuş mükəmməl siyasətinin davamı kimi qiymətləndirilir [6, s 84].



*İlham Əliyev və Vladimir Putin arasındakı müttəfiqlik momarandiumunun imzalanma mərasimi*

Türkiyə Respublikası ilə Azərbaycan arasındakı iqtisadi əlaqələr durmadan inkişaf edir. Azərbaycanın iqtisadi qüdrətinin artmasında Türkiyənin rolu böyükdür. Respublikamıza davamlı investisiya qoyan da məhz Türkiyə Respublikasıdır. 1998-ci ildə "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşası ilə bağlı Azərbaycan, Türkiyə və Gürcüstan Respublikası arasında memorandum imzalanmışdır [5.s 123] .

Cənub Qaz Koridorunun strateji əhəmiyyətli Tanap qaz layihəsi Türkiyə və Avropa dövlətlərinin enerji resurslarının təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Tanap qaz boru kəmər vasitəsi ilə Türkiyəyə ilk qaz verilişinə 2018-ci ildə start verilmişdir. Cənub Qaz Koridorunun başqa qolu Trans-Adriatik Təbii Qaz Boru Xəttinə Tap layihəsi qoşularaq, Bolqarıstan, Albaniya, İtaliya və Yunanıstan, dövlətlərinin ərazisindən keçərək Avropaya nəql edilmişdir.

## Ədəbiyyat


1."Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004- 2008-ci illər): Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2007, 204 s.
2. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Bakı Universitetinin nəşriyyatı, 2010. 410 s.
3. Azərbaycan dövlət statistika komitəsi. ARDSK
4. Azərbaycan regionları. Bakı: ARDSK, 2017, 806 s.
5. Azərbaycan kənd təsərrüfatı. Bakı: ARDSK, 2017, 608 s.
6. Paşayev N.Ə., Əyyubov N.H, Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. 2010, 416 s.
7. Azərbaycan Respublikasının Coğrafiyası. III cild Regional coğrafiya. 2015. 438 s.
8. Nadirov A. A., Məmmədov Q.Ş. Məmmədov R. M., Əfəndiyev V.Ə. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. 2010, s.470
9. Azərbaycan Respublikasının coğrafiyası III cild Fiziki Coğrafiya. 2015, 421 s.
10. Azərbaycan Respublikası Konstruktiv Coğrafiyası. III hissə Bakı 2000, 436 s.


**РЕЗЮМЕ**

**ИСТОРИЧЕСКИЕ ЗАСЛУГИ ГЕЙДАРА АЛИЕВА В СТАНОВЛЕНИИ И РАЗВИТИИ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА С ГОСУДАРСТВАМИ МИРА**


***Тагиева В. Е.***



***Ключевые слова:*** *нефть, контракт, политический деятель, экономические отношения, географическое положение*



В статье анализируются заслуги великого лидера Гейдара Алиева в подъеме Азербайджана на экономической и политической арене. Была представлена подробная информация о расширении связей республики с прикаспийскими государствами. Объясняется азербайджанская акватория Каспийского моря, ее нефтяные месторождения, а также ее продуктивность. Контракт века и его роль в укреплении экономической мощи Азербайджана также повлияли на заслуги Великого лидера Гейдара Алиева в этой области. Показано положение Азербайджана в мировой экономике. Комментируется роль стран в экономической и политической жизни нашего государство, имеющих с нами сухопутную границу.

**SUMMARY**
**HISTORICAL MERITS OF HEYDAR ALIYEV IN THE FORMATION AND DEVELOPMENT OF AZERBAIJAN'S ECONOMIC RELATIONS WITH THE STATES OF THE WORLD**
***Taghiyeva V.E.***

***Key words:*** *oil, contract, political figure, economic, relationship, geographical position*
The article analyzes the merits of the great leader Heydar Aliyev in the rise of Azerbaijan in the economic and political arena. Detailed information was provided on the expansion of the republic's ties with the Caspian states. The Azerbaijani water area of the Caspian Sea, its oil fields, as well as its productivity are explained. The contract of the century and its role in strengthening the economic power of Azerbaijan also influenced the merits of the Great Leader Heydar Aliyev in this area. The position of Azerbaijan in the world economy is shown. The role of countries in the economic and political life of our state that have a land border with us is commented.

# MÜASİR ŞƏRAİTDƏ TİKİNTİ LAYİHƏLƏRİNİN OPTİMALLAŞDIRILMASINDA MÜXTƏLİF ÜSULLARIN TƏTBİQİ İMKANLARI

**Yusifov Elşad Məsim oğlu**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan*
*elshad.yusifov@azmiu.edu.az*

***Açar sözlər:*** *planlaşdırma, optimallaşdırma, layihə alqoritmləri, layihə menecmenti, risklər*

**Giriş.** Əhalinin artması ilə əlaqədar urbanizasiyanın baş verməsi sənayeləşmə prosesində planlaşdırmaya və onun təkmilləşdirilməsinə tələbi artırır. Həmçinin milli inkişaf göstəricilərini artırmaq üçün aparılan araşdırmalar bütün dünyada “planlaşdırma” anlayışının inkişafına səbəb oldu. Mürəkkəb layihələrin artması və hər bir layihənin özünəməxsusluğu planlaşdırmanı mühüm bir parametr kimi qəbul etməyə imkan verir. Vaxt, qiymət və keyfiyyət parametrlərinin optimallaşdırılması müasir layihə idarəetməsinin ən əvəzsiz missiyasıdır. Layihələrdə gecikmələrin planlaşdırma və maliyyələşdirməyə təsiri layihədə maraqlı tərəflərə və xüsusilə də, layihə meneceri üçün əhəmiyyətlidir.

Layihə menecmenti müasir idarəetmədə mühüm rol oynayır. Layihə menecmenti layihə üzrə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün layihə fəaliyyətlərində bilik, bacarıq, alət və texnikanın tətbiq edilməsi kimi də qeyd oluna bilər. Layihənin idarə edilməsində vaxt, xərc və risk kimi əsas layihə anlayışları bir-birinə zidd olan terminlərdir və onlar layihənin maraqlı tərəflərinin arzu olunan məqsədlərinə nail olmaq üçün layihə fəaliyyətlərinə müvafiq şəkildə təyin edilməlidir [1, s. 105-106]. Layihə sahibinin podratçıdan tikinti prosesi üzrə vaxtı qısaltmağı tələb etdiyi müəyyən hallar mövcuddur. Bu addım layihənin ümumi dəyərinin və layihə üzrə riskin artmasına səbəb ola bilər. Layihənin icrasını sürətləndirmək üçün layihə menecerləri əlavə işçi qüvvəsi cəlb etməklə və ya məhsuldar avadanlıqdan istifadə etməklə planlaşdırılan icra müddətini azaltmalıdırlar. Lakin, bu fikir xərcləri və riski artıracaq, buna görə də fəaliyyət prosesində işlərin tamamlanma müddətini qısaltmaq lazımdır.

**Layihələrin idarə edilməsinin spesifik texnikaları.** Tələb olunan vaxta uyğunlaşma layihə menecerləri tərəfindən ən az əlavə xərclə layihələrin tələb olunan tamamlanma müddətinə çatmaq üçün tətbiq edilən ümumi bir yanaşmadır. Əslində, tələb olunan vaxta uyğunlaşma tamamlanma vaxtı ilə layihənin dəyəri arasında mübadilə edərkən layihə fəaliyyətlərinin icra müddətinin dəyişdirilməsi ilə mümkün olur. Vaxt-xərc dəyişikliyi problemlərində risklərin həllində bir neçə yanaşma tətbiq edilmişdir [3].

Layihənin əsas məqsədi planlaşdırılan işləri müəyyən edilən vaxtda, nəzərdə tutulan qiymətdə və keyfiyyətlə başa çatdırmaqdır. Tikinti layihələri müəyyən bir təşkilat və model daxilində baş verən yüzlərlə fəaliyyətdən ibarətdir. Bu fəaliyyətlər ardıcıllıqla bir-biri ilə əlaqələndirilir. Hər bir fəaliyyətin xərc, vaxt və keyfiyyət üçün çoxlu alternativləri ola bilər. Layihə nə qədər böyükdürsə, bu alternativlər arasında seçim etmək bir o qədər çətindir. Çox sayda müxtəlif vaxt, xərc və keyfiyyət variantları ortaya çıxa bilər. Layihəyə ayrılan vaxt və resursların miqdarını hesablamaq mümkün olmur. Minimum müddətə, minimum xərcə və maksimum keyfiyyətə cavab verməsi planlaşdırılan layihələr üçün heç bir məqam bu üç şərtə cavab vermir. Xərc azaldıqca layihənin müddəti arta və ya keyfiyyəti azala bilər. Layihənin müddəti qısaldıqca keyfiyyətin aşağı düşməməsi üçün xərclərin artırılması tələb olunur. Minimum vaxt, minimum xərc və maksimum keyfiyyətdən ibarət bütün bu meyarlara cavab verən həll yolu tapmaq mümkün deyil. Buna görə də, layihənin xüsusiyyətlərindən asılı olaraq layihə menecerinin diqqətinin bu xüsusiyyətlərdən birinə cəmlənməsi gözlənilə bilər. Layihədə yüzlərlə fəaliyyət olduğundan və hər bir fəaliyyət üçün fərqli vaxt, xərc və keyfiyyət variantları mövcud olduğundan, uyğun seçim etmək çətindir. Alqoritmlərdən istifadə

etməklə minlərlə alternativdən istənilən nəticəni əldə etmək mümkün olur. Layihənin gedişatı layihələrin hansı xüsusiyyətlərinin daha vacib olduğunu müəyyən etməklə tənzimlənə bilər.

Tikinti resurslarından istifadənin optimallaşdırılması sahəsində xeyli tədqiqat aparılmışdır. Optimallaşdırma problemlərindən biri olan xərcləri və vaxtı minimuma endirmək üçün müxtəlif fikirlər irəli sürülmüşdür. Bununla belə, vaxt-xərc-keyfiyyətin optimallaşdırılması məsələsi ilə bağlı təkmilləşdirmələr daimi olaraq həyata keçirilməlidir. Burada xətti proqramlaşdırma, tam proqramlaşdırma, dinamik proqramlaşdırma, evristik və meta-evristik alqoritmlər daxil olmaqla, müxtəlif üsullardan istifadə etməklə hazırlanmış bir sıra optimallaşdırma modellərindən istifadə edilir. Bu modellər optimallaşdırma məqsədlərinə görə aşağıdakı kimi təsnif edilə bilər:

- layihənin müddətini minimuma endirən və yaxud resursdan istifadəni yaxşılaşdıran modellər;
- tikinti layihələri üçün vaxtı və xərcləri vaxt-xərc nisbəti təhlilindən istifadə etməklə minimuma endirən modellər.

Tikinti layihəsini planlaşdıranların ən çətin vəzifələrindən biri layihənin müddətini, layihə-təklif qiymətini və layihənin maksimum dövriyyə kapitalını minimuma endirmək və xalis cari dəyərini maksimuma çatdırmaq üçün eyni vaxtda resurs istifadəsini optimallaşdırmaq ehtiyacıdır. Layihə planlaşdırıcıları mübadilə təhlilinin aparılmasını tələb edən mürəkkəb çoxvariantlı, çoxməqsədli optimallaşdırma problemləri ilə üzləşirlər. Həmçinin, fəaliyyətlərin həyata keçirilməsi üçün çoxməqsədli optimallaşdırma ilə bağlı tikinti idarəetmə qərarları layihələrin erkən planlaşdırma mərhələsində qəbul edilir, lakin texniki-iqtisadi əsaslandırma mərhələsində bir çox mümkün ssenarilər nəzərə alınmalıdır. Genetik alqoritmlər və digər kimi təkamül alqoritmləri ənənəvi metodların mövcud olan məhdudiyyətlərini aradan qaldırmaq və tikinti layihəsinin planlaşdırılmasında eyni vaxtda optimallaşdırma problemlərini həll etmək üçün qabaqcıl hesablama optimallaşdırma metodları kimi tətbiq edilir.

Layihənin planlaşdırılması üçün istifadə edilən texnika şəkil 1.-də göstərildiyi kimi layihənin ölçüsündən, mürəkkəbliyindən, müddətindən, işçi heyətindən və sahibinin tələblərindən asılı olaraq dəyişəcək.




***Mənbə:*** *Şəkil müəllif tərəfindən müxtəlif mənbələrin tədqiq edilməsi əsasında hazırlanmışdır.*

**Şəkil 1.** Tikinti layihələri üçün mövcud planlaşdırma üsulları.

Səkil 1-ə əsasən tikinti layihələrini iki əsas qrupa ayırmaq mümkündür. Birincisi, təkrar olunmayan fəaliyyətləri olan layihələrdir. İkinci qrup bir neçə mərhələdən ibarətdir. Təkrarlanmayan fəaliyyətləri olan layihələr iki əsas qrupa bölünür.

Təkrarlanan tikinti layihələrinin planlaşdırılması çoxlu sayda qərar dəyişənləri, məhdudiyyətlər və vaxt və xərclər arasında mübadilələr səbəbindən daha mürəkkəb və çətin olur. “CPM” kimi ənənəvi vaxta əsaslanan planlaşdırma üsulları fəaliyyətin davamlılığını təmin etmədiyi üçün təkrarlanan tikinti layihələrinin planlaşdırılmasında səmərəsizdir.

Hər bir fəaliyyət üçün tikinti metodlarının çoxsaylı variantları ilə təkrarlanan tikinti layihələrinin planlaşdırılması üçün dəqiq xətti optimallaşdırma modelinin işlənib hazırlanması həyata keçirilməlidir. Optimallaşdırma modeli üç mərhələdə hazırlanır:

- qərar dəyişənlərinin müəyyən edilməsi;
- məqsəd funksiyası və məhdudiyyətlərin formalaşdırılması;

- model hesablamalarının həyata keçirilməsi.

**Layihələrin planlaşdırılması alqoritmləri və optimallaşdırılması**. Müvafiq bölmədə hər bir fəaliyyətin başlama vaxtını, işçi heyətin sayını, qrupların boş vaxtını və tikinti metodlarını modelləşdirmək üçün qərar dəyişənləri müəyyən edilir. Məqsəd funksiyası layihənin ümumi dəyərini minimuma endirmək üçün nəzərdə tutulur, o cümlədən fəaliyyətlərin birbaşa məsrəfləri, fəaliyyətlər üçün əlavə işçi qrupların dəyəri və bütün layihə ərzində qrupların boş qalması xərcləri müəyyən edilir. Bundan əlavə, müəyyən edilmiş həllin praktikliyini təmin etmək üçün modelə bir sıra məhdudiyyətlər inteqrasiya edilir.

Tikinti layihəsinin planlaşdırılmasının optimallaşdırılması kimi tanınan ümumi optimallaşdırma problemlərinin xüsusi növləridir. Optimallaşdırma problemləri 1960-cı illərdən bəri öyrənilir və xüsusilə çətin problem hesab olunur [4 , s. 385]. Tipik olaraq, tikinti layihəsinin planlaşdırılmasında mürəkkəb optimallaşdırma problemlərini həll etmək üçün şəkil 2.-də göstərildiyi kimi üç üsul var.




***Mənbə:*** *[4, s. 385].*

**Şəkil 2.** Layihə planlaşdırmasının alqoritminin sxemi.

1. Evristik yanaşmalar: bu yanaşmalar qərar qəbul edənlərin əsas qaydalarına və təcrübəyə əsaslanan üsullardır. Problemləri həll etmək üçün evristik üsullar əvvəlki təcrübəyə əsaslanır. Bu, analitik alqoritmlərlə müqayisədə sadələşdirilmiş bir alqoritmdir, çünki hesablama əl ilə edilə bilər, bu optimal deyil. Vaxt keçdikcə, ixtisaslı resursların köməyi ilə planlaşdırma resurslarının həlli üçün evristik metodun modifikasiyası baş vermişdir. Tədqiqatlar göstərir ki, bu üsul əvəz edilə bilən resurs haqqında məlumatdan istifadə etməyə imkan verir. Nəticə etibarı ilə, layihə xərclərinin və vaxtının azalması kimi, az istifadə olunan resurslar, çatışmazlıq şəraitində məhdud resursları əvəz etmək üçün birləşdirilə bilər. Bu metodun çatışmazlıqları digər əvəzedici alternativlərin nəzərə alınmaması və metodların özlərinin kompüterdə hesablanmaması, mümkün həllərin bütün spektrini ehtiva etməməsi, optimallığı təmin etməməsi və konkret problemlərdən asılı olmasıdır [2].

2. Riyazi proqramlaşdırma üsulları: bu üsullar icazə verilən çoxluqlar daxilində həqiqi və ya tam dəyişənlərin qiymətlərini sistematik şəkildə seçməklə real funksiyanı minimuma endirmək və ya maksimumlaşdırmaq istəyən optimallaşdırma məsələlərini həll etmək üçün tətbiq olunan üsullardır;

3. Təkamül alqoritmləri: bu alqoritmlər növlərin təbii bioloji təkamülünü və sosial davranışını təqlid edən stoxastik axtarış metodlarıdır.

Geniş miqyaslı tikinti layihəsində resurs bölgüsünü optimallaşdırmaq üçün çoxməqsədli genetik alqoritm tətbiq edilir [6, s. 1091]. Bəzi tədqiqatçıların fikrinə görə müvafiq alqoritmdən istifadənin faydasına baxmayaraq, ona optimala yaxın həlli yaratmaq üçün lazım olan vaxt həddindən artıq ola bilər. Daha yeni bir nümunə müxtəlif məqsədlər üçün, çoxməqsədli optimallaşdırmanı yerinə yetirmək üçün genetik alqoritmlərdən istifadədir ki, burada layihənin müddəti, layihənin dəyəri və ümumi çirklənmənin səviyyəsinin müəyyən olunması həyata keçirilir. Bu da müasir dövrdə ekoloji amillərin prioritet səviyyədə olması ilə əlaqədardır. Əsas məqsəd ümumi çirklənməni minimuma endirməyə və onun zaman amili, həmçinin də xərclə əlaqəsini müşahidə etməyə yönəldilmişdir. Burada dəyişənlər arasında riyazi əlaqələr tələb olunmur. Təkamül alqoritmlərinin bu xarakteristikası onları vaxt, xərc və ətraf mühitə təsir təhlilləri üçün arzuolunan edir, çünki aralarındakı əlaqələr məlum deyil, lakin onların hər biri müstəqil olaraq təhlil və hesablana bilər. Qeyd edilən alqoritmlərindən istifadə edərək təhlillərin nəticələri adətən pareto üsulu, yəni optimal həllər toplusu kimi təqdim olunur. İstifadəçilərə düzgün həll variantını seçməkdə kömək etmək üçün qərar vermə üsulları tətbiq oluna bilər Ümumiyyətlə, xətti tikinti layihələrinin planlaşdırılması üçün genetik alqoritmə əsaslanan çoxməqsədli optimallaşdırma modeli də mövcuddur. Model arzuolunmaz resurs dəyişkənliyini minimuma endirən optimal və praktik cədvəlləri axtarmaq üçün nəzərdə tutulmuşdur və eyni zamanda resurslara olan pik tələbi minimuma endirir. Model üç əsas modulda hazırlanmışdır:

- hər bir fəaliyyət üzrə ilkin layihə cədvəlini və ümumi axını hesablamaq üçün başlanğıc modulu;
- resursdan istifadənin səmərəliliyini maksimuma çatdıran optimal cədvəllər toplusunu axtarmaq və müəyyən etmək üçün modul;
- qeyri-kritik fəaliyyətlərin dəyişdirilməsinin resursdan istifadənin səmərəliliyinə təsirini qiymətləndirmək üçün resursların bərabərləşdirilməsi modulu.

Həmçinin, təkrar fəaliyyətləri olan layihələr üçün qeyri-səlis təkrarlanan planlaşdırma metodundan istifadə edilə bilər. Tikinti layihəsinin planlaşdırılması zamanı layihənin vaxtı, dəyəri və ətraf mühitə təsiri layihə məqsədləri kimi nəzərə alındıqda optimal tikinti əməliyyatlarını müəyyən etmək üçün nəzarət hesabları konsepsiyasına əsaslanan çərçivə müəyyən edilməlidir. Çərçivə həmçinin həssaslıq təhlilindən istifadə etməklə qərar qəbul etməyi tələb edir. Həyat dövrünün qiymətləndirilməsi “Qlobal İstiləşmə Potensialı” baxımından ətraf mühitə təsirin qiymətləndirilməsinə tətbiq edilir. Lakin “Qlobal İstiləşmə Potensialı - GWP”-nin əslində iqlim dəyişikliyinin hansı aspektini təmsil etdiyinə dair spesifiklik yoxdur [5, s. 19].

Layihələrin özünəməxsus riskləri var ki, bu da layihə iştirakçılarına müxtəlif vaxtlarda fərqli təsir göstərir. Riski başa düşmək və idarə etmək bacarığı layihədən asılı olaraq dəyişir. Optimallaşdırılmış layihədə risklər fərqli deyil, lakin onların fərqli şəkildə azaldılması ehtimalı var. Risklərin idarə edilməsi məqsədilə digər bir imkan, ümumi layihə riskini idarə edən məhsul konsepsiyasıdır.

Optimallaşdırılmış tikinti layihələrinin faydalarını həyata keçirmək üçün rəhbərlər fərqli davranmalıdırlar. Optimallaşdırılmış prosesə nail olmaq məqsədilə zəruri olan transformasiyanın əsas elementlərinə aşağıdakılar daxildir:

- xərclərə diqqət yetirmək;
- kompensasiya;
- stimullar;
- əvvəlcədən planlaşdırma;
- müqavilə, hüquqi və ya tənzimləyici məhdudiyyətlər;
- fövqəladə hallar üzrə xərclərin idarə edilməsi;
- texnologiya;
- məlumat mübadiləsi.

Optimallaşdırılmış layihə prosesinin ən vacib konsepsiyası yalnız minimum ilkin xərclər deyil. Bu, komanda və ya layihə təşkilatındakı bütün tərəflərə aiddir. Həll yolu ən aşağı qiymətlə deyil, ən səmərəli qiyməti müəyyən etməkdir. Optimallaşdırılmış layihənin dəyəri sadəcə olaraq layihənin uğuru üçün vacib olan bir sıra amillərdən biridir və onların hamısı balanslaşdırılmalıdır. Yalnız maya dəyəri ilə ölçülən səmərəlilik zəif qərarlara, faktiki səmərəsizliklərə və nəticədə xərclərin artmasına səbəb olur.

**Nəticə.** Fəaliyyətin nəticələrinin qiymətləndirilməsi layihənin gedişatını izləməyi və ona nəzarət etməyi asanlaşdırır. Layihəyə nəzarət iki qiymətləndirmə və qərar qəbul etmə kimi əsas mərhələdən ibarətdir. Qiymətləndirmə mərhələsində əsas göstəricilər layihənin müxtəlif aspektlərini qiymətləndirmək üçün nəzərdə tutulmuşdur və layihənin mövcud vəziyyətini müəyyən etmək üçün indikator kimi istifadə olunur. Qərar vermə mərhələsində layihənin icrası proqnozlaşdırılır və lazımi idarəetmə tədbirlərinə dəstək məqsədilə təhlil edilir. Layihələrin kəmiyyət göstəriciləri üzərində xeyli iş olsa da, keyfiyyət göstəricilərinə daha az diqqət yetirilir.

Layihələrin səmərəliliyinin artırılması məqsədilə optimallaşdırılmanın həyata keçirilməsi müxtəlif amillərin təsiri nəticəsində baş verir. Layihənin icrasının effektiv nəticələrini əldə etmək üçün tətbiq edilən üsulların aşağıdakı bir neçə kriteriyaya uyğun olduğuna diqqət yetirmək lazımdır:

- rəqəmsal texnologiyaların layihənin icrası prosesində uyğun formada tətbiqi;
- layihənin icrası prosesində mümkün nəticələrin əvvəlcədən müəyyən edilməsi;
- optimallaşdırma zamanı xərc-keyfiyyət asılılığının daimi diqqətdə olması.

## Ədəbiyyat


1. Bayramov A. Biznes və menecmentin əsasları. Bakı: Nurlan, 2011, 180 s.
2. Осипов, К. Ю. Оптимизационные методы планирования в строительстве. Молодой ученый. - 2018. - № 6 (192). - С. 46-48.
3. Ammar M. Alzarrad, Fuzzy Multicriteria Decision-Making Model for Time-Cost-Risk Trade-Off Optimization in Construction Projects, Research Article Open Access, Volume 2019, https://www.hindawi.com/journals/ace/2019/7852301/
4. Remon FayekAziz, Optimizing strategy software for repetitive construction projects within multi-mode resources, Alexandria Engineering JournalVolume 52, Issue 3, September 2013, Pages 373-385
5. Robert L. Kleinberg., The Global Warming Potential Misrepresents the Physics of Global Warming Thereby Misleading Policy Makers, November 2020, 44 p.
6. Zhou J, Wang X, A review of methods and algorithms for optimizing construction scheduling, Journal of the Operational Research Society volume 64, 2013, pages 1091–1105



**РЕЗЮМЕ**

**ВОЗМОЖНОСТИ ПРИМЕНЕНИЯ РАЗНЫХ МЕТОДОВ ПРИ ОПТИМИЗАЦИИ СТРОИТЕЛЬНЫХ ПРОЕКТОВ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ**

***Юсифов Э.М.***

***Ключевые слова:*** *планирование, оптимизация, алгоритмы проекта, управление проектами, риски*

В статье проведено изучение исследований в области оптимизации использования ресурсов в процессе строительства. Были оценены методы, используемые для планирования проекта, и различные аспекты технико-экономического обоснования. Наряду с оптимизацией планирования строительства представлены алгоритмы планирования проекта. Были определены ключевые элементы преобразования, необходимые для достижения оптимального процесса. Были отмечены соответствующие результаты и предложения.



**SUMMARY**

**POSSIBILITIES OF APPLICATION OF DIFFERENT METHODS IN OPTIMIZATION OF CONSTRUCTION PROJECTS IN MODERN CONDITIONS**

***Yusifov E.M.***

***Key words:*** *planning, optimization, project algorithms, project management, risks*

The study of researches in the field of optimization of the use of resources in the construction process was carried out in the article. The techniques used for project planning and various aspects of the feasibility study were evaluated. Along with the optimization of construction project planning, project planning algorithms are presented. The key elements of the transformation necessary to achieve an optimized process have been identified. Relevant results and recommendations were noted.


# ФУНКЦИОНАЛЬНО-СОДЕРЖАТЕЛЬНЫЕ АСПЕКТЫ УПРАВЛЕНИЯ КОНКУРЕНТОСПОСОБНЫМИ ОРГАНИЗАЦИЯМИ


**Харченко Наталья Петровна, Пономарев Никита Романович**

*ФГАОУ ВО «Северо-Кавказский федеральный университет», Российская Федерация*

hnp78@rambler.ru



***Ключевые слова***: *бизнес, управленческие функции, маркетинг, конкурентоспособность, цифровизация*


В условиях пандемии и экономического кризиса в середине 2020 года бизнес по всему миру претерпел множество изменений и прошел через ряд испытаний, таких как большой объём псевдо-информации, недостаток высококвалифицированных и опытных кадров, неэффективность подготовки решений и т.д. Все это заставило некоторые организации по всему миру грамотно перестраиваться, подстраиваться под изменившиеся условия, вплоть до изменения всей организационной структуры и уже сложившейся системы общих функций управления.

Такие факторы как научно-технический прогресс, масштабная цифровизация всех экономических процессов, ускоренное развитие средств коммуникации так или иначе создают новые и изменяют старые требования, предъявляемые к функциям управления и всей системы управления современных организаций в целом. В современном мире существует неисчислимое количество вариаций общих функций управления, не говоря уже об конкретных (специфических). Помимо этого, растет необходимость появления новых форм управления, отделения от общих функций управления каких-то составляющих, их обособление как основных функций и т.д.

Подробно изучив общие функции управления и их процессы реализации, необходимо также обратить внимание на разного рода особенности и вариации функций управления, а также их реализацию в современных организациях.

Свою актуальность и необходимость стремительными темпами теряют стратегические и разного рода долгосрочные планы как среди средних и малых, так и среди крупных организаций. Связано это прежде всего с теми же очевидными причинами, о которых уже не раз упоминалось: пандемия, закрытие границ, спад количества клиентов, научно-техническое развитие и т.д. В настоящее время трудно, а в некоторых отраслях практически невозможно и на половину рассчитать и предвидеть ход событий и его влияние на организацию.

Делегирование полномочий является важнейшей составляющей функции организации. Однако, если для западной и европейской внутриорганизационных культур делегирование полномочий – это обычное дело, то для России – это достаточно актуальная проблема еще со времен 90-х годов.

Для российской организационной культуры характерен нестабильный морально-психологический климат в коллективе и отсутствие доверия, прежде всего со стороны руководителя, своим подчинённым, а также боязнь потери власти. Характерными препятствиями к эффективному делегированию полномочий со стороны подчиненного являются отсутствие стимула к дополнительной ответственности и работе, перезагруженность и отсутствие необходимых знаний и уверенности в себе. Все это связано не только со спецификой российского менталитета, который не расположен к доверительным отношениям, но и с неправильным подходом и системой делегирования в отечественных организациях.

Современная практика европейских организаций показывает, что чем легче и охотнее руководители делегируют свои полномочия, тем организация успешнее, не только в плане получения прибыли, но и в своей гибкости, быстрой адаптации к быстроменяющимся условиям, качестве выполнения различных работ и т.д. Среди всех компаний в мире, лучшей в плане грамотного и эффективного делегирования полномочий отмечена компания Google.

Управленческие факты доказывают, что лишь лучшие руководители умеют перераспределять грамотно обязанности и ответственность между членами своей команды. В Google советуют руководителям, желающим определить круг задач и полномочий для делегирования, поддержать своих сотрудников и добиться нужных результатов:

– для начала оцените цели и задачи: определите какова конечная цель и результат, и какую часть работы вы готовы поручить;

– затем оцените себя, свои способности и недостатки, по каким причинам вы не можете делегировать некоторые полномочия;

– определите правильного исполнителя, кто из сотрудников обладает нужными качествами и знаниями, и поможет ли ему это в личном росте и развитии [1].

Затем можно уже начинать сам процесс делегирования:

− опишите задачу, обозначьте ее важность, расскажите о причинах передачи своих полномочий;

− опишите уровень ответственности, возлагаемой на исполнителя, и задайте стандарты, которым должны соответствовать результаты его работы;

− всегда будьте готовы к вопросам и предложениям;

− выслушайте комментарии и отреагируйте на них должным образом, а также убедитесь в том, что сотрудник все понял;

− понятным языком расскажите о том, как задание повлияет на команду и организацию в целом;

− подбодрите сотрудника и покажите свою уверенность в нем;

− определите сроки, план проверки, процедуру сдачи и отслеживания результатов, обсудите все результаты [2].

Так же важно отметить, что несмотря на то что данный подход был создан преимущественно для работы руководителей в креативном отделе и отделе по разработке, он также будет весьма эффективен для любого обычного производственного предприятия (обычного завода, маленького цеха), так как несет в себе прежде всего правильный морально-психологический подход для реализации эффективного делегирования и дальнейшего выполнения задач. Подобный процесс делегирования полномочий дает возможность выяснить, есть ли у подчиненного задатки, необходимые для руководящей работы, помогает развить их, способствует повышению ответственности у подчиненного за порученное им дело и т.д.

Еще одной актуальной темой для отечественных организаций на протяжении очень долгого времени остается тема мотивации. Несмотря на многие попытки активного внедрения нематериальных систем стимулирования и разного рода систем, разработанных на основе западного опыта, в большинстве российских организаций все еще используются устаревшие системы и методы мотивирования сотрудников. Еще в конце 1950-х годов Фредерик Герцберг в своей двухфакторной теории мотивации отнес уровень заработной платы не к мотивирующим факторам, а к гигиеническим факторам (здоровой окружающей среды). На тот момент такой вывод вызвал массу недопонимания и до сих многие не понимают, как то, что являлось главным стимулирующим фактором любого вида деятельности, начиная еще с самых простых и прагматичных теорий, не мотивирует.

Помимо этого, шокирующим результатом дальнейших социологических исследований в западных организациях оказалось то, что большей частью сотрудников средних и крупных предприятий различные материальные стимулы, такие как премии и надбавки, воспринимаются также как естественное повышение заработной платы. Иначе говоря, многие виды финансового мотивирования сейчас также считаются нормой в любой организации и все реже воздействуют на желания сотрудников работать лучше и больше.

Приняв во внимание все вышеперечисленное, американские и европейские руководители уже более 10 лет активно внедряют и реализуют в своих организациях социально-психологические и нефинансовые методы стимулирования. Причем все они могут сильно отличаться друг от друга в зависимости от сферы деятельности или отраслевой принадлежности, специфики, масштабов производства и т.д., например, вслед за такими гигантами как Google и Apple, во многих даже производственных цехах Европы и Америки были созданы тренажерные залы, комнаты развлечений и даже отдельные театры и сцены. Разработанные таким образом системы стимулирования позволяют многим сотрудникам за отработку определенного количества часов или иные достижения посещать эти места совершенно бесплатно.

Однако тут следует обратить внимание и на то, что большинство таких социологических исследований проводилось преимущественно в европейских и американских организациях. Согласно некоторым подобным исследованиям и опросам в отечественных организациях картина немного иная. Более 55% все же отдают свое предпочтение финансовым методам стимулирования. В подобной ситуации единственным выходом может стать система мотивации, которая будет совмещать в себе и материальные и нематериальные методы стимулирования в зависимости от сферы деятельности и специфики предприятия. Успешные организации сегодня – это организации, составляющие не только долгосрочные стратегические планы, но и скользящие тактические. Это организации, которые стимулируют своих сотрудников как материальными, так и нематериальными методами.

Таким образом, подробно изучив некоторые актуальные проблемы и особенности функций управления, становится понятно, что методы и системы реализации управления еще находятся в фазе активного развития. За достаточно короткий период многие привычные подходы к функциям управления уже совсем упразднили свою актуальность в связи с низкой эффективностью и плохими результатами. Так в условиях конкурентной борьбы, безудержного поиска новых клиентов и привлечения внимания к своей продукции лидирующую роль выполняют маркетинговые функции. Учитывая при реализации маркетинговых стратегий быстрорастущие запросы потребителей, для современных организаций создается запрос дать перспективу новым продуктам/услугам и сделать современные решения в управлении более доступными. Благодаря пилотным маркетинговым инструментам функционируют онлайн-витрины, виртуальные маркетологи, мобильные маркетинговые приложения и заслуживающий особого внимания проект – нейросетевой маркетинг. Увлекаясь построением портрета индивидуального потребителя, компании прибегают к использованию идеального инструмента в решении всевозможных задач – нейрографики. Область применения нейроинструментов трансформирует традиционные способы управления в современные управленческие задачи с обогащенными данными. Однако в отечественной практике такие подходы и

методы все еще уступают классическим, что и приводит ко многим проблемам реализации грамотного управления, особенно в век цифровизации.

В мире большого разнообразия и во времена быстроменяющихся условий очень важно разработать правильную систему управления, которая будет не только эффективной, но и гибкой. Функции управления и методы их реализации постоянно подвергаются модификации и углублению, по этим причинам сильно усложняются содержания работ, выполняемых в соответствии с требованиями. При этом модификация одной функции происходит под влиянием других.

Необходимо серьезно подходить к разработке системы управления, учитывая всю специфику своего предприятия и каждого подразделения. Очень важно принимать во внимание все детали, так как плохая реализация одной функции управления, повлияет на другие, а за ними и на всю организацию. Когда все вокруг непредсказуемо меняется каждую секунду, нужно уметь грамотно и быстро перестраиваться. Гибкость, креативность и энтузиазм – это те качества, в которых сейчас нуждаются организации.

Понимая это, западные организации часто пересматривают и перестраивают всю систему функций управления, что позволяет им не только оставаться на плаву, но и находить перспективные пути развития, повышать эффективность и рентабельность своей работы. Однако в российской практике такая тенденция отсутствует из-за ряда экономических, правовых и иных причин. В большинстве отечественных организациях все еще преобладают старые подходы и методы к системе управления.

**Литература**


1. Делегирование полномочий и доверие подчиненным. Опыт Google. – URL: https://hr-portal.ru/story/delegirovanie-polnomochiy-i-doverie-podchinennym-opyt-google (дата обращения 30.03.2023). – Текст: электронный.
2. Садуллаев Х. Х.-У. Современный взгляд на делегирование. Опыт Google / Х.Х.-У. Садуллаев // Аллея науки. – 2017. – Т. 5. – №16. – С. 570-573.



**XÜLASƏ**
**RƏQABƏTLİ TƏŞKİLATLARIN İDARƏ EDİLMƏSİNİN FUNKSİONAL VƏ MƏZMUN ASPEKTİ**
***Xarçenko N.P., Ponomaryov N.R.***

***Açar sözlər:*** *biznes, idarəetmə funksiyaları, marketinq, rəqabətqabiliyyətlilik, rəqəmsallaşma*

Məqalədə müasir şəraitdə şirkətlərin funksional və mənalı idarə edilməsinin vəziyyəti və problemləri müzakirə olunur. İdarəetmə mühitində peşəkar səlahiyyətlərin verilməsinin vacibliyi qeyd olunur. Biznes mühitinin rəqəmsallaşması kontekstində yerli və xarici top-menecerlərin funksional imkanları təsvir edilmişdir. Şirkətlərin rəqabətqabiliyyətliliyinə nail olmaq səviyyəsi üçün idarəetmə funksiyalarının əhəmiyyəti müzakirə edilir, müasir təşkilatların fəaliyyətində darboğazlar və problemli proseslər müəyyən edilir, rəqəmsallaşma şəraitində müəssisələrin daha yüksək keyfiyyət səviyyəsinə keçidi üçün vektorlar müəyyən edilir.



**SUMMARY**
**FUNCTIONAL AND CONTENT ASPECTS OF MANAGING COMPETITIVE ORGANIZATIONS**
***Xarcenko N.P., Ponomaryov N.R.***

***Key words****: business, management functions, marketing, competitiveness, digitalization*

The article deals with the state and problems of functional and meaningful management of companies in modern conditions. The importance of professional delegation of authority in the management environment is noted. The functionality of domestic and foreign top managers in the context of digitalization of the business environment is described. The importance of management functions for the level of achievement of the competitiveness of companies is argued, bottlenecks and problematic processes in the functioning of modern organizations are identified, vectors for the transition of enterprises to a higher quality level in the context of digitalization are identified.


# ИНСТРУМЕНТЫ УПРАВЛЕНИЯ РЕГИОНАЛЬНОЙ ЭКОНОМИКОЙ В СИСТЕМЕ ФЕДЕРАЛЬНЫЙ ЦЕНТР – РЕГИОНЫ


**Юсупова Руфина Аданисовна**
*Уфимский государственный нефтяной технический университет*
*Уфа, Российская Федерация*
*yusupova.rufina12@uandex.ru*



***Ключевые слова:*** *региональная экономика, регионы, инструменты регионального управления, развитие территорий*

Вопросам пространственного развития территорий и эффективным инструментам управления региональной экономикой посвящен определенный пласт научной литературы. Так, А. В. Котов в своих исследованиях указывает на то, что в современной российской науке не хватает подробного обзора зарубежного инструментария управления региональной (пространственной) политики, который бы продемонстрировал все успехи стран в региональном направлении [2]. Г. Ф. Балакина предлагает предоставлять регионам системные трансферты и использовать специальные инструменты регионального регулирования (целевые экономические зоны и корпорации) для социально-экономического развития территорий [1].

Для Российской Федерации, включающей в себя на сегодняшний день 89 регионов, совершенствование социально-экономической политики в регионах является первоочередной задачей. Через регионы реализуется социально-экономическая политика государства и государственная стратегия, а также через них происходит управление всей страной. Ввиду этого, региональная политика должна быть направлена на достижение устойчивого развития региона и создание нормальных условий для жизнедеятельности населения.

При реализации региональной политики важно учитывать особенности регионов, так как регионы экономически неравны между собой и различаются в социально-экономическом развитии. Проблемы в регионах приводят к диспропорции в пространственном развитии России, что в дальнейшем может сказаться на экономических и социальных связях между регионами. К примеру, ВРП на душу населения Республики Ингушетия в 2019 году был в 55 раз ниже душевого ВРП Ямало-Ненецкого автономного округа. ВРП ниже среднероссийского показателя наблюдается у большего количества регионов. Поэтому, региональная политика должна быть направлена на сбалансированность пространственного развития территорий с учетом всех факторов и региональных особенностей [7].

С 2017 года в стране были приняты ряд документов в сфере пространственного развития территорий. Так, 16 января 2017 году был издан Указ Президента РФ № 13 «Об утверждении Основ государственной политики регионального развития Российской Федерации на период до 2025 года» [5], Указ Президента РФ № 204 от 7 мая 2018 года «О национальных целях и стратегических задачах развития Российской Федерации на период до 2024 года» [6]. Далее, в 2019 году была принята Стратегия пространственного развития России до 2025 года, которая предполагает сокращение межрегиональных дифференциаций [4]. Данные документы показывают важность регионального развития как в краткосрочной, так и в долгосрочной перспективе.

Цели и задачи региональной политики могут быть достигнуты путем применения комплекса мер и инструментов. Под инструментами управления региональной экономикой понимается совокупность форм, методов и способов, которые воздействуют на функционирование региона со стороны государственных органов для достижения поставленных целей. Каждый из инструментов управления региональной экономикой, в идеале, должен содержать в себе понятные и измеримые критерии для возможности оценивания его эффективности.

В практике существуют различные классификации инструментов управления региональной экономикой. Схема классификации инструментов регионального управления была предложена американскими учеными Х. Армстронгом и Дж. Тейлором, которая является актуальной и на сегодняшний день. Исследователи разделили инструменты региональной политики на макро- и микроинструменты. Схема в упрощенном виде приведена на рисунке 1 [3].




**Рисунок 1 – Классификация инструментов региональной политики по Х. Армстронгу и Дж. Тейлору**

В Российской Федерации более популярен подход, подразделяющий формы и методы регионального управления на прямые (административные) и косвенные (экономические).

На рисунке 2 представлена одна из классификаций инструментов управления региональной экономикой [1].




**Рисунок 2 – Классификация инструментов управления региональной экономикой**

По характеру и объему воздействия инструменты государственного управления подразделяются на экономические, организационные, административные и политические (рисунок 3).




**Рисунок 3 – Инструменты регионального управления по характеру и объему воздействия**

В современных реалиях в России инструменты регионального управления направлены на поддержку экономической деятельности, а не на развитие регионов и зачастую, сложно оценить эффективность применяемых инструментов [2].

**Литература**

1. Балакина Г. Ф. Инструменты регулирования социально-экономического развития регионов // Региональная экономика: теория и практика. – 2014 - № 39 – С. 2-12.
2. Котов А. В. Оценка эффективности инструментов региональной политики // Экономика региона. – 2020 – Т. 16, вып. 2 – С. 352-362.
3. Победин А.А., Федулов Д. В., Летаева Т. В. Теории и инструменты контрциклического регулирования региональных экономических систем. – [Электронный ресурс]. URL: Теории и

инструменты контрциклического регулирования региональных экономических систем (cyberleninka.ru)
4. Стратегия пространственного развития России до 2025 года. – [Электронный ресурс]. URL: Об утверждении Стратегии пространственного развития Российской Федерации на период до 2025 года от 13 февраля 2019 - docs.cntd.ru
5. Указ Президента РФ № 13 «Об утверждении Основ государственной политики регионального развития Российской Федерации на период до 2025 года». – [Электронный ресурс]. URL: Документы - Правительство России (government.ru)
6. Указ Президента РФ № 204 от 7 мая 2018 года «О национальных целях и стратегических задачах развития Российской Федерации на период до 2024 года». – [Электронный ресурс]. URL: Указ Президента РФ от 07.05.2018 N 204 "О национальных целях и стратегических задачах развития Российской Федерации на период до 2024 года" (с изменениями и дополнениями) | ГАРАНТ (garant.ru)
7. Юсупова, Р. А. Современные проблемы региональной (пространственной) экономики / Р. А. Юсупова // Экономика и управление: научно-практический журнал. – 2022. – № 6(168). – С. 143-148.

**XÜLASƏ**
**FEDERAL MƏRKƏZ - BÖLGƏLƏR SİSTEMİNDƏ REGİONAL İQTİSADİYYATIN İDARƏ EDİLMƏSİ VASİTƏLƏRİ**
***Yusupova R.A.***

***Açar sözlər:*** *regional iqtisadiyyat, regionlar, regional idarəetmə alətləri, ərazi inkişafı*

Məqalə regional idarəetmə məsələlərinə, xüsusən federal mərkəz - bölgələr sistemində regional iqtisadiyyatın idarə edilməsi alətlərinə və regionun sosial-iqtisadi inkişafında onların roluna həsr edilmişdir. Bu sahədə problem və məsələləri araşdıran müəlliflərin icmalı aparılır. Region iqtisadiyyatının idarəetmə vasitələrinin təsnifatı verilmişdir. Müəllif diqqəti regional siyasət apararkən regionların özəlliklərinin nəzərə alınmasının vacibliyinə yönəldir. Regional iqtisadiyyatın idarə edilməsi alətləri effektiv olmalı və regionları öz iqtisadiyyatlarını inkişaf etdirmək üçün stimullaşdırmalıdır.

**SUMMARY**
**TOOLS FOR REGIONAL ECONOMY MANAGEMENT IN THE SYSTEM FEDERAL CENTER - REGIONS**
***Yusupova R.A.***

***Key words:*** *regional economy, regions, instruments of regional management, territorial development*

Azərbaycanda fəaliyyət göstərən bankların əsas hissəsini özəl banklar təşkil etdiyindən onların fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinə ehtiyac getdikcə artır. Azərbaycan iqtisadiyyatına kredit qoyuluşlarının əsas hissəsi məhz özəl bankların payına düşür (şəkil 1).




**Şəkil. İqtisadiyyata kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturu, milyon manat (Mənbə: Azərbaycan Mərkəzi Bankının məlumatları əsasında tərtib edilib-https://www.stat.gov.az/)**

Şəkildən görünür ki, illər üzrə iqtisadiyyata qoyulan kredit qoyuluşlarının həcmi müxtəlif cür olmuşdur. Belə ki, 2021-ci ildə ölkə iqtisadiyyatına yönəldilən kredit qoyuluşlarının həcmi 2015-ci ilə görə 26,9% azaldığı halda, 2018-ci ilə görə 31,5%, 2019-cu ilə görə 11,9%, 2020-ci ilə görə isə 17,8% artmışdır. Artım son üç əldə əsasən dövlət və özəl banklar tərəfindən müşahidə olunub. Lakin qeyri-bank təşkilatları tərəfindən iqtisadiyyata qoyulan kredit qoyuluşları qeyri-bərabər dəyişmişdir.

Yaxın perspektivdə qlobal çağırışlar şəraitində regionlarda bank-kredit müəssisələrinin fəaliyyətinin daha səmərəli təşkili istiqamətində bir sıra tədbirlərin görülməsi vacibdir:

- Bank-kredit müəssisələri sisteminin dayanıqlığının gücləndirilməsi və sistemli bank böhranları ehtimalının aradan qaldırılması tədbirlərinin görülməsi.
- Bank-kredit müəssisələrinin fəaliyyəti müxtəlif təşkilatlar üçün müəyyən edilmiş vahid prinsiplər əsasında və onların maraqlarına əsaslanaraq bank-kredit sektorunun dayanıqlığına dair tələblərə əməl edilməklə həyata keçirilməlidir.
- Bank-kredit müəssisələrinin inkişafı üçün əlverişli şərait yaratmaq məqsədilə dövlət tərəfindən bir sıra tədbirlərin, o cümlədən: 1) vergi sahəsində; 2) bank-kredit fəaliyyəti riskinin azaldılması üzrə; 3) korporativ idarəetmə sisteminin inkişafı; 4) bank-kredit müəssisələrinin maliyyə dayanıqlığının təmin edilməsi; 5) əmanətlərin yığılması, onların kreditlərə və investisiyalara çevrilməsi funksiyalarının regional bank-kredit müəssisələri tərəfindən həyata keçirilməsi mexanizmlərinin hazırlanması və tətbiqi istiqamətlərində tədbirlərin görülməsi tələb olunur və s.

## Ədəbiyyat

1. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 16 yanvar 2004.
2. Əzizova V. Azərbaycanda kiçik və orta biznes sahəsində bankın kredit siyasətinin metodologiyası. // Naxçıvan Universiteti, Elmi əsərlər, 2020, №3, s.44-48.
3. Kamilov A. Azərbaycanda bank kapitalının real sektorun maliyyələşdirlməsinə cəlb edilməsi yolları. // İpək Yolu, 2017, №2, s.72-79.

4. Першин М.А. Банковский кредит как реальный источник формирования финансово-кредитных ресурсов коммерческих организаций // Экономические науки, 2018, № 165, с. 103-108.
5. Сергеева Е.Г., Федорченко О.И. Банковское кредитование организаций // Исследование инновационного потенциала общества и формирование направлений его стратегического развития: сборник научных статей 9-й Всероссийской научно-практической конференции с международным участием. В 3-х томах, Курск, 2019, с. 179-182.

**РЕЗЮМЕ**
**ПРИОРИТЕТЫ ОРГАНИЗАЦИИ ДЕЯТЕЛЬНОСТИ БАНКОВСКО-КРЕДИТНЫХ ПРЕДПРИЯТИЙ В РЕГИОНАХ В УСЛОВИЯХ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ**
***Бахшалиев Р.М.***

***Ключевые слова:*** *глобальные вызовы, регионы, банки, банковско-кредитные организации, приоритетные направления банковско-кредитной деятельности, проблемы организации деятельности банков*

Исследованы приоритеты организации деятельности банковско-кредитных предприятий в регионах в условиях глобальных вызовов. Анализирована роль банковско-кредитных предприятий в кредитовании и развитии региональной экономики. Рассмотрена структура кредитных вложений в экономику по кредитным организациям Азербайджана. Исследованы проблемы управления кредитными рисками и ликвидность банковско-кредитных организаций в регионах. Показаны приоритетные направления государственного регулирования деятельности банковско-кредитных предприятий в регионах страны. Подготовлены предложения по совершенствованию деятельности банковско-кредитных предприятий в регионах в ближайшей перспективе.

**SUMMARY**
**PRIORITIES FOR ORGANIZING THE ACTIVITIES OF BANKING AND CREDIT ENTERPRISES IN THE REGIONS IN THE CONTEXT OF GLOBAL CHALLENGES**
***Bakhshaliev R.M.***

***Key words:*** *global challenges, regions, banks, banking and credit organizations, priority areas of banking and credit activities, problems of organizing the activities of banks*

The priorities of organizing the activities of banking and credit enterprises in the regions in the context of global challenges are investigated. The role of banking and credit enterprises in lending and the development of the regional economy is analyzed. The structure of credit investments in the economy by credit institutions of Azerbaijan is considered. The problems of credit risk management and liquidity of banking and credit institutions in the regions are investigated. Priority directions of the state regulation of the activities of banking and credit enterprises in the regions of the country are given. Proposals to improve the activities of banking and credit enterprises in the regions in the near future are prepared.

# SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ MALİYYƏ PROBLEMLƏRİNİN HƏLLİ ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ

**Ələkbərov Zeynalabdin Arif oğlu**
*Odlar Yurdu Universiteti, Bakı, Azərbaycan*
zeynalabdin.alakbarov@bk.ru

***Açar sözlər:*** *dünya təcrübəsi, sənaye sahələri, innovasiya, maliyyə mexanizmləri, sənaye sahələrinin innovasiyalaşdırılması, maliyyə problemləri*

Müasir dövrdə sənaye sahələrinin fəaliyyətinin daha səmərəli təşkil olunmasında mövcud resurslardan istifadə etməklə yeni emal müəssisələrinin yaradılması və texnologiyaların inkişafı ilə əlaqədar olaraq əlavə tədbirlərin görülməsi vacib şərtlərdəndir. Sənaye sahələrinin inkişaf etdirilməsi yeni yanaşmaları və çağırışları özündə ehtiva edir və bu baxımdan sənaye sahələrinin innovasiyalaşdırılması daha çox diqqəti cəlb edir [7, s.43]. Son dövrlərdə texnologiyaların transferi "ağıllı" texnologiyaların fəal şəkildə tətbiq olunması və bununla bağlı tədbirlərin görülməsi və praktiki fəaliyyət proseslərində texnoloji inkişafın qabarıq şəkildə özünü büruzə verməsi bu sahələrdə maliyyə mexanizmlərinin yeni variantlarının işlənilməsini və maliyyə mexanizmlərinin maksimum təkmilləşdirilməsini təmin edir.

Dünyanın müxtəlif ölkələrində bununla bağlı görülən tədbirlər diqqət çəkir. Bu məsələ Azərbaycan üçün yenidir və ölkədə sənaye sahələrinin innovasiyalaşadırılması prosesləri hələ təzə başlamışdır və açığını deyək ki, bu sahədə böyük nailiyyətləri gözləmək tezdir [2, s.288]. Maliyyə problemlərinin həlli isə qeyd etmək istərdik ki, innovasiya fəaliyyətinin təşkilində və innovasiya məhsullarının alınmasında ən mühüm və mürəkkəb məsələlərdən hesab olunur. Ölkəmizdə aparılan sorğular və araşdırmalar göstərir ki, sənaye müəssisələrinin əhəmiyyətli hissəsi, ümumiyyətlə innovasiya proseslərinin təşkili və innovasiya

məhsullarının istehsalı üçün maliyyə resurslarına malik deyillər [3, s.75]. Bu sahədə qanunvericiliyin zəif olması, maliyyə mexanizmlərinin olmaması şübhəsiz innovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi proseslərini ləngidən amillərdəndir. Dünya təcrübəsindən yanaşdıqda isə, burada bir çox mütərəqqi maliyyə mexanizmlərinin şahidi oluruq. İlk növbədə, əlbəttə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsinə diqqət yetirsək görərik ki, neçə onilliklərdir ki, bu ölkələr innovasiyaların işlənməsi, texnoloji yeniliklərin əldə olunması, elmi-texniki yeniliklərin, elmi-tədqiqatların daha səmərəli şəkildə tətbiq olunması üçün həm dövlət, həm də müxtəlif mənbələrdən xeyli vəsaitlər ayrırlar. Bu məbləğlər əlbəttə çox böyük məbləğlərdir və Azərbaycan reallıqlarında hətta bunlardan söhbət gedə bilməz. Məsələn, ABŞ və digər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə, ümumiyyətlə elmi-texniki inkişafa və texnoloji inkişafa, elmi-tədqiqatların yönəldilməsinə sərf olunan vəsaitlərin məbləği 250 milyarddan 600-700 milyard dollara qədər artır. Açığını deyək ki, bu həm də həmin ölkələrin iqtisadi inkişaf səviyyələri ilə bağlıdır və qeyd edək ki, burada əsas məsələ elmi-texnoloji inkişaf baxımından digər ölkələrdən geri qalmamaq və gələcəyin texnologiyalarını daha tez mənimsəmək, bununla bağlı tədbirlər görmək və qabaqcıl texnologiyaların işlənilməsi, tətbiqi, səmərəli mexanizmlərin əldə olunması baxımından yönəldilən vəsaitlər özünü doğruldur.

ABŞ-da sənaye sahələrinin innovasiyalaşdırılması proseslərində çoxlu sayda qrantlar, müxtəlif özəl fondlar, dövlət tərəfindən stimullaşdırıcı tədbirlər, dövlət dəstəyi tədbirləri demək olaraq ki, ölkənin hər yerində innovasiya mərkəzləri, innovasiya-investisiya fondları banklar tərəfindən və sindikatlar sənaye qrupları tərəfindən bu məsələlərin planlaşdırılması və həll olunması nöqteyi-nəzərindən xeyli təcrübə toplamışdır. Ölkənin istənilən bankı demək olar ki, bu sahələri həvəsləndirir və bununla bağlı resurslar ayırırlar və uzunmüddətli kreditlər faiz dərəcələri kifayət qədər az olan resurslar elmi-texniki yeniliklərin olmasına elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasına və innovasiya layihələrinin həyata keçirilməsinə yönəldilir [8, s.86]. ABŞ-ın əksər ştatlarında ümumiyyətlə sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemləri ilə bağlı məsələlərin həllinə ayrı-ayrı yanaşmalar da vardır və demək olar ki, sənaye müəssisələri ilə universitetlər arasında çox ciddi əlaqələr vardır və eyni zamanda universitetlərdə alınan elmi nəticələrin texnoparklar, sənaye parkları, azad iqtisadi zonalar vasitəsilə reallaşdırılması dövlətin və ştatların xüsusi marağındadır [1, s.179]. Məlumdur ki, dünyanın ən önəmli texnoparkları, elmi-texniki mərkəzləri, innovasiya mərkəzləri və s. ABŞ-da yerləşir. Təkcə Silikon Vadisində dünyada istehsal olunan kompüterlər və bu qəbildən olan texnoloji avadanlıqların və ləvazimatların demək olar ki, 20-30%-i məhz burada istehsal olunur. Dünyada bu sahədə ixtisaslaşan alimlər, mühəndis və konstruktorlar məhz Silikon Vadisində cəmlənmişdir. Bütün bunlar texnoloji yenilikləri təmin etməklə bərabər, həm də ölkənin iqtisadi gücünü artırır. Ölkə texnoloji yeniliklər baxımından digərlərindən daha çox öndə gedir və nəticədə elm və sənaye tutumlu məhsulların, həmçinin innovasiya məhsullarının istehsalının çeşidi genişlənir və həcmi artır və bütün bunlar ölkənin yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır [4, s.18]. İqtisadi cəhətdən inkişaf etmiş digər ölkələrdə də belədir, xüsusilə Avropa ölkələrində - Böyük Britaniya, Almaniya və Fransa da sənaye sahələrinin innovasiyalaşdırılmasının təmin edilməsi, yeni innovasiyaların işlənilməsi, pilot layihələrin həyata keçirilməsi, inkubator biznes mərkəzlərinin yaradılması, startapların təşkili və bununla bağlı intellektual resursların reallaşdırılması baxımından xeyli işlər görülməkdədir.

Qeyd edək ki, Almaniyada mütərəqqi texnologiyaların inkişafında innovativ proseslərə daha çox üstünlük verilir və təsadüfi deyildir ki, Almaniya dünyanın ən önəmli 5 avtomobil brendinə malikdir. Belə ki, dünyada daha çox satılan avtomobil brendləri məhz Almaniyada istehsal olunur. Bu şirkətlərin hər biri Almaniya iqtisadiyyatının qüdrətini artırır və onların dünyanın bütün regionlarında texniki xidmət mərkəzləri vardır. Eyni zamanda, avtomobil konsernləri ölkəyə kifayət qədər valyuta resursları gətirir, yeni iş yerləri yaradır və Almaniyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ön cərgələrində getməsində çox ciddi funksiyaları yerinə yetirirlər. Digər Qərbi Avropa ölkəsində - Fransanın kosmik və hərbi sənayedə, maşın və mexanizmlərin istehsalında, tekstil, kənd təsərrüfatı, kimya və digər sənaye sahələrində innovasiya proseslərinin sürətləndirilməsində, yeni innovasiyaların işlənilməsində, tətbiqində və bununla bağlı əlavə tədbirlərin görülməsində maliyyə mexanizmləri, qrantlar ayrı-ayrı dövlət tərəfindən stimullaşdırıcı maliyyə paketləri, vergi güzəştləri və s. tətbiq olunur.

Böyük Britaniyada azad iqtisadi zonaların yaradılması, elmi-texniki və yüksək texnoloji parkların yaradılması vasitəsilə sənaye sahələrinin innovasiyalaşdırılması təmin olunmuş və xüsusilə, telekomminikasiya sahəsində yüksək nəticələr əldə edilmişdir. Dünyada daha çox istehsal gücünə malik olan və həm də bu sahədə elmi-texniki yeniliklərin stimullaşdırılması tədbirlərinin görülməsi nöqteyi-nəzərindən Böyük Britaniyada sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinə xüsusi yanaşmalar vardır.

Yaponiyanın innovasiya proseslərinin inkişafı və maliyyələşdirilməsi təcrübəsinə diqqət yetirmək istərdik. Yaponiya dünyanın dəqiq cihazlar baxımından - elektrotexnika və elektrorobot baxımından ən

dəqiq dəzgahların, cihazların, xüsusilə robotların - "ağıllı" robotların yaradılmasında, maşın və mexanizmlərin istehsalında, texnoloji-innovasiya məhsullarının alınmasında böyük təcrübə toplamışdır. Yaponiyada bu proseslərin sürətləndirilməsi üçün bir çox mütərəqqi və məhsuldar iqtisadi mexanizmlərdən, o cümlədən texnopolislərdən geniş istifadə olunur. Texnopolislərdə dövlət tərəfindən çoxfunksiyalı infrastruktur yaradılır, güzəştli kreditlər verilir, uzunmüddətli kredit resursları ayrılır, mal və məhsulların sifarişləri formalaşdırılır, dövlət-özəl sektor, universitet və investisiya fondları arasında əməkdaşlıq əlaqələri genişləndirilir. Xüsusilə, dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində Yaponiyada qrant müsabiqələri təşkil olunur və elmi-texniki yeniliklərin kommersiyalaşdırılması istiqamətində investisiya-innovasiya layihələri həyata keçirilir [6, s.27].

Hesab edirik ki, bütün bunların fonunda son illərdə qardaş Türkiyədə formalaşan təcrübəyə də diqqət yetirməliyik. Son 10-15 il ərzində Türkiyədə texnoloji yeniliklərin istehsal proseslərinə cəlb olunması, xüsusilə aviasiya, hərbi sənaye, avtomobil sənayesi və digər sahələrdə texnoloji yeniliklərin daha çox diqqət çəkməsi və daha yüksək elm-texnoloji tutumlu məhsulların alınması Türkiyənin ilk möhtəşəm avtomobilinin istehsal olunması və bütün bunlar onu göstərir ki, qardaş ölkədə və Azərbaycanla sıx əməkdaşlığı olan bir ölkədə elmi-texniki yeniliklərin maliyyələşdirilməsi mexanizmlərində dövlət tərəfindən son illərdə görülən tədbirlər öz nəticələrini verməkdədir. Belə ki, bu sahədə sənaye müəssisələri-universitetlər-dövlət-özəl sektor əməkdaşlığı nəticəsində verilən müxtəlif qrantların, müsabiqələrin keçirilməsi və dövlət tərəfindən innovasiya layihələrinin dəstəklənməsi nəticəsində Türkiyədə texnoloji inqilabının şahidi oluruq.

Bütün bunlar Azərbaycanda innovasiya proseslərinin sürətləndirilməsi baxımından daha səmərəli maliyyə mexanizmlərinin işlənilməsini və bu sahənin qanunvericilik bazasının gücləndrilməsini tələb edir [5, s.21]. Bununla bağlı, bir sıra təklifləri də ümumiləşdirmişik:

- İlk növbədə, Azərbaycanda milli innovasiya sisteminin formalaşdırılması və inkişaf etdirilməsi təmin olunmalıdır;
- Ölkədə startapların yaradılması istiqamətində dövlət-özəl sektor əməkdaşlığı və dövlət-universitet-özəl sektor əməkdaşlığı prinsiplərinin genişləndirilməsinə xüsusi ehtiyac vardır;
- İnnovasiya müəssisələrinin yaradılması və məhsullarının istehsalının genişləndirilməsi məqsədilə qrant layihələrinin həyata keçirilməsi tələb olunur;
- İnnovasiyaların işlənməsi, mənimsənilməsi və sənaye müəssisələrinin müxtəlif sahələrində həyata keçirilməsi üçün dövlət tərəfindən sifarişlərin formalaşdırılması və bu tədbirlərin stimullaşdırılması daha çox səmərə verə bilərdi və s.

## Ədəbiyyat


1. Cavadov, X.R. Milli İnnovasiya Sistemlərinin yaradılması üzrə beynəxalq təcrübə və onun Azərbaycanda tətbiqinin genişləndirilməsi imkanları // Azərbaycan vergi jurnalı, №3(125), 2015, s.177-194.
2. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, – 376 s.
3. Əliyev, Ş.T. Milli iqtisadiyyatın inkişafının sürətləndirilməsində sənaye klasterlərinin tətbiqini şərtləndirən amillər // Audit, № 4, 2015, s.73-79.
4. Hüseynova, A.Ə. İnnovasiyalı iqtisadiyyatda artım mexanizminin formalaşması. İ.f.d. dissertasiyasının avtoreferatı. Bakı, 2008 – 32 s.
5. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı, 2017, –36 s.
6. Mahmudova, L.F. İnnovasiyayönümlü inkişaf strategiyasının formalaşması istiqamətləri // AMEA-nın Elmi əsərləri. Bakı, 2013, № 3. s. 25-30.
7. Tağıyev, A.H. İnnovasiya (nəzəri və tətbiqi səpkidə). Bakı: Təknur, 2018, 552 s.
8. Мурадов, Р.Г. Перспективы развития инновационной деятельности в Азербайджане // Экономика АПК, №8, 2015, С.83-89.


## РЕЗЮМЕ
## МИРОВОЙ ОПЫТ ПО РЕШЕНИЮ ФИНАНСОВЫХ ПРОБЛЕМ ИННОВАТИЗАЦИИ ПРОМЫШЛЕННОЙ СФЕРЫ


***Алекберов З.А.***



***Ключевые слова:*** *мировой опыт, промышленная сфера, инновация, финансовые механизмы, инноватизация промышленной сферы, финансовые проблемы*



В статье рассматривается мировой опыт по решению финансовых проблем инноватизации промышленной сферы в современный период. Исследованы важнейшие вопросы формирования новых финансовых и инвестиционных источников, требуемых для развития отдельных сфер промышленности. Раскрыта стратегическая важность роли финансовых механизмов в разработке, освоении и применении инноваций. Отмечена необходимость и важность роли финансовых

механизмов в инноватизации разных сфер промышленности с учётом опыта отдельных стран мира. Обобщены важнейшие особенности и даны предложения по рассматриваемым проблемам.

**SUMMARY**
**WORLD EXPERIENCE IN SOLVING FINANCIAL PROBLEMS OF INNOVATING THE INDUSTRIAL SECTOR**
***Alakbarov Z.A.***

***Key words:*** *world experience, industrial sphere, innovation, financial mechanisms, innovation of industrial sphere, financial problems*

The world experience in solving the financial problems of innovating the industrial sphere in the current period is considered in the article. The most important issues of the formation of new financial and investment sources required for the development of certain industries are investigated. The strategic importance of the role of financial mechanisms in the development and application of innovations is revealed. The need and importance of the role of financial mechanisms in innovating different areas of industry, taking into account the experience of individual countries of the world, is noted. The most important features are summarized and proposals are given on the problems under consideration.

## QLOBAL MALİYYƏ ÇAĞIRIŞLARI KONTEKSTİNDƏ AZƏRBAYCANDA EMAL SƏNAYESİNDƏ VERGI YÜKÜNÜN KƏMİYYƏTCƏ QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Ələsgərov Samir Xosrov oğlu**
*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*

***Açar sözlər:*** *vergi yükü, emal müəssisələri, kəmiyyətcə qiymətləndirilmə, vergi yükünün optimallaşması, vergi planlaşdırması*

Emal sənaye müəssisələrinin yarandığı gündən etibarən əsas məqsədi maddi nemətlərin istehsalı ilə bağlı fəaliyyətdən mümkün olan maksimum mənfəət əldə etməkdir. Eyni zamanda, iqtisadi nəticənin maksimallaşdırılması həm gəlirlərin artırılması, həm də büdcəyə məcburi ödənişlərin daxil olduğu xərclərin azaldılması hesabına əldə edilə bilər. Emal sənaye müəssisələrinin istehsal-təsərrüfat fəaliyyətinin təhlilində əsas yerlərdən birini vergi öhdəliklərinin qiymətləndirilməsi tutur ki, bu da müəssisənin vergi yükünü müəyyənləşdirməyə imkan verir. “Vergi yükü” anlayışı istənilən fəaliyyət növü üzrə, o cümlədən emal müəssisələrinin maliyyə vəziyyətini qiymətləndirmək məqsədilə istifadə olunan iqtisadi göstəricilərin tərkib hissələrindən biridir. Bu günə qədər bütün vergi ödənişlərinin cəminin qiymətləndirilməsi və onun emal müəssisələrinin iqtisadi vəziyyətinə təsiri maliyyə sahəsində həm dünya, həm də Azərbaycan reallıqlarında ən mürəkkəb və mübahisəli məsələlərdən biridir.

Vergi yükü hissi insanın öz gəlirləninin müəyyən hissəsini müntəzəm olaraq dövlətə ödəmək borcunu psixoloji cəhətdən hiss etməsini ifadə edir. Bəzi insanlar vergi yükünü onların rifahının pisləşməsinə səbəb olacağı və onlara ziyan verəcəyi hal kimi dəyərləndirirlər [1, s.232]. Vergi yükünün hesablanmasının mövcud üsullarının problemlərini müəyyən etməzdən əvvəl “vergi yükü” termininin iqtisadi kateqoriya kimi başa düşülməsini aydınlaşdırmaq lazımdır. Bu günə qədər alimlər effektiv və rəqabətqabiliyyətli vergi sistemi yaratmaq üçün bu problemi fəal şəkildə öyrənirlər. “Vergi yükü” anlayışının mahiyyəti ilə bağlı müxtəlif nöqteyi-nəzərlərin təhlili göstərir, o, kəmiyyət xarakteristikasından daha çox keyfiyyət xarakteri daşıyır, çünki o, vergilərin bütövlükdə iqtisadiyyatın səviyyəsinə, əhali qruplarına təsirini göstərir. O, müəssisələr tərəfindən vergi siyasəti sahəsində strateji qərarlar qəbul edilərkən, müvafiq dövlət orqanları tərəfindən isə vergi sisteminin təkmilləşdirilməsi zamanı istifadə olunur. Buna görə də emal müəssisələrinin inkişafının aktual məsələlərindən biri vergi yükünün optimallaşdırılmasıdır [6, s.328].

Vergi yükü - cəmiyyətin sosial-iqtisadi həyatında mühüm rol oynayan, vergi daxilolmalarının ÜDM-in həcminə olan nisbətini əks etdirən ümumiləşdirici göstəricilərdən biri başa düşülür [2, s.101]. Müasir vergi tənzimlənməsi nəzəriyyəsində ən mübahisəli məsələ vergi yükünün kəmiyyətcə qiymətləndirilməsi problemidir, xüsusən də ən kəskin məsələ bu göstəricinin düzgün hesablanmasıdır. İqtisadiyyat elminin vergi yükü anlayışına marağı bu göstəricinin təkcə mikro səviyyədə müəssisənin maliyyə vəziyyətinə deyil, həm də makro səviyyədə - fiskal ödənişlərin həcmi vasitəsilə təsiri ilə bağlıdır. Bu gün bir çox alimlərin vergi yükünün müəyyənləşdirilməsinə müxtəlif yanaşmaları var, bu baxımdan vergitutmanın emal müəssisələrinə təsirini xarakterizə edən terminologiyanın ümumi anlayışı və qəbulu mövcud deyil [5, s.769]. Vergi yükünün optimal ölçüsünün təyin edilməsi Azərbaycanın milli iqtisadiyyatının inkişafı üçün mövcud iqtisadi şəraitdə böyük əhəmiyyət kəsb edir. Vergi yükünün optimal ölçüsü istənilən dövlətin mərkəzi makroiqtisadi problemidir. Vergi yükünün səviyyəsi aşağı olduqca, ölkənin iqtisadiyyatı bir o qədər sürətlə və dinamik inkişaf edir. Vergi yükünün səviyyəsinin müəyyənləşdirilməsində əsas məqsədlərdən biri vergi

planlaşdırılmasında alınan məlumatlardan istifadə etməkdir. Vergi yükündən əsasən vergi ödənişlərinin müəssisələrin maliyyə vəziyyətinə təsir səviyyəsinin qiymətləndirilməsində istifadə olunur. İstənilən müəssisə, o cümlədən emal müəssisələri öz fəaliyyətlərini reallaşdırarkən ona həvalə edilmiş vergi öhdəliklərini vaxtında yerinə yetirdiyi andan etibarən mövcud qanunvericiliyə və vergitutma sistemindəki tələblərə əməl etməyə borcludur.

Vergi planlaşdırması prosesi bir-biri ilə əlaqəli bir neçə mərhələdən ibarətdir ki, bunlar vergi öhdəliklərinin azaldılmasına mütləq zəmanət verən hərəkətlərin aydın və birmənalı ardıcıllığı kimi qəbul edilməməlidir. Vergi planlaşdırmasının köməyi ilə həm bütövlükdə müəssisələrin vergitutmasını optimallaşdırmaq, həm də azaltmaq mümkündür [3, s.196]. Vergi planlaşdırmasının səmərəli tətbiqi vergi güzəştlərinin tətbiqi xüsusiyyətlərini, vergitutma bazasının hesablanmasını, sahibkarlar üçün vergitutma sistemlərini, xüsusi vergi rejimlərini və vergi qanunvericiliyinin digər nüanslarını dərindən bilməyi tələb edir. Vergi yükünün optimallaşdırılması məsələsi hazırda aktualdır. Onun mahiyyəti həm qısa, həm də uzunmüddətli perspektivdə vergi ödənişlərinin minimuma endirilməsi, habelə cərimələrin qarşısının alınmasıdır ki, buna büdcəyə icbari ödənişlərin düzgün hesablanması və vaxtında ödənilməsi ilə nail olunur. Emal müəssisələrində vergilərin optimallaşdırılması aşağıdakı prinsiplərə əsaslanır:

– vergi səmərəliliyinin artırılması sistemindən istifadə edərkən emal müəssisələrinin istifadə etməli olduğu əsas prinsiplərdən biri olan qanuna uyğunluq prinsipi. Bu prinsip onu nəzərdə tutur ki, emal müəssisələrində onun optimallaşdırılması yolları mütləq qanuni olmalıdır;

– xərclərin rasionallığı prinsipi o deməkdir ki, vergi ödənişlərinə qənaətin faydaları vergi sisteminin optimallaşdırılmasını təmin etmək üçün müəssisənin xərclərindən artıq olmalıdır;

– diversifikasiya prinsipi ondan ibarətdir ki, istifadə olunan optimallaşdırma üsullarından birinə xarici amillərin mənfi təsiri olduqda, müəssisə verginin optimallaşdırılması sistemindəki sürətli dəyişikliyə uyğunlaşdırılmalıdır;

– məxfilik prinsipi o deməkdir ki, müəssisə rəhbərliyi informasiyaya çıxışın məhdudlaşdırılmasını təmin etməyə çalışmalıdır;

– muxtariyyət prinsipi o deməkdir ki, vergilərin optimallaşdırılmasına təsirlər xarici iştirakçılardan minimal asılılığa malik olmalıdır.

Emal müəssisələrində vergi siyasətini optimallaşdırmaq üçün vergi ödənişlərinin komponentlər üzrə vergi təhlilini aparmaq lazımdır. Bu komponentlər vergi ödənişlərinin strukturunun və dinamikasının təhlili; müəssisənin vergi yükünün təhlili; şirkətin vergi borcunun təhlili. Vergi təhlilinin hər bir mərhələsində həll olunan vəzifələrin mahiyyəti bütövlükdə təsərrüfat subyektlərinin maliyyə idarəçiliyinin, xüsusən də vergi idarəçiliyinin strategiya və taktikasından asılı olaraq müəyyənləşdirilir. Bu, vergi idarəçiliyinin səmərəli fəaliyyətini təmin edən təhlilin qiymətləndirmə, diaqnostika və axtarış funksiyalarının həyata keçirilməsində analitik tədqiqatın metodologiyasının spesifikliyini müəyyən edir [4, s. 138].

Beləliklə, mənfəəti artırmaq istəyən hər bir müəssisə effektiv vergi planlaşdırması aparmalı, vergilərin optimallaşdırılması üsullarını hazırlamalı və tətbiq etməlidir:

- Müəssisə rəhbərlərinin vergi qanunvericiliyinin tənzimləyici bazası sahəsində biliyi yoxdursa, bu, həmin müəssisənin sərt rəqabət mühitində bazarda lider mövqe tuta bilməyəcəyinə səbəb ola bilər.

- Buradan belə nəticə çıxır ki, vergi yükü vergi ödənişlərinin emal müəssisələrinin maliyyə vəziyyətinə təsirini təhlil etmək üçün istifadə olunan əsas dəyərdir və ölkə miqyasında vergi sisteminin iqtisadi artıma təsirini göstərir.

- Buna görə emal müəssisələrində vergi planlaşdırmasının təşkili çərçivəsində vergi ödənişlərinin optimallaşdırılmasına maraq göstərmək çox vacibdir.

- Vergi dərəcələrinin aşağı salınması ilə vergi yükü azaldılması hesabına emal müəssisələrinin sərəncamında qalan əlavə vəsaitin təkrar istehsal prosesinin genişləndirilməsinə yönəldilməlidir.

- İqtisadi inkişafın indiki mərhələsində vergi yükünün iqtisadiyyatın sahələri və ayrı-ayrı kateqoriyalı emal müəssisələri üzrə bölüşdürülməsinin rasional mexanizminin hazırlanması və tətbiqi mühüm əhəmiyyətə malikdir.

- Bu nöqteyi-nəzərdən vergi yükünü tədricən istehsaldan istehlaka keçirməklə istehsal, istehlak və istehsal amillərinin qiymətlərində tarazlığa nail olmaq olar.

- Vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarının və ya müəyyən fəaliyyət növlərindən əldə edilən gəlirlərin vergitutmadan tam və ya qismən azad edilməsini nəzərdə tutan vergi güzəştlərindən istifadə edilməklə vergi yükünü azaltmaq olar.

Beləliklə, vergi yükü anlayışının özü kifayət qədər geniş və çoxşaxəlidir. Ümumiyyətlə, emal müəssisələrin ən real mövqeyini və vəziyyətini göstərəcək ən dəqiq nəticəni əldə etmək məqsədilə vergi yükünü bir neçə üsulla hesablamaq və bütövlükdə orta dəyəri götürmək lazımdır.

Son olaraq bildirək ki, emal müəssisələrində vergi yükünün optimallaşdırılması və onların maliyyə vəziyyətinə təsirinin qiymətləndirilməsi problemi istənilən vaxt aktual olacaqdır. Emal müəssisələrinin vergi yükünün azaldılması son nəticədə modernləşmə üçün vəsaitin ayrılmasına və ölkənin iqtisadi inkişafı üçün şəraitin yaradılmasına gətirib çıxaracaq və s.

### Ədəbiyyat


1. Mustafayev, A.M., Vəliyev M.V., Bayramov İ.M. Təsərrüfat təfəkkürünün psixologiyası: vergi aspektləri. "Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu" mövzusunda Respublika elmi-praktik konfransın materialları. Şamaxı, 15 iyun 2015, – s.231-233.
2. Rzayev, P.Q. Vergi yükünün optimallaşdırılmasının nəzəri əsaslarına bir baxış. Azərbaycanın vergi jurnalı, 5/2012, – s.99-116.
3. Гапеева-Сергейчик, О.О. Налоговое планирование как один из инструментов снижения налоговой нагрузки на организацию / О.О. Гапеева-Сергейчик, Е.Д. Будник // Экономика. Бизнес. Финансы. – 2022. № 5, – с. 18-2.
4. Мандражи, З.Р. Налоговый анализ как составляющая оптимизации налоговой политики предприятия / З.Р. Мандражи // Ученые записки Крымского инженерно-педагогического университета. – 2021. № 1(71), – с. 134-138.
5. Мартынова, А.И. Анализ налоговой нагрузки субъектов малого и среднего предпринимательства мясоперерабатывающей промышленности Уральского региона // Вестник Удмуртского университета. Серия Экономика и право. – 2021. – Т. 31. № 5. – с. 769-776.
6. Турбина, Н.М. Налоговая нагрузка предприятий: необходимость расчета и оптимизации / Н.М.Турбина, А.Ю.Федорова, Е.А.Баева // Социально-экономические явления и процессы. – 2017. – Т. 12. № 6, – с. 327-331.



**РЕЗЮМЕ**

**ВОПРОСЫ КОЛИЧЕСТВЕННОЙ ОЦЕНКИ НАЛОГОВОЙ НАГРУЗКИ В ПЕРЕРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ ГЛОБАЛЬНЫХ ФИНАНСОВЫХ ВЫЗОВОВ**

***Алескеров С.Х.***

***Ключевые слова:*** *налоговая нагрузка, перерабатывающие предприятия, количественная оценка, оптимизация налоговой нагрузки, налоговое планирование*

В статье рассмотрены вопросы количественной оценки налоговой нагрузки в перерабатывающей промышленности Азербайджана в контексте глобальных финансовых вызовов. Дана значимость понятия налоговая нагрузка как экономической категории и ее роль в перерабатывающей промышленности. Проанализирована важность оптимизации налоговой нагрузки для предприятий перерабатывающей отрасли и необходимость налогового планирования, как на микро, так и на макроуровне. Обобщены принципы оптимизации налогов на перерабатывающих предприятиях. Даны предложения относительно способов оптимизации налогов и эффективного налогового планирования с целью увеличения рентабельности предприятия.



**SUMMARY**

**ISSUES OF QUANTITATIVE ASSESSMENT OF TAX BURDEN IN PROCESSING INDUSTRY OF AZERBAIJAN IN THE CONTEXT OF GLOBAL FINANCIAL CHALLENGES**

***Aleskerov S.X.***

***Key words:*** *tax burden, processing enterprises, quantification, optimization of tax burden, tax planning*

The issues of quantitative assessment of the tax burden in the processing industry of Azerbaijan in the context of global financial challenges are considered in the article. The significance of the concept of tax burden as an economic category and its role in the processing industry is given. The importance of optimizing the tax burden for enterprises in the processing industry and the need for tax planning, both at the micro and macro levels are analyzed then. The principles of tax optimization at processing enterprises are summarized. Proposals on ways to optimize taxes and effective tax planning in order to increase the profitability of the enterprise are given in the end.


# BEYNƏLXALQ TRANSFORMASİYALAR KONTEKSTİNDƏ REAL İQTİSADİYYATIN KREDİTLƏŞDİRMƏ MEXANİZMİNİN MÜASİR PROBLEMLƏRİ


**Əliyev Gəray Aydın oğlu**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*gerayaliyev1907@gmail.com*



***Açar sözlər:*** *beynəlxalq transformasiyalar, real iqtisadiyyat, kredit, kreditləşdirmə mexanizmi, kreditləşdirmə mexanizminin problemləri, əlçatan kredit problemi*

Müasir dövrdə beynəlxalq iqtisadi münasibətlərdə pul-kredit və maliyyə amilləri problemləri kifayət qədər aktualdır və bu məsələlərin səmərəli həlli yollarının müəyyənləşdirilməsi strateji əhəmiyyət kəsb edir. Xüsusilə, real iqtisadiyyat sahələrinin kreditləşdirilməsi problemləri daha çox mürəkkəbliyi ilə fərqlənir. Əvvəlcədən qeyd edək ki, bu problem Azərbaycan üçün xeyli aktualdır və fəal diskusiya tələb edən mövzulardan biridir. Qeyd edək ki, real iqtisadiyyatda müəssisələrin fəaliyyətinin maliyyələşdirilməsi bir qrup amillər hesabına mümkündür: 1) Müəssisənin öz vəsaiti. İstənilən müəssisənin maliyyə fəaliyyəti özünümaliyyələşdirmə prinsipinə əsaslanmalıdır, o zaman əldə edilən gəlirlər dövrün bütün xərclərini ödəməklə bərabər, genişləndirilmiş təkrar istehsalı təmin etmək üçün də kifayətdir; 2) Əvəzsiz olaraq alınan vəsaitlər. Bunlar adətən dövlət subsidiyalarıdır; 3) Borc vəsaitləri. Borc alınmış maliyyə mənbələrinin əsasını kommersiya banklarının sahibkarlıq subyektlərinə verdiyi kreditlər təşkil edir. Real iqtisadiyyatın inkişafında bank sektorunun rolu kifayət qədər böyükdür. Belə ki, banklar maliyyə vasitəçiləri kimi də çıxış edirlər. Onlar bəzi təsərrüfat subyektlərinin müvəqqəti sərbəst pul ehtiyatlarını toplayır və onları müvəqqəti istifadə üçün başqa təsərrüfat subyektlərinə verirlər. Bank xidmətləri bazarında əsas fəaliyyət növləri depozit və kredit əməliyyatlarıdır. Kredit fəaliyyəti bank anlayışını formalaşdıran ən mühüm xüsusiyyətlərdən biridir. Ölkədə iqtisadi vəziyyətin hazırkı şəraitində bank kreditləşdirilməsi kommersiya bankları üçün əsas mənfəət mənbələrindən biridir. Bank təşkilatı olmadan maliyyə dövriyyəsini təsəvvür etmək mümkün deyil. Bank sektoru real iqtisadiyyatın prioritet sahələrinin inkişafına böyük töhfə verə bilər. Banklar əhalinin, təşkilatların, dövlətin vəsaitlərini toplayaraq onları sənaye, kənd təsərrüfatı, elm tutumlu qeyri-istehsal sahələrində innovativ texnologiyalar hazırlayan və tətbiq edən sahibkarlıq subyektlərinin kreditlərinə çevirə bilirlər. Beləliklə, banklar tərəfindən uzunmüddətli əsasda vəsaitlərin cəlb edilməsi və yerləşdirilməsi üçün şərait yaradılması aktualdır [3, s.109].

Qlobal transformasiyalar konteksində ölkədə maliyyə sabitliyinin təminatında və dövlətin maliyyə-kredit sistemində bankların rolu strateji səviyyədə qiymətləndirilməli, onların rəqabət qabiliyyətinin, praktiki fəaliyyət proseslərində geniş tətbiq olunan maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasına ciddi əhəmiyyət verilməlidir. Bunlarla bərabər, hazırkı dövrün tələblərinə cavab verə bilən müasir bank texnologiyalarının hazırlanmasına və fəal istifadəsinə üstünlük verilməli, yəni bank xidmətləri göstərilərkən keyfiyyət və rəqabətqabiliyyətlilik, müştəri məmnunluğu kimi elementlər prioritet olmalıdır. Müştərilərin bank xidmətlərindən tam məmnunluğunu təmin etmək məqsədilə həmin xidmətlər lazımi səviyyədə göstərilməli, infrastrukturlar yaradılmalı, vaxt itkisinə yol verilməməli, bank əməliyyatları operativ aparılmalı, müştərilər üçün geniş informasiya mənbələri yaradılmalı, məsləhət xidmətləri göstərilməlidir. Digər problem bank sistemi ilə maliyyə bazarlarının qarşılıqlı əlaqəsini müasir dövrün tələblərinə uyğunlaşdırmaqdır. Maliyyə-kredit bazarında rəqabət mühitinin şəffaflığına, sağlam münasibətlərin formalaşmasına, maliyyə və mühasibat hesabatlarının etibarlılığına, onların beynəlxalq standartlara uyğunluğuna diqqət yetirilməli, təkmilləşdirməyə ehtiyacı olan hər bir sahədə ardıcıl tədbirlər reallaşdırılmalı, bütövlükdə maliyyə bazarı iştirakçılarının fəaliyyətində maliyyə və bank mexanizmlərinin səmərəli istifadəsi təmin edilməlidir. Həmçinin, müasir dövrün çağırışları ilə maliyyə bazarı iştirakçılarının münasibətləri arasındakı ziddiyyətləri və problemləri nəzərdən qaçırmamaq lazımdır [1, s.53]. Real iqtisadiyyatın bütün sahələrində kreditlərin verilməsi bank təşkilatları üçün mənfəətin formalaşmasında əsas amildir və müvafiq olaraq kredit portfelinin keyfiyyəti, faiz dərəcələrinin dəyəri və kredit riskinin həcmi bank sisteminin dayanıqlılığının təmin edilməsində böyük önəm daşıyır [4, s.31].

Əvvəldə qeyd etdiyimiz kimi, real iqtisadiyyatın inkişafında investisiya bankları əsas rol oynayır. Real iqtisadiyyata investisiya xidmətləri göstərmək baxımından ixtisaslaşmış bankların yaradılması bunlara imkan yarada bilər: müəssisələrə investisiya xidmətləri göstərmək üçün resursları cəmləşdirmək; marketinq tədqiqatları əsasında bank investisiya xidmətlərinə əlavə ehtiyacı müəyyən etmək; uzunmüddətli resursların formalaşması və istifadəsi mexanizmini hazırlamaq və büdcənin məqsədli istifadəsinə nəzarəti təmin etmək [5, s.30]. Bu proseslərdə bankların əsas maliyyə resursları onların kreditləridir. Kreditlərin reallığa çevrilməsi üçün ən azı iki şərt lazımdır: 1) borc verənlə borcalanın maraqları üst-üstə düşərsə, kredit zəruri olur; 2) kredit əməliyyatının iştirakçıları - borc verən və borcalan - iqtisadi əlaqələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə maddi təminat verən müstəqil subyektlər kimi çıxış etməlidirlər. Müxtəlif kredit-maliyyə institutları vasitəsilə, bütövlükdə bütün kredit mexanizmi vasitəsilə kredit kapitalı iqtisadiyyatın müxtəlif sahələri arasında qaytarılma əsasında yenidən bölüşdürülür, sərbəst nağd pul çatışmazlığı olan sahələrə yönəldilir. Bu, sənayedə kapital çatışmazlığını kompensasiya edir, vəsaitlərin daha səmərəli istifadəsini təmin edir, onların dövriyyəsini sürətləndirir, bu da daha çox mənfəət əldə edilməsi ilə nəticələnir. Kreditləşdirmə pul kütləsinin strukturuna, ödəniş dövriyyəsinə, pul dövriyyəsinin sürətinə təsir göstərməklə tədavül xərclərinə qənaət funksiyasını yerinə yetirir. Kreditləşdirmə həm də paylama xərclərinə qənaət funksiyalarını yerinə yetirir, bank hesablarından və depozitlərdən istifadənin müxtəlif vasitələrinin inkişafına töhfə verir. İqtisadiyyatda zaman amili böyük önəm daşıyır. Kreditləşdirmə mexanizmi sayəsində

kapitalın təmərküzləşməsi və onun mərkəzləşdirilməsi prosesi daha sürətli gedir ki, bu da mənfəətin artmasına səbəb olur. Bank kreditləşdirilməsi sahəsində vəziyyətə iqtisadiyyatın ümumi vəziyyəti, siyasi vəziyyət, inflyasiya və bir sıra digər maliyyə-iqtisadi amillər əhəmiyyətli dərəcədə təsir göstərir. İlk öncə, investisiya mühitinin yaxşılaşdırılması, daha sərt kreditləşmə meyarlarının tətbiqi, kredit risklərinin təmin edilməsi üzrə effektiv mexanizmlərin təmin edilməsi və kreditorların və borcalanların hüquqlarının müdafiəsi tədbirlərinin təkmilləşdirilməsi yolu ilə kredit prosesləri stimullaşdırılmalıdır. Həmçinin dövlət öz səylərini ölkə müəssisələri üçün Avropa standartlarını tətbiq etməklə, yeni beynəlxalq o cümlədən sahibkarlığı dəstəkləyə biləcək investisiya layihələrinin təşviqinə səy göstərməlidir.

Araşdırmalar göstərir ki, real iqtisadiyyatın inkişafında bank kreditləşdirilməsi önəmli rol oynayır. Hazırda kreditləşmənin inkişafı bütövlükdə bank sisteminin fəaliyyətinin ən mühüm məqsədlərindən biri olmaqla yanaşı, ölkənin iqtisadi inkişafında da mühüm əhəmiyyət kəsb edir [2, s.58]. Bank kreditləşdirilməsi iqtisadiyyatda kredit münasibətlərinin ən geniş yayılmış formasıdır, borc verənlə borcalan arasında qarşılıqlı əlaqənin məhsuludur. Bank kreditləşməsinin keyfiyyəti müştərilərin artan və daim inkişaf edən maliyyə və sosial tələbatlarını ödəyə bilən, vaxtında və tam bank xidmətlərinin məcmusunu əks etdirən kredit münasibətlərinin əsası kimi başa düşülməlidir.

Beləliklə, real iqtisadiyyatın inkişafı kreditləşdirmənin səmərəliliyindən xeyli dərəcədə asılıdır və kreditləşmə mexanizminin müasir problemlərinin həlli üçün bir sıra tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır:

– banklar tərəfindən sahibkarlığa kreditlərin verilməsi üçün əlverişli şəraitin yaradılması və bununla yanaşı, bankların real iqtisadiyyat subyektlərinə kredit verilməsinə dair tələblərin təkmilləşdirilməsi tədbirləri görülməlidir;

– dövlət tərəfindən bankların fəaliyyətində olan problemlərin həll edilməsi üçün dəstək mexanzimləri hazırlanmalı və tətbiq olunmalı, “dövlət-banklar-real iqtisadiyyat subyektləri” sxemi üzrə fəal əməkdaşlıq təmin edilməlidir;

– banklar tərəfindən kreditlərin əlçatan olması, real iqtisadiyyat subyektləri üçün nəzərdə tutulan kreditlərin faiz dərəcələrinin azaldılması tədbirlərinə üstünlük verilməli və bu istiqamətlərdə sistemli tədbirlərin həyata keçirilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır və s.

## Ədəbiyyat


1. Əliyev, V.Ə. Maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasında sistem əhəmiyyətli bankların strateji əhəmiyyəti // Audit № 3, Cild 25, 2019, s.49-58.
2. Севек, Р. М. Коммерческое кредитование и пути его совершенствования / Р.М.Севек, О.А.Оюн, А.Н.Хуурак // Экономика и бизнес: теория и практика. – 2022. – № 5-3(87). – С. 58-60.
3. Субботина, Е.С. Виды банковского кредита как источника финансирования реального сектора экономики / Е.С.Субботина // Современные тенденции развития науки и технологий. – 2015. – № 2-6. – С. 105-109.
4. Таштамиров, М.Р. Роль кредитного компонента в обеспечении эффективности банковской системы / М.Р.Таштамиров // Вестник Чеченского государственного университета им. А.А.Кадырова. – 2021. – № 4(44). – С. 28-36.
5. Швейкин, И.Е. Банковский инвестиционный кредит - основа развития реального сектора экономики / И. Е. Швейкин, Г. Г. Коробова // Сибирская финансовая школа. – 2016. – № 2(115). – С. 25-30.



**РЕЗЮМЕ**

**СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ МЕХАНИЗМА КРЕДИТОВАНИЯ РЕАЛЬНОЙ ЭКОНОМИКИ В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ТРАНСФОРМАЦИЙ**

***Алиев Г.А.***

***Ключевые слова:*** *международная трансформация, реальная экономика, кредит, механизмы кредитования, проблемы механизма кредитования, проблемы доступного кредита*

Исследованы проблемы механизма кредитования реальной экономики в условиях международных трансформаций в современном периоде. Рассмотрены принципиальные факторы финансирования направлений деятельности в реальной экономике. Затронуты проблемы развития финансово-кредитного рынка и банковско-кредитных предприятий. Обоснована важность разработки механизмов обеспечения и применения доступных кредитов в сфере реальной экономики. Проанализирована важность и определены приоритетные направления деятельности банков в развитии реальной экономики. Даны предложения по совершенствованию механизма кредитования реального сектора в соответствии с международной трансформацией.

**SUMMARY**
**CURRENT PROBLEMS OF THE REAL ECONOMY LENDING MECHANISM IN THE CONTEXT OF INTERNATIONAL TRANSFORMATIONS**
***Aliyev G.A.***

***Key words**: international transformation, real economy, credit, lending mechanisms, lending mechanism problems, affordable credit problems*

The problems of the mechanism of lending to the real economy in the context of international transformations in the modern period are investigated. The fundamental factors of financing the areas of activity in the real economy are considered. The problems of the development of the financial and credit market, banking and credit enterprises are affected. The importance of developing mechanisms for securing and applying affordable loans in the real economy is justified. The importance and the priority areas of activities of banks in the development of the real economy are determined. Proposals to improve the mechanism of lending to the real sector in accordance with international transformation are given in the end of the article.

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİNDƏ AUDİT XİDMƏTİNİN YERİ VƏ ROLU

**[1]Əliyeva Aygün Hüseynəli qızı, [2]Əlizadə Fərid Nazim oğlu**
*[1]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*[2]İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Bakı, Azərbaycan*
alizadaconi@gmail.com

***Açar sözlər:*** *auditor xidməti, təkmilləşdirilmə, effektivlik səviyyəsi, qiymətləndirilmə meyarları, risklər*

Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdiyi dövr ərzində çətin və həmçinin şərəfli bir yolla irəliləmişdir. Azərbaycan Respublikasının Ulu öndəri olan Heydər Əliyevin və onun ideyalarının davamçısı olan Prezident İlham Əliyevin başçılığı ilə aparılmış çoxsaylı islahatlar Azərbaycan Respublikasında sosial-iqtisadi durumun yaxşılaşmasına, əhalinin maddi vəziyyətinin daha da artmasına xidmət göstərmişdir.

Azərbaycanda baş verən iqtisadi islahatlar prosesində maliyyə nəzarətinin təkmilləşdirilməsinə mühüm əhəmiyyət verilmiş və bazar iqtisadiyyatı xüsusiyyətlərinə uyğun olaraq sərbəst auditin yaradılması da dövlətin diqqətində olan əsas şərtlərdən birinə çevrilmişdir. İftixar hissi ilə vurğulamaq lazımdır ki, əldə edilmiş bu nailiyyətlər 5 aprel 1996-cı ildə “Auditor xidməti haqqında” qanunun qəbul edilməsi ilə nəticələnmiş və bu sistemin bərqərar olaraq formalaşması birbaşa Ulu Öndərin adı ilə bağlı dır. Təbii ki, bu qanunun qəbul olunması Auditorlar Palatasının yaradılması və Ümummilli Liderin iqtisadi infrastruktur sistemində auditə verdiyi dəyərin parlaq təzahürü idi. Bu istiqamətdə reallaşdırılmış qanunlar ölkə iqtisadiyyatının inkişafında şəffaflığın artırılmasına təkan vermək məqsədini daşıyır [1].

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində audit xidmətinin transformasiya problemlərinin aradan qaldırılması, eyni zamanda auditin effektivlik səviyyəsinin düzgün qiymətləndirilməsi iri müəssisələrin fəaliyyətində mühüm şərtlərdən birinə çevrilmişdir. Audit xidmətinin səmərəli həyata keçirilməsinin reallaşdırılması istiqamətində düzgün təklif və tövsiyələrin hazırlanması, həmçinin həmin şərtlərin vaxtında və lazımi qaydada tətbiq edilməsi daim diqqət mərkəzində olmalıdır. Təbii ki, audit fəaliyyətinin düzgün təşkili istiqamətində aparılan təhlil bütün müvafiq qanunlara uyğunluğu təmin etməklə yanaşı, audit fəaliyyətinin səmərəlilik və effektivliyinə, təsərrüfat subyektinin işinin yüksək səviyyədə təşkilinə zəmanət verir. Auditin müntəzəm olaraq həyata keçirilməsi idarəetmə sistemlərinin etibarlılığı və effektivliliyinə əsaslanır. Odur ki, ekspertiza aparılan müəssisənin iş prinsipinə uyğun olaraq fəaliyyətinin bütün göstəriciləri, xüsusilə də mühasibatlıq sənədləri sistemləşdirilməli və təhlil edilməlidir [2].

Auditin effektiv təşkilini qiymətləndirməkdən ötrü monitorinqlərin keçirilməsi və onların effektivlik səviyyəsinin müəyyənləşdirilməsi kimi tədbirlər önəmliyi ilə diqqət çəkir. Auditin daimilik və hesabatlılıq prinsiplərinə əsaslanaraq qarşılıqlı fəaliyyətdə olduğu müəyyən idarə və müəssisələrlə, şöbə və bölmələrlə iş birliyi nəticəsində qiymətləndirmənin aparılması daha düzgün istiqamətdir.

Təhlil nəticəsində müəyyənləşdirilmişdir ki, audit xitmətinin səmərəlilik səviyyəsinin qiymətləndirilməsi meyarlarını aşağıdakı kimi vermək məqsədəuyğundur (şəkil 1).




**Şəkil 1. Audit xidmətinin səmərəlilik səviyyəsinin qiymətləndirilməsi meyarları**

Auditin transformasiya istiqamətlərinin təsdiqini tapmış variantlarını aşagıdakı kimi ümumiləşdirmək mümkündür (şəkil 2):




**Şəkil 2. Auditin transformasiya istiqamətləri**

Şəkildən göründüyü kimi, ilk növbədə auditor tərəfindən lazımi şərtlərə uyğun olaraq mühüm informasiya bazası yaradılmalı, daha vacib sənədlər əldə edilməli, adekvat metodikalar işlənib hazırlanmalı və ondan istifadə etməklə iş prosesində yaranmış risklər təhlil edilməli və bu təhlükələrin qarşısı alınmalı, yoxlama ekspertiza işini həyata keçirən heyətin peşəkarlıq səviyyəsi təkmilləşdirilərək dünya standartları səviyyəsinə qaldırılmalıdır. Bununla belə, qeyd edilən istiqamətlərə nəzarət daim gücləndirilməlidir.

Yuxarıda qeyd edilənlərlə bərabər auditor xidmətinin idarə edilməsinin təkmilləşdirilməsi mütləqdirki, bu istiqamətləri də aşağıdakı şəkildəki kimi qruplaşdırmaq mümkündür (şəkil 3):




**Şəkil 3. Auditor xidmətinin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri.**

İqtisadi tədqiqatların və araşdırmaların aparılması nəticəsində məlum olur ki, göstərilən istiqamətlərin sayəsində şəffaflığın artırılması sahəsində auditot fəaliyyətini təkmilləşdirərək beynəlxalq peşəkar təşkilatlara üzv olmaq imkanını yaratmaq mümkündür.

Beləliklə, bazar iqtisadiyyatına keçidlə əlaqədar müəssisə və təskilatlarda auditin idarə edilməsinin təkmilləşdirilməsi zamanı Auditorlar Palatası aktiv mövqe tutaraq öz fəaliyyətini intensivləşdirməli və yoxlamanın beynəlxalq standartlar səviyyəsində aparılmasına nəzarətini daha da gücləndirməlidir.

## Ədəbiyyat

1. Audit_Konsepsiya_2013.68 s. http:// www.audit.gov.az
2. İsrafilov R.Ə. Auditdə və idarəetmə təhlildən istifadə olunması və onun təkmilləşdirilməsi yolları. Dis. işi. UNEC-20195.

**РЕЗЮМЕ**

**МЕСТО И РОЛЬ АУДИТОРСКОЙ СЛУЖБЫ В ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА**

***Алиева А. Г., Ализаде Ф. Н.***

***Ключевые слова:*** *аудиторская служба, совершенствование, уровень эффективности, критерии оценки, риски.*

На первый план выдвинуты правильная организация аудиторской деятельности, поиск путей решения актуальных проблем в этой области, расширение направлений совершенствования аудиторской деятельности. В

статье отражены роль и назначение аудиторской службы, условия реализации уровня эффективности аудиторской службы, критерии их оценки и анализа. При этом сгруппированы и обозначены направления совершенствования управления аудиторской службой и важные направления решения трансформации внутреннего аудита.

**SUMMARY**
**THE PLACE AND ROLE OF THE AUDIT SERVICE IN HAYDER ALIYEV'S ECONOMIC POLICY**
***Aliyeva A. H., Alizade F. N.***

***Key words:*** *audit service, improvement, efficiency level, evaluation criteria, risks*

It is known that proper organization of audit activities, investigation of solutions to current problems in this field, and expansion of directions for improvement of audit conduct have been brought to the fore. In the article, the role and purpose of the audit and auditor service, the conditions for realizing the level of effectiveness of the auditor service, their evaluation criteria and analysis are reflected. At the same time, the directions for improving the management of the auditor service and the important directions for solving the transformation of the internal audit have been grouped and indicated.

# İQTİSADİYYATIN RƏQƏMSALLAŞMASI ŞƏRAİTİNDƏ MÜƏSSİSƏNİN MALİYYƏSİNİN İDARƏ EDİLMƏSİ

**Əmiraslanova Dilarə Əmiraslan qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
dilare.amiraslanova@mail.ru

***Açar sözlər:*** *rəqəmsallaşma, maliyyə menecmenti, rəqəmsal texnologiyalar, rəqəmsal maliyyə, müəssisənin maliyyəsi*

İctimai həyatın müxtəlif sahələrində, o cümlədən iqtisadiyyat və maliyyə sahəsində rəqəmsal texnologiyalara keçid hazırda həm xaricdə, həm də ölkəmizdə cəmiyyətin inkişafının əsas trendlərindəndir. Buna görə də müəssisənin fəaliyyətində rəqəmsal texnologiyalardan istifadə onun innovativ inkişafının əsas vasitələrindən birinə çevrilir ki, bu da öz növbəsində onun rəqabət qabiliyyətini və maliyyə sabitliyini artırır.

Maliyyənin idarə edilməsi biznes məqsədlərinə çatmaq üçün zəruri olan bütün maliyyə resurslarının yaradılması, nəzarəti və monitorinqi ilə bağlı strateji metodikadır. Buraya mühasibat şöbələrində maliyyə menecerləri tərəfindən həyata keçirilən gəlirliliyin, xərclərin, pul vəsaitlərinin hərəkəti və kreditlərin qiymətləndirilməsi daxildir.

Səmərəli maliyyə idarəetmə biznes strategiyasının yaradılması üç əsas prinsipə əsaslanır:

1. Biznesin inkişafı və tənzimləyici kapitalın hazırlanması üzrə hesabatlarla gələcək maliyyə göstəricilərini proqnozlaşdırmaq;
2. Uzunmüddətli təşəbbüslər üçün prioritetlərin müəyyən edilməsi;
3. Biznes modellərinə, bazar şərtlərinə və təşkilatın tələbinə uyğunlaşdırılmış planlar.

Səmərəli maliyyə idarəetmə strategiyası mütəxəssislərə biznes planını davamlı olaraq təkmilləşdirmək üçün lazımi məlumatlardan istifadə etməyə imkan verir. Bu maliyyə departamentinə düzgün investisiya qərarları qəbul etməyə, onların likvidliyini və gəlirliliyini qiymətləndirməyə kömək edən analitika çıxarmağa imkan verir.

Qloballaşma şəraitində şirkətin bazarda sabitliyini və rəqabət qabiliyyətini qorumaq vacibdir. Maliyyə menecmenti uzunmüddətli satış planlaşdıran şirkətlər üçün lazımdır. Bütün gəlir mənbələrini izləyən sistemin tətbiqi aşağıdakı imkanları verəcəkdir:

- Maliyyə planlaşdırması və aktivlərin təhlilini aparmaq;
- İqtisadi sabitliyi təmin etmək;
- Təşkilatın ümumi dəyərini və onun gəlirini artırmaq;
- Vacib maliyyə qərarları qəbul etmək üçün düzgün məlumatlardan istifadə etmək;
- Resursların və pul vəsaitlərinin səmərəli bölüşdürülməsi üçün iş prosesinin optimallaşdırılması.

Şirkətin öz maliyyəsini necə idarə edə bilməsi üçün bir neçə variant var. Kənar məsləhətçilərdən tutmuş korporativ maliyyə menecerlərinə qədər bir çox mütəxəssis və ya mütəxəssis qrupu maliyyənin idarə edilməsində iştirak edir. Təbii ki, belə bir mütəxəssis və ya mütəxəssis qrupu dəqiq gələcək planı yaratmaq üçün bütün mövcud retrospektiv və cari maliyyə məlumatlarından istifadə edəcək.

Maliyyə idarəetmə sistemində ən mühüm komponentlərdən biri cəmiyyətin indiki inkişafı mərhələsində əsasən rəqəmsal formada qəbul edilən, ötürülən və emal edilən informasiya məlumatlarıdır. Beləliklə, iqtisadiyyatın qlobal rəqəmsallaşması və onun təsərrüfat subyektinin fəaliyyətinin maliyyə idarəçiliyinə dair proqnozunun öyrənilməsi mövzusu onun inkişafının gündəliyində duran əsas məsələlərdən

biridir.

Dünya Bankına görə, rəqəmsal iqtisadiyyat rəqəmsal informasiya-kommunikasiya texnologiyalarından istifadəyə əsaslanan iqtisadi, sosial və mədəni əlaqələr sistemidir [1]. Həmçinin rəqəmsal iqtisadiyyatı dövlət, müəssisə və əhali arasında işgüzar əlaqələrin hərtərəfli, mərhələli şəkildə rəqəmsal formata köçürülməsinin həyata keçirildiyi bir sistem kimi müəyyən etmək olar [2]. Rəqəmsal transformasiya kontekstində rəqabətqabiliyyətini qorumaq üçün hər bir dövlət rəqəmsallaşma çərçivəsində istifadə olunan texnologiyaların geniş miqyaslı istifadəsinə keçid yolunda müəssisələrə dəstək verməkdə maraqlıdır, çünki müasir rəqəmsal texnologiyalardan istifadə iqtisadi sektorun və bütövlükdə cəmiyyətin inkişafına birbaşa təsir göstərir.

Təsərrüfat subyektinin maliyyə fəaliyyətinin səmərəli idarə edilməsi aşağıdakı əsas prinsipləri tətbiq etməklə həyata keçirilir:

1. Müəssisənin ümumi idarəetmə sistemi ilə inteqrasiya - səviyyəsindən və hansı fəaliyyət sahəsində qəbul edilməsindən asılı olmayaraq istənilən idarəetmə qərarları maliyyə nəticələrinə əhəmiyyətli təsir göstərə bilər;

2. İdarəetmə qərarlarının formalaşmasının kompleksliyi - təsərrüfat subyektinin maliyyə fəaliyyətinin nəticələrinə müəssisənin pul vəsaitlərinin hərəkətinin formalaşması, xərclənməsi və bölüşdürülməsi ilə bağlı qəbul edilən qərarların bütün müxtəlifliyi təsir göstərir;

3. İdarəetmənin yüksək dinamikası - maliyyənin idarə edilməsi xarici və daxili mühit amillərinin, resurs təminatının, maliyyə vəziyyətinin və müəssisənin fəaliyyətinin digər parametrlərinin təsirini nəzərə almaqla dinamik olmalıdır. Onun inkişafı və fəaliyyət göstərməsinə xarici amillər çox təsir edir. Müəssisə öz fəaliyyətini həyata keçirərkən qanunvericilikdəki dəyişiklikləri nəzərə almalı, iqtisadiyyatın və bütövlükdə xarici mühitin mövcud vəziyyətinin diktə etdiyi yeni şərtlərə tez uyğunlaşmalıdır [3].

Rəqəmsal iqtisadiyyatın nəzərdə tutduğu informasiya kommunikasiyalarının və innovasiyaların istifadəsi və fəal tətbiqi yuxarıda göstərilən prinsiplərin həyata keçirilməsinin səmərəliliyini artıra bilər.

İnformasiyanın rəqəmsallaşdırılması sahibkarlıq subyektlərinin idarə olunmasına mühüm təsir göstərir. O, daim dəyişən mühitdə iqtisadi mobilliyin ümumi dinamikasını müəyyən edir. Yeni informasiya texnologiyalarından vaxtında istifadə etmək, onlardan maksimum faydalanmaq bacarığı bazarda yüksək göstəricilərə nail olmağa, biznesi dinamik inkişaf etdirməyə və genişləndirməyə imkan verir. Maliyyə menecmenti müəssisənin maliyyə resurslarının səmərəli formalaşdırılmasını, onlardan istifadəsini və idarə edilməsini əvvəlcədən müəyyən edir.

Texnoloji sahədə əldə olunan nailiyyətləri daha ətraflı nəzərdən keçirək. Maliyyə menecmentinin rəqəmsallaşdırılmasının üstünlükləri kimi aşağıdakıları qeyd etmək olar:

1. Menecerin iş yerinə fiziki bağlılığının olmaması - rəqəmsal maliyyə idarəetmə sistemi mobildir, işləkdir və menecerin olduğu yerdən asılı olmayaraq həmişə əl çatandır [4]. İdarəetmə fəaliyyətində tələb olunan gündəlik vəzifələri yerinə yetirmək üçün işçiyə yalnız internetə çıxış, həmçinin kompüter və ya hər hansı digər rahat mobil cihaz lazımdır;

2. Sənəd dövriyyəsinin asanlığı və səmərəliliyi - məlumat və sənədlərin rəqəmsal formata keçməsi kağız daşıyıcıları azaltmağa və ya tamamilə onlardan imtina etməyə imkan verir ki, bu da öz növbəsində həll edilməli olan bir sıra vəzifələri avtomatlaşdırmağa imkan verir [5]. Kağızla işləmək ehtiyacının olmaması vaxt və maddi xərclərin əhəmiyyətli dərəcədə azalmasına kömək edir, həm də menecerin diqqətinin daha vacib məsələlərə yönəlməsinə imkan verir;

3. Real vaxt rejimində məlumatlara çıxış- maliyyə idarəetmə sistemlərində rəqəmsal olaraq qeydə alınan məlumatlara istənilən vaxt uzaqdan baxmaq mümkündür ki, bu da idarəetmə qərarlarının hazırlanması və qəbulu zamanı onlardan istifadənin səmərəliliyini artırır.

Eyni zamanda unutmaq olmaz ki, müsbət tərəflərlə yanaşı, bu transformasiyalar həm də daha çox rəqəmsal və informasiya təhlükəsizliyi ilə, habelə müəyyən dərəcədə biznesin bu cür modernləşməyə ümumi hazır olmaması ilə bağlı müəyyən risklər daşıyır. Bununla əlaqədar olaraq müəssisələrdə maliyyə menecmentinin rəqəmsallaşdırılması prosesini müşayiət edən aşağıdakı problemləri müəyyən etmək mümkündür:

1. İnformasiya təhlükəsizliyinə artan tələblər;
2. İşçilərin səriştəsinə artan tələblər;
3. Rəqəmsal texnologiyaların tətbiqi üçün əhəmiyyətli pul xərcləri.

Yekunda belə bir nəticəyə gəlmək olar ki, elmi-texniki tərəqqinin sürətlənməsi və cəmiyyətin informasiya inkişafı ilə əlaqədar olaraq maliyyə menecmentinin demək olar ki, bütün mövcud strukturunda dəyişikliklərə ehtiyac yaranır. Rəqəmsal texnologiyalar müəssisədə maliyyə idarəetmə sistemini təkmilləşdirmək üçün lazım olan alətdir. Bununla belə idarəetmənin səmərəliliyini artırmaq imkanı ilə yanaşı bu cür texnologiyaların tətbiqi həm maliyyə idarəetməsinin özünün, həm də bütövlükdə bütün müəssisənin

daxili proseslərinə tələblərin sərtləşdirilməsi ilə bağlı müəyyən çətinliklərin yaranmasına səbəb olur.


## Ədəbiyyat

1. Положихина Мария Анатольевна Цифровая экономика как социально-экономический феномен//ЭСПР.2018.№1.URL: https://cyberleninka.ru/article/n/tsifrovaya - ekonomika - kak -sotsialno – ekonomicheskiy - fenomen (дата обращения: 10.12.2022).
2. Основные тренды цифровой трансформации экономики // Масюк Н.Н., Бушуева М.А., Брагина З.В., Кирьянов А.Е. и др. - Владивосток, 2022. - 144 с.
3. Принципы эффективного управления финансами. - [Электронный ресурс]. - Режим доступа: http://bibook.ru/books/31365/default.htm (Дата обращения 20.10.2019)
4. Сидорова Е.Ю., Тимохова Г.В. Цифровой менеджмент и процессный подход в системе управления бизнес-процессами//международный бухгалтерский учет. 2021. Т. 24. № 3 (477). С. 316-337.
5. Flammer, Caroline Strategic management during the financial crisis: How firms adjust their strategic investments in response to credit market disruptions // Strategic management journal. 2021. Volume 42: Number 7; p 1275-1298.



**РЕЗЮМЕ**

**УПРАВЛЕНИЕ ФИНАНСАМИ ПРЕДПРИЯТИЯ В УСЛОВИЯХ ЦИФРОВИЗАЦИИ ЭКОНОМИКИ**

***Амирасланова Д.А.***

***Ключевые слова:*** *цифровизация, финансовый менеджмент, цифровые технологии, цифровая экономика, финансы предприятия*

Одним из важнейших факторов развития предприятия в современных условиях является, безусловно, эффективность управления его финансовыми ресурсами и всей финансовой деятельностью. Управление финансами предприятия – это последовательная деятельность его работников по организации и управлению финансовыми отношениями, денежными средствами и денежными потоками. В статье рассматривается взаимосвязь между цифровыми технологиями и управлением финансовой деятельностью предприятия, а также общее влияние процессов цифровой трансформации общества и экономики на систему финансового менеджмента.



**SUMMARY**

**FINANCIAL MANAGEMENT OF THE ENTERPRISE IN THE CONDITION DIGITALIZATION OF THE ECONOMY**

***Amiraslanov D.A.***

***Key words:*** *digitalization, financial management, digital technologies, digital economy, enterprise finance*

One of the most important factors in the development of an enterprise in modern conditions is, of course, the efficiency of managing its financial resources and all financial activities. Financial management of an enterprise is a consistent activity of its employees in organizing and managing financial relations, cash and cash flows. The article discusses the relationship between digital technologies and financial management of an enterprise, as well as the overall impact of the processes of digital transformation of society and the economy on the financial management system.


# AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYATININ İQTİSADİ ARTIMI VƏ ONUN DETERMİNANTLARI: ARDL ANALİZ ÇƏRÇİVƏSİNDƏ LONGRUN VƏ SHORTRUN TƏSİRLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ


**Əsədova Rəvanə İskəndər qızı**

*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*

*revanaasadova@gmail.com*



***Açar sözlər:*** *iqtisadi artım tempi, dövlət gəlirləri, dövlət xərcləri, M1 pul kütləsi, faiz dərəcəsi, neft qiyməti, COVID-19, ARDL, LongRun təsirlər, ShortRun təsirlər*


**Giriş.** İqtisadi artım tempi milli iqtisadiyyatın əsas kəmiyyət xaraktersitikalarından biri kimi çıxış edir. Onun qiymətləndirilməsi, ona təsir edən iqtisadi amillərin müəyyənləşdirilməsi və proqnozlaşdırılması dayanıqlı iqtisadiyyatın təmin edilməsinin mühüm aləti kimi nəzərdən keçirilə bilər. İqtisadiyyatının neft amilindən əsaslı asılılığı şəraitində Azərbaycan Respublikasının iqtisadi artım tempi və ona təsir edən amillərin araşdırılması aktuallıq kəsb edir. [1]-də Azərbaycan Respublikası iqtisadiyyatı üçün postneft dövründə 2015-2022-ci illəri əhatə edən dövrün aylıq statistikası əsasında iqtisadi artıma istehlak qiymətləri indeksi, ixrac, idxal, investisiya, faiz dərəcəsi, inflyasiya, neftin qiyməti kimi makroiqtisadi amillərin uzun və qısamüddətli təsirləri dinamik ARDL metodikası əsasında qiymətləndirilmiş, qurulmuş ARDL(3, 9, 10, 10, 10, 7, 9, 10) modelində uzunmüddətli tarazlığın bərpa mexanizminin mövcud olduğu müəyyən

edilmişdir. [4]-də COVID-19 pandemiyasının təsirlərinin nəzərə alınması ilə 2011M01-2022M12 aylıq statistikası əsasında ÜDM-in artım tempinə ixrac, idxal, əsas kapitala yönəlmiş investisiyalar, məzənnə və neft qiymətlərinin təsirləri NARDL (Nonlinear Autoregression Distributed lags) modelləşdirmə vasitəsi ilə təhlil edilmiş, giriş reqressorlarının müsbət və mənfi komponentlərinin asılı ÜDM-in artım tempi dəyişəninə dinamik təsirlərinin simmetriklik xüsusiyyətləri tədqiq edilmişdir. Azərbaycan iqtisadiyyatının dinamik modelləşdirilməsi üçün VEC metodikasından da istifadə edilmişdir [8, 1, 2]. Belə ki, 2015M01-2020M12 statistikası əsasında postneft dövründə ölkə iqtisadiyyatı üçün əhaliyə ödənişli xidmətlər norması, dövlət xərcləri norması, investisiya norması, idxal norması, ixrac norması, məzənnə, inflyasiya, faiz dərəcəsi kimi makroindikatorlar arasındakı qarşılıqlı əlaqələr VECM(4) modeli əsasında araşdırılmış, model dəyişənlərinin müsbət şoklarına impuls reaksiya funksiyaları və dəyişənlərin proqnozunun dispersiyasının dekompozisiyası təhlili edilmiş [8], qurulmuş VECM(4) modeli əsasında alternatıv ssenarilər işlənmiş və ətraflı təhlili aparılmışdır [2]. COVID19 pandemiyasının və neft qiymətlərinin təsirlərinin nəzərə alınması ilə postneft dövründə Azərbaycan iqtisadiyyatı üçün istehlak qiymətləri indeksi, istehsal qiymətləri indeksi, adambaşına düşən ÜDM, məzənnə kimi makrogöstəricilərinin çoxtərəfli təsirləri VECM çərçivəsində tədqiq edilmiş; model dəyişənlərinin qısa və uzunmüddətli təsirləri; səbəb-nəticə əlaqələri; onların şoklara cavab reaksiyaları və proqnozun dispersiyasının dekompoziyası araşdırılmışdır [1].

**Metodologiya.** İqtisadi artım tempi və ona təsir edən amillərin tədqiq edilməsində iqtisadi göstəricilərin statistik xarakterlərindən asılı olaraq, müxtəlif dinamik modellərdən istifadə edilir. Bu tədqiqatda ÜDM və qeyri-neft ÜDM-in artım tempinə dövlət gəlirləri, dövlət xərcləri, faiz dərəcəsi, M1 pul kütləsi, neft qiyməti kimi makroiqtisadii amillərin təsirləri COVID-19-la bağlı pandemik vəziyyətin nəzərə alınması ilə, ARDL (Autoregression Distributed Lags) [5, 4,3] modeli çərçivəsində araşdırılmışdır.

**Verilənlər və mənbəyi.** Tədqiqat işində ÜDM və qeyri-neft ÜDM-in artım tempi, dövlət gəlirləri, dövlət xərcləri, faiz dərəcəsi, Brend markalı neft qiyməti kimi makroiqtisadii amillərin 2011M01- 2023M02 dövrünü əhatə edən aylıq statsitikasından istifadə edilmişdir [5]. Bu məqsədlə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin [7], TradingEconomics iqtisadi bazasının [6] aylıq qiymətlərindən istifadə edilmişdir. COVID-19 pandemik vəziyyətini ifadə edən dəyişən modelə Dummy dəyişən kimi daxil edilmişdir. Təhlillərin aparılması üçün ÜDM-in artım tempi və qeyri-neft ÜDM-in artım tempi üçün iki ARDL model qurulmuş, qurulmuş modellər əsasında alınmış nəticələrin müqayisəli təhlili aparılmışdır.

Modellərə daxil edilmiş ÜDM, qeyri-neft ÜDM-in artım tempi, dövlət gəlirləri, dövlət xərcləri, faiz dərəcəsi, M1 pul kütləsi, neft qiyməti kimi iqtisadi amillər və COVID-19 koronavirus pandemiyasının təsirini ifadə edən dəyişən, uyğun olaraq, F_GDP, F_GDP_Non_Oil, Gov_Income, Gov_Spending, Interest_Rate, M1, OP, D_Pandemic kimi işarə edilmişdir.

**Empirik analiz**

**Dinamik modellərin qurulması və onların təhlili.** Dinamik modelləşdirmə metodologiyasına əsasən, endogen və ekzogen dəyişənlərinin ehtimal-statistik xarakteristikalarının təhlili nəticəsində, başqa sözlə, dəyişənlərin I(O), I(1) və ya I(2) ailələrinə mənsubluq xüsusiyyəti əsasında qurulacaq dinamik modelin növü müəyyən edilir. Model dəyişənlərinin I(2) ailəsindən olmayıb, bir hissəsinin I(O), qalanlarının isə I(1) sinfindən olması ARDL; hamısının I(1)-dən olması isə VAR və ya VEC modelinin qurulmasını şərtləndirir. Odur ki, qurulacaq dinamik modelin növünün müəyyən edilməsində dəyişənlərin inteqrasiyaedilebilmə tərtiblərinin müəyyənləşdirilməsi əhəmiyyətli addımdır [4]. Bu məqsədlə, vahid kök testlərindən istifadə edilir. Modelə daxil ediləcək dəyişənlər üçün aparılmış testin nəticələrini aşağıdakı Cədvəl 1 şəklində verək:

***Cədvəl 1.***

**Vahid kök testinin nəticələri**

| **Dəyişənlər üçün ADF testinin nəticələri** | | **Dəyişənlərin birinci tərtib sonlu fərqləri ( Δ ) üçün PP testinin nəticələri** | |
|---|---|---|---|
| Series | Prob. | Series | Prob. |
| F_GDP | 0.0006 | D(F_GDP) | 0.0001 |
| F_GDP_NON_OIL | 0.0000 | D(F_GDP_NON_OIL) | 0.0001 |
| GOV_ INCOME | 0.9473 | D(GOV_ INCOME) | 0.0001 |
| GOV_SPENDING | 0.9929 | D(GOV_ SPENDING | 0.0001 |
| INTEREST_RATE | 0.1807 | D(INTEREST_RATE) | 0.0000 |
| M1 | 0.9914 | D(M1) | 0.0000 |
| OP | 0.3320 | D(OP)) | 0.0000 |

***Mənbə****: Müəllif tərəfindən aparılmış hesablamalar*

Cədvəl 1 əsasında, F_GDP, F_GDP_NON_OIL dəyişənlərinin stasionar, başqa sözlə, I(O)-dən; GOV_INCOME, GOV_SPENDING, INTEREST_RATE, M1 və OP dəyişənlərinin isə I(1)-dən olduğu müəyyən edilir. Bu isə, həm F_GDP, həm də F_GDP_NON_OIL artım templəri üçün ARDL modelinin qurulma zərurətini göstərir. Asılı və sərbəst dəyişənlər üçün maksimal lag sayı 12-yə bərabər olmaqla, ekonometrik paketin avtomatik lag seçmə rejimində F_GDP və F_GDP_NON_OIL asılı dəyişənləri üçün, uyğun olaraq, sabiti və trendi olmayan ARDL(12, 12, 11, 8, 1, 11, 11) və sabit və trendə malik olan ARDL(12, 10, 12, 12, 8, 11, 12) dinamik modelləri qurulmuşdur.

Tədqiqat işində qurulmuş həm çıxış, həm də giriş dəyişənlərinin lağ dəyişənlərinin də daxil olduğu modellərin keyfiyyət xüsusiyyətlərinin araşdırılması üçün Qauss-Markov şərtlərində nəzərdə tutulmuş qalıqların təhlili aparılmış və onun nəticələri Cədvəl 2-də verilmişdir:

*Cədvəl 2.*

**Qurulmuş ARDL modellərinin qalıqlarının və stabilliyinin təhlilinin nəticələri**

<table>
<tr><th colspan="2">F_GDP=G1(Gov_ Income, Gov_Spending, Interest_Rate, M1, OP, D_Pandemic)</th><th colspan="2">F_GDP_Non_Oil=G2(Gov_ Income, Gov_Spending, Interest_Rate, M1, OP, D_Pandemic)</th></tr>
<tr><td colspan="2">ARDL(12, 12, 11, 8, 1, 11, 11)</td><td colspan="2">ARDL(12, 10, 12, 12, 8, 11, 12)</td></tr>
<tr><td colspan="4">MODEL QALIQLARININ TƏHLİLİ</td></tr>
<tr><td colspan="4">Jargua-Bera testi</td></tr>
<tr><td colspan="2">
</td><td colspan="2">
</td></tr>
<tr><td colspan="2">Şəkil 1a. ARDL(12, 12, 11, 8, 1, 11, 11) modelinin qalıqlarının paylanması</td><td colspan="2">Şəkil 1b. ARDL(12, 10, 12, 12, 8, 11, 12) modelinin qalıqlarının paylanması</td></tr>
<tr><td colspan="4">Breusch-Godfrey Serial Correlation LM Test</td></tr>
<tr><td>F-statistic</td><td>1.015641</td><td colspan="2">0.211651</td></tr>
<tr><td>Prob. F</td><td>0.3685</td><td colspan="2">0.8100</td></tr>
<tr><td colspan="4">Heteroskedasticity Test: ARCH (lag=2)</td></tr>
<tr><td>F-statistic</td><td>1.045838</td><td colspan="2">0.292339</td></tr>
<tr><td>Prob. F(2,127)</td><td>0.3544</td><td colspan="2">0.7470</td></tr>
<tr><td colspan="4">MODELİN STABİLLİK TESTLƏRİ</td></tr>
<tr><td colspan="4">CUSUM , CUSUM of Squares Tests</td></tr>
<tr><td>CUSUM Test</td><td>CUSUM of Squares Test</td><td>CUSUM Test</td><td>CUSUM of Squares Test</td></tr>
<tr><td>
</td><td>
</td><td>
</td><td>
</td></tr>
</table>

***Mənbə**: Müəllif tərəfindən aparılmış hesablamalar*

Cədvəl 2-dən istər ÜDM-in, istərdə də qeyri-neft ÜDM-in artım templəri üçün qurulmuş dinamik ARDL(12, 12, 11, 8, 1, 11, 11) və ARDL(12, 10, 12, 12, 8, 11, 12) modellərinin qalıqları

a) Jarque-Bera testinin nəticələrinə əsasən, normal paylanmaya malikdir;

b) Breusch-Godfrey Serial Correlation LM Testinə görə, qalıqlar arasında avtokorrelyasiya yoxdur;

c) ARCH heteroskedastiklik testinə görə, qalıqlar homoskedastikdir.

Bundan əlavə, CUSUM və CUSUM-kvadrat stabillik testləri modelin parametrlərinin stabilliyini göstərir. Beləliklə, qurulmuş hər iki modeli keyfiyyətli və adekvat model olaraq qəbul edə bilərik.

**Model dəyişənlərinin LongRun və ShortRun təsirlərinin təhlili**

GOV_INCOME, GOV_SPENDING, INTEREST_RATE, M1, OP və D_Pandemic izahedici (sərbəst) dəyişənlərinin F_GDP, F_GDP_NON_OIL izaholunan (asılı) dəyişənlərinə təsirlərini, uyğun olaraq, ifadə edən ARDL(12, 12, 11, 8, 1, 11, 11) və ARDL(12, 10, 12, 12, 8, 11, 12) dinamik modellərinin dəyişənlərinin izahedici dəyişənə uzunmüddətli-LongRun və qısamüddətli-ShortRun təsirləri Uold testi vasitəsi ilə araşdırılmışdır. Alınmış nəticələr Cədvəl 3 şəklində tərtib edilmişdir. Cədvəl 3 əsasında aşağıdakı mühakimələri söyləmək olar:

❖ Çıxış dəyişənləri olan F_GDP və F_GDP_Non_Oil dəyişənləri üçün, uyğun olaraq, qurulmuş ARDL(12, 12, 11, 8, 1, 11, 11) və ARDL(12, 10, 12, 12, 8, 11, 12) modellərinin hər ikisində α=0.01 əhəmiyyətlilik dərəcəsi ilə uzunmüddətli tarazlığın bərpa mexanizmi – kointeqrasiya əlaqəsi mövcuddur;

❖ ♦ F_GDP dəyişəninə uzunmüddətli təsirin, yalnız, Gov_Income (α=0.05) və Gov_Spending (α=0.01) dəyişənləri tərəfindən,

♦ F_GDP_Non_Oil dəyişəninə isə bütün dəyişənlərin uzunmüddətli təsirinin olduğu müəyyən edilmişdir.

❖ Qısamüddətli təsirlərə gəldikdə isə,

♦ F_GDP dəyişəninə Interest_Rate və COVID-19 pandemiyası ilə bağlı dəyişən,

♦ F_GDP_Non_Oil dəyişəninə isə, Interest_Rate indikatoru istisna olmaqla, qalan bütün amillərin təsirləri müşahidə edilmişdir.

*Cədvəl 3.*

**ARDL model dəyişənlərinin LongRun və ShortRun təsirlərinin təhlili nəticələri**

| **F_GDP=G1(Gov_ Income, Gov_Spending, Interest_Rate, M1, OP, D_Pandemic)** | | | | **F_GDP_Non_Oil=G2(Gov_ Income, Gov_Spending, Interest_Rate, M1, OP, D_Pandemic)** | | |
|---|---|---|---|---|---|---|
| **ARDL(12, 12, 11, 8, 1, 11, 11)** | | | | **ARDL(12, 10, 12, 12, 8, 11, 12)** | | |
| | | | | | | |
| **LongRun təsirlərin təhlili** | | | | | | |
| **Kointeqrasiya tənliyi (EC)** | | | | | | |
| EC = F_GDP - (-0.0046*GOV_INCOME + 0.0051*GOV_SPENDING-0.0294*INTEREST_RATE - 0.0000*M1 + 0.0025*OP -0.2065 *D_PANDEMIC ) | | | | EC = F_GDP_NON_OIL - (-0.0001*GOV_INCOME + 0.0001*GOV_SPENDING - 0.0013*INTEREST_RATE -0.0000*M1 + 0.0012*OP + 0.0694*D_PANDEMIC ) | | |
| **EC-nin əmsalı** | -0.109287 | | | -4.995545 | | |
| **Prob. (t-statistic)** | 0.0023 | | | 0.0000 | | |
| | | | | | | |
| **Dəyişənin adı** | **Prob. (t-statistic)** | **Nəticə** | **α** | **Prob (t-statistic)** | **Nəticə** | **α** |
| **Gov_ Income** | 0.0152 | + | 0.05 | 0.0129 | + | 0.05 |
| **Gov_Spending** | 0.0062 | + | 0.01 | 0.0131 | + | 0.05 |
| **Interest_Rate** | 0.5164 | – | | 0.0000 | + | 0.01 |
| **M1** | 0.9690 | – | | 0.0245 | + | 0.05 |
| **OP** | 0.7142 | – | | 0.0531 | + | 0.10 |
| **D_Pandemic** | 0.7974 | – | | 0.0397 | + | 0.05 |
| | | | | | | |

| ShortRun təsirlərin təhlili | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Dəyişənin adı** | **Prob (t-statistic)** | **Nəticə** | **α** | **Prob (t-statistic)** | **Nəticə** | **α** |
| **Gov_ Income** | 0.0553 | + | 0.10 | 0.0007 | + | 0.01 |
| **Gov_Spending** | 0.0124 | + | 0.05 | 0.0127 | + | 0.05 |
| **Interest_Rate** | 0.6780 | – | | 0.5855 | – | |
| **M1** | 0.0632 | + | 0.10 | 0.0014 | + | 0.01 |
| **OP** | 0.0613 | + | 0.10 | 0.0042 | + | 0.01 |
| **D_Pandemic** | 0.5072 | – | | 0.0391 | + | 0.05 |
| | | | | | | |

***Mənbə**: Müəllif tərəfindən aparılmış hesablamalar*
***Qeyd:** α-əhəmiyyətlilik dərəcəsidir.*

**Nəticə**. Azərbaycan Respublikasının iqtisadiyyatının 2011M01-2023M02 aylıq göstəriciləri əsasında COVID-19 pandemik vəziyyətinin nəzərə alınması ilə, ÜDM və qeyri-neft ÜDM-in artım tempinə dövlət gəlirləri, dövlət xərcləri, faiz dərəcəsi, M1 pul kütləsi, neft qiyməti (Brend markalı) kimi makroindikatorların təsirləri dinamik ARDL modeli vasitəsi ilə öyrənilmişdir. Müəyyən edilmişdir ki, uzunmüddətli horizontda ÜDM-in artım tempinə dövlət gəlirləri və dövlət xərcləri; qeyri-neft ÜDM-in artım tempinə isə bütün model dəyişənlərinin təsiri vardır. Dövlət gəlirləri, dövlət xərcləri, M1 pul kütləsi və neft qiymətləri həm ÜDM, həm də qeyri-neft ÜDM-in artım tempinə qısamüddətli təsirlərə malikdir. COVID-19 koronavirus pandemiyası ilə bağlı vəziyyətin isə, ancaq, qeyri-neft ÜDM-in artım tempinə qısamüddətli təsir effekti müşahidə edilir.

## Ədəbiyyat


1. Davudova (Asadova) R.I.. A VECM Analysis of the Relations the CPI, PPI, GDP per Capita, Exchange Rate in the Republic of Azerbaijan. Asian Journal of Economics, Business and Accounting. 2020 - Volume 19 [Issue 3], pp. 22-46
https://www.journalajeba.com/index.php/AJEBA/article/view/30306
2. Davudova (Asadova) R.İ. Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin əlaqələrinin COVID-19 pandemiyası və neft qiymətlərinin nəzərə alınması ilə postneft dövrü üçün qurulmuş dinamik modeli əsasında alternatıv ssenarilərin işlənməsi və təhlili// AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. 2021, №1. s.5-19
3. EViews: AutoRegressive Distributed Lag (ARDL) Estimation. Part 1 - Theory
4. Əsədova R.İ. Azərbaycan Respublikası üçün iqtisadi artım və onun bəzi determinantları: NARDL çərçivəsində analiz // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Azərbaycanda dövlət müstəqilliyinin bərpası və ölkənin siyasi, sosial-iqtisadi, mədəni inkişafı" mövzusunda beynəlxalq elmi konfrans. Sumqayıt, 13-14 aprel, 2023.
5. Əsədova R.İ. Azərbaycan Respublikasında iqtisadi artım və ona təsir edən bəzi iqtisadi amillərin ARDL modelləşdirilməsi // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. 2022, №6. s.7-24.
http://economics.com.az/images/fotos/xeberler_pdf/2021_1/1.Revane.pdf
http://economics.com.az/images/fotos/iqtisadi_art%C4%B1m/2_2021/1.Musayev.pdf
6. https://tradingeconomics.com/azerbaijan/indicators
7. https://www.stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az
8. Musayev A.F., Davudova (Asadova) R.İ. Postneft dövründə Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin əlaqələrinin COVID-19 pandemiyası və neft qiymətlərinin nəzərə alınması ilə dinamik modelləşdirilməsi. İqtisadi artım və rifah. 2021, №2. s.10-31.


**РЕЗЮМЕ**

**РОСТ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ЕГО ДЕТЕРМИНАНТЫ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ЭФФЕКТОВ LONGRUN И SHORTRUN В РАМКАХ ARDL АНАЛИЗА**

***Асадова Р.И.***

***Ключевые слова:*** *темпы экономического роста, государственные доходы, государственные расходы, денежная масса M1, процентная ставка, цена на нефть, COVID-19, ARDL, LongКun эффекты, ShortRun эффекты*

Исследование посвящено изучению влияния макроэкономических показателей, таких как государственные доходы, государственные расходы, процентная ставка, денежная масса M1, цена на нефть темпы роста ВВП и ненефтяного ВВП с учетом пандемической ситуации COVID-19 в рамках динамической модели ARDL, на основе ежемесячной

статистики 2011M01-2023M02 экономики Азербайджанской Республики, и влияния переменных на долгосрочный и краткосрочный горизонты.

**SUMMARY**
**ECONOMIC GROWTH OF THE REPUBLIC OF AZERBAIJAN ECONOMY AND ITS DETERMINANTS: COMPARATIVE ANALYSIS OF THE EFFECTS OF LONGRUN AND SHORTRUN IN THE FRAMEWORK OF ARDL ANALYSIS**
***Asadova R.I.***

***Key words:*** *economic growth rate, Government incomes, Government spendings, M1 money supply, Interest rate, Oil price, COVID-19, ARDL, LongRun effects, ShortRun effects*

The paper is devoted to the study of the impact of macroeconomic indicators such as government incomes, government spendings, interest rate, M1 money supply, oil price on GDP and non-oil GDP growth rates, taking into account the COVID-19 pandemic situation, within the dynamic ARDL model, based on monthly statistics 2011M01-2023M02 of the Republic of Azerbaijan economy, and the impact of variables on the long-term and short-term horizons.

## OTEL BİZNESİNDƏ İDARƏETMƏ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ

**Əsədova Günay Cahangir qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti, UNEC, Bakı, Azərbaycan*
*günay.asadova30@gmail.com*

***Açar sözlər***: *otel biznesi, idarəetmə uçotu, xərclər, kalkulyasiya, maya dəyəri*

Son illərdə "idarəetmə uçotu" termini çox məşhurlaşmışdır. XİX-XX əsrlərdə transmilli korporasiyaların yaradılması və fəaliyyət göstərməsi, kapitalın təmərgüzləşməsinin, rəqabətin, istehsalın kooperativləşməsi və kombinəşləşməsi və digər proseslərin dərinləşməsi şəraitində mühasibat uçotunun təşkilinə və aparılmasına tələblər dəyişmişdir. Məsələyə bu prizmadan yanaşaraq qeyd etmək yerinə düşər ki, uçot sahəsində mövcud çatışmazlıqlar kalkulyasiya uçotunda özünü aydın göstərirdi. Belə ki, son məhsulun bir neçə qarışıq sex, bəzən də müəssisələr tərəfindən hazırlanması, eləcə də məhsulların müxtəlif ölkələrə və regionlara satışı zamanı  son məhsulun orta maya dəyəri haqqında məlumatlar məhsulun maya dəyərinin səmərəli idarə olunmasını təmin etmirdi.

Problemin həlli baxımından kalkulyasiya uçotunun təkmilləşdirilməsi məqsədi ilə bir sıra inkişaf etmiş ölkələrdə istehsala xərclərin uçotunun və kalkulyasiya edilməsinin yeni metodlarının tətbiqinə keçdilər. Bura kalkulyasiya uçotunun istehsal uçotu sisteminin mühüm elementinə çevirən məsuliyyət mərkəzləri üzrə xərclərin uçotu, maya dəyərinin standart-kost və direkt-koctinq sistemi üzrə kalkulyasiya eddilməsini aid etmək olar. İstehsalat uçotu sisteminin gələləcək inkişafı prosesində idarəetmənin uçotla yanaşı digər funksiyalarının-planlaşdırma, nəzarət, təhlil, qərarın qəbul edilməsi  funksiyalarının tətbiqi istehsalat uçotu sisteminin idarəetmə uçotu sisteminə çevirmişdir [8].

İdarəetmə uçotunun yarandığı və inkişafı dövründə onun mahiyyəti, məqsəd və funksiyaları ilə bağlı müxtəlif fikirlər formalaşmışdır. Belə ki, bəzi iqtisadçılar hesab edir ki, istehsalat uçotu idarəetmə uçotundan fərqlidir [2], bəzilərinə görə istehsalat uçotu idarəetmə uçotunun komponentlərindən biridir [5], bəzilərinə görə isə istehsalat uçotu idarəetmə uçotundan daha məhduddur [1, s.30-31]. Deyilənlərə rəğmən, belə bir fikir irəli sürmək olar ki, müəyyən ziddiyyət və çatışmazlıqlara baxmayaraq bir qrup iqtisadçı [3; 4] tərəfindən idarəetmə uçotunun mahiyyəti daha dolğun açıqlanmış, daha doğrusu, müəssisənin bölmələrinin idarə olunması, operativ, taktiki və strateji idarəetmə qərarlarının hazırlanması üçün məlumatların toplanması, ölçülməsi, sistemləşdirilməsi və ötürülməsini təmin edən informasiya sistemi kimi səciyyələndirilmişdir [1, s.33-34; 3; 4].

İdarəetmə uçotu iqtisadi subyekt tərəfindən fəaliyyətin planlaşdırılması, nəzarət, təhlili və idarə olunması məqsədi ilə özünün və struktur bölmələrinin təsərrüfat fəaliyyəti haqqında informasiyanın toplanması, qeyd edilməsi, ümumiləşdirilməsi və təqdim edilməsi məqsədi ilə yaratdığı sistemdir. Təşkilatın təsərrüfat fəaliyyəti haqqında informasiyanın toplanması təsərrüfat əməliyyatlarının və digər iqtisadi əhəmiyyətli hadisələrin sonradan idarəetmə uçotu sistemində əks etdirilməsi məqsədi ilə müəyyən edilməsi, təsnifləşdirilməsi, qiymətləndirilməsi və ölçülməsidir. Məlumatların qeyd olunması təsərrüfat əməliyyatlarının və digər iqtisadi əhəmiyyətli hadisələrin qaydaya salınması və ardıcıl olaraq ilkin sənədlərdə və uçot registrlərində əks etdirilməsidir. İnformasiyanın ümumiləşdirilməsi onların təhlili, hazırlanması və interpretasiyasıdır. İnformasiyanın təhlili prosesində istifadəçilərə təqdim edilən informasiyanın tərkibinin müəyyən edilməsi, təşkilatın fəaliyyətinin müxtəlif göstəricilər arasında qarşılıqlı əlaqə, göstəricilərin iqtisadi əhəmiyyətli hadisələrdən və situasiyalardan asılılığı müəyyən edilir.

İnformasiyanın hazırlanması və interpretasiyası prosesi zəruriyyət yarandıqda analitik və proqnoz nəticələri özündə əks etdirən məntiqi əlaqədə plan, uçot və digər informasiyanın təqdim edilməsini xarakterizə edir. Hazırlanmış informasiya cədvəl, qrafik və tekst formasında istifadəçilərə təqdim edilir [2; 7].

İdarəetmə uçotunun əsas məqsədi əsaslandırılmış idarəetmə qərarının qəbul edilməsinin mümkünlüyünün təmin edilməsi üçün təşkilatın fəaliyyəti və kənar mühit haqqında təşkilatın və struktur bölmələrin rəhbərliyinə və mütəxəssislərə plan, faktiki və proqnoz informasıyanın təqdim edilməsidir. Qeyd etmək lazımdır ki, idarəetmə uçotunun mahiyyətinin dərk edilməsində, onun nəzəriyyəsinin işlənməsində praktiki fəaliyyət növü kimi istehsalın yaranması dövrünü müəyyən etmək, əsasən maliyyə məzmunu və istiqamətindən fərqli olaraq istehsalat fəaliyyətinin şərtlənməsinə təsir göstərən amil kimi onun yaranması və inkişafı tarixini nəzərdən keçirmək vacibdir.

Otel biznesi Azərbaycanda sürətlə inkişaf edən sahələrdən biridir. Qonaqlarına dünya standartlarına uyğun keyfiyyətli, komfort və rahatlıq təqdim edən otel sahibləri biznes üçün də müəyyən xidmətlər də (rəsmi tədbirlərin keçirilməsi üçün konfrans zalları, valyuta dəyişmə məntəqələri, nəqliyyat xidmətləri və digərləri) təqdim etməlidir ki, onlar vaxta qənaət etsinlər Belə şəraitdə idarəetmə uçotu otel biznesi müəssisələrində xərclərin uçotunun və xidmətlərin kalkulyasiya edilməsinin mühüm aləti hesab olunur.

Otel biznesində idarəetmə uçotunun təşkili məsələlərində ekspertlər belə hesab edirlər ki, kalkulyasiyalaşdırma otel xidmətlərinin maya dəyərinin müəyyən edilməsi, nömrə fondunun rentabelliyi üzərində idarəetmə nəzarət və otellərin işinin səmərəliliyinin daxili qiymətləndirilməsi üçün istifadə etməlidirlər. Onların fikrinə əsasən nömrə fondunun səviyyəsindən asılı olaraq birbaşa və dəyişən xərclərin bölüşdürülməsi nömrə fondunun maya dəyərinin kalkulyasiyasında ən mürəkkəb aspektdir [6].

Mövcud normativ-hüquqi bazanın, xüsusi ədəbiyyatların, otel biznesi müəssisələrinin fəaliyyətinin təhlili otellərdə xərclərin uçotunun təşkilinin bir sıta nəzəri və metodiki çatışmazlıqların müəyyən edilməsinə imkan verir. Həmin çatışmazlıqlar aşağıdakılardır:

- otel biznesi sferasında xidmətlərin göstərilməsi ilə əlaqədar vahid sistemli anlayış apparatının olmaması;
- otel biznesi müəssisələrində xərclərin uçotda sistemləşdirilməsi üçün bazanın yaradılmasına imkan verən otel xidmətlərinin əsaslandırılmış təsnifatının olmaması;
- otel xidmətlərinin xüsusiyyətləri, onların idarə olunması və xərclərin uçotu praktikası arasında əsaslandırılmış qarşılıqlı əlaqənin olmaması;
- otel üçün xərclərin uçotunun və maya dəyərinin (xərc daşıyıcılarının) vahid obyektinin olmaması;
- otel biznesi müəssisələrində istifadə olunan xərc maddələrinin təkmil olmaması;
- xidmət göstərilməsi üzrə otelin əsas və köməkçi bölmələrinin xərclərinin ayrıca aparılmaması;
- idarəetmənin informasiya təminatını formalaşdıran daxili hesabat sisteminin təkmil olmaması.

Müasir dövrdə otel biznesi müəssisələrində xərclərin uçotunun və idarəetmənin informasiya təminatının formalaşdırılması sisteminin təkmilləşdirilməsi məqsədi ilə aşağıdakı mühüm vəzifələrin həll edilməsi zəruridir:

- otel biznesi sferasında istifadə olunan anlayış apparatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin uçotda sistemləşdirilməsi bazası kimi otel xidmətlərinin təsnifatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin təsnifatını dəqiqləşdirmək;
- otel biznesi müəssisələrində xərclərin uçotu və otel xidmətlərinin maya dəyərinin hesablanması metodikaının təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;
- idarəetmənin informasiya təminatını formalaşdıran daxili hesabatın struktur sisteminin yaradılması üzrə təklifləri əsaslandırmaq.

Beləliklə, müasir otel biznesi müəssisələrində idarəetmə uçotunun vacibliyi ilə bağlı belə bir fikir formalaşdərmaq olar ki, rəqabət şəraitində xüsusi olaraq hazırlanmış informasiya olmadan onların peşəkar idarə edilməsi mümkün deyildir. İdarəetmə uçotu təsərrüfat subyektinin idarə olunması qarşısında duran mühüm vəzifələrin həll edilməsində, daxili istifadəçilərin məlumat və göstəricilərlə təmin olunmasında, idarəetmə prosesinin təkmilləşdirilməsi üzrə əsaslandırılmış optimal qərarların qəbul edilməsində mühüm rol oynayır və s.

**Ədəbiyyat**

1. Səbzəliyev, S.M., Quliyev, V.M. İdarəetmə uçotu. Bakı: Elm və təhsil, 2014
2. Друри, К. Введение в управленческий и производственный учет. М.: Аудит. 1994, 344 с.
3. Карпова, Т.П. Управленческий учет: Учебник для вузов. М.: ЮНИТИ-ДАНА. 2017. 351 с.
4. Кондраков, Н.П. Бухгалтерский управленческий учет. М.: Перспектив. 2021, 512 с.
5. Ивашкевич, В.Б. Бухгалтерский управленческий учет. М.: Магистр. 2019, 448 с.

6. Самопальникова, Ю.Н. Влияние особенностей услуг гостиниц и организации управления ими на построение бухгалтерского учета затрат. //Современные аспекты экономики. Санкт-Петербург. № 7(74). 2015. с.142-159.
7. Соколов, Я.В., Бутынец Ф.Ф., Горецкая Л.Л., Панков Д.А. Бухгалтерский учет в зарубежных странах, М.: Проспект, 2007. - 672 с.
8. Энтони, А.А., Банкер, Р.Д., Янг, М.С., Каплан, Р.С. Управленческий учет. Пер. с англ. М.: Вильямс. 2019. - 880 с.

**РЕЗЮМЕ**
**ОСОБЕННОСТИ УЧЕТА В УПРАВЛЕНИИ ОТЕЛЬНЫМ БИЗНЕСОМ**
***Асадова Г.Дж.***

***Ключевые слова:*** *гостиничный бизнес, управленческий учет, расходы, расчет, стоимость*
Статья посвящена совершенствованию управленческого учета в гостиничном бизнесе. Автор исследовал возможности применения опыта ведущих стран в области учета и расчета затрат на предприятиях республики (учет затрат по центрам ответственности, нормативы и прямые затраты и др.) и дал практические предложения.

**SUMMARY**
**FEATURES OF ACCOUNTING IN HOTEL BUSINESS MANAGEMENT**
***Asadova G.J.***

***Key words:*** *hotel business, management accounting, expenses, calculation, cost*
The article is devoted to the improvement of management accounting in the hotel business of the republic. The author investigated the possibilities of applying the experience of leading countries in the field of cost accounting and calculation in the enterprises of the republic (cost accounting by responsibility centers, standard-cost and direct-costing, etc.) and gave practical suggestions.

# MÜƏSSİSƏNİN DAYANIQLI İNKİŞAFININ TƏHLİLİ

**Hüseynzadə Gülşən Qalib qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*gulsen396@mail.ru*

***Açar sözlər:*** *dayanıqlı inkişaf, strateji təhlil, mənfəət, analiz, investisiya*

Dayanıqlı inkişaf konsepsiyası əsasən iqtisadiyyat, ekologiya və sosial sfera arasında tarazlığın qorunmasını, eləcə də gələcək nəsillərin gələcək perspektivlərini nəzərə almaqla problemlərin həllini nəzərdə tutur. Qeyd etmək yerinə düşər ki, istənilən sistem öz fəaliyyəti zamanı ya stabil, ya da qeyri-sabit vəziyyətdə ola bildiyi üçün dayanıqlı inkişaf konsepsiyası təkcə ayrı-ayrı ölkələrə və regionlara deyil, həm də müəssisəyə (təşkilata) şamil edilə bilər. Bu, dayanıqlılığın idarə edilməsidir.

İqtisadiyyatın əsas həlqəsi olan müəssisələr Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı strategiyasının əsasını təşkil edir. Müəssisənin inkişafının dayanıqlılığının idarə edilməsi nəzəriyyəsi və praktikasının təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, sabitlik xarici təsirlərə münasibətdə obyektin vəziyyətini xarakterizə edir.

Xarici təsirlərin və daxili sürüşmələrin qüvvəsi daha kiçik dəyişikliklərə, əvvəlki mövqedən sapmalara məruz qalır. Xarici təsirlərə qarşı müqavimətin şərti obyektin özünün daxili xüsusiyyətləridir. Deməli, sabitlik xarici formadır, obyektin daxili quruluşunun zahiri təzahürüdür. Dayanıqlılığın əsası obyektin özündədir. Müxtəlif amillərə qarşı müqavimətini artırmaq üçün, ilk növbədə, obyektin özünü daxildən təkmilləşdirmək lazımdır.

Müəssisənin dayanıqlılığı müxtəlif amillərdən təsirlənir:
- təşkilatın maliyyə bazarındakı mövqeyi;
- ucuz, tələb olunan məhsulların istehsalı və buraxılması;
- məhsulların keyfiyyəti;
- işgüzar reputasiya;
- xarici kreditorlardan və investorlardan asılılıq dərəcəsi;
- müflis borcluların olması;
- biznes və maliyyə əməliyyatlarının səmərəliliyi və s.

Bu cür müxtəlif amillər sabitliyin özünü növlərə bölür.

1) xarici; 2) daxili; 3) irsi; 4) dayanıqlılıq müqaviməti; 5) ümumi.

Dayanıqlılıq növlərinin sistemləşdirilməsi müəyyən məqsədlərə tabedir. Müəssisə burada həm bazar münasibətlərinin subyekti, həm də obyekti kimi çıxış edir. O, sadalanan dayanıqlılıq növlərinə təsir etmək üçün müxtəlif imkanlara malikdir və bunlar arasında əhəmiyyətlisi daxili və xarici növlərdir. Daxili dayanıqlılıq birbaşa təşkilatın idarəetmə dərəcəsindən asılıdır. Dayanıqlılıq səviyyəsi üçün bu amillərin kəmiyyət əhəmiyyətinin şərhi təhlil zamanı qəbul edilmiş qiymətləndirmə meyarlarından asılıdır. Belə bir qiymətləndirməni əldə etməyin ən bariz və sadə yolu təşkilatın dayanıqlı inkişafının ayrı-ayrı əsas sahələrinin xüsusiyyətlərində əlavə prinsipin istifadəsinə əsaslanır. Xarici mühitdə belə əsas sahələrə təşkilatın fəaliyyət göstərdiyi mühit daxildir. Təşkilatın səmərəliliyi və dayanıqlılığı az və ya çox dərəcədə bazar iştirakçılarının davranışından, onların məqsəd və maraqlarından asılıdır. Fikrimizcə, maliyyə, iqtisadi, sosial və ekoloji kimi əsas sahələr daxili mühit baxımından təşkilatın sabitliyi üçün daha çox maraq doğurur. Maliyyə və iqtisadi sahələr təşkilatın əsas istiqamətlərini, məqsədlərini və strategiyasını müəyyən edir. Aydındır ki, hər bir təşkilat müştərilər üçün dəyər yaradan və onun dayanıqlı inkişafına nail olan unikal biznes proseslərinə malikdir, ona görə də burada ən vacib komponentlər bazar, təşkilati, istehsal və investisiya dayanıqlılığıdır.

Bazarın dayanıqlılığına təşkilatın istehlakçı və bazar seqmentinə hədəf yönəlmiş strategiyasının həyata keçirilməsinin nəticələri nöqteyi-nəzərindən baxmaq lazımdır;

Təşkilati dayanıqlılıq - idarəetmə sisteminin səmərəliliyi və istehsalın texniki səviyyəsi baxımından;

İstehsalın dayanıqlılığı - müştərilərin ehtiyaclarının ödənilməsi və maliyyə dayanıqlığına nail olunması nöqteyi-nəzərindən;

İnvestisiya dayanıqlılığı - investisiya qoyuluşlarının səmərəliliyi, təşkilatın investisiya fəaliyyəti baxımından.

Sosial sferada əsas istiqamətlərə təşkilatın işçilərinin həyat, iş və rifah şəraitinə münasibəti daxildir. Ətraf mühit sahəsində əsas istiqamətlərə isə ətraf mühitin mühafizəsi tədbirlərinin həcmi, elementləri və nəticələrini, ekoloji təhlükəsizliyin qiymətləndirilməsini, təşkilatın fəaliyyətinin ətraf mühitə təsirinin müəyyən edilməsini, resursa qənaət edən texnologiyalardan istifadəni aid etmək olar. Təsərrüfat subyektlərinin dayanıqlı inkişafı biznesin iqtisadi, sosial və ekoloji dayanıqlılığının müəyyən prinsiplərinə (tələblərinə) riayət etməklə, maraqlı tərəflərlə səmərəli qarşılıqlı fəaliyyətə əsaslanan biznes dəyərinin artımını təmin etmək məqsədi ilə onların fəaliyyətinin uzunmüddətli strategiyası sayıla bilər.

Sahibkarlar üçün cari mənfəətin maksimuma çatdırılmasına diqqət daim öz əməyinə görə layiqli mükafat almaq istəyən müəssisə işçilərinin, məqbul risk səviyyəsi ilə öz kapitalından sabit gəlir əldə etməyə çalışan investorların, məqbul qiymətə məhsul (xidmət) satın almaq istəyən istehlakçıların müqaviməti ilə üzləşir. Bu o deməkdir ki, müəssisəin inkişafında irəliləyişi təmin etmək üçün maraqlı tərəflərlə daim danışıqlar aparmaq lazımdır [1, s. 48].

İqtisadiyyatın mövcud vəziyyətinin təhlili iqtisadi münasibətlər sistemində təsərrüfat subyekti kimi başa düşülən müəssisənin dayanıqlı inkişafını təmin edən mexanizmin formalaşdırılmasının zəruriliyini sübut edir.

Bu mexanizm müəssisənin dayanıqlı inkişafının strateji təhlilinə yeni yanaşma və metodologiyaların işlənib hazırlanmasına əsaslanır.

Ənənəvi olaraq, strateji təhlil "strateji qərarların qəbulunu dəstəkləmək üçün istifadə olunan müəyyən üsul və alətlər toplusu" kimi qəbul edilir. Müəssisənin dayanıqlı inkişafının strateji təhlilinə onun xarici və daxili mühitinin təhlili nəticəsində əldə edilən məlumatı müəssisənin strateji planına çevirən bir sistem kimi baxmaq olar.

Strateji təhlil apararkən təşkilatlar hansı çətinliklərlə üzləşirlər? Əvvəla, bu çətinlik özünü müəssisənin dayanıqlı inkişafının strateji təhlilinin aparılması üçün vahid metodologiyanın olmamasında özünü göstərir. Burada qeyd etmək lazımdır ki, biz metodologiyanın tipik təbiətindən danışırıq, çünki bir sıra təşkilatlarda belə bir təhlil aparılır, lakin təşkilat daxilində sadəcə bəzi fərdi metodologiyadan istifadə etmək düzgün deyil, ilk növbədə onu uyğunlaşdırmaq lazımdır.

Növbəti problem strateji təhlildə istifadə olunan alətlərin (təşkilatın daxili və xarici mühitinin təhlili üsulları) çoxluğudur. Bildiyiniz kimi, təşkilatın daxili və xarici mühitini təhlil etmək üçün ən məşhur və praktikada geniş istifadə olunan üsulları ayırd etmək lazımdır: SWOT-analizi, keyfiyyət və kəmiyyət PEST-analizi, GETS-analizi, SNW-analizi, boşluq təhlili – GAP-analizi, Porterin beş rəqabətli qüvvə modeli, İşikava diaqramı metodu və bir sıra digərləri. Onlar elmi ədəbiyyatlarda ətraflı təsvir edilmişdir, lakin "müəssisənin dayanıqlı inkişafının strateji təhlilinin aparılması təcrübəsində onlardan hansı hallarda və birləşmələrdə istifadə etmək məqsədəuyğundur?" sualını cavablandırmaq çətindir. Bəs onların səhv birləşməsinin nəticələri nələrdir? Fikrimizcə, strateji təhlil vasitələrinin inkişaf etdirilməmiş birləşməsi amillərin biznes proseslərinə təsirinin qiymətləndirilməsinin keyfiyyətinə, onların təfərrüatlı və sıralanma dərəcəsinə, təhlilin özünün mürəkkəbliyinə və gecikməsinə təsir göstərir [2, s. 133].

Nəzərdən keçirilən əsas problemlərlə yanaşı, təhlilin həyata keçirilməsində iştirak edən mütəxəssislərin təcrübədə qarşılaşdıqları bir sıra digər çətinlikləri də qeyd etmək lazımdır.

Birincisi, Azərbaycan müəssisələrinin təcrübəsində müəssisənin dayanıqlı inkişafının strateji təhlilinin aparılmasında xarici təcrübəyə lazımi diqqət yetirilmir.

İkincisi, müəssisənin dayanıqlı inkişafının strateji təhlili öz problem yönümlü proqram və aparat inkişaflarına malik deyil.

Üçüncüsü, strateji təhlilin aparılmasına cavabdeh olan məmurların və mütəxəssislərin zəif hazırlığıdır.

Dördüncüsü, bir sıra Azərbaycan müəssisələrində strateji təhlil apararkən kifayət qədər məlumat və analitik bazanın olmaması müəssisənin xarici və daxili mühitinin amillərinin tam nəzərə alınmamasına səbəb olur [3, s. 270].

### Ədəbiyyat


1. Ермакова М.Н. Практика взаимодействия с заинтересованными сторонами — путь инновационного развития компании // Инновационное развитие экономики. 2014. № 4 (21). С. 47–50.
2. Бариленко В.И. и др. Информационно-аналитическое обеспечение устойчивого развития экономических субъектов: монография / В.И. Бариленко, Г.В. Сергеева, Е.В. Никифорова и др.; под ред. проф. О.В. Ефимовой. М.: Русайнс, 2015. 160 с.
3. Басова М.М. Социальные аспекты устойчивого развития металлургических предприятий // Взгляд молодых ученых на проблемы устойчивого развития: Сборник научных статей по результатам I Конгресса молодых ученых по проблемам устойчивого развития. М.: Финансовый университет при Правительстве Российской Федерации, 2016. С. 259–271.



**РЕЗЮМЕ**

**АНАЛИЗ УСТОЙЧИВОГО РАЗВИТИЯ ПРЕДПРИЯТИЯ**

***Гусейнзаде Г.Г.***

***Ключевые слова:*** *устойчивое развитие, стратегический анализ, прибыль, анализ, инвестиции*

В статье рассмотрены методы стратегического анализа устойчивого развития предприятия на основе действия экономических, экологических и социальных факторов. Традиционно стратегический анализ рассматривался как «набор методов и инструментов, используемых для поддержки принятия стратегических решений».



**SUMMARY**

**ANALYSIS OF SUSTAINABLE DEVELOPMENT OF THE ENTERPRISE**

***Huseynzade G.G.***

***Key words:*** *sustainable development, strategic analysis, profit, analysis, investment*

The article deals with the concept of strategic analysis of sustainable development of enterprises, highlights the main problems of its methodological support and practical use. The lack of a uniform methodology and the multitude of tools are identified as the main obstacles at the current stage of the development of this type of analysis. The external environment with which the company interacts can have a significant negative impact on it, mainly due to the delay in development.


## "AÇIQ VƏ QAPALI İNNOVASİYA MODELİ" ƏSASINDA İNNOVASİYA SİSTEMİNİN İNKİŞAFI: MİLLİ VƏ REGİONAL KONTEKST (AZƏRBAYCAN VƏ AVRASİYA İQTİSADİ ÜZRƏ)


**İsmayılov Orxan Elxan oğlu**

*Odlar Yurdu Universiteti, Bakı, Azərbaycan*

ismayilovorkhan5@gmail.com



***Açar sözlər:*** *innovasiya, model, beynəlxalq, açıq innovasiya, qapalı innovasiya*


Müasir dünya iqtisadiyyatının xarakterik xüsusiyyətindən biri "yeni iqtisadiyyatın" və ya "bilik iqtisadiyyatı"nın formalaşmasıdır. "Yeni iqtisadiyyatın" əsası və mühərriki olan innovasiyalar qeyri-maddi aktivlər olaraq dünya miqyasında ölkələrin rəqabət qabiliyyətinin artırılmasına töhfə verir. Sərt rəqabət şəraitində inkişaf edən regionlaşma prosesləri innovasiyanın təşkilinə yeni yanaşmalar diktə edirlər. Hazırda ölkələrin innovativ inkişafında mühüm tendensiya kimi innovasiya prosesinin əsasən öz daxili resurslarından istifadəyə əsaslanan "qapalı modelindən" həm daxili, həm də xarici innovativ imkanların istifadəsinə əsaslanan "açıq innovasiya modelinə" keçidi qeyd etmək olar [1; c.63-67]. Müasir dünyada rəqibləri

qabaqlamağın və qazanc əldə etməyin əsas yollarından biri innovasiyadır. “İdarəetmə nəzəriyyəsinin klassikləri” kitabının müəllifi M.A. Stroçova demişdir ki: "Yaxşı bir proses və ya məhsul yeniliyinin olması istehlakçıları sizin rəqiblərinizi unutmağa və sizin pul vəsaitlərinizin hərəkəti haqqında hesabatınızı möhkəm pul axını ilə bəzəməyə təşviq edən şeydir" [2; c.36-37]. Əksər hallarda bir yenilik asanlıqla təqlid oluna bilər, buna görə də belə bir fikir var ki, rasional şirkət yeniliyi qorumalı və rəqibləri onun ixtiralarından uzaq tutmalıdır. İnnovativ biznesin inkişaf etdirə biləcəyi iki model var: qapalı innovasiya modeli və açıq innovasiya modeli. Bu modelləri nəzərdən keçirək: İnnovasiya prosesinin qapalı modeli 20-ci əsrin sonlarına qədər üstünlük təşkil etmişdir. O, bu prinsipə əsaslanır ki, uğurlu innovasiya öz daxilində inkişaf etdirilməlidir, yəni şirkət müstəqil şəkildə ideyalar yaratmalı, onları inkişaf etdirməli, tədqiqat və inkişaf etdirmə, istehsal, marketinq, malların paylanması və dəstəklənməsini həyata keçirməlidir. Bu model ona görə əsaslandırıldı ki, o zaman öz tədqiqat və inkişaf prosesi ilə bağlı işlər ciddi bir strateji aktiv idi və rəqiblərin bazara daxil olması üçün əhəmiyyətli maneələr yaradırdı. Lakin indi vəziyyət xeyli dəyişib. Bir çox aparıcı sənaye şirkətləri öz tədqiqatlarını aparmayan yeni şirkətlər tərəfindən ciddi rəqabətlə üzləşirlər. Bu şirkətlər kənar mənbələrdən yeni texnologiyalar götürür və kommersiyalaşdırırlar. Qapalı innovasiya modelinin çatışmazlıqları:

- Şirkət çoxlu sayda məsələlərin həlli üçün böyük resurslar, məsrəflər sərf edir. Lakin həmin məsələlərin həlli üçün effektiv, asan, çox aşağı qiymətlərlə, olduqca təsirli həllər var;
- Patentləşdirilmiş hər şey şirkət tərəfindən istifadə edilmir ( bir qayda olaraq, bütün patentlərin 80% -dən çoxu qazanc gətirmir );
- Şirkətin perspektivsiz hesab etdiyi bir çox layihələr dəyərsizdir, əslində onlar kifayət qədər dəyərlidir, lakin şirkətin mövcud daxili sistemə uyğun gəlmədiyi üçün şirkət daxilində tətbiq oluna bilmir. [3; c.42-46]

Kaliforniya Universitetinin professoru 2003-cü ildə Henri Çesbro açıq innovasiya üzrə “Texnologiya yaratmaq və qazanmaq üçün yeni imperativ” adlı öz tədqiqatında bu qənaətə gəlmişdir ki: "Tədqiqat və inkişaf işləri aparmağı bacaran insanları siz özünüz üçün işləməyə məcbur edə bilmədiyiniz üçün, həm şirkətinizdə, həm də şirkətinizdən kənarda bu cür insanların sizə işləməsi üçün onlarda maraq və həvəs yaratmağı öyrənməlisiniz!" [4; p. 45-47]. Professor Henri Çesbronun vasitəçiliyi ilə korporativ mühitdə yeni konsepsiya - "açıq innovasiya modeli" istifadəyə verildi. Model şirkətin yeni texnologiyalar və məhsullar hazırlayarkən təkcə öz daxili tədqiqat-inkişaf işlərinə (TİI) güvənmədiyini, həm də xaricdən innovasiyaları və səriştələri fəal şəkildə cəlb etdiyini nəzərdə tutur. O, 1990-cı illərin ortalarından bəri ABŞ-da böyük korporasiyalarda baş verənləri təfərrüatlı şəkildə təsvir edən ilk şəxs idi, həmin illərdən artıq innovasiyaların artan payı korporasiya daxili tək "gizli laborotoriyalarda" doğulmur. Onlar tərəfindən müxtəlif üsullarla açıq bazardan götürülür. ABŞ-da yeni ixtiraların, kəşflərin təxminən 40%-i kiçik və orta şirkətlər tərəfindən həyata keçirilir. Üstəlik, qalan 60% nəinki böyük korporasiyaların özlərinin ixtiralarıdır, həmçinin kiçik startaplar bazarından əvvəllər alınıb son məhsula gətirilmiş ixtiralardır, yeniliklərdir [3; c.34-36]. Açıq innovasiya nəzəriyyəsi tədqiqat və inkişaf prosesini açıq sistem kimi müəyyən edir. İnnovasiya yaratmaq üçün şirkət müxtəlif ideya mənbələrindən istifadə edə bilər, həm öz tədqiqatlarından, həm də digər təşkilatlar tərəfindən aparılan tədqiqatlardan innovasiyaların hazırlanmasında istifadə edə bilər. Müəyyən edilmiş yenilik şirkətin biznes modelinə uyğun gəlmirsə, onu gizlətmək yox, satış, lisenziyaların bölüşdürülməsi, törəmə müəssisələrin yaradılması və s. yolla mənfəət əldə etmətə çalışmalıdır. Açıq innovasiya modeli bütün sənaye sahələrinə aid olmaya bilər. Məsələn, hərbi sənaye və nüvə energetikasında qapalı modelə ciddi şəkildə riayət olunur. İnformasiya texnologiyaları, kütləvi kommunikasiyalar və əczaçılıq sənayesi sahəsində açıq modelə aktiv keçid var. Avtomobil, bankçılıq, səhiyyə, sığorta, istehlak məhsulları açıq modelə doğru meyl edir. Açıq innovasiya modeli beşinci nəsil modellərə aiddir. İnnovasiya prosesi üzrə tədqiqatlar hazırda əsasən açıq innovasiya modelinin hazırlanması, bu model çərçivəsində istifadə olunan müxtəlif üsul və alətlər, eləcə də onun müxtəlif ölkələrdə işinin xüsusiyyətləri ilə bağlıdır[5;c.62-65]. Regionlaşma və inteqrasiya hadisələri dərinləşdikcə təbii olmaqla innovativ inkişaf paradiqmalarının bu dəyişməsi və müvafiq olaraq daha çox açıqlıq və qarşılıqlı əlaqənin fərz edilməsi innovativ proseslərin həyata keçirilməsi üçün daha səmərəli və həyat qabiliyyətli modelin həyata keçirilməsinə imkan yaradır[6; c.5-6]. İnnovasiya sferasında regionlaşma, elmi tədqiqatlar, birgə tədqiqatlar üçün xarici maliyyənin artmasına və bu cür fəaliyyətlər üçün əlverişli regionlarda beynəlxalq korporasiyaların tədqiqat bölmələrinin yaradılmasına gətirib çıxarır. Açıq innovasiya paradiqmasına keçidin əsas səbəbləri bunlardır:

- Şirkətlərdən kənarda yeni texnologiyaların və biliklərin həddindən artıq olması;
- İxtisaslı mütəxəssislərin mobilliyi;
- Vençur kapitalında artım;
- İnformasiya və kommunikasiya resurslarının əhatə dairəsinin və rolunun gücləndirilməsi;
- Dünya iqtisadiyyatının regionlaşması;

- ❖ Texnologiya və əmtəə istehsalı üçün xərclərin artması;
- ❖ Həyat dövrünün və yeni məhsul və xidmətlərin bazara çıxarılması üçün vaxt. Başqa sözlə, şirkətin daxili mühitinin elementi olan hər şey [1; c. 87-89]. Müəssisələr elmi-tədqiqat və istehsal proseslərinin bütün mərhələlərini maliyyələşdirərək ideyaların işlənib hazırlanmasından onların kommersiya məqsədi ilə həyata keçirilməsinə qədər bütün elmi-tədqiqat və inkişaf dövrünü təkbaşına həyata keçirirlər. İnnovativ inkişafın açıq modeli həm daxili, həm də xarici resurslara arxalanma ilə xarakterizə olunur.

Beləliklə, açıq innovasiya modelinin xüsusiyyətlərinə aşağıdakıları daxil etmək olar:

- ➢ Milli və xarici müəssisələri formalaşdırmaq. Bu, innovativ inkişafın açıq modelinə uyğun olaraq şirkətlərin modernləşdirilməsi üçün mühüm vasitələrdən biridir;
- ➢ Şirkətin fəaliyyətinin bütün aspektlərinə təsir göstərən davamlı strateji yeniliklər, yeni məhsul, xidmət və texnologiyaların yaradılması, idarəetmə və təşkilati innovasiyaların tətbiqi, təchizatçılar, vasitəçilər və istehlakçılarla münasibətlərdə dəyişikliklər və s.
- ➢ Çeviklik və daimi dinamizm;
- ➢ Proqramlaşdırma elementlərindən istifadə. Bu mexanizm dövlət təcrübəsindən götürülmüşdür. Daxili və xarici müstəqil ekspertiza isə strateji inkişaf məqsədlərini aydınlaşdırmaq üçün geniş istifadə olunur;
- ➢ Elmi, texnoloji və sosial-iqtisadi inkişafın proqnozlaşdırılması şöbələrinin yaradılması;
- ➢ İri şirkətlərlə kiçik və orta innovativ firmalar arasında sıx əməkdaşlıq;
- ➢ Firmaların laboratoriyalar, elmi-texniki mərkəzlər və universitetlər ilə əməkdaşlığı;
- ➢ Muxtar qrupların yaradılması və restrukturizasiyası;
- ➢ Texnoloji tərəfdaşlıqların və ittifaqların formalaşdırılması;
- ➢ Yeni ideya və innovasiyalarla bazarda azad ticarətin intensiv inkişafı (açıq bazar innovasiyası) [7;c. 15-16].

Hazırda Azərbaycanın beynəlxalq əmək bölgüsündə mövqeyi "qalıq prinsipi" ilə deyil, müstəqil şəkildə formalaşır. Dünya iqtisadiyyatında rəqabətə davamlı mövqeləşdirməyə hansı sənaye sahələrinin cəlb olunacağından asılı olmayaraq, onlar innovativ xarakter daşımalıdır, çünki yeniliklər təkcə texniki cəhətdən yeni məhsullar deyil, həm də yeni bazarlar, yeni texnologiyaların istifadəsi, insan potensialıdır. M. V. Sviridenkonun fikri ilə, razılaşaraq qeyd etmək istərdim ki: "Daxili reproduktiv sistemin səmərəliliyini artırmaq, xammal yönümünü tədricən aradan qaldırmaq, dünya iqtisadi münasibətləri sisteminə inteqrasiya etmək və əmək məhsuldarlığını artırmaq üçün ən vacib şərt və mexanizm milli innovasiya sisteminin (NIS) inkişafıdır [8; c.8-9]. Bu strukturların fəaliyyəti hüquqi, maliyyə və sosial qarşılıqlı əlaqə institutları kompleksi tərəfindən təmin edilir və özünəməxsus milli xüsusiyyətlərə malikdir. Milli innovasiya sistemi ictimai resursların hərəkəti və istifadəsinin müəyyən formasını, qarşılıqlı əlaqədə olan reproduktiv əlaqələr sistemini, innovasiya prosesində iştirak edən və son nəticədə onun dinamikasını müəyyən edən qeyri-istehsal fəaliyyət formalarını nəzərdə tutur. 2008-ci ildən 2012-ci ilə qədər Rusiya Prezidenti olmuş Dmitri Anatolieviç Medvedev hesab edirdi ki: "İnnovasiyaların ölkənin iqtisadi artımı və inkişafının mühüm amili, onun rəqabətqabiliyyətliliyinin şərti olduğu şəraitdə səmərəli fəaliyyət göstərən regional innovasiya sistemləri (RİS) regionun davamlı rəqabət üstünlüklərini yaratmağa imkan verir ki, bu da onun həm yerli, həm də beynəlxalq investorlar üçün investisiya cəlbediciliyini artırır". Regional innovasiya sistemləri müəyyən bir infrastrukturda və onların hər birinin spesifikliyini və unikallığını müəyyən edən konkret institusional, iqtisadi və hüquqi kontekstdə fəaliyyət göstərir [9].

İnnovativ sistemlərin inkişafının əsas prinsiplərinin müasir anlayışı çərçivəsində qeyd edirik ki, məkan inkişafının konfiqurasiyası qurulmuş enerji və xammal zonaları və maliyyə mərkəzləri ilə möhkəm bağlı deyil, daha müxtəlif olur. Bununla əlaqədar, bəzi regionlarda insan və texnoloji potensialın konsentrasiyası əsasında innovativ artım klasterlərinin formalaşması və inkişafı ssenariləri nəzərdən keçirilir. İqtisadi artımın yeni mərkəzlərinin formalaşması iri şəhərlərdə cəmləşmiş emal sənayesinin: maşınqayırma, metallurgiya, kimya və neft kimyası, aviasiya və yüngül sənaye sahələrinin modernləşdirilməsinin inkişafına təkan verir. Aydındır ki, belə genişmiqyaslı vəzifələr digər məsələlərlə yanaşı, regionların inkişafı potensialının reallaşdırılmasını, infrastruktur və institusional məhdudiyyətləri aradan qaldırır. Regionlaşma şəraitində ölkələrin rəqabət qabiliyyəti onların innovasiya mühitini, o cümlədən milli innovasiya sistemlərini (NİS) nə dərəcədə effektiv yaratmasından asılıdır. Rusiya Federasiyasının regional innovasiya məkanına qoşulması eyni vaxtda iki yolla mümkündür, yəni inkişafa nail olmaq, o cümlədən imitasiya-adaptiv inteqrasiya strategiyasından istifadə etməklə və ümumi elmi, texnoloji, innovasiyanın formalaşdırılması yolu ilə sıçrayışlı inkişaf əsasında elmə, təhsilə xərcləri artırmaq və öz elmi-texniki potensialını fəal şəkildə qurmaq yolu ilə. İndiyə qədər, bir qayda olaraq, yenilərinin deyil, xarici texnologiyaların alınmasına əsaslanan inkişafın təqib edilməsinin simulyasiya ssenarisi həyata

keçirilirdi. Bununla belə, regionlaşma kontekstində inkişaf modelinin digər nümunələri meydana çıxır [10; c.61-65].

İlk baxışdan, SSRİ-nin dağılmasından sonra Rusiya Federasiyasının regional innovasiya məkanına ən qısa zamanda qoşulması üçün ən böyük şans keçmiş Post-Sovet məkanında, yeni qurulmuş müstəqil dövlətlər birliyi (MDB) çərçivəsində ölkələr arasında qarşılıqlı əlaqələrin intensivləşməsi idi [11; c.23-24].

Avrasiya İqtisadi İttifaqının 2025-ci ilə qədər nəzərdə tutulmuş strateji inkişaf istiqamətlərinə nəzər salaq:

1. İttifaqın daxili bazarında malların, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkətinə maneələrin tam aradan qaldırılması və tutulmaların və məhdudiyyətlərin maksimum dərəcədə azaldılması;

2. Əmək bazarlarının səmərəliliyinin artırılması;

3. İttifaq daxilində gömrük tənzimlənməsinin təkmilləşdirilməsi;

4. Alqı-satqı olunan malların keyfiyyətinin, təhlükəsizliyinin və istehlakçıların hüquqlarının lazımi səviyyədə qorunmasının təmin edilməsi;

5. İttifaqın rəqəmsal məkanının, rəqəmsal infrastrukturların və ekosistemlərin formalaşması;

6. İqtisadi inkişafa ünvanlı yardımın çevik mexanizmlərinin işlənib hazırlanması;

7. Birgə əməkdaşlıq layihələrinin səmərəli idarə edilməsi və maliyyələşdirilməsi sisteminin qurulması, iqtisadiyyatın yüksək məhsuldar, o cümlədən ixracyönümlü sektorlarının yaradılması və inkişafı;

8. Birgə Tədqiqat və İnkişafı stimullaşdırmaq üçün səylərin birləşdirilməsi;

9. İttifaqın ən səmərəli institusional sistemlə təmin edilməsi, hansı ki, qəbul edilmiş sazişlərin həyata keçirilməsinə təminat verir;

10. Təhsil, səhiyyə, turizm və idman sahələrində iqtisadi əməkdaşlığın genişləndirilməsi;

11. Birliyin müasir dünyanın inkişafı üçün ən mühüm mərkəzlərdən biri kimi formalaşması [12; s.2-3].

## Ədəbiyyat


1. Гусаков М.А., Межевич Н.М., Ковалев В. Современные мировые тенденции и закономерности развития науки, образования и инноваций // Материалы Проекта стратегии развития комплекса «наука-образование-инновации» СЗФО до 2030 года. – СПб., 63-67 с.; 87-89 с.
2. «Классика теории менеджмента» М.А. Строчева, Вестник Санкт-Петербургского Университета, 2008, выпуск 4; 36-37 с.
3. «Открытые инновации: обзор теории и практики на основе анализа литературы 2003-2010 гг.», Н.Н.Герасимова, Инновации №3(149), 2011; 42-46 с.; 34-36 с.
4. Chesbrough H. W. Open Innovation: The New Imperative for Creating and Profiting from Technology. — Cambridge, MA: Harvard Business School Publishing, 2003, 45-47 p.
5. «Модель открытых инноваций (на примере ВПК США)», Е.М. Коростышевская, Инновации №5 (151), 2011; 62-65 с.
6. Рогова А. Экономика знаний // В мире науки журнал № 10, 2003, 5-6 с.
7. Краковетская И.В., Чистякова Н.О., Видяев И.Г., Воробьева Е.С. Проблемы развития региональной инновационной системы на принципах открытых инноваций // Инновации, 2010, 15-16 с.
8. Свириденко М.В.. Комплекс «Наука-образование-инновации» Северо-Западного федерального округа РФ: структурный анализ и тенденции развития. Препринт. – СПб., 2009, 8-9 с.
9. Медведев. Д.А. Стенограмма Заседания президиума Государственного совета «О развитии инновационной системы Российской Федерации», 18 апреля 2008 года, г. Дубна, Московская обл.: http://www.sbras.nsc.ru/presidium/detaill.php?&ID=3235, shtml 03.09.08
10. Бекетов Н.В. Инновационное развитие российской экономики в процессе мирохозяйственного взаимодействия // Финансы и кредит, 2007, № 44, 61-65 с.
11. Межевич Н.М., Костюк Е.С.. Некоторые мировые тенденции в области развития образования // Экономика Северо-Запада: проблемы и перспективы развития, 2008, № 1, 23-24 с.
12. Стратегическое направление развития евразийской экономической интеграции до 2025 года. М., 2021, 2-3 с.



**РЕЗЮМЕ**

**РАЗВИТИЕ ИННОВАЦИОННОЙ СИСТЕМЫ НА ОСНОВЕ ОТКРЫТОЙ И ЗАКРЫТОЙ ИННОВАЦИОННОЙ МОДЕЛИ: НАЦИОНАЛЬНЫЙ И РЕГИОНАЛЬНЫЙ КОНТЕКСТ**

**(Азербайджан и страны Евразийского экономического союза)**

***Исмаилов О.Е.***

***Ключевые слова:*** *инновации, модель, международный, открытые инновации, закрытые инновации*

Модель открытых инноваций предполагает существенную дифференциацию методов межфирменных форм сотрудничества на основе кооперации и сетевого взаимодействия. Среди них контракты на исследования, совместные

исследовательские предприятия (риски) и соглашения о сотрудничестве, лицензионные соглашения, слияния и поглощения, стратегические технологические альянсы и др. Открытые инновации предполагают раскрытие инновационного процесса экономической системы (страны, региона, предприятия) и тем самым активное стратегическое использование внешней среды для усиления ее инновационного потенциала.

**SUMMARY**
**DEVELOPMENT OF THE INNOVATION SYSTEM BASED ON THE OPEN AND CLOSED INNOVATION MODEL: NATIONAL AND REGIONAL CONTEXT**
**(Azerbaijan and Eurasian Economic Union Countries)**
***Ismailov O.E.***

***Key words:*** *innovation, model, international, open innovation, closed innovation*

The open innovation model implies a significant differentiation in the methods of inter-firm cooperation forms based on cooperation and networking. Among them are research contracts, joint research ventures (risks) and cooperation agreements, license agreements, mergers and acquisitions, strategic technological alliances, etc. Open innovation involves the opening of the innovation process of the economic system (country, region, enterprise) and thus the active strategic use of the external environment to strengthen its innovation potential.

## MÜHASİBAT UÇOTU SİSTEMİNDƏ EKOLOJİ TƏHLİLİN ROLU

**Kərimov Emin Bayram oğlu**
*Rabitəbank, Azərbaycan*
*emink7886@gmail.com*

***Açar sözlər:*** *iqtisadi-ekoloji uçot və təhlil, mühasibat uçotu, müəssisə, idarəetmə sistemi*

Mühasibat uçotu sistemində ekoloji təhlilin rolu, bu vəzifələrin həlli müəssisənin təsərrüfat fəaliyyətinin əsas məqsədinə - yüksək gəlir əldə etməyə və onun bir sistem olaraq davamlı inkişafını təmin etməyə yönəldilmişdir. Bu vəzifələrə aşağıdakılar aiddir:

- hesabat dövründə və dinamikada müəssisənin ekoloji fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi, ekoloji riskin hesablanması;
- yeni az tullantılı və ya tullantısız resursa qənaət edən texnologiyaların tətbiqi üzrə idarəetmə qərarlarının iqtisadi əsaslandırılması, tullantıların emalı və ya utilizasiyası üçün yeni sənaye istehsalatlarının yaradılması;
- iqtisadi-ekoloji proseslərin modelləşdirilməsi və onların müəssisənin perspektiv davamlı inkişafına təsirinin qiymətləndirilməsi;
- təbii ehtiyatlardan istifadəyə görə vergi dərəcələrinin və müəssisənin digər ekoloji öhdəliklərinin məbləğinin əsaslandırılması.

Uzun müddətdir ki, ətraf mühitin idarə olunmasında uçot, təhlil və nəzarətin rolu diqqətdən kənarda qalmışdır. Ənənəvi mühasibat uçotu modelinin ətraf mühit göstəricilərini əks etdirmək üçün necə tətbiq oluna biləcəyi aydın deyildi.

Beynəlxalq təcrübədə mühasiblər üçün istifadəçilərin müəssisənin təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin real mənzərəsini görə bilməsi üçün maliyyə hesabatlarında nələrin təqdim edilməli olduğunu göstərən təlimat hazırlanmışdır.

Ekoloji fəaliyyətlə bağlı məsələlərin mühasibat uçotunda əks olunmasının bir çox səbəbi var [1]:

a) müəssisənin uçot siyasəti onun ətraf mühitə münasibətini və ekoloji fəaliyyətlə bağlı xərclərin, risklərin və öhdəliklərin (məsuliyyətin) müəssisənin maliyyə vəziyyətinə təsirini əks etdirməlidir;

b) investisiya qərarları qəbul etmək üçün investorlar ekoloji tədbirlər və ekoloji fəaliyyətlə bağlı xərclər haqqında məlumatlara malik olmalıdırlar;

c) ekoloji məsələlər həm də idarəetmə fəaliyyətinin predmetidir: menecerlər ekoloji məsrəfləri elə müəyyən etməli və bölüşdürməlidirlər ki, məhsullar düzgün qiymətləndirilsin və investisiya qərarları real məsrəflərə və faydalara əsaslansın;

d) müəssisələr öz məhsul və xidmətlərinin ekoloji cəhətdən daha üstün olduğunu göstərə bilsələr, müştərilər cəlb etmək üçün rəqabətdə üstünlük əldə edə bilər;

e) ekoloji uçot dayanıqlı inkişafın açarıdır.

Bir çox korporativ liderlər davamlı inkişaf konsepsiyasını qəbul etmələrinə baxmayaraq onun prinsiplərini konkret müəssisələrdə tətbiq etməkdə çətinlik çəkirlər. Buna görə də Dayanıqlı İnkişaf üzrə Dünya İqtisadi Forumu ilk dəfə olaraq “eko-səmərəlilik” terminini təqdim etdi. Eko-səmərəli iş rejimi şirkətin ətraf mühitə təsirini azaldır, eyni zamanda onun rentabelliyini artırır.

Bununla belə eko-səmərəlilik yalnız ekoloji uçot vasitəsilə qiymətləndirilə bilər (yəni ekoloji xərclər, qənaətlər və təsərrüfat fəaliyyətinin ətraf mühitə təsiri haqqında dəqiq məlumatların verilməsi).

Həm cari xərclər (məhsulun, istehsalın təhlükəsizliyi, ətraf mühitin mühafizəsi), həm də məhsulun, istehsalın təhlükəsizliyi və ətraf mühitin mühafizəsi ilə bağlı investisiyalar ekoloji təhlilə məruz qalır. İstehsal təhlükəsizliyi dedikdə iş yerində təhlükəsizliyin təmin edilməsi və bədbəxt hadisələrin (adi istehsal prosesi zamanı dağılmalar, partlayışlar, təsadüfən çirkləndiricilərin buraxılması) qarşısının alınması üçün həyata keçirilən bütün tədbirlər başa düşülür.

Ekoloji təhlildə məsrəflər aşağıdakı qruplara bölünür [2]:

- investisiyalar;
- ümumi təsərrüfat xərcləri;
- tədqiqat və təcrübi-konstruktor işləmələr xərcləri;
- ekoloji fəaliyyətin planlaşdırılması və idarə olunması xərcləri;
- zərərin nəticələrinin aradan qaldırılması üzrə xərclər;
- ödənilmiş xərclər.

Bundan əlavə müəssisələrə ətraf mühitin mühafizəsi fəaliyyətləri üzrə cari və əsaslı xərclər haqqında ətraflı məlumatı idarə heyətinin hesabatında maliyyə vəziyyəti ilə bağlı məsələlərin müzakirə olunan bölməsinə daxil etməyə tövsiyyə edilir. Bölmənin adı “Maliyyə vəziyyətinin və idarə heyyətinin fəaliyyətinin müzakirəsi və təhlili”dir.

Müəssisənin ekoloji təhlilinin ümumi strukturu aşağıdakı kimi ola bilər:

- müəssisənin ekoloji siyasəti, onun ekoloji məqsədləri (orta və uzunmüddətli);
- müəssisənin iş şəraiti, o cümlədən ekoloji vəziyyət (müəssisənin ərazisində atmosfer havasının, su resurslarının vəziyyəti, ekoloji cəhətdən həssas zonalar və s.);
- normativ-hüquqi tələblər (icazələr, lisenziyalar, tullantılar normativləri), xarici və daxili nəzarətin təhlili;
- təbiətin rasional istifadəsinin təşkili (ətraf mühitin mühafizəsi metodikası, təkrar emal və yeni texnologiyalar, monitorinq üsulları, fövqəladə hadisələr üzrə tədbirlər planı);
- məlumatların əvvəlki illərin məlumatları ilə müqayisəsi (tullantılar, səs, qoxu və s., ekoloji fəaliyyətə çəkilən xərclər və ekoloji tədbirlərin səmərəliliyi).

Ekoloji təhlilin bütün məlumat mənbələrini şərti olaraq uçot və qeyri-uçota bölmək olar. Uçot arasında ən mühüm mənbə müəssisənin hazırda formalaşma mərhələsində olan və əsasən statistik formalarla təqdim olunan ekoloji göstəricilər üzrə hesabatıdır. Onlar kifayət qədər natural göstəricilər və az sayda dəyər göstəriciləri ilə xarakterizə olunur, bu da xarici istifadəçilər üçün bəzi hesablamaların aparılmasını çətinləşdirir.

Milli standartların təkmilləşdirilməsi əsasında iqtisadi-ekoloji göstəricilər üzrə yerli uçotun beynəlxalq sistemə inteqrasiyası ekoloji göstəricilər üzrə hesabatları şirkətin illik hesabatının ümumi strukturuna üzvi şəkildə inteqrasiya etməyə, ətraf mühitin çirklənməsinin miqyasının və bununla bağlı ekoloji xərclərin, təsərrüfat subyektlərinin öhdəliklərinin qiymətləndirilməsi, o cümlədən ekoloji fəaliyyətdən, resursa qənaət edən və biotəhlükəsiz texnologiyaların tətbiqindən əldə edilən gəlirlər haqqında lazımi məlumatları əldə etməyə imkan verir.

Operativ ekoloji təhlilə təsərrüfat subyektinin davamlı, dayanıqlı inkişafını təmin etmək üçün iqtisadi-ekoloji prosesləri xarakterizə edən faktiki və planlaşdırılmış (normativ) göstəricilərin uyğunluğunun gündəlik öyrənilməsi sistemi kimi baxmaq olar. Ekoloji təhlilinin xüsusiyyəti onun aparılmasında təkcə iqtisadi deyil, həm də müəssisənin texniki xidmətinin (baş mühəndis şöbələri, texniki nəzarət və s.), kadrlar, təchizat, marketinq, sex, briqada rəisləri və s. şöbələrinin iştirakını əvvəlcədən müəyyənləşdirir. Bu analitik işi keyfiyyətcə yeni səviyyəyə qaldırmağa, iqtisadi-ekoloji prosesləri, onlara təsir edən amilləri, bu proseslərin təsərrüfat fəaliyyətinin göstəricilərinə təsirini dərindən və hərtərəfli öyrənməyə, ekoloji monitorinq aparan mütəxəssislərin məhsuldarlığını artırmağa, işçilərin əmək xərclərinin azaldılmasına, hesablamaların keyfiyyətini və operativliyini artırmağa imkan verir.

Müəssisənin fəaliyyətinin ekoloji təhlili informasiyanın kənar istifadəçiləri tərəfindən aparılan maliyyə təhlili sisteminə, ən əsası isə müəssisənin özündə və onun bölmələrində ətraf mühitin rasional istifadəsinin təşkili və bu sahədə idarəetmə qərarlarının qəbul edilməsi üçün idarəetmə təhlili sisteminə daxil edilməlidir.

**Ədəbiyyat**

1. Abbasov Q.Ə. Muhasibat uçotu. Dərslik, Bakı: Elm və təhsil, 2015, 510 s.
2. Səbzəliyev S.M,Quliyev V.M İdarəetmə uçotu. Dərslik. Bakı: Elm və təhsil, 2014, 518 s.
4. “Mühasibat uçotu haqqında ” Azərbaycan Respublikasının Qanunu. Bakı-2004

**РЕЗЮМЕ**
**РОЛЬ ЭКОЛОГИЧЕСКОГО АНАЛИЗА В СИСТЕМЕ БУХГАЛТЕРСКОГО УЧЕТА**
***Керимов Э.Б.***

***Ключевые слова:*** *экономико-экологический учет и анализ, бухгалтерский учет, предприятие, система управления.*

В статье рассматривается сущность экологического учета в системе бухгалтерского учета. Автор подробно анализирует задачи экономико-экологического учета в развитии хозяйственной деятельности предприятия и при принятии управленческих решений. Выявлены источники информации экологического анализа. Даны определенные рекомендации предприятиям.

**SUMMARY**
**THE ROLE OF ENVIRONMENTAL ANALYSIS IN THE ACCOUNTING SYSTEM**
***Kerimov E.B.***

***Key words:*** *economic and environmental accounting and analysis, accounting, enterprise, management system.*

The article deals with the essence of environmental accounting in the accounting system. The author analyzes in detail the tasks of economic and environmental accounting in the development of the economic activity of an enterprise and in making managerial decisions. Sources of information of ecological analysis are revealed. Certain recommendations were given to enterprises.

# TANAP LAYİHƏSİNİN MALİYYƏLƏŞMƏ MƏNBƏLƏRİ (AZƏRBAYCANIN TİMSALINDA)

**Kərimov Namiq Əlişah oğlu**
*Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan*
*namiq-kerimov-80@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan, qaz kəməri, TANAP layihəsi, maliyyə, kredit*

Boru kəmərlərinin çəkilməsi real dünyamızda tək iqtisadi məsələ olmayıb, özündə geosiyasi və geostrateji məqsədləri də ehtiva etdiyindən, kəmərin keçəcəyi tranzit ölkələrlə razılığın əldə edilməsi, daşıma tariflərinin müəyyənləşdirilməsi, tikintini həyata keçirmək üçün investisiyaların tapılması kimi çətin və zaman tələb edən problemləri həll etmək lazım gəlir. Digər tərəfdən, boru xətti ilə daşımalar uzun müddətli müqavilələr tələb edir. Karbohidrogen ehtiyatları, onların hasilatı və daşınması yuxarıda söylənilən komponentlərlə birlikdə siyasi ədəbiyyata yeni anlayış olan enerji geosiyasətini gətirmişdir. Günümüzdə təbii qazın hasil olunduğu məkandan istehlak məntəqələrinə daşınması adi nəqliyyat işi çərçivəsindən çıxaraq qlobal aktorların maraqlarının cəmləşdiyi geostrateji və geoiqtisadi anlam kəsb etməkdədir. Təbii qaz ehtiyatlarına sahib olan dövlətlər bəzən sərvətlərindən xarici siyasət aləti kimi istifadə edirlər. Bundan əlavə, təbii qazın istehsalı və istehlakının həyata keçirən ölkələr arasında yer alan tranzit statuslu dövlətlər bazarda strateji oyunçu qismində çıxış edir [5, s.21]. Bu keyfiyyətlər təbii qazın beynəlxalq geosiyasi əhəmiyyətini ortaya qoyur. Təbii qaz ixrac edən ölkələr və idxal edən ölkələr arasındakı şaquli münasibətlərdə bir tərəf üçün üstünlük digər tərəf üçün əlverişsizdir, risklərin optimal bölüşdürülməsi çətindir və bu münasibətlər alış və ya ödəmə öhdəlikləri, qiymət indeksləri (neft), ixrac qadağası (beynəlxalq bazarların de-fakto bölgüsü) kimi üç əsas prinsipə söykəndiyi görülür. Bu səbəblər təbii qazın beynəlxalq ticarətində problemlər yaradır.

Müasir dövrdə dünya iqtisadiyyatında inteqrasiya edilmiş qlobal təbii qaz bazarından danışmaq hələ mümkün deyil. Ölkələrin iqtisadi və tarixi təcrübələrindəki fərqlərə əlavə olaraq təbii qaz enerji mənbələrinə çıxış, texnoloji inkişafların istehsalata tətbiq olunması səviyyəsi, ölkələr arasındakı hüquqi tənzimləmələrin müxtəlifliyi ilə əlaqədar dünyada bir-birindən fərqli qiymətləndirmə mexanizmlər tətbiq olunur. Sərbəst bazarın etibarlı və rəqabətli olduğu Şimali Amerika və İngiltərədəki təbii qaz bazarlarından fərqli olaraq, Avropa və Asiyada təbii qazın qiymətləri uzunmüddətli neft indeksli alış müqavilələri ilə müəyyən edilir. Təbii qaz bazarının əsas xüsusiyyətlərindən biri qazın son istehlakçıya çatdırılmasına imkan verən boru kəməri infrastrukturu üçün tələb olunan investisiyaların həcmidir. Təbii qazın neftlə müqayisədə yüksək olan nəqliyyat və paylama xərcləri beynəlxalq qaz ticarətini qismən məhdudlaşdırır [4, s.101]. Bundan əlavə, belə müqavilələrin danışıqlar mərhələsində yaranan müxtəlif problemlərlə, ən azı 15-20 il müddətinə bir çox ixrac müqaviləsi bağlanıla bilər. Təbii qaz bazarının formalaşması üçün kifayət qədər istifadə potensialına sahib olmaq, istehsal və istehlak bölgələri arasındakı daşınmada texniki uyğunsuzluğu aradan qaldırmaq lazımdır. Bundan əlavə, rəqabətədavamlı satış qiyməti və bu qiymətlərin, xərclənən vəsaiti ödəyəcək səviyyədə olması kimi bəzi məsələlərin birlikdə yerinə yetirilməsi lazım gəlir. Məqalədə TANAP layihəsinin bütövlükdə deyil, Azərbaycan tərəfindən həyata keçirilən maliyyələşmə məsələləri şərh edilmişdir.

Müstəqillik tariximizdə ən bahalı layihə hesab olunan Cənub Qaz Dəhlizinin üçüncü seqmentini təşkil edən TANAP-ın səhm paketində Azərbaycanın payı (SOCAR) 58% olmaqla, həm də onun kəmərin idarə olunmasında əsas söz sahibinə malik olduğunu təsdiq edirdi. 2012-ci il dekabrın 18-də bağlanmış müqavilə ilə TANAP layihəsində nəhəng BP şirkətinə 12%-lik pay verilməklə projenin daha güvənikli hala gəlməsi üçün şərait yarandı. 2015-ci il martın 13-də Türkiyədə bağlanmış müqaviləyə görə SOCAR-58%, "Botaş"-30% və "BP-12%-lik pay almaqla TANAP-ın səhm paketi formalaşmış oldu. TANAP-ın təməli qoyulduğu vaxt onun tikilib başa çatdırılma xərcləri 11,7 milyard dollar qiymətləndirilirdi. Amma həmin vaxt dünya iqtisadi böhranı, neft və təbii qazın qiymətinin aşağı düşməsi sözügedən layihənin də tikinti xərclərinin aşağı düşməsinə səbəb oldu. Belə ki, artıq 2016-cı ilin əvvəlində layihənin xərcləri 9,2 milyard dollara qədər azalmışdı.

Qeyd edək ki, Cənubi Qafqaz Boru Kəmərinin (Bakı-Tbilisi-Ərzurum) genişləndirilməsi, TANAP və TAP boru kəmərlərinin idarə olunmasını həyata keçirmək üçün Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 25 fevral 2014-cü il tarixli 287 saylı sərəncamı ilə nizamnamə kapitalı 100 milyon dollar olan Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. Həmin 100 milyon dollar vəsaitin 51%-i birbaşa dövlətin mülkiyyətində. 49%-i isə SOCAR-a məxsus idi. Sərəncamın 2-ci bəndinə göstərilidi ki, SOCAR CQD QSC-nin birbaşa dövlətin mülkiyyətində olan hissəsinin maliyələşməsini təmin etmək üçün uzun müddətə və geri qaytarmaq şərti ilə investisiyalar ayırsın [2]. Sözügedən sərəncamın 2.1-ci bəndinə uyğun olaraq 51%-lik dövlətin mülkiyyətində olan hissəsinin sahibliyi və idarə edilməsi İqtisadiyyat Nazirliyinə tapşırılırdı. 2014-cü il 14 aprel tarixində CQD QSC-nin 51% həcmində birbaşa dövlətin mülkiyyətində olan hissəsinin maliyyə təminatı məqsədi ilə 51 miyon dollar (manata indeksiyasiyası-40 milyon manat) həcmində vəsait ARDNF tərəfindən məsul orqan olan İqtisadiyyat Nazirliyinin balansına köçürülmüşdür. 2014-cü il ərzində ARDNF tərəfindən CQD QSC-də Azərbaycanın payının maliyyəşləşdirilməsi məqsədi ilə 2 517,0 milyard dollar həcmində vəsai geri qaytarılmaq şərti ilə ayrılmışdır. Prezident İ.Əliyevin sərəncamı ilə yaradılmış Layihələrin Həyata Keçirilməsi Üzrə Dövlət Komissiyasının QSC-lər tərəfindən maliyyələşdirilməsi mexanizminin müəyyənləşdirilməsi haqqında 2014-cü il 9 iyul tarixli qərarının II bəndinə əsasən 2015-ci ildən etibarən layihələrin maliyyələşdirilməsi CQD-nin nizamnamə kapitalının İqtisadiyyat Nazirliyi və SOCAR-a məxsus paylarının faiz nisbətinin qorunması şərti ilə hər iki aydan bir artırılması şəklində səhmdarlar tərəfindən həyata keçirilməsi qərara alınıb. Bu qərardan çıxış edərək CQD QSC-nin Müşahidə Şurası və Ümumi Yığıncağı sözügedən QSC-nin nizamnamə kapitalının 2 milyard 415,8 milyon dollar məbləğinə qədər artırılması haqqında qərar vermişdir. Bu kapitalın böyük bir hissəsi-(birbaşa dövlətin mülkiyyətində olan səhmlərini maliyyələşdirmək üçün) 1 milyard 232,1 miyon dollar və ya (51%-i) ARDNF tərəfindən ayrılmışdır [3, s.212]. 2017-ci ildə isə "Cənub Qaz Dəhlizi" layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə SOCAR vasitəsilə 142,8 milyon manat vəsat ayrılmışdır. 2017-ci ilin may ayında Asiya İnkişaf Bankı ilə bağlanmış müqaviləyə əsasən dövlət zəmanəti əsasında Cənub Qaz Dəhlizinin maliyyələşməsi üçün 500 milyon dollar həcmində birbaşa kredit ayrılmışdır. Kredit 15 il müddətinə verilmişdir. Həmin ilin dekabr ayında isə Asiya İnkişaf Bankı yenə dövlət zəmanəti əsasında 524,5 milyon dollar həcmində sindikatlaşdırılmış kredit ayırmışdır.

Ümumilikdə Cənub Qaz Dəhlizində Azərbaycanın dövlətinin iştirak payının maliyyələşdirilməsini təmin etmək üçün Azərbaycan Respublikası Dövlət Neft Fondundan 1 232,1 milyon dollar və ya 1 530,3 milyon manat vəsait ayrılmışdır [1, s.47]. Azərbaycan hökuməti layihənin maliyyələşməsi üçün dövlət büdcəsində nəzərdə tutlmuş vəsaitlərdən daha çox, beynəlxalq maliyyə qurumlarının cəlb edilməsi ilə problemin həllinə çalışırdı. Daha əlverişli şərtlərlə investisiyaların cəlb edilməsi və onların hüquqi prosedurunu təmin etmək məqsədilə beynəlxalq maliyyə məsləhətçisi dəvət edilmişdir.

Maliyyə tutumu kifayət qədər böyük olan bu layihəni xarici investisiyanı cəlb etmədən həyata keçirmək olduqca çətin idi. 2016-cı il dekabrın 7-də Asiya İnkişaf Bankı layihə çərçivəsində Azərbaycanın iştirak payınının çatışmayan hissəsinin maliyyələşdirilməsi üçün 500 milyon dollar kreditin ayrıması haqqında qərar qəbul etmişdir. Göstərilən həcmdə kredit 15 il müddətinə və dövlət zəmanəti əsasında verilirdi. Bununla yanaşı adıçəkilən maliiyə qurumu 15 il müddətinə 526 milyon dollar sindikatlaşdırılmış kreditin ayrılması ilə bağlı qərar verilmişdir. Yeri gəlmişkən qeyd edək ki, sindikatlaşdırılmış kredit bir neçə maliyyə təşkilatının birləşmiş formada təyin olunmuş iqtisadi subyektə eyni şərtlər çərçivəsində verdiyi vəsaitə deyilir.

Dünya Bankı da "Cənub Qaz Dəhlizi"nin maliyyələşməsi üçün kreditlər ayrılmasına hazır olduğunu bildirmişdir. 2016-cı il dekabrın 20-də Dünya Bankının Direktorlar Şurası Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı tərəfindən sözügedən layihə çərçivəsində Azərbaycanın iştirak payının çatışmayan hissəsinin maliyyələşdirilməsi məqsədi ilə dövlət zəmanəti əsasında 30 il müddətinə 400 milyon dollar, eləcə də Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi 15 il müddətinə 750 milyon dollar sindikatlaşdırılmış

kreditin ayrılması haqqında qərar qəbul edilmişdir. 2018-ci il iyunun 29-da isə sözügedən kredit müqaviləsini dövlət zəmanəti olaraq Azərbaycan dövlətinin adından maliyyə naziri imzalamışdır.

Dünyanın maliyyə nəhənglərindən olan Asiya İnfrastruktur İnvestisiya Bankının da "Cənub Qaz Dəhlizi"nin maliyyələşməsində iştiraka marağı böyük idi. Asiya İnfrastruktur İnvestisiya Bankının marağının əyani göstəricisi kimi 2016-cı il dekabrın 21-də Azərbaycan dövlətinin zəmanəti ilə 30 il müddətinə 600 milyon dollar kredit ayrılması ilə bağlı qərar verilmişdir. TANAP layihəsinin açılışı 12 iyun 2018-ci ildə sözügüdən kəmərlə daşınacaq mavi yanacağın paylanmasının ilk stansiyasının yerləşdiyi Əskişəhərin Seyidqazi ilçəsində Kompressor və Ölçmə stansiyasında Azərbaycan Prezidenti İ. Əliyev, Türkiyə Prezidenti R.T.Ərdoğan, Serbiya Prezidenti A.Vuçiç, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti M.Akınçı, Ukrayna Prezidenti P.Poroşenkonun iştirakı ilə təntənəli şəkildə baş verdi. R.T.Ərdoğan bu tədbirdə çıxışında BTC, BTƏ kəmərlərinin TANAP-ın müjdəçisi olduğu kimi, bu kəmərin də yeni layihələrin ön ayağı hesab edilə biləcəyini vurğuladı. Türkiyənin sadəcə olaraq bir tranzit ölkə olmaq istəyini arxa plana qoyub TANAP ilə istehsalçıdan istehlakçıya uzanan dəyər zəncirinin hər halqasında rol oynayan və enerji xətlərinin mərkəzi vizyonu halına bir addım da yaxınlaşdıqlarını bildirdi. TANAP-ın 2016-cı il qiymətləri ilə maliyyə xərci 9.2 milyard dollar olmuşdur. 2014-2020-ci illər üzrə Azərbaycan tərəfinin payı isə 6,1 milyard dollar həcmində müəyyənləşmişdir. Buraya 100% pay üzrə alqı-satqı qiyməti, 100% pay üzrə maliyyələşmə və 30% payın BOTAŞ-a, 12% payın isə BP şirkətinə satılmasından sonra 58%-5% payın maliyyələşdirilməsi daxildir.

TANAP layihəsinin reallaşması ilə Türkiyə mavi yanacağı baha idxal etdiyi İran və Rusiya qarşısında mövqeyini gücləndirmiş oldu. Qeyd edək ki, sözügedən dövrdə Türkiyə İrandan min kub metr təbii qazı 585 dollara, Rusiyadan isə 400 dollara idxal edirdi [6, s.7]. Mənbə çeşidliyini artırması İran və Rusiyanın da qiymətləri liberallaşdırmağa məcbur olacaq hala gətirmişdir.

Müasir günümüzdə siyasi ədəbiyyata enerji geosiyasəti deyilən yeni bir anlayış daxil olmuşdur ki, bunun da başlıca həlqəsini mənbə coğrafiyası təşkil edir. Neft-qaz ehtiyatları qlobal miqyasda planetin fərqli bölgələrində yerləşir.Yeni resurslar kəşf edilib hasilata cəlb edilincə enerji geosiyasəti də bu ehtiyatların işə düşmə coğrafiyasına uyğun olaraq dəyişir. Bu aspektdə enerji geosiyasətində mənbə coğrafiyasında olan dövlətlər tələbi çeşidləndirməyi, istehlak coğrafiyasında olan dövlətlər isə resurs mənbəyini diversifikasiya etməyə çalışır. Enerji geosiyasətində ən aktual məsələlərdən-sorunlardan biri-qlobal və ya regional hakimiyyətə yiyələnmək üçün enerji mənbələrinə sahib olmaqmı, yoxsa həmin resursların daşındığı nəqliyyat coğrafiyasına nəzarət etmək vacibliyi məsələsidir [7, s.4379-4380].

Aparılan tədqiqatdan aydın olur ki, Azərbaycan müstəqillik tariximizin ən bahalı layihəsi olan Cənub Qaz Dəhlizinin mühüm seqmentini təşkil edən TANAP layihəsinin reallaşması üçün həm yerli maliyyə mənbələrindən, həm də xarici bank-kredit müəssisələrindən əlverişli şərtlərlə investisiyalar cəlb etməklə onun reallaşmasını həyata keçirə bildi. Həmçinin araşdırmadan bu nəticə də meydana gəlir ki, Azərbaycan xarici investisiya üçün cəlbedici bir ölkədir və onun geri qaytarılması risk daşımır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Dövlət Neft Fondu, 2018, 151 s.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı ildə fəaliyyəti haqqında Hesabat, Bakı, 2017.
3. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata Azərbaycan Respublikası Hesablama Palatasının RƏYİ. http://sai.gov.az/upload/files/REY_ICRA2017_final.pdf
4. Bayraç, H.N. Uluslararası Doğalgaz Piyasasının Ekonomik Analizi, Türkiye'deki Gelişimi ve Eskişehir Uygulaması, Anadolu Üniversitesi Sosyal Bilimler Enstitüsü, Basılmamış Doktora Tezi, Eskişehir 1999, 212 s.
5. Cameron, P. Competition in Energy Markets: Law and Regulation in the European Union, Oxford: Oxford Up, 2002. - 314 p.
6. Zengin, H.A. Uluslararası Doğal Gaz Boru Hattı Projeleri; Türkiye'nin Doğal Gaz Ticareti Açısından Trans Anadolu Doğal Gaz Boru Hattı (TANAP) ve Trans Adriyatik Doğal Gaz Boru Hattı (TAP) Projelerinin Değerlendirilmesi. T.C. İstanbul Ticaret Universitesi. WPS NO/ 06 / 2015-09, 13 s. http://ticaret.edu.tr/
7. Cenk, S. Küresel Enerji Jeopolitiği ve Enerji Güvenliği. Journal of Yaşar University. Yıl 2012, Cilt 7, Sayı 26, 2012, s. 4378 – 4391.

**РЕЗЮМЕ**
**ИСТОЧНИКИ ФИНАНСИРОВАНИЯ ПРОЕКТА TANAP**
***Керимов Н.А.***

***Ключевые слова:*** *Азербайджан, газопровод, проект TANAP, финансы, кредит*

Сегодня транспортировка природного газа от места добычи к пунктам потребления приобретает геостратегическое и геоэкономическое значение, где концентрируются интересы глобальных акторов, выходя за рамки обычной транспортной работы. Одной из основных характеристик рынка природного газа является объем инвестиций, необходимых для трубопроводной инфраструктуры, позволяющей доставлять газ до конечного потребителя. Более высокие затраты на транспортировку и распределение природного газа по сравнению с нефтью частично ограничивают международную торговлю газом. В этом аспекте большое значение имеет и механизм финансирования проекта TANAP, и эти вопросы были рассмотрены в представленной нами статье.

**SUMMARY**
**THE FUNDING SOURCES OF THE TANAP PROJECT IN AZERBAIJAN**
***Karimov N.A.***

***Key words:*** *Azerbaijan, gas pipeline, TANAP project, finance, credit*

Nowadays, the transportation of natural gas from the place of production to the points of consumption is leaving the scope of ordinary transport work and expressing a geostrategic and geoeconomic meaning, which the interests of global actors are concentrated. One of the main characteristics of the natural gas market is the amount of investment required for the pipeline infrastructure that allows gas to be delivered to the last consumer. The higher transportation and distribution costs of natural gas compared to oil expenses partly limit international gas trade. In this regard, the financing mechanism of the TANAP project is also of great importance, and these issues have been scrutinized in the presented article.

# AQRAR SEKTORDA İNNOVATİV MÜHİTİN FORMALAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

**Köçərli Hicran Rafiq qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
kocerlih@gmail.com

***Açar sözlər:*** *aqrar sektor, innovasiya, texnoloji transfer, idarəetmə obyekti, iqtisadi inkişaf, risk, klaster*

İnnovativ inkişaf mühitinin formalaşdırılması aqrar sektorda bazar infrastrukturunun aşağıdakı elementlərinin qarşılıqlı səmərəli işini tələb edir: elm, konsaltinq və təhsil mərkəzləri, innovativ logistika, marketinq və idarəetmə institutları, əmtəə birjaları, sığorta şirkətləri və s.

Dövlət dəstəyi aqrar sektorun inkişafı üçün innovativ mühitin formalaşmasında mühüm amildir. Bu amilin hərəkətverici təsiri sayəsində innovasiyaların tələbləri baxımından maddi, maliyyə və əmək resurslarının səfərbər edilməsi yolu ilə aqroiqlim potensialının artırılması üçün geniş imkanlar yaradır. Digər tərəfdən, unutmaq olmaz ki, innovasiyanın məqsədi "idarəetmə obyektini dəyişdirmək, yeni elmi-texniki, iqtisadi və sosial effekt əldə etməkdir" [1, s.8].

Bu və digər səbəblərdən aqrar sahədə innovativ fəallığın artırılması istiqamətləri, həyata keçirilən tədbirlərin səmərəliliyini artırmağa gətirib çıxardır. Aqrar sahədə yeni ideyaların kommersiyalaşdırılması imkanlarının qiymətləndirilməsi təkcə kənd təsərrüfatı istehsalında deyil, həm də bütövlükdə sahənin iqtisadi məqsədəuyğunluğunu əsaslandırmağa imkan verir. Bu zaman elmi yeniliklərlə yanaşı, idarəetmə innovasiyaları da diqqət mərkəzində olmalıdır.

Aqrar sahənin innovativ inkişaf mühitinin formalaşdırılması prosesində kənd təsərrüfatı fəaliyyətinin yüksək riski daim diqqət mərkəzindədir. İnnovativ inkişaf risklərin bölüşdürülməsi və minimuma endirilməsi üçün effektiv mexanizmin yaradılmasını tələb edir. Bu mexanizmin formalaşdırılması prosesində risklərin idarə edilməsi sahə üzrə innovasiyaların idarə edilməsinin mühüm tərkib hissəsi olmalıdır [2, s. 53].

Bu, xüsusilə kənd təsərrüfatı məhsullarının marketinq strategiyasının əsaslandırılması zamanı obyektiv zərurətə çevrilir. Praktikada aqrar sahədə innovativ inkişafın etibarlılıq səviyyəsi, bütün növ riskləri əhatə etmək imkanları, bu sahədəki layihələrin həyata keçirilməsi perspektivlərinin natamamlığı ilə məhdudlaşır. Aqrobiznes planlarının hazırlanmasında müasir risklərin idarə edilməsi metodlarından istifadə bu amilin mənfi təsirini azaldır, lakin, bir qayda olaraq, davamlı inkişaf tələbləri baxımından qənaətbəxş hesab edilmir.

Aqrar sahədə klaster təşəbbüsləri sektorun innovativ inkişaf mühitinin formalaşmasının təşkilati və iqtisadi xüsusiyyətlərinə əhəmiyyətli təsir göstərir. İlk növbədə qeyd edək ki, klasterlərin inkişafı şəraitində risklərin bölüşdürülməsi imkanları xeyli genişlənir. Fakt budur ki, bu şəraitdə təchizat sistemləri və logistika

sistemləri daha rəvan işləyir. Aqrar sektorun inkişafı üçün innovasiya dedikdə davamlı mühitin təşkilati və iqtisadi xüsusiyyətlərində iqtisadi və ekoloji tələblərə uyğunluq dərəcəsi getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu tələblər təbii resurslara qənaət edilməsinin prioritetləri ilə üst-üstə düşür [ 3, s.66].

İnnovativ inkişaf mühitinin formalaşmasının təşkilati-iqtisadi aspektləri nəzərdən keçirilərkən, bir qayda olaraq, aqrar sahədə innovativ fəaliyyətə mənfi təsir göstərən aşağıdakı spesifik aspektlərə diqqət yetirilir: sənayedə sahibkarlığın üzləşdiyi maneələr; kənd yerlərində şəbəkə formalaşdıran innovativ infrastrukturun olmaması; fəaliyyətin məkan parçalanması; antiböhran tədbirlərinin həyata keçirilməsində çətinliklər; rəqəmsal mühitin yavaş formalaşması; maliyyə vasitəçiliyinin kənd yerlərində daha çox problemləri var; daha yüksək dərəcədə asimmetriya və məlumatın natamamlığı; vergi tətilləri və güzəştlər sisteminin çevikliyi ilə əlaqədar vergi mexanizmində dəyişikliklərin yüksək tezliyi; innovativ və diversifikasiyalı fəaliyyət baxımından sənayedə yeni məhsulların sertifikatlaşdırılması və lisenziyalaşdırılması üzrə işlərin yüksək əmək intensivliyi.

Yeri gəlmişkən, aqrar sahədə innovativ inkişaf mühitinin formalaşmasında informasiya amili həlledici rol oynayır. Belə bir şəraitdə informasiyanın natamamlığını və asimmetriyasını azaltmaq üçün görülən tədbirlər bu mühitin formalaşmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər. Bu təsir bilik tutumlu və yüksək texnologiyalı sahələrdə açıq şəkildə hiss olunur.

Təşkilati-iqtisadi baxımdan aqrar sahədə innovativ inkişaf mühitinin formalaşdırılmasının aktual məsələlərindən biri sektorun aşağıdakı aktual məsələlərin həllində innovasiyanın dövlət tərəfindən stimullaşdırılmasına ehtiyacdır: torpaq və su ehtiyatlarından ekoloji tələblərə uyğun istifadə; resursa qənaət edən texnologiyaların tətbiqi, o cümlədən alternativ enerji mənbələrindən istifadə dairəsinin genişləndirilməsi; ekoloji təmiz məhsulların istehsalının artırılması.

İnnovativ inkişaf mühitinin formalaşması digər məsələlərlə yanaşı, kənd təsərrüfatı sektorunda rəqabət faktoru ilə də bağlıdır. Məhz rəqabətqabiliyyətli kənd təsərrüfatı innovasiyaları ətraf mühiti yaradan amil kimi çıxış edə bilər. Təsadüfi deyil ki, innovasiya fəaliyyətinin nəticəsi ilk növbədə səmərəlilik və rəqabətqabiliyyətlilik meyarları ilə qiymətləndirilir.

Aqrar sektorda innovativ inkişaf mühitinin formalaşmasında texnoloji transferlərin rolu əhəmiyyətli dərəcədə artır. Kənd təsərrüfatı istehsalının artırılmasında innovasiya amilinin həlledici rolu inkişaf etmiş ölkələrin təcrübəsindən də göründüyü kimi, effektiv texnologiya transferi sisteminin formalaşdırılması hesabına kifayət qədər qısa müddətdə reallaşa bilər. Milli kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyəti, onun dinamik və davamlı inkişafı texnologiyaların kənd təsərrüfatı texnologiyalarına çevrilmiş tətbiqi biliklərdən ötürülməsi yolu ilə sürətlə artırıla bilər .

Belə ki, davamlı inkişafın tələblərinə cavab verən mütərəqqi kənd təsərrüfatı texnologiyalarına əsaslanan yeni məhsulların bazara çıxarılması təkcə ərzaq təhlükəsizliyinin deyil, həm də iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından həlledici addımdır.

Aqrar sektorun da innovativ inkişaf problemlərini texnoloji transfer sisteminin lazımi səmərəliliyi və effektivliyi ilə gecikdirmədən həll etmək mümkündür və lazımdır. Tədqiq olunan sistemin inkişafı üçün normativ baza əsasən beynəlxalq standartlara uyğundur və artıq tərtib olunmuşdur. Buna görə də ölkədə texnologiya transferi sisteminin inkişafının təşkilati və iqtisadi aspektləri yaradılmışdır və böyük əhəmiyyət kəsb edir.

## Ədəbiyyat


1. Aqrar sektorun innovasiya yönümlü inkişafının konseptual əsasları. "İnnovativ kənd təsərrüfatı istehsalının formalaşması problemləri"nə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, Azərbaycan Respublikası Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili Elmi-Tədqiqat İnstitutu, 2010, s. 8-18.
2. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Bakı, "Elm və taxıl", 2010, 636 s.
3. Hüseynov M.C. Aqrar sahənin davamlı inkişafı problemləri sektorlar. Bakı, 2006, 304 s .



**РЕЗЮМЕ**

**ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ИННОВАЦИОННОЙ СРЕДЫ В СЕЛЬСКОХОЗЯЙСТВЕННОМ СЕКТОРЕ**



***Кочарли Х.Р.***



***Ключевые слова:*** *аграрный сектор, инновации, технологический трансферт, объект управления, экономическое развитие, риск, кластер*



Развитие аграрного сектора выдвигает на первый план решение актуальных проблем на национальном и глобальном уровне. Характеристики инновационного развития, в том числе скорость инновационного развития, зависят от множества различных факторов. Ускорение инновационного развития в конечном итоге положительно сказывается на эффективности сельскохозяйственного производства, однако не всегда удается удовлетворить интерес инвесторов, так как

процесс его обеспечения сопряжен с большими затратами. Поэтому приоритеты формирования соответствующего экономического механизма акселерации инноваций в аграрной сфере должны быть обоснованы и реализованы.

В статье рассматриваются вопросы формирования организационно-экономической среды инновационной деятельности, а также уделяется внимание особенностям этого процесса в аграрной сфере. При этом отражены факторы, играющие важную роль в создании инновационной среды развития в аграрной сфере.

**SUMMARY**
**CHARACTERISTICS OF FORMING AN INNOVATIVE ENVIRONMENT IN THE AGRICULTURAL SECTOR**
***Kocharli H.R.***

***Key words:*** *agricultural sector, innovation, technological transfer, management object, economic development, risk, cluster*

The development of the agricultural sector highlights the solution of urgent problems at the national and global level. Characteristics of innovative development, including the speed of innovative development, depend on many different factors. The acceleration of innovative development ultimately has a positive effect on the efficiency of agricultural production, but it is not always possible to satisfy the interest of investors, since the process of ensuring it is associated with high costs. Therefore, the priorities for the formation of an appropriate economic mechanism for the acceleration of innovations in the agricultural sector should be justified and implemented.

The article deals with the formation of the organizational and economic environment for innovation, and also pays attention to the peculiarities of this process in the agricultural sector. At the same time, the factors that play an important role in creating an innovative development environment in the agricultural sector are reflected.

## İNNOVASİYALAR VƏ İNVESTİSİYALAR SOSİAL VƏ İQTİSADİ İNKİŞAFIN DRAYVERLƏRİ KİMİ

**Quliyeva Mətanət Barat qızı**
*SOCAR "Azərikimya" İstehsalat Birliyi, Bakı, Azərbaycan*
guliyeva.matanat.barat@mail.ru

***Açar sözlər:*** *innovasiya, investisiya, iqtisadi inkişaf, drayver, kapital, innovativ.*

İnnovasiya iqtisadi inkişafı və rəqabət qabiliyyətini təmin etmək üçün istehsal və idarəetmənin müxtəlif sahələrində yeni ideyaların, elmi biliklərin, texnologiyaların və məhsulların tətbiqidir. İnnovativ fəaliyyət elmi-texniki tərəqqinin nailiyyətlərini istehsalata və sosial sferaya tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi həyata keçirilə bilər. Köhnə texnologiyaların köhnəlməsi və daim yenilərinin yaradılması ilə bazarları pozmaq qabiliyyəti sayəsində innovasiya uzunmüddətli inkişaf trayektoriyalarını müəyyən edən "sənaye mutasiyasının" mərkəzində dayanır. İqtisadi artım dinamikasında innovasiyanın rolu yaxşı qurulmuş kimi görünsə də, onun iqtisadi inkişafdakı roluna çox az diqqət yetirilmişdir. Alqoritmləri mövcud olan intellektual yeniliklərin, ixtiraların, səmərələşdirmə kimi proseslərin yaradılması hələ iqtisadi inkişaf demək deyildir. Kimin xeyrinə olmasından asılı olmayaraq istehsalın genişləndirilməsinə diqqət yetirən artımdan fərqli olaraq, inkişaf daha çox onun insan azadlıqlarına təsirindən, insanların normal həyat sürməsinə mane olan məhdudiyyətlərin və məhrumiyyətlərin aradan qaldırılmasından ibarətdir. Qabiliyyətə əsaslanan innovasiya və inkişaf arasındakı əlaqə "müsbət əks əlaqə dövrələri"ndən keçir və bu, innovasiyanın məhsuldarlığın artmasına səbəb olduğu inkişaf dövrünə gətirib çıxarır.

İnnovasiya termini iqtisadiyyatda yeniliyin məzmunu və reallaşması kimi istifadə edilməyə başlanılmışdır. Sonralar isə tək iqtisaddiyyatda deyil, müxtəlif elm sahələrində spesifik cəhətlərlə istifadə edilmişdir. İnnovasiyanın proqnozlaşdırılması, iqtisadi səmərəli modelin yaradılması, metodologiya üsullarının hazırlanması, idarə edilməsi, operativ tətbiq edilməsi, rəqabətə davamlılığının təmin edilməsi əsas amillərdir. Əslində innovasiyalar bütün dövrlərdə olmuşdur və bəşəriyyətin inkişafı məhz innovasiyalar sayəsində olmuşdur. İnnovasiyaların insan fəaliyyətinin bütün sahələrində mühüm rolu vardır. Yeniliklərin hərəkətvericiləri müştərilər, məhsul və xidmətlərdir. Yeniliyə doğru yolda ilk addım səylərin hara cəmlənəcəyi qərarının verilməsidir.

Xarici tədqiqatçılar Maruan Halloyk və Mark Robert idarəetmə innovasiyalarının, məsələn, yeni idarəetmə təcrübələrinin qeyri-kommersiya təşkilatlarında tətbiqini öyrənirlər, bu da indi kifayət qədər laqeyd bir təhlil miqyasıdır. İnnovasiyaların drayverlərini daha yaxşı başa düşmək həm də təşkilatların üzləşdiyi əsas maneələri müəyyənləşdirməyi tələb edir. Beynəlxalq qeyri-kommersiya təşkilatında keçirilən keys tədqiqatının təhlili əsasında onlar göstərirlər ki, idarəetmə innovasiyalarının tətbiqi zamanı qarşılaşılan əsas çətinliklər insan resurslarının kompleks idarə edilməsi (səriştələrin olmaması, yüksək dövriyyə və çətin iş şəraiti) və maliyyə resurslarının olmamasıdır. Üstəlik, dəyişikliklərə daxili müqavimət və maraqlı tərəflərə

qarşı yüksək məsuliyyət idarəetmə innovasiyalarının həyata keçirilməsinə mane ola bilər. Hər bir ölkədə milli xüsusiyyətlərin və ümumi cəhətlərin inkişaf etdirilməsi məqsədi ilə iki ölkəni müqayisə edərək, yük daşımalarında radikal innovasiyaları təşviq edən şərtlərin öyrənilməsi vacib amillərdən biridir. Çoxsəviyyəli perspektiv və milli innovativ bacarıqla bağlı ədəbiyyatlara əsaslanaraq, onlar yükdaşımaları üçün radikal innovasiyaların ixtiraçıları ilə müsahibələr aparmış və xüsusilə göstərmişlər ki, innovasiya şəraiti üçün innovasiya determinantları, müsbət və universal təsir mexanizmləri Fransa və Almaniyada oxşardır. Bununla belə, ölkəyə xas determinantlar mikro səviyyədədir: ixtiraçıların idarəetmə bacarıqları və biznes mədəniyyəti. Bütün bunlar innovasiyanın ümumi şərtləri ilə sahibkarların və menecerlərin fərdi xüsusiyyətləri arasında güclü əlaqənin olması fikrini nümayiş etdirir. İnnovasiya yaratmaq üçün lazım olan sistem xüsusiyyətlərinin yaranması üçün bütün bu inqrediyentlər birləşdirilməlidir. İnnovasiya drayverləri termini yeni deyildir. Texnoloji tərəqqi mexanizmi neoklassik iqtisadçılar tərəfindən kilidləndiyi “qara qutu”dan çıxdıqda, innovasiyanın mənşəyi iqtisadiyyat və idarəetmə elmində müasir təhlil probleminə çevrildi. Makroiqtisadi səviyyədə endogen artım nəzəriyyəçiləri innovasiyaya iqtisadi sferada qurulan və daxili fəaliyyətlər, yəni özəl və dövlət sektorunun investisiyaları ilə idarə olunan bir fenomen kimi baxırlar. Onlar elmi-tədqiqat və təkmilləşdirməyə investisiyaların təşviqində, infrastrukturun qurulmasında və insan kapitalının artırılmasında dövlət siyasətinin roluna diqqət yetirirlər. Belə siyasətin mahiyyəti müsbət xarici təsirlər, xüsusilə də yeni investisiyaları stimullaşdıran və artımın əsasını təşkil edən məcmu mexanizmləri təmin edən biliklərin yayılmasını yaratmaqdır. Bundan əlavə, bilik istehsalına investisiyanın özəl və ictimai gəlirlilik dərəcələrini yüksəltmək üçün balanslaşdırılmış sənaye mülkiyyət hüquqlarını yaratmaq və saxlamaq lazımdır. Sənaye iqtisadçıları innovasiya prosesində iştirak edən əsas aktorların müəyyənləşdirilməsinə əsaslanan daha institusional yanaşma ilə innovasiya drayverlərinin təhlili üçün analitik alətləri belə tamamladılar: bilik resurslarının yaradılması, yayılması və mənimsənilməsini asanlaşdıran milli innovasiya sistemlərinin əsas elementlərinə və onların son təkamülünə diqqət yetirilməlidir. Milli innovasiya sistemi yanaşması təkcə subyektlərə deyil, həm də sistemin təcrid olunmuş elementləri arasında “bərkidici” rolunu oynayan elementlərə fokuslanır [1].

İnnovasiyalara əsaslanaraq inkişaf mərhələsində olan bir sıra ölkələrin təcrübəsi göstərir ki, dövlətlə yanaşı, böyük istehsal potensialına, müasir idarəetmə sisteminə və geniş satış şəbəkələrinə malik olan Transmilli Korporasiyalar (TMK) innovasiyaların yaradılmasında və kommersiyalaşdırılmasında müstəsna rol oynayır. İnnovativ inkişaf mərhələsində uğurla rəqabət aparmaq üçün TMK-lar innovasiya siyasəti adlı strategiya hazırlayır və həyata keçirirlər. TMK-ların innovasiya siyasəti istehsalın əsas amili hesab edilən biliklərin əldə edilməsinə və innovasiyaların istehsalı üçün bu amildən ən səmərəli istifadə edilməsinə yönəlmiş tədbirlər kompleksidir. TMK-ların innovasiya siyasətinin tərkib elementlərinə aşağıdakılar daxildir: - innovasiya üçün maliyyə resursları əldə etmək məqsədilə dövlət orqanlarında lobbiçilik, yeni müstəqil şirkətlərin yaradılması və yeni texnologiyaların müstəsna istifadəsi üçün kiçik şirkətlərin alınması. Böyük TMK-lar innovativ tədqiqatları daha effektiv aparmaq üçün çox vaxt strateji ittifaqlar yaradırlar. Strateji ittifaqlar müxtəlif ölkələrin sənaye şirkətləri arasında elmi-texniki əməkdaşlığın təşkili formasıdır ki, burada iştirakçı tərəflər əməkdaşlıq üçün seçilmiş sahədə yeni elmi və texniki biliklərin əldə edilməsinə töhfə vermək, mübadilə texnologiyalarını həyata keçirmək bacarıqları kimi tələblərə cavab verməlidirlər. Müasir dövrdə innovativ inkişaf bilavasitə qloballaşma prosesləri ilə bağlıdır. Elmi biliklərin və texnologiyaların ötürülməsi və kommersiyalaşdırılması üçün qloballaşma əlverişli zəmin yaradır. İnnovativ sərmayələr ölkənin davamlı iqtisadi artımının mühüm atributu hesab olunur. Artım amillərinin davamlı olaraq təkmilləşdirilməsi dedikdə, əsas və dövriyyə kapitalına, infrastruktur sahələrinə müvafiq kapital qoyuluşlarını, bilik və bacarıqların, o cümlədən idarəetmə bacarıqlarının inkişafı nəzərdə tutulur. Bu mənada investisiyaları ölkənin rəqabət qabiliyyətinin əsas amili kimi deyil, rəqabət üstünlüklərinin yaradılması mexanizmlərindən biri kimi qiymətləndirmək olar. İnvestisiyalar təbii resursların və insan kapitalının çatışmazlığından yaranan çətinlikləri aradan qaldırmağa kömək edir. Amerikalı iqtisadçı Maykl Porter hər bir ölkənin rəqabət strategiyasının digərlərindən fərqləndiyini göstərmiş və bu fərqi müxtəlif inkişaf mərhələləri və iqtisadi artım mənbələri ilə izah etmişdir. İnvestisiyaların rəqabət üstünlüyündə rolu ölkənin inkişaf mərhələsindən asılı olaraq dəyişir [2] .

Ölkədə iqtisadi artımın aktivləşdirilməsinin əsas amili əvvəllər istehsal olunmuş mal və ya xidmətlərdən əhəmiyyətli dərəcədə fərqlənən yeni və ya təkmilləşdirilmiş mal və ya xidmətlərin işlənməsini, habelə yeni və ya təkmilləşdirilmiş məhsulların tətbiqini nəzərdə tutan innovativ inkişaf yoluna keçiddir. Bu proses demək olar ki, əvvəllər istifadə olunan biznes proseslərindən əhəmiyyətli dərəcədə fərqli olan biznes prosesləridir. İnnovasiyaların inkişafına təkan verən amillərdən biri də kiçik biznesdir, çünki innovasiyaların payı böyük şirkətlərin payına düşür. Həmçinin, kiçik biznes bir sıra xüsusiyyətlərə malikdir. Məsələn, dəyişikliklərə çevik reaksiya vermək bacarığı, idarəetmə fəaliyyəti üçün yüksək xərclər, kapital dövriyyəsinin yüksək tempi və innovativ layihələri tez və səmərəli şəkildə həyata keçirməyə imkan verən

risklərə hazır olmaq. Tədqiqatçıların vurğuladığı kimi, kiçik biznes, o cümlədən innovativ biznes bir çox ölkələrdə zəif inkişaf edir, lakin böyük inkişaf potensialına malikdir. İnnovativ kiçik biznes layihələrinin inkişafına mane olan əsas amil maliyyə resurslarının olmamasıdır. Belə layihələrə kifayət qədər investisiyanın cəlb edilməsi ölkə iqtisadiyyatının innovasiya sahəsində yeni inkişaf səviyyəsinə yüksəlməsinə imkan verir. İnnovativ fəaliyyət elmi-texniki tərəqqinin nailiyyətlərini istehsalata və sosial sferaya tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi həyata keçirilə bilər. İnnovasiyaya investisiya qoyuluşuna gəldikdə isə, bu proseslərin tənzimlənməsi sosial-iqtisadi və elmi-texniki siyasətin prioritetləri əsasında innovasiya mühitinin və investisiya tələbinin ödənilməsi vəziyyətinin qiymətləndirilməsini nəzərdə tutur. İnvestorların istifadə etdiyi alətlər bilik tutumlu və innovasiya yönümlü fəaliyyət rejimlərinin tələblərinə uyğunlaşdırılmalı, investisiya layihələrində menecerlərin innovasiya prosesinə cəlb edilməsi prioritet məsələ olmalıdır [3].

İqtisadiyyatın qloballaşması və sürətlə dəyişən rəqabət mühiti dövründə ölkəninin sosial və iqtisadi inkişafının seçilməsi problemi böyük əhəmiyyət kəsb edir. Seçmənin aktuallığı və nəticə etibarilə effektivliyi əsasən qlobal və regional tendensiyalarla bağlıdır. Tendensiyaların formalaşması, öz növbəsində, dünya bazarlarında obyektiv inkişaf proseslərinə və texnoloji strukturların inkişafı və dəyişdirilməsinə aiddir. Eyni zamanda, texnoloji meyllərə dövlət tərəfindən sosial, ekoloji, siyasi və digər amilləri nəzərə alan iqtisadi tənzimləmə siyasəti də təsir göstərir. Beləliklə, ölkənin elmi və texnoloji prioritetlərinin seçilməsi, onun texnoloji inkişafının aparıcı amillərinin müəyyən edilməsi ölkənin mövcud milli, elmi-texniki potensialı, innovasiyalı inkişafa xidmət edən əqli mülkiyyət siyasəti və rəqabət qabiliyyəti patent statistikası, patent portfelinin strukturu və istiqamətləri vasitəsilə əsaslandırıla bilər [4].

Son illərdə innovasiya fəaliyyəti bir çox dövlət proqramlarına daxil edilib. Bu proqramların hər birinin özünəməxsus məqsəd və vəzifələri olduğu üçün məqsədlərin bir qismini dövlət innovasiya siyasətinin məqsədləri hesab etmək olar. İqtisadi inkişafın indiki mərhələsində müəssisələr innovativ layihələrin həyata keçirilməsi üçün zəruri olan əsas komponentlərə - vençur kapitalına, yüksək ixtisaslı kadrlara, yeni ideyalara və tədqiqatlara nəzarət edərək innovasiyaların yaradılması və istehsalı coğrafiyasına güclü təsir göstərirlər. Beləliklə, ölkədə innovasiya siyasəti ölkələrin rəqabət qabiliyyətinin artırılmasında, onların bu prosesdə mövqeyinə təsir etməkdə mühüm rol oynayır. Beş fundamental nəticə - qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edən sosial-inkişaf modelinin nəticəsi olaraq inkişaf etməkdə olan sənaye ölkəsi olan Azərbaycanda innovativ kapitalın güzəştli vergiyə cəlb edilməsi, yüksək ixtisaslı kadrların hazırlanması, zəruri infrastrukturun inkişafına yönəlmiş investisiya siyasəti və digər bu kimi tənzimləmə vasitələri ilə istehsal sahələrinin yaradılması stimullaşdırıla bilər. Belə ki, Qarabağ regionu Azərbaycanın iqtisadi inkişafının yeni coğrafi hərəkətverici qüvvəsinə-artım mərkəzinə çevriləcəkdir. Bu regionda investisiya və quruculuq işləri Azərbaycanın ÜDM-nin artımını sürətləndirəcəkdir. Burada müxtəlif maliyyə mənbələrindən, o cümlədən dövlət büdcəsindən, xarici kredit təşkilatları tərəfindən maliyyələşdirilmədən, qrant, özəl investisiyalardan və qanunla qadağan olunmayan digər mənbələrdən istifadə edilə bilər. Bir çox sahələrə investisiyalar cəlb oluna bilər. İnfrastruktur layihələrinin dövlət-özəl tərəfdaşlıq yolu ilə həyata keçirilməsi özəl sektorun fəaliyyətinin canlanmasına, səmərəliliyin artmasına və dövlət büdcəsinə düşən yükün azalmasına gətirib çıxarır. Beynəlxalq təşkilatların, xarici ölkələrin, iri və orta biznes nümayəndələrinin münaqişədən sonrakı yenidənqurmada iştiraka marağı artıq hiss olunur Yeni şəraitdə aparılan islahatlar arasında investisiyaların təşviqi üçün effektiv mexanizmin işə salınması böyük əhəmiyyət kəsb edir. Türkiyə şirkətlərinin Azərbaycanın qeyri-neft sektoruna investisiyaları çox vaxt daha mövqeli vəziyyətdə olub. Bundan əlavə, ABŞ, Böyük Britaniya, BƏƏ, Almaniya, Fransa və Rusiya demək olar ki, hər il Azərbaycanın qeyri-neft sektoruna sərmayələr qoyur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-mart aylarında qeyri-neft sektoru üzrə ÜDM 4,9 faiz artmışdır. Bu artım iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların nəticədir. Ümummilli lider Heydər Əliyev demişdir ki, heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, əlbəttə ki, aparılan islahatlarla bağlıdır. Dünyanın aparıcı təşkilatlarının hesabatları göstərir ki, iqtisadiyyatımız sürətlə inkişaf edir, iqtisadi göstəricilərinə görə qabaqcıl ölkələr sırasındadır. Zaman keçdikcə də elmin müxtəlif sahələrində tədqiqatlar genişləndiriləcək, dövlət investisiyalarının səmərəliliyi artırılacaq və onun özəl investisiyaları stimullaşdırma potensialı yüksəldiləcəkdir.

İnnovasiya iqtisadi, ticarət və investisiya artımının əsas hərəkətverici qüvvəsi olaraq iqtisadi və sosial imkanlardan, siyasi azadlıqdan, yaxşı sağlamlıq üçün əlverişli şəraitdən, təhsildən və təşəbbüslərin təşviqi və inkişafından asılıdır. İnkişaf etməkdə olan ölkələrin innovasiya və yeni texnoloji biliklərinin üstünlüklərindən faydalanmaq üçün öz texnoloji çatışmazlıqlarını aradan qaldırmağa imkan verəcək müvafiq bacarıqlar inkişaf etdirilməlidir. Eyni zamanda, investisiya imkanlarını qiymətləndirmək və portfelin

dəyərini artırmaq bacarıqları inkişaf etdirilməlidir. Potensial investisiya imkanlarını qiymətləndirmək üçün bacarıqlar, inam və strategiyalar əldə edilməlidir. Beləliklə, investisiya və innovasiyalı iqtisadiyyat getdikcə iqtisadiyyatın daha da şaxələndirilməsinə, bir sözlə iqtisadi artımın əsas aparıcı qüvvəsinə çevrilir. Bu prioritetlərdə diqqət çəkən əsas məqamlardan biri də iqtisadi inkişafın inklüzivliyinin daha da genişlənməsinə, o cümlədən iqtisadiyyatın innovativ inkişafına nail olmaqdır [5].

Beləliklə, innovasiyaların hərəkətverici qüvvələrinin tam təhlili makro və mikroiqtisadi ölçülər daxil olmaqla çoxmiqyaslı yanaşma tələb edir. Bununla belə, yuxarıda göstərilən bütün drayverlərin innovasiya prosesində rol oynamasına baxmayaraq, onlar çox vaxt ayrıca öyrənilir. İnnovasiyaların hərəkətvericilərini başa düşmək, həmçinin analitikdən özünü müxtəlif miqyaslarda yerləşdirməyi tələb edir: fərdi sahibkarlıq, KOBİ, böyük şirkət və ya digər təşkilat növü. Həqiqətən də, bu müxtəlif aktorların üzləşdiyi iqtisadi məqsədlər və məhdudiyyətlər geniş şəkildə dəyişir və konkret innovasiya drayverlərinin effektivliyinə təsir göstərir.

### Ədəbiyyat


1. Fagerberg, J., and Srholec, M. 2009. Innovation, technology and development. Khan, H. 2004. Technology and economic development: The case of Taiwan. Journal of Contemporary China 13(40): 507–521.
2. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı -"Elm"- 2009.
3. Руткаускас Т. К. Инвестиции и инвестиционная деятельность организаций: учебное пособие. Урал, 2019.
4. Kamran İmanov, Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri. İnnovasiyalı inkişaf və iqtisadi islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu. Bakı, 2019.
5. https://yeniazerbaycan.com/Iqtisadiyyat_e72230_az.html.



**РЕЗЮМЕ**

**ИННОВАЦИИ И ИНВЕСТИЦИИ КАК ДРАЙВЕРЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

***Кулиева М.Б.***

***Ключевые слова:*** *инновации, инвестиции, драйвер, капитал, инновационный*

В последние годы драйверная функция нашей экономики перешла к ненефтяной отрасли, которая имеет высокие показатели развития. Дальнейшее развитие Азербайджана будет обеспечиваться инновационными инновациями. За счет крупных инвестиций в нашей стране ведется масштабное инфраструктурное строительство, и наша страна поднялась на уровень передовых стран мира по обеспеченности инфраструктурой. Создаваемая по всей стране современная инфраструктура имеет исключительное значение как с точки зрения повышения уровня жизни людей, так и с точки зрения экономического развития.



**SUMMARY**

**INNOVATIONS AND INVESTMENTS AS DRIVERS OF SOCIAL AND ECONOMIC DEVELOPMENT**

***Qulieva M.B.***

***Key words:*** *innovation, investment, economic development, driver, innovative*

In recent years, the driver function of our economy has shifted to the non-oil industry, which has recorded high development indicators. The further development of Azerbaijan will be ensured according to innovative innovations. Large-scale infrastructure construction is carried out in our country due to large investments, and our country has risen to the level of the world's leading countries in terms of infrastructure provision. The modern infrastructure created throughout the country is of exceptional importance both in terms of raising people's living standards and economic development.


# KREDİT SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ MƏRKƏZİ BANKIN ƏHƏMİYYƏTİ


**Qurbanova Röya Vilayət qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*roya.qurbanova.80@inbox.ru*



***Açar sözlər:*** *kredit, Mərkəzi Bank, səmərəlilik, dövriyyə kapitalı, pul siyasəti, kapital resursları, depozit, mübadilə*


Kreditin iqtisadiyyata təsirinin öyrənilməsi onun yalnız təhlilinin son mərhələsində məlum olur ki, bu da onun əhəmiyyətini azaldaraq kredit haqqında müsbət fikrin formalaşmasında çətinliklər törədir.

Çətinliklərin aradan qaldırılması üçün bir sıra məsələlər araşdırılmalıdır. İlk növbədə kreditin mahiyyətini, onun funksiyalarını anlamaq və yalnız bundan sonra onun rolunu açıqlamaq mümkündür. Bütün bunlar onu deməyə əsas verir ki, kredit onun zəruriliyi, mahiyyəti, funksiyaları və iqtisadiyyatdakı kredit münasibətlərinin rolunun şərhinə qədər olan bir prosesdir.

Kreditin iqtisadiyyata hansı səpkidə təsir etməsi təhlil olunaraq öyrənilməlidir. Bu zaman təhlilin aparılması böyük əhəmiyyət kəsb edəcək, kredit işinin son nəticəsindən ilkin mərhələyə qədər olan prosesdə onun hansı məqsəd üçün istifadə olunduğu açıqlanacaq.

Kreditin təhlil olunması sadəcə təhlil predmetinin müəyyən olunmasından ibarət deyil. Kreditin təhlil olunması onun təyinatını müəyyən etmək üçün bir sıra vacib müddəaların əvvəlcədən açıqlanmasını tələb edir:

1. Kreditin iqtisadiyyatda rolu spesifikdir və digər iqtisadi kateqoriyaların rolundan fərqlənir, xüsusi iqtisadi kateqoriya kimi kreditin mahiyyəti iqtisadiyyatda fəaliyyətinin özünəməxsus təbiəti ilə əlaqələndirilir.

2. Kreditin iqtisadiyyatda rolu yeganədir, onun forma və növlərindən asılı deyil. Bu formaların hər biri, həm subyektlərin, həm də kreditləşdirmə obyektlərinin fərqli olmasına baxmayaraq, makroiqtisadiyyat baxımından eyni rol oynayır.

3. Kreditin rolu, eləcə də mahiyyəti və funksiyaları eyni zamanda həm borc verənin, həm də borcalanın mövqeyindən, hər birinin borcun müəyyən bir məqsədinə marağı baxımından eyni vaxtda nəzərə alınmalıdır. Faizlər arasındakı fərq üçün hər iki kredit münasibətinin subyektinin təkrar istehsal, kapital hərəkəti baxımından bir borcun niyə lazım olduğunu görmək vacibdir.

4. Kreditin məqsədi kimi iqtisadiyyatda rolu həmişə müsbətdir. İnsanlar (cəmiyyət) kreditdən iqtisadi və sosial vəziyyətlərinin pisləşməsi üçün deyil, ən azından mövcud yaşayış səviyyəsini və istehsal vəziyyətini qorumaq üçün istifadə edirlər.

5. Kreditin rolu böyük və ya kiçik ola bilməz. Kreditin iqtisadiyyatda rolu həmişə məzmununa görə, eləcə də təyinatı baxımından vacibdir. Kredit hər zaman ümumi "orqanizmin" bir hissəsidir ki, burada bütün "orqanlar" vacibdir, onlar olmadan ümumi iqtisadi proses çətinləşir və az təsirli olur.

6. Kreditin obyektiv bir proses kimi iqtisadiyyatdakı rolu ilə konkret bir vəziyyətdə subyektiv baxımdan onun istifadəsi arasında fərq qoyulmalıdır. Kredit rolunun bütövlükdə iqtisadiyyat baxımından həyata keçirilməsi həmişə kredit növlərinin kütləsindən və hər bir konkret vəziyyətdə istifadə olunmasından asılı olmayan obyektiv bir prosesdir. Məlumdur ki, müəyyən hallarda kreditə təcrübəsiz yanaşma nəticəsində krediti geri qaytarmaq mümkün olmur və bu da kredit münasibətləri iştirakçılarına iqtisadi baxımdan mənfi təsir göstərə bilər.

Əlbəttə bütün deyilənlər o demək deyil ki, cəmiyyət kreditin mənfi təsirindən yan keçir. Belə ki, cəmiyyət fərdi kreditləşmə zamanı onun mənfi təsiri ilə üzləşir ki, bu da arzuolunmaz faktdır. Lakin, bu o demək deyil ki, kredit keyfiyyətinə görə iqtisadiyyatda geriləmə rolunu oynayır.

Kreditin rolu həm kəmiyyət, həm də keyfiyyət baxımından əhəmiyyətli ola bilər. Çox vaxt kreditin əhəmiyyətini xarakterizə etmək məqsədi ilə iqtisadiyyatda bu sahədə tətbiq olunan mütləq və nisbi göstəricilərdən istifadə edilir. Onlar arasında ümumilikdə və milli iqtisadiyyatın sahələrinin, eləcə də borcalanlar tərəfindən kredit qoyuluşlarının həcminin (borc və kreditin cəmi) göstəriciləri mühüm yer tutur. Kredit rolunun göstəriciləri olaraq dövriyyə kapitalının və əsas kapitalın formalaşması mənbəyi kimi onun payı, kredit dövriyyəsi, kreditin həcminin ÜDM-ə nisbəti və s. qeyd etmək mümkündür. Belə hesab olunur ki, kreditin ümumi məbləğində artım və ya azalmalar baş verir. Bunun səbəbi isə kreditin müəssisələrin ehtiyaclarının maliyyələşdirmə mənbəyindəki payına görə rolu, eləcə də onun ÜDM-ə nisbəti əsasında müvafiq olaraq artması və ya azalmasıdır. Lakin, deyilənlərin əksi olaraq kreditləşmənin miqyası göstərir ki, iqtisadi subyektlərin avans xərcləri üçün kredit mənbələrindən istifadəsinə az-çox marağı yaranmış, eləcə də cəmiyyətdə artıq kreditlərdən istifadə şərtləri formalaşmışdı. Bütün bunlar kreditləşmənin vacib tərəfləridir. Lakin bu cür göstəricilər bütün əhəmiyyəti ilə kreditin məqsədini və miqyasını əhatə edə bilməz. Qeyd olunan bu göstəricilər əsasən kreditləşmənin miqyasını yalnız dolayısı ilə az və ya çox dərəcədə əhəmiyyətli vasitəçilik sayəsində kreditin təkrar istehsala mümkün təsirini mühakimə və yaxud vəsaitlərin kredit yolu ilə dövriyyəsini xarakterizə edə bilər. Kreditin əhəmiyyətli tərəfi, yəni, ondan hansı səpkidə istifadə olunaraq yüksək mənfəətin əldə olunması daim sirr olaraq saxlanılır. Elə bu baxımdan da iqtisadiyyata potensial təsir edən kredit xüsusiyyətləri yenidən araşdırılmalıdır.

Müəssisələr və təşkilatlar, əmtəə istehsalçıları, eləcə də satıcılar və alıcılar öz vəsaitləri olmadıqda kreditin götürülməsini məqbul hesab edirlər. İstehsalçılar kreditlərə müraciət etməklə ilk növbədə istehsalın (dövriyyəsinin) davamlı fəaliyyətini təmin edirlər. Kreditin götürülməsində məqsəd yalnız istehsalın fasiləsizliyinin təmin edilməsi deyil. Kreditlərdən dövriyyə kapitalından edilən ödənişlər zamanı yaranan çətinliklərin öhdəsindən gəlmək məqsədi ilə və hətta istehsalın genişlənməsinə imkan verən səhmdarların

dairəsini genişləndirmək üçün əlavə kapital kimi cəlb edərək istifadə edilir. Kreditin qarşısında duran vəzifə yalnız istehsal dövriyyəsinin davamlılığını təmin etmək deyil, digər kapital formaları üçün də öz xarakterik xüsusiyyətlərini həyata keçirməkdən ibarətdir.

Kreditin məqsədinin spesifikliyi kapitalın hərəkətini artırmaq və sürətləndirməkdir. Borcalanın əlavə kredit cəlb etməklə fasiləsiz dövriyyə kapitalının həcmini artırmaq, həm də istehsal prosesinin sürətlənməsini təmin etmək imkanı var. Kreditor nəinki kapital resurslarının fasiləsizliyini tam qorumaq, həm də artan dəyərin kütləsini artırmaq, habelə onun hərəkətini sürətləndirmək imkanına malikdir.

Respublikamızda kredit instansiyasının mərkəzində Mərkəzi Bank durur ki, bu sahədə ona bir çox vəzifə və funksiyalar həvalə olunmuşdur. Belə ki, Mərkəzi Bank qanunverciliklə ona verilmiş hüquqlardan istifadə edərək bank sistemini tənzimləyərək kreditlərin və depozit qəbulunu dolayı yolla müəyyən edir.

Mərkəzi Banka geniş səlahiyyətlər verilsə də, onun fəaliyyətində bir sıra məhdudiyyətlər mövcuddur:

- Qanunvericilikdə nəzərdə tutulmuş əməliyyatlardan başqa digər hüquqi və fiziki şəxslərlə bank əməliyyatlarının aparılması;
- Qanunla müəyyən edilmiş hallardan başqa istehsal, ticarət, sığorta və digər kommersiya fəaliyyəti ilə məşğul olmaq.

Belə ki, Mərkəzi Bank ikili hüquqi aspektə malikdir və eyni zamanda xüsusi səlahiyyətli dövlət qurumu və iqtisadi fəaliyyətlə məşğul olan hüquqi şəxs kimi fəaliyyət göstərir [5].

Mərkəzi Bank sisteminin dayanıqlığının öyrənilməsində mövcud yanaşmaları ümumiləşdirərək iqtisadi artımın müəyyən olunması hədəflərinə nail olmaq məqsədi ilə əsas alət kimi pul siyasətinin nəzəri anlayışını və praktiki tətbiqini təhlil edərək, bank sisteminin aşağıdakı xüsusiyyətləri müəyyən edilmişdi:

- Verilmiş iqtisadi artım templərinin saxlanmasına tövhə verən əsas ötürmə kanalları investisiya, kredit və valyuta kanalları ola bilər.
- Pul-kredit kanalının istifadəsi bir çox risklə əlaqələndirilir, onun effektivliyi borcalanların gələcək gəlirlərini proqnozlaşdırmaq imkanını təmin etmək və gələcək istehlakçının vəziyyətinə təsirini minimuma endirməklə xarakterizə olunur.
- Hər bir bank sistemi ilkin olaraq milli kredit sisteminə inteqrasiya olunur [7].

## Ədəbiyyat


1. Деньги. Кредит. Банки: учебник / под общ. ред. М. С. Марамыгина, Е.Н.Прокофьевой,- Екатерибург: Из-ва Урал ун-та, 2019, 384 с.
2. Деньги. Кредит. Банки : учебник / А. А. Казимагамедов. Москва : ИНФРА-М, 2019. 484 с.
3. Деньги. Кредит. Банки : учебник / под ред. Л. П. Кроливецкой. Москва : КноРус, 2019. 414 с.
4. Bəşirov R.A., Abdullayev Ş.Ə., Məmmədov Z.F., Sadıqov E.M., Mustafayeva R.Ə., Babayev A.A., Kərimov A.E., Qəhrəmanov S.C., Əliyev Q.İ., Rzayev R.M., İbrahimov İ.H. Pul və banklar. Dərslik. Bakı: ”İqtisad Universiteti” nəşriyyatı, 201, 472 s
5. Əliyeva T.T. Dünya ölkələrinin bank sistemi, Bakı, 2013, s. 17-21
6. www.ru.wikipediya.org
7. https://www.doi.org/10.36719/2663-4619/76/158-162



**РЕЗЮМЕ**

**ЗНАЧЕНИЕ ЦЕНТРАЛЬНОГО БАНКА В ОСУЩЕСТВЛЕНИИ КРЕДИТНОЙ ПОЛИТИКИ**

***Курбанова Р.В.***

***Ключевые слова:*** *кредит, центральный банк, эффективность, оборотный капитал, денежно-кредитная политика, капитальные ресурсы, депозит, обмен*

Кредит - это заемный капитал, который влияет как на развитие, так и на расширение существующих экономических отношений. Определение и обеспечение соблюдения кредитных лимитов важно как для участников займа, так и для экономики. Когда кредит используется только в правильном размере, устанавливаются кредитные отношения, что положительно сказывается на экономике. В статье описывается ряд положений, влияющих на цель кредитного анализа. Также рассматривается роль Центрального банка в реализации кредитной политики и ее значение в организации координации деятельности банков.



**SUMMARY**

**THE IMPORTANCE OF THE CENTRAL BANK IN THE IMPLEMENTATION OF CREDIT POLICY**

***Gurbanova R.V.***

***Keywords:*** *credit, Central Bank, efficiency, working capital, monetary policy, capital resources, deposit, exchange*

Credit is debt capital that affects both the development and expansion of economic relations. Defining and enforcing credit limits is important for loan participants as well as for the economy. When credit is used only in the right amount, credit relations are

established, which has a positive effect on the economy. The article describes a number of provisions that affect the purpose of credit analysis.

In addition, the role of the Central Bank in the implementation of the credit policy and its importance in organizing the coordination of banks were discussed.

## İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

**Məmmədov İlqar Səməndər oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*ilqar-1972@mail.ru*

***Açar sözlər:*** *investisiya, investisiya fəaliyyəti, dövlətin investisiya siyasəti (DİS), dövlət tənzimlənməsi, vergi, kredit*

Müasir iqtisadi lüğətdə "İnvestisiya siyasəti" anlayışı dövlət və müəssisələr tərəfindən investisiyaların strukturunun və miqyasının, onlardan istifadə istiqamətlərinin, daxilolma mənbələrinin müəyyənləşdirilməsi formasında reallaşdırılan ümumi siyasətin tərkib hissələrindən biri kimi aydınlaşdırılır.

İnvestisiyaların makro və mikroiqtisadi səviyyələrdə qarşılıqlı əlaqəsi investisiya siyasətini müəyyənləşdirir. Makroiqtisadi mənada investisiyalar istehsalın modernləşdirilməsi, elmi və texnoloji kəşflərin inkişafı, ölkənin iqtisadi və ekoloji təhlükəsizliyinin və ümumiyyətlə inkişafın təmin edilməsi üçün əsasdır. Mikroiqtisadi mənada investisiyalar mövcud müəssisələrin bərpası və inkişafı, onların modernləşdirilməsi, təsərrüfat subyektinin gəlirinin artması, əsas fondların yaradılması, maliyyə rifahının təmin edilməsi, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması kimi problemləri həll edir.

İnvestisiya siyasəti müəyyən məqsədlərə çatmağa yönəlmiş iqtisadi siyasətdir. Dövlətin investisiya siyasətinin (DİS) əsas məqsədlər aşağıdakılardır:

1) əhalinin yaşayışının yaxşılaşdırılması;

2) iqtisadi və sosial inkişafda sabitliyi təmin etmək məqsədilə riskləri minimuma endirmək və gəlirliliyi artırmaq;

3) xarici və yerli investorların fəaliyyətlərinin reallaşdırılması məqsədilə əlverişli rejimin təşkili.

Ümumiyyətlə, DİS-in məqsədi dövlətin sosial və iqtisadi inkişafı üçün strateji planı reallaşdırmaqdır. DİS-in reallaşdırılmasının əsas vasitələri əsas məqsədlərə çatmaq üçün inzibati və iqtisadi təsir üsullarıdır. DİS, konkret problemlərin həllinə yönəldildiyi təqdirdə təsirli olur.

DİS, investisiya fəaliyyətinin tənzimlənməsinə yönəldilir. İqtisadiyyatın dövlət tənzimlənməsi dövlət orqanları tərəfindən iqtisadi obyektlərə və proseslərə təsirdir. O, əsasən dövlətin iqtisadi siyasəti çərçivəsində reallaşdırılır və proqnozlaşdırma, planlaşdırma, maliyyələşdirmə, büdcələşdirmə, vergi tənzimlənməsi, kreditləşmə, inzibati təsir, uçot, nəzarət və digərlərini əhatə edir. İqtisadiyyatın vəziyyətindən (inflyasiya səviyyəsi, qıtlıq) asılı olaraq dövlət tənzimlənməsinin müxtəlif konsepsiyalarından istifadə olunur. İstənilən iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi iki formada reallaşdırılır: qanunvericilik formasında və proqramlar şəklində. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi (İFDT) dedikdə, dövlət orqanları tərəfindən investisiyaların reallaşdırılması proseslərinin tənzimlənməsinə yönəlmiş tədbirlərin görülməsi başa düşülür. Layihələrin reallaşdırılması ilə bilavasitə bağlı olan İFDT-nin məzmunu onun funksiyaları, vasitələri və obyektləri vasitəsilə müəyyənləşdirilir.

İnvestisiya fəaliyyəti iqtisadi nəzəriyyədə həmişə mühüm tədqiqat obyekti olmuşdur, odur ki, iqtisadiyyatın müxtəlif sahələrindən asılı olaraq onun tənzimlənməsi problemi fərqli məna kəsb etmişdir [4, s.215].

İnvestisiya fəaliyyətini tənzimləyən dövlət bir neçə funksiyanı yerinə yetirir. Birinci funksiya özəl biznesin ümumi investisiyalarını stimullaşdırmaq və ya məhdudlaşdırmaqdır. Deyə bilərik ki, bu, vergi, amortizasiya və pul siyasəti vasitəsilə tətbiq edilən investisiyaların və investisiya prosesinin idarə edilməsində dövlətin əsas makroiqtisadi funksiyasıdır. İkinci funksiya kredit və vergi güzəştləri verməklə, məsələn, investisiya kreditinin köməyi ilə investorları müəyyən müəssisələrə, sənayelərə və ya fəaliyyət sahələrinə investisiya qoymağa stimullaşdırmaqdır. Üçüncü funksiya iri korporasiyaların plan və hərəkətlərini koordinasiya edərək müəyyən istehsal obyektlərinə daxil olmaq və ya çıxarmaq üçün dövlətin investisiya prosesinə birbaşa müdaxiləsidir.

Müasir şəraitdə investisiya kapitalı daxili mənbələrlə bərabər, xarici mənbələrdən də daxil olur. Beləliklə, müəyyən açıq iqtisadiyyatın investisiya bazarı müxtəlif mənşəli və xarakterli kapitallar üçün mürəkkəb bazardır. Odur ki, investisiyalar ölkədə mikro və makrosəviyyədə təsir göstərir. İstənilən ölkənin

strukturundan asılı olaraq müəyyən institusional çərçivələr və təşkilati-iqtisadi şərait yaradan investisiya proseslərinin əsas tənzimləyicisi kimi çıxış edən dövlətdir.

Beynəlxalq maliyyə axınları, o cümlədən investisiya axınları ayrıca tənzimləmə obyekti kimi nəzərdən keçirilməlidir. İnvestisiya fəaliyyətinin formalarının genişlənməsi və nəticədə iqtisadiyyatın inkişafına təsirinin artması ilə onların tənzimlənməsinə yanaşmalar da dəyişir. İnvestisiya fəaliyyəti genişləndirilmiş iqtisadi prosesin tərkib hissəsi olduğundan ümumi iqtisadi siyasətin tənzimlənməsinə tabedir. Bildiyimiz kimi, bazar şəraitində investisiya fəaliyyəti özünü tənzimləyici kimi çıxış edir, lakin struktur tənzimlənməsi, bazarın transformasiyası və iqtisadi tənəzzül prosesində bazarın əsas tənzimləyicisi kimi dövlətin müdaxiləsinin məqsədəuyğunluğu aktuallaşır.

Dövlət investisiya fəaliyyətini tənzimləyərkən aşağıdakı əsas prinsiplərə söykənir:
- iqtisadi inkişafın innovativ yoluna istiqamətlənmə;
- investisiyaların inkişafında prioritetlərin müəyyən edilməsi;
- elm, sənaye, təhsil, kredit və maliyyə sahələrinin qarşılıqlı əlaqəsi;
- investisiya fəaliyyətində normaların, hüquqi bazanın formalaşdırılması;
- investisiya fəaliyyətində səmərəli bazar mexanizmlərindən istifadə;
- investisiya infrastrukturunun inkişafına yardım.

Ümumilikdə, İFDT investisiya proseslərinin aparılması qaydalarını tənzimləyən və müəyyən edən qanunlar, qaydalar və tədbirlər toplusudur. Dövlət müxtəlif formalarda və üsullarla investisiya fəaliyyətinin tənzimlənməsində iştirak edir:

1. İnvestisiya fəaliyyətinin bütün iştirakçıları və bütün investisiya prosesləri və layihələri üçün eyni olan qanunvericilik bazasını yaradır və tənzimləyir.

2. İnvestisiya fəaliyyətinin subyekti kimi çıxış edir və investisiya layihələri üçün müsabiqə əsasında vəsait ayırır.

İFDT-nin əsas formalarına aşağıdakılar daxildir:
- maliyyə qoyuluşlarının tənzimlənməsi;
- investisiya sahələrinin və obyektlərinin tənzimlənməsi;
- investisiya layihələrinin ekspertizası;
- vəsaitlərin dövlətdən kənarda investisiyalaşdırılması şərtlərinin tənzimlənməsi;
- effektiv amortizasiya siyasətinin aparılması;
- investisiya fəaliyyətinin vergi tənzimlənməsi;
- investorların özəlləşdirmədə iştirakının tənzimlənməsi;
- güzəştli kreditləşdirmə;
- maliyyə yardımının göstərilməsi və s.

Ölkə ərazisində investorları tənzimləmək məqsədilə dövlət aşağıdakı üsullardan istifadə edir:
- investisiya layihələrinin ekspertizası, yəni müəyyən bir layihəyə, sənayeyə və ya investisiya proqramına investisiya qoymağın iqtisadi məqsədəuyğunluğunun qiymətləndirilməsi;
- dövlət standartlarına və normalarına, habelə məcburi sertifikatlaşdırma qaydalarına riayət olunmasına nəzarət.

Ən ümumi formada İFDT forma və üsullarına aşağıdakılar daxildir:
- investorların maraqlarının qorunması;
- investisiya fəaliyyəti üçün vergi güzəştlərinin müəyyənləşdirilməsi;
- dövlət vəsaitlərinin və mənzil tikintisinin maliyyələşdirilməsinin digər büdcədənkənar mənbələrinin istifadəsinin genişləndirilməsi;
- investisiya fəaliyyətinin güzəştli şərtlərlə reallaşdırılması;
- bələdiyyələr tərəfindən reallaşdırılan investisiya layihələrinin hazırlanması, təsdiq edilməsi və maliyyələşdirilməsi;
- maliyyə-kredit siyasətinin reallaşdırılması;
- qiymət siyasəti və s [3, s.14].

Ümumiyyətlə, dövlət müxtəlif vasitələrdən istifadə etməklə investisiya fəaliyyətinə təsir göstərə bilər: pul və vergi siyasəti; istehsalın yenidən qurulmasına və texniki cəhətdən yenidən təchiz edilməsinə sərmayə qoyan müəssisələrə müxtəlif vergi güzəştlərinin verilməsi; amortizasiya siyasəti; investisiya cəlbediciliyi məqsədilə münbit şəraitin yaradılması; elmi-texniki siyasət və s.

Dövlət tərəfindən investisiya fəaliyyətinə təsir dərəcəsindən asılı olaraq bütün metodlar passiv və aktiv bölünə bilər. Passiv metod sahibkarların indikativ investisiya planlarını hazırlamaqla ən səmərəli investisiya variantlarını seçməyə istiqamətləndirməsi ilə, aktiv metod isə birbaşa dövlət investisiyaları ilə, habelə dövlət orqanları tərəfindən vergi və büdcə tədbirlərinin görülməsi ilə əlaqədardır.

İnvestisiya fəaliyyətinin təşkili və tənzimlənməsi vasitəsilərindən biri kimi müqavilə tənzimləməsi çıxış edir. İnvestisiya fəaliyyətinin müqavilə ilə tənzimlənməsi bu fəaliyyət zamanı yaranan ictimai münasibətlərə hüquqi vasitələrlə müəyyən təsir kimi çıxış edir. İnvestisiya müqavilələrinin bağlanması və mühüm şərtlərin razılaşdırılması zamanı investisiya fəaliyyətinin müqavilə tənzimlənməsinin aktiv elementləri formalaşır [2, s.60].

Beləliklə, İFDT investorun fəaliyyət göstərdiyi qanunvericilikdə, təşkilati-hüquqi formalarda təsbit edilmiş dövlət yanaşmalarının və qərarlarının məcmusudur. İFDT-nin məzmunu dövlət orqanlarının qarşısında duran məqsədlərlə, habelə DİS-də malik olduğu vasitə və alətlərlə müəyyənləşdirilir.

## Ədəbiyyat


1. Ким, Г. Л. Методы государственного регулирования иностранных инвестиций / Г.Л.Ким // – 2014. – № 8-2(50). – С. 9-14
2. Мингазова, А. М. Механизм правового регулирования инвестиционной деятельности / А. М. Мингазова // – 2016. – № 5. – С. 56-64
3. Шушпанова, Е. Ю. Регулирование инвестиционного процесса в экономике / Е. Ю. Шушпанова // – 2016. – № 4-1(41). – С. 31
4. Хамурадов, М. А. Особенности государственного регулирования инвестиционных процессов / М. А. Хамурадов // Экономика и бизнес: теория и практика. – 2022. – № 12-2(94). – С. 214-216



**РЕЗЮМЕ**

**ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА В ОБЛАСТИ РЕГУЛИРОВАНИЯ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ**

***Маммадов И.С.***

***Ключевые слова:*** *инвестиции, инвестиционная деятельность, государственная инвестиционная политика (ГИП), государственное регулирование, налог, кредит*

В статье обосновывается сущность инвестиционной политики и необходимость ее реализации. Исследована роль государства в реализации инвестиционной политики. Объявлены цели и задачи инвестиционной политики государства. Рассмотрены принципы, на которых основывается государство при регулировании инвестиционной деятельности. Обоснована необходимость регулирования инвестиционной деятельности государством, исследованы и классифицированы его формы и методы.



**SUMMARY**

**STATE POLICY IN THE FIELD OF REGULATION OF INVESTMENT ACTIVITY**

***Mammadov İ.S.***

***Key words:*** *investments, investment activity, state investment policy (SIP), state regulation, tax, credit*

The essence of the investment policy and the need for its implementation are substantiated in the article. The role of the state in the implementation of investment policy has been studied. The goals and objectives of the state's investment policy have been announced. The principles on which the state is based in the regulation of investment activity are considered. The necessity of regulation of investment activity by the state is substantiated, its forms and methods are investigated and classified.


# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ İNNOVASİYAYÖNÜMLÜ İNVESTİSİYA PROBLEMLƏRİNƏ METODOLOJİ YANAŞMA


**Mustafayeva Raminə Ramiz qızı, Abbasova Yeganə Əziz qızı, Qəmbərova Ruhiyyə Məntiq qızı**

*Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan*

*ruhiyye.qemberova@mail.ru*



***Açar sözlərlər:*** *kənd təsərrüfatı, investisiya qoyuluşu, innovasiya yönümlü, səmərəlilik*


**Giriş.** Daha müasir istehsal vasitələrinin istifadəsi investisiyalar olmadan mümkün deyil. İnnovasiya-investisiya prosesinin konsepsiyası kənd təsərrüfatının fəaliyyətinin inkişafı, dəyişməsi, təkmilləşdirilməsi konsepsiyası ilə əlaqələndirilir.

Kənd təsərrüfatı istehsalında innovasiya-investisiya prosesinin zəruriliyini A.İ. Çuprov belə ifadə etmişdi: "Sərvət insanların istifadəsi üçün yararlı olan xam məhsulların məcmusundan ibarətdir. Belə məhsullar cəmiyyətə yalnız kənd təsərrüfatı tərəfindən verilir. Yalnız kənd təsərrüfatı istehsalında milli sərvətə əlavə olunan istehsal xərclərinin ödənilməsindən sonra müəyyən artıqlıq yaranır ki, bu da xalis gəlir kimi qeyd edilir və milli sərvətə əlavə olunur" [9, s. 369]. A.Smitin "Kənd təsərrüfatına kapital qoyuluşu

cəmiyyət üçün ən faydalı kapital qoluşudur" fikirləri isə bir daha onu deməyə əsas verir ki, innovasiyalı istehsal bu sahənin inkişafında vacib şərtlərdəndir [7, s. 369].

Əlbəttə ki, innovasiya və investisiya prosesinin həyata keçirilməsinin yekun mərhələsində kənd təsərrüfatı müəssisələri üçün ümumi vəzifə müsbət maliyyə nəticəsi əldə etməkdir. F.Hayek bazarın idarə edilməsinin əsas məqsədini hər bir innovativ sahibkar üçün prioritet olan mənfəətin maksimum olmasında görür və iddia edir ki, "mənfəət arzusu resurslardan səmərəli istifadə etməyə imkan verir" [8, c. 203].

Kənd təsərrüfatı istehsalı ilə bağlı innovasiyaları aşağıdakı istiqamətlərdə müəyyənləşdirmək olar: texnoloji və texniki; bitki növləri; heyvan cinsləri; gübrə növləri; bitki və heyvanların mühafizəsi vasitələri; heyvanların profilaktikası və müalicəsi metodları; istehsalın təşkili, maliyyələşdirilməsi və kreditləşdirilməsi formaları; kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasartırmasında yeni yanaşmalar, elmi-tədqiqatların apaılması metodları və s.

Kənd təsərrüfatı sahəsində reallaşdırıla biləcək potensial imkanları adekvat qiymətləndirmək üçün əsasən regionlarımızın innovasiya və investisiya vəziyyəti, təsərrüfat subyektlərinin investisiya fəaliyyəti, tətbiq edilən innovativ texnologiyaların sayını və səmərəliliyini bilmək və qiymətləndirmək lazımdır. Bu zaman kənd təsərrüfatının innovasiya və investisiya inkişafının şərtlərini və amillərini müəyyənləşdirməklə istehsalın iqtisadi səmərəliliyinin və dayanıqlığının artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə dair qərarlar qəbul etmək bir o qədər məqbul sayılacaq.

**Kənd təsərrüfatında innovasiya yönümlü investisiya qoyuluşlarına metodoloji yanaşma.** Bəzi iqtisadçılar innovasiya prosesinin inkişafına təsir edən bir sıra amilləri fərqləndirirlər: siyasi və iqtisadi konyukturanı; bazar infrastrukturunun inkişafını; elm və texnologiya siyasətini; investisiya mühitini.

İnnovasiya və investisiya cəlbediciliyi amillərinin təsir istiqamətini müəyyən etmək üçün kənd təsərrüfatının inkişafının əsas parametrlərinin vəziyyəti və dinamikasının tədqiqini aparmaq zəruridir. Bundan başqa kənd təsərrüfatı istehsalında baş verən proseslərin və hadisələrin qeyri-sabitliyi və nizamsızlığı qaçılmaz olaraq innovativ inkişaf proseslərinə təsir göstərir ki, bu da onun tarazlıq mövqeyinin dəyişməsinə səbəb olur. Odur ki, kənd təsərrüfatı istehsalının innovativ inkişaf səviyyəsini qiymətləndirərkən onun tarazlığının iki əsas vəziyyətini ayırd etmək lazımdır:

- kənd təsərrüfatı istehsalının sabit balansı (o zaman sabit hesab oluna bilər ki, kənd təsərrüfatı istehsalçıları istehsal-təsərrüfat sistemi kimi öz inkişafının verilmiş parametrlərinə uyğun müstəqil şəkildə həyata keçirə bilsin);
- kənd təsərrüfatı istehsalının qeyri-sabit balansı.

İnnovasiya və investisiya fəaliyyəti arasında sıx əlaqə olmasına baxmayaraq, kənd təsərüfatı sahəsində həyata keçirilən innovasiya və investisiya layihələri arasında bir sıra fərqlər mövcuddur. Bu fərqlər innovasiyaların effektivliyinin vahid qiymətləndirilməsinə imkan vermir [3,10]. Əsas fərqlər aşağıdakılardır:

a) innovasiyalar əsasən strateji xarakter daşıyır və investisiyalar daha uzun müddətdən sonra gəlirlilk səviyyəsinə malikdir;

b) risklərin yüksək səviyyəsi, belə ki, innovasiyalı - investisiyaların icrası zamanı risklər digər sahələrə nisbətən daha gözlənilməzdir;

c) innovativ fəaliyyətin nəticəsi çox vaxt əqli mülkiyyətin yaradılmasından asılıdır;

d) innovasiyaların inkişafı və onların spesifik maliyyə nəticələri ehtimal və vençur xarakterlidir.

Kənd təsərrüfatı istehsalının aparılmasının konkret obyektiv şərtləri (mövsümilik və hava şəraitindən asılılıq) səbəbindən yüksək risklərlə əlaqəli olduğu xüsusiyyətlərini nəzərə alaraq, aqrar sahədə innovasiyaların effektivliyinin qiymətləndirilməsi aşağıdakılardan istifadə etməklə aparılması məqsədəuğundur:

1) hərtərəfli, innovativ layihənin həyata keçirilməsindən əldə edilən birbaşa iqtisadi effektlə yanaşı, onun digər növlərinin uçotunun təmin edilməsi;

2) kənd təsərrüfatı istehsalına xas olan qarşılıqlı əlaqəli amillərin nəzərə alınması;

3) həm iqtisadi, həm də digər növ innovasiyaların səmərəliliyinin qiymətləndirilməsinə müxtəlif yanaşmaları birləşdirən polikriteriyalar;

4) rəqabətədavamlı olmayan məhsulların istehsalı riskinin və onların bazarda tələbatının olmamasının azaldılması təsirinin qiymətləndirilməsini nəzərdə tutan risklərin minimuma endirilməsi.

Kənd təsərrüfatında innovativ layihələri qiymətləndirərkən onların effektivliyi haqqında düzgün qərar qəbul etmək üçün bir deyil bir çox meyyardan istifadə etmək lazımdır. Məhz belə olduqda innovativ layihənin həyata keçirilməsinə investisiya qoyuluşunun məqsədəuyğunluğunu müəyyən etməyə imkan verəcək. Məsələn, mütləq, nisbi və müvəqqəti meyarlara uyğun olaraq həm statik, həm də dinamik metodlardan istifadə etməklə bir sıra göstəricilərin qiymətləndirilməsi vacıbdir. Statik metodlardan:

- İnnovasiyalar üçün sadə geri ödəmə müddəti (PBP, PayBack Period);

- İnnovasiyanın səmərəliliyi nisbəti və ya mənfəətin uçot dərəcəsi (Accounting Rate of Return, ARR);

Dinamik metodlar:

- Xalis diskontlaşdırılmış gəlir (Net Present Value, NPV);
- İnnovasiyaların rentabellik indeksi (Profitability Index, PI);
- Daxili gəlirlik norması (Internal Rate of Return, IRR)
- Modifikasiya edilmiş daxili gəlir dərəcəsi (Modified Internal Rate of Return, MIRR).

Bundan əlavə, aqrar sektorda həyata keçirilən bütün innovativ layihələr ikinci dərəcəli və ya gizli sosial və ekoloji nəticələrə malik olduğundan, onların sosial və ekoloji effektivliyini də qiymətləndirmək lazımdır. Buna görə də, innovasiyaların səmərəliliyini qiymətləndirmək üçün bütövlükdə bütün prosesi deyil, innovasiya layihəsinin həyata keçirilməsinin hər mərhələsində innovasiya fəaliyyətindən ən vacib təsirləri xarakterizə edən müxtəlif göstəricilərdən istifadə edilməlidir.

İnnovasiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin eyni dərəcədə vacib obyekti innovasiya subyektinin - kənd təsərrüfatı müəssisəsinin innovasiya potensialıdır ki, bu da onun qarşıya qoyulmuş innovasiya məqsədlərinə nail olunmasını təmin edən vəzifələri yerinə yetirmək qabiliyyətini və ya innovasiyanı həyata keçirməyə hazırlıq ölçüsünü ifadə edir [6].

İnnovasiya subyektinin innovativ potensialını müəyyən edərkən aşağıdakı yanaşmaları rəhbər tutmaq lazımdır:

1) bir əlamət kimi innovasiya potensialı latentdir (gizlidir), buna görə də onu birbaşa müşahidə etmək və ölçmək mümkün deyildir [2].

2) İnnovativ potensial - təzahür səviyyəsi ətraf mühit amillərinin və onun subyektinə daxil olan amillərin məcmu və kumulyativ təsiri ilə əlaqədar olan bir xüsusiyyətdir [5] .

3) İnnovativ potensialın qiymətləndirilməsi yalnız dolayı ölçü metodlarından istifadə etməklə həyata keçirilə bilər ki, bu da onun kəmiyyət və keyfiyyət xüsusiyyətlərini kifayət qədər obyektiv şəkildə əks etdirməlidir.

Resurs potensialı innovativ potensialın ən mühüm tərkib hissəsi kimi sosial tələblərə cavab verən innovativ məhsulların istehsalı üçün müəyyən sosial-iqtisadi formalarda istifadə olunan resurslar məcmusudur [1]. Bu, kənd təsərrüfatı istehsalçılarının təkcə bu və ya digər növ ehtiyatların mövcudluğu baxımından deyil, həm də təsərrüfat subyektinin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş təyinatını və təşkilini xarakterizə edən sintetik göstəricidir.

İnnovasiya potensialının resurs komponenti həm də innovasiya prosesində hər bir fərdi resursdan səmərəli istifadə imkanlarından asılıdır və innovasiya fəaliyyətinin intensivləşdirilməsi resurs komponentindən istifadənin səmərəliliyini, deməli, bütövlükdə innovasiya potensialını artırmağa imkan verir.

**Təhlillər.** Ümumiyyətlə, diaqram məlumatlarından göründüyü kimi kənd təsərrüfatının ÜDM-də çəkisi müqayisə olunan illər üzrə artımla müşahidə olunur. Belə ki, ÜDM-də kənd təsərrüfatının payı 2020-ci ilə nisbətən 5,9 % artaraq, 4891,0 milyon manatdan 2021-ci ildə 5456,8 mln. manat olmuşdur.

Tədqiqat və işləmələrə çəkilən daxili xərclərin strukturunda kənd təsərrüfatının payı 2016-2021-ci illər üzrə artım dinamikası göstərmişdir. 2021-ci ildə tədqiqat və işləmələrə çəkilən daxili xərclərin strukturunda kənd təsərrüfatının payı 17 % olmuşdur. Bu da əvvəlki ilə nisbətən, 70 %-ə yaxın artmışdır.




***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları.*

**Şəkil 1. Tədqiqat və işləmələrə çəkilən daxili xərclərin strukturunda kənd təsərrüfatının payı (min man.)**

Qeyd etdiyimiz kimi kənd təsərrüfatında risk amili yüksək olduğu üçün innovasiya yönümlü investisiya qoyuluşlarının iqtisadi səmərəliliyinin qiymətləndirilməsi mübahisəli və problemli aspektləri ilə fərqlənir. Bu sahədə həyata keçirilən innovasiyanın səmərəliliyinin təhlili planlı və faktiki göstəricilərin müqayisəsi ilə həyata keçirilir. Qarşıya qoyulan məqsədlərə tam nail olunarsa və kəmiyyət iqtisadi göstəriciləri nəzərdə tutulanlara uyğun gələrsə, innovasiya yönümlü investisiya qoyuluşları səmərəli hesab olunur.

Şəkil 1-də investisiyaların kənd təsərrüfatında ümumi məhsul istehsalına təsiri verilib. Göründüyü kimi 2016-2021-ci illər üzrə kənd təsərrüatında əsas kapitala yönəldilən investisianın həcmi dinamik olaraq artmışdır. Bu isə ölkə üzrə məhsul istehsalının dinamik artımında özünü göstərmişdir. Belə ki, 2021-ci ildə məhsul istehsalı 2016-cı ilə nisbətən təqribən 1,6 dəfədən çox artaraq, 5632,4 mln. manatdan 9163,4 mln. manat olmuşdur.




***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları.*

**Şəkil 2. İnvestisiyaların kənd təsərrüfatında ümumi məhsul istehsalına təsiri**

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ölkənin nəzərə çarpacaq iqtisadi artımını təmin edən innovasiyaların böyük əksəriyyəti irimiqyaslı elmi-tədqiqat və təcrübə-konstruktor işləri aparan bir qrup iri müəssisələr tərəfindən yaradılır, ardınca yeni texnologiyaların və yarım hazır məhsulların yayılması prosesi həyata keçirilir. Lakin heç də bu o demək deyil ki, qərb ölkələrinin innovasiya proseslərində böyük biznesin dominant mövqeyi orta və kiçik kənd təsərrüfatı müəssisələrinin yox olmasına və ya onların əhəmiyyətinin azalmasına səbəb olur.

Beləliklə, innovativ artım nöqtələrinin formalaşması daha böyük müəssisələrdə mövcud iş şəraitində daha yüksək istehsal və iqtisadi səmərəlilik göstəricilərinə nail olmaq qabiliyyətinə görə, bu da onlara istehsalata innovasiyaların tətbiqi və istifadəsi imkanını və məqsədəuyğunluğunu təmin edir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə (OECD) tövsiyə olunan innovasiya sahəsində göstəricilərin tərkibinə patentləşdirmə, texnoloji tədiyyə balansı, yüksək texnologiyalı kənd təsərrüfatı sahələrində məhsul istehsalı, innovativ fəaliyyəti sahəsində göstəriciləri daxildir. Azərbaycanda kənd təsərrüfatının innovativ potensialının vəziyyəti ilə bağlı rəsmi statistikanın mövcud məlumatları yoxdur. Belə ki, kənd təsərrüfatında innovasiya-investisiya fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirməsi sinergetik yanaşma tələb edir. Bu həm istehsala və texnoloji prosesə qoyulan resurslardan daha çox gəlir əldə etməyi təmin edən innovativ inkişafın optimal istiqamətlərinin seçilməsini, həm də kənd təsərrüfatı istehsalında innovasiyaların dinamik şəkildə təşviqini nəzərdə tutur.

Kənd təsərrüfatı müəssisələri üzrə əmək məhsuldarlığının təhlili hər bir sahənin texniki-texnoloji vəziyyətinin göstəricisidir. Biz burada əsasən müəyyən maddiləşmiş və canlı əmək sərfini, xərcləri qeyd edə bilərik. Müəyyən maddi, əmək və maliyyə xərcləri hesabına yüksək təsərrüfat nəticələrinə nail olunması səmərəliliyi ifadə edir. Bu baxımdan məhsuldarlğın yüksəldilməsi üçün istehsalın intensivləşdirilmə səviyyəsi və əmək məhsuldarlığının araşdırılması investisiya-innovasiya fəaliyyətinin qiymətləndirilməsində vacibdir. Ölkə üzrə kənd təsərrüfat müəssisələrində əmək məsarifi 2016-2021-ci illər üzrə iribuynuzlu mal-qara istisna olmaqla, artımı görürük. Əmək məhsuldarlığının artması nəticəsində məhsul istehsalına sərf olunan canlı əmək azalır ki, bunu da müsbət hal kimi qiymətləndirmək olar.

*Cədvəl 1.*

**Kənd təsərrüfatı müəssisələrində məhsulların bir sentnerinə əmək məsarifi, adam-saat**

| Göstəricilərin adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 12,9 | 9,6 | 8,8 | 9,5 | 8,5 | 9,4 |
| iribuynuzlu mal-qara | 249,9 | 210,9 | 231,5 | 213,7 | 198,3 | 185,8 |
| Quş | 125,3 | 146,9 | 224,5 | 131,0 | 108,6 | 112,3 |
| Süd | 44,3 | 43,4 | 37,4 | 34,5 | 26,3 | 33,2 |
| Yumurta (min ədədlə) | 45,4 | 7,3 | 23,6 | 25,0 | 13,6 | 15,0 |

***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları.*

Hazırda kənd təsərrüfatı müəssisələrinin, eləcə də sahibkalıq təsərrüfatlarının rentabelliyinin dəyəri onların dövlət dəstəyi səviyyəsindən çox asılıdır. İstehsalın rentabelliyi innovasiya-investisiya fəaliyyətini sürətləndirən əsas amillərdəndir. Ölkədə kənd təsərrüfatı iqtisadiyyatın ən mühüm sahələrindən olmasına baxmayaraq digər sahələrlə müqayisədə texnoloji dəyişikliklərin maliyyələşdirilməsi üçün daha zəif resurslarla təmin edilib. Bu baxımdan kənd təsərrüfatının iqtisadiyyatın digər sahələrində mütərəqqi texnoloji dəyişikliklərin maliyyələşdirilməsini təmin edən əsas donor rolunda dövləti görürük.

Kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyini xarakterizə edən bəzi göstəricilərin dinamikasına nəzər salaq (cədvəl 2). 2016-2021-ci illər arasında 1 ha kənd təsərrüfatına yararlı torpaq sahəsinə düşən ümumi məhsul və 1 nəfər orta illik işçiyə düşən ümumi məhsul uyğun olaraq 49,7% və 41,3% artmışdır.

*Cədvəl 2.*

**Təsərrüfat kateqoriyaları üzrə məhsul satışının rentabelliyi, faizlə**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı müəssisələri ürə** | | | | | | |
| Bitkiçilik məhsulları üzrə | 43,5 | 25,5 | 40,4 | 35,7 | 29,2 | 51,7 |
| Heyvandarlıq məhsulları üzrə | 11,8 | 8,0 | 5,9 | 3,4 | 9,5 | 8,5 |
| **Fərdi sahibkar təsərrüfatları üzrə** | | | | | | |
| Bitkiçilik məhsulları üzrə | 61,8 | 49,9 | 36,6 | 38,0 | 30,7 | 37,8 |
| Heyvandarlıq məhsulları üzrə | 46,5 | 51,9 | 61,6 | 50,8 | 59,6 | 42,7 |

***Mənbə:*** *Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları.*

Uyğun olaraq fərdi sahibkar təsərrüfatlarının heyvandarlıq məhsulları üzrə göstəricidən başqa 2016-cı illə müqayisədə 2021-ci ildə bütün təsərrüfat kateqoriyaları üzrə məhsul satışının rentabelliyi artmışdır (cədvəl 3).

Kənd təsərrüfatı istehsalının rentabelliyin aşağı olması əsasən məhsulun yüksək maya dəyəri, onun yüksək material sərfi, eləcə də aşağı əmək məhsuldarlığı ilə müəyyən edilir. Belə ki, kənd təsərrüfatı üçün texnika, enerji, gübrə və digər xidmətlərin qiymətləri kənd təsərrüfatı məhsullarının satış qiymətlərindən daha sürətlə artır.

Onu da qeyd etmək lazımdır ki, kənd təsərrüfatının innovasiya yönümlü inkişafının prioritet istiqamətlərinin həyata keçirilməsi kənd təsərrüfatı istehsalının idarə edilməsinin səmərəli qurulmuş mexanizminə əsaslanmalı və icrasının nəticələrini əks etdirən zəruri inkişaf parametrlərinin əldə edilməsi ilə səciyyələnməlidir.

**Nəticə:** İnnovasiya və investisiya fəaliyyətinin həyata keçirilməsi arasındakı fərqlər onun vahid qiymətləndirilməsinə imkan vermir və inteqrasiya olunmuş, sistemli, polikriteriyalı yanaşma və risklərin minimuma endirilməsi ilə bağlı yanaşmadan istifadə etməklə innovasiyaların effektivliyinin müəyyən edilməsinə differensial yanaşma tələb edir.

Kənd təsərrüfatı istehsalçılarının innovativ potensialı innovativ fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi üçün mühüm obyektdir və daxili resurs və məhsuldar komponentlərdən ibarət kompleksdir. Eyni zamanda, daxili komponent innovasiya subyektinin resursları cəlb etmək və həm innovativ ideyalar istehsal edən elmi sfera, həm də hazır innovativ məhsulu istehlak edən bazarla inteqrasiya etmək qabiliyyətini müəyyən edir, resurs komponenti isə onu səciyyələndirir. İnnovasiyaların həyata

keçirilməsi üçün müxtəlif növ resurslardan səmərəli istifadənin mövcudluğu və təşkili səviyyəsi qiymətləndirilməlidir.

Kənd təsərrüfatının innovativ inkişafına dövlət dəstəyinin əsas istiqamətlərinin tətbiqini intensivləşdirmək lazımdır, xüsusən: idarəetmə orqanlarının inzibati-idarəetmə funksiyalarından innovativ fəaliyyətə istiqamətləndirilməsi; elm və texnikanın nailiyyətlərinin həyata keçirilməsində istehsalçılara kömək etmək üçün innovasiya prosesinin bütün təşkilati formalarının fəaliyyətini stimullaşdırmaq; informasiya və konsaltinq xidmətinin inkişafı; kadrların yenidən hazırlanmasının təşkili; kənd təsərrüfatının innovativ inkişafı üçün mənəvi və iqtisadi həvəsləndirmə sisteminin işlənib hazırlanması və həyata keçirilməsi; məqsədli dövlət, sahə və regional elmi-texniki proqramların həyata keçirilməsi və s.

## Ədəbiyyat


1. Бердникова, Л. Ф. Ресурсная составляющая инновационного развития современной организации / Л. Ф. Бердникова // Вектор науки ТГУ. – 2015. – № 1 (31). – С. 65–69.
2. Гуреев, П. М. Инновационный потенциал: проблемы определения и оценки / П. М. Гуреев, В. Н. Гришин // Инновации. – 2017. – № 4 (222). – С. 89–92. 2)
3. Державцев, М. Анализ показателей эффективности инвестиционного проекта / М. Державцев // Молодой ученый. – 2017. – № 6 (140). – С. 239–242.
5. Карапейчик, И. Н. Экономическая теория потенциалов: объект, предмет и понятийный аппарат / И. Н. Карапейчик // Бізнес Інформ. – 2014. – № 3. – С. 71–76.;
6. Оценка эффективности инноваций и инновационных проектов [Электронный ресурс] / Полес. гос. ун-т. – Режим доступа: https://elib.psu.by/bitstream/123456789/15727/9/Тема%208.pdf. – Дата доступа: 13.06.2022.
7. Смит А. Исследования о природе и причинах богатства народов. Сер.: Антология экономической мысли. М.: Эксмо, 2009. 956 с.
8. Хайек Ф. Пагубная самонадеянность. Ошибки социализма / пер. с англ. М.: Новости, Catallaxy, 1992. 304 с.
9.Чупров А.И. История политической экономии. 8-е изд. М.: Издательство М. и С. Сабашниковых, 1918. 224 с. С. 118.
10. Чабатуль, В. Анализ методов оценки эффективности инвестиционно-инновационной деятельности в аграрной сфере / В. Чабатуль, О. Азаренко, А. Андрющенко // Аграр. экономика. – 2020. – № 9. – С. 3–15.
11. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı-https://www.stat.gov.az/source/agriculture/


### РЕЗЮМЕ

### МЕТОДОЛОГИЧЕСКИЙ ПОДХОД К ПРОБЛЕМЕ ИННОВАЦИОННОГО ИНВЕСТИРОВАНИЯ В СФЕРЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

***Мустафаева Р.Р., Аббасова Е.А., Гамбарова Р.М.***

***Ключевые слова:*** *сельское хозяйство, инвестиции, инновационность, эффективность*

Исследованы необходимость и цели оценки экономической эффективности инновационно-ориентированных инвестиций в сельское хозяйство. Рассмотрены пути повышения экономической эффективности и устойчивости производства путем определения условий и факторов инновационно-инвестиционного развития сельского хозяйства. Определены методы оценки экономической эффективности инновационно-ориентированных инвестиций в сельское хозяйство. Несмотря на тесную взаимосвязь инновационной и инвестиционной деятельности, существуют и различия. Учитывая изложенное, мы попытались исследовать отдельные пути повышения эффективности инноваций. Мы попытались оценить экономическую эффективность инновационно-ориентированных инвестиций в сельское хозяйство Азербайджана. Из-за отсутствия данных оценка производилась косвенно. В этом направлении оценивалось влияние инвестиций на общий объем производства сельскохозяйственной продукции в период с 2016 по 2020 год. При оценке инвестиционно-инновационной деятельности был проанализирован и соответствующим образом оценен показатель затрат на оплату труда. Проанализирована и оценена динамика некоторых показателей, характеризующих экономическую эффективность производства в сельском хозяйстве и рентабельность реализации продукции по категориям хозяйств. В итоге был получен результат по анализу.

### SUMMARY

### METHODOLOGICAL APPROACH TO THE PROBLEM OF INNOVATIVE INVESTMENT IN AGRICULTURE IN AZERBAIJAN

***Mustafayeva R.R., Abbasova Y.A., Gambarova R.M.***

***Key words****: agriculture, investment, innovation-oriented, efficiency*

The necessity and goals of evaluating the economic efficiency of innovation-oriented investments in agriculture have been investigated. Ways to increase the economic efficiency and sustainability of production were considered by determining the conditions and factors of innovation and investment development of agriculture. Methods for evaluating the economic efficiency of

innovation-oriented investments in agriculture have been defined. Despite the close relationship between innovation and investment activity, there are also differences. Taking into account the mentioned, we have tried to investigate the single ways of innovation effectiveness. We tried to evaluate the economic efficiency of innovation-oriented investments in agriculture in Azerbaijan. Due to the lack of data, the estimation was done indirectly. In this direction, the impact of investments on the total production of agricultural products between 2016 and 2020 was evaluated. In the assessment of investment-innovation activity, the labor cost indicator was analyzed and evaluated accordingly. The dynamics of some indicators characterizing the economic efficiency of production in agriculture and the profitability of product sales by farm categories were analyzed and evaluated. In the end, the result according to the analysis was obtained.

## BEYNƏLXALQ KREDİT MÜNASİBƏTLƏRİ VƏ ONLARIN TƏNZİMLƏNMƏSİ YOLLARI

**Nəcəfova Çiçək Məhəmməd qızı**
*Sumqayıt Dövlət Universiteti, Bakı, Azərbaycan*
*chichak64@mail.ru*

***Açar sözlər**: beynəlxalq kredit, rəqabətqabiliyyətlilik, kredit valyutası, kredit kapitalı, qısamüddətli kredit*

Beynəlxalq ticarət istehsal prosesinin üst-üstə düşməməsi və müxtəlif məhsullara müraciət, eləcə də, ixracatçıların öz idxalatçılarına güzəştli ödəmə şərtlərinin təqdim olunması, öz məhsulunun rəqabətqabiliyyətliyinin yüksəldilməsinə can atması səbəbindən hər zaman kreditlə əlaqədar olmuşdur. Müasir şəraitdə xarici iqtisadi fəaliyyətin kreditləşdirilməsinin həcmi və formaları ölçüyəgəlməz dərəcədə artmışdır.

Beynlxalq kredit – beynəlxalq iqtisadi münasibətlər sistemində kredit kapitalının hərəkəti olaraq, geri qaytarılma, təxirəsalınmazlıq, təminat və faizlərin ödənilməsi şərtləri ilə valyuta və əmttəə resurslarının verilməsi ilə bağlıdır.

Beynəlxalq kredit münasibətlərinin iştirakçıları özəl şirkətlər, kommersiya bankları, dövlət qurumları, hökumətlər, kreditor və borcalan kimi çıxış edən beynəlxalq və regional valyuta və maliyyə institutlarıdır. Ölkələr arasında kredit kapitalının köçürülməsi vasitəçilərin köməyi ilə və ya onların iştirakı olmadan həyata keçirilə bilər.

Borc kapitalının hərəkəti ölkələr arasında vasitəçilərin köməyi ilə və ya birbaşa həyata keçirilir. Vasitəçi kimi iri milli və transmilli banklar, beynəlxalq və regional valyuta-kredit və maliyyə təşkilatları çıxış edirlər.

Kreditin mahiyyətini onun funksiyaları müəyyən edir. Beynəlxalq kreditin aşağıdakı funksiyaları vardır:

- Ölkələr arasında geniş istehsal tələbinin təmin olunması üçün kredit kapitalının yenidən bölgüsü. Bu yolla kredit milli gəlirin orta gəlirə daxil olmasını təmin edir, onun həcmini artırır;
- Kredit vəsaitlərinin istifadəsi yolu ilə (tratt, veksel, çek, köşürmə və s.) beynəlxalq hesablar sistemində xərclərə qənaət, nagdsız hesablaşmaların inkiaşafı və sürətlənməsi;
- Xarici kreditdən istifadə etmək yolu ilə kapitalın təmərküzləşməsinin sürətlənməsi;
- İqtisadiyyatın tənzimlənməsi.

Beynəlxalq kredit şəraitində kreditin valyutası və ödəmə valyutası, məbləği, müddəti, istifadə şərtləri və dəyərin ödənilməsi, təminat növü, risklərdən sığortalanma üsulları kimi anlayışlar meydana çıxır [1].

**Kredit valyutası və ödəmə valyutası**. Kreditin valyutası kredit müqaviləsinin tərəfləri tərəfindən kredit verildikdə müəyyən edilən valyutadır. Onların seçiminə sabitlik dərəcəsi, faiz dərəcələrinin səviyyəsi, beynəlxalq hesablaşma təcrübəsi və inflyasiyanın dərəcəsi daxil olmaqla bir çox amillər təsir göstərir. Beynəlxalq kreditlərin valyutası milli vahidlər, avrovalyuta və ya beynəlxalq valyuta vahidləri ola bilər.

**Ödəniş valyutası** – kreditin ödənildiyi valyuta kreditin valyutasından fərqli ola bilər. Belə hallarda "güzəştli kredit" verilə bilər. Kredit verənin valyutasında verilmiş kreditlər borcalanın ölkəsinin valyutası ilə ödənilir.

**Kredit məbləği** - borcalanlara mal və ya pul şəklində verilən kredit kapitalının bir hissəsidir. Bu kommersiya müqaviləsində qeyd edilməlidir. Bank kreditinin (kredit xəttinin) məbləği kredit müqaviləsi və ya pul mübadiləsi ilə müəyyən edilir. Kreditlər adətən müxtəlif şərtlərlə paylar (tranşlar) şəklində verilir.

Beynəlxalq krediti müxtəlif əlamətlərə görə təsnifləşdirmək olar. Beynəlxalq kreditin formalarının təsnifləşdirilməsinin ən prinsipial və çox istifadə olunan əlaməti kreditor əlamətidir. Şəkildə beynəlxalq kreditin formaları göstərilmişdir.




**Şəkil 1. Beynəlxalq kreditin formaları**

Beynəlxalq kreditlərin müddəti dünya bazarında mühüm rəqabət vasitəsidir. Bu, kreditin məqsədi, oxşar kreditlər üzrə tələb və təklifin nisbəti, müqavilənin ölçüsü, ölkənin qanunları, ənənəvi kreditləşmə təcrübəsi və dövlətlərarası müqavilələr kimi bir çox amillərdən asılıdır. Kreditin etibarlılığını müəyyən etmək üçün ödəmə müddəti və orta müddət mövcuddur. Beynəlxalq kredit münasibətləri, eləcə də valyuta münasibətləri təkcə bazara deyil, həm də proteksionizm və şərtlərin liberallaşdırılması yolu ilə dövlət tənzimlənməsinə tabedir. Beynəlxalq kredit münasibətlərinə dövlət müdaxiləsinin dərəcəsi müxtəlifdir, lakin əksər ölkələr üçün mənzərə eynidir. Ölkələr beynəlxalq kredit və maliyyə münasibətlərində kreditor, donor, zamin və borcalan kimi fəal iştirak edirlər. Dövlət milli büdcədən toplanan milli gəlirin bir hissəsindən istifadə edərək başqa ölkələrə dövlət və ya qarışıq kreditlər, subsidiyalar və yardımlar verir. Amerika Birləşmiş Ştatlarına xas olan ikitərəfli və çoxtərəfli birbaşa dövlət kreditləşməsinin əsası keçən əsrin 60-cı illərinə təsadüf edir. Hazırda dövlət kreditləri əsasən, inkişaf etməkdə olan ölkələrə subsidiyalar da daxil olmaqla yardım şəklində verilir.

Dünya təcrübəsindən göründüyü kimi, dövlətlər şirkətlərin xarici iqtisadi fəaliyyətini subsidiyalar, kreditlər, vergi güzəştləri, gömrük güzəştləri, zəmanətlər, faiz subsidiyaları və s. bonifikasiya (banklara ixrac kreditləri üzrə bazar faiz dərəcəsi ilə güzəştli faiz dərəcəsi arasındakı fərqin dövlət büdcəsi hesabına ödənilməsi) vasitəsilə genişləndirir. Dövlət, ixracatçıları bəzi vergilərin ödənilməsindən azad etməklə, ixrac olunan malların rəqabətqabiliyyətliliyini artırmaqla onların qiymətinin azaldılmasına nail olur [2].

İxracın stimullaşdırılması üçün dövlət büdcəsi hesabına fərdi firmalar və bankalara aşağı faizlə ixrac kreditinin güzəştləri tətbiq olunur. Dövlət həmçinin, ixrac kreditləşməsinin vaxtını uzadır, kredit götürülməsi prosedurlarını yüngülləşdirir və sadələşdirir. Xarici kreditlərin imtiyazlı şərtləri hətta ölkədələrdə kredit və valyuta məhdudiyyətləri olduğu hallarda da saxlanmışdır. Milli ixracın genişləndirilməsi üçün dövlət və qeyri-dövlət ixrac-idxal (daxili ticarət) bankları, hansı ki, daxili iqtisadi kreditləşmə və sığorta əməliyyatları həyata keçirirlər, fərdi bankların ixrac krditlərinə zəmanət verirlər. Belə xüsusiləşmiş bankların yaradılması ixracatçılara kreditlərin əlçatan olmasını təmin edir ki, qiymət, keyfiyyət və xidmət sahəsində rəqabət vasitəsi rolunu oynayır. İdxal-ixrac banklarının məqsədi xüsusi kapitalın fəaliyyətini artırmaq və genişləndirmək və ixracı birgə stimullaşdırmaqdır.

**Beynəlxalq kreditin dövlət tənzimlənməsinin formaları.** İqtisadiyyatın beynəlmilləlləşməsi ilə milli tənzimləmə formalarının məhdudluğu arasındakı ziddiyyət beynəlxalq kreditin dövlətlərarası tənzimlənməsinin inkişaf etməsinə gətirib çıxarır və aşağıdakı əsas məqsədləri əhatə edir:

1. Borc kapitalının beynəlxalq hərəkətinin ödəniş balansına, valyuta kursuna, borc kapitalı bazarına təsirinin tənzimlənməsi;
2. Böhran titrəyişlərinə qarşı birgə tədbirlərin işlənib hazırlanması;
3. Müəyyən borcalanlara, əsasən inkişaf etməkdə olan ölkələr, eləcə də, Şərqi Avropa, Rusiya və başqa MDB ölkələrinə münasibətdə kredit siyasətinin razılaşdırılması.

Beynəlxalq kreditin dövlətlərarası tənzimlənməsi müxtəlif formalarda həyata keçirilir:

- xarici kreditlərin və zəmanətlərin koordinasiya şərtləri;
- inkişaf etməkdə olan ölkələrə yardımın həcmi haqqında razılaşma;
- beynəlxalq və regional valyuta-kredit və maliyyə təşkilatlarının fəaliyyətinin reqlamentləşdirilməsi;
- beynəlxalq zirvə toplantıları və s.

Beynəlxalq kreditin dövlətlərarası tənzimlənməsi qısa tarixə malik olsa da, onun rolu günü-gündən artır. Dövlət çalışır ki, dövlət tənzimlənməsini beynəlxalq kredit şərtlərinin bazar tənzimləyicisinə çevirsin. Beynəlxalq kreditin dövlət tənzimlənməsi formalarından biri bankların əsas beynəlxalq fəaliyyət göstəricilərinin aşağıdakı xətt üzrə reqlamentləşdirilməsidir:

- həmin bankların xaricdəki əməliyyatları;
- bankların daxili və xarici əməliyyatlarının qarşlılıqlı nəticələrinin neytrallaşdırılması;
- milli bankların beynəlxalq bank konsorsiumlarında, sindikatlarda iştirakının tənzimlənməsi [3].

Dövlətlər və banklar arasında tənzimlənmənin özünəməxsus bir forması da "centlmen müqaviləsi"dir. Bu qeyri-rəsmi sazişin mahiyyəti ondan ibarətdir ki, adi sazişdən fərli olaraq, centlmen müqaviləsinə əməl edilməməsi adətən yalnız mənəvi nəticələrə səbəb olur. Bu müqavilə yazılı və ya şifahi şəkildə tərtib olunur və öhdəliklərin yerinə yetirilməsi vicdanlılıq prinsipi əsasında olur. Bu müqavilələr ikitərəfli və ya çoxtərəfli hüquqi münasibətlərdə istifadə oluna bilir.

## Ədəbiyyat


1. Международные валютно-кредитные и финансовые отношения / Л.Н. Красавина. – М.: Финансы и статистика; 2002,606с
2. Прокушев Е.Ф. Внешнеэкономическая деятельность, учебник. – М.: Изд-во Дашков и Ко. – М., 2008. – 498 с.
3. Свиридов О.Ю. Международные валютно-кредитные и финансовые отношения: учебное пособие. – М.: Март, 2007.



**РЕЗЮМЕ**

**МЕЖДУНАРОДНЫЕ КРЕДИТНЫЕ ОТНОШЕНИЯ И СПОСОБЫ ИХ РЕГУЛИРОВАНИЯ**

***Наджафова Ч.М.***

***Ключевые слова:*** *международный кредит, конкурентоспособность, кредитная валюта, кредитный капитал, краткосрочный кредит*

Международный кредит, являясь одной из многих форм кредита, считается одной из важных категорий экономических наук и активно изучается практически во всех областях науки. Международный кредит - как движение кредитного капитала в системе международных экономических отношений, связан с предоставлением валютных и товарных ресурсов на условиях возвратности, безотлагательности, гарантии и уплаты процентов. Цель статьи заключается в изучении места и сущности международного кредита в системе международных финансово-кредитных отношений.



**SUMMARY**

**INTERNATIONAL CREDIT RELATIONS AND WAYS OF THEIR REGULATION**

***Najafova Ch.M.***

***Key words:*** *international credit, competitiveness, credit currency, credit capital, short-term credit*

International credit, being one of many forms of credit, is considered one of the important categories of economic sciences and is actively studied in almost all fields of science. International credit - as a movement of credit capital in the system of international economic relations, it is related to the provision of currency and commodity resources under the conditions of repayment, immediacy, guarantee and interest payment. The purpose of the article is to study the place and essence of international credit in the system of international financial and credit relations.

# İNNOVASİYA FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ İSTİFADƏ EDİLƏN TƏDQİQAT ÜSULLARI

**Novruzov Rəşad Elman oğlu**
*Bakı Avrasiya Universiteti, Bakı, Azərbaycan*
Rashadnovruzov9@yahoo.com

***Açar sözlər:*** *innovasiya, idarəetmə, qiymətləndirmə, iqtisadi səmərəlilik, iqtisadi metodlar, iqtisadi meyarlar*

**Məsələnin qoyuluşu.** İqtisadi səmərəlilik baxımından innovasiya fəaliyyətinin qiymətləndirilməsi 2 üsulla – keyfiyyət və kəmiyyət üsulları ilə aparılır. Keyfiyyət tərəfinin nəzərdən keçirilməsi innovasiya fəaliyyətinin qiymətləndirilməsinin başlanğıcı hesab edilir və bir neçə meyarlardan istifadə olunur. Layihənin hər bir meyarının müvafiq olub-olmaması araşdırılır və hər bir kriteriya üçün qiymətləndirilmə aparılır. Yanaşmaların siyahısı hazırlanarkən yeganə olaraq təşkilatın məqsədlərindən, strategiyasından və hədəflərindən axın edənlər, uzunmüddətli planlara yönəldilməlidir. Bununla yanaşı, müəyyən məqsədlər, strategiyalar və vəzifələr baxımından xüsusi olaraq dəyərləndirilir. Layihənin bütün üstünlüklərinin və zəif cəhətlərinin aşkar edilməsində bu üsul spesifik imkana malikdir və ilk dəyərləndirmədə çətinliklər olsa belə, nəzərdə saxlanılması mühüm olan meyarlardan heç biri unudulmur [2].

Layihələrin qiymətləndirilməsi üçün maliyyə, elmi-texniki, istehsal ilə bağlı xarici və ya ekoloji, təşkilatın strategiyası, məqsədləri, dəyərləri və siyasəti kimi meyarlar əsas götürülür. Layihələr təhlil edildikdən sonra onların nəticələrinin meyar siyahılarına uyğunlaşdırmaq zərurəti yarandıqda layihələrin qiymətləndirilməsi aparılır ki, bu da çoxsaylı alternativ layihələri təhlil edərkən vacibdir [3]. Bununla bərabər, qiymətləndirmə keyfiyyət metodları ilə aparıldıqda əldə olunmuş nəticələr yenilikçi bir layihəyə uyğun qərar qəbul etmək üçün kifayət hesab edilmir. Layihənin son anda olan seçimi yalnız xüsusi metodların kantitativ olanları ilə kompleks tətbiqi ilə mümkündür. Kəmiyyət metodlarının xarakteristikası layihə məsrəflərinin və yekunların nisbətini özündə əks etdirən iqtisadi göstəricilər sistemi ilə aparılır. Bu göstəricilərin klassifikasiyası cədvəldə verilmişdir. Statistik metodlar dinamik olanlardan fərqlənir. Bu onunla xarakterizə olunur ki, köhnə ehtimallar eyni anda pul vəsaitlərinin ekvivalentinə bərabərdir, ikincisi, diskontlaşdırma yolu ilə onları bərabər əsaslarla aparır və bununla da müxtəlif pul vəsaitlərinin axınlarının müqayisə olunmasını təmin edir.

Cədvəl 1-dən göründüyü kimi statistik və dinamik üsullarla hesablanan göstəricilər mütləq və nisbi olaraq iki hissəyə bölünür. Mütləq olanlar nəticələrin xərcləri ilə layihənin həyata keçirilməsi ilə bağlı xərclər arasındakı fərqdir. Nisbi olanlar isə layihə nəticələrinin xərc sxemlərinin nisbəti onların əldə edilməsi üçün ümumi xərclərə nisbəti kimi müəyyən edilir [1].

***Cədvəl 1.***

**İnnovasiya fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirməsi meyarları və metodları**

| Metodlar və meyarlar | Statistika | Dinamik |
|---|---|---|
| Mütləq | - Ümumi əldə edilmiş gəlir.<br>- Orta illik gəlir | - İndiki dəyər (NPV)<br>- İllik ekvivalent (annuitet) |
| Nisbi | - Yatırımlar üzrə investisiyaların investisiya effektivliyinə nisbəti.<br>- Müəssisə kapitalının mənfəəti | - Mənfəət indeksi (PI)<br>- İnvestisiya üzrə daxili gəlir (IRR) |
| Müvəqqəti | - Layihənin geri qaytarılma müddəti (qayıtma müddəti) | |

İnnovasiyanın effektivliyini qiymətləndirərkən əsas diqqət ediləsi məqam yenilikdən əldə edilə biləcək gəlirlərin ümumi kütləsi deyil, həm də analoqa nisbətən onun artmasıdır. Bununla bağlı əsasən birinci il (icra müddəti başa çatdıqdan sonra), innovasiyanın mənimsənilməsi, başlanğıc ili (innovasiyanın faydalı ömrünün), faydalı həyat və son ili (yeniliklərin faydalı ömrünün) müəyyənləşdirilməlidir [2].

Maliyyə və iqtisadi göstəricilər təşkilatların, müəssisələrin fəaliyyətlərinin əsas vasitəsi hesab edilir. İnvestorlar sərbəst olaraq bu sistemi innovasiya layihələrinin xüsusiyyətlərindən, menecment qrupunun peşəkarlağından və digər amillərdən asılı olaraq müəyyən edirlər. Bu məsələ daha çox maliyyə menecmenti və sair dəyişikliklərdə göstərilir. Göstəricilər əmtəənin həyat fəaliyyətinin bütün dövrlərini əhatə edir. İnnovativ idarəetmənin təşkilində yaranacaq şirkətlərin fəaliyyətinin retrostruktur tədqiqi əsasında gələcək yönümlü olmaq baxımından ən azı 3-5 illiyə təşkil edilməlidir. Konkret olaraq müəyyən olunmuş dövr

ərzində bazarda rəqabətliyə malik olan əmtəələrə aid informasiyalara əsaslanmalıdır. Mühüm olan göstəricilərin mütləq, nisbi və xüsusi üstünlükləri aydın göstərilməlidir. Mövcud olan göstəricilərin planın bütün bölmələri ilə birləşməsi təmin edilməlidir. Göstəricilər müəssisənin maliyyə fəaliyyətinin bütün bölmələrini özündə əks etdirməlidir [3].

Müasir dövrdə Birləşmiş Millətlər Təşkilatı sənayenin inkişafına görə BMTSİ-nin göstərişlərinə uyğun olaraq xarici praktikada innovasiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi zamanı aşağıdakı göstəricilərdən istifadə edir:

1. Təmiz diskont olunmuş gəlir (TDG)

$$TDG = St = \sum_{t=0}^{T}(Rt - Xt)\frac{1}{(1+E)^t} \qquad (1)$$

T – hesablamanın horizontu. Obyektin silinməsinin həyata keçirilməsi prosesində hesablaşmada addımın nömrəsinə bərabərdir.

St – səmərəlilik; Rt – t hesablama adımında nail olunmuş nəticələr.

2. Gəlirin daxili norması və ya diskontlaşdırma əmsalı

$$R = \frac{NP+P}{I} \cdot 100\% \qquad (2)$$

Mənfəətin norması (R)

NP – xalis gəlir

P – alınmış kapitala görə faiz

I – ümumi investisiya xərci

3. Hərrac kapitalında olan sadə mənfəət norması

$$R = \frac{NP}{Q} \cdot 100\% \qquad (3)$$

Q – hərrac kapitalı

4. Layihənin avtonomluğunun maliyyə əmsalı (Kam)

$$Kam = \frac{C}{Z} \cdot 100\% \qquad (4)$$

C – xüsusi vəsait; Z – borc vəsaitləri

5. Cari ləğvetmə əmsalı (K)

6.

$$K = \frac{Q}{Z} \geq 1 \qquad (5)$$

Qa – layihənin dövriyyə aktivliyinin qiyməti

7. İşin keyfiyyətinin nəticəliyi əmsalı

8.

$$\gamma = \frac{Rc}{\sum_{i=1}^{N} Q - \sum(H1 - H2)} \qquad (6)$$

Rc – seriyalı istehsalatı mənimsəmək üçün qəbul edilmiş, başa çatmış işlərə görə sərf olunma cəmi

Q – ETTKI-nin birinci il üzrə faktiki sərf olunması

N – tədqiq olunan dövrün illərinin sayı

H1 – tədqiq olunan dövrün əvvəlinə dəyər formasında sonlanmamış istehsal

H2 – tədqiq olunan dövrün axırına həmin dəyər [1].

*Cədvəl 2.*

**İnnovasiya fəaliyyətinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsində istifadə olunan üsulların üstünlükləri və mənfi cəhətləri**

| Metodlar | Üstünlükləri | Üstün olmayan cəhətlər |
|---|---|---|
| 1 | 2 | 3 |
| Mətnlərin siyahısı | - layihənin üstün və mənfi cəhətlərini görmək imkanı verir;<br>- Müxtəlif layihələrin müqayisəli təhlilini aparmaq şəraiti yaradır. | - tam olmayan meyarlara görə yan tərəfdə vacib məsələlər qalmaqdadır;<br>- qiymətləndirmələrdə subyektivliyin yüksək payı olması. |
| Ümumi əldə edilmiş mənfəət | - layihədə iştirak etmək istəyən müxtəlif təsərrüfat subyektləri üçün gəlirlilik göstəriciləri hesablana bilər. | - layihələrin iqtisadi cəlbediciliyinin tez və təxminən qiymətləndirilməsi üçün istifadə olunur.<br>- zaman faktorunu nəzərə alnmır |
| Orta illik mənfəət | | |

*Cədvəl 2. (davamı)*

| | | |
|---|---|---|
| İnvestisiya gəlirləri | -sadəlik və aydınlıq<br>- alternativ layihələri ümumi bir göstərici ilə müqayisə etmək imkanı. | - gələcək gəlirlərin dəyərini nəzərə almır;<br>- müqayisə üçün seçilmiş xalis mənfəət bazasından daha çox asılıdır. |
| Mövcud hazırki dəyər | - müxtəlif pul vəsaitlərinin hərəkəti nəzərə alınır<br>- risk faktorunu və qeyri-müəyyənliyini nəzərə almağa imkan verir. | etibarlı endirim faktorunu təyin etməkdə çətinlik |
| Mənfəətlik indeksi | -Layihənin nisbi qazancı | - diskont dərəcəsinin seçilməsindən asılıdır. |
| Layihənin daxili rentabelliyi | - obyektivlik;<br>- riskləri müxtəlif səviyyələrdə olan layihələri müqayisə etmək üçün asanlıqla uyğunlaşdırıla bilər. | - hesablamaların mürəkkəbliyi;<br>- normativ mənfəətin seçilməsində subyektivlik; |
| Ödəniş müddəti | investisiya layihəsinin qiymətləndirilməsi və seçilməsində əsas parametrdir. | - sonuncu gəlirini nəzərə almır<br>- hesablamaların dəqiqliyi tezlikdən asılıdır |

**Nəticə.** Beləliklə, innovasiya fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı deyilənləri yekunlaşdırsaq, aşağıdakı əsas nəticələrə gələ bilərik:

– işğaldan azad olunmuş ərazilərdə innovasiya fəaliyyətində texnologiya və istehsal texnologiyasının tətbiqi nəticəsində istehsal olunan məhsulların və xidmətlərin keyfiyyət xüsusiyyətlərində yenilikləri əks etdirir;

– innovasiya fəaliyyətinin əsas məqsədi yeni məhsulların inkişafı və mövcud məhsulların modernləşdirilməsi üçün mütərəqqi istehsal texnologiyasının alınmasıdır;

– innovasiya fəaliyyətinin əsas məqsədi yenilik prosesinin idarə edilməsi və istiqamətləndirilməsidir və s.

## Ədəbiyat


1. Santon, B ” Technology in production” USA 2010, 361 p.
2. Adair, J. “Managemet and Leadership” London 2004, 242 p.
3. Shane, S. “The Handbook of Technology and Innovation Management” - Case Western Reserve University, 2008, 481 p.



**РЕЗЮМЕ**

**МЕТОДЫ ИССЛЕДОВАНИЯ, ИСПОЛЬЗУЕМЫЕ ПРИ ОЦЕНКЕ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ**

***Неврузов Р.Э.***

***Ключевые слова:*** *инновации, управление, оценка, экономическая эффективность, экономические методы, экономические критерии*

Принимаются масштабные меры в направлении восстановления территорий, освобожденных от оккупации, быстрой интеграции в национальную экономику, обеспечения устойчивого развития, строительства там самой современной инфраструктуры, реставрации культурно-исторических памятников и создания надлежащих условий для достойного проживания. Основная роль проектов, реализуемых в этих рамках, заключается в том, чтобы в короткие сроки превратить эти территории в регион мира и сотрудничества и обеспечить экономическое развитие. Эффективное использование богатого ресурсного и инфраструктурного потенциала в указанных сферах, оживление экономической деятельности на основе государственно-частного партнерства и максимально благоприятной бизнес-среды, обеспечение устойчивого расселения должны поддерживаться мерами, соответствующими долгосрочной политике страны развития на перспективу.



**SUMMARY**

**RESEARCH METHODS USED IN EVALUATION OF INNOVATION ACTIVITY**

***Novruzov R.E.***

***Key words:*** *innovation, management, evaluation, economic efficiency, economic methods, economic criteria*

Large-scale measures are being taken in the direction of restoration of territories freed from occupation, rapid integration into the national economy, provision of sustainable development, construction of the most modern infrastructure there, restoration of cultural and historical monuments and creation of appropriate conditions for decent living. The main role of the projects implemented in this framework is to turn those areas into a region of peace and cooperation in a short period of time and ensure economic development. Effective use of the rich resource and infrastructure potential in the mentioned areas, revitalization of economic activity based on public-private sector partnership and the most favorable business environment, and provision of sustainable settlement should be supported by measures that are consistent with the country's long-term development priorities.

# MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARIN MALİYYƏ İDARƏÇİLİYİ SAHƏSİNDƏ OPTİMAL QƏRARLARIN QƏBULU METODLARI


**Rəhmanova Lalə Rəhman qızı, Piriyeva Nailə Rəhim qızı**

*Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Texniki Kolleci, Sumqayıt, Azərbaycan*

*lalarahmanova75@gmail.com ; piriyevanail8@gmail.com*



***Açar sözlər:*** *kompleksli maliyyə təhlili, idarəetmə qərarı, biznesin dəyərinin qiymətləndirilməsi, müəssisənin maliyyə vəziyyəti*


Bazar iqtisadiyyatı şəraitində müəssisə rəhbərinə yalnız öz intuitiv keyfiyyətlərinə güvənmək tövsiyə edilmir, onun qərarları elmi əsaslandırılmalı, dəqiq hesablamalara və dərin təhlillərə əsaslanmalıdır. Təşkilati tədbirlər yalnız onların məqsədəuyğunluğu müəyyən edildikdən sonra həyata keçirilməlidir. Kompleksli maliyyə təhlilinin düzgün qiymətləndirilməmiş rolu və optimal idarəetmə qərarlarının qəbul edilməsində səhvlər hal-hazırda təşkilata əhəmiyyətli itkilər gətirir. Təhlilin vacibliyini nəzərə alan həmin müəssisələr fəaliyyətini daha səmərəli həyata keçirir və düzgün idarəetmə qərarları qəbul edirlər [1, s.29].

Qərar vermə texnologiyası optimallaşdırma metodları ilə birlikdə təşkilatın problemlərini həll etməyə kömək edən müəyyən prosedur ardıcıllığı deməkdir [2, s.47]. Yəni problemin həlli, prosesinin idarə edilməsi optimal qərar qəbuletmə texnologiyasının işlənib hazırlanması deməkdir.

Hazırda müəssisənin işində xərclərin optimallaşdırılması və məhsulun maya dəyərinin azaldılması və mənfəətin artırılması tədbirləri mühüm rol oynayır. Təhlil əsasında optimal idarəetmə qərarları hazırlanır. Bazarda hər hansı bir müəssisənin məqsədi maksimum mənfəət əldə etmək olduğundan müəssisənin fəaliyyətini səmərəli təhlil edilməsi sistemini hazırlamaq lazımdır.

İqtisadi təhlil və onun tərkib hissəsi - maliyyə təhlili demək olar ki, bütün növ biznes planlarının hazırlanmasının və ümumilikdə, maliyyə idarəetməsinin vacib elementlərinin tərkib hissəsidir.

Maliyyə hesabatlarının demək olar ki, bütün istifadəçiləri optimal qərarlar qəbul etmək üçün maliyyə təhlili metodlarına müraciət edirlər. Təhlil informasiyanın toplanması və emalı funksiyaları ilə qərar qəbuletmə funksiyaları arasında əlaqə yaradır. Qəbul edilmiş qərar variantlarının analitik təminatı iqtisadi təhlili digər funksional iqtisadi elmlərdən fərqləndirir.

Maliyyə təhlilinin mahiyyəti üç komponentdən ibarətdir:

1) müəssisənin fəaliyyətinin maliyyə nəticələrinin təhlili;

2) müəssisənin maliyyə vəziyyətinin təhlili;

3) müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyinin təhlili.

Maliyyə təhlili birbaşa rəhbərliyin məsuliyyətidir, çünki şirkətin pul vəsaitlərinin hərəkəti və maliyyə resurslarının formalaşmasına təsir etmək səlahiyyəti məhz bu iqtisadi şöbədədir. Müəssisənin maliyyəsi ilə bağlı optimal idarəetmə qərarları müəssisənin strateji istiqaməti və iqtisadi səmərəliliyin artması baxımından qiymətləndirilməlidir.

Maliyyə təhlilinin köməyi ilə müəssisənin maliyyə vəziyyətini obyektiv nöqteyi-nəzərdən qiymətləndirmək, onu şərtləndirən amilləri və səbəbləri müəyyən etmək olar. Bundan əlavə maliyyə təhlili müəssisə rəhbərlərinə maliyyə sahəsində idarəetmə qərarlarını hazırlamaq və əsaslandırmaq, maliyyə vəziyyətini yaxşılaşdırmaq və fəaliyyətin səmərəliliyini artırmaq üçün ehtiyatları müəyyən etmək və səfərbər etmək imkanı verir.

Beləliklə, maliyyə təhlili apardıqdan sonra idarəetmə şöbəsi müəssisənin vəziyyəti haqqında məlumatlılıq səviyyəsini artırmalı və qəbul edilən maliyyə qərarlarını daha əsaslandırılmış etməlidir.

Maliyyə planlaşdırması metodlarından istifadə edərək müəssisə rəhbərliyi maliyyə idarəetməsi sahəsində rasional qərarlar qəbul edir, xüsusən:

– istehsal və investisiya fəaliyyətini zəruri resurslarla təmin edir;

– təsərrüfat subyektləri, banklar, vergi orqanları, sığorta şirkətləri və s. ilə rasional maliyyə münasibətləri qurur;

– səmərəli kapital qoyuluşunun, ondan istifadənin rasionallıq dərəcəsini qiymətləndirməsinin yollarını müəyyən edir;

- pul vəsaitlərindən qənaətlə istifadə etməklə mənfəəti artırmaq üçün ehtiyatları səfərbər edir;

- ödəniş vasitələrinin formalaşmasına və xərclənməsinə nəzarət edir.

Maliyyə tənzimlənməsi və nəzarəti metodlarının köməyi ilə şirkət rəhbərliyi plandan kənara çıxmanı vaxtında diaqnoz etmək və bu çatışmazlıqların aradan qaldırılması haqqında operativ qərarlar qəbul etmək və ya planlaşdırılan göstəriciləri yenidən nəzərdən keçirmək üçün imkan əldə edir.

Maliyyə-təsərrüfat fəaliyyətinin kompleks təhlilinin nəticələrinin tətbiqi müəssisələrə müvafiq optimal qərarlar qəbul etməyə imkan verəcək. Bunlara aşağıdakılar aiddir:

- iqtisadi təhlilin texnika və metodlarından istifadə etməklə istehsalın idarə edilməsi prosesini dərinləşdirmək və inkişaf etdirmək;
- idarəetmə qərarlarının keyfiyyət səviyyəsinə əsaslanaraq öz fəaliyyətlərinin səmərəliliyini artırmaq;
– bazar iqtisadiyyatı şəraitində rəqabət qabiliyyətini artırmaq[3].

Müəssisənin (biznesin) dəyərinin qiymətləndirilməsi müəyyən bir tarixdə müəssisənin dəyərinin hesablanması və əsaslandırılması şəklində təqdim edilə bilər.

Müəssisələrin bazar qiymətinin və ya aktivlərin dəyərinin qiymətləndirilməsi indi təkcə alqı-satqı əməliyyatları çərçivəsində və ya obyektin girov qiymətinin müəyyən edilməsində deyil, həm də düzgün strateji idarəetmə qərarlarının qəbulu, eləcə də beynəlxalq investisiya cəmiyyətinin tələblərinə uyğun olaraq idarəetmə hesabatlarının hazrılanması üçün vacibdir [4, s.430].

Bazarın xarakteri müəssisənin dəyərinin qiymətləndirmə prosesinin xüsusiyyətidir, çünki bu proses qiymətləndirilən obyektin yaradılması və ya əldə edilməsi xərclərini nəzərə almaqla məhdudlaşmır, bütün bazar amillərini nəzərə alır. Bundan əlavə qiymətləndirici qiymətləndirilən obyektə daha uyğun olan yanaşma və metodları istifadə edir.

Hazırda müəssisənin (biznesin) dəyərinin pulla qiymətləndirilməsinə bir neçə yanaşma, eləcə də onların tərkibindəki metodlar [5, s.372] geniş şəkildə yayılmışdır. Elmi nəzəriyyə üç əsas yanaşmanı müəyyən edir:

- gəlir yanaşması;
- xərc yanaşması;
-müqayisəli (bazar) yanaşma.

Gəlir yanaşması qiymətləndirilən obyektin istifadəsindən gözlənilən gəlirin müəyyən edilməsinə əsaslanır. Onun köməyi ilə aktivlərin istifadəsi prosesində yaranacaq gələcək gəlirin cari dəyərini və onların sonradan satışının mümkünlüyünü hesablaya bilərsiniz [5, s.372].

Xərc yanaşması əsasında müəssisənin dəyəri çəkilmiş xərclər baxımından nəzərə alınır. Müəssisənin aktiv və öhdəliklərinin balans dəyəri inflyasiya, bazar şəraitindəki dəyişikliklər və istifadə olunan uçot metodları səbəbindən ümumiyyətlə bazar dəyərinə uyğun gəlmir. Nəticədə qiymətləndirici müəssisənin balansını tənzimləmək prosedurunu həyata keçirməlidir. Bunun üçün əvvəlcə balansın hər bir aktivinin bazar dəyəri ayrı-ayrılıqda qiymətləndirilir, sonra öhdəliklərin cari dəyəri müəyyənləşdirilir və nəhayət, müəssisənin ümumi aktivlərinin bazar dəyəri ilə bütün öhdəliklərinin cari dəyəri arasındakı fərqi tapılır. Nəticə şirkətin xüsusi kapitalının qiymət dəyərini göstərir.

Müqayisəli yanaşma qiymətləndirmə obyektinin qiymətlər haqqında məlumatın mövcud olduğu obyektlər - analoqlarla müqayisəsinə əsaslanan obyektin dəyərinin qiymətləndirilməsinin metodlar toplusudur. Bu halda analoq obyekt onun dəyərini müəyyən edən əsas iqtisadi, maddi, texniki və digər xüsusiyyətlərinə görə qiymətləndirmə obyektinə oxşar obyektdir.

Başqa sözlə, müqayisəli yanaşma konsepsiyasına uyğun olaraq xüsusi kapitalın dəyəri onun müvafiq bazarda nə qədər satıla biləcəyi ilə müəyyən edilir. Yəni biznesin dəyərinin müqayisəli metodla mümkün qiymətləndirilməsi müəyyən şirkətin faktiki satış qiymətini nəzərdə tutur.

Beləliklə, ekspert qiymətləndirici nəzərdən keçirilən yanaşmaların bütün üstünlüklərini və çatışmazlıqlarını öyrənərək daha düzgün hesablamalar əldə etmək üçün qiymətləndirmə zamanı onların məcmusundan istifadə etməlidir. Çünki, bir qayda olaraq, bütün yanaşmalar bir-birini tamamlayır. Qiymətləndirmənin nəticələri müəssisənin demək olar ki, bütün fəaliyyət göstəricilərinə təsir edir.

Hər hansı bir şirkətin fəaliyyətində uğur qazanmaq üçün menecer ciddi idarəetmə qərarını qəbul edərkən onun həyata keçirilməsinin şirkətin dəyərini artırıb-artmadığını hesablamalıdır. Qərbdə belə bir aksioma var: “Daha yaxşı idarəetmə qərarları qəbul etmək üçün müəssisənin dəyərinin qiymətləndirilməsindən istifadə etmək lazımdır” [6, s.16].

Yuxarıdakıları ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki, səmərəli idarəetmə qərarlarının qəbul edilməsinin əsasını həmişə biznesin qiymətləndirilməsinin əsaslarını praktikada tətbiq etmək bilik və bacarığıdır ki, bu da müəssisənin tələb olunan gəlirliliyinə nail olmağa kömək edir.

## Ədəbiyyat


1. Ибашева П.А., Алиева М.Ю. Роль экономического анализа в системе управления предприятием и принятии управленческих решений // Апробация, 2018, №4 (7), 29-30 с.
2. Вертакова Ю. В. Оценка и управление стоимостью предприятия: учебное пособие/ Ю. В. Вертакова О. Е. Пирогова, В. А. Плотников, Юго-Зап. гос. ун-т, Курск, 2017, 160 с.

3. Ильясова Л.Э. Анализ финансового состояния предприятия, как основа его стабильности и принятия оптимальных управленческих решений // Таврический научный обозреватель, 2016, №5-1 (10).
4. Маслин Г. О., Мараховская Г.С. Оценка стоимости предприятия с целью принятия управленческого решения//IV Международная научно-практическая конференция «Инновационные технологии в науке и образовании». – Чебоксары: ЦНС «Интерактив плюс», 2015, 429-431 с.
5. Попыкина И.К. Методические подходы к оценке стоимости компании // Актуальные проблемы бухгалтерского учета, анализа и аудита. Материалы 11-й Международной молодежной научно-практической конференции, Курск: Юго-Западный государственный университет, 2019, 372-376 с.
6. Федотова М. Ю. Оценка стоимости бизнеса и использование ее результатов в целях повышения эффективности деятельности компании //Финансовый менеджмент, 2015, №. 5, 3-22 с.

**РЕЗЮМЕ**
**МЕТОДЫ ПРИНЯТИЯ ОПТИМАЛЬНЫХ РЕШЕНИЙ В СФЕРЕ УПРАВЛЕНИЯ ФИНАНСАМИ ПРЕДПРИЯТИЙ И ОРГАНИЗАЦИЙ**
***Рахманова Л. Р., Пириева Н.Р.***

***Ключевые слова:*** *комплексный финансовый анализ, управленческое решение, оценка стоимости бизнеса, финансовое состояние предприятия*

В данной статье раскрываются теоретические аспекты принятия оптимальных управленческих решений на основе финансового анализа предприятия. Дается характеристика финансового анализа и его составляющих. Делается акцент на оценке стоимости бизнеса как одного из направлений анализа финансового состояния предприятия.

**SUMMARY**
**METHODS FOR OPTIMUM DECISION-MAKING IN THE FIELD OF FINANCIAL MANAGEMENT OF ENTERPRISES AND ORGANIZATIONS**
***Rahmanova L. R., Piriyeva N. R.***

***Key words:*** *comprehensive financial analysis, management decision, business valuation, financial condition of the enterprise*

This article reveals the theoretical aspects of making optimal management decisions based on the financial analysis of the enterprise. The characteristic of the financial analysis and its components is given. Emphasis is placed on assessing the value of a business as one of the areas of analysis of the financial condition of an enterprise.

## AZƏRBAYCAN İQTİSADİYYATINDA QEYRİ-NEFT SEKTORUNA İNVESTİSİYA QOYULUŞUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

**Rzayev Ziyatay Nəbi oğlu**
*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*
boladiicra@bk.ru

***Açar sözlər:*** *qeyri-neft sektoru, investisiya, ÜDM, Milli Prioritet, sənaye, nəqliyyat dəhlizi*

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ölkə iqtisadiyyatının inkişaf etdirilməsi əsas prioritetlərdən biri idi. Sovet İttifaqının ölkəmizdə apardığı siyasət təbii resurslarımızı vəhşicəsinə talamış və ermənistan respublikasının ölkəmizə qarşı apardığı birinci Qarabağ müharibəsi, qəsbkar işğalçılıq siyasəti respublika iqtisadiyyatını xeyli zəiflətmişdi. Həmin zaman siyasi qüvvələrin səriştəsizliyi ölkə iqtisadiyyatını daha da uçuruma aparmışdı. Ölkə iqtisadiyyatını qüdrətləndirmək, inkişaf etdirmək üçün yeni iradəli siyasət tələb olunurdu. Dövləti siyasi-iqtisadi tənəzzüldən qurtarmaq üçün Heydər Əliyevin dövlətçilik təcrübəsinə ehtiyac vardı. Ulu öndərin apardığı uzaqgörən siyasət sayəsində 1994-cü il sentyabrın 20-də Azərbaycanın yaxın keçmişində ‘’Əsrin müqaviləsi” imzalandı və bununla da ölkəmizə ilk investisiya axınları başladı. Bu uzunmüddətli investisiya müqaviləsi ilə Azərbaycanımızın gələcək inkişafı və təhlükəsizliyi üçün real etibarlı zəmin yarandı, həm də ölkəmizin dünya siyasi- iqtisadi arenasında yerini, mövqeyni gücləndirdi.

Ölkə iqtisadiyyatının inkişaf etdirilməsində kapital qoyuluşları çox vacib rol oynayır. İnkişafı şərtləndirən vacib amil iqtisadiyyatın investisiyalaşdırılmasıdır. Ölkədə aparılan parlaq islahatların əsas qayəsi iqtisadiyyatın liberallaşdırılması ilə paralel daha çox investisiya cəlbediciliyini təmin etməkdir. Bunun üçün də ilk öncə münbit investisiya şəraiti yaradılması üçün hüquqi baza formalaşıb, qanunvericilik sistemi

fəaliyyət göstərir. Ölkəmizdə kapital yatırımları iki bazadan formalaşır- xarici və yerli kapitallaşma hesabına iqtisadiyyatımız inkişaf edir. Xarici investisiyalar əsasən neft sektoruna istiqamətləndirilir.

Qeyri-neft sektorunun daha dinamik inkişafını həyata keçirmək üçün bir sıra mühüm, vacib tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin vurğuladığı kimi əsas məqsəd iqtisadiyyatımızda neft amilindən asılılığı tamamilə aradan qaldırmaqdır. Qeyri-neft sektorunun inkişafında ölkəmizdə turizm, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi mühüm prioritet sahələr sayılır. Bu sahələr arasında turizm və kənd təsərrüfatına beynəlxalq maliyyə institutları xüsusi yanaşırlar. Belə ki, ölkəmizdə məşğul əhalinin 44 faizi kənd təsərrüfatında çalışır. Son illərdə xarici investorlar qeyd olunan sahələrlə yanaşı tikinti, nəqliyyat, elektrik enerjisi istehsalı, elmi və texniki sahələrinə maraq göstərir və yatırımlar edirlər. 2021-ci ildə qeyri-neft sektorunda investisiyaların payı 44,6 faizə çatıb. Bu investisiyalarda xarici investorların payını xüsusi qeyd etmək lazımdır. Xarici investorların ölkəmizə marağının əsas səbəbləri kimi əlverişli iqtisadi şərait, biznes mühiti və makroiqtisadi sabitliyi vurğulamaq olar. Mərkəzi Bankın məlumatında qeyd olunur ki, 2022-ci ilin 9 ayında qeyri-neft sahəsinə istiqamətlənmiş birbaşa investisiyaların ümumi həcmi 2,4 dəfə artaraq 1,4 mlrd dollar olub [1]. Ölkəmizin strategiyasında 2026-cı ilə kimi qeyri-neft sektoru üzrə birbaşa xarici investisiyaların payının hər il 10-15 faiz artımı nəzərdə tutulub, o cümlədən investisiyaların cəlb edilməsi yönündə stimullaşdırıcı vergi paketinin tətbiq edilməsi, iqtisadi şəffaflıq kimi bir sıra məsələlər qarşıdakı əsas məqsədlərdəndir. Bu formada investisiya stimullaşdırmaları ölkəmizdə biznesin və sahibkarlığın inkişafı üçün yaradılan şərait dövlətimizi getdikcə daha yüksək səviyyədə inkişaf etdirəcək.

Əsasən məqalədə diqqəti son illərdəki göstəricilərə istiqamətləndirmək istəyirəm, belə ki 2020-2023- cü illər üçün dövlətimizin investisiya proqramının əsas istiqamətləri açıqlanmışdır.2020-ci ildə yatırılan investisiyaların həcmi 4,9 mlrd. manat, 2021-ci ildə 3,6 mlrd. manat, 2022-ci il üçün 3,4 mlrd. manat və 2023-cü il üçünsə 3 mlrd. manat olacağı nəzərdə tutulmuşdur. Dövlətimizin əsas iqtisadi startegiyası kimi qeyri-neft məhsullarının istehsalının artırılması hesabına bu sahənin ixrac potensialını artırmaqdır. 2022-ci ilin statistikasına əsasən, ÜDM-in ortalama olaraq 4,8 faiz artmasında qeyri-neft sektorunun 9 faiz artmasını xüsusi payı vardır. Keçən ildə iqtisadiyyatımızın neft-qaz sahəsində əlavə dəyər 2,4 faiz aşağı düşmüş və nəticə etibarı ilə qeyri-neft sektorunun 2022-ci ildə əmələ gələn dəyər qiymətində payı artmışdır. 2022-ci ildə daha çox artım kimya sənayesinə məxsus məhsulların ixracatında qeydə alınmış və bu rəqəm 57,7 faiz olmuşdur. Qeyri-neft ixracının təqribən üçdə bir hissəsini aqrar və aqrar sənaye məhsulları təşkil edib ki, bu da 912,4 milyon dollar həcmindədir. 2023-cü ilin ilk iki ayında qeyri-neft sahəsi üzrə ən çox məhsul ixrac edilən ölkə siyahısında Türkiyə 273,9 milyon dollar, bu göstəriciyə görə ikinci ölkə şimal qonşumuz Rusiya 137,6 milyon dollar və Gürcüstan 64,6 milyon dollar olmaqla üçüncü olmuşlar. DSK-nin hesabatına əsasən Azərbaycanın qeyri-neft məhsullarının ixracı 2022-ci ilin yanvar-fevral ayları ilə müqayisədə 41% artaraq 651mln 423 min dollar təşkil etmişdir [2].

Respublikamızda son 15 il müddətində sahibkarlıq subyektlərində lüzumsuz yoxlamaların azaldılması, 240-dan 30-a qədər azalan lisenziyaların sayı, elektron xidmətlərin daha geniş tətbiq edilməsi, sahibkarların infrastruktur məsələlərinin müasirləşdirliməsi, gömrük və vergi orqanlarındakı islahatların nəticəsi olaraq qazanılmış uğurlar dünyanın maliyyə institutlarının və reytinqli təşkilatlarının hesabatlarında dərc edilməkdədir. Ölkəmizdə hazırkı dönəmdə investisiya fəaliyyətinin təkmilləşdirilməsi, münbit investisiya mühitinin inklüzivliyinin artırılması sahəsində yeni qanunları Milli Məclis qəbul edir və cənab prezident tərəfindən yeni fərmanlar verilir. Cənab prezident İ.Əliyev “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, ərazilər və zonalar o cümlədən investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ” barəsindəki 2022-ci il 20 dekabr tarixindəki Fərmanı sahibkarların dövlətimiz tərəfindən dəstəklənməsini və təşviqini habelə, investisiya mühitinin daha müəkəmməl olmasını özündə ehtiva edir. Fərmanın investisiya sənədlərinin əlçatanlılığını təmin etmək, təkmilləşdirmək və sahələr üzrə minumum məbləğlərin təsdiqlənməsində böyük əhəmiyyəti olacaqdır. Cənab prezidentin təyin etdiyi istiqamətlər sahəsində strateji investisiya layihələrini həyata keçirmək üçün hüquqi şəxslərə, o cümlədən fərdi sahibkarlara investisiya təşviqi sənədi 2023-cü ilin ilk ayının birinci günündən 3 il müddətində verilir. Burada əsas məqsəd ondan ibarətdir ki, fiziki və hüquqi şəxslərin dəstəklənməsi daha mükəmməl olsun və onların vergi güzəştlərindən istifadə etməsi imkanı artırılsın. Bu sənəd sözsüz ki, yerli biznesin inkşafını təşviqləndirməklə qeyri-neft sahəsində sahibkarlığın şaxələndirilməsinə ümumilikdə enerjidən ayrı sektorlarda istehsal potensialının artmasına geniş şərait yaradacaq və paralel olaraq “Azərbaycan 2030: sosial–iqtisadi inkişafa dair Milli Prioritetləri ”nə tam uyğundur. Əminliklə vurğulamaq olar ki, bu sənəd qeyri-neft sektorunun inkişafı istiqamətində açıq bir yol deməkdir. Bu fərmanların nəticəsi olaraq 2023-cü il yanvar-mart ayları üzrə dövlət büdcəsinə qeyri-neft sektoru üzrə daxilolmalar 53,4 faiz təşkil etməklə 4430,0 mln. manat olub və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 19,9% çoxdur [3]. Xüsusi olaraq ölkəmiz qarşısında duran əsas məsələlərdən biri kimi 44 günlük müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə

münbit investisiya mühitinin tam təmin olunmasıdır. Respublika rəhbərliyi səviyyəsində həyata keçirilən layihələr dünyanın nüfuzlu şirkətlərinin maraqlarını bu ərazilərə yönəltmişdir. Vurğulamaq istəyirəm ki, postmüharibə dövründə azad olunmuş ərazilərdə biznes fəaliyyəti qurmaq istəyən sahibkarlardan İqtisadiyyat Nazirliyinə 1100-dən çox müraciət olunub və ən sevindirici hal odur ki, müraciət edənlərin sırasında Rusiya, Çin, Cənubu Koreya, ABŞ, Avropa ölkələri, İndoneziya, Türkiyə və digər ölkələrin böyük iş adamları var. Bəllidir ki, burda investisiya qeyri-neft sektoruna- əsasən xidmət, ticarət, sənaye, kənd təsərrüfatı, ticarət, turizm kimi sahələrə iş adamları maraqlarının olduğunu ifadə edirlər. Qarabağın bərpası və yenidənqurma işlərinin həyata keçirilməsi üçün böyük maliyyə vəsaitinə ehtiyac var, tədqiqatçıların araşdırmalarına görə bu işlərin həyata keçirilməsindən ötəri 10 milyardlarla dollar maliyyələşdirmə olmalıdır. Prezidentimiz maliyyə resurslarının effektli formada cəlb olunması üçün 4 yanvar 2021-ci ildə “ Qarabağ Dirçəliş Fondu ” publik hüquqi şəxsin yaradılması üçün fərman imzalamışdır. Fondun təmin olunması mənbələrindən biri kimi cəlb ediləcək investisiyalar nəzərdə tutulmuşdur. Azərbaycanın yeni müasir iqtisadi layihələrindən biri olan Ələt Azad İqtisadi Zonasının yaradılması iqtisadiyyatımızın inkişafına öz əsaslı töhfəsini verəcəkdir. ƏAİZ-da innovativ texnologiyalardan istifadə və xidmətlər təklif edən investorları layihəyə cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə qarşılıqlı fəaliyyəti nəticəsində ölkə iqtisadiyyatına dayanıqlı və davamlı inkişafına töhfəsini verir, o cümlədən zonada minlələrlə iş yeri yaradılmışdır. Cənab prezident İ.Əliyevin ideya xətti olan bu layihə Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizləri üçün mühüm rolu olan respublikamızın regionda mövqeyini daha da gücləndirib, stratejini əhəmiyyətini artırıb, ölkəmizə yeni dvidentlər qazandırmaqla bərabər, dövlətimizin gəlirlərini və büdcə daxilolmalarını artırır və xarici investisiyaların cəlb edilməsinə münbit şərait yaradır. Qeyd etmək istəyirəm ki, bu layihə ölkənin iqtisadi tarixində ən birinci yerdə duran layihələrdəndir.

Yekun olaraq onu qeyd etmək istəyirəm ki, qeyd olunan sahələrin inkişaf etdirilməsi ilə yanaşı Azərbaycandan çıxan intellektual beyinlər üçün yüksək inkişaf etmiş ölkələrdə olan şəraiti, infrastrukturu ölkəmizdə qurmaq, bu beyinlərdən maksimum yararlanmaq, intellektli beyinlərin məhsullarını xarici ölkələrə satıb yüksək gəlir əldə etmək üçün elm sahələrinə investisiya yatırımları etmək müasir dövr üçün zəruridir. Bununla yanaşı müasir yeni texnoloji avadanlıqlar və kosmik sənayenin inkişaf etdirilməsi üçün investisiya yatırımlarına ehtiyac var. Düşünürəm ki, 32 illik qısa bir zamanda böyük inkişafa nail olan ölkəmiz qarşıdakı illərdə daha böyük nəticələrə imza atacaq.

## Ədəbiyyat


1. https://www.cbar.az/page-39/statistics
2. https://stat.gov.az/source/system_nat_accounts/
3. https://president.az/az/articles/view/50474
4. https://qdf.gov.az



**РЕЗЮМЕ**

**ОЦЕНКА ИНВЕСТИЦИЙ В НЕ НЕФТЯНОЙ СЕКТОР ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА**

***Рзаев З.Н***

***Ключевые слова:*** *ненефтяной сектор, инвестиции, ВВП, национальный приоритет, промышленность, транспортный коридор*

В представленной статье была проведена оценка инвестиций, в основном в ненефтяной сектор, в соответствии с требованиями современности. В частности, основное внимание уделяется транспортному коридору, ненефтяной зоне промышленности и т. д. Он ориентирован на области. Подчеркивается, что Азербайджан, обладающий туристическим потенциалом на освобожденных от оккупации территорий и достаточным материальным и финансовым ресурсным потенциалом для развития сельского хозяйства, должен эффективно его использовать. Кроме того, в статье подчеркивается важность Алятской свободной экономической зоны. Было отмечено, что запуск этого транспортного коридора на полную мощность расширит новые инвестиционные возможности для экономики Азербайджана.



**SUMMARY**

**EVALUATION OF INVESTMENT IN NON-OIL SECTOR IN AZERBAIJAN ECONOMY**

***Rzaev Z.N.***

***Key words:*** *non-oil sector, investment, GDP, national priority, industry, transport corridor*

İn the presented article, an assessment was made in accordance with the requirements of the modern era of investments in the non-oil sector. Specifically, the main focus is on the Transport Corridor, the non-oil field of industry, etc. it is directed to the fields. It is emphasized that Azerbaijan, which has sufficient material and financial resource potential for the development of tourism potential and agriculture for the liberated territories, should use it effectively. In addition, the importance of the ALAT Free Economic Zone was emphasized in the article. It was noted that the launch of this transport corridor at full capacity will expand new investment opportunities for the Azerbaijani economy.

## AZƏRBAYCANDA SIĞORTA SİSTEMİ VƏ ONUN MÖVCUD PROBLEMLƏRİ

**Seyidova Səmirə Rasim qızı Bağırova Nüranə Cəmaləddin qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*samira_seyidova@inbox.ru ; samira_seyidova@inbox.ru*

***Açar sözlər:*** *sığorta, maliyyə sektoru, maliyyə sabitliyi, sığorta bazarı, sığorta fondları, bazar iqtisadiyyatı*

Müasir dövrdə aparılan dərin iqtisadi islahatlar nəticəsində Azərbaycanın maliyyə sektorunda mühüm müsbət dəyişikliklərə nail olunmuşdur. Bu özünü maliyyə institutlarının formalaşmasında və maliyyə seqmentində sabitliyə nail olunmasında xüsusi ilə çox göstərir.

Son illər Azərbaycan Respublikasında siyasi və iqtisadi sabitliyin bərqərar olması, bazar iqtisadiyyatının inkişafı nəticəsində sığorta fondlarının yaradılması və istifadəsi qaydaları təkmilləşdirilmiş, sığorta fondlarının yaradılmasında bir sıra yeniliklər həyata keçirilmişdir. Sığorta göstəricilərinin yaxşılaşdırılmasına səbəb milli sığorta sisteminin sabit olmasıdır.

Sığorta biznesinin inkişafı, sabit və etibarlı sığorta mühafizəsinin yaradılması, dövlət sığorta nəzarətinin gücləndirilməsi və digər tədbirlər nəticəsində baş vermişdir. Ölkədə sığorta bazarı genişlənmiş, müəssisə, idarə və sığorta xidmətlərinin həcmi artmışdır ki, bu da bu sektora inamı gücləndirmişdir.

Sığorta biznesinin dövlət tənzimlənməsi sığorta sisteminin xidmətlər bazarı üçün səmərəli şərait yaradır və onun inkişafına müsbət təsir göstərir, sığortaçılar üçün lazımi şəraitin yaradılmasını təşkil edir və sığortaçıların mənafeyini qoruyur. Dövlət tənzimlənməsi sığorta bazarının genişlənməsini maliyyə və hüquqi əsaslarla istiqamətləndirir [1, s.197].

Bu sahədə dövlət tənzimlənməsi davamlı olaraq dövlətin etibar etmədiyi şirkətlər üzərində nəzarəti gücləndirir və onları sığorta bazarından çıxarır. Bu tənzimləmə mexanizmi belə şirkətlərin sığortalılara və sığorta biznesinə zərər vurmasının qarşısını almalıdır. Sığorta təşkilatlarının fəaliyyətinin beynəlxalq standartlara uyğun qurulması onların bu standartların aspektlərini yaxşı mənimsəmiş idarəetmə və digər kadr potensialının mövcudluğundan asılıdır. Mikroiqtisadi nöqteyi-nəzərdən sığorta işinin tənzimlənməsində əsas məsələlərdən biri sığortaçının maliyyə sabitliyi və ödəmə qabiliyyətidir. Sığortaçının maliyyə sabitliyi sığorta şirkətinə fəaliyyətini və inkişafını fasiləsiz davam etdirməyə imkan verən aktiv və öhdəliklərin optimal məzmunudur. Bu sabitlik sığortaçının gəlirlərinin balansında və ya gəlirin xərclərdən artıqlığında tapılır. Ödəmə qabiliyyəti sığortaçının maliyyə sabitliyinin əsas göstəricisidir [2, s.54].

Azərbaycanın sığorta bazarı öz potensialına görə perspektivli bazarlardan biridir. Amma başqa bazarlar kimi sığorta bazarının da özünə məxsus catışmayan xüsusiyyətləri mövcuddur. Bu ən çox özünü qeyri-bərabər inkişafda göstərir. Belə ki, sığorta haqlarının çox hissəsi paytaxtdan toplanır ki, bu da regionlarda sığorta fəaliyyətinin azalması deməkdir. Dolayısı ilə bu proses Azərbaycan iqtisadiyyatının dinamik inkişafının zəifləməsinə səbəb ola bilər.

Azərbaycanda bazar iqtisadiyyatının formalaşmasına yönəlmiş islahatlar fəal şəkildə həyata keçirilir və sığorta bazar elementlərinin əsas hissəsi və pul vəsaitlərinin hərəkətinin normal dövriyyəsini təmin edən pul mexanizminin ən fəal elementlərindən biri olduğundan bu prosesi sürətləndirir. Öz vəsaitlərinin artırılması və sığorta ehtiyatlarının yığılması təkcə iqtisadiyyatın ümumi vəziyyətindən deyil, həm də sığortanın özünün hərtərəfli inkişafından asılıdır. Sığorta bazarının kifayət qədər maliyyə həcminin olmaması böyük iqtisadi itkilərin baş verməsinə gətirib çıxarır. Bu isə özlüyündə təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin ödənilməsi üçün büdcə vəsaitlərinin cəlb edilməsini tələb edir.

Azərbaycan Respublikasının milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatlarının fəaliyyətinə nəzarətin düzgün təşkili, sığorta təşkilatları tərəfindən əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, respublikanın bütün regionlarında sığortaya marağın və etimadın artmasına nail olunması, icbari sığorta üzrə sığorta müqavilələri bağlamağa çalışmaq və s. kimi inkişafı zəruri edir.

Maliyyə gücü sığorta və təkrarsığorta şirkətlərinin aktivlərini qiymətləndirərək öhdəliklərini yerinə yetirmək imkanları haqqında təqdim etdikləri məlumat sistemidir. Sistemin məqsədi sığorta və təkrarsığorta şirkətlərinin maliyyə dayanıqlığını təmin etmək və xüsusilə çətin dövrlərdə dayanıqlı fəaliyyətini təşkil etməkdən ibarətdir [3, s.145].

Azərbaycanda sığorta bazarının mövcud vəziyyətinin təhlili sığorta sisteminin müntəzəm tənzimlənməsi üçün zəruri amildir. Ölkəmizdə sığorta işinin inkişaf perspektivlərinin öyrənilməsi iqtisadiyyatın sığorta sektorunda hazırkı yerini qiymətləndirməyə kömək edir. Həmçinin sığorta biznesinin

inkişaf perspektivlərinin araşdırılması Azərbaycanda sığorta biznesinin inkişaf etmiş ölkələrdən geri qalmasının səbəblərinə cavab verməyə kömək edə bilər.

Məqalədə Azərbaycan Respublikasının milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatlarının fəaliyyətinə nəzarəti düzgün təşkil etmək, sığorta təşkilatlarının əhaliyə göstərdiyi xidmət səviyyəsini yüksəltmək, marağın artmasına nail olmaq və respublikanın bütün regionlarında sığortaya inam məsələləri qənaətinə gəlinmişdir.

## Ədəbiyyat


1. "Sığorta" Azərbaycan Respublikasının sığorta sahəsini tənzimləyən normativ hüquqi aktları Toplusu, Bakı, 2012, 345 s.
2. Александрова Т.Г., Мещерякова О.В. «Коммерческое страхование», Москва, 2010, 540 с.
3. Шахов В.В., Ахбледиани Ю.Т., «Страхование», Москва, ЮНИТИ, 2009, 478 с.



**РЕЗЮМЕ**

**СИСТЕМА СТРАХОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ И ЕЕ СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ**

***Сеидова С. Р., Багирова Н.С.***

***Ключевые слова**: страхование, финансовый сектор, финансовая устойчивость, страховой рынок, страховые фонды, рыночная экономика*

Как известно, одной из важнейших составляющих финансовой системы нашей республики является страховая система. Результат важных экономических реформ более очевиден в этой системе. Регулирование и контроль страховой деятельности в условиях рыночной экономики имеет большое значение.

Современному состоянию финансового сектора и роли страхового рынка в этом секторе уделено особое внимание в статье. При этом нашли отражение изменения страхового рынка и его роли в экономическом развитии.



**SUMMARY**

**INSURANCE SYSTEM IN AZERBAIJAN AND ITS EXISTING PROBLEMS**

***Seidova S.R., Bagirova N.C.***

***Key words:** insurance, financial sector, financial stability, insurance market, insurance funds, market economy*

As you know, one of the most important components of the financial system of our republic is the insurance system. The result of important economic reforms is more obvious in this system. Regulation and control of insurance activities in a market economy is of great importance.

The current state of the financial sector and the role of the insurance market in this sector are given special attention in the article. At the same time, changes in the insurance market and its role in economic development were reflected.


# İNNOVASİYALAR KONTEKSTİNDƏ BİLİK İQTİSADİYYATININ İNKİŞAFININ MODELLƏŞDİRİLMƏSİ


**Vəkilov Kənan Şöhrət oğlu**

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*

*kanan.vakilov@gmail.com*



***Açar sözlər:*** *innovasiyalar, bilik iqtisadiyyatı, innovasiyaların işlənilməsi və tətbiqi, bilik iqtisadiyyatının inkişaf problemləri, bilik iqtisadiyyatının modelləşdirilməsi, bilik iqtisadiyyatının əhəmiyyəti*


Müasir qlobal cərəyanların genişləndiyi bir şəraitdə dünya səviyyəsində intellektual resurslardan səmərəli istifadə olunması, onların əlavə dəyər dövriyyəsinə cəlb olunması mühüm əhəmiyyət kəsb edir. Təbii resurslardan istifadə edilməsi, faydalı qazıntıların yerin altından səmərəli olaraq çıxarılması, təbiətin insanlara verdiyi resursların emal proseslərinə cəlb olunması prosesləri artıq intensiv fazanı belə ötmüş və pik zirvəsinə gəlib çatmışdır. Texnikanın, texnologiyaların və elmin inkişafı ilə əlaqədar olaraq müasir qlobal dövrümüzdə daha çox yeni ideyaların formalaşması, innovasiyaların işlənməsi, mənimsənilməsi, intellektual resursların əlavə dəyər dövriyyəsinə cəlb edilməsi aktuallığı ilə diqqəti cəlb edir [4, s. 168]. Bu baxımdan bilik iqtisadiyyatının inkişaf etdirilməsi, bilgilər üzərində iqtisadiyyatın qurulması, zəruri biliklərin alınması, fundamental tədqiqatların dərinləşdirilməsi, əldə olunan elmi nəticələrin istehsal proseslərinə cəlb olunması və tətbiqi ilə bağlı məsələlər sistemli və ardıcıl yanaşmanı tələb edir.

İnnovasiya sisteminin formalaşması dünyanın əksər ölkələri üçün vacibdir və mütərəqqidir və bununla bağlı dünya dövlətlərində son 10 illiklərdə xeyli işlər görülməkdədir [5, s. 117]. Şübhəsiz bu sahədə dünya liderləri iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdir və innovasiyalar kontekstində yeni innovasiyaların

işlənməsi və bilik iqtisadiyyatının formalaşdırılması, onun modelləşdirilməsi baxımından kifayət qədər təcrübə toplanılmışdır. Müasir dövrdə əsas məqsəd bilik iqtisadiyyatının yeni inkişaf impulslarını müəyyənləşdirmək və biliklərin dərinləşdirilməsi, fundamental tədqiqatların, sivilizasiyanın uzunmüddətli və dayanıqlı inkişafını təmin edilə biləcək səviyyəsinə çatdırılmasında bu biliklərin və əldə olunan elmi nəticələrin adekvatlığı çox böyük narahatlıq doğurur.

Son illər dünya səviyyəsində iqlim dəyişikliklərinin güclənməsi, temperaturun artması, aclıq və işsizlik probleminin çoxalması, ölümcül, yoluxucu xəstəliklərin, yəni pandemiyaların mövcudluğu və bu gün də bəşəriyyətin kabusuna çevrilmiş COVID-19 pandemiyasının mənfi təsirinə baxsaq, yeni innovasiyaların işlənməsi və tətbiqi mühüm strateji əhəmiyyət kəsb edir. Bu baxımdan bilik iqtisadiyyatı aktuallığı ilə ön plana çıxır. ABŞ və Qərbi Avropa ölkələrində, Yaponiyada, bir qrup Cənub Şərqi Asiya ölkələrində bilik iqtisadiyyatının inkişafı üçün kifayət qədər vəsaitlər ayrılır və bu vəsaitlər bəzən 100 milyardlarla dollar səviyyəsində ölçülür. İnteraktiv metodlardan istifadə etməklə daha rasional və faydalı tədris proqramlarının formalaşdırılması, modulların işlənilməsi, bilgilərin kifayət qədər səmərəli olması istiqamətində tədbirlərin görülməsi və əldə olunmuş bilgilərdən sistemli şəkildə, əlavə tədqiqatlar apararaq onların içərisindən elmi-praktiki baxımdan faydalı olanlarının seçilməsi, isbat edilməsi və istehsala tətbiq edilməsi problemləri müasir dövrdə xeyli aktualdır. Məsələn, dünya ölkələri arasında rəqabət qabiliyyətinin gücləndirilməsi baxımdan yeni fəaliyyət mexanizmlərinin tələb olunması kəskinliyi ilə diqqət mərkəzinə düşmüşdür [3, s.1].

Artıq ABŞ iqtisadiyyatı mümkün resurslardan istifadə etməklə inkişaf pikinə çatmışdır və əlavə artım mənbələrinin formalaşdırılmasında intellektual resurslar və bilik iqtisadiyyatı, innovasiyalar istiqamətli iqtisadiyyat sahələrinin, intellektual sahənin inkişaf etdirilməsi daha çox önəm kəsb edir. İnkişaf etməkdə olan ölkələrdə isə hələ də təbii resurslardan, yeraltı və yerüstü sərvətlərdən istifadə etməklə yeni artım mənbələrinin formalaşdırılması, rəqabət qabiliyyətli müəssisələrin yaradılması, şəhər və kəndlərin, qəsəbələrin simasının dəyişdirilməsi, sosial-iqtisadi inkişafın sabitliyinin təmin olunması və tədricən texnoloji yeni sənaye inqilabının mərhələlərini daha sürətlə keçmək üçün yeni texnoloji uklada keçirilməsindən ötrü ciddi əsaslar formalaşdırır. Məsələn, Çində bu baxımdan mütərəqqi təcrübənin olduğunu iddia etmək mümkündür və kifayət qədər kasıb əhalisi olan və o qədər də abad olmayan regionları, on minlərlə kəndləri olan bu aqrar ölkə çox qısa zaman kəsiyində sənaye baxımdan inkişaf etmiş ölkəyə – texnologiyalar, xüsusilə intellektual resursların formalaşdırılması, inkişaf etdirilməsi, innovasiyaların işlənməsi və tətbiqi nöqteyi-nəzərindən dünya liderləri sırasında yer almağı bacarmışdır [2, s. 107].

Məhz bunların nəticəsində ənənəvi iqtisadiyyat sahələrinin resursları, rəqabət qabiliyyətli sənaye və kənd təsərrüfatı müəssisələri, xidmət sektoru və hazırda bütün bunlara əlavə olaraq bilik iqtisadiyyatının formalaşdırılması son 10 illiklərdə ABŞ ilə Çin arasında olan iqtisadi artım fərqinin azalmasına imkan vermişdir. İqtisadi güc üzrə resursların qiymətləndirilməsi baxımından Çinin potensialı ABŞ-dan daha çox üstün görünür və hər il Çin ABŞ-la arasında olan fərqi ixtisar etməkdədir və yaxın bir neçə il ərzində ABŞ-a çatacağı və onu ötəcəyini belə proqnozlaşdırmaq mümkündür. Bü amillər baxımından, ilk növbədə innovasiyalara olan münasibətin yenilənməsi, innovasiya mədəniyyətinin formalaşdırılması, innovasiyalar kontekstində bilik iqtisadiyyatının çoxfunksiyalı imkanlarından səmərəli istifadə edilməsi, bilik iqtisadiyyatı istiqamətində fundamental tədqiqatların aparılması, iqtisadiyyatın müxtəlif sahələrində bilik iqtisadiyyatı yönümlü inkişaf modellərinin və impulslarının dəyərləndirilməsi və bunlardan səmərəli istifadə edilməsi məsələləri ön plana çıxır [6, s. 361].

Azərbaycan böyük ölçüdə neft və qaz resurslarından asılı olan iqtisadiyyata malikdir və beynəlxalq səviyyədə də məhz bu istiqamətdə ixtisaslaşmışdır. Ancaq bunlar davamlı xarakter daşımır və dünya bazarında silkələnmə olduğu təqdirdə neft-qaz qiymətlərinin dəyişdiyi halda Azərbaycan riskli ölkələr sırasına düşür və digər tərəfdən, kənardan daxil olan valyuta resurslarının azalması, ölkədə milli valyutanın sabit saxlanılan və tənzimlənən məzənnəsinə ciddi təsir edir və milli valyutamız riskə məruz qalır. Ümumilikdə isə dünya səviyyəsində neft-qaz sektorunda istənilən dəyişiklik Azərbaycan iqtisadiyyatına təsir göstərmək gücündədir və bunun əsas səbəblərindən biri iqtisadiyyatın struktur dəyişikliklərinin və onun quruluşunun ləng aparılmasıdır. Belə ki, qeyri-neft-qaz sektorunun inkişaf etdirilməsinə baxmayaraq, hələ də milli innovasiya sisteminin formalaşması prosesləri başa çatdırılmayıb.

Digər tərəfdən isə innovasiya zonaları, innovasiya mərkəzləri, elmi-texniki mərkəzlərin yaradılması prosesləri başlangıç səviyyəsindədir və açığını desək bu istiqamətdə fəallıq hiss olunmur [1, s. 323]. Müxtəlif universitetlərdə innovasiya parklarına və startaplara marağın böyük olmasına baxmayaraq, praktikada tək – tük universitetlərdə innovasiya parkları vardır və onların da işləmə səviyyəsi demək olar ki primitiv olaraq qalır və böyük ölçüdə dünya səviyyəsində elmi-texnoloji baxımdan nümayiş etdirilməyə və tətbiq olunmağa layiq olan elmi ideyaların formalaşdırılması və bilik iqtisadiyyatının yaradılması istiqaməti tədbirlərin hələ də yüksək səviyyədə olmasını qeyd etmək çətindir.

Azərbaycanda innovasiyaların işlənməsi və bilik iqtisadiyyatının müxtəlif imkanlarının səfərbər edilməsi istiqamətində əlavə tədbirlərin görülməsi tələb olunur. Yaxın perspektivdə bu istiqamətdə bir sıra işlərin görülməsinə ciddi ehtiyac vardır və bunlarla bağlı olaraq bəzi məsələlərə daha çox diqqətin yetirilməsini istərdik:

- hesab edirik ki, ölkəmizdə innovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqi məsələlərinin kompleks baxılmasını təmin edə biləcək qanunvericilik bazası və stimullaşdırıcı institusional strukturlar yaradılmalıdır;
- ölkədə milli innovasiya sisteminin formalaşdırılması proseslərinin başa çatdırılması və ölkənin iri şəhərləri ilə yanaşı, ölkə regionlarında da innovasiya mərkəzlərinin, innovasiya-texnoloji mərkəzlərinin yaradılması məsələləri həll olunmalıdır;
- ölkədə bilik səviyyəsinin artırılması, təhsil sisteminin adekvatlığının dünya səviyyəsində innovasiyaların və bilik iqtisadiyyatının inkişaf tempi kontekstində formalaşdırılması, fundamental tədqiqatların aparılmasına marağın artırılması, alim və tədqiqatçıların daha məhsuldar işlənməsi üçün əlavə tədbirlərin görülməsinə ehtiyac vardır;
- yaxın perspektivdə Azərbaycanda innovasiyalar kontekstində bilik iqtisadiyyatının inkişafının modelləşdirilməsi üçün daha təsirli tədbirlər görülməli və əsaslandırılmış fəaliyyət mexanizmləri hazırlanaraq tətbiq olunmalıdır və s.

## Ədəbiyyat


1. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2022. – 447 s.
2. Məmmədov, Z.F, Əliyev, Ş.T. Rəqəmsal iqtisadiyyatin formalaşdirilmasi və inkişafi (Çin təcrübəsi) /I International Conference on Modern Trends in Digital Economy. 13-14 February, 2020, Baku, Azerbaijan. – p. 107-108.
3. Muradov, Ə.C., Əmirbəyov, F. Yeni sənaye inqilabı: Rəqabətqabiliyyətliyin yüksəldilməsində universitetlərin rolu. 09.12.2016. https://marja.az/53/yeni-senaye-inqilabi-reqabetqabiliyyetliyin-yukseldilmesinde-universitetlerin-rolu.
4. Ляшенко, Е.А. Технопарковые структуры как форма организации и стимулирования инновационной деятельности: оценка зарубежного опыта // Экономика, общество, человек: сб. науч. публ.: в 2 ч. Ч. 2. Екатеринбург: Изд-во Урал. гос. экон. ун-та, 2015. с. 164—172.
5. Осипова, Д.П., Остобунаева, С.В., Десятниченко, Д.Ю. Инновационное предпринимательство: необходимость перехода// Экономика и бизнес: теория и практика, 2017, № 4-1, с.115-120.
6. Megits, N., Aliyev, S. T., Pustovhar, S., Bielialov, T., Prokopenko, O. (2022). The «Five-Helix» Model as an effective way to develop business in Industry 4.0 of selected countries.// Journal of Eastern European and Central Asian Research (JEECAR), 9(2), 2022. 357-368.
7. https://doi.org/10.15549/jeecar.v9i2.920;
8. https://ieeca.org/journal/index.php/JEECAR/article/view/920



**РЕЗЮМЕ**

**МОДЕЛИРОВАНИЕ РАЗВИТИЯ ЭКОНОМИКИ ЗНАНИЙ В КОНТЕКСТЕ ИННОВАЦИЙ**

***Векилов К.Ш.***

***Ключевые слова:*** *инновации, экономика знаний, освоение и применение инноваций, проблемы развития экономики знаний, моделирование экономики знаний, стратегическое значение экономики знаний*

Исследуется моделирование развития экономики знаний в контексте инноваций. С этой целью раскрываются проблемы изучения, освоения и применения инноваций. Рассмотрены преимущества формирования экономики знаний за счет инновационного развития на мировом уровне и связанные с этим прогрессивные подходы. Рассмотрены вопросы формирования и развития экономики знаний в Азербайджане. Подготовлен ряд рекомендаций и предложений по ускорению создания национальной инновационной системы и моделированию развития экономики знаний в Азербайджане.



**SUMMARY**

**MODELING THE DEVELOPMENT OF THE KNOWLEDGE ECONOMY IN THE CONTEXT OF INNOVATION**

***Vakilov K.Sh.***

***Key words:*** *innovation, knowledge economics, development and application of innovations, problems of knowledge economics development, knowledge economics modeling, strategic importance of knowledge economics*

Modeling the development of the knowledge economy in the context of innovation is investigated in the article. The problems of studying and applying innovations are revealed for this purpose. The advantages of the knowledge economy formation through innovative development at the world level and related progressive approaches are considered. The issues of the formation and development of the knowledge economy in Azerbaijan are underlined. A number of recommendations and proposals to

accelerate the creation of a national innovation system and model the development of the knowledge economy in Azerbaijan are given in the end.

## GÖMRÜK ÖDƏNİŞLƏRİNİN İQTİSADİ MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

**Yadigarov Təbriz Abdulla oğlu, Nuriyev Bəşir Müşviq oğlu**
*Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı, Azərbaycan*
*tabrizyadigarov65@gmail.com; bashirnuriev@gmail.com*

***Açar sözlər:** gömrük, gömrük ödənişləri, gömrük tarifləri, iqtisadi təhlükəsizlik, idxal, ixrac*

Gömrük ödənişləri dövlətin gömrük orqanları tərəfindən müəyyən edilmiş qaydada alınan gömrük rüsumları, vergilər, cərimələr və digər ödənişlərdir. Belə ki, gömrük sərhədindən keçən bütün şəxslərdən gömrük proseduruna uyğun olaraq gömrük ödənişləri alınır. Gömrük rüsumlarının və vergilərinin ödənilməsinə cavabdeh şəxs deklarantdır.

Gömrük ödənişlərinin aşağıdakı növləri var [2, s. 101].

1) idxal gömrük rüsumu;
2) ixrac gömrük rüsumu;
3) malların Avrasiya İqtisadi İttifaqının gömrük ərazisinə idxalı zamanı tutulan əlavə dəyər vergisi;
4) malların Avrasiya İqtisadi İttifaqının gömrük ərazisinə idxalı zamanı tutulan aksiz vergisi;
5) gömrük rüsumları.

Gömrük ödənişlərinin növlərinin hər birini daha ətraflı nəzərdən keçirmək məqsədəuyğundur.

Xarici ticarət əməliyyatının xarakterinə görə gömrük rüsumları idxal və ixrac rüsumlarına bölünür.

Mallar daha çox idxal gömrük rüsumlarına məruz qalır. Onlar ödəyicilər tərəfindən səlahiyyətli orqanın vahid hesabına ödənilir [5, s. 138].

İxrac gömrük rüsumları əsasən xammal kimi təsnif edilən mallardan, məsələn, ağac və ağac məmulatları, kömür, xam neft, neft məhsulları, denaturlaşdırılmamış etil spirti və s. alınır.

Əlavə dəyər vergisi istehsalın bütün mərhələlərində yaradılmış və satılan malların, işlərin və xidmətlərin dəyəri ilə istehsal və paylamaya aid edilən maddi məsrəflərin dəyəri arasındakı fərq kimi müəyyən edilən əlavə dəyərin bir hissəsinin büdcəyə çıxarılması formasıdır [4, s. 52].

Əlavə dəyər vergisi dolayı vergilərə aiddir, çünki onun yükü istehsalçının deyil, malların son istehlakçılarının üzərinə düşür. Avrasiya İqtisadi İttifaqının gömrük ərazisinə gətirilən mallardan əlavə dəyər vergisi tutulur. Malların idxalı zamanı əlavə dəyər vergisinin tutulması öhdəliyi gömrük orqanlarının üzərinə düşür. Malların idxalı üzrə əlavə dəyər vergisinin hesablanması üçün vergi bazası Azərbaycanın vergi qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

Aksiz - artan tələbat olan mallara tətbiq edilən, malların qiymətinə daxil edilən və malların ölkəyə idxalının gömrük rəsmiləşdirilməsi zamanı alıcı tərəfindən ödənilən dolayı vergidir [1, s. 68].

Aksiz vergisi, siyahısı Azərbaycanın Vergi Məcəlləsində verilmiş aksizli mallardan gömrük orqanları tərəfindən tutulur. Dövlət aksizlərdən təkcə büdcə gəlirlərini yaratmaq üçün deyil, həm də ayrı-ayrı mal və xidmətlərə tələb və təklifi tənzimləmək üçün istifadə edir.

Gömrük rüsumuna gəlincə, onun ödənilməsi gömrük orqanları tərəfindən gömrük əməliyyatlarının aparılması, malların saxlanması və ya müşayiəti ilə bağlı hərəkətlərin həyata keçirilməsi üçündür.

Müvafiq olaraq, aşağıdakı gömrük rüsumlarının növlərini ayırd etmək olar [3, s. 74]:

1) gömrük əməliyyatları üçün gömrük rüsumları
- mallar bəyan edilərkən və ya digər gömrük əməliyyatları aparılarkən ödənilən;

2) gömrük müşayiəti üçün gömrük yığımları - gömrük tranzitinin gömrük proseduruna uyğun olaraq malları daşıyan avtonəqliyyat vasitələrinin müşayiəti zamanı ödənilir;

3) saxlama üçün gömrük rüsumları - mallar müvəqqəti saxlama anbarında və ya gömrük orqanının gömrük anbarında saxlandıqda ödənilir.

Gömrük yığımları gömrük ödənişlərinin ödənilməsinə cavabdeh olan şəxslər tərəfindən müstəqil olaraq, habelə gömrük orqanları tərəfindən gömrük ödənişlərinin ödənilməsinə dair tələblər təqdim edilərkən hesablanır. Gömrük rüsumlarına ödənilməli olan məbləğlərin hesablanması Azərbaycanın milli valyutası - manat ilə aparılır.

**Ədəbiyyat**

1. Anikin S. B., Subyektlərin birgə yurisdiksiyasının inzibati və hüquqi tənzimlənməsi, Saratov: "Saratov Dövlət Hüquq Akademiyası" Ali Peşə Təhsili Dövlət Təhsil Müəssisəsinin Nəşriyyatı, 2010, 232 s.
2. Bakaeva O. Y., Gömrük hüququ, 2-ci nəşr, yenidən işlənmiş və əlavə. - M.: Hüquqşünas, 2007, 197 s.
3. Baramzin S. V., Gömrük fəaliyyətinin keyfiyyətinin idarə, -M .: Kitab və biznes, 2001, 203 s.
4. Gabrichidze B. N., Gömrük xidməti, - M.: Hüquq ədəbiyyatı, 1993, 294 s.
5. Denisov S. A., Gömrük orqanlarında idarəetmə, Barnaul: Altay İqtisadiyyat və Hüquq Akademiyasının nəşriyyatı, 2006, 321 s.

**РЕЗЮМЕ**
**ЭКОНОМИЧЕСКАЯ ПРИРОДА И ХАРАКТЕРИСТИКА ТАМОЖЕННЫХ ПОШЛИН**
***Ядигаров Е. А., Нуриев Б.М.***

***Ключевые слова:*** *таможня, таможенные платежи, таможенные тарифы, экономическая безопасность, импорт, экспорт*

Ставки таможенных пошлин устанавливаются Правительством Азербайджанской Республики. Контроль за правильностью, полнотой и своевременностью уплаты таможенных платежей при перемещении товаров через таможенную границу осуществляют таможенные органы. Важнейшей задачей таможенных органов в нашей стране является максимальное содействие внешнеэкономической деятельности на основе повышения качества и эффективности таможенного администрирования.

В настоящее время государственный бюджет любой страны формируется за счет налоговых и таможенных платежей. Таможенные сборы – обязательные платежи, взимаемые таможенными органами с лиц, участвующих в процессе перемещения товаров и транспортных средств через таможенную границу.

**SUMMARY**
**ECONOMIC NATURE AND CHARACTERISTICS OF CUSTOMS DUTIES**
***Yadigarov T.A., Nuriyev B.M.***

***Key words:*** *customs, customs payments, customs tariffs, economic security, import, export*

The rates of customs duties are determined by the Government of Azerbaijan. Control over the correctness, completeness and timely payment of customs duties during the transfer of goods through the customs border is carried out by the customs authorities. The most important task of customs authorities in our country is to provide maximum assistance to foreign trade activities based on increasing the quality and efficiency of customs administration.

Currently, the state budget of any country is based on tax and customs payments. Customs fees are mandatory payments received by customs authorities from persons participating in the process of moving goods and vehicles across the customs border.

# MİLLİ İQTİSADİYYATA İNVESTİSİYA AXINLARI ÜÇÜN ƏLVERİŞLİ MÜHİTİN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Yəhyayeva Aynurə Yusif qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*yehyayeva1@gmail.com*

***Açar sözlər:*** *investisiya, investisiya mühiti, xarici investisiya, investisiya fəaliyyəti, maliyyə, vergi*

Maliyyə vəsaitləri arasında mühüm yer investisiyalara verilir. Bunlar, cəmiyyətdə gedən bütün iqtisadi prosesin istiqamətini və intensivliyini müəyyənləşdirən xüsusi vəsaitlərdir. İnvestisiyaların axını daxili və xarici olmaqla iki istiqamətdə baş verir. Daxili axının səviyyəsinə kommersiya mənfəəti, amortizasiya, büdcə maliyyələşdirilməsi, bank kreditləri və əhalinin öz vəsaitləri təsir göstərir. Xarici investisiyalar xarici axının səviyyəsinə önəmli dərəcədə təsir göstərir. İnvestisiyaların bir hissəsi birbaşa dövlət tərəfindən reallaşdırılır. Dövlət investisiyaları ilk öncə dövlət investisiya proqramı ilə müəyyənləşdirilir ki, bu proqram cari məqsədlərə nail olmaq və uzunmüddətli inkişaf kontekstində iqtisadiyyatın nə qədər və hansı investisiyaya ehtiyacı olduğunu əks etdirir. İnvestisiya layihələrinin dövlət büdcəsindən birbaşa maliyyələşdirilməsi və ya dövlət maliyyə institutları tərəfindən güzəştli investisiya kreditlərinin verilməsi formasında dövlət investisiyaları investisiya fəaliyyətinin mühüm tərkib hissəsidir. Məhz buna görə də investisiya prosesinin mahiyyətinin və əsaslarının öyrənilməsi milli iqtisadiyyatda səmərəli təsərrüfat mexanizminin formalaşmasına imkan verir. Cəmiyyətdə investisiya fəaliyyətinə dövlət tənzimlənməsi ilə yanaşı, maliyyə bazarlarında daxili vəziyyət, investisiya alətlərinin mövcudluğu, əməliyyatlarda kifayət qədər ixtisaslı iştirakçılar, müvafiq infrastrukturun inkişafı önəmli təsir göstərir. Bu sahələrin hər biri ayrılıqda götürülsə, cəmiyyətdə əlverişli investisiya mühiti yaratmaq iqtidarında deyil.

İinvestisiya mexanizmi səmərəli dövlət tənzimləmə və nəzarət sisteminin formalaşmasını tələb edir. Bu mexanizm cəmiyyətdə investisiya fəaliyyətinin stimullaşdırılması üçün hərtərəfli hədəf konsepsiyası əsasında yaradıla bilər. Fikrimizcə, bu konsepsiyanın olmaması, ölkədə investisiya fəaliyyətinin effektivliyini önəmli dərəcədə azaldır. Xarici investorların daxili bazarda işləməyə münasibətini ölkədəki investisiya mühitinin vəziyyətinə görə qiymətləndirmək olar. Xarici investisiyaların dinamikasından investisiya baxımından ölkədə baş verən real vəziyyəti izləmək məqsədilə istifadə edilə bilər.

Azərbaycanda xarici investisiyaların dinamikasını aşağıdakı şəkildən müşahidə edə bilərik (şəkil 1).




**Şəkil 1. Azərbaycanda xarici investisiyaların dinamikası**

İstənilən mənbədən investisiya qoyuluşu korporativ inkişaf və ümumi iqtisadi artım üçün vacibdir. İnvestisiya prosesində dövlətin kifayət qədər iştirak etməsi xarici investoru iqtisadiyyatın real sektorunun inkişafının maliyyələşdirilməsinə stimul yarada bilər. Ölkənin dünya iqtisadi sisteminə inteqrasiyasını təmin etmək məqsədilə nəzərdə tutulmuş müasir investisiya siyasətinin prioritet vəzifəsi olan sektoral, regional, institusional və instrumental xarakterli bir sıra problemləri həll etmədən milli iqtisadiyyatın uğurlu inkişafı mümkün deyil.

Ölkə iqtisadiyyatına xarici sərmayələri cəlb etmək məqsədilə digər ölkələrlə müqayisədə daha əlverişli şərait yaratmaq lazımdır. Bunun üçün ölkəmizdə əsas amillərdən biri olan təbii ehtiyatlardır ki, onların da hasilatı və emalı böyük investisiya tələb edir. Dövlətin əsas vəzifəsi ölkədə mövcud olan investisiya mühitini səmərəli təşkil etməkdir. Bunun üçün sabit, dəyişməz investisiya qanunvericiliyi yaratmaq lazımdır, çünki o, həm investisiya fəaliyyəti üçün şəraitin sabitliyini, həm də zəruri imtiyazları möhkəmləndirməyə, təminat verməyə kömək edəcəkdir. Xüsusi investisiya qanunvericiliyi investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi və istifadəsi kimi mühüm vəzifənin həllinə töhfə verəcək, investorların hüquq və mənafelərini qoruyacaqdır.

Yerli və xarici investorlarla işin çox vacib və zəruri elementi informasiya dəstəyidir. İnformasiya dəstəyi investorları lazım olan məlumatlarla təmin etmək baxımından əhəmiyyətlidir [4, s.219].

İnvestisiyaların cəlb edilməsi və respublikanın investisiya reytinqinin və imicinin yaxşılaşdırılması məqsədilə investisiya qanunvericiliyinin təkmilləşdirilməsi zəruridir.

Ən ümumi formada investisiya fəaliyyəti aşağıdakılarla təkmilləşdirilir:

- əlverişli vergitutma sistemi və hesablama mexanizmləri;
- amortizasiya ayırmalarından istifadə;
- fərdi xarakter daşımayan xüsusi vergi rejimlərinin yaradılması;
- investorun maraqlarının qorunması;
- ölkə qanunvericiliyinə zidd olmayan torpaq və digər təbii sərvətlərdən istifadə məqsədilə investisiya fəaliyyəti subyektlərinin stimullarla təmin edilməsi;
- dövlət vəsaitlərindən və digər büdcədənkənar maliyyə mənbələrindən mənzil tikintisi, habelə sosial-mədəni obyektlərin tikintisi üçün istifadənin genişləndirilməsi;
- antiinhisar siyasəti üzrə tədbirlərin görülməsi;

- investisiya subyektlərinin fəaliyyətinin reytinq qiymətləndirilməsini reallaşdıran informasiya-analitik mərkəzlər şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi;

- maliyyə lizinqinin inkişaf etdirilməsi;

- investisiya fəaliyyəti subyektləri tərəfindən öz investisiya fondlarının formalaşdırılması üçün imkanların yaradılması;

- inflyasiyanın tempindən asılı olaraq əsas vəsaitlərin yenidən qiymətləndirilməsi.

İnvestisiya fəaliyyətinin formalaşmasında dövlətin birbaşa iştirakı aşağıdakı formalarda ola bilər:

- dövlət ehtiyacları məqsədilə texniki yenidən təchizat üçün tikinti layihələrinin və obyektlərinin siyahısının formalaşdırılması və dövlətl büdcəsindən ayrılan vəsaitlər hesabına onların maliyyələşdirilməsi;

- investisiya layihələri üçün müsabiqə əsasında dövlət zəmanətlərinin verilməsi;

- investisiya layihələrinin ekspertizası və s.

Dövlət investisiya fəaliyyətinin bütün subyektlərinə aşağıdakı sahələrdə təminat verməlidir:

- investisiya layihələrinin müzakirəsində şəffaflıq;

- investisiya fəaliyyətinin reallaşdırılmasında bərabər hüquqların təmin edilməsi;

- kapital qoyuluşlarının qorunması;

- hər hansı qərardan məhkəməyə şikayət etmək hüququ və s.

İnvestisiya mühitini əlverişli şəkildə formalaşdırarkən əsas meyarlarından biri investisiya resurslarının təmərküzləşməsinə və onların səmərəli bölüşdürülməsinə şərait yaradan tam hüquqlu kredit sisteminin mövcudluğudur. Ölkənin investisiya cəlbediciliyində qanunvericiliyin vəziyyəti, onun beynəlxalq tələblərə uyğunluğu, sabitliyi, hər kəs üçün öhdəliyi önəmli rol oynayır. Subyektlər arasında münasibətlər və islahatlar qanunla müəyyən edildikdə, onların sabitlik və davamlılıq ehtimalı yüksək olur, investorlarda gedən proseslərin sabitliyinə inam yaranır və ölkə investisiya üçün daha cəlbedici olur. İstənilən ölkədə investisiya mühitinin inkişafı istər investisiyaların cəlb edilməsi sahəsində, istərsə də iqtisadiyyatın digər sahələrində dövlət tərəfindən tənzimlənmə ilə müşayiət olunur.

Xarici kapitalın cəlb edilməsinin dövlət tənzimlənməsinin aşağıdakı üsulları fərqləndirilir:

- xarici investisiyaların stimullaşdırılması üsulları;

- xarici kapitalın daxil olmasını məhdudlaşdıran tədbirlər sistemi.

Xarici investisiyalar əsas sənaye sahələrinin və regionların bərpasını sürətləndirə, rəqabəti gücləndirə və biznesin inkişafına töhfə verə bilər [2, s.28].

Xarici investisiyaların stimullaşdırılması üsullarına aşağıdakılar daxildir:

- rezident ölkənin ərazisində xarici kapitalın iş rejimi (bəzi istisnalar və istisnalar nəzərdə tutula bilər);

- xarici investorlar üçün dövlət zəmanətləri sistemi;

- vergi tənzimlənməsi;

- valyuta tənzimlənməsi;

- gömrük tənzimlənməsi və s.

Bir sıra ölkələr xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması üzrə dövlət siyasətini reallaşdırarkən vergi güzəştlərindən çıxış edirlər. Bu stimullar vergi tənzimlənməsinin əsasını təşkil edir, məqsədi iqtisadiyyatın yüksəldilməsi və təkmilləşdirilməsidir.

Xarici investisiyalar sahəsində vergi tənzimlənməsinin alətləri bunlardır:

- investisiya subsidiyaları;

- vergi krediti;

- sürətlənmiş amortizasiya;

- investisiya endirimləri;

- dolayı vergitutma üçün stimullar, xüsusən də gömrük rüsumlarına təyin edilən dərəcələrin azaldılması.

Beləliklə, ölkənin investisiya mühiti mürəkkəb iqtisadi kateqoriyadır və milli iqtisadiyyata önəmli dərəcədə təsir göstərir, onun inkişafı təkcə investisiya siyasətinə deyil, həm də vergi, gömrük və s. təsir göstərir. İnvestisiya mühitini təhlil edərkən mümkün investisiya risklərini nəzərə almaq lazımdır. İnvestisiya mühitinin qiymətləndirilməsi investorları istiqamətləndirən müxtəlif metodlar və meyarlar əsasında reallaşdırlır. Əlverişli investisiya mühiti qabaqcıl texnologiya və idarəetmə üsullarına çıxış imkanı verən xarici kapitalın cəlb edilməsini aşağıdakı məqsədlər üçün stimullaşdırır:

- inkişaf etmiş ölkələrin bazarlarına çıxışı yaxşılaşdırmaq;

- vergitutma sistemi vasitəsilə dövlət büdcəsinə vəsaitlərin daxil olmasını təmin etmək;

- işçi heyətin məşğulluğunu və ixtisasını artırmaq və s.

İnvestisiya vəziyyətinin qiymətləndirilməsi investisiya mühitinin vəziyyətini müəyyənləşdirən bir sıra amillərdən asılıdır. Bu amillərin dəyişdirilməsi uzun müddət tələb edir, çünki onlar bütövlükdə cəmiyyətə və ölkə iqtisadiyyatının institusional strukturuna aiddir. İnvestisiya vəziyyətinə təsir edən amillər: obyektiv

(bunlara ölkədəki iqlim şəraiti, ölkənin demoqrafik vəziyyəti, coğrafi yerləşmə daxildir) və sahibkarların fəaliyyətinin bilavasitə idarə olunması ilə bağlı subyektiv amillərə bölünür. Əlverişli investisiya mühitinin yaradılmasına kömək edən hallara aşağıdakılar daxildir: aktiv dövlət dəstəyi, resursların aşağı qiyməti (əmək, maliyyə, xammal), sabit vergi sistemi, rəqabətin aşağı səviyyəsi. Ölkənin investisiya mühitinə təsir edən ən mühüm amillər şəkil 2-də göstərilmişdir.




**Şəkil 2. İnvestisiya mühitinin amilləri**

Bütövlükdə ölkənin investisiya mühiti aşağıdakı amillərlə müəyyənləşdirilir:

- siyasi amillər (millətlərarası münasibətlərin vəziyyəti, yerli hakimiyyət orqanlarının etimadı, investisiya üçün hüquqi şərtlər);
- sosial amillər (sosial münaqişələrin mövcudluğu, əhalinin həyat şəraiti, sosial gərginlik);
- iqtisadi amillər (regonun iqtisadi inkişaf tendensiyaları, investisiya fəallığının səviyyəsi, inflyasiyanın səviyyəsi, region iqtisadiyyatının strukturu);
- əmək amilləri (əmək resurslarının təhsil və peşə səviyyəsi, əmək ehtiyatlarının üstünlük təşkil etməsi, onların ixtisas səviyyəsi);
- ölkədə təbii ehtiyatların mövcudluğu və s [3, s.74].

Qanunvericilik və onun sabit mövqeyi investisiya mühitinin formalaşması baxımından heç də az önəm daşımır. Həmin mühitin formalaşmasında dövlətin siyasəti və inzibati aparatın fəaliyyəti də önəmli rol oynayır. Məlumdur ki, bütün amillər dövlətə tabe deyil (məsələn, coğrafi), lakin vergi siyasəti, dövlət tənzimlənməsi, maliyyə bazarlarının infrastrukturu və dövlət idarəçiliyinin keyfiyyətini müəyyənləşdirən bir çox başqa ümumi amillər dövlətdən asılıdır. Ölkədə əhalinin maddi vəziyyətinin pisləşməsi, sosial gərginlik xarici investorların qərar qəbul etməsinə öz təsirini göstərir. Sosial sahədə sabitlik investisiya vəziyyətində əsas amildir. İnfrastrukturun (nəqliyyat, telekommunikasiya və rabitə daxil olmaqla) inkişaf etməməsi də xarici investisiyaların daxil olması və xaricə axınının dinamikasına mənfi təsir göstərir.

Ümumiyyətlə, investisiya mühiti əlverişli və əlverişsiz ola bilər. Əlverişli investisiya mühiti ilə kapital axınını stimullaşdıran aktiv investisiya fəaliyyəti mövcuddur. Həmçinin, belə investisiya mühiti biznesi stimullaşdırır, yəni fəaliyyətin səmərəliliyi artır və bu da gəlirin və investisiya üçün mövcud olan kapitalın artmasına səbəb olur. Əlverişsiz iqlim şəraitində investorlar üçün risklərin artması müşahidə olunur, bütün bunlar investisiya aktivliyinin azalmasına və kapitalın xaricə axınına səbəb olur. Yüksək inflyasiya, büdcə kəsirləri və siyasi qeyri-sabitlik investisiya mühitinin inkişafına mane olan amillərdir.

İnvestisiya mühitinin səviyyəsi investisiya siyasəti ilə bağlıdır. İnvestisiya siyasəti təsərrüfat subyektlərinin fəaliyyətinin yaxşılaşdırılmasına, ölkədə iqtisadi proseslərin sabitləşdirilməsinə, habelə iqtisadi artımın təmin edilməsinə yönəldilmiş məqsədyönlü tədbirlər kompleksidir. İnvestisiya siyasətinin mühüm məqsədləri bunlardır: investisiya fəaliyyətinin stimullaşdırılması, investisiya resurslarının cəlb edilməsi, ölkə iqtisadiyyatının sabit fəaliyyətinin təmin edilməsi. İqtisadiyyatın sektorlarına investisiya qoyuluşunun meyarlarına da diqqət yetirilməlidir. Məsələn, xidmət və sənaye sektorları üçün investisiya qərarlarının verilməsində daxili bazarın ölçüsü və böyüməsi vacibdir. İqtisadiyyatın bütün sahələri üçün dövlətin fəaliyyəti önəm daşıyır ki, bu da ölkəyə investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı rıçaqların tətbiqi (investisiya stimulları, layihələrə dövlət dəstəyi) ilə bağlıdır. Sənayedə reallaşdırılan bir çox investisiya layihələri əməyin maya dəyərinə həssasdır.

İnvestisiya mühitinin obyektiv proqnozunu müəyyənləşdirən üsullar mövcud deyil. Əvvəla, bu, investisiya mühitinin qiymətləndirilməsinə yanaşmanın subyektiv olması ilə bağlıdır, çünki kapital bir bölgəyə və ya ölkəyə deyil, sənaye və ya müəssisələrə yatırılır. Odur ki, investor konkret risk faktorlarını nəzərə alaraq vəziyyəti özü qiymətləndirir və həmin mühitin yaxşılaşdırılması mexanizmi dövlətin investisiya prosesini tənzimlədiyi alətdir. Buraya regiona təsir göstərən iqtisadi metodlar və alətlər, habelə ölkədə əlverişli investisiya mühitinin yaradılması üzrə fəaliyyətin təşkili üçün prioritet istiqamətlər və prinsiplər daxildir. Mexanizm həmçinin investisiya mühitinə tənzimləyici təsirlərin effektivliyini təmin edən

investisiya prosesi iştirakçılarının münasibətlərinin və qarşılıqlı əlaqələrinin dövlət tərəfindən tənzimlənməsini də əhatə edir. Beləliklə, bütün əsas amillər iqtisadi inkişafın davamlı templəri, bazar institutlarının və siyasi sabitliyin mövcudluğu, inkişaf etmiş kredit-bank sisteminin mövcudluğudur. İnvestisiya mühitinin yaxşılaşdırılması üsullarına investorun öz biznesi və yatırdığı maliyyə resurslarından çəkinməməyə imkan verən iqtisadi sistemin yaradılması daxildir. Hazırkı istiqamət investisiya fəaliyyətinin stimullaşdırılmasının mütərəqqi metodunun tətbiq olunduğu prioritet inkişaf sahələrinin yaradılmasıdır. Əlverişli investisiya mühitinin yaradılması üzrə kompleks tədbirlərin uğurla reallaşdırılması ölkənin investisiya potensialından səmərəli istifadə etməyə imkan verəcək ki, bu da iqtisadiyyata və sosial sferaya sərmayələrin axınını təmin edəcək və ölkənin inkişaf səviyyəsinin yüksəlməsinə şərait yaradacaq.

### Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022, 748 s.
2. Богаревич, Н. О. Инвестиционный климат и методы регулирования процессами привлечения иностранных инвестиций / Н. О. Богаревич, Д. Г. Борисенок // Подольский научный вестник. – 2018. – № 3. – С. 23-28
3. Сабиров, О. Ш. К вопросу повышения инвестиционной привлекательности и создания благоприятного инвестиционного климата / О. Ш. Сабиров // Актуальные вопросы современной экономики. – 2020. – № 10. – С. 64-79
4. Хамурадов, М. А. Сущность и роль инвестиционных процессов в современных условиях / М. А. Хамурадов // Экономика и бизнес: теория и практика. – 2022. – № 12-2(94). – С. 217-219



**РЕЗЮМЕ**

**НАПРАВЛЕНИЯ СОЗДАНИЯ БЛАГОПРИЯТНОЙ СРЕДЫ ДЛЯ ИНВЕСТИЦИОННЫХ ПОТОКОВ В НАЦИОНАЛЬНУЮ ЭКОНОМИКУ**

***Яхьяева А.Ю.***

***Ключевые слова:*** *инвестиции, инвестиционная среда, иностранные инвестиции, инвестиционная деятельность, финансы, налоги*

В статье исследуется механизм создания благоприятной среды для притока инвестиций в национальную экономику. В целях привлечения инвестиций и повышения инвестиционного рейтинга и имиджа республики обоснована необходимость совершенствования инвестиционного законодательства с целью создания такой среды для всех инвесторов. В целях ускорения инвестиционных потоков разъяснены особенности их регулирования. Исследованы факторы, влияющие на формирование благоприятной инвестиционной среды.



**SUMMARY**

**DIRECTIONS FOR CREATING A FAVORABLE ENVIRONMENT FOR INVESTMENT FLOWS INTO THE NATIONAL ECONOMY**

***Yahyaeva A.Y.***

***Key words:*** *investments, investment environment, foreign investments, investment activity, finance, taxes*

The article deals with the mechanism for creating a favorable environment for the inflow of investments into the national economy. In order to attract investment and improve the investment rating and image of the republic, the need to improve investment legislation in order to create such an environment for all investors is substantiated. In order to accelerate investment flows, the features of their regulation are explained. The factors influencing the formation of a favorable investment environment have been studied.


# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI İSTEHSALÇILARININ MALİYYƏ VƏZİYYƏTİ


**Yusifova Kəmalə Xəlil qızı**

*Azərbaycan DillərUniversiteti, Bakı, Azərbaycan*

*yusifovakemale38@gmail.com*



***Açar sözlər:*** *kənd təsərrüfatı müəssisələri, maliyyə və təsərrüfat göstəriciləri, istehsal xərcləri, satış kanalları, rentabellik*


Rusiya ilə Azərbaycan arasındakı ticarət əlaqələrin, yük daşımaların çox hissəsi şimaldan dəmir yolu vasitəsi ilə həyata keçirilir. Açılan xətt işə düşdükdən sonra şimal qonşumuzdan gələn yüklər davamlı olaraq dəmir yolu ilə Ermənistan, İran və Türkiyəyə çatdırıla biləcəkdir. Bu kommunikasiyalar Çinin “Bir kəmər, bir yol” layihəsinin tamamlanması üçün bir vasitədir və bu məsələlərə geoiqtisadi baxımdan baxdıqda çox maraqlı imkanlar yaratdığını görürük. Gələcəkdə yeni qaz-kəmər layihələrinin həyata keçirilməsi, magistral və dəmir yollarının açılması regionun inkişafına müsbət təsir göstərəcəkdir.

Həyata keçiriləcək layihədə coğrafi mövqeyinə görə Türkiyənin iki müsbət iqtisadi üstünlüyü olacaqdır. Birincisi, marşrutlar diversifikasiya olunur. Marşrutların şaxələndirilməsi hər bir ölkə üçün çox vacibdir. Çünki sabah marşrutlardan birinin istifadə oluna bilməyəcəyi bir vəziyyət yarana bilər. Məsələn, Ermənistanla münaqişəmizin olması nəticəsində təxminən 30 il yollar bağlı qaldı. Bu baxımdan marşrutlar nə qədər diversifikasiya olunarlarsa, üstünlük də o qədər çox olur. Rusiyaya dəmir yolu və dəniz vasitəsilə iki marşrut üzərindən Türkiyənin Orta Asiyaya çıxışını üstünlük hesab etmək olar. Bu, ölkəmiz üçün iqtisadi üstünlük yaradan bir addımdır.

Prezident İlham Əliyev qeyd edib ki, müharibə bir çoxlarına Azərbaycanın potensialının nədən ibarət olduğunu göstərib: “İndi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz-Zəngilan dəmir yolu, ondan sonra Zəngilan-Naxçıvan dəmir yolu, Naxçıvan-Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də, həmçinin. Çünki hesab edirəm ki,

müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz-Ağbənd dəmir yolunun layihələndirilməsi başlasın. Artıq start verildi və digər layihələr də, həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin." [2]

2020-ci il 10 noyabr tarixli razılaşmadan əvvəl Azərbaycanla ilə Naxçıvan arasında birbaşa nəqliyyat əlaqələri yalnız hava yolu ilə olurdu. Bu nəqliyyat dəhlizinin açılması yükdaşımalarda idxal və ixracın daha ucuz qiymətlə başa gəlməsinə şərait yaradır. Beləliklə, ta qədimdən olduğu kimi Naxçıvan regional nəqliyyat sisteminin mərkəzi olacaqdır. Nəqliyyatın quru yolu ilə təşkil edilməsi büdcə gəlirlərini xeyli artıracaqdır.

Quru əlaqələrinin bərpası ilə beynəlxalq səviyyədə Asiya və Avropa arasında çoxtərəfli iqtisadi əlaqələrin inkişafında mövcud daha bir problem həll ediləcəkdir. Saziş bağlanmazdan əvvəl Azərbaycanla quru yolu ilə bağlı olan Naxçıvan MR mühüm regional və beynəlxalq tranzit layihələrindən kənarda qalmışdır. Blokadadan sonrakı dövrdə isə Naxçıvan Xəzər dənizi ilə Aralıq dənizi arasında bir körpü rolunu oynayacaqdır. İpək Yolu üzərində yerləşən ölkələr üçün təhlükəsiz, ucuz və sürətli daşınmanı təmin edəcəkdir. Bundan əlavə, Naxçıvan gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinə və planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmir yoluna inteqrasiya yolu ilə beynəlxalq yüklərin Avropaya daşınmasında əsas rol oynayacaqdır.

Naxçıvanla nəqliyyat-kommunikasiya sisteminin yaradılması məsafə və məhsulların çatdırılma sürəti baxımından da böyük əhəmiyyətə malikdir. Gələcəkdə Naxçıvan ərazisindən keçəcək quru yolu xətləri Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin uzunluğundan 343 km az olmaqla daşınmaların xərc və müddətini azaldacaqdır. Həmçinin, Naxçıvan vasitəsilə Türkiyəyə avtomobillə gediş məsafəsi qısaldığı üçün turistlərin ikitərəfli yerdəyişməsinin geniş vüsət alacağı gözlənilir. Əvvəlki illərə nəzər salsaq, təqribən 5-7 min turist Türkiyə və Naxçıvan arasında olan Dilucu sərhəd keçid məntəqəsindən istifadə etmişdir. Naxçıvanla quru yol bərpa edildikdən sonra Azərbaycanın digər bölgələrinə getmək istəyən turistlərin bu yoldan istifadə etməsi sayəsində bu rəqəmin artacağı proqnozlaşdırılır. Naxçıvan vasitəsilə ölkəyə girişin genişləndirilməsi Muxtar Respublikada turizmin inkişafına müsbət təsir göstərəcəkdir. [4]

Naxçıvan MR-ın ölkənin iştirak etdiyi hər bir ticarət layihələrindən uzaqda olmasına səbəb quru yolunun olmaması idi. Bununla da Naxçıvan iqtisadi blokadada qalırdı.

İqtisadi blokada dövründə hava nəqliyyatı və ya üçüncü ölkələrin ərazisindən keçməklə əlaqələr qurulurdu ki, bu da vaxt və əlavə xərc tələb edirdi. Naxçıvanla quru əlaqələrinin təmin olunması ilə Muxtar Respublika öz məhsullarını Azərbaycanın digər bölgələrinə, eyni zamanda Avropa və Asiyaya ixrac edə biləcəkdir. Postblokadadan sonrakı dövrdə nəqliyyat-kommunikasiya sistemini şaxələndirməklə Naxçıvan iqtisadi inkişafını sürətləndirərək, idxal xərclərinə qənaət edərək, ixracatı artıraraq və iqtisadi bazarda xarici investisiyalar cəlb edərək böyük bazarlarda tanınmağa nail olacaqdır.

Planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmir yolu vasitəsi ilə Azərbaycandan Türkiyəyə daşınacaq beynəlxalq yük daşımaların vaxtı azalacaq və iqtisadi səmərəliliyi artacaqdır. Bu da Azərbaycandan ixrac olunan məhsulların nəqliyyat xərclərini azaldacaqdır.

Naxçıvan dəhlizi bölgədəki digər ölkələrlə Rusiya arasındakı iqtisadi əlaqələrin möhkəmlənməsi, yükdaşımalarda vaxtın qısaldılması və xərclərin azaldılmasına köməklik göstərəcəkdir. Rusiya dəmir yolu şəbəkəsi Azərbaycan dəmir yolları ilə əlaqəli olduğuna görə Rusiyadan gələn qatarlar Naxçıvan dəhlizinə keçərək asanlıqla İran, Türkiyə və Ermənistana gedən xətlərə birləşdiriləcəkdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin hər zaman dediyi kimi əgər Ermənistan rəhbərliyi "faşizm siyasəti"ndən əl çəkərək mehriban qonşuluq şəraitində yaşamaq istəyərlərsə, regionda həyata keçiriləcək iri layihələrdən bəhrələnə biləcəkdir. Ermənistan Naxçıvan dəhlizindən istifadə edərək iqtisadi blokadadan çıxaraq, regional nəqliyyat layihələrinə qoşula bilər və ən əsası Avrasiya İqtisadi Birliyinin (AİB) bazarlarına çıxış əldə edə bilər.

Beləliklə, bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən nəqliyyat strategiyasının timsalında aparılan araşdırmalar deməyə əsas verir ki, "Azərbaycan dünyaya günəş kimi doğacaq" söyləyən Ulu Öndərin bu arzusu da çin olmaqdadır

**Ədəbiyyat**


1. https://www.bbc.com/azeri/azerbaijan-55666386
2.(https://www.iqtisadiislahat.org/news/regional_neqliyyat_kommunikasiya_sisteminin_yeni_qovsagi_naxcivan_mr-1070
3. https://www.bbc.com/azeri/azerbaijan-55666386
4. https://www.bbc.com/azeri/azerbaijan-55666386

**РЕЗЮМЕ**
**СОЗДАНИЕ ТРАНСПОРТНО-ЛОГИСТИЧЕСКОЙ ИНФРАСТРУКТУРЫ В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОМ ЭКОНОМИЧЕСКИХ ОБЛАСТЯХ**
***Абдуллаева Ш.Г.***

***Ключевые слова:*** *инфраструктура, логистика, транспортная система, интеграция, связь, региональное сотрудничество*

Одним из приоритетных направлений для Азербайджана сегодня является восстановление дорожно-транспортной инфраструктуры, увеличение возможностей доступа из карабахского региона в Евразию, международные перевозки и коммуникации, а также усиление деятельности в проектах коридора. Следовательно, одним из основных факторов является установление высокого уровня экономических и транспортных связей в регионе Южного Кавказа, укрепление экономических и политических отношений в этом направлении. Создание транспортно-коммуникационной системы с Нахчываном также имеет большое значение с точки зрения дальности и скорости доставки продукции.

**SUMMARY**
**CREATION OF TRANSPORTATION AND LOGISTICS INFRASTRUCTURE IN KARABAGH AND EASTERN ZANGAZUR ECONOMIC REGIONS**
***Abdullayeva Sh.H.***

***Key words:*** *infrastructure, logistics, transport system, integration, communication, regional cooperation*

One of the priority areas for Azerbaijan today is the restoration of theroad and transport infrastructure, increasing access opportunities from the Karabakh region to Eurasia, international transport and communication, as well as strengthening activities inthe corridor projects. This is not accidental. Because one of them ainfactors is the establishment of high-level economic and transport relations in the South Caucasus region, and the streng thening of economic and political relations in this direction. The creation of a transport and communication system with Nakhchivani salso of great importance interms of distance and speed of product delivery.

## İQTİSADİ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İXRAC SİYASƏTİ VƏ ONUN STİMULLAŞDIRILMASI

**Aslanov Habil Hüseyn oğlu, Eyvazov Zöhrab Səməd oglu**

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
*dosent1966@mail.ru*

***Açar sözlər:*** *iqtisadi qloballaşma, beynəlxalq ticarət, ixrac potensialı, ixrac siyasəti, xarici ticarətin səmərəliliyi, rəqabətqabiliyyətliliyi, ixrac kvotası, idxal kvotası*

Bəşəriyyətin mövcud olduğu tarixdə iqtisadi inkişaf təcrübəsinə nəzər salsaq görərik ki, xarici ticarət əlaqələri ölkələrin iqtisadi və sosial rifaha çatmasında əhəmiyyətli rol oynamışdır və hazırda da oynayır.

Beynəlxalq ticarət-bir ölkənin digər ölkə ilə ticarətidir. O, malların idxalı və ixracından ibarətdir. Bütövlükdə ölkələrin xarici ticarəti beynəlxalq ticarəti formalaşdırır.

Müasir dünyada gedən qloballaşma prosesləri şəraitində milli iqtisadiyyatın yaranması, təkamülü və inkişaf etməsi təkcə daxili imkanlar hesabına deyil, həm də xeyli dərəcədə beynəlxalq səviyyədə mövcud olan ticarət əlaqələrindən daha geniş və səmərəli səviyyədə yararlanmaqla caizdir. Əgər hər hansı bir ölkə beynəlxalq ticarət əlaqələrində iştirak edirsə, bu həmin ölkəyə beynəlxalq əmək bölgüsünün ortaya çıxardığı iqtisadi və strateji faydalardan yararlanmaqla yeni perspektivlər açır, bu istiqamətə iqtisadi inkişafın yüksəldilməsi hədəfini seçən ölkə mövcud ixrac potensialını inkişaf etdirmək və səmərəli istifadə etmək imkanı əldə edir.

Elmi ədəbiyyatda ölkənin ixrac potensialı dedikdə onun elə tərkib hissəsi göz önünə gəlir ki, iqtisadi potensialın ixrac məqsədləri üçün istifadə oluna bilsin. Bu potensiala aşağıdakı amilləri aid edə bilərik ki, onlar da ixrac üçün mal və xidmətlərin istehsalı və ixracında istifadə olunur və ya istifadə oluna bilir: təbii-iqtisadi və texniki-iqtisadi, elmi-texniki potensial, xarici ticarətə xidmət edən infrastruktur, əmək resursları və başqaları.

Qabaqcıl dünya ölkələrinin təcrübəsi sübut edir ki, istehsal olunan məhsul və göstərilən xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, milli iqtisadiyyatın ixrac yönümün təşviq edən şərtlərin formalaşdırılması, istehsalda mütərəqqi texnologiyaların tətbiq edilməsi, ÜDM-də elmi istehsalın payının artırılması, ixracın strukturunun inkişaf etdirilməsi və s. amillərin hesabına ölkənin ixrac potensialının inkişafı təmin oluna bilər.

Ölkənin ixrac potensialının inkişafı problemləri və onu hərtərəfli müəyyən edən amillər beynəlxalq

ticarətə aid həm klassik, həm də müasir nəzəriyyələr müstəvisində geniş şəkildə araşdırılmışdır. Əgər klassik nəzəriyyələrə diqqət yetirsək bu amillərin əsas etibarı ilə ölkələrin malik olduğu təbii və istehsal amilinin üstünlükləri ilə müəyyən edildiyinin şahidi olarıq. Klassik nəzəriyyə təmsilçilərinin rəyinə görə, ölkələr elə malların istehsalı və ixracı üzrə ixtisaslaşmalıdırlar ki, onların istehsalında üstünlüyə malik olan amillərdən maksimum istifadə edilsin. Hərçənd yaddan çıxarmayaq ki, ölkənin ixrac potensialının inkişafını istehsal prosesinə qatılan amillərin sayının artması ilə məhdudlaşdırmaq olmaz. Burada elə müsbət cəhətlərə xüsusi diqqət yetirilməlidir ki, onlar elm və texnikanın inkişafın ən son nailiyyətlərini özündə əks etdirsin, elmi-texniki tərəqqi ilə ayaqlaşsın, eyni zamanda beynəlxalq ticarət əlaqələrinin inkişafı, beynəlxalq əmək bölgüsünün dərinləşməsinin nəticəsi olaraq ortaya çıxsın. Onu da qeyd edək ki, klassiklərdən sonra bu nəzəriyyə daha da təkmilləşdirilmiş, müasir ticarət nəzəriyyələrində iqtisadçılar bu amilləri nəzərə almışlar. Bu sırada əsas yer ölkənin rəqabət üstünlükləri nəzəriyyəsinə məxsusdur. Bu sahədə dünyada olan təcrübələrə istinad etsək görərik ki, güclü rəqabət şəraiti formalaşdırmadan ixracın inkişafı və onun strukturunun təkmilləşdrilməsi haqqında danışmaq imkanları məhduddur. Beləliklə, rəqabət üstünlükləri nəzəriyyəsinə əsasən fikir yürüdə bilərik ki, hər hansı bir ölkənin və ya ayrıca firmanın ixrac potensialını inkişaf etdirə bilməsi amili onların malik olduqları rəqabət üstünlükləri ilə birbaşa bağlıdır. Rəqabət üstünlükləri nəzəriyyəsinin yaradıcısı M.Porter hesab edilir. O qeyri-maddi istehsal şərtlərinin ölkənin rəqabət üstünlüklərinə təsirini tədqiq etmişdir. Bu zaman M.Porter ənənəvi istehsal amilləri ilə kifayətlənməmiş, bu sıraya yeni istehsal amilləri olan elmi-texniki informasiya və istehsal prosesində meydana çıxan bazar infrastrukturu, əmək məhsuldarlığının yüksəldilməsi və s. amillərini də əlavə etmişdir. Həm də unutmayaq ki, xidmətedici və yardımçı sahələrin inkişaf səviyyəsi və vəziyyəti rəqabət üstünlüyünün formalaşdırlmasının digər başlıca şərti hesab edilir.

Qeyd edək ki, ölkənin xarici bazarda rəqabət qabiliyyətliyinin təmin edilməsində firmanın seçdiyi strategiya və təşkilati strukturun da mühüm rolu vardır. Rəqabət şəraitində səmərəli fəaliyyəti təmin edən konkret strategiyanın olmaması nəticəsində firmalar üçün xarici bazarda rəqabət üstünlükləri mövcud olmur.

Qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, beynəlxalq ticarət nəzəriyyələrinin təhlili nəinki ixrac potensialının inkişafının mənbəyi və onu şərtləndirən amilləri izah etməyə imkan verir, eyni zamanda onların müxtəlif ölkələrdə inkişaf etdirilməsi xüsusiyyətlərini də açıb göstərir. Belə ki, əgər ixrac potensialının inkişaf etdirilməsi məqsədilə istifadə olunan məhsulun rəqabət qabiliyyətliyinin yüksəldilməsi, istehsalda qabaqcıl texnologiyalardan istifadə edilməsi, elm tutumlu məhsul buraxılışının həcminin artırılması və s. bu kimi amillər inkişaf etmiş ölkələrə xas olsa da, onlarla müqayisədə ucuz və ixtisassız işçi qüvvəsi, aşağı iqtisadi və elmi-texniki inkişaf səviyyəsinə malik olan zəif inkişaf etmiş ölkələrdə də ixrac potensialının inkişafı üçün kifayət qədər əlverişli zəmin vardır.

Bu müddəalar əsasında, beynəlxalq ticarət təcrübəsi və müxtəlif ölkələrin inkişaf səviyyəsi, BƏB-də malik olduğu üstünlüklər və s. nəzərə alınmaqla xarici ticarət modellərinin prinsipləri işlənib hazırlanır. Bu modellər idxalı əvəzetmə və ixrac yönümlü modellərə ayrılır və yeni sənaye ölkələrinin iqtisadi inkişafında istifadə olunmaqdadır.

Qeyd etmək lazımdır ki, ölkələr idxalı əvəzetmə modeli ilə başlayıb daha sonralar isə ixrac yönümlü sənayeləşməyə üstünlük veriblər.

İxrac yönümlü modelin seçilməsində əsas məqsəd ixrac potensialının inkişafını yüksək texnoloji və emal səviyyəsinə malik beynəlxalq standartlara cavab verən, başqa sözlə, dünya bazarında rəqabətqabiliyyətli məhsul istehsalına yönəltməkdən ibarətdir.

Bir qayda olaraq xammal ixrac edən ölkələr arasında, əsasən, tarixən zəif inkişaf etmiş ölkələr yer alır. Bununla belə, ölkənin aşağıdakı səbəblərdən xammal hesabına ixrac potensialını genişləndirmək imkanları məhduddur: inkişaf etmiş ölkələrdə xammala tələbatın az olması; proteksionis yönlü siyasət; xammala qənaət etmək imkanları yaradan texnologiyalardan geniş şəkildə istifadə; sintetik əvəzləyicilərin tətbiqi və başqaları. Son sənaye inqilabları dövründə müqayisəli üstünlüklərin bilik tutumlu sektorlara doğru dəyişdiyini nəzərə alsaq, ixracın strukturunda əmtəəyönümlü istehsal sektorunun, əsas etibarı ilə elm tutumlu və kapitalın üstün çəkiyə malik olduğu məhsulların payının artırılması daha məqsədəuyğun və perspektivli təsir bağışlayır.

Burada ixrac potensialının düzgün və dəqiq qiymətləndirilməsi ixrac potensialından səmərəli istifadə edilməsi, elmi-texniki tərəqqi və ekoloji siyasətin təkmilləşdirilməsi üzrə daha səmərəli istiqamətlərin müəyyənləşdirilməsinin əsaslandırılması üçün ilkin şərt kimi çıxış edir. Ölkənin ixrac potensialının iqtisadi baxımdan kəmiyyətcə qiymətləndirilməsi demək olar ki, bütün ölkələrdə labüd olaraq həyata keçirilir.

Qiymətləndirmənin əsas məqsədi ayrı-ayrı ölkələrdə müəyyən məqsədə xidmət edir. Bəzilərində bu ondan istifadənin səmərəliliyini müəyyənləşdirmək, bəzilərində isə əmtəə-pul münasibətlərinin inkişaf səviyyəsini müəyyən etmək üçün lazımdır. Məhz bu baxımdan ölkənin ixrac potensialının qiymətləndirilməsi praktikasında iqtisadi qiymətləndirmə metodunun əsas meyarları kimi həmin ümumi

məqsəd və parametrləri qəbul edə bilərik.

Ölkə iqtisadiyyatında ümumiyyətlə, xarici ticarətin qiymətləndirilməsi üçün mal və xidmətin ixracı və idxalının ümumi daxili məhsulda payını xarakterizə edən göstəriciləri istifadə edirlər. Bu göstərici müvafiq olaraq "ixrac" və ya "idxal" kvotası adlanır.

Bu göstəricilər iqtisadiyyatın açıqlığının miqdar indikatorlarıdırlar. Onların kombinasiyası ayrı-ayrı ölkələrin iqtisadiyyatının dünya bazarı ilə əlaqələrinin miqyası haqqında təsəvvür yaradır. Qeyd etdiyimiz kimi, ixrac kvotası haqqında təsəvvür yaradır. Qeyd etdiyimiz kimi, ixrac kvotası ixracın ÜDM-ə nisbəti kimi müəyyən olunur.

Qeyd etmək lazımdır ki, ixrac kvotası böyük analitik əhəmiyyət kəsb edir. Onun ÜDM-də payı ölkənin dünya bazarında müəyyən miqdarda məhsul istehsal etmək imkanının, ölkə resurslarının dünya təsərrüfat sisteminə cəlb edilməsi səviyyəsini və bu səviyyənin dəyişmə perspektivini, yəni, beynəlxalq əmək bölgüsündə iştirakının dəyişmə tendensiyasını göstərir.

İxrac dünya bazarında rəqabəti nəzərə almaqla buraxılan milli məhsulun və bütövlükdə istehsalın keyfiyyətinin texniki-iqtisadı səviyyəsini təmin etməli; ölkə regionlarının inkişafının sürətlənməsini və yerli müəssisələrin yüksək texniki təchizatlandırılmasını təmin etməlidir.

Xarici ticarətin səmərəliliyini müəyyən edən amillərə diqqət yetirsək onların çoxşaxəli olduğunu görə bilərik. Bura idxal və ixrac qiymətlərindən tutmuş gəlir və qiymətlər üzrə ixrac və idxala olan tələbin elastikliyi, eyni zamanda xarici ticarətin strukturunda sahəvi və coğrafi irəliləyişlər, həmçinin ixrac və idxalın bir-birinə nisbəti kimi amillər daxildir.

Makroiqtisadi müqayisəli üstünlüklər baxımından amillərin iqtisadi səmərəliliyi xarici ticarətin sabit qiymətlərlə fiziki həcminin artması ilə ölçüldüyü halda, sözügedən göstərici baxımından maliyyə səmərəliliyi xarici ticarətin cari qiymətlərlə artması ilə qiymətləndirilir. Əgər mütləq üstünlüklər meyarı ilə xarakterizə etsək, bu amillərin səmərəliliyinin ölkənin ticarət balansı ilə uzlaşdığına əmin ola bilərik. Xarici ticarətin mütləq üstünlüyü həm də ölkənin ixrac sektorunda və iqtisadiyyatın idxalı əvəzləyən sahələrində nə qədər amilin sərf olunması ilə müəyyən olunur.

Texnologiyaların yüksək inkişaf etdiyi indiki şəraitdə "intellektləşdirilmə" ixracın səmərəliliyini müəyyən edən əsas meyldir. Bu, əsasən, ölkənin ticarət əlaqələrini genişləndirərkən xammal, materialların xüsusi çəkisinin azaltması, qeyri-maddi aktivlərin, yüksək texnologiyalı məhsulların, "nou-hau", lisenziya, patentlərin alqı-satqısının payının yüksəltməsi ilə əlaqədardır.

Yuxarıda qeyd etdiyimiz amillərlə yanaşı ixracın səmərəliliyi və dinamikasından danışarkən ona əhəmiyyətli təsir dərəcəsinə malik olan inteqrasiya proseslərini də yaddan çıxarmamalıyıq. Məhz inteqrasiya proseslərinin təsiri sayəsində regional bazarlar formalaşır və inkişaf yoluna qədəm qoyur. Ancaq bu hal, ilk növbədə, iqtisadi cəhətdən az inkişaf etmiş ölkələrə şamil edilir.

Bu istiqamətdə fikirlərimizi davam etdirərək qeyd edə bilərik ki, xarici ticarət siyasətinin liberallaşdırılması ixracın uzun müddətə hesablanmış səmərəliliyinin artırılmasının əsas şərtlərindən biri kimi çıxış edir. Bu prosesdə əsas istiqamətlərdən biri kimi beynəlxalq mübadilə zamanı qeyri-tarif baryerlərinin və kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması önə çıxır.

Uzun illərin toplanmış təcrübəsi sübut edir ki, mütləq üstünlüklərin artırılmasının ən təsirli metodlarından biri kimi ölkələrin iqtisadiyyatının ixrac sektoruna XBİ-lərin (xarici birbaşa investisiyalar) cəlb edilməsi xüsusi rol oynayır. Nəzərə almaq lazımdır ki, XBİ-lər yüksək texnoloji imkanlara malik məhsulların istehsalı üçün lazım olan avadanlıqların, "nou-hau"ların idxalı ilə müşayiət olunduğu üçün hərtərəfli faydalıdır.

İxracın səmərəliliyinin artırılmasının vacib şərtləri sırasına vacib bir məsələni də əlavə etmək gərəkdir. Bu ilk növbədə onun beynəlxalq ixtisaslaşması və beynəlxalq ticarətə uyğun diversifıkasiyalaşmasının yüksək səviyyədə emal olunmuş hazır məhsulun xüsusi çəkisinin artırılmasını tələb etməsi ilə bağlıdır.

İxracın inkişafı və onun səmərəliliyinin artırılmasında beynəlxalq sərgi, yarmarka, seminar və konfransların təşkili və onların keçirilməsinin xüsusi əhəmiyyəti vardır. Ölkəyə və onun regionlarına xarici investisiyaların cəlb edilməsinin üsullarından biri xarici tərəfdaşlarla bütün mümkün səviyyələrdə-region, vilayət, ayrı-ayrı şəhərlər üzrə əlaqələrin araşdırılması, danışıqların aparılmasıdır. Belə danışıqlar əməkdaşlıq, sərhədyanı ticarətin inkişafı və s. haqqında layihələri özündə birləşdirməlidir.

Heç şübhəsiz ki, kütləvi kommunikasiya sisteminin qlobal inkişafı ixracın səmərəliliyinin artırılmasına təsir edir. Xarici ticarət əlaqələrinin informasiya təminatının lazımi səviyyəsi ixrac-idxal mallarının dünya bazarı konyunkturasının monitorinqinin aparılmasına imkan verir. Bu isə cari struktur dəyişikliklər hesabına ixracın səmərəliliyinin yüksəldilməsinə müsbət təsir göstərir.

Əgər təhlil obyektimizə ölkənin ixrac strukturunu da əlavə etsək görərik ki, xarici bazarlarla təmasda olmaq baxımından sənaye istehsalının nisbətən cüzi hissəsi bu prosesdə iştirak edir. Araşdırmamızı daha da

dərinləşdirsək bu istiqamətlərdə xüsusilə əmək və resurs tutumlu istehsal sahələrinin - maşınqayırma, kimya, yüngül və yeyinti sənayesinin təmsil olunduğu qənaətinə gələrik, sonuncuların isə milli sərhədlər çərçivəsindən kənara çıxmadığı bəllidir. Azərbaycan beynəlxalq əmək bölgüsündə neft hasilatı və emalı sənayesi sahələri ilə təmsil olunduğu üçün bu sahələr həm də inteqrasiya proseslərində yaxından iştirak edir və onların ixracda xüsusi payı yüksəkdir.

Qeyd olunanlardan həm də belə nəticə hasil olur ki, ölkənin beynəlxalq əmək bölgüsü prosesində iştirakı nöqteyi-nəzərindən emal sənayesi müəyyən dərəcədə sahələrarası xarakter daşıyır və bu səviyyədə həyata keçirilir. Məhz bu mövqedən çıxış edərək ölkəmiz özünün milli əmtəə bazarlarının daha çox hissəsini tədricən xarici istehsalçılara vermək məcburiyyətində qalır.

Bununla yanaşı güzəştli şərtlərlə verilən ixrac kreditlərini, dövlət sığortasını, müxtəlif zəmanətləri və vergi güzəştlərinin verilməsini ixracın stimullaşdırılmasının digər üsulları sırasına qoşmaq olar. Çox vaxt kadrların hazırlanması xərclərini, dünya bazarı konyunkturunun tədqiqi, milli ixracatçıların xaricdə maraqlarının müdafiəsini dövlət öz üzərinə götürür.

Hazırda ölkəmizdə də ixrac üzrə dövlət yardımı sisteminin yaradılması üçün hərtərəfli tədbirlər görülməkdədir. Bu nöqteyi-nəzərdən ölkənin ixrac potensialının genişləndirilməsinə bir sıra obyektiv və subyektiv amillərin təsir göstərməsi də təbiidir. Birmənalı olaraq Azərbaycanda idxalı əvəz edən sənayeləşdirmə siyasətinin həyata keçirilməsinin ölkəmizin reallıqları baxımından zəruri olduğunu qəbul edirik və bu prosesdə idxalda ortaya çıxan kəskin dəyişikliklərin ümumiqtisadi münasibətlərə mənfi təsir göstərdiyini, idxalda olan artımın milli istehsalın aşağı düşməsinə və ixracın azalmasına gətirib çıxardığını, tarif məhdudiyyətlərinin tətbiqinin xarici investisiyaları ölkə daxilinə yönəltməklə milli iqtisadiyyatın simasını formalaşdıran sahələrin xarici iş adamları tərəfindən ələ keçirilməsinə səbəb olmasını nəzərə almalıyıq.

Qeyd edək ki, bəlli mal və yaxud mal qrupu üzrə idxalı əvəz edən istehsal sahələri təşkil olunmazdan əvvəl əldə olan resurslar, onların tətbiq edilməsi intensivliyi, istehsal xərclərinin həddi və məhsulların alternativ dəyəri qabaqcadan müəyyənləşdirilməlidir. Söz yox ki, bir sıra məhsullar üzrə idxalı əvəz edən istehsalın təşkil edilməsi ölkəmiz üçün də vacibdir, bura, xüsusilə, xarici asılılığımızın daha çox olduğu və daxili tələbatda mühüm yer tutan məhsullar (məsələn, taxıl) daxildir. Bu və ya digər variantlarda idxalın daxili istehsalla əvəz edilməsində ölkənin imkanlarını mütləq nəzərə almalıyıq. Bura resursların məhdud olması və uzunmüddətli vaxt intervalında intensiv ifadənin mümkünlüyü, eyni zamanda effektivliyi nöqteyi-nəzərindən resurs və texnologiyaların müxtəlif birləşmələrini həyata keçirmək imkanı daxildir. Belə bir təcrübə də məlumdur ki, xammal resurslarının hasilatının xarici tərəfdaşsız həyata keçirilməsinin mümkün olmadığı ölkələrdə idxalın əvəz edilməsi modeli heç də həmişə uğurla nəticələnmir.

Hazırda ölkəmizdə ixracın genişləndirilməsi strategiyası həyata keçirilir ki, o da idxalı əvəz edən siyasətin bir sıra elementlərini özündə ehtiva edir. Bu istiqamətdə xarici ticarət strategiyamızın son məqsədinə bunlar daxildir: ölkənin daxili bazarının idxal asılılığından qurtulması; xammal yönümlü ixrac siyasətinin bitməsi; Respublikanın elmi-texniki potensialının inkişafına hərtərəfli dəstək verilməsi. Araşdırmanın gedişində toxunduğumuz kimi, ölkənin ixrac qabiliyyətinin stimullaşdırılması və idxalı əvəz edən siyasətin uyğunlaşdırılması bir sıra obyektiv tələblərdən irəli gəlir. Həmin sıraya ölkənin daxili bazarının kasad olması, vahid iqtisadi kompleksin nisbətən zəif inkişaf etməsi, əsas sənaye sahəsinin və ixracın xammal yönümündə ixtisaslaşması, nəqliyyat və kommunikasiya sektorunda müasir tələblərə cavab verən və nisbətən qeyri-təkmil infrastrukturun mövcudluğu, eləcə də bir sıra istisnaları çıxmaq şərti ilə sənaye istehsalının kifayət qədər məhdud olması aiddir. Bu səbəblər üzündən Azərbaycan dövlətinin milli inkişafının çağdaş mərhələsində xarici ticarət siyasətinin idxalı əvəz edən sənayeləşmə üzərində qurulmasını, sonrakı mərhələdə isə ixracın genişləndirilməsini zəruri hesab edirik.

## Ədəbiyyat

1. Nadirov A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, Elm-2005.
2. Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. Dünya iqtisadiyyatı. Müasir dövrün problemləri. Bakı, 2003, 455 s.
3. Şəkərəliyev A., Şəkərəliyeva Z. Xarici iqtisadi fəaliyyətin gömrük tarif tənzimlənməsi. Bakı, 2006, 228 s.
4. Şəkərəliyev A., Əliyev Ş, Cavadov M. Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri. Bakı, 2004, 234 s.
5. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, 2003, 228 s.
6. Əliyev A. Azərbaycanın iqtisadi siyasəti. Bakı, 2003, 324 s.
7. Beynəlxalq Valyuta Fondunun rəsmi internet saytı: www.imf.az
8. Vəliyev D. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarlarına inteqrasiyası. Bakı, 2006, 242 s.
9. Dünya Bankı Qrupunun rəsmi internet saytı: www.worldbank.az
10. Stiqlits C. Qloballaşma və onun doğurduğu narazılıqlar. Bakı, İqtisadi İslahatlar Mərkəzi - 2004. 318 s.

11. İxrac və İnvestisiyaların Təşviqi Fondu. İllik hesabat - 2017. Bakı - 2018.

**РЕЗЮМЕ**
**ЭКСПОРТНАЯ ПОЛИТИКА И ЕЕ СТИМУЛИРОВАНИЕ В УСЛОВИЯХ ЭКОНОМИЧЕСКОЙ ГЛОБАЛИЗАЦИИ**
***Асланов Х.Х., Эйвазов З.С.***

***Ключевые слова:*** *экономическая глобализация, международная торговля, экспортный потенциал, экспортная политика, эффективность внешней торговли, конкурентоспособность, экспортная квота, импортная квота*

Ни одна страна мира, даже самая большая и развитая, не имеет такого имиджа,не может эффективно производить современную продукцию. Конечно, отдельные страны или группы стран производят продукцию такой номенклатуры, что для них здесь более благоприятные условия. На основе этого устанавливается специализация и кооперация стран. В это время производят тот или иной товар в таком объеме, чтобы он удовлетворял спрос внутреннего рынка, а затем его экспортируют на внешний рынок. На основе этого создается и развивается товарный обмен, формируется единая мировая экономика.

В этом смысле можно сказать, что международная торговля, с одной стороны, определяет международное разделение труда, а с другой стороны, повышает эффективность внутренней экономики стран-участниц.

**SUMMARY**
**EXPORT POLICY AND ITS STIMULATION IN THE CONDITION OF ECONOMIC GLOBALIZATION**
***Aslanov H.H., Eyvazov Z.S.***

***Key words:*** *economic globalization, international trade, export potential, export policy, foreign trade efficiency, competitiveness, export quota, import quota*

No country in the world, even the largest and most developed country, has the same image cannot efficiently produce modern goods. Of course, individual countries or groups of countries produce products of such nomenclature that they have more favorable conditions here. Based on this, the specialization and cooperation of countries is established. At this time, they produce this or that product in such a volume that it satisfies the demand of the domestic market, and then it is exported to the foreign market. On the basis of this, commodity exchange is created and developed, and a single world economy is formed.

In this sense, it can be said that international trade, on the one hand, determines the international division of labor, and on the other hand, it increases the efficiency of the domestic economy of the participating countries.

# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRDƏ MALİYYƏ AMİLLƏRİNİN MAHİYYƏTİ VƏ ONLARIN AZƏRBAYCAN İQTİSADİYYATINDA ROLU

**Aslanov Xəzər Əkbər oğlu**
*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*
*xezer.aslan@gmail.com*

***Açar sözlər***: *iqtisadiyyat, məşğulluq, maliyyə, büdcə, nəzəriyyə*

Qlobal iqtisadiyyat daim inkişaf edən mürəkkəb sistemdir və onun dinamikasının formalaşmasında maliyyə amilləri həlledici rol oynayır. Bu amillər ölkələr arasında iqtisadi artıma, ticarətə və investisiya axınına əhəmiyyətli təsir göstərir. Bu məqalədə biz beynəlxalq iqtisadiyyata təsir edən bəzi əsas maliyyə amillərini müzakirə edəcəyik.

Valyuta məzənnələri valyuta bazarında müxtəlif valyutaların alındığı qiymətlərdir. Onlar müxtəlif valyutaların nisbi dəyərinin və nəticədə ölkənin ixracatının rəqabət qabiliyyətinin müəyyən edilməsində mühüm rol oynayırlar. Daha zəif valyuta bir ölkənin ixracını ucuzlaşdıra bilər, bu da tələbi artıra və iqtisadi artımı artıra bilər. Əksinə, daha güclü valyuta ixracı bahalaşdıra bilər ki, bu da tələbi azaldar və artımı ləngidər. Valyuta məzənnələri kapital axınına da təsir etmək imkanına malikdir. Bir ölkənin valyutası zəif olduqda, xarici investorlar öz pullarına daha çox aktiv ala bildikləri üçün həmin ölkəyə investisiya qoymağı cəlbedici hesab edə bilərlər. Bu, ölkəyə xarici kapital axınına səbəb ola bilər ki, bu da iqtisadi artımı stimullaşdırar. Digər tərəfdən, güclü valyuta bir ölkənin xarici sərmayəni cəlb etməsini çətinləşdirər, çünki investorlar öz pulları üçün o qədər dəyər əldə edə bilməzlər.

Faiz dərəcələri borcalanların kredit əldə edə biləcəyi və borc verənlərin investisiyalarından gəlir əldə edə biləcəyi qiymətlərdir. Onlar borclanmanın dəyərinə və əmanətlərin gəlirlərinə təsir edir ki, bu da öz növbəsində istehlak və investisiya modellərinə təsir göstərir [2]. Yüksək faiz dərəcələri borc almağı bahalaşdıra bilər ki, bu da istehlakı və investisiyaları azalda bilər. Əksinə olduda isə, aşağı faiz dərəcələri borc almağı stimullaşdıra, istehlakı və investisiyaları artıra bilər. Faiz dərəcələri də valyuta məzənnələrinə təsir edə bilər. Bir ölkənin faiz dərəcələri digər ölkələrin faiz dərəcələrindən yüksək olduqda, onun valyutası bahalaşa bilər, çünki investorlar investisiyalarından daha yüksək gəlir əldə etməyə çalışırlar. Əksinə, bir

ölkənin faiz dərəcələri digər ölkələrin faiz dərəcələrindən aşağı olduqda, onun valyutası ucuzlaşa bilər, çünki investorlar başqa yerlərdə daha yüksək gəlir əldə etməyə çalışırlar. [6]

Kapital axını investisiya məqsədləri üçün ölkələr arasında vəsaitlərin hərəkətinə aiddir. Onlar şirkətlərin əməliyyat qurmaq üçün xarici ölkələrə sərmayə qoyduğu birbaşa xarici investisiya (BXİ) və ya investorların xarici şirkətlər tərəfindən buraxılmış səhmlər və istiqrazlar kimi aktivləri aldığı portfel investisiyası şəklində ola bilər. Kapital axını ölkə iqtisadiyyatına əhəmiyyətli təsir göstərə bilər, çünki onlar investisiya və iqtisadi artım üçün vəsaitlərə çıxışı təmin edə bilər [5]. Bununla belə, onlar da dəyişkən ola bilər, çünki maliyyə qeyri-sabitliyinə və böhranlara səbəb olur. Kapital axınına digər maliyyə amilləri də təsir edə bilər. Məsələn, valyuta məzənnələri xarici valyutada qoyulan investisiyaların dəyərinə, faiz dərəcələri isə investisiya məqsədləri üçün borc vəsaitlərinin alınmasına təsir göstərə bilər. Tariflər və ticarət müqavilələri kimi ticarət siyasətləri də kapital axınına təsir göstərə bilər, çünki onlar müxtəlif sənaye sahələrinin rəqabət qabiliyyətinə və investisiya imkanlarının mövcudluğuna təsir göstərə bilər. [8]

Beynəlxalq ticarət ölkələr arasında mal və xidmətlərin mübadiləsinə aiddir. Buna valyuta məzənnələri, tariflər və ticarət müqavilələri kimi bir sıra maliyyə amilləri təsir edə bilər. Ticarət ölkənin iqtisadiyyatına əhəmiyyətli təsir göstərə bilər, çünki o, yeni bazarlara və resurslara çıxışı təmin etməklə yanaşı, iqtisadi artıma da təkan verə bilər. Bununla belə, bu, bəzi sənaye və ölkələrə zərər verə biləcək ticarət balanssızlığına və proteksionizmə də səbəb ola bilər [9]. Ticarət siyasəti beynəlxalq ticarətə əhəmiyyətli təsir göstərə bilər. Məsələn, tariflər idxal olunan malları bahalaşdıra bilər ki, bu da tələbi azalda və yerli sənayeləri qoruya bilər. Bununla belə, onlar ixrac sənayelərinə zərər verə biləcək digər ölkələrin qisas almasına da səbəb ola bilər. Ticarət müqavilələri beynəlxalq ticarətə də əhəmiyyətli təsir göstərə bilər, çünki onlar ticarət maneələrini azalda və müxtəlif sənaye sahələri üçün bazara çıxışı artıra bilər.

Neft və qaz qiymətləri Azərbaycan iqtisadiyyatının əsas hərəkətverici qüvvəsidir. Ölkə iqtisadiyyatı qlobal bazarda bu malların qiymətindən çox asılıdır. Neft və qaz qiymətlərində hər hansı bir dalğalanma ölkənin iqtisadi artımına, ticarət balansına və valyuta məzənnələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Qlobal neft və qaz bazarı çox dəyişkəndir və qiymətlər qısa müddətdə əhəmiyyətli dərəcədə dəyişir. Azərbaycan iqtisadiyyatı bu dalğalanmalara çox həssasdır və ölkə hökuməti neft və qaz ixracından asılılığını azaltmaq üçün tədbirlər görməlidir. Ölkənin həyata keçirdiyi tədbirlərdən biri də turizm, kənd təsərrüfatı və istehsal sənayesi kimi digər sektorlara sərmayə qoymaqla iqtisadiyyatını şaxələndirməkdir. Hökumət Azərbaycanı turizm məkanı kimi tanıtmaqda maraqlıdır. Ölkəyə daha çox turist cəlb etmək üçün bir sıra təşəbbüslərə başlanılıb. Hökumət yeni otellərin tikintisi və nəqliyyat sisteminin təkmilləşdirilməsi kimi infrastrukturun inkişafı layihələrinə böyük sərmayə qoyub. Ölkənin təbii gözəlliyi, zəngin mədəni irsi və isti qonaqpərvərliyi onu turistlər üçün cəlbedici məkana çevirir.

Xarici investisiyalar Azərbaycan iqtisadiyyatının yüksəlişində həlledici rol oynayır. Hökumət xarici investisiyaları təşviq edən və investorlara müxtəlif stimullar verən bir sıra tədbirlər həyata keçirmişdir. Ölkənin Avropa və Asiya arasında strateji mövqedə yerləşməsi, təbii sərvətlərinin bolluğu və əlverişli biznes mühiti onu xarici investisiyalar üçün cəlbedici edir. Hökumət xarici investorları cəlb etmək üçün bir neçə iqtisadi zona və sənaye parkı yaradıb. İqtisadiyyatın qeyri-neft sektoruna yatırılan xarici investisiyalar ölkə iqtisadiyyatının şaxələndirilməsinə, neft ixracından asılılığın azalmasına və yerli əhali üçün iş imkanlarının yaradılmasına kömək edir. Hökumətin həyata keçirdiyi digər tədbir bürokratiyanın azaldılması və şəffaflığın təşviqi yolu ilə əlverişli biznes mühitinin yaradılmasıdır.

Azərbaycan hökuməti də digər ölkələrlə ticarət əlaqələrini yaxşılaşdırmağa fəal çalışır. Ticarət və investisiyaları artırmaq üçün qonşu ölkələrlə bir neçə ticarət müqaviləsi imzalayıb. Ölkənin Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması onun digər ölkələrlə ticarət əlaqələrinin yaxşılaşmasına da kömək edib. [1]

Bank sektoru Azərbaycan iqtisadiyyatının mühüm tərkib hissəsidir. Ölkənin bank sektorunda son illər əhəmiyyətli islahatlar aparılıb və bu islahatlar sektorun sabitliyinə və fəaliyyətinin yaxşılaşdırılmasına kömək edib. Azərbaycanın Mərkəzi Bankı bank sisteminin sabitliyini təmin etmək üçün əmanətlərin sığortalanması sisteminin tətbiqi kimi bir sıra tənzimləmələr həyata keçirib. Ölkənin bank sektorunda dövlət bankları üstünlük təşkil edir, lakin ölkədə bir neçə özəl bank da fəaliyyət göstərir. Hökumət daha çox xarici investisiyaların cəlb edilməsi məqsədilə bank sektorunun şəffaflığını və səmərəliliyini artırmaq üçün bir sıra tədbirlər həyata keçirmişdir. Hökumət həmçinin KOS-ları dəstəkləmək üçün Kredit Zəmanət Fondu yaratmışdır.

Azərbaycan hökuməti iqtisadi artımı və sabitliyi təşviq etmək üçün bir sıra tədbirlər həyata keçirib. Hökumətin siyasəti xarici investisiyaların cəlb edilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə və ölkənin neft ixracından asılılığının azaldılmasına yönəlib. Hökumət həmçinin, vergi sistemində bir sıra islahatlar həyata keçirib ki, bu da ölkədə biznes mühitinin yaxşılaşdırılmasına kömək edib. Hökumət KOS-ları dəstəkləmək və sahibkarlığı təşviq etmək üçün bir neçə qurum yaradıb. Hökumətin siyasəti ölkədə əlverişli biznes

mühitinin yaradılmasına kömək edib və bu, daha çox xarici investisiyanın cəlb olunması ilə nəticələnib. Hökumət Azərbaycanı Gürcüstan və Türkiyə ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi kimi infrastrukturun inkişafı layihələrinə də sərmayə qoyub [3].

Valyuta məzənnəsi Azərbaycan iqtisadiyyatında mühüm amildir. Ölkənin valyutası Azərbaycan manatı ABŞ dollarına bağlanıb. ABŞ dollarının dəyərindəki istənilən dalğalanma məzənnəyə və ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Azərbaycan Mərkəzi Bankı məzənnənin sabitliyinin qorunmasında həlledici rol oynayır. Ölkənin valyuta ehtiyatları nisbətən yüksəkdir ki, bu da zəruri hallarda Mərkəzi Banka valyuta bazarına müdaxilə etməyə imkan verir[4]. Mərkəzi Bankın müdaxiləsi məzənnəni sabitləşdirməyə və həddindən artıq dalğalanmaların qarşısını almağa kömək edir. Hökumət həmçinin, ölkənin qeyri-neft ixracını dəstəkləmək və neft ixracından asılılığını azaltmaq üçün İxracın Təşviqi Fondu yaradıb. Yekun olaraq qeyd edək ki, yuxarıda bəhs edilən maliyyə amilləri Azərbaycan iqtisadiyyatının artımında və sabitliyində mühüm rol oynayır. Ölkənin neft ixracından asılı olması onu neft və qaz qiymətlərindəki dalğalanmalara qarşı həssas edir. Ona görə də iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorlarına xarici investisiyaların cəlb edilməsi ölkə iqtisadiyyatının uzunmüddətli inkişafı və sabitliyi üçün həlledici əhəmiyyət kəsb edir. Hökumətin siyasəti, bank sektorunun sabitliyi, infrastrukturun inkişafı layihələri və valyuta məzənnəsi ölkənin iqtisadi artımına və sabitliyinə töhfə verən mühüm amillərdir. Azərbaycan bu tədbirləri həyata keçirməklə qlobal iqtisadi mühitin yaratdığı çətinliklərə baxmayaraq, öz iqtisadi artımını və sabitliyini qoruyub saxlaya bilmişdir [7].

Beynəlxalq iqtisadiyyatın dinamikasının formalaşmasında maliyyə amilləri həlledici rol oynayır. Valyuta məzənnələri, faiz dərəcələri, kapital axını və beynəlxalq ticarət bütün ölkələr arasında iqtisadi artıma, ticarətə və investisiya axınına təsir göstərə bilən mühüm amillərdir. Beləliklə, məlumatlı qərarlar qəbul etmək üçün siyasətçilər və investorlar bu amillərdən və onların qlobal iqtisadiyyata təsirindən xəbərdar olmalıdırlar. Maliyyə amilləri ölkələrə əhəmiyyətli faydalar təmin etməklə yanaşı, qeyri-sabitlik və böhranlara da səbəb ola bilər. Beləliklə, maliyyə sistemlərinin sabit və dayanıqlı olmasını təmin etmək üçün ölkələrin birgə işləməsi vacibdir. Bu, maliyyə bazarlarını tənzimləmək üçün müvafiq siyasətlərin həyata keçirilməsini, eləcə də maliyyə böhranlarının qarşısının alınması və yumşaldılması üçün birgə işi əhatə edə bilər. Birgə işləməklə ölkələr hamı üçün sabit və firavan beynəlxalq iqtisadiyyat yaratmağa kömək edə bilər [10].

## Ədəbiyyat


1. Aliyev K. (2017) Financial system and economic growth in Azerbaijan. Journal of Economic Cooperation and Development, 38(3), p.157-176
2. Aggarwal, V. (2018). The international financial system: Policy and regulation. Routledge
3. Bakhshiyev, F. (2015). Financial sector development and economic growth in Azerbaijan. Asian Journal of Economic Modelling, 3(1), p.1-12.
4. Dadashova, A., & Aliyev, K. (2018). The impact of financial development on economic growth in Azerbaijan. International Journal of Economics, Commerce and Management, 6(8), p. 90-102
5. Grabel, I. (2019). When things don't fall apart: Global financial governance and developmental finance in an age of productivist capitalism. MIT Press
6. Helleiner, E. (2017). International political economy and the 21st century: Globalization, crisis and insecurity. Polity Press
7. Jafarova, N., & Aliyev, K. (2019). The impact of financial sector development on economic growth in Azerbaijan. Journal of Economics and Sustainable Development, 10(23), p.33-43
8. Kindleberger, C. P., & Aliber, R. Z. (2017). Manias, panics, and crashes: A history of financial crises. Palgrave Macmillan.
9. Mammadov, F. (2016). The role of the financial sector in the economic development of Azerbaijan. Procedia Economics and Finance, 39, p.520-526
10. Obstfeld, M. (2019). International finance and growth in developing countries: What have we learned?. Journal of International Money and Finance, 94, p.161- 167



**РЕЗЮМЕ**

**ПРИРОДА ФИНАНСОВЫХ ФАКТОРОВ В МЕЖДУНАРОДНО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ И ИХ РОЛЬ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА**

***Асланов Х. А.***

***Ключевые слова:*** *экономика, финансы, бюджет, аудит, бизнес*

Мировая экономика определяется многочисленными факторами, в том числе политическими, социальными и экономическими факторами. Финансовые факторы играют значительную роль в формировании международной экономики.

Финансовые факторы относятся к финансовым инструментам рынкам и учреждениям, которые облегчают движение капитала между странами. Эти факторы имеют решающее значение для определения роста и стабильности мировой экономики. В заключение следует отметить, что взаимодействие между обменными курсами, международными рынками капитала и международными финансовыми учреждениями оказывает значительное влияние на глобальный экономический рост и стабильность.

**SUMMARY**
**THE NATURE OF FINANCIAL FACTORS IN INTERNATIONAL ECONOMIC RELATIONS AND THEIR ROLE IN THE ECONOMY OF AZERBAIJAN**
***Aslanov Kh. A.***

***Key words:*** *economy, finance, budget, control, employment*

The global economy is driven by numerous factors, including political, social, and economic factors. Financial factors play a significant role in shaping the international economy. Financial factors refer to the financial instruments, markets, and institutions that facilitate the flow of capital between countries. These factors are critical in determining the growth and stability of the global economy. In conclusion, the interplay between foreign exchange rates, international capital markets, and international financial institutions has a significant impact on global economic growth and stability.

## AZƏRBAYCANIN GÖMRÜK SİYASƏTİ VƏ ONUN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**Behbudova Könül Elman qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*kbehbudova28@gmail.com*

***Açar sözlər:*** *xarici iqtisadi fəaliyyət (XİF), milli iqtisadiyyat, gömrük siyasəti, iqtisadi təhlükəsizlik, xarici ticarət*

Müasir sosial-iqtisadi sistemdə dövlət bir sıra mühüm funksiyaları həyata keçirir. Zamanla bu funksiyalar müəyyən şəkildə dəyişirlər. Dövlətin əsas iqtisadi funksiyası onun iqtisadi mənafeyinin müdafiəsi və milli iqtisadiyyatının təhlükəsizliyinin təmin edilməsi olub və qalmaqdadır. Aydındır ki, yalnız bu funksiya səmərəli yerinə yetirildikdə ölkənin iqtisadi yüksəlişi, ictimai həyatın müxtəlif komponentlərinin yaxşılaşdırılması mümkündür. Ölkənin iqtisadi inkişafı iqtisadi artımın sürətinə və xarakterinə birbaşa və ya dolayısı ilə təsir edə bilən bir çox müxtəlif amillərdən asılıdır. XİF sferasından belə asılılıq məsələsi, ona münasibətdə dövlət siyasəti, bir qayda olaraq, təkcə iqtisadi subyektlərin iqtisadi fəaliyyətinə xas olan müəyyən qanunauyğunluqları və xarakterik xüsusiyyətləri nəzərə almamalıdır. Bundan əlavə dünya iqtisadiyyatı davamlı dəyişikliklərə məruz qalır, müəyyən meyillər formalaşır. Onlar müxtəlif ölkələrin iqtisadi artım tempinə və xarakterinə təsir göstərməyə, konkret milli iqtisadiyyatın gələcəyinə baxışı formalaşdırmaya bilməzlər. Xarici iqtisadi tənzimləmə, ilk növbədə, GTT-si, müasir iqtisadi reallıqlarda göründüyü kimi, gömrük siyasətinin işlənməsi və reallaşdırılmasıdır. Bu hallar dövlət gömrük siyasətinin iqtisadi artıma təsiri probleminin tədqiqinin aktuallığını müəyyən edir.

Gömrük siyasətinin, xarici iqtisadi tənzimləmə siyasətinin formalaşması və həyata keçirilməsinin nəzəri və praktiki əsasları ilə bağlı müəyyən məsələlər bir çox alimlər tərəfindən tədqiq edilmişdir.

Dövlət gömrük siyasəti dövlətin xarici iqtisadi siyasətinin tərkib hissələrindən biridir və malların və nəqliyyat vasitələrinin, habelə əmək resurslarının gömrük sərhədindən keçirilməsini tənzimləyən tədbirlər, prosedurlar və əməliyyatlar sistemini müəyyən edir. Gömrük siyasəti ölkənin, regionların, sahibkarların, əhalinin mənafelərinə, o cümlədən onların maddi və maliyyə maraqlarına toxunan dövlət fəaliyyətinin mürəkkəb mexanizmidir. Onu da deyə bilərik ki, dövlətin gömrük siyasəti dövlətin XİF-nin konsepsiyası kimi aşağıdakıların müəyyən edilməsini nəzərdə tutur: - iqtisadi müstəqilliyin qorunması; - milli istehsalın inkişafı; - ətraf mühitin mühafizəsi və s.

Gömrük siyasətində əsas məsələlər aşağıdakılardır:

• idxal və ixrac rüsumlarının optimal ölçüsünün müəyyənləşdirilməsi;

• bazarlarda vəziyyətin dəyişməsi ilə əlaqədar müəyyənləşdirilmiş tariflərə vaxtında yenidən baxılması;

• malların hər bir nomenklatura qrupu üzrə gömrük tariflərinin səviyyəsinin artırılması və ya azaldılması əmsallarının müəyyənləşdirilməsi;

• lisenziyalaşdırma, kvotalaşdırma və malların sertifikatlaşdırılmasının daha fəal istifadəsi [2, s.242].

Digər bir məsələ gömrük siyasətinin səmərəliliyinin yüksəldilməsi əsasında iqtisadi təhülkəsizliyin və milli maraqların təminatıdır. Təkcə istehsal və qida sahələrində deyil, həm də energetika və maliyyə

sahələrində genişmiqyaslı böhran vəziyyətləri iqtisadi təhlükəsizlik konsepsiyasına diqqətin artırılması zərurətini ortaya qoyur. Müasir iqtisadiyyat olduqca dəyişkəndir, lakin, məhz onun rəqabətqabiliyyətliliyi və dinamikası iqtisadi təhlükəsizliyin səviyyəsini maksimuma çatdırmağa kömək edir ki, bu da vətəndaşlara və ölkə rəhbərliyinə ən az ehtimalla özünü daha rahat hiss etməyə imkan verəcək.

Bəzi alimlər iqtisadi təhlükəsizliyi dünya iqtisadi sisteminin bir hissəsi hesab edirlər. Aydın olur ki, iqtisadi təhlükəsizlik hər bir ölkənin ümumi milli təhlükəsizlik strategiyasında əsas rollardan birini oynayır [1, s.108].

Hər bir dövlətin fəaliyyətində onun normal yaşaması, bütün əsas göstəricilərin sabit iqtisadi artımı üçün maliyyə resurslarından istifadə etmək lazımdır. Beynəlxalq əməkdaşlığın reallaşdırılmasında mövcud iqtisadi maraqların qorunması xüsusilə vacibdir. Hər bir ölkənin tam və səmərəli iqtisadi təhlükəsizliyinin təminatı onun kifayət qədər müstəqilliyinin və iqtisadi fəaliyyətin aparılması üçün sabit səmərəli şəraitin təmin edilməsini nəzərdə tutur. İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı yuxarıda göstərilən vəzifələri həll etmək üçün dövlətin bütün səviyyələrində öz funksiyalarını yerinə yetirən səriştəli, ixtisaslı və peşəkar mütəxəssisləri cəlb etmək lazımdır. XİF-in tənzimlənməsi proseslərinin reallaşdırılmasında iştirak edən bütün dövlət icra hakimiyyəti orqanları arasında mərkəzi yeri gömrük orqanları tutur. Müvafiq olaraq onlar dövlətin iqtisadi təhlükəsizliyinin təminatı ilə bağlı zəruri funksiyaları yerinə yetirirlər. Bu prosesin təmin edilməsində gömrük orqanlarının rolu ildən-ilə artır [4, s.158].

Təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının fəal iştirakı təkcə dövlət səviyyəsində deyil, həm də beynəlxalq səviyyədə daim artır. Buna xüsusilə indiki geosiyasi vəziyyət və onun fonunda yaranan iqtisadi problemlər kömək edir. Səmərəli gömrük nəzarəti sisteminin inkişafı və təkmilləşdirilməsi müvafiq iqtisadi təhlükəsizliyin təminatı baxımından ölkəmizin gömrük xidmətinin əsas iş istiqaməti olaraq qalır. Məhz gömrük nəzarəti malların gömrük ərazisindən daşınmasının aydın şəkildə müəyyənləşdirilmə qaydasına ən tam riayət olunmasını təmin etməyə qadir olan ən effektiv vasitələrdən biridir. Bununla belə, gömrük nəzarəti çox vaxt müəyyən təhlükələrin yaranması ilə əlaqələndirilir.

Ümumiyyətlə, gömrük siyasəti iqtisadi təhlükəsizliyin təminatına töhfə verməlidir ki, bu da ölkənin kifayət qədər sosial, siyasi və müdafiə mövcudluğunu və mütərəqqi inkişafını, iqtisadi maraqlarının mümkün xarici təsirlərə qarşı toxunulmazlığını və müstəqilliyini təmin edən iqtisadiyyatın vəziyyəti kimi başa düşülür [5]. Dövlətin gömrük siyasəti ölkələr arasında ticarətin həcminə bilavasitə təsir edir, istehsalın milli və beynəlxalq şərtlərindəki fərqləri bərabərləşdirməyə kömək edir, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına töhfə verir. Gömrük siyasətinin maliyyə, iqtisadi, siyasi və hüquqi sistemlər üçün əhəmiyyətinə baxmayaraq, tənzimləyici səviyyədə bu anlayışın tərifi yoxdur. Hazırda malların Gömrük İttifaqının gömrük sərhədindən keçirilməsi, onların gömrük nəzarəti altında vahid gömrük ərazisindən keçirilməsi, müvəqqəti saxlanması, gömrük bəyannaməsi, buraxılışı və gömrük prosedurlarına uyğun istifadəsi, gömrük nəzarəti ilə bağlı münasibətlərin hüquqi tənzimlənməsi, gömrük rüsumlarının ödənilməsi, habelə gömrük orqanları ilə bu mallara sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirən şəxslər arasında səlahiyyət münasibətləri Gömrük İttifaqının gömrük qanunvericiliyi ilə tənzimlənir. O, Gömrük İttifaqının Gömrük Məcəlləsindən, Gömrük İttifaqına üzv dövlətlərin digər beynəlxalq müqavilələrindən, habelə Gömrük İttifaqında gömrük hüquq münasibətlərini tənzimləyən bu aktlara uyğun olaraq qəbul edilmiş Gömrük İttifaqı Komissiyasının qərarlarından ibarətdir [2, s.70].

Yuxarıdakıları ümumiləşdirərək deyə bilərik ki, gömrük orqanlarının bütün funksiyaları çox geniş və kifayət qədər müxtəlifdir. Gömrük orqanları ilkin olaraq ölkənin iqtisadi maraqlarını qorumaq məqsədi daşıyır. Dövlət sisteminin iqtisadi təhlükəsizliyinin tam qorunması gömrük orqanlarının fəaliyyətində həmişə prioritet məsələ olmuşdur. Gömrük işçiləri dövlət qarşısında tam məsuliyyət daşıyırlar. Həm gömrük rüsumlarının az ödənilməsi, həm də həddindən artıq ödənişlər qəbuledilməzdir, çünki bu, artıq ödənilmiş məbləğlərin və faizlərin qaytarılmasına səbəb olacaqdır.

Gömrük orqanlarının özünün təhlükəsizlik sisteminin təşkili milli təhlükəsizlik orqanlarının tərkib hissəsi olan gömrük xidmətlərinin audit fəaliyyətinin səmərəliliyinə mühüm töhfə verir. Digər tərəfdən, mühüm məsələlərdən biri də gömrük əməkdaşları tərəfindən korrupsiya, digər hüquqpozma və gömrük qanunvericiliyinin pozulması faktlarının müəyyənləşdirilməsi və qarşısının alınmasıdır.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas istiqamətlərini və üsullarını müəyyən edərkən dövlətin və XİF-in digər subyektlərinin əsas maraqlarının üst-üstə düşməsinin obyektiv və daimi xarakterinə diqqət yetirilməlidir. Hazırda XİF subyektləri mal və xidmətlərin idxalı və ixracı ilə bağlı fəaliyyətdən yüksək maddi və maliyyə nəticələri əldə etməkdə daha çox maraqlıdırlar. Dünya iqtisadiyyatının qloballaşması şəraitində Azərbaycanın ÜTT-yə daxil olması probleminin həllinin rolu və əhəmiyyəti artır. Gömrük idarəsi beynəlxalq təkrar istehsal proseslərinin fəal iştirakçısına çevrilir, bununla əlaqədar olaraq gömrük tənzimlənməsinin unifikasiyası və uyğunlaşdırılması həm ikitərəfli əsasda, həm də regional inteqrasiya birlikləri çərçivəsində əsas vəzifəyə çevrilir [1, s.108].

Gömrük siyasətini güclü alət kimi müəyyənləşdirmək olar ki, onun sayəsində dünya birliyinin maraqları balansı qorunur, XİF tənzimlənir. Lakin "səhvləri düzəltmədən" xarici iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi mümkün deyil. Məhz gömrük orqanlarının işinin səmərəliliyinin təhlili sayəsində biz gömrük orqanlarının bütün bölmələrinin bütün fəaliyyətindən danışa bilərik. Gömrük orqanının işinin səmərəliliyini qiymətləndirmək üçün gömrük orqanlarının işini ətraflı və keyfiyyət baxımından təhlil etmək və nəticəyə təsir edən həm müsbət, həm də mənfi amilləri müəyyənləşdirmək lazımdır. Yuxarıda deyilənləri nəzərə alaraq, gömrük orqanlarının fəaliyyəti səmərəli olacaq və xarici iqtisadi əlaqələrin inkişafına tam uyğun olacaqdır. Dövlətimizdə bu hüquq münasibətlərinin bütün inkişaf səviyyəsi gömrük orqanları tərəfindən öz səlahiyyətlərinin həyata keçirilməsinin səmərəliliyindən asılıdır. Yuxarıda deyilənlərə əsaslanaraq gömrük orqanlarının işinin necə qiymətləndiriləcəyi, gömrük orqanlarının konkret bölməsinin səmərəli fəaliyyəti qiymətləndirilərkən hansı göstəricilərin müəyyən ediləcəyi, bütün sistemin işinin necə qiymətləndiriləcəyi ilə bağlı vahid siyasətin işlənməsi vacibdir. Fikrimizcə, yuxarıda qeyd olunan məsələlərin hamısı öz həllini tapmalı və tənzimlənməlidir. Gömrük orqanlarının səmərəli fəaliyyətinin qiymətləndirilməsi üçün əsas götürüləcək və yalnız bu göstəricilər əsasında qiymətləndirilən konkret göstəriciləri müəyyənləşdirmək lazımdır. Həqiqətən də, bu orqanların fəaliyyətinin səmərəliliyinin keyfiyyətcə qiymətləndirilməsi sayəsində gömrük hüquq münasibətləri inkişaf edəcək, həyata keçiriləcək və dəyişəcək.

Ölkəmizin gömrük və vergi xidmətləri arasında qarşılıqlı əlaqədə səmərəliliyin artırılması müəyyən sistemin formalaşması üçün ilkin şərait yaradır. Bu qarşılıqlı əlaqə sistemi gömrük və vergi ödənişlərinin dövlət büdcəsinə köçürülmələrini effektiv şəkildə asanlaşdıra biləcək. XİF-in inkişafının müasir tendensiyaları gömrük orqanlarının işinin nəticələrinin səmərəliliyinin artırılmasına kömək edə biləcək yeni fəal metodlardan istifadə zərurətinə səbəb olur. Bu üsullar xarici iqtisadi əlaqələr üçün "katalizator" rolunu oynayır. Bu baxımdan dövlət strukturu sistemində gömrük xidmətinin rolu ciddi şəkildə artır.

Xarici ticarət axınlarının artdığı indiki şəraitdə Azərbaycanın gömrük xidməti xarici ticarətin dövlət idarəçiliyinin ənənəvi funksiyalarını yerinə yetirməklə yanaşı getdikcə daha çox müstəqil sosial-iqtisadi qurum kimi çıxış edir. Bu da xarici ticarət üçün əlverişli şərait və ya maneələr yaradır. Bu gün ticarətin asanlaşdırılması məqsədilə gömrük rəsmiləşdirilməsinin sürətinə və səmərəliliyinə artan tələblər fonunda xarici ticarətin gömrük inzibatçılığının müəyyənləşdirilmiş konsepsiyalarına yenidən baxılmalıdır.

COVİD-19 pandemiyasının yayılması səbəbindən gömrük xidməti üçün yeni gömrük siyasəti və idarəetmə modellərinin inkişafı, beynəlxalq mübadilənin tənzimlənməsi, daim dəyişən xarici iqtisadi mühitə sürətli uyğunlaşma, adekvat cavablar vermək erası başlanmışdır. XİF-in qlobal inkişafının müasir tendensiyaları gömrük işinin qlobal uyğunlaşdırılması və unifikasiyası, gömrük prosedurlarının vaxtının azaldılması, gömrük sistemlərinin və onun infrastrukturunun tərkib hissəsi olan gömrük texnologiyalarının inteqrasiyası və standartlaşdırılması ideyasının əsasını qoymuşdur. ÜTT-nin məlumatına görə bu ideyanın reallaşdırılması beynəlxalq yükdaşımalarda vaxt itkisini və xərclərini indiki səviyyə ilə müqayisədə 20-25% azaltmağı vəd edir. Bu istiqamətin prioritetliyi gömrük tənzimlənməsi sahəsində praktiki addımlarla təsdiqlənir: malların təsviri və kodlaşdırılması sisteminin uyğunlaşdırılması, gömrükdə qaydaların və sənədlərin unifikasiyası, gömrük ittifaqlarının və ümumi məlumat və hüquqi məkanların yaradılması, beynəlxalq ixrac nəzarəti rejimlərinin təşkili, beynəlxalq nəqliyyat və logistika, gömrük, informasiya proqramları və texnologiyaları və s. yaradılması.

Gömrük siyasətinin səmərəliliyinin yüksəldilməsi gömrük inzibatçılığı və gömrük rəsmilləşdirilməsi mexanizmindən çox asılıdır. Gömrük inzibatçılığının və gömrük rəsmiləşdirilməsinin təşkilati və idarəetmə əsasları mürəkkəb, dinamik inkişaf edən mexanizmdir. Gömrük nəzarəti və gömrük inzibatçılığı prosesləri qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılmalıdır ki, buraya da aşağıdakılar daxildir:

• malların istehsalçıdan xarici ölkə istehlakçısına qədər daşınması mərhələsində xarici tərəfdaşlarla informasiya mübadiləsi sahəsində qarşılıqlı əlaqə;

• gömrük nəzarətinin tələb olunan səviyyəsini təmin etməklə tranzit proseduru altında yerləşdirilən mallar üzrə əməliyyatların aparılmasının sadələşdirilmiş proseduru.

Gömrük orqanlarında kadr siyasətinin səmərəliliyinin artırılması da əsas məsələlərdəndir. Gömrük sisteminin əsas resurslarından biri kimi gömrük orqanlarının kadr potensialından düzgün istifadə gömrük xidmətinin inkişafının mühüm istiqamətlərindən biridir. Çünki, operativlik səviyyəsi daha çox gömrük orqanlarının kadrlarından, eləcə də onun fəaliyyətinin idarə olunmasının səmərəliliyindən asılıdır [3, s.98].

Bütün bunların son nəticəsi milli iqtisadiyyatın inkişafında özünü göstərəcəkdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2011.
2. Azərbaycanın Statistik Göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.

3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.
4. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, 185 s.
5. Бородько В. В. Таможенные органы как субъекты обеспечения экономической безопасности государства // Научно-образовательные дискуссии: фундаментальные и прикладные исследования. Ростов-на-Дону: Южный Университет (ИУБиП), ООО "Издательство ВВМ", 2021, с. 107-110

**РЕЗЮМЕ**
**ТАМОЖЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА И АНАЛИЗ ЕЕ НЫНЕШНЕГО СОСТОЯНИЯ**
***Бехбудова К.Е.***

***Ключевые слова:*** *международное разделение труда (МРТ), национальная экономика, открытая экономика, производство*

Известно, что одной из основных целей любой страны является активное участие в процессах глобализации и использование преимуществ международного разделения труда (МРТ). Для этого, прежде всего, необходимо понять суть МРТ и знать его пользу для национальных экономик. С этой точки зрения тема статьи актуальна. В статье представлена информация об МРТ и рассмотрены ее преимущества. Исследованы факторы, влияющие на развитие МРТ. Выявлены основные тенденции развития МРТ.

**SUMMARY**
**CUSTOMS POLICY OF AZERBAIJAN AND ITS CURRENT SITUATION ANALYSIS**
***Behbudova K.E.***

***Key words:*** *foreign economic activity (FIF), national economy, customs policy, economic security, foreign trade*

It is known that one of the main goals of any country is to organize the customs policy correctly. For this, first of all, it is necessary to understand the essence of the IFI and to know its benefits to national economies. From this point of view, the topic of the article is relevant. In the article, information about the CIF was given and its advantages were studied. I conducted an analysis of the customs policy of Azerbaijan and its current situation.

# İNTERNET VƏ RƏQƏMSAL MARKETİNQ MÜASİR MARKETİNQİN MODELLƏRİ KİMİ

**Əhmədova Gülnarə Sabir qızı, Babayeva Tuğra Piriş qızı**
*Sumqayıt Dövlət Universiteti*
*gulnaraahmadova.ga@gmail.com ; tuqra_babayeva@mail.ru*

***Açar sözlər:*** *internet, ənənəvi marketinq, marketinq kommunikasiyaları, internet marketinq, rəqəmsal marketinq*

İnternetin yaranması ilə insanlar yeni unikal imkanlar əldə edirlər. Bu xüsusiyyətlərə aşağıdakılar daxildir:

- məlumatın ani ötürülməsi;
- yerlidən çoxkanallıya qədər insanlar arasında ünsiyyətin artırılması;
- dünyanın müxtəlif yerlərindən biznesin idarə edilməsi və təşviqi.

İnternet informasiya, müxtəlif verilənlər, audio və ya video mesajları toplayan, emal edən, saxlayan və ötürən bir-biri ilə əlaqəli elektron cihazların mürəkkəb şəbəkəsidir. Hazırda internet real və virtual vaxt arasında vasitəçi rolunu oynayır.

İnternet texnologiyalarının rəqəmsal texnologiyalara çevrilməsi marketinq kommunikasiyalarının böyük dəyişməsindən və inkişafından xəbər verir. Bir neçə il əvvələ qədər marketinq kommunikasiyaları reklam, ictimaiyyətlə əlaqələr, satışın təşviqi və şəxsi satış kimi ənənəvi vasitələrdən istifadə etməklə məhsullar, xidmətlər, brendlər və şirkətlər haqqında müxtəlif məlumatların yayılması və potensial istehlakçılara təqdim edilməsi sistemi idi. Hal-hazırda marketinq kommunikasiyalarında rəqəmsal və elektron vasitələrdən fəal şəkildə istifadə olunur.

Marketinq istehlakçıya təsir etmək üçün yeni unikal və spesifik vasitələrin yaradılmasına kömək edən elektron inqilab sayəsində müxtəlif texnoloji dəyişikliklərlə birlikdə inkişaf edir.

İnternet texnologiyalarının inkişafı ilə ənənəvi marketinq transformasiya olunur. Marketinq strategiyalarını yeniləyən və marketinq kommunikasiya siyasətinin müasir interaktiv, virtual formalarını

yaradan yeni "internet marketinqi" termini yaranmışdır. Marketinq kommunikasiyaları indi İnternet vasitəsilə hədəf auditoriyanı fərdi olaraq seçə və təsir edə bilər.

İnternet marketinq internet texnologiyalarından istifadə etməklə marketinq məqsədlərinə nail olmaqdır, məsələn: vebsayt, axtarış sisteminin optimallaşdırılması, kontekstual və media reklamı, elektron marketinq və s. Ənənəvi marketinqə tələbin təhlili, rəqiblərin təhlili, imkanların təhlili və istehsal məqsədlərinin müəyyən edilməsi, məhsulun sınaqdan keçirilməsi potensial istehlakçılar, məhsulun təşviqi və s. daxildir [1]. İnternet marketinqi öz növbəsində məhsulların internetdə təbliğinə, rəqiblərin tələb və təklifinin təhlilinə, bəzi hallarda isə məhsulun sınaqdan keçirilməsinə kömək edir, lakin istehsalın planlaşdırılması ilə heç bir əlaqəsi yoxdur. Marketoloqlar üçün İnternet ilk növbədə maraqlı tərəflərlə ünsiyyət vasitəsidir.

İnternet marketinqi sürətlə böyüyür və ona sahib olan, ondan istifadə edən, özü və ya biznesi üçün hansısa fayda əldə edənlərin sayı durmadan artır və onun sərhədləri genişlənir. İnternet marketinqinin əsas məqsədi internet istifadəçilərindən pul qazanmaqdır. İndi istifadəçilər müstəqil olaraq onları maraqlandıran şirkət, məhsul, xidmət, brend haqqında müxtəlif məlumat və materialları axtarıb tapa bilirlər. İnternet marketinqində şirkət və müştəri bir-biri ilə kommunikativ münasibətdədirlər, çünki şirkət müştərinin ehtiyaclarına tez və interaktiv cavab verə, alınan məlumatları emal edə və gələcək daha sərfəli marketinq fəaliyyəti üçün nəticə çıxara bilər.

Hal-hazırda marketinqdə rəqəmsal marketinq və ya digital-marketinq xüsusi yer tutur. İngilis dilindən tərcümədə digital rəqəmsal deməkdir. Bu bütün mümkün rəqəmsal kanallardan (mövzudan və iqtisadi məqsədəuyğunluğundan asılı olaraq) - sosial şəbəkələr, İnternet, e-poçt, kontekstli reklam, məzmun marketinqi və s.-dən istifadə etməklə brendin təşviqi və müştəri qazanmasıdır. Müştəriləri oflayn mühitdən cəlb etmək üçün burada digər vasitələrdən də istifadə olunur. - SMS, telefonlarda mobil proqramlar və s. Bir sözlə, bu müxtəlif marketinq növlərindən istifadə etməklə məhsul və ya xidmətin kompleks təşviqidir. Rəqəmsal marketinq şirkətin marketinq fəaliyyətini dəstəkləyən virtual məkanda informasiya kanallarının kompleks istifadəsidir. Şirkətin hazırkı məqsədi rəqəmsal texnologiyaların strateji əhəmiyyətini dərk edərək və onlayn xidmətlərin göstərilməsini təkmilləşdirmək, müştəri tələbatını daha yaxşı qarşılamaq və şirkət, brend, məhsullar, xidmətlər haqqında məlumatlılığı artırmaq üçün inteqrasiya olunmuş yanaşmanı inkişaf etdirməklə mənfəət əldə etmək və müştəriləri saxlamaqdır [2].

Rəqəmsal marketinq və ənənəvi marketinq arasındakı əsas fərq aşağıdakıları təmin etmək üçün ən son rəqəmsal marketinq alətlərindən istifadə etməkdir:

- gəlirlərin hesablanması və proqnozlaşdırılması;
- fərdi yanaşmanın formalaşdırılması;
- nəticələrin dəyişdirilməsi şansı;
- buraxılmış səhvləri başa düşmək və gələcəkdə onların qarşısını almaq [3].

Rəqəmsal marketinqə dünya miqyasında qlobal şəbəkə (İnternet), rəqəmsal televiziya, mobil qurğular, smart qadjetlər (saatlar, bilərziklər, qulaqlıqlar), interaktiv ekranlar və s. daxildir. istehsalçı ilə istehlakçı arasında tez bir zamanda əlaqə qurur.

Rəqəmsal marketinq elektron rəqəmsal alətləri özündə birləşdirən xüsusi alətlər dəstinə malikdir. Onlar həm oflayn (plakatlar, QR kodlu reklam lövhələri və s.), həm də real vaxt rejimində (radioda reklam, elektron poçt, kontekstli reklam və s.) istifadə olunur.

Rəqəmsal marketinqin xarakterik xüsusiyyəti məhsul və ya xidmətin təşviqində rəqəmsal alətlərin və elektron texnologiyaların inteqrasiya olunmuş istifadəsidir. Rəqəmsal marketinq daim yenilənir, yeni müasir texnologiya və texnikaları sınaqdan keçirir. Daim inkişaf edir, indiki zamana uyğun olaraq dəyişir.

Rəqəmsal marketinqin üstünlükləri:

- daha geniş hədəf auditoriyası ilə qarşılıqlı əlaqənin qurulması;
- qısa müddətdə çoxlu sayda potensial müştərilərə məlumatın çatdırılması;
- auditoriyaya daha çox təsir;
- brend şüurunun və alıcı loyallığının genişləndirilməsi;
-marketinq firmasının işlərinin yekununun ölçülməsinin dəqiqliyi və mümkün vaxt rejimində düzəlişlər etmək imkanı;
- ənənəvi reklamla müqayisədə aşağı xərclər.

İnternet marketinq və rəqəmsal marketinq həm uzunmüddətli, həm də qısamüddətli müxtəlif əməliyyatlar və müqavilələr bağlaya biləcəyiniz, eyni zamanda düzgün məhsul, xidmət, brend seçə, alış-veriş və ödənişlər edə biləcəyiniz elektron mühitlərdir.

Rəqəmsal marketinq və internet marketinq alətləri həm elektron, həm də interaktiv xarakter daşıması və dünya miqyasında qlobal şəbəkədən - İnternetdən istifadə etmələri ilə oxşardır. Ancaq internet marketinqi ilə rəqəmsal marketinq arasındakı xarakterik fərq, real vaxt və ya oflayn marketinq vasitələrindən istifadə

etmələridir. İnternet marketinq alətləri yalnız onlayn istifadə edir, rəqəmsal marketinq həm onlayn, həm də oflayn istifadə edir. O, onlayn sahədən kənara çıxır və təkcə İnternetə qoşulmur, həm də müxtəlif rəqəmsal mediadan istifadə edir. Bunlara aşağıdakılar daxildir: - rəqəmsal televiziya; - müxtəlif mobil proqramlar; - interaktiv ekranlar; - çap nəşrləri; -QR kodları olan plakatlar, afişalar və s.

Onlayn marketinq və rəqəmsal marketinq iki elektron marketinqin paradiqmasıdır ki, onsuz bu gün brendimizi, məhsulumuzu və ya xidmətimizi tanıtmaq, qurmaq və təkmilləşdirmək mümkün deyil. Bunlar köhnəlməyən, lakin hər gün təkmilləşdirilən, yenilənən, dəyişdirilən, sürətli, obyektiv, konkret məlumatı qəbul etməyə, təhlil etməyə və istifadə etməyə imkan verən yeni elektron və rəqəmsal texnologiyalarla tamamlanan iki marketinq fəaliyyəti sistemidir.

## Ədəbiyyat


1. Агапитова Л.Г. Новое в развитии сельского предпринимательства Тюменской области // Экономика и предпринимательство. - 2020. - №9. - С. 656-660.
2. Рамазанова А.Г Особенности менеджмента на предприятиях малого бизнеса// Экономика и предпринимательство. - 2020. - №9. - С. 637-641.
3. Электронный ресурс: https://kartaslov.m/книги/Акулич_М_Диджитал-маркетинг



**РЕЗЮМЕ**

**ИНТЕРНЕТ-МАРКЕТИНГ И ЦИФРОВОЙ МАРКЕТИНГ КАК МОДЕЛИ СОВРЕМЕННОГО МАРКЕТИНГА**

***Ахмедова Г.С., Бабаева Т.П.***

***Ключевые слова**: интернет, традиционный маркетинг, маркетинговые коммуникации, интернет маркетинг, цифровой маркетинг*

В статье рассматривается интернет и цифровой маркетинг как модель современного маркетинга. Выделены и проанализированы отдельные характеристики этих видов маркетинга. В результате анализа сходных и различных черт обоих видов маркетинга выявлено, чем они отличаются от традиционного маркетинга. В результате исследований интернет-маркетинг и цифровой маркетинг представляются новой современной формой модели.

**SUMMARY**

**INTERNET MARKETING AND DIGITAL MARKETING AS MODELS OF MODERN MARKETING**

***Akhmedova G.S., Babayeva T.P.***

***Key words:** internet, traditional marketing, marketing communications internet marketing, digital marketing*

The article considers the Internet and digital marketing as a model of modern marketing. Selected and analyzed individual characteristics of these types of marketing. As a result of the analysis of similar and different features of both types of marketing, it was revealed how they differ from traditional marketing. As a result of research, Internet marketing and digital marketing are presented as a new modern form of the model.


# ŞUŞA İQTİSADİYYATININ TARİXİ: DÜNƏN, BU GÜN, SABAH


**Əhmədova Təranə Mütəllim qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

*tarana.7474@mail.ru*



***Açar sözlər:** Şuşanın iqtisadi tarixi, çarizm dövrü iqtisadiyyatı, AXC, SSRİ, erməni işğal dövrü, müasir dövr, iqtisadi planlar*


Qarabağ xanlığının qurucusu, ilk xanı olan Pənahəli xan XVIII əsrdə Şuşa qalasını tikdirib xanlığın iqamətgahına çevirdi. Xanın şərəfinə Pənahabad adlandırılan bu şəhər Qarabağ xanlığının və ümumən Azərbaycanın tarixində mühüm rol oynamağa başlayır. Ətraf kəndlərin əhalisi yeni paytaxta köçürülür. Xan sarayı, iqamətgahlar, məscidlər, evlər, hamamlar tikilir. Qarabağ xanlığını tədqiq edən tədqiqatçılar xanın hakimiyyətə gəlməsilə xüsusi zərbxana düzəltdirməsindən və pənahabadi adlı gümüş pul sikkəsi zərb etdirmədindən bəhs edirlər. Həmin pul həm xanlığın daxilində, həm də digər xanlıqlarda istifadə olunurdu. Bu dövrdə xanlıq əhalisinin böyük əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu. Əlverişli iqlim, münbit torpaqlar, Araz və Kür çayları arasında yerləşməsi xanlıqda kənd təsərrüfatının inkişafı üçün şərait yaradırdı. Kənd təsərrüfatında əkinçilik və maldarlıq üstünlük təşkil edirdi. Bundan başqa xanlıqda baramaçılıq və ipəkçilik inkişaf etmişdi.

Şuşanın əsas ticarət mərkəzləri Aşağıbazar və Meydan adlandırılan ərazilər idi. Həmin dövrdə Şuşalı tacirlər İran və Cənubi Azərbaycan şəhərləri, Osmanlı imperiyası, Hindistan, Rusiya, və Avropa ölkələri ilə

ticarət əlaqələri saxlayırdı və həmçinin Almaniyanın Leypsiq, Rusiyanın Nijni-Novqorod yarmarkalarında daimi iştirakçı idilər [1, s. 3-5].

Rusiya və İran arasındakı müharibə zamanı, 1805-ci ildə Qarabağ xanı İbrahim Xəlil və Rusiya imperatorluğundan general P.Sisianov arasında görüş baş tutmuş və müqavilə imzalanmışdır. Çox təəssüflər olsun ki, həmin Kürəkçay müqaviləsinə uyğun olaraq Qarabağ xanlığı Rusiya tabeliyinə keçdi. Çarizm dövründə, Rusiya imperiyasının diskriminasiya siyasəti, onun dəstəyi və məqsədyönlü siyasəti ilə ermənilərin Şimali Azərbaycana kütləvi köçürülməsi və onlara hər cür iqtisadi, mədəni, sosial, ictimai şərait yaradılması həyata keçirilirdi.

Bütün bunlara baxmayaraq, Çarizm dövründə də, Şuşa iqtisadiyyatı müxtəlif sahələrdə inkişaf etməkdə davam edirdi. Belə ki, bu dövrdə Şuşa özünün sənətkarlıq nümunələri və ticarəti ilə inkişafını davam etdirirdi. Burada müxtəlif sahələrdə ixtisaslaşmış sənətkarlar ordusu fəaliyyət göstərir, onların arasında isə həllac, papaqçı, toxucu, çəkməçi, dərzi, dülgərlik kimi sahələr üstünlük təşkil edirdi. Məlumatlara görə, XIX əsrin əvvəllərində Şuşada müxtəlif növ parça istehsal edən 500 dəzgah işləmiş, həmçinin ipəkçilik fabrik-zavod istehsalı səviyyəsində fəaliyyət göstərmişdir. Artıq həmin əsrin 60-cı illərində burada illik istehsal gücü 78 min rubl olan 16 ədəd ipəksarıma fabriki çalışmışdır. Şuşa Azərbaycanın xalça istehsalında mühüm mərkəz idi. XIX əsrin axırlarında dünya ticarət arenasında Azərbaycan xalçalarına tələbat artdı və nəticədə Şuşada xalçaçılıq daha da inkişaf etdi. Həmin dövrdə şəhərdə il ərzində ümumi dəyəri 50 min rubl olan xalça istehsal edilirdi. Bundan başqa, metalişləmə, boyaqçılıq və gön-dəri istehsalı da yüksək səviyyəyə çatmışdı, belə ki, Şuşalı boyaqçılar müxtəlif bitkilərdən 50-yə qədər rəng və rəng çaları ala bilirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində isə fəaliyyətdə olan 8 boyaqxananın illik istehsal gücü 69500 rublla ölçülürdü. Bu dövrdə şəhərdə yüzlərlə sənətkar gön-dəri məmulatı istehsal edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə, Azərbaycan iqtisadiyyatının eləcə də Şuşanın dirçəldilməsi üçün bir sıra tədbirlər görüldü. Lakin, cəmi 23 ay yaşayan, AXC-nin süqutundan sonra Sovet rejiminin qurulması ilə Şuşa fəlakətli günlər yaşamağa başladı.

Şuşanın yenidən dirçəlməsi, özünü bərpa etməyə başlaması yalnız 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra mümkün oldu. Ümummilli lider, ulu öndər Heydər Əliyevin səyləri ilə 1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti «Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında» qərar verdi və bununla da, Şuşanın sosial, iqtisadi və mədəni həyatının inkişafı üçün zəmin yarandı.

1986-cı ilin statistik məlumatlarına əsasən söyləmək olar ki, Şuşanın iqtisadiyyatında heyvandarlıq yüksək inkişaf etmiş və onun 5,2 min başını qara-mal, 15,2 min başını davar təşkil etmişdir. Əhali həmçinin quşçuluqla da məşğul olurdu [3, səh 6]. Burada 5 sovxoz fəaliyyət göstərirdi. Həmin ilin digər statistik məlumatlarına əsasən, kənd təsərrüfatı üçün yararlı olan torpaqlar 20,9 min hektar idi. Bu torpaqların 0,1 hektarını suvarılan torpaqlar təşkil edirdi. 3,4 min hektar əkin sahəsində 41% dənli və dənli – paxlalı bitkilər, 6 % tərəvəz-bostan bitkiləri, həmçinin kartof, 53% yem bitkiləri əkilir, həmçinin meyvəçilik də inkişaf edirdi.

“Şərq musiqi alətləri” fabriki, çörəkbişirmə müəssisəsi, istehsalat kombinatı, məişət xidməti kombinatı, Yol istismar idarəsi, Bakı "Radioqurma" istehsalat birliyinin 1 nömrəli istehsalatı, Təsərrüfatlar arası təmir tikinti müəssisəsi, Qarabağ ipək kombinatının 3 nömrəli toxuculuq sexi, elektrik şəbəkəsi, rayon İstehlak cəmiyyəti, Kurort ticarəti idarəsi, kənd təsərrüfatı texnikası təmiri müəssisəsi, Şuşa Tikinti birliyi, rayon Maddi-texniki təchizat bazası, Abidələri bərpa idarəsi, Təsərrüfatlar arası tikinti idarəsi, Təmir tikinti idarəsi və s. vardı. Qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin sonlarında Şuşada 1700-ə yaxın ticarət obyekti qeydə alınmışdır və bu da şəhərin hələ 1 əsr öncə xüsusi iqtisadi potensiala malik olduğunu göstərir.

Şuşanın təbii gözəlliyi onun kurort və turizm potensialını artırır. Həmin illərdə də, kurort təsərrüfatı inkişaf etmişdir. Bu cəlbedici təbiətə görə Şuşa, nəinki, Azərbaycanda hətta onun sərhədlərindən kənarda da öz səfalı istirahət guşələri ilə tanınırdı . Yerli əhalinin və oraya təşrif buyuran qonaqların ən sevimli yerləri, Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şamil bulağı, əfsanəvi “Cıdır düzü” idi. Turşsu müalicə və istirahət zonası kimi tanınır və şəfalı, müalicəvi vannaları ilə tanınırdı. Yerli əhali və turistlərin ən sevdiyi istirahət yeri olan “Cıdır düzü”ndə hər il may ayında “Xarı-bülbül” mahnı festivalı təşkil olunurdu.

1992-il mayın 8-də erməni və rus işğalçıları Şuşanı işğal etdi və onun işğalı zamanı 200 nəfərin şəhid və 150 nəfərin əlil olması, 552 körpənin yetim qalması, 22 minə yaxın insanın qaçqın düşməsi hal-hazırda heç bir azərbaycanlının yadından çıxmayacaq olaylardır. Şuşanın işğalı zamanı, erməni quldurları tarixi abidələrimizi barbarcasına dağıtmış və yerlə yeksan etmişdir. Şərq musiqi alətləri fabriki və digər mühüm obyektlər dağıdıldı, minlərlə tarixi abidə, yaşayış evi dağıdılaraq viran qoyuldu və talandı.

Ermənistan həddini aşaraq, yeni torpaqlar işğal etmək üçün 27 sentyabrda hərbi təxribata əl atdı və buna cavab olaraq Azərbaycan Vətən müharibəsinə başladı. Ali Baş Komandan İlham Əliyev ordu və xalqı

vətənin müdafiəsi və torpaqların işğaldan azad olunması üçün mübarizəyə çağırdı. Vətənpərvər xalqımız, prezidentimiz və ordumuz birləşərək tək ürək, tək yumruq oldu. 28 illik işğaldan sonra Şuşa 8 noyabr 2020-ci ildə, qəhrəman ordumuzun şücaəti sayəsində azad oldu. 44 günlük müharibədə 28 illik qisas alındı. Artıq Şuşada quruculuq işləri, yenidənqurma və bərpa prosesi getməkdədir.

Şuşanın iqtisadi potensialı olduqca genişdir. Belə ki, bu ərazi dağlıqdır və burada müxtəlif növ tikinti materialı yataqları, mineral su bulaqları mövcuddur. Bütün bunlar onu deməyə əsas verir ki, bu səmərəli mühitdən yararlanıb, həm buraya çoxlu sayda turist cəlb etmək, həm də faydalı qazıntılardan yararlanaraq iqtisadi səmərə əldə etmək mümkündür. Şuşa rayonunun Daşaltı kəndinə ekoturizm marşrutlarının yaradılması planlaşdırılır ki bu da hazırki dövrdə dövlətimiz tərəfindən tərtib edilmiş plandır. Belə ki, hazırda, Daşaltıda turizmin genişləndirilməsi istiqamətində işlər aparılır. Daşaltı kəndinə müxtəlif piyada yollarının təşkil edilməsi, eləcə də bu ərazini Şuşa şəhəri ilə birləşdirən piyada yolunun tədqiq edilməsi də nəzərdə tutulmuş məsələlər sırasındadır. [6].

Şuşanın iqtisadi potensialını artırmaq üçün bir sıra tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri Türkiyə və Azərbaycan arasında 15 iyun 2021-ci ildə "Şuşa Bəyannaməsi"nin imzalanmasıdır. Şuşa bəyannaməsi ilə Azərbaycanda biznesin uzunmüddətli planları üçün zəmin hazırlanır. Bu bəyannamənin xüsusilə Şuşada imzalanması xarici investorlar üçün əsl təhlükəsizlik qarantıdır.

Bildiyimiz kimi 16 sentyabr 2022-ci ildə Şuşada Türk biznes forumu keçirildi. Bu forum Qarabağın bərpasına həsr olunmuşdu. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) iqtisadiyyat nazirlərinin görüşü çərçivəsində bu biznes forumda bildirilib ki, TDƏŞ-ə üzv dövlətlərlə uğurlu və səmərəli ticarət-investisiya əməkdaşlığı baş tutmaqdadır. İşğaldan azad edilmiş ərazilərimizin bərpasına həsr olunmuş bu biznes forumda kənd təsərrüfatı, tikinti, qida sənayesi, nəqliyyat-logistika, turizm, bərpa olunan enerji, yüngül sənaye, mədənçilik və digər sahələrdə fəaliyyət göstərən çoxsaylı türkdilli iş adamı iştirak edirdi. Həmin forum müddətində Azərbaycan ilə Qazaxıstan arasında Anlaşma Memorandumu imzalanıb. Bu sənəd xarici ticarət fəaliyyətinin təşkili, stimulaşdırılmasında təcrübə mübadiləsini özündə birləşdirir [5].

Nəticə olaraq onu qeyd etmək istərdim ki, Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ili "Şuşa İli" elan etmişdi. Hazırki, 2023-cü ildə isə Şuşa Türk dünyasının mədəniyyət paytaxtı elan olunub. Azərbaycanın mədəniyyət paytaxtı yenidən qurulur və bərpa olunur. Qürur mənbəyimiz Şuşa şəhəri uzun müddət Qarabağın əsas iqtisadi mərkəzlərindən hesab olunub. Ümummilli lider Heydər Əliyev Şuşanın dəyərindən danışarkən demişdir ki: "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur". Prezidentimiz İlham Əliyev isə bildirmişdir ki, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir". Şuşanın iqtisadi inkişaf, siyasi, sosial-ictimai və mədəni tarixi Azərbaycan xalqının Şuşanın və Dağlıq Qarabağın əsas və tək sahibi olduğunu isbat edir.

## Ədəbiyyat


1. Şuşa-Qədim Azərbaycan diyarı. Bakı-2009
2. Qarabağ Yaddaş kitabı, Bakı 2010, MHS- poliqraf
3. Azərbvaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022c-ci il məlumatları
4. Qarabağnamələr, Şərq-Qərb Bakı 2006
5. Elektron resurs istinad tarixi: 24.04.23 www.azertag.az, 2022
6. Elektron resurs istinad tarixi: 24.04.23 www.virtualkarabakh.az, 2020



**РЕЗЮМЕ**

**ИСТОРИЯ ЭКОНОМИКИ ШУШИ: ВЧЕРА, СЕГОДНЯ, ЗАВТРА**

***Ахмедова Т.М.***

***Ключевые слова:*** *экономическая история Шуши, царская экономика, АПК, СССР, период армянской оккупации, современный период, хозяйственные планы*

Шуша – жемчужина Азербайджана, колыбель культуры, край красоты. Красота этого города, его кристально чистая природа всегда привлекали внимание иностранных сил. С одной стороны, это укрепило его экономику с точки зрения туристического потока, благоприятного сельскохозяйственного региона, культуры и ремесел, но с другой стороны, привело к тому, что оно было растоптано вторгшимися армянскими войсками. В этой статье мы рассмотрели уровень развития экономики Шуши от прошлого до наших дней.



**SUMMARY**

**HISTORY OF THE SHUSHA ECONOMY: YESTERDAY, TODAY, TOMORROW**

***Ahmadova T.M.***

***Key words:*** *economic history of Shusha, Tsarist economy, APC, USSR, period of Armenian occupation, modern period, economic plans*

Shusha is the pearl of Azerbaijan, the cradle of culture, the land of beauty. The beauty of this city, its crystal clear nature has always attracted the attention of foreign forces. On the one hand, this strengthened its economy in terms of tourist flow, favorable agricultural region, culture and crafts, but on the other hand, it caused it to be trampled by the invading Armenian forces. In this article, we examined the level of development of Shusha's economy from the past to the present day.

# QARABAĞIN İQTİSADİYYAT QURUCULUĞUNA ŞUŞA ŞƏHƏRİNİN DİRÇƏLDİLMƏSİNİN MULTİPLİKATİV TƏSİRİ

**Əliyev Şəfa Tiflis oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*shafaaliyev@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Şuşa, Şuşa şəhərinin strateji rolu, Şuşa şəhərinin dirçəldilməsi hədəfləri, iqtisadiyyat quruculuğu*

Qeyd edək ki, XIX əsrin əvvəllərindən başlayaraq, Şuşa şəhərinin Qafqazda və ümumən regionda rolu xeyli yüksəlmişdir. Artıq XIX əsrin I yarısında Şuşaya Rusiyadan gələn karvan axınlarının sayı kifayət qədər artmışdı. Xüsusilə, Dərbənddən Şuşaya tacirlər böyük həvəslə gəlirdilər, burada bir çox ipək, boya və s. həm də silah, mahud parça, eyni zamanda digər məhsullar alaraq ticarət edirdilər. Şuşa həm də Cənubi Azərbaycanla əlaqələrdə də önəmli funksiyanı yerinə yetirirdi. Osmanlı İmperiyasının müxtəlif bölgələrindən Şuşaya tacirlər gəlirdilər, bunlarla bərabər Avropa ölkələri, Hindistanla ticarət əlaqələrinin formalaşmasında Şuşa aparıcı rol oynamışdır. Avropadan gələn tacirlərin Şuşada dayanması bir ənənəyə çevrilmişdi və onlar fəal şəkildə burada ticarət əlaqələri yaradır, yarmarkalarda iştirak etməklə məhsullar ixrac edir və həm də özlərinin məhsullarını gətirib burada satırdılar [3, s. 98]. Şuşada şəhərin inkişafı, yeni məhəllələrin salınması, sənətkarlıq obyektlərinin tikintisi və bununla bağlı fəaliyyət istiqamətləri sırasında daha çox fərqlənənlər, əlbəttə ilk növbədə burada sənətçiliklə məşğul olan sənətkarlar idi. Yəni çəkməçilər, dülgərlər, dərzilər, papaqçılar, amma daha çox toxuculuq diqqət çəkirdi.

XIX əsrin birinci yarısında Şuşada müxtəlif parça məmulatları istehsal edən dəzgahlar var idi, yəni artıq kapitalist münasibətləri Şuşada inkişaf edirdi. Müxtəlif sənət növləri həmin dövrdə Şuşanın iqtisadiyyatını formalaşdırırdı. Şuşada ipəkçilik xüsusilə güclü şəkildə inkişaf etmişdi və XIX əsrin II yarısında şəhərdə bir neçə xırda ipək sexləri və fabrikləri var idi, həmçinin ipəksarıma fabrikləri fəaliyyət göstərirdi. Regionda ipək üzrə ixtisaslaşma Şuşada getmişdi və ipəkçiliyin inkişafı ilə əlaqədar olaraq, Azərbaycanın digər əyalət və bölgələrindən bura fəal şəkildə gəlirdilər. Xüsusilə, Şəkidən olan ipək xammalı bura gətirilərək emal olunurdu. Eyni zamanda, xalça istehsalı burada inkişaf etmişdi, milli ornamentləri özündə əks etdirən xalçalar kifayət qədər cəlbedici idi və dünyanın digər ölkələrindən, qitələrindən gələn tacirlər həvəslə həmin xalçaları alaraq başqa ölkələrə aparırdılar və xalça məmulatı istehsalı üçün burada dəzgahlar və fərdi xalça ustaları yetişməkdə idi. Şuşada müxtəlif boya məmulatları və sənətkarlıq sahələrinin inkişafı da diqqət çəkirdi.

XIX əsrin sonlarında Şuşa artıq Qarabağın inzibati mərkəzi kimi kifayət qədər inkişaf etmiş bir şəhər idi və burada sənaye müəssisələrin inkişafı da diqqət çəkmişdir. Şuşa Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzi idi və burada Azərbaycanın şərq ornamentləri, muğam sənətinin və milli musiqinin inkişaf etməsi, mədəni-maarif istiqamətli müəssisələrin yaradılması sürətlənmişdir. Həmin dövrdə Şuşada incəsənətin müxtəlif sahələri özünün intensiv inkişaf yoluna qədəm qoymuşdur. Teatrlar yaranmış, eyni zamanda Şuşada teatr binasının tikintisi təmin edilmişdir və burada teatr tamaşalarının verilməsi reallaşdırılmışdır. Digər tərəfdən, Şuşada qədim xanəndəlik sənətinin inkişafı üçün xeyli işlər görülməkdə idi və burada Azərbaycanın qədim xanəndəlik sənətinin inkişafı ilə bağlı XIX əsrin II yarısında məclislər və müxtəlif dərnəklər fəaliyyət göstərmiş, musiqi salonları tikilmişdir. Həmin dövrdə bütün bunlar mədəniyyət iqtisadiyyatının ilkin görüntülərinin formalaşmasına və baza elementlərinin yaradılmasına imkan vermişdir. Milli dəyərlərimizin qorunması və milli sənətkarların yetişməsi üçün şəhərdə bu cür müəssisələrin, sənətkarlıq və mədəniyyət müəssisələrinin yaranması mühüm əhəmiyyət kəsb edirdi. XIX əsrin II yarısında Şuşada xanəndə fəaliyyətinin inkişaf etməsi, xüsusilə Tiflis və Şuşada olan teatr tamaşalarının intensivliyi və populyarlığı nəticəsində burada mədəniyyətin inkişafında böyük sıçrayış baş verdi.

Artıq XIX əsrin sonlarında Şuşada bir çox incəsənət məclisləri və ədəbi məclislər fəaliyyət göstərmiş və xüsusilə Xurşudbanu Natəvanın rəhbərliyi altında olan Məclisi Üns ədəbi şeir məclisi böyük rol oynamışdır. XX əsrin əvvəllərində Şuşa regionun həm mədəniyyət, həm istirahət, həm də Qarabağın əsas inzibati mərkəzi kimi çox mühüm strateji əhəmiyyət kəsb edirdi. Burada inkişaf etmiş infrastruktur da həmin

dövr üçün xarakterik idi. Mehmanxanalar, milli ornamentlərlə işlənmiş mədəniyyət obyektləri var idi. Teatr tamaşaları və musiqi müəssisələri fəaliyyət göstərirdi. Həmin dövrdə Şuşada demək olar ki, həyat qaynayır və inkişaf edirdi. Cıdır düzündə at çapmaq üçün yarışlar keçirilirdi və İsa bulağı daha çox insanların dincəldiyi yerlərdən birinə çevrilmişdi. Beləliklə, Şuşada XX əsrin əvvəllərində həyatın xeyli inkişaf etdiyini qeyd etmək mümkündür.

Azərbaycan Demokratik Respublikasının süqutuna kimi olan dövrdə Şuşaya hər tərəfdən, o cümlədən uzaq ölkələrdən, həmçinin Türkiyədən, İrandan, Asiyanın müxtəlif bölgələrindən, Rusiyadan qonaqlar, tacirlər gəlirdilər. Şuşanın inkişaf etməsi həm də Qarabağın, Azərbaycanın inkişafı demək idi. Həmin dövrdə çoxlu sayda sənət nümunələri, mədəni və tarixi abidələr formalaşmaqda, məhşurlaşmaqda idi. Məhz bunların nəticəsində Şuşa dünyaya Azərbaycan xalqını tanıdan görkəmli sənətkarlar bəxş etmiş, həm də milli mədəniyyətin inkişafında önəmli rol oynamış, milli mədəniyyətin və incəsənətimizin bununla bağlı ən dəyərli nümunələrinin formalaşdırılmasına töhfələr vermişdir. Şuşada olan abidələr, özəlliklər bu gündə Azərbaycan xalqının dünyaya təqdim edəcəyi incilərdən hesab olunur.

Məhz bu gün Şuşa iqtisadiyyatının formalaşdırılmasında da onlardan səmərəli şəkildə istifadə etmək mümkündür. Şuşa həm də Qarabağın mərkəzi idi, hər tərəfdən bura insanlar gəlirdi, Şuşada yeni mədəniyyət obyektləri və tikililər diqqət çəkirdi. Müxtəlif yaradıcılıq və eyni zamanda musiqi sənətkarlığı istiqamətlərində dərnəklər fəaliyyət göstərirdi. Xüsusilə, ticarət əlaqələrinin genişləndirilməsi, müxtəlif məhsullar üzrə alqı-satqının keçirilməsi səbəbindən Şuşa ticarətçilərin daha çox həvəslə gəldiyi yerlərdən biri idi. Bundan əlavə, şəhərin füsünkar təbiəti, təmiz havası və Şuşanın özünəməxsus inkişaf xüsusiyyətlərinin olması diqqət çəkirdi.

Keçmiş SSRİ dövründə Şuşada bir çox müəssisələr yaradılmış və Şuşanın sosial-iqtisadi inkişafının təmin edilməsi üçün işlər görülmüşdür. İlk növbədə, Şuşada olan imkanlardan istifadə edilməsi, mədəniyyət abidələrinin qorunması da olduqca çətin idi. Azərbaycanın qədim adət-ənənələrinə, ziyalıların və sənət adamlarının fəaliyyətinə ağır zərbələr vuran bolşeviklər Şuşanın mədəni irsinə və varlığına, qədim adət-ənənələrlə bağlı məsələlərə laqeyd yanaşmışlar. Məscidlər bağlanmış və onların təyinatı dəyişdirilmiş, adət və ənənələrin əksər hissəsi yasaq edilmiş, ziyalıların bu istiqamətdə çağırışları nəzərə alınmamış və qeyd olunduğu kimi, onlar ya sürgün edilmiş, ya da ki, qətlə yetirilmişlər. Bütün bunların nəticəsində Şuşanın XX əsrin 40-cı illərinədək inkişafı demək olar ki, o qədər də sürətli olmamış və şəhərdə müəyyən problemlər yaşanmışdır. Şuşanın mədəni irsinin qorunmasında çətinliklər olmuş və bir çox abidələrə biganəlik özünü göstərmiş, həmin dövr üçün zəruri olan tədbirlərin görülməsindən ötrü maliyyə vəsaitləri olduqca az miqdarda ayrılmışdır.

1950-ci illərdən başlayaraq Şuşanın sosial-iqtisadi inkişafında müharibədən sonrakı dövrün tələbləri çərçivəsində müəyyən işlər görülmüşdür. Lakin Şuşanın ətrafında olan kəndlərdə sırf qədim əkinçilik və heyvandarlıq məşğuliyyətindən başqa, digər sahələr üzrə müəssisələrin yaradılması məsələsinə laqeydlik davam edirdi. Belə ki, bütün diqqət 1920-ci illərin əvvəlində yaradılmış qondarma Dağlıq Qarabağ vilayətinin mərkəzi olan Xankəndinə - Stepanakertə, yəni ermənilərin daha çox yaşadığı əraziyə yönəldilmişdi. Burada bir-birinin ardınca emal müəssisələri yaradılmış, təhsil, səhiyyə, sosial müəssisələr şəbəkəsi formalaşdırılmışdır. Texnikum, institut, məktəb və xəstəxanalar istismara verilmiş, sənaye müəssisələri şəbəkəsi inkişaf etdirilmişdir. Bununla da mərkəz - Moskva Azərbaycana təsir etməklə, həm də ermənilərin təhriki ilə Qarabağın erməniləşdirilməsi prosesini sürətləndirirdilər [4, s. 40]. Dağlıq Qarabağın digər rayonlarında da ermənilərin daha çox məskunlaşması üçün tədbirlər görürdülər və Şuşanın da erməniləşdirilməsi üçün zəminlər yaradılırdı, amma bütün bunlar 1970-ci ilə qədər davam etmişdir.

1970-ci illərin əvvəllərindən başlayaraq, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında və təşəbbüsləri sayəsində Şuşa şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirlməsi prosesləri təmin olundu. Belə ki, təbii qaz, su, elektrik enerjisi ilə təminat məsələləri ən yüksək səviyyədə həll olunmuş, yeni yollar çəkilmiş, Şuşanın sosial-iqtisadi inkişafı sürətləndirilmiş və şəhərdə xidmət sahəsi güclü şəkildə inkişaf etdirilmişdir. Həmin dövr üçün Şuşada müasir mehmanxana kompleksi salınmış, ictimai iaşə müəssisələri, məktəb, təhsil, musiqi, xüsusilə musiqi yönümlü ixtisaslaşmış tədris ocaqları istismara verilmiş, muzeylər təmir edilmiş və yeni muzeylər yaradılmışdır. Bir-birinin ardınca müxtəlif festivalların keçirilməsi, o cümlədən Vaqif poeziya günləri, Xarı-bülbül festivalının keçirilməsi həmin dövr üçün ümumittifaq səviyyəsində çox böyük hadisələrdən hesab olunurdu. Bir sözlə qısa müddət ərzində Şuşa regionun və Qafqazın mədəniyyət mərkəzi statusunu, həm də Qarabağın mərkəzi statusunu demək olar ki, özünə qaytara bilmişdir. Dünyanın hər yerindən, xüsusilə keçmiş sovet respublikalarından Şuşaya on minlərlə insanlar gəlirdilər və Heydər Əliyevin səyləri nəticəsində maliyyə məsələləri həll olunaraq iri "Şuşa" sanatoriyası da tikilmişdir.

Lakin, keçmiş SSRİ-nin süqutundan sonra erməni separatçıları öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal etdilər və Qarabağımız düşmən tapdağı altında qaldı. Müqəddəs Şuşamız isə erməni

murdarlarının ayaqları altında sızlamağa başladı. Ermənilər Şuşanın mədəni irsini yer üzündən silməyə çalışdılar, faktları və tarixi abidələrin üzərində olan dəyərləri saxtalaşdırdılar, bir müddət onlar buna nail oldular. Yenə Ulu Öndərin cəsarətli addımları nəticəsində 1993-cü ilin ortalarından başlayaraq Azərbaycanda sosial-iqtisadi sabitlik təmin edildi, makroiqtisadi vəziyyət yaxşılaşdırıldı, islahatlar keçirildi və həm də ordu quruculuğu tədbirləri görüldü. Nəticədə Azərbaycan ordusu təcrübə və güc topladı, müxtəlif qoşun növləri üzrə lazımi təlimlər keçirildi, silahlar alındı, hərbi hissələr yaradıldı, bununla da Azərbaycan öz torpaqlarını azad edəcəyi günü səbirsizliklə gözlədi. Amma, beynəlxalq səviyyədə atılan diplomatik səylər öz nəticəsini vermədi, ermənilər daha da həyasızlaşaraq Azərbaycanın digər torpaqlarına göz dikdilər, Qarabağdan çıxmayacaqlarını bildirdilər. Şuşada Cıdır düzündə ermənistanın hazırki rəhbərliyi araq içərək yallı getdi. Mundar ayaqları ilə müqəddəs Şuşanı, Cıdır düzünü mundarlamaqda davam etdi və məsuliyyətsiz bəyanatlar verdi. Bütün bunlar Azərbaycan xalqının, həm də rəşadətli ordumuzun səbr kasasını daşırdı və Qarabağın işğaldan azad edilməsi vaxtının çatdığını zaman özü göstərdi. 2020-ci il sentyabrın 27-dən başlayan əks-hücum nəticəsində düşmən böyük itkilər verdi və onlar silahlarını ataraq fərarilik edib qaçırdılar.

Torpaqlarımız işğaldan azad edildikdən sonra quruculuq işlərinə başlanıldı. Postkonflikt ərazilərin konseptual əsaslar üzərində təşkili təmin olundu [2, s. 97]. İlk növbədə dövlətimizin gücünə, iqtisadi qüdrətinə əsaslanan yanaşmalar ortaya qoyuldu. Dövlət başçısı hər bir işğaldan azad olunumuş əraziyə şəxsən getdi, oradakı real vəziyyəti qiymətləndirdi və dirçəliş tədbirləri üçün fərman və sərəncamlar verildi və məqsədli şəkildə vəsaitlərin ayrılmasına başlanıldı. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin minadan təmizlənməsi sürətləndirildi və postkonflikt ərazilərin dirçəldilməsi işləri start götürdü [5, s. 324]. Yeni iqtisadi rayonlar yaradıldı və məhz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kompleks şəkildə inkişaf drayverləri müəyyənləşdirildi [6, s. 69]. Hazırda Böyük Qayıdışa dair I Dövlət Proqaramının reallaşdırılması proseslərinə başlanılmışdır [1].

Bu qeyd olunan proseslərdə əsas inkişaf impulsları və drayverləri Şuşa şəhərinin dirçəldilməsindən qaynaqlanır. Şuşa şəhərinin tikinti meydançasına çevrilməsi və eyni vaxtda, sosial-iqtisadi inkişaf infrastrukturunun formalaşdırılması, sosial obyektlərin sürətlə tikilməsi və xidmət sahəsinin inkişaf etdirilməsi bütövlükdə Qarabağın iqtisadiyyat quruculuğuna multiplikativ təsir göstərməkdədir. Hesab edirik ki, yaxın perspektivdə məhz bu amilin təsiri nəticəsində Qarabağın iqtisadiyyat quruculuğunda önəmli addımlar atılacaqdır və bununla bağlı bir sıra məqamları ümumiləşdirmək istərdik:

- Şuşa Qarabağın mərkəzi kimi yeni strateji əhəmiyyət kəsb etməkdədir və Qarabağda quruculuq işlərinin sürətləndirilməsində multiplikativ rol oynayır;
- Şuşa şəhəri ilə bağlı təminat layihələrinin həyata keçirilməsi, Zəfər Yolunun inşası, Şuşada yüzlərlə irili-xırdalı tarixi abidələrin, mədəniyyət ocaqlarının bərpa olunması, xidmət sahələrinin sürətli inkişafı üçün intensiv tədbirlərin görülməsi şəhərin iqtisadiyyat quruculuğunu təmin etməklə bərabər, ümumən Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafına müsbət təsir göstərir;
- Şuşa şəhərində yüksək və "ağıllı" texnologiyalar əsaslı xidmət sahələrinin yaradılması, təhsil və səhiyyə infrastrukturunun formalaşdırılması, yaşayış massivlərinin tikilməsi yaxın perspektivdə Şuşa şəhərini nəinki Cənubi Qafqazda və ümumilikdə bütün dünyada cəlbedici şəhərlərdən birinə çevirəcək və Qarabağın ölkə iqtisadiyyatına reinteqrasiyasına və beynəlxalq səviyyədə ölkəmizin nüfuzunun daha da artmasına əlavə imkanlar yaradacaqdır və s.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. – Bakı: Qafqaz nəşriyyat evi, – 2010. – 270 s.
3. Səmədzadə Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.
4. Şuşa-270. Şuşanın demoqrafik, sosial-iqtisadi inkişafı: dünən, bu gün və perspektivlər. Bakı, – 2022. – 268 s.
5. Алиев Ш.Т. Стратегическая важность возрождения Шуши в интенсификации социально-экономического развития Карабахского экономического района / VII Международная Научно-Практическая Конференция «Современные тенденции развития науки и мирового сообщества в эпоху цифровизации», – Москва, 30 июня 2022. с. 321-329.
6. Гасымлы В. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В.Гасымлы // Интерактивная наука. – 2022. № 3(68), – с. 69-70.

**РЕЗЮМЕ**
**МУЛЬТИПЛИКАТИВНОЕ ВЛИЯНИЕ ВОЗРОЖДЕНИЯ ГОРОДА ШУША НА ЭКОНОМИЧЕСКОЕ ПРЕОБРАЗОВАНИЕ КАРАБАХА**
***Алиев Ш. Т.***

***Ключевые слова:*** *Азербайджан, Карабах, Шуша, стратегическая роль города Шуша, цели возрождения города Шуша, экономические преобразования*

В статье исследуется мультипликативное влияние возрождения города Шуша на экономическое преобразование Карабаха. Исследованы и обобщены особенности формирования и развития города Шуша. Рассмотрена историческая роль города Шуша в развитии и повышении стратегической важности Карабаха. Обосновано мультипликативное влияние возрождения города Шуша в стимулировании экономического преобразования освобожденных от оккупации территорий. Рассмотрены современные аспекты и ключевые цели экономического преобразования города. Подготовлены рекомендации и даны предложения по развитию традиционных сфер услуг и формированию экономики культуры в городе Шуша.

**SUMMARY**
**MULTIPLICATIVE INFLUENCE OF THE REVIVAL OF THE CITY OF SHUSHA ON THE ECONOMIC TRANSFORMATION OF KARABAKH**
**Aliyev Sh.T.**

***Key words:*** *Azerbaijan, Karabakh, Shusha, strategic role of Shusha city, goals of revival of Shusha city, economic transformation*

The multiplicative influence of the revival of the city of Shusha on the economic transformation of Karabakh is considered in the article. The features of the formation and development of the city of Shusha are investigated. The historical role of the city of Shusha in the development and increase of the strategic importance of Karabakh is revealed. The multiplicative influence of the revival of the city of Shusha in stimulating the economic transformation of the territories liberated from occupation is justified. Modern aspects and key goals of the economic transformation of the city are underlined. Recommendations and proposals for the development of traditional spheres of services and the formation of a cultural economy in the city of Shusha are given in the end.

# QLOBALLAŞMA İLƏ DƏYİŞƏN AZƏRBAYCAN İQTİSADİYYATI VƏ RƏQƏMSAL TRANSFORMASİYA

**Əliyev Şükür Həsən oğlu**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*sukur.aliyev12@gmail.com*

***Açar sözlər:*** *iqtisadiyyat, rəqəmsal transformasiya, texnologiya, rabitə, innovasiya*

XXI əsrdə dünyada gedən proseslər nəticəsində rəqəmsallaşma zərurətə çevrilmişdir. Xüsusilə dünyada ressesiya dövrü kimi səciyyələndirilən və bir çox məhdudiyyətlərin tətbiq edildiyi Koronavirus pandemiyası rəqəmsal transformasiyanı daha da sürətləndirmişdir. Bütün dünyada olduğu kimi Azərbaycan Respublikası (AR) da bu prosesin tərkib hissəsi olmuş, qlobal iqtisadiyyata inteqrasiya edə bilmək üçün dünya trendlərini yaxından izləmiş və müasir çağırışlara cavab verən iqtisadiyyatın qurulması fonunda rəqəmsallaşma ilə bağlı olaraq müəyyən strategiyalar hazırlamış, bu sahədə mütərəqqi addımlar atmışdır. İlk olaraq bu sahənin qanunvericilik bazasının formalaşdırılması və mövcud münasibətlərin tənzimlənməsi ilə əlaqədar olaraq bir çox qanunlar qəbul edilmiş və rəqəmsallaşmanın müəyyən plan daxilində, sistemli və ardıcıl şəkildə həyata keçirilməsi üçün dövlət proqramları, yol xəritələri hazırlanmışdır. Rəqəmsallaşma üzrə nəzarət mexanizminin reallaşması üçün bir sıra qurumlar da yaradılmışdır.

Azərbaycanda rəqəmsallaşma ilə bağlı bir çox layihələr reallaşdırılmışıdır. Bunlardan ən əsası da dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin artırılması, xidmətlərin əlçatanlığı və bu sahədə səmərəliliyin təmin olunması ilə əlaqədar olaraq elektron hökumət portalının yaradılmasıdır.

Xüsusilə, dövlət idarəetməsində rəqəmsallaşdırma biznes üçün şəffaf, hesabatlı, səmərəli və proqnozlaşdırıla bilən perspektivlər yaradacaqdır [1].

Digər bir mühüm layihə isə dövlət-özəl tərəfdaşlığının inkişafı və xarici ticarətin genişləndirilməsi məqsədilə “rəqəmsal ticarət qovşağı”nın yaradıması ilə bağlı olmuşdur. Məhz bu layihənin uğurla davam etdirilməsi nəticəsində elektron ticarətin həcmi daha da artacaqdır.

Azərbaycanda rəqəmsallaşma ilə bağlı olaraq reallaşan digər layihələr isə “ağıllı şəhər”, “ağıllı kənd” və “Smart Azərbaycan” layihələrinin həyata keçirilməsi, informasiya cəmiyyətinin qurulası istiqamətində təhsil sisteminin inkişafı üzrə işlərin görülməsi, internet zolağının genişləndirilməsi, kosmik peyk sənayesinin inkişafı, müasir texnologiyalara və avtomatlaşdırılmış idarəetməyə əsaslanan müəssisələrin fəaliyyəti və elmtutumlu məhsul istehsalının həcmində müşahidə olunan artımlar, yüksək texnologiya parklarının fəaliyyətinin təmin edilməsi, elm müəssisələri ilə biznes qurumlarının əməkdaşlığının

stimullaşdırılması, rəqəmsal bankçılığın inkişafı, rəqəmsal manatın hazırlanması istiqamətində görülən işlər, sosial innovasiyalar, kibertəhlükəsizlik sahəsində addımların atılmasını qeyd edə bilərik. Reallaşdırılan bütün bu layihələr Azərbaycanda rəqəmsal dayanıqlılığın təmin olunmasına, iqtisadiyyatın hər tərəfli inkişafına töhfə verir.

Rəqəmsallaşmanın Azərbaycan iqtisadiyyatına təsirini müəyyənləşdirmək üçün bir sıra statistik hesabatlara nəzər salaq. Azərbaycanda ticarət dövriyyəsinin həcmi ildən ilə artmağa davam edir. Bu artımlar həm ənənəvi ticarət, həmçinin də elektron ticarətin həcmində müşahidə olunur.

Belə ki, AR Mərkəzi Bankının statistik hesabatlarına əsasən 2021-ci il ərzində elektron ticarətin həcmi 7 milyard 210 milyon manat olmuşdursa, artıq 2022-ci ildə bu rəqəm 18 milyard 348 milyon manat olmuşdur [3].

Göründüyü kimi elektron ticarətin həcmi kifayət qədər çoxdur. Bu isə iqtisadiyyatın inkişafına çox böyük töhfə verir. Bu sahədə görülən işlər nəticəsində gələcəkdə, dövrün reallıqlarına uyğun olaraq elektron ticarət həcmi ənənəvi ticarəti üstələyəcəkdir. Həmçinin elektron ticarətin həcmində baş verən artımlar informasiya cəmiyyətinin inkişafını və mövcudluğunu da təsdiqləyən göstəricidir.

Rabitə və informasiya texnologiyalarının sürətli inkişafı rəqəmsallaşma sahəsində gedən proseslərlə birbaşa bağlıdır. Rəqəmsallaşma - informasiya texnologiyalarının əsas məqsədi, məlumatların elektron formada yığılması, işlənməsi, saxlanılması və ötürülməsini təmin etməkdir. Bu rəqəmsallaşma ilə informasiya və rabitə texnologiyaları arasındakı əlaqəni göstərir, çünki rəqəmsallaşma informasiyanın yaradılması və ötürülməsi üçün rabitə vasitələrindən istifadə edir.

Rəqəmsallaşma gündəlik həyatımızın bir çox sahələrində iştirak edir. Bu, dünya əhalisinin bir-biri ilə kommunikasiya etməsinin ən asan və tez yolu kimi hesab edilir. Mobil telefonlar, internet, sosial media platformaları və başqa rabitə texnologiyaları, dünyanın hər yerində olan insanlar arasında informasiya mübadiləsini mümkün edir. Ümumiyyətlə, informasiya texnologiyaları ilə rabitə və rəqəmsallaşma, bizim həyatımızın bir çox sahələrində müəyyənlik yaratdı və həyatımızı daha da rahatlaşdırdı. Aşağıda verilmiş şəkildə son 5 il ərzində rabitə və informasiya xidmətlərindən əldə olunan gəlirlər göstərilmişdir.

Şəkil 1-də verilən statistik məlumatlara əsasən son 5 ildə rabitə və informasiya sahəsindən əldə olunan gəlirlərdə hər il növbəti ilə nisbətən artım dinamikası müşahidə olunmuşdur. 2021-ci il ərzində bu sahə üzrə göstərilən xidmətlərdən 2 milyard 391 milyon manat gəlir əldə olunmuşdur ki, buraya da peyk xidmətlərindən, proqram təminatı üzrə xidmətlərdən, internet üzrə göstərilən xidmətlərdən və s. daxil olan gəlirlər aiddir. İnformasiya və rabitə xidmətlərindən əldə olunan gəlirlərin həcmindəki artım Azərbaycanda rəqəmsallaşmanı daha da stimullaşdıracaqdır.

Azərbaycanda rəqəmsal bankçılıq sahəsində işlər həyata keçirilir. Rəqəmsal bankçılıq, informasiya texnologiyalarının dəstəyi ilə müştərilərə daha sürətli, daha təhlükəsiz və daha effektiv xidmət vermək məqsədi ilə hazırlanan bir bankçılıq modelidir. Bu model, bankların əməliyyatlarını rəqəmsallaşdırmaq, müştərilərinin hesablarını və əməliyyatlarını elektron formada idarə etmək və banklarla müştərilərin arasında informasiya mübadiləsini daha effektiv edərkən texnologiyalardan faydalanmaq məqsədilə hazırlanmışdır. Rəqəmsal bankçılıq, müştərilərə internet bankçılığı, mobil bankçılıq və digər rəqəmsal xidmətlər təklif edir. Banklar, rəqəmsal bankçılıq vasitəsilə müştərilərinin hər hansı bir vaxtda bank əməliyyatlarını aparmağa imkan verir, əməliyyatların tamamlanması üçün məsafə məsələləri olmadan, həmçinin təhlükəsizlik və əlverişlilik də təmin edilir.




***Mənbə:*** *AR DSK-nın statistik məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır [2].*

Şəkil 1.

Azərbaycanda iqtisadiyyatın rəqəmsal transformasiyasının daha sürətlənməsi üçün bir çox istiqamətdə mühüm işlər həyata keçirilməlidir. Rəqəmsallaşmanın təmin edilməsi məqsədilə innovativ texnologiyaların tətbiqi vacib məsələlərdəndir. Məhz bu texnologiyalar vastəsilə istehsalın səmərəli təşkilinə nail olmaqla həm keyfiyyət, həm də kəmiyyət cəhətdən üstünlük əldə emək mümkün olar. Rəqəmsallaşma üçün texnologiya sahəsində yüksək inkişaf etmiş dövlətlərlə, nəhəng transmillli şirkətlərlə əməkdaşlıq etmək vacibdir. Məhz bu ölkələrin, şirkətlərin təcrübəsindən istifadə etməklə bu sahədə daha effektiv işlər görmək mümkündür.

İqtisadiyyatın rəqəmsallaşması müsbət bir tendensiya olsa da burada çox böyük risklər də vardır. Bu risklərin ən birincisi kiberhücumlardır ki, bu hücumlar da rəqəmsal dayanıqlılığın zəif olması, rəqəmsal infrastrukturda olan boşluqlarla bağlıdır. Bu hücumların qarşısının alınması məqsədilə kibertəhlükəsizlik və proqram təminatı sahəsinə potensial kadrların yetişdirilməsi üzrə işlər görülməlidir.

Nəticədə rəqəmsallaşma sahəsində həyata keçirilən ardıcıl islahatlar Azərbaycan iqtisadiyyatının inkişafına səbəb olacaq, Azərbaycanı regionda rəqəmsal mərkəzə çevirəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
2. https://www.stat.gov.az/source/communication/
3. https://uploads.cbar.az/assets/4a6a6939aa9516234c3cdedbe.pdf



**РЕЗЮМЕ**

**ЭКОНОМИКА АЗЕРБАЙДЖАНА МЕНЯЮЩАЯСЯ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ И ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ**

***Алиев Ш. Г.***

***Ключевые слова:*** *экономика, цифровая трансформация, технологии, коммуникация, инновации*

В последние годы стремительно развиваются информационные и коммуникационные технологии, являющиеся результатом 4-й промышленной революции. Развитие этих технологий обусловливает необходимость цифровой трансформации как основной составляющей современных глобальных задач, связанных с обеспечением эффективности во всех сферах и созданием автоматизированной модели управления. В частности, цифровая трансформация экономики является основой процессов цифровизации. Развитие цифровой экономики обеспечивает прозрачность, улучшение бизнес-среды и упрощение осуществления деятельности субъектов предпринимательства. В данной статье анализируется текущее состояние быстро оцифровывающейся экономики Азербайджана.



**SUMMARY**

**AZERBAIJAN ECONOMY CHANGING WITH GLOBALIZATION AND DIGITAL TRANSFORMATION**

***Aliyev Sh.H.***

***Key words:*** *economy, digital transformation, technology, communication, innovation*

In recent years, information and communication technologies, which are the result of the 4th industrial revolution, are developing rapidly. The development of these technologies necessitates digital transformation as the main component of modern global challenges related to ensuring efficiency in all areas and creating an automated management model. In particular, the digital transformation of the economy is the basis of digitalization processes. The development of the digital economy ensures transparency, improvement of the business environment and easier implementation of the activities of business subjects. In this thesis, the current state of Azerbaijan's rapidly digitizing economy is analyzed.


# NEFT-QAZ SƏNAYESİ ÜZRƏ TİKİNTİ SEKTORUNUN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN YENİDƏNQURULMASINDA İQTİSADİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ


**Qasımlı Murad Bəkir oğlu**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan*

*murad.gasimli.96 @gmail.com*



***Açar sözlər:*** *iqtisadi potensial, saziş, akselerasiya əmsalı, kapital, investisiya, enerji*


Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft-qaz sənayesi iqtisadi fəaliyyət sahələrinin inkişafını şərtləndirərək ölkə üzrə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Müstəqilliyin ilk illərində tənəzzül dövrünü yaşayan Azərbaycan iqtisadiyyatının bütün sahələrinin inkişafı Ulu Öndər H. Əliyevin 19 sentyabr 1994-cü il tarixində "Əsrin Müqaviləsi" Sazişinin imzalanmasından sonra baş

vermişdir [4, s.197]. Bu müqavilənin imzalanmasından sonra dövlət quruculuğu prosesində ən əhəmiyyətli məsələlərdən biri kimi sənaye istehsalının idarə edilməsinin optimal təşkili hesabına neft sektorundan əldə olunan gəlirin qeyri-neft sektoruna yönəldilməsi digər sahələrin, o cümlədən tikinti sektorunun da inkişafında dönüş yaratdı. Azərbaycan Respublikasının 44 günlük Vətən müharibəsində qazandığı qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasında da bu sektorun rolu daha da artır. Hal-hazırda neft-qaz sənayesinin inkişafı ilə yanaşı Azərbaycan zamanla ayaqlaşaraq dünya miqyasında getdikcə genişlənən qlobal tendensiyalara uyğun olaraq alternativ enerji mənbələrinin inkişaf etdirilməsi istiqamətində də uğurlu işlər aparır. Azərbaycanda 2030-cu ilə qədər ölkənin ümumi elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payının 30% olması nəzərdə tutulmuşdur [1]. Qeyd etmək lazımdır ki, ilk növbədə işğaldan azad edilmiş ərazilərdə - Qarabağda "yaşıl enerji" zonasının yaradılması nəzərdə tutulur. Bu məqsədlə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2021-ci il mayın 3-də işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncamına əsasən, Qarabağda "yaşıl enerji" zonasının yaradılması üzrə işlərə dövlət büdcəsindən 1,4 milyon ABŞ dollarına yaxın vəsait ayrılmışdır. Bərpa olunan enerji mənbələrindən (RES - külək, günəş, su, geotermal və bioenerji), enerjiyə qənaət edən texnologiyalardan, müasir enerjidən səmərəli istifadəni təmin etmək məqsədilə bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması üzrə aparılacaq işlərin uğurla davam etdirilməsində də neft-qaz sektoru üzrə tikinti sənayesi mühüm əhəmiyyət kəsb edir [6].

**1. Neft-qaz sənayesində tikinti sektorunun işğaldan azad edilmiş ərazilərin iqtisadi artımına təsirinin qiymətləndirilməsi**

Azərbaycan Respublikası Energetika Nazirliyinin məlumatına əsasən, ilkin hesablamalara görə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin günəş enerjisi üzrə potensialı 4 min MVt-dan, külək enerjisi üzrə isə 500 MVt-dan çoxdur [7]. Bu potensialdan səmərəli istifadə edilməsi məqsədi ilə bu sahədə uğur qazanmış dünya şirkətlərinin cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda Böyük Britaniyanın BP Şirkəti SOCAR-la birlikdə artıq bərpa olunan enerji mənbələri üzərində işləyərək, işğaldan azad edilmiş ərazilərdə günəş enerjisi istehsalına sərmayə qoyuluşu məsələlərini planlaşdırırlar. İşğaldan azad edilmiş Qarabağ əraziləri "yaşıl zona" və "ağıllı şəhər" elan edildiyindən bu layihənin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, SOCAR-ın tikinti sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların artımı ilə ümumi məhsul buraxılışının artımından akselerasiya əmsalını hesablamaqla bu layihələrin daxili imkanlar hesabına yerinə yetiriilmə qabiliyyətini qiymətləndirmək olar.

Məlumdur ki, iqtisadi fəaliyyət sahələrinin inkişafı onların əsas istehsal fondlarına yönəldilən investisiyalardan birbaşa asılıdır. Bu baxımdan həmin sahədə istehsal edilmiş məhsulun həcminin orta illik dəyişməsi $\Delta Y$ səbəb amili göstəricisini ifadə edən dəyişən ilə və əsas fondlara yönəldilən investisiyaların həcminin orta illik dəyişmələrini nəticə amili kimi $\Delta \dot{I}$ göstəricisindən istifadə etməklə, iqtisadi fəaliyyət sahəsində əsas fondlara yönəldilən investisiyaların dəyişmələrinin həmin sahədə istehsal olunmuş məhsul istehsalının dəyişmələrindən asılılığı bu halda aşağıdakı xətti reqressiya tənliyi formasında axtarılacaqdır [4, s.200].

$$\Delta \dot{I} = \alpha_0 + \alpha_1 \Delta Y$$

Burada, $\Delta \dot{I}$ – iqtisadi fəaliyyət sahəsində əsas fondlara yönəldilən investisiyaların dəyişmələrini; $\Delta Y$ – iqtisadi fəaliyyət sahəsində məhsul istehsalının dəyişmələrini; $\alpha_1$ – əmsalı ά akselerasiya göstəricisini; $\alpha_0$ – sərbəst həddi isə orta hesabla hər il əsas fondlara yönəldilən investisiyaların dəyişmələrinin məhsul istehsalına aid olmayan, kənar digər mənbələr hesabından baş verməsini ifadə edir.

Bu göstərici əsasən Aftalyonun konsepsiyasına görə müəyyən edilərək aşağıdakı düstura əsasən hesablanır [4, s. 204].

$$\alpha_t = [\Delta \dot{I}t \,/\, (\Delta Y(t-1) \; - \; \Delta Y(t-2)\,)]$$

Burada, $\Delta Y(t-1)$- iqtisadi fəaliyyət sahəsinin (t–1) dövründə məhsul istehsalının artımı həcmini, ΔYt-2 – iqtisadi fəaliyyət sahəsinin (t–2) dövründə məhsul istehsalının həcminin artımını; $\Delta \dot{I}t$ -iqtisadi fəaliyyət sahəsinin cari t döründə həmin sahəyə yönəldilmiş investisiyaların artımlarını ifadə edir.

Yuxarıda qeyd edilən düstura uyğun olaraq MS Excel proqramında SOCAR-ın "Neftqaztikinti" trestinin 2008-2021-ci illəri əhatə edən dövrdə ümumi məhsul buraxılışı və əsas kapitala investisiya qoyuluşu əsasında, müstəqil inkişaf etmə qabiliyyətinin qiymətləndirilməsi məqsədi ilə $\alpha_0$ və $\alpha_1$ əmsallarına uyğun olaraq, t ilində müstəqil inkişafla bağlı əsas kapitala yönəldilmiş investisiyaların dəyişmələrinin (t-1) ilində istehsalın dəyişmələrindən asılılığı hesablamalara əsasən aşağıdakı kimi olacaqdır [7, 8].

$$\Delta \dot{I}_t = \alpha_0 + \alpha_1 \Delta Y_{t-1} = 22{,}1876 + 0{,}06892\alpha_1$$

Alınmış tənlikdəki $\alpha_1 = 0{,}06892$ olduğundan, məhsul istehsalı artımı hesabından əsas fondlara investisiyaların artımlarına yönəldilə biləcək potensialı bu sahəyə qoyulmuş investisiya vəsaitlərinin artımına yönəldilməməsi aşağı səviyyədədir. Bu baxımdan aparılmış tədqiqat işinə əsasən hesab etmək olar ki, Azərbaycan Respublikasında SOCAR-ın "Neftqaztikinti" tresti üzrə əsas kapitala yönəldilmiş

investisiyaların və bu sahədə məhsul buraxılışının həcmi göstəricilərinə əsasən məhsul istehsalı artımı hesabından əsas fondlara investisiyaların artımlarına yönəldilə bilən potensial imkanı olsa da, bu vəsaitlər investisiyaların artımına optimal formada yönəldilməmişdir. Bu səbəbdən də neft sektorunda əsas fondlara yönəldilən investisiyaların həcmində xarici investisiyaların həcmi daxili investisiyaları üstələmişdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın işgaldan azad edilmiş ərazilərinin bərpası və istisadi potensialının mənimsənilməsində neft-qaz sənayesi üzrə tikinti sektoru mühüm rol oynayır. Bu potensialın optimal şəkildə həyata keçirilməsi məqsədi ilə SOCAR-ın "Neftqaztikinti" trestinin müstəqil inkişaf etmə qabiliyyəti qiymətləndirilərək müəyyən edilmişdir ki, bu sektorun inkişafı daha çox xarici mənbələr hesabına həyata keçirilməlidir. Bu baxımdan SOCAR-ın "Neftqaztikinti" tresti üzrə əsas kapitala yönəldilən investisiyaların məbləğinin artırılması mühüm əhəmiyyət kəsb edəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər: [Elektron resurs] / President.az – 02 fefral, 2021. URL: https://president.az/az/view/50474
2. ARDSK 2021. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/industry/. İstinad tarixi: 04 may 2022.
3. BP Azərbaycanda, Davamlı İnkişaf haqqında hesabat: [Elektron resurs] / Bakı - 2019, 52 səh. URL: https://www.bp.com/content/dam/bp/countrysites/az_az/azerbaijan/home/pdfs/sustainability-reports/sr_2019_az.pdf
4. Yadigarov T.A. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. (Monoqrafiya) Bakı, Avropa nəşriyyatı, 2018, 340 səh.
5. https://minenergy.gov.az/az/xeberler-arxivi/yanvar-fevral-aylarinda-qaz-hasilati-artib. İstinad tarixi: 05 aprel 2022.
6. www.Worldbank.orq.
7. www.socar.az
8. SOCAR-ın "Neftqaztikinti" trestinin 2015-2021-cu illər üzrə ilik hesabatı.



**РЕЗЮМЕ**

**ОЦЕНКА ЭКОНОМИЧЕСКОГО ПОТЕНЦИАЛА СТРОИТЕЛЬНОЙ ОТРАСЛИ ПРИ РЕКОНСТРУКЦИИ ТЕРРИТОРИЙ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ**

***Гасымлы М. Б.***

***Ключевые слова:*** *экономический потенциал, соглашение, коэффициент ускорения, капитал, инвестиции, энергия*

В статье анализируется экономический потенциал освобожденных территорий Азербайджана и комментируется развитие этих территорий. Здесь анализируется роль строительного сектора нефтегазовой отрасли в реконструкции освобожденных от оккупации территорий. Также способность данного сектора к самостоятельному развитию оценивается на основе статистических данных предприятия SOCAR «Нефтегазтикинти».



**SUMMARY**

**ESTIMATION OF THE ECONOMIC POTENTIAL OF THE CONSTRUCTION INDUSTRY OF THE OIL AND GAS INDUSTRY DURING THE RECONSTRUCTION OF TERRITORIES FREED FROM OCCUPATION**

***Gasimli M. B.***

***Key words:*** *economic potential, agreement, acceleration coefficient, capital, investment, energy*

The economic potential of the liberated territories of Azerbaijan and comments on the development of these territories is analyzed in tge article. The role of the construction sector of the oil and gas industry in the reconstruction of the territories liberated from occupation is analyzed here. Also, the ability of this sector to develop independently was estimated based on the statistical data of the enterprise SOCAR "Neftegaztikinti".


# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ LOGİSTİK STRATEGİYANIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ


**Kazımov Namiq Əlixan oğlu**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan*

*eko_dent@mail.ru*



***Açar sözlər:*** *sənaye, müəssisə, logistika, menecer, strategiya, proses, logistika konsepsiyası, risk, anbar, satınalma*

Strategiyalar hazırlayarkən, logistika proseslərinin strateji idarə edilməsi üçün alətlər seçərkən, müəssisəsinin logistika sisteminin əhəmiyyətini düzgün başa düşmək və istehsal təşkilatının logistika konsepsiyasına etibar etmək vacibdir. Təəssüf ki, qeyd etmək lazımdır ki, əksər menecerlər onun mahiyyətinin nə olduğunu aydın başa düşmürlər və buna görə də onlar logistika orqanlarının əsas fəaliyyət göstəricilərini müəyyən etməkdə və onların təsirinin müəssisənin fəaliyyətinə təsirini qiymətləndirməkdə çətin vəziyyətə düşürlər.




***Mənbə:*** *müəllif tərəfindən tərtib edilmişdir.*

**Şəkil 1. Sənaye müəssisəsinin mövcud logistika sisteminin modernləşdirilməsi konsepsiyasının sxemi**

Logistikanın özü strateji rol oynayır. Bu sadəcə bəyanat deyil, postulatdır. Hər bir istehsalın logistika konsepsiyasının dəstəyi ilə paralel olaraq qurulması və inkişaf etdirilməsinin indiki mərhələdə kimə lazım olduğu sualı artıq ritorik olaraq birmənalı deyil. Mövcud şəraitdə müəssisələr tez-tez artıq ehtiyatlardan imtina etməli, əsas nəqliyyat, saxlama və istehsal əməliyyatlarına sərf olunan vaxtı azaltmalı, çeşidin strukturunu dəyişdirməli və nöqsanların aradan qaldırılmasına xüsusi diqqət yetirməli olurlar. Bu müddəalar strateji planlaşdırmada nəzərə alınan logistik proseslərin təkmilləşdirilməsinin bütün mahiyyətini təşkil edir. Eyni zamanda qeyd etmək olar ki, sənaye müəssisəsində baş verən logistik proseslərin ətraflı təsviri olmadan müasir şəraitdə logistika baxımından daha çox diqqət tələb edən məhsulların həyat dövrünü təsəvvür etmək çətindir.

Belə bir təsvirin olmaması əmtəənin həyat dövrünün mərhələlərində onun maya dəyərinin formalaşmasını və bu dəyərin logistikaya düşən payını hesablamağa imkan vermir. Buna görə də, müəssisənin logistik strategiyalarının təkmilləşdirilməsi konsepsiyasını yaratmazdan əvvəl, müəssisənin mövcud logistika sisteminin modernləşdirilməsi konsepsiyasını formalaşdırmaq lazımdır (şəkil 1).

Yuxarı səviyyələrin məqsədlərinin müəyyən edilməsi təbii ki, satışın həcmi, bazar payı, əməyin səmərəliliyi, maya dəyəri və bu kimi amillər kimi göstəricilərə əsaslanır. Eyni zamanda, logistika strategiyası və sistemindən asılılıq dərəcəsi şirkət rəhbərləri üçün çox vaxt sürpriz olur.

Heç kimə sirr deyil ki, logistika proseslərini təsvir etmək baxımından istənilən səviyyədə fəaliyyətlər əvvəlki proses, qaydalar və resurslarla təmin edilməlidir. Nəqliyyat, istehsal, əmtəə və anbar ilə təmsil olunan logistikanın funksiyası sadəcə onu təmin edən prosesləri dəstəkləməkdən ibarətdir [5, s. 15-16].

Hər bir logistik strategiya uğursuzluq riskini daşıyır. Risklər siyahısına əməliyyat riskləri də daxildir ki, bu da əsasən infrastrukturun təkmilləşdirilməsi ilə bağlıdır (şəkil 2). Maddi-texniki təchizat və ya istehsal logistikası ilə əlaqəli risklər idarəetmə üçün ən uyğun olanlardır [3, s. 18-23]. Bu vəziyyətdən müəssisə menecerləri fəal şəkildə istifadə etməlidirlər, çünki əməliyyat risklərini, məsələn, 50% azaltdıqda ümumi risk itkiləri 10% azalacaqdır.




***Mənbə:*** *müəllif tərəfindən tərtib edilmişdir.*

**Şəkil 2. Logistika infrastrukturunun təkmilləşdirilməsi mərhələləri.**

Müxtəlif səviyyəli məqsədlər arasında səbəb-nəticə əlaqəsini təhlil etdikdən sonra aydın görmək olar ki, əsas risklərə məhz MTT-ın qeyri-kafi inkişafı səbəb ola bilər. Məhz, istehsal logistika sisteminin qeyri-kafi təşkili ilə üst səviyyə strateji hədəflərin uğursuzluğu riskləri arasında belə bir əlaqə aşkar olunur:

- qeyri-kafi tələb və sifarişlərin yerinə yetirilməməsi => itirilmiş mənfəət => mənfəətin azalması və gəlir;
- qeyri-likvid aktivlərin artımı => dondurulmuş dövriyyə kapitalı;
- nəqliyyat xərclərinin artması => istehsalın rentabelliyinin azalması;

- istehsalın dayanması (məsələn, avadanlıqların nasazlığı) => istehsal xərclərinin artması.

Sənaye müəssisəsinin dövriyyəsinin artırılması, aktivlərin gəlirliliyinin yüksəldilməsi, investisiyaların gəlirliliyi, investisiyanın qaytarılması, mövcud aktivlərin dövriyyəsi kimi məqsədləri müəyyən etdikdən sonra növbəti mühüm addım logistika strategiyasının bütün istiqamətlər üzrə kökündən dəyişdirilməsi üçün tədbirlərin işlənib hazırlanmasıdır [4, s. 143-144]. Onların hər biri üzrə həyata keçirilməli olan fəaliyyət və istiqamətləri müəyyən etmək lazımdır:

1. Təchizat və nəqliyyat logistikasının strukturu, o cümlədən "et və ya al" qərar qəbuletmə sistemi. Bu sahədə müqayisəli təhlil aparmaq üçün tədarükün coğrafiyasını və iqtisadiyyatını, o cümlədən smeta dəyərini əks etdirən nomenklatura müddəalarının məlumat bazasının yaradılması zəruridir.

2. Anbar logistikası, həm çıxışda, həm də girişdə onun maddi-texniki ehtiyatlarının emalının keyfiyyətini və səmərəliliyini təmin edən. Bu istiqamət çərçivəsində həll olunan problemlər arasında saxlama və uçot sisteminin seçimi və təkmilləşdirilməsini qeyd etmək olar. Bu, ştrix kodlaşdırma, tam avtomatlaşdırılmış inventar sistemi, yükləyicilərin hərəkətinin təşkili və yükləmə sahələrinin yerləşdirilməsi, bölmələrin və sahə anbar sahələrinin arxitekturasının optimallaşdırılması ola bilər.

3. İstehsalın logistikası və istehsal dövrlərinin arxitekturasının təkmilləşdirilməsi. Təkmilləşdirmənin ümumi nümunəsi, komponent panellərinin qablaşdırılmasına və qonşu binalara daşınmasına ehtiyac olmadığı bir polietilen tablosunun istehsalı üçün əməliyyatlar zəncirinin hesablanmasıdır.

4. Əmtəə logistikası və təchizatçılar, pərakəndə ticarət şəbəkələrinin təchizat şöbələri və ticarət evləri ilə əlaqələr. Burada marketinq şöbələrində planlaşdırma mexanizmi yaratmaq və əmtəə axınlarının hərəkəti haqqında yüksək keyfiyyətli statistik məlumat verən informasiya şəbəkələri yaratmaq lazımdır. Keyfiyyətli statistikanın artması ilə istehsal analitikləri toplanır və daha dəqiq istehsal və satış proqnozları, həmçinin satınalma tələbləri olur.

Sənaye müəssisəsinin logistik strategiyasının effektivliyini əks etdirən və MTT-ın daha ətraflı təhlilinə imkan verən göstəricilər arasında:

- istehsal vasitələrinin dövriyyəsi və istifadəsi indeksi;
- fondverimi;
- dövriyyə vəsaitlərinin və əmtəə qruplarının dövriyyə sürəti;
- istehsal fondlarının rentabelliyi.

Bu göstəricilər zəruri statistik məlumatların toplanması ilə müvafiq dövrlərdə infrastrukturun inkişaf dinamikasını ən dəqiq ifadə etməyə imkan verir [1, s. 34-38].

Eyni zamanda satınalma fəaliyyətini qiymətləndirmək olar:

- müəssisənin istehsalat-texniki əhəmiyyətli məhsullarla təmin olunma dərəcəsi;
- istehsal vasitələri ehtiyatlarının dövriyyəsi;
- mövcud resurslardan səmərəli istifadə.

İstehsal prosesinin təmin edilməsi mərhələsində əmək məhsuldarlığını əks etdirən satınalma logistikasının əsas göstəricisi maddi-texniki təchizatın xalis istehsalıdır. Bu göstəricinin real forması yoxdur. O, ümumi məhsuldan material məsrəflərinin xaric edilməsi ilə hesablanır və istehsal prosesi üçün resursların hazırlanması mərhələsində əlavə hesab edilə bilər.

Logistika strategiyasının fəaliyyətinə səmərəli nəzarəti həyata keçirmək üçün müxtəlif idarəetmə səviyyələrində logistika proseslərinin xarakterini əks etdirən göstəricilər hazırlanmışdır. Bunlara aşağıdakı göstəricilər daxildir:

- istehsal prosesinin fasiləsizliyi (əməliyyatların sayı və dövriyyə müddəti);
- əmtəə axınının və istehsalın dayanması;
- daşınma üçün gözləmə müddəti;
- planlaşdırılmış proqnozların və real göstəricilərin icrasının düzgünlüyü;
- anbarlarda saxlama xərcləri.

Qeyd edilmiş xərclər komplektləşdirmə, yükləmə-boşaltma, ştrix-kodlaşdırma, qablaşdırma və saxlama vahidinə görə digər sabit xərclər kimi əməliyyatların dəyərindən ibarətdir [1, s. 43-44].

Nəticədə, maya dəyəri əsasında hesablanan göstəricilər müəyyən miqdarda rentabelliyi və ya mənfəəti təmin etmək üçün məqsədlərə nail olmağı kifayət qədər əks etdirirsə, əməliyyat göstəriciləri proseslərin keyfiyyəti və əmək məhsuldarlığı kimi müəyyən edilmiş məqsədlərə nail olunmasını əks etdirir. Proseslərin keyfiyyəti, öz növbəsində, ən yüksək səviyyəli strateji məqsədlərə, yəni müəssisənin plan dəyərinə nail olmaq məqsədlərinə nail olmağı müəyyən edir.

Logistika strategiyasının göstəricilərinin qiymətləndirilməsi istər-istəməz müvafiq göstəricilərin icrasına cavabdeh olan bölmələrin fəaliyyətinin optimallaşdırılmasına yönəlmiş strateji əməliyyatların işlənib hazırlanmasına təkan verir. Təcrübə göstərir ki, logistika infrastrukturunun inkişafı üzrə tədbir bütün səviyyələrdə strateji məqsədlərin yerinə yetirilməsi üzrə tədbirlər kompleksinin tərkib hissəsi kimi nəinki ani

nəticələr verir, həm də müəssisənin uzunmüddətli hədəflərinin əsas göstəricilərinə təsir göstərir.

Beləliklə, məlum olur ki, ehtiyatların idarə edilməsi sahəsində istehsal ehtiyaclarının, satınalmaların ritminin və ölçüsünün daha dəqiq müəyyən edilməsi sahəsində logistik strategiyanın təkmilləşdirilməsinə, istehsal göstəricilərinin artırılmasına yönəlmiş tədbirlər həyata keçirilir. Təcrübədə belə tədbirlər bir sıra materialların alınması üçün dövriyyə vəsaitlərinin ümumi həcmini 20% azaltmaqla ümumi effekt verir [1, s. 45-46]. Bu cür fəaliyyətlərin ən sadə nümunələri bir təchizatçıdan satın almaq üçün hazırlanmış malların oxşar çeşidlərinin birləşdirilməsi (bu, ümumi alış həcminə endirim əldə etməyə imkan verəcək) və ya daşınma həcmini artırmaq üçün nəqliyyat kanallarının konsolidasiyasıdır.

Satınalma əməliyyatlarının təkmilləşdirilməsi sahəsində materiallara və avadanlıqlara olan tələblərin, habelə onların planlaşdırılmasının tənzimlənməsi, satınalmada dispetçer vasitələrinin tətbiqi, "yarat və ya al" sistemlərinin inkişafı və səmərəli istehsalı təmin etmək üçün informasiya dəstəyinin optimallaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Onların optimal həyata keçirilməsi ilə yuxarıda təsvir edilən tədbirlər satınalma xərclərinin ümumi məbləğini 10%-ə qədər azalda bilər.

Nəqliyyat marşrutlarının təkmilləşdirilməsi, nəqliyyat nəzarətinin avtomatlaşdırılması və avtoparklardan istifadənin texniki-iqtisadi əsaslandırılmasının rəsmiləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsindən dərhal sonra məhsul vahidinə düşən nəqliyyat xərclərinin göstəriciləri 10-12%-ə endirilir.

Anbar logistikasını yaxşılaşdırmaq üçün strateji məqsədləri həyata keçirərkən nəticə anbar sahəsinin saxlanması üçün sabit xərclərin 15%, materialların və avadanlıqların saxlanması üçün vahid xərclərin - 10% azaldılması ola bilər [2, s. 197-200].

## Ədəbiyyat


1. Алиев И.С., Чумаченко И.В. Оптимизация логистических процессов и систем. Киев: Миллениум. 2009, с. 34-46
2. Афанасенко И.Д. Логистика складирования. М.: ИНФРА-М. 2012, с. 197-200
3. Бродецкий Г.Л. Управление рисками в логистике. М.: Академия. 2008, с. 18-23
4. Левкин Г.Г. Основы логистики. Изд. Инфра-Инженирия, 2021, с. 143-144
5. Неруш, Ю. М. Логистика. М.: Издательство Юрайт, 2023, с. 15-16



**РЕЗЮМЕ**

**НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ЛОГИСТИЧЕСКОЙ СТРАТЕГИИ В ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ**

***Казымов Н.А.***

***Ключевые слова:*** *промышленность, предприятие, логистика, менеджер, стратегия, процесс, концепция логистики, риск, склад, закупки*

Мировой опыт показывает, что промышленные предприятия ориентируются на логистическую стратегию для системного решения проблем с поставщиками, посредниками и потребителями не только на внутреннем, но и на внешнем рынках. Поэтому процесс разработки логистической стратегии промышленных предприятий должен основываться на углубленном изучении приоритетных направлений развития этих предприятий, включая завоевание новых, перспективных рынков, обеспечение эффективного обслуживания потребителей, совершенствование логистического сервиса. В статье рассмотрены направления совершенствования логистической стратегии, применяемой на промышленных предприятиях, работающих в современных условиях.



**SUMMARY**

**DIRECTIONS FOR IMPROVING THE LOGISTICS STRATEGY IN INDUSTRIAL ENTERPRISES**

***Kazimov N.A.***

***Key words:*** *industry, enterprise, logistics, manager, strategy, process, concept of logistics, risk, warehouse, procurement*

World experience shows that industrial enterprises are oriented to the logistics strategy for the systematic solution of problems with suppliers, intermediaries and consumers not only in domestic but also in foreign markets. Therefore, the process of developing a logistics strategy of industrial enterprises should be based on an in-depth study of the priority areas of development of these enterprises, including the conquest of new, promising markets, the provision of effective customer service, and the improvement of the logistics service. In the article, directions for improving the logistics strategy applied to industrial enterprises operating in modern conditions are considered.

## AZƏRBAYCANDA TURİZM BİZNESİNİN İNKİŞAF PROBLEMLƏRİ

**Kərimov İslam Əli oğlu**
*Baku Service Company, Bakı, Azərbaycan*
*islam.kerimov38@gmail.com*

***Açar sözlər:*** *turizm, Ümumi Daxili Məhsul, rəqabət, otel, kurort, xidmət, qiymət*

Müzəffər ordumuz Ali Baş Komandanın rəhbərliyi nəticəsində şanlı qələbə qazanmaqla Azərbaycan Respublikası (AR) ərazisinin təhlükəsizliyini möhkəmləndirərək iqtisadi nailiyyətlərini daha da artırmaqdadır. Biznes fəaliyyətinin inkişafı üçün rəqabət mühitinin yaradılması ölkəmizin sürətli sosial-iqtisadi inkişafına zəmin yaradır. Özünün milli maraqlarına uyğun siyasət həyata keçirməklə makroiqtisadi göstəricilərini artıran Azərbaycan Ümumi Daxili Məhsulunu (ÜDM) artırmaqla onu 133,8 milyard manata çatdırmışdır.

Ölkə üzrə rəsmi statistik məlumatların təhlilinə əsasən ÜDM istehsalının 51,1%-i sənaye, 8,2%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 6%-i nəqliyyat və anbar təsərrüfatı, 4,8%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,8%-i tikinti, 1,6%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,4%-i informasiya və rabitə sahələrinin, 14,7%-i digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 7,4%-ni təşkil etmişdir (Şəkil 1). Təbii ki, müvafiq inkişaf templərinə malik olan iqtisadiyyatın bu sahələri mövcud potensialdan təkmil istifadə nəticəsində daha da genişləndirilə bilər. Bu sahələrdən biri də 2022-ci hesabat ilində ÜDM-in strukturunda 1,6% xüsusi çəkiyə malik olan turizm biznesidir. Bu sahənin yaxın gələcəkdə ölkə daxilində mövcud resurslardan daha da səmərəli istifadəsi ilə inkişaf etdirilməsi ötən ildəkindən dəfələrlə daha çox fayda gətirə bilər [1].

Hərtərəfli hüquqi bazası yaradılmaqla turizm sənayesinin inkişaf etdirilməsinə çoxsaylı amillər təsir göstərir. Onlara ilk növbədə ölkə ərazisinin əsrarəngiz təbiətini, flora və faunasını, mövcud coğrafi landşaftını, turizm resurslarını, Azərbaycan xalqının qonaqpərvərliyini, qədim mədəniyyəti və tarixi irsini, kadr potensialını və s. aid etmək olar. Eyni zamanda turizm biznesindən götürülən gəlirlərin çoxaldılmasına ölkəmizdə fəaliyyət göstərən sanatoriya-kurort müəssisələri, otellərin, turagentlərin və turoperatorların effektli fəaliyyəti, həmçinin Azərbaycana gələn turistlərə xidmət göstərən nəqliyyat-kommunikasiya əlaqələrinin beynəlxalq standartlara uyğun təşkili, mövcud qiymət və tariflərin turistlər üçün optimal həddlərdə saxlanılması, turizmə sərmayə qoyuluşunun artırılması və s. təsir göstərir.




**Şəkil 1. AR-da 2022-ci ildə ÜDM istehsalının strukturu**

Azərbaycanda turizm biznesinin inkişafında sanatoriya-kurort müəssisələrinin və otelçilik fəaliyyətinin rolu böyükdür. Ölkə ərazisində hazırda fəaliyyətdə olan sanatoriya-kurort müəssisələrinin sayı 32-yə (onlardan 12-si uşaq sanatoriyalarıdır) çatır. Son illərdə otelçilikdə ümumi iqtisadi göstəricilərin araşdırılması onu göstərir ki, burada yerləşdirilən ölkə vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan

şəxslərin miqdarında da çoxalma vardır. Otel və mehmanxana tipli obyeklərdə birdəfəlik tutum 2010-cu ildəki 30793-ə qarşı müqayisədə artaraq 2021-ci ildə 53049-a çatmışdır. Bu artım isə otel və mehmanxana tipli obyektlərin sayında yaranan çoxalma ilə izah edilə bilər. Bu tipli obyektlər baxılan dövrlərə görə müvafiq olaraq 499 və 712 vahid təşkil etmişdir [2, s. 278].

Turizim biznesinin respublika ərazisində inkişaf etdirilməsi ilə əlaqədar görülən tədbirlərin həyata keçirilməsinə baxmayaraq bu sferanın inkişafına mənfi təsir göstərən problemlər qalmaqdadır. Hazırda ölkəmizdə Mariott" (1.04.2021), "Four Seasons" (3.09.2021), "Faimont" (24.06.2013), "Kempinski" (10.05.2011), "Jumeirah" (28.12.2011), "Sheraton" (2014), "Hyatt" (19.05.1995), "Hilton" (3.10.2011) kimi tanınmış otellərin uğurlu fəaliyyətinə baxmayaraq buradakı mövcud qiymət və tariflər əlverişli həddə deyildir. AR-da lüks şəraitə malik olan (VİP) nömrələrdə sutkalıq qiymət 1000-2000 manat arasında dəyişir. Bu da ABŞ, Birləşmiş Ərəb Əmirliyi, Şimali Kipr və Türkiyə kimi dövlətlərlə müqayisədə olduqca yüksəkdir. Bu səbəbdən ölkəmizə gələn turistlərin əksəriyyəti istirahətdən çox səyahət etmək məqsədi ilə gəlirlər ki, bu da onların qısa müddətdə ölkəmizdə qalmaları ilə nəticələnir.

Beləliklə, turizmdə yaranan əsas problemlərdən biri gələn turistlərin turizm günlərinin sayının az olmasıdır. Ölkə ərazisində fəaliyyət göstərən turizm obyekləri ilin bütün fəsillərində davamlı xidmət göstərmirlər. Bu şirkətlərin il ərzində 2-3 ay fəaliyyət göstərməsi onların xərclərinin çoxalmasına səbəb olur. Belə olduğu təqdirdə isə turizm müəssisələrinin büdcəsinin xərcləri bir fəslin üzərinə düşür ki, bu da nəticədə qiymətlərin yüksəlməsinə səbəb olur.

Azərbaycanda turizm biznesinin davamlı inkişafında maneə törədən amillərdən biri də Xəzər dənizinin ekoloji baxımdan çirkləndirilməsindən ibarətdir. Dənizə tökülən suların təmizləyici qurğulardan keçərək yenidən təmizlənməsi tədbirlərinin görülməsinə baxmayaraq, Xəzərdə olan batmış və korroziyaya uğramış gəmilərin metal konstruksiyaları ekoloji təhlükə yaradır. Bununla yanaşı dənizin dibində baş verən vulkanik püskürmələr də Xəzərin sularında ekoloji baxımdan təhlükə yaratmaqda davam edir. Qonşu dövlətlərin ərazilərindən, xüsusilə Rusiya Federasiyasından axıdılan çirkab suların davamlı olaraq dənizə tökülməsi Xəzərin ekoloji baxımdan təmiz olmamasına səbəb olur. Xəzər dənizinin sularının təmizlənməsi ilə əlaqədar kompleks tədbirlərin görülməsi və yaranan ekoloji gərginliyin aradan qaldırılması şübhəsiz ki, çimərlik turizminin sürətlə inkişafına gətirib çıxara bilər.

Turizm sənayesinin inkişafında nəzərə çarpan problemlərdən biri də bu sferada kadrların dünya standartlarının tələblərinə cavab verə bilməməsidir. Hazırda bu kadrların hazırlanması ilə əlaqədar ali təhsil müəssisəsinin (Azərbaycan Turizm və Menecment Universiteti - 2006) fəaliyyət göstərməyinə baxmayaraq beynəlxalq standartlara cavab verən səriştəli kadrlara daha çox ehtiyac duyulur.

Ölkəmizdə turizm biznesinin sürətli inkişafına mənfi təsir edən məsələlərdən biri turistlərə göstərilən xidmət səviyyəsinin aşağı olmasından ibarətdir. Göstərilən xidmətlərin aşağı səviyyədə həyata keçirilməsi respublikaya gələn və yaxud gəlmək istəyən turistlərin sayını azaldır. İstirahətə gələnlərə göstərilən xidmətlərin səviyyəsinin yüksək səviyyədə olmaması birbaşa olaraq rəqabətin aşağı olması ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, turizm sektoru inkişaf edən ölkələrdə bu sahədə fəaliyyət göstərən qurumlar, iş adamları, otellər, sanatoriya-kurort müəssisələri və s. göstərdikləri xidmətlərin səviyyəsinin artırılması nöqteyi-nəzərindən bir-biri ilə rəqabət aparırlar. Bu təcrübəni ölkə daxilində fəaliyyət göstərən turizm təşkilatları da tətbiq etməli və göstərdikləri xidmətlərin səviyyəsini beynəlxalq standartlara çatdırmalıdırlar [3].

Turizmdə meydana gələn problemlərdən biri Azərbaycana gəlmək istəyən turistlərin aviabiletlərinin baha qiymətə satılmasıdır. Adətən turistlər qiyməti bir qədər aşağı olan reyslərlə istirahət edəcəyi məkanlara getməyi üstün tuturlar. Bu səbəbdən də ölkəmizə gələnlərin sayının azalması ilə yanaşı, yolların açıldığı təqdirdə ölkədən gedən insanların sayında yaxın gələcəkdə artım müşahidə edilə bilər. Azərbaycanda təşkil edilən beynəlxalq idman yarışları (Formula 1 avtomobil yarışları), musiqi festivalları (Avroviziya), sərgilər, kino festivalları və digər beynəlmiləl xarakterli tədbirlər turist axınının çoxalmasında önəmli rol oynaya bilər. Bunu üçün isə həm dövlətin, eləcə də iş adamlarının köməyi ilə ilin bütün fəsillərinə uyğun turizm infrastrukturu yaradılmalıdır [4, s.192].

Beləliklə, Azərbaycanda turizmin inkişafında yaranan problemlərin aradan qaldırılması bu sahədə canlanma yaratmaqla, milli turizm sektorunun genişlənməsinə şərait yaradacaqdır. Ölkəmizdə turizm biznesinin mövcud potensiala uyğun inkişaf etdirilməsi və burada beynəlxalq standartlara söykənməklə xidmətlərinin gerçəkləşdirilməsi müasir turizm sənayesinin rəqabətqabiliyyətini yüksəldə bilər.

**Ədəbiyyat**

1. https://www.stat.gov.az/news/index.php?lang=az&id=5403. Elektron resurs istinad tarixi: 30.03.23
2. Azərbaycanın Statistik Göstəriciləri. Statistik məcmuə. Bakı, "Narıncı Nəşriyyat Evi" MMC, 2022, s. 747.

3. Həmzəoğlu M. //Turizm xidmətləri sahəsində əsas problemlər//. 6 mart, 2009. http://www.anl.az/down/meqale/xalqcebhesi/xalqcebhesi_mart2009/71424.htm. Elektron resurs istinad tarixi: 31.03.23.
4. Abadov M. Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2014, s. 248.

**РЕЗЮМЕ**
**ПРОБЛЕМЫ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОГО БИЗНЕСА В АЗЕРБАЙДЖАНЕ**
***Каримов И.А.***

***Ключевые слова:*** *туризм, валовой внутренний продукт, конкуренция, гостиница, курорт, услуга, цена*

Целью статьи было изучение проблем туристического бизнеса, который является одним из ненефтяных секторов Азербайджана. Здесь разъяснены такие вопросы, как низкий уровень обслуживания туристов, нехватка профессиональных кадров и продажа авиабилетов туристам по завышенным ценам. Подчеркнута важность ликвидации загрязнения Каспийского моря, как фактора, негативно влияющего на развитие отечественного туризма и организации международных соревнований, проводимых в нашей стране.

**SUMMARY**
**PROBLEMS OF TOURISM BUSINESS DEVELOPMENT IN AZERBAIJAN**
***Karimov I.A.***

***Key words:*** *tourism, gross domestic product, competition, hotel, resort, service, price*

The purpose of the article was to study the problems of the tourist business, which is one of the non-oil sectors of Azerbaijan. Such issues as the low level of service to tourists, the lack of professional staff and the sale of tickets to tourists at inflated prices are explained here. The importance of the elimination of pollution of the Caspian Sea and the organization of international competitions held in our country is emphasized as a factor that negatively affects the development of domestic tourism.

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN RESURS POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN MODELLƏŞDİRİLMƏSİ

**Məhərrəmov Eldəniz Məzahir oğlu**
*Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan*
*emeherremov79@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan, Şərqi Zəngəzur, iqtisadi rayonların inkişaf prioritetləri, Şərqi Zəngəzurun resurs potensialı, Şərqi Zəngəzurun iqtisadi inkişaf prioritetləri, Şərqi Zəngəzurun iqtisadiyyat quruculuğu*

2020-ci il sentyabrın 27-dən başlayan və 44 günlük davam edən Böyük Qarabağ Zəfərində torpaqlarımızın erməni işğalçılardan azad edilməsi yeni reallıqlar yaratmışdır. Bu, təkcə regionda yox, ümumilikdə Azərbaycanda regional inkişafın yeni mərhələyə qaldırılmasına regional idarəetmə mexanizmlərinin yenilənməsinə və idarəetmə strukturunun dəyişdirilməsinə yeni iqtisadi rayonlaşdırma bölgüsünün aparılmasına ciddi əsaslar yaratmışdır. Qeyd olunan amillər nəzərə alınmaqla, ölkə Prezidentinin müvafiq sərəncamı ilə 2021-ci il iyun ayında Azərbaycanda yeni iqtisadi rayonlaşdırma bölgüsü aparılmış və işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları təsis edilmişdir. Yeni iqtisadi rayonların yaradılması tarixi bir hadisədir, ona görə ki, əzəli torpaqlarımız olan Qarabağ və Zəngəzur torpaqlarında müvafiq iqtisadi rayonların yaradılması bu ərazilərdə tarixi-iqtisadi reallığın qorunmasına, burada olan resurslardan daha planlı və səmərəli şəkildə istifadə edilməsinə və hər bir regionun özünün coğrafiyasının, tarixi yanaşmalarının və ənənələrinin özünə qaytarılmasına imkan vermişdir.

Qeyd edək ki, bu ərazilərdə xeyli resurslar vardır və bunların, əlbəttə, təsərrüfat-maliyyə dövriyyəsinə cəlb olunması baxımından davamlı işlərin görülməsini təmin etməyə zəmin yaradır. Şərqi Zəngəzur iqtisadi rayonunun resursları kifayət qədərdir və burada bu iqtisadi rayona daxil olan Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər və Qubadlı rayonlarının hər birinin özünəməxsus resurs potensialı vardır. Xüsusilə, Kəlbəcər və Laçında istifadə edilməyən resurs mənbələri daha çoxdur [4]. Digər tərəfdən, Cəbrayıl rayonundan danışarkən burada günəş enerjisinin bolluğu və hazırda təməli qoyulan 240 meqavatlıq günəş elektrik stansiyasının tikilməsi regionda "yaşıl enerji" zonasının formalaşdırılmasına təkan verəcək çox ciddi bir amil və resurs kimi dəyərləndirilə bilər. Cəbrayıl rayonunda kənd təsərrüfatı və aqrar sahənin inkişaf etdirilməsi, nəqliyyat-logistika qovşağının yaradılması və xüsusilə İranla Azərbaycan arasında tarixi-iqtisadi

bağlılığın obyektiv müstəviyə qaldırılması baxımından - Arazın o tayında məcburi olaraq bizdən uzaq düşmüş soydaşlarımızın Azərbaycan regionlarına və bütövlükdə Azərbaycana inteqrasiyasında önəmli funksiyaları oynaya biləcək müəssisələr şəbəkəsinin yaradılması, xarici-iqtisadi əlaqələrin daha geniş şəkildə təşviq olunması və müvafiq infrastrukturun formalaşdırılması mümkündür. Rayonda aqrar sənaye kompleksinin tikintisi və eyni zamanda digər sənaye müəssisələrinin tikintisi qaçılmaz bir prosesdir və artıq bunlara başlanılmışdır. Belə ki, burada "Araz Vadisi İqtisadi Zonası"nda dövlət tərəfindən infrastrukturun yaradılması, investisiya cəlbediciliyinin artırılması artıq bir sıra rezidentlərin bu əraziyə gəlməsi və həmin iqtisadi zonada qeydiyyata düşməsi ilə nəticələnmişdir və hesab edirik ki, yaxın perspektivdə bu iqtisadi zonada qeydiyyata düşən rezidentlərin sayı artacaqdır [3]. Məqsəd regionda investisiya cəlbediciliyinin daha geniş şəkildə təşviq olunması, potensial sahibkarların və investorların regiona gəlməsi üçün əlverişli infrastrukturun yaradılması, güzəştlərin verilməsi və onların motivasiyasının yüksəldilməsi baxımından konkret mexanizmlərin hazırlanaraq tətbiq edilməsindən ibarətdir. Vergi və gömrük güzəştlərinin verilməsi isə məlumdur ki, sahibkarlığın inkişafında və təşkilində çox önəmli rol oynayır və bu, eyni zamanda, ərazinin -regionun yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonunun sosial-iqtisadi inkişafında və dirçəldilməsində fəallığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Zəngilanda tikilən beynəlxalq hava limanı isə regionun simasını tamamilə dəyişdirmiş və regionun statusuna çox güclü rəqabətqabiliyyətli nəqliyyat-logistika statusu verilmişdir və burada nəqliyyat-logistika habının yaradılması potensialı formalaşdırılmışdır. Hesab edirik ki, burada nəqliyyat habının yaradılması xarici-iqtisadi əlaqələrin genişləndirilməsinə, beynəlxalq səviyyədə yüklərin daşınmasının artmasına, gələcəkdə Zəngəzur beynəlxalq qlobal dəhlizinin açılması sayəsində Avropa ilə Asiya arasında yük dövriyyəsinin yüksəlməsinə, bu proseslərdə Şərqi Zəngəzurun strateji rolunun artmasına gətirib çıxaracaqdır [2]. Bundan əlavə, regionda inşa olunan dəmiryolu layihələri və yenidən salınan Horadiz-Ağbənd dəmiryolu marşrutu gələcəkdə Azərbaycanı Naxçıvanla və Türk dünyasının coğrafiyasını birləşdirəcək bir nəqliyyat dəhlizi olacaqdır. Zəngilan rayonunda kənd təsərrüfatının müxtəlif seqmentlərinin və aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi üçün çox əlverişli şərait vardır. Burada həm üzümçülük, meyvəçilik, müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və aqrar məhsulların istehsal olunması, eyni zamanda, yeraltı filiz ehtiyatlarının, qızıl mədənlərinin istismarı çox böyük perspektivlər vəd edir.

Qubadlı rayonu ənənəvi olaraq heyvandarlığın və tütünçülüyün inkişafında, eyni zamanda arıçılığın inkişafında böyük əhəmiyyət kəsb edir. Burada resurs baxımından su-elektrik stansiyalarının bərpa olunması, insanların məşğulluğunun təmin edilməsi üçün aqrar-emal sənayesi komplekslərinin yaradılması mümkündür. Laçın rayonunda hazırda çox sürətlə reabilitasiya və dirçəliş prosesləri getməkdədir. Belə ki, Laçın şəhəri geniş bir tikinti meydançasını xatırladır, yol infrastrukturu yaradılır, Qubadlı-Laçın yolu salınır, eyni zamanda Göygöl tərəfdən Murov dağında çəkilən tunellər vasitəsilə Kəlbəcər və Laçına gələn yol infrastrukturu qurulur. Eyni zamanda, Azərbaycan dövlətinin konseptual yanaşmaları və planlaşdırılmış kompleks tədbirlərinə əsasən Böyük Qayıdışa hazırlıq işləri çox sürətlə aparılır [1]. Regionda yaradılan infrastruktur layihələri, mobil texniki təminat obyektləri, elektrik enerjisi, təbii qaz, su ilə təminat infrastrukturun yaradılması istiqamətində həyata keçirilən layihələr böyük ölçüdə yaxın perspektivdə bu ərazilərdə həyat səviyyəsinin yüksəldilməsinin təşkilinə, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına zəmin verən önəmli amillər kimi qiymətləndirilə bilər.

Hesab edirik ki, Laçın şəhərinin sürətlə bərpa edilməsi və onun bir neçə kəndində, o cümlədən Zabux kəndində 1000 evin, Susda 300 evin, Qorçu və Güləbrit kəndlərində yüzlərlə fərdi evlərin qısa müddət ərzində bərpa olunması, bir neçə min insanın yaxın perspektivdə bu ərazilərə qayıtması üçün ciddi əsaslar yaradır və regionun reabilitasiyası, dirçəldilməsi proseslərinə təkan verəcəkdir. Üst-üstə Şərqi Zəngəzur iqtisadi rayonunun çoxlu sayda - 12 su elektrik stansiyalarının bərpası prosesləri gedir və bu proseslər artıq elektrik enerjisi istehsal etməklə və gələcəkdə 10-dan çox yeni su elektrik stansiyasının tikilməsi və ümumilikdə Şərqi Zəngəzurda su elektrik stansiyası güclərinin 140 MvT-a qədər formalaşdırılması hədəfləri vardır. Bu nəinki regionda, eyni zamanda ətraf ərazilərin həm işıqlandırmasında, fasiləsiz şəkildə elektrik enerjisi ilə təminatda önəmli rol oynayacaqdır.

Kəlbəcər rayonu füsunkar təbiətə, mürəkkəb relyefə və çox böyük bir əraziyə sahibdir. Bu ərazilərin işlənilməsi, mənimsənilməsi, məskunlaşdırılması, burada olan filiz və qeyri-filiz ehtiyatlarından səmərəli istifadə edilməsi, xüsusilə yeraltı sərvətlərdən rasional olaraq istifadə olunması, dağ-mədən sənayesinin inkişaf etdirilməsi, turizmin inkişafı istiqamətində zəruri addımların atılması olduqca vacib şərtlərdəndir. Artıq Kəlbəcərdə İstisu qəsəbəsində "İstisu" turizm-rekreasiya müalicə kompleksinin təməlqoyma mərasimi keçirilmişdir. Bu kompleksin yaradılması regionun inkişafında çox mühüm impuls rolunu oynayacaq və burada ərazilərin sürətlə məskunlaşması və inkişaf etməsi baxımından vacib funksiyaları yerinə yetirəcəkdir. Hesab edirik ki, Laçında beynəlxalq hava limanının tikilməsi və mürəkkəb şəraitə malik ərazidə hava limanının tezliklə istismara verilməsi, nəqliyyat qovşağının yenilənməsi, yeni avtomobil yollarının salınması

həmin ərazilərə marağı artıracaq, investisiya cəlbediciliyi yüksələcək və dünyanın müxtəlif ölkələrindən böyük həvəslə insanlar Laçın və digər təbiət guşələrinə gələcək və turizm sektorunun inkişafı digər sahələrin inkişafı üçün həm Kəlbəcər, həm Laçında olan resurslardan dağlıq ərazidə olan ekstremal turizm növlərinin inkişaf etdirilməsi imkanlarından, turizm-rekreasiya potensialı əsasında yaradılacaq turizm müəssisələrindən maksimum səmərəli istifadə etməyə imkan verəcəkdir. Bu görülən tədbirlər Şərgi Zəngəzur iqtisadi rayonunun resurs potensialından səmərəli istifadənin modelləşdirilməsində əlavə imkanlar yaradacaqdır [5].

Yaxın perspektivdə Şərqi Zəngəzur iqtisadi rayonunun resurs potensialından səmərəli istifadənin modelləşdirilməsi üçün bir sıra məsələləri ümumiləşdirmək istərdik və bunları təklif kimi formalaşdırmışıq:

– Hesab edirik ki, Böyük Qayıdış proqramı çərçivəsində əhalinin məskunlaşması prosesləri intensivləşdikcə regionun resurs potensialından maksimum səmərəli istifadə edilməsi və rəqabət qabiliyyətli müəssisələrin yaradılması vacibdir;

– Ənənəvi məşğulluq sahələri ilə yanaşı, fikrimizcə regionda mövcud və bu vaxta kimi istifadə olunmayan resurs potensialları əsasında emal müəssisələri şəbəkəsinin genişləndirilməsi tələb olunur;

– Yüksək texnologiyalar əsasında yaradılan yeni yaşayış məhlələri, ağıllı kəndlər, 3 Ağalı kəndləri bazasında reallaşdırılan "ağıllı" kənd "ağıllı" pilot layihəsi və bu kimi çox mütərəqqi yüksək texnologiyalar əsaslı layihələrin dairəsi və coğrafiyası xeyli genişləndirilməli və xüsusilə, heyvandarlığın, əkinçiliyin inkişaf etdirilməsi, aqrar sahənin inkişaf etdirilməsində "ağıllı" texnologiyalardan istifadənin intensivləşdirilməsi təmin olunmalıdır və s.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Cəfərov, C. Zəngəzur dəhlizində region ölkələrinin də marağı yüksəkdir. İİTKM analitiki, 07 avqust 2021. https://ereforms.gov.az/az/ekspert-yazilari/zengezur-dehlizinde-region-olkelerinin-de-maragi-yuksekdir-59.
3. Əliyev, Ş.T. Araz Vadisi İqtisadi Zonası"nın yaradılması Şərqi Zəngəzurun dirçəlişini intensivləşdirəcəkdir/13.10.2021- https://azertag.az/xeber/Araz_Vadisi_Iqtisadi_Zonasinin_yaradilmasi_Serqi_Zengezurun_dirchelisini_suretlendirecek-1899076
4. Kəlbəcər-Laçın iqtisadi rayonunun pasportu Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Bakı – 2013. –33 s.
5. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022.–с.148-155.



**РЕЗЮМЕ**

**МОДЕЛИРОВАНИЕ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ РЕСУРСНОГО ПОТЕНЦИАЛА ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА**

***Магеррамов Э.М.***

***Ключевые слова:*** *Азербайджан, Восточный Зангезур, приоритеты развития экономических районов, ресурсный потенциал Восточного Зангезура, экономическое преобразование Восточного Зангезура*

В статье исследованы вопросы моделирования эффективного использования ресурсного потенциала Восточно-Зангезурского экономического района. Рассмотрен ресурсный потенциал и перспективы создания сети конкурентоспособных перерабатывающих предприятий в Восточном Зангезуре. Исследованы перспективы преображения транспортно-логистического центра и эффективное использование создаваемой транспортной инфраструктуры в Восточном Зангезуре. Подготовлены рекомендации и даны предложения об эффективном использовании существующего потенциала и стратегическая роль Восточного Зангезура в реализации крупномасштабных проектов по преобразованию всего региона.



**SUMMARY**

**MODELLING THE EFFECTIVE USE OF THE RESOURCE POTENTIAL OF THE EAST ZANGEZUR ECONOMIC REGION**

***Maharramov E.M.***

***Key words*****:** *Azerbaijan, East Zangezur, development priorities of economic regions, resource potential of East Zangezur, economic transformation of East Zangezur*

The issues of modeling the effective use of the resource potential of the East Zangezur economic region are explored in the article. The resource potential and prospects of creating a network of competitive processing enterprises in East Zangezur are considered. The prospects for the transformation of the transport and logistics center and the effective use of the created transport infrastructure in East Zangezur are investigated. Recommendations and proposals on the effective use of existing capacities and the strategic role of East Zangezur in the implementation of large-scale projects for the transformation of the region are given in the end of the article.

**AZƏRBAYCANDA MÜHƏNDİS MARKETİNQİNİN VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ**

**Məmmədova Sevda Binyət qızı, Əliyeva Xavər Namizəd qızı**
*Odlar Yurdu Universiteti, Bakı, Azərbaycan*
*aliyevaxaver7@gmail.com*

***Açar sözlər:*** *marketinq, idarəetmə, mühəndis marketinqi, yenilik, texnoparklar*

Azərbaycanda mühəndis-marketinq nailiyyətlərinin tətbiqi əsasında kreativ iqtisadiyyatın formalaşdırılması problemi gündən-günə aktuallaşır. Bu o səbəbdən baş verir ki, ölkənin təbii sərvətləri ildən-ilə tükənir, ekoloji vəziyyət daha da gərginləşir. Belə bir şəraitdə ölkənin bütün resurs potensialından, o cümlədən, təbii ehtiyatlardan, insan kapitalından və maliyyə imkanlarından səmərəli istifadə etmək lazımdır. Mühəndislik marketinqi əsasında Azərbaycan iqtisadiyyatının yeni, innovativ inkişafı yolu erməni işğalçıları üzərində qələbədən sonra xüsusi aktuallıq qazandı, işğaldan azad edilmiş Dağlıq Qarabağ torpaqlarında və ona bitişik yeddi rayonda elmin, texnikanın və idarəetmənin təşkilinin qabaqcıl nailiyyətləri əsasında bütün yaşayış məntəqələrinin, eləcə də, iqtisadiyyatın sıfırdan yenidən qurulması tələb olunur.

Mühəndislik marketinqinin mahiyyəti və məzmunu ondan ibarətdir ki, o, idarəetmənin təşkili və mühəndis idarəetməsinin praktiki tətbiqi şərtlərini və prinsiplərini xalq təsərrüfatının bütün sahələrində və insan fəaliyyəti sferalarında özündə cəmləşdirir. Onun əsasını elmilik, aydınlıq, ehtiyatlılıq, ardıcıllıq, daha keyfiyyətli mal və xidmətlər yaratmaq üçün yeni innovativ həllərin axtarışı və tapılması əsasında istehlakçı tələbatını ödəmək üçün şirkətin bütün fəaliyyətinin istiqamətləndirilməsi təşkil edir. Hal-hazırda mühəndislik marketinqi əslində marketinqin şərtləri və prinsipləri əsasında mühəndislik və iqtisadi biliklərin birləşməsini təmin edir. Belə bir simbioz elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin idarə edilməsinin keyfiyyətinin yaxşılaşdırılmasına, əmtəə və xidmətlərin praktiki yaradılmasına, habelə onların son müştərilərə çatdırılması prosesinin sürətləndirilməsinə yönəlmiş tamamilə yeni gözlənilməz idarəetmə və marketinq həllidir. Beləliklə, mühəndislik marketinqi mühəndislik yanaşmalarından və prinsiplərindən istifadə etməklə bazar iqtisadiyyatının hazırkı inkişaf səviyyəsində firmaların istehsal və kommersiya fəaliyyətinin idarə edilməsində idarəetmə və marketinq problemlərinin həlli təcrübəsidir. Mühəndislik biliklərinin və təcrübəsinin tətbiqinin bu yeni konsepsiyası yerli və ya beynəlxalq səviyyədə tətbiq olunan və ya tətbiq olunmayan bütün marketinq kompleksinin nüfuzunu əhatə etməlidir.

Dünya iqtisadiyyatının indiki inkişaf mərhələsində iki dönməz və əks tendensiya müşahidə olunur: bir tərəfdən dünya iqtisadiyyatının qloballaşması prosesi yavaş, lakin əminliklə davam edir, digər tərəfdən isə onun tempi nəinki yavaşlayır, hətta bir çox obyektiv və subyektiv amillərin təsiri altında tamamilə tərk edilir. Bununla yanaşı, dünyanın bir çox ölkələrində elmin, texnologiyanın inkişafına və İKT-nin qabaqcıl nailiyyətlərinə əsaslanan idarəetmənin təşkilinə istəklər artır. Ona görə də belə şəraitdə müasir istehsalın idarə edilməsi müəssisələrin bütün mühəndis-texniki işçilərinin diqqətini mühəndis marketinqi adlanan yeni və perspektivli marketinq konsepsiyasına yönəldir [1; s.73].

Bu yeni tətbiq olunan marketinq konsepsiyası müxtəlif departamentlərin, eləcə də emalatxanaların, bölmələrin, iş yerlərinin və digər şöbələrin bütün işçilərinin fəaliyyətini ardıcıl qaydada bazara yönəltmək, yəni istehlakçıların tələbatını ödəmək və həqiqətən də bütün alıcıları məmnun salmaq məqsədini güdür. Mühəndislik marketinqi konsepsiyası mühəndislik prinsiplərinə, hesablamalara və texnologiyalara yönəlmiş marketinq elminə və müasir menecmentə yeni nəfəs vermək üçün nəzərdə tutulmuşdur. Mühəndislik marketinqinin praktiki tətbiqi bazarın vəziyyətindən və tətbiq sahələrinin xüsusiyyətlərindən asılı olaraq onun bütün tətbiq sahələri üzrə marketinq elminin elmi-metodiki aparatını aydınlaşdıracaq və gücləndirəcəkdir.

Müasir şəraitdə mühəndis marketinqinin şərtləri və prinsipləri əsasında hər bir müəssisənin texniki cəhətdən yenidən təchiz edilməsi və rəqabət qabiliyyətinin artırılması aşağıdakıları tələb edir [2; s.51]:

- elmi-tədqiqat və təkmilləşdirmə işlərinin (R&D) səviyyəsinin artırılması;
- layihələndirmə şöbələrinin maddi-texniki bazasının bu istiqamətdə ən son xarici təcrübəyə uyğun təkmilləşdirilməsi;
- istehsalın texnoloji hazırlığının keyfiyyətcə təkmilləşdirilməsi, istehsalın təşkili səviyyəsinin yüksəldilməsi;
- istehsal olunan məhsulların konstruksiyasının davamlı olaraq yenilənməsi, təlim səviyyəsinin yüksəldilməsi.

Maddi istehsalın bütün sahələri, o cümlədən sənaye müəssisələrinin istehsal və kommersiya fəaliyyəti, ən azı iki sahəni əhatə edir - bu, əmtəə və xidmətlərin istehsalı, eləcə də bazarda birbaşa

kommersiya fəaliyyətidir. Bazar münasibətləri şəraitində sənaye müəssisələrinin istehsal-kommersiya fəaliyyətinin təkmilləşdirilməsi problemi marketinq elminin məqsədi, vəzifələri, funksiyaları və prinsipləri əsasında kompleks şəkildə həll edilməlidir. Marketinqin strateji məqsədi satış həcmini, təklifi və qiymətləri azalmayan mənfəət artımını təmin edən səviyyədə saxlamaqdır. Eyni zamanda, marketinqin funksiyaları məlumat toplamaq və bazar proseslərinin tədqiqi, məhsul çeşidinin planlaşdırılması, əmtəələrin təşviqi və s.-yə düşür. Taktiki cəhətdən marketinqin vəzifələri iqtisadi strukturlarda istehsal və bölüşdürmə proseslərinin təşkili, planlaşdırılması və idarə edilməsini əhatə edir. Marketinq ayrı-ayrı istehsal strukturlarının kommersiya fəaliyyətini bazarda əmtəə satışının rasional səviyyəsi, insan amillərinin gücləndirilməsi, bütün fəaliyyətin bazara yönəldilməsi və s. prinsipləri əsasında qurmağa çalışır.

Azərbaycan Respublikasında, artıq qeyd etdiyimiz kimi, mühəndislik marketinqi mühəndis-texniki təmayüllü yüksək ixtisaslı iqtisadçıların və əksinə - bazar iqtisadiyyatı problemlərinə yaxşı bələd olan mühəndis kadrların hazırlanmasına töhfə vermək məqsədi ilə qurulacaqdır. Bu yüksək səviyyəli mütəxəssislər mühəndis-texniki problemlərin həllinə, o cümlədən ölkədə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinə yaradıcı yanaşmaları ilə regionların simasını dəyişə, onların iqtisadiyyatını müasir tələblər səviyyəsində saxlamaq prosesini faktiki olaraq sürətləndirə biləcəklər. Bundan əlavə, məhz belə milli kadrlar – öz ölkələrinin vətənpərvərləri milli iqtisadiyyatın neft-qaz sektorundan müstəqilliyini faktiki təmin edə, eləcə də biznes sahələrinin bütün simasını keyfiyyətcə dəyişdirə, onları məhsullar daha təhlükəsiz hala gətirə bilərlər.

Bütün bunlarla yanaşı, mühəndislik marketinqi yalnız o halda biznesin nisbətən səmərəli ola biləcəyinə inanır ki, o davamlı və gəlirli olsun, əgər birbaşa reklamdan asılı deyilsə. Bütün bunlar marketinq kommunikasiyaları sistemində rolu ildən-ilə azalmayan, əksinə artan reklamdan tam imtina demək deyil. Bu gün mühəndislik marketinqi təkcə sənaye müəssisələrinin innovativ əsaslarla rəqabətədavamlı, dinamik və sabit inkişafı məqsədlərinə nail olmağa yönəlmiş mühəndislik fəaliyyətində deyil, həm də marketinqin ümumi inteqrasiya konsepsiyasının praktiki tətbiqi üçün yeni paradiqma kimi qəbul edilir.

Mühəndislik marketinqi praktiki fəaliyyətində mühəndislik elmlərinin nailiyyətlərindən istifadə edir ki, bu da marketinq elminin elmi-metodiki aparatını zənginləşdirir. Eyni zamanda, mühəndislik marketinqi firmaların istehsal-təsərrüfat fəaliyyəti praktikasında marketinq mühəndisliyi tədqiqatlarının və inkişaflarının dirijorudur. Belə çıxır ki, mühəndislik marketinqi alıcılar - istehlakçılar və əmtəə və xidmətlərin istehsalçıları arasında yaranan münasibətləri cəmləşdirir və süzgəcdən keçirir, həmçinin potensial istehlakçılar arasında bu subyektlərin maraqlarını təbliğ edir.

Strateji baxımdan mühəndislik marketinqi marketinq mühitində dəyişiklikləri proqnozlaşdırmaqla istehsal müəssisələrinin istehsal və kommersiya fəaliyyətinin təkmilləşdirilməsini tələb edir. Bütün bunlar gələcəkdə bu məlumatlar əsasında məhsulların çeşid tərkibini, həcmini və keyfiyyətini daha əsaslı şəkildə planlaşdırmaq üçün edilir.

Ümumi marketinq elminin təməli üzərində qurulmuş mühəndislik marketinqi bu vəzifələri yerinə yetirmək üçün müəyyən edilmiş vaxt və yerə ciddi şəkildə riayət etməyi tələb edir:

1. Ətraf bazar - marketinq mühitinin hərtərəfli öyrənilməsi.

2. Bazarın tələbinə, təklifinə, qiymətlərinə və ödənilməmiş ehtiyaclara, bazar subyektləri arasında rəqabətin və rəqabətin vəziyyəti və problemlərinə diqqət yetirməklə, konyuktura və bazar tutumunun hesablanması.

3. Tərkibinin və strukturunun - məhsulların çeşidinin proqnozlaşdırılması və planlaşdırılması.

4. Alıcıların bütün mövcud və potensial ehtiyaclarını ödəmək üçün tədbirlər kompleksinin hazırlanması.

5. Distribyutor və marketinq kanallarının səmərəli logistik idarə edilməsinin təşkili.

Yuxarıda göstərilən vəzifələrin yerinə yetirilməsi marketinq tədqiqatlarının və işlərinin elmi-metodiki və praktiki bazasının tamamlanması və təkmilləşdirilməsi problemini həll etmiş olur. Əlbəttə ki, mühəndis marketinqi o zaman səmərəli hesab ediləcək ki, o, daha məqsədyönlü şəkildə, nisbətən daha az xərclə, potensial istehlakçıların tam məmnunluğuna nail olmaq üçün istehsal müəssisələrinin ayrı-ayrı struktur bölmələrinin fəaliyyətini əlaqələndirə və birləşdirə bilsin, bu şərtlə ki, ağlabatan məqbul bazar gəlirliliyi olsun.

Mühəndis marketinqi "Yüz dəfə ölçüb-biç, bir dəfə kəs" prinsipi ilə hərəkət edir ki, bu da istehsal müəssisələrinin lüzumsuz səhvlərə yol vermədən, o cümlədən material, əmək, maliyyə resursları və vaxt sərf etmədən, onların istehsal proqramında müəyyən edilmiş qənaət rejiminə riayət etməsinə şərait yaradır. Mühəndislik marketinqi ayrı-ayrı məhsullar və məhsul növləri üçün bir müəssisənin marketinqi üçün kommersiya istehsal proqramının hazırlanmasında təkid edir.

Məhsul mühəndisliyi marketinq proqramının əsas məqsədləri bunlardır [3; s.67]:

1. Gələn il ərzində və bir qədər uzaq gələcəkdə buraxılması üçün əvvəllər istehsal edilmiş, təkmilləşdirilmiş və yeni planlaşdırılmış bütün məhsulların həcminin, nomenklaturasının və çeşid tərkibinin müəyyən edilməsi;

2. Sənaye və kommersiya müəssisələri tərəfindən istehsal olunan əmtəə və xidmətlərin potensial hədəf bazarlarını müəyyən etmək məqsədilə daxili bazarın və daxil olacağı gözlənilən bir sıra xarici bazarların mövcud imkanlarının və inkişaf perspektivlərinin hərtərəfli öyrənilməsi;

3. Planlaşdırılan istehsalın iqtisadi səmərəsini və rentabelliyini proqnozlaşdırmaq məqsədi ilə istehsal və satış xərclərinin, habelə ayrı-ayrı mallar, onların çeşidləri, bazarları, sexləri, meydançaları və s. üzrə qiymət və mənfəətin hesablanması, qiymətləndirilməsi və müqayisəsi və kommersiya fəaliyyətli xüsusi müəssisə, onların növləri.

Məhsulun işlənib hazırlanmış mühəndis marketinq proqramı əsasında ayrı-ayrı əmtəə və xidmətlərin həyat dövrünün mərhələlərinin təhlili aparılır, müəssisənin istehsal etdiyi müxtəlif ad və növ malların gəlir mənbələri də araşdırılır. Ümumiyyətlə, hər bir müəssisənin mühəndis marketinqi əsasında hazırlanmış istehsal-kommersiya proqramına aşağıdakı fəaliyyətlər daxildir:

1. Mövcud və potensial bazarların marketinq seqmentasiyası təcrübəsindən istifadə etməklə hədəf bazarların tədqiqi və seçilməsi;

2. Konyuktura və bazar tutumunun tədqiqi əsasında əmtəə istehsalının və xidmətlərin göstərilməsinin mühəndis-iqtisadi əsaslandırılması;

3. Müəyyən kateqoriyadan olan sifarişçilərin müraciətlərinə uyğun olaraq yenidən texniki təchizat, modernləşdirmə və yeni istehsalın yaradılması ilə bağlı bütün maddi, maliyyə və digər xərclərin hesablamalarının aparılması;

4. Ayrı-ayrı məmulatların və məhsulların sortlarının buraxılışının texniki-iqtisadi əsaslandırılması, onların hər biri üzrə ümumi məsrəflər nəzərə alınmaqla və s.

Gördüyümüz kimi, mühəndis marketinqi prinsipləri əsasında hazırlanmış istehsal-kommersiya proqramının həyata keçirilməsi ilə əlaqədar işlərin yuxarıdakı siyahısı bir sıra mühəndis-iqtisadi hesablamaların məcburi aparılmasını nəzərdə tutur. Belə hərtərəfli və zəhmət tələb edən işi yerinə yetirmək üçün lazımi etibarlı və dolğun məlumatlarla təchiz edilmiş ixtisaslı və təcrübəli kadrlara ehtiyac var.

Bazar münasibətləri şəraitində sənaye və ticarət müəssisələrinin rəqabət qabiliyyətinin artırılması məsələləri yaranmış hər bir problemin həllinə yaradıcı və geniş miqyaslı yanaşma tələb edir. Respublikamızda fəaliyyət göstərən müəssisələr üçün bu problem ildən-ilə xüsusi aktuallıq qazanmağa başlayır. Sonuncu ondan irəli gəlir ki, ölkənin ali rəhbərliyi neft dollarlarından istifadə edərək, ölkə əhalisinin artan tələbatını ödəməklə yanaşı, gələcəyə yönümlü dinamik inkişaf edən şaxələndirilmiş milli iqtisadiyyat formalaşdırmağa çalışır [4; s.198].

Bu mühüm strateji vəzifənin həlli üçün çoxlu yanaşmalar və variantlar mövcuddur. Onlardan biri mühəndislik marketinqidir ki, onun təməli təxminən qırx il əvvəl Yaponiyada, sonra isə Cənubi Koreya, Almaniya, İtaliya və dünyanın bir çox başqa ölkələrində qoyulmuşdur. Mühəndislik marketinqinin bünövrəsini mühəndislik bilikləri və təcrübələri, eləcə də marketinq elminin kompleksi, prinsipləri və şərtləri təşkil edir.

Mühəndislik marketinqinin özü müasir müəssisələrin istehsal və iqtisadi problemlərinin həllinə bir növ yeni yaradıcı yanaşmadır. Mühəndislik marketinqinin əsas alət dəsti dəqiq təsdiqlənmiş və hesablanmış mühəndis ideyaları ilə dəstəklənən müəyyən mühəndislik texnologiyasıdır. Mühəndislik marketinq texnologiyası məhsul istehsalının və xidmətlərin göstərilməsinin istehlakçı tələbatı ilə əlaqələndirilməsi ilə bağlı ən mühüm problemlərin həlli üçün hər bir istehsal və kommersiya müəssisəsinin fiziki və intellektual potensialının səfərbər edilməsini təmin edir.

Strateji baxımdan mühəndislik marketinqi marketinq mühitində dəyişiklikləri proqnozlaşdırmaqla istehsal müəssisələrinin istehsal və kommersiya fəaliyyətinin təkmilləşdirilməsini tələb edir. Bu məlumatlar əsasında bazara çıxarılan məhsulların tərkibini və strukturunu, habelə həcmini və keyfiyyətini daha əsaslı şəkildə planlaşdırmaq üçün bu iş aparılmalıdır.

Müəssisələrin, təşkilatların, bütün hüquqi və fiziki şəxslərin marketinq fəaliyyətində mühəndis bilik və təcrübəsinin praktiki tətbiqi respublika iqtisadiyyatının innovativ inkişafının sürətləndirilməsi, təkcə istehsal olunan mal və xidmətlərin deyil, rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi zərurətindən irəli gəlir ki, həm də sənaye və kommersiya strukturlarına aiddir. Bütün bunlar o zaman mümkün olar ki, xüsusi hazırlanmış və savadlı mühəndis-iqtisadçı və ya iqtisadçı-mühəndis kadrları qalaktikası formalaşsın.

Mühəndislik marketinqi innovativ inkişaf yoluna yönəlmiş hər bir müəssisədə, hər bölgədə və hər bir ölkədə kreativ iqtisadiyyatının formalaşmasına ən qısa yol açır. Azərbaycanda mühəndislik marketinqinin tətbiqi üçün milli və regional dövlət strukturlarının, eləcə də sərmayədarların (iş adamlarının), Elmlər Akademiyasında və universitetlərdə cəmləşmiş alimlərin səylərini birləşdirməyə imkan tapmaq lazımdır.

Sənaye və kommersiya müəssisələrinin, eləcə də regionların və bütövlükdə ölkənin iqtisadiyyatının innovativ inkişafı ehtiyacını dərk etdikdə, bunun tətbiqi kontekstində mühəndislik marketinqi və sənaye müəssisələrinin idarə edilməsi konsepsiyasının tətbiqi üçün təsvir edilmiş alqoritmlərdən istifadə etməyi tövsiyə edirik. Bir sıra sənaye və kommersiya müəssisələrinin, eləcə də regionların, bölgələrin və bütövlükdə ölkələrin yaradıcı innovativ inkişafı ilə əlaqəli mühəndislik marketinqinin biznes modelləri, sanki, standartlaşdırıla və fərdiləşdirilə bilər. Maliyyələşdirmə, logistika və konkret yerli şəraitlə bağlı müəyyən problemlərin mövcudluğundan asılı olaraq, iqtisadiyyatın inkişafı üçün mühəndislik marketinqinin fərdi biznes modellərinin hazırlanması məqsədəuyğun olardı.

### Ədəbiyyat

1. Quliyev E., Qurbanov N. Mühəndislik marketinqi - arıq istehsalın yaradılmasında idarəetmə. Statistika xəbərləri" elmi praktik jurnal (№ 2). - Bakı: 2019, səh. 47-53.
2. Kotler F. Marketinqin əsasları. Qısa kurs.: Per. ingilis dilindən - M.: OOO I.D. Williams, 2012, səh. 57-59.
3. Lyubanova T.P., Şerba L.M., Şumskaya N.N. Mühəndislik marketinqi marketinqin təkamülündə yeni paradiqma və təşkilatın innovativ inkişafı üçün alət kimi: monoqrafiya / DSTU Nəşriyyat Mərkəzi, 2011, səh. 79-83.
4. Sinyayeva İ.M. Ticarətdə marketinq: Dərslik / İ.M. Sinyaeva, S.V. Həmyerli, V.V. Sinyaev; redaktə edən L.P. Daşkova.- 4-cü nəşr.- M .: "Daşkov və Ko" nəşriyyat və ticarət korporasiyası, 2016, səh. 145-151.

**РЕЗЮМЕ**
**СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИНЖЕНЕРНОГО МАРКЕТИНГА В АЗЕРБАЙДЖАНЕ**
***Мамедова С.Б., Алиева Х.Н.***

***Ключевые слова****: маркетинг, управление, инженерный маркетинг, инновации, технопарк*

В статье рассматриваются возможности объединения усилий инженерно - технических работников и маркетологов в деле эффективного решения экономических и социальных проблем отдельных регионов и стран на основе применения современных инновационных технических и технологических разработок. Также раскрываются научные основы проникновения инженерных знаний и технологий в маркетинг мест, отраслей материального производства, организаций и сфер человеческой деятельности. В статье рассматривается также место и задачи концепции инженерного маркетинга в формировании креативной экономики регионов и стран, вопросы разработки алгоритмов применения концепции инженерного маркетинга.

**SUMMARY**
**STATUS AND DEVELOPMENT PROSPECTS OF ENGINEERING MARKETING IN AZERBAIJAN**
***Mammadova S.B., Aliyeva Kh.N.***

***Key words:*** *marketing, management, engineering marketing, innovations, technopark*

The possibilities of combining the efforts of engineering and technical workers and marketers in the effective solution of economic and social problems of individual regions and countries based on the use of modern innovative technical and technological developments are discussed in the article. It also reveals the scientific basis for the penetration of engineering knowledge and technologies into the marketing of places, branches of material production, organizations and spheres of human activity. The article also discusses the place and tasks of the concept of engineering marketing in the formation of the creative economy of regions and countries, the development of algorithms for applying the concept of engineering marketing.

## POSTPANDEMİYA DÖVRÜNDƏ İQTİSADİ İNTEQRASİYANIN İNKİŞAF POSTULATLARI

**Mustafayev Asif Mirlazım oğlu**
*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*
*asif5252@rambler.ru*

***Açar sözlər:*** *pandemiya, inteqrasiya, beynəlxalq ticarət, texnologiya, infrastruktur, investisiya, maliyyə*

COVID-19 pandemiyası qeyri-iqtisadi qlobal meyil kimi dünya iqtisadiyyatı və onun fonunda ölkələrin milli iqtisadiyyatına ciddi mənfi təsir göstərən hadisə kimi yadda qaldı. Pandemiyanın vurmuş olduğu iqtsadi zərərləri aradan qaldırmaqla yanaşı ölkələr postpandemiya dövrü üçün müəyyən iqtisadi inkişaf addımları atmaq məcburiyyətində qaldı. Məhz pandemiyanın vurmuş olduğu ziyanları aradan qaldırmaq və iqtisadi inteqrasiyanı genişləndirmək üçün ölkələrin inkişaf səviyyəsindən asılı olaraq bu aspektdə atılan addımları fərqləndirmək lazımdır. Birincisi, bir çox ölkələrdə hələ də sağlamlıq, sosial müdafiə və iqtisadi sabitlik sahəsində ciddi problemlər qalmaqdadır ki, bu da inteqrasiya prosesini çətinləşdirə bilər. İkincisi, pandemiya qlobal ticarətə və beynəlxalq investisiyalara böyük təsir göstərən qlobal iqtisadi böhrana səbəb oldu. Bu, beynəlxalq ticarətin və

inteqrasiyanın azalmasına səbəb oldu ki, nəticədə də şirkətlər və hökumətlər daxili iqtisadiyyatı dəstəkləməyə daha çox diqqət yetirirdilər. Üçüncüsü, pandemiyadan sonrakı dövr həm də iqtisadi inteqrasiyanın təbiətini dəyişdirə və rəqəmsal inteqrasiya kimi yeni inteqrasiya formalarına səbəb ola biləcək texnologiyanın sürətli inkişafı-iqtisadiyyatın rəqəmsallaşdırılması ilə xarakterizə olunmağa başladı.

Bu çağırışlara baxmayaraq, bir çox ölkələr iqtisadi inteqrasiyanın gücləndirilməsi üzərində işləməyə davam edirlər. Məsələn, Avropa Birliyi Avropa yaşıl müqaviləsini, rəqəmsal vahid bazarı və ümumi Avropa valyutasını inkişaf etdirməyə davam etdirməsini, Latın Amerikası və Karib dənizində Mercosur iqtisadi birliyini gücləndirmək üçün işlərin sürətləndirilməsini və Asiyada Asiya-Sakit Okean İqtisadi əməkdaşlığı (ASEAN) çərçivəsində iqtisadi inteqrasiyanın dərinləşdirilməsi məqsədini misal göstərə bilərik [3, s.46]. Yəni, postpandemiya dövründə iqtisadi inteqrasiyanın vəziyyəti dinamik olaraq qalır ki, buna da bir sıra amillər təsir edir:

- geosiyasi və iqtisadi şərtlər;
- texnoloji yeniliklərin mövcudluğu;
- hökumətlərin və şirkətlərin əməkdaşlıq və inteqrasiya üçün hazırlıq səviyyəsi.

Postpandemiya dövründə müxtəlif sahələrdə iqtisadi inteqrasiya aktual olaraq qalır. Bununla birlikdə, hazırda ən çox diqqət iqtisadi sabitliyin və artımın dəstəklənməsi, pandemiyadan sonra bərpanın təşviqi ilə əlaqəli sahələrə yönəldilmişdir. Bu sahələrə aşağıdakıları aid edə bilərik:

- Ticarət və investisiya: Beynəlxalq Ticarət və investisiyaların gücləndirilməsi postpandemiya dövründə iqtisadi fəaliyyətin və artımın bərpasına kömək edə bilər. Bir çox ölkə yeni ticarət müqavilələri bağlamaq və investisiya münasibətlərini dərinləşdirmək üzərində işləməyə istiqamətlənmişlər [1, s.127].

- Rəqəmsallaşma: pandemiya zamanı texnologiya və rəqəmsallaşma demək olar ki, öz tətbiq intensivliyini qoruya bildi. Onların daha da inkişaf etdirilməsi postpandemiya dövründə də davam etdirilmişdir. Yəni, postpandemiya dövrü üçün iqtisadiyyatın rəqəmsallaşdırılması və inteqrasiyası ticarət, maliyyə xidmətləri, logistika və digər sənaye sahələrindəki intensivliyi sürətləndirə bilər ki, bu da iqtisadi artıma kömək edir.

- Yaşıl texnologiya və ətraf mühitin davamlılığı: iqtisadi artımın ekoloji cəhətdən davamlı olması və ətraf mühitə zərər verməməsi lazım olduğuna dair artan bir postulat vardır. Bir çox ölkə və bölgə daha davamlı iqtisadi artıma nail olmaq üçün yaşıl texnologiyalara və təşəbbüslərə investisiya qoymağa davam edir [2, s.72-73].

- Sosial daxilolma: pandemiya iqtisadiyyatda və cəmiyyətdə bərabərsizlikləri üzə çıxardı. Bir çox ölkə və bölgə miqrantlar, qadınlar, gənclər və digərləri də daxil olmaqla həssas qrupların sosial daxil edilməsinə və dəstəklənməsinə daha çox diqqət yetirməyə başladı.

Pandemiya dövrü Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə bir sıra iqtisadi problemlər daha qabarıq özünü göstərməyə başladı. Pandemiya dövründə Azərbaycanda daha çox diqqəti cəlb edən iqtisadi problemlər aşağıdakıları hesab edə bilərik:

- İqtisadi fəallığın azalması: pandemiya ilə mübarizə tədbirləri, o cümlədən karantin və hərəkət məhdudiyyətləri ilə əlaqədar Azərbaycanda iqtisadi fəallıq azaldı ki, bu da istehsalın azalmasına və iqtisadi artım göstəricilərinin pisləşməsinə səbəb oldu.

- Neft ixracından gəlirlərin azalması: Azərbaycan neft və qaz ixracından əldə olunan gəlirdən asılı ölkədir. Dünya neft qiymətlərinin aşağı düşməsi və enerji daşıyıcılarına qlobal tələbatın azalması şəraitində Azərbaycan neft ixracından gəlirlərin azalması müəyyən mənada hiss edildi.

- İşsizliyin artması: iqtisadi aktivliyin azalması səbəbindən bir sıra müəssisələr işçi heyətlərini ixtisar etmək məcburiyyətində qaldılar və bu da ölkədə işsizliyin artmasına səbəb oldu.

- Turizm fəaliyyətinin azalması: turizm Azərbaycan üçün mühüm sahədir və pandemiya səbəbindən bu sahədə fəallığın və gəlirlərin azalmasına səbəb oldu.

- Maliyyə dayanıqlığının pisləşməsi: pandemiya Azərbaycanda bir çox şirkət və müəssisələrin maliyyə dayanıqlığının pisləşməsinə gətirib çıxarıb ki, bu da borcun artmasına və defolt riskini artırmışdır.

Bu iqtisadi problemlər postpandemiya dövründə Azərbaycanın iqtisadi artımına və inkişafına mənfi təsir göstərmişdir ki, bu da onların həlli üçün məqsədyönlü tədbirlərin görülməsini vacib etmişdir.

Postpandemiya dövründə Azərbaycanın iqtisadi inteqrasiyası onun strateji məqsəd və prioritetlərindən asılı olaraq bir neçə istiqamətdə özünü göstərdi ki, onlara da aşağıdakıları aid etmək olar:

- Digər ölkələr və region ölkələrlə ticarət əlaqələrinin inkişafı: Azərbaycan yeni ticarət sazişləri bağlamaqla və investisiya münasibətlərini dərinləşdirməklə digər ölkələr və region ölkələrlə ticarət əlaqələrini gücləndirə bilər. Avropa Birliyi, Türkiyə, Rusiya, Çin və digər ölkələrlə əlaqələr daha da dərinləşdirilə bilər.

- Nəqliyyat infrastrukturunun inkişafı: Azərbaycan dəniz limanları, hava limanları, dəmir yolları və avtomobil yolları da daxil olmaqla nəqliyyat infrastrukturunun inkişafına investisiya qoymağa davam etməlidir. Bu, ticarət və logistika proseslərini sürətləndirməyə və ölkəyə daha çox investisiya cəlb etməyə kömək edəcəkdir.

- Rəqəmsal iqtisadiyyatın inkişafı: Azərbaycan öz rəqəmsal iqtisadiyyatını inkişaf etdirməyə və beynəlxalq rəqəmsal bazarlara inteqrasiya etməyə davam etməlidir. Bu, ticarət, maliyyə xidmətləri və digər sahələrin sürətlənməsinə kömək edə bilər ki, nəticədə də ölkəyə daha çox investisiya cəlb edə bilər.

- Yaşıl texnologiyaların inkişafı: Azərbaycan neft və qazdan asılılığını azaltmaq və daha davamlı iqtisadi artıma nail olmaq üçün yaşıl texnologiyalara və ekoloji cəhətdən davamlı təşəbbüslərə investisiya qoymağa davam etməlidir.

- Turizmin inkişafı: Azərbaycan turizm sənayesini inkişaf etdirməklə turizm bazarının inteqrasiyasına nail ola bilər. Bu istiqamətdə infrastrukturun inkişafı və turizm potensialının beynəlxalq bazarda təşviqi vacibdir.

Beləliklə, Azərbaycan iqtisadi inteqrasiyasını müxtəlif istiqamətlərdə inkişaf etdirməyə davam edə bilər. İnkişaf etməkdə olan ölkələr kimi Azərbaycanın da bu aspektdə nəzərə alacağı və atacağı addımları qruplaşdırsaq aşağıdakı yekun postulatlara gələ bilərik:

- İnfrastrukturun yaxşılaşdırılması: inkişaf etməkdə olan ölkələr yol, enerji, telekommunikasiya və digər infrastruktur növləri daxil olmaqla infrastrukturlarını yaxşılaşdırmalıdırlar. Bu, mal və xidmətlərin daşınması xərclərini azaltmağa, əlçatanlığı yaxşılaşdırmağa və səmərəliliyi artırmağa kömək edəcəkdir.

- Hüquqi bazanın təkmilləşdirilməsi: iqtisadi inteqrasiyanın inkişafı üçün hüquqi bazanın təkmilləşdirilməsi və biznes üçün sabit hüquqi mühitin yaradılması lazımdır. Bu, şirkətlərin yaradılması və qeydiyyatı prosedurlarını sürətləndirəcək, korrupsiyanı azaldacaq, investorların hüquqlarının qorunmasını təmin edəcəkdir.

- Ticarət əlaqələrinin inkişafı: inkişaf etməkdə olan ölkələr digər ölkələrlə ticarət əlaqələrini inkişaf etdirməlidirlər. Bunun üçün ticarət sazişləri bağlamaq, azad ticarət zonaları yaratmaq, beynəlxalq təşkilatlarda iştirak etmək və yeni müqavilələr imzalamaq lazımdır.

- İnsan kapitalının inkişafı: inkişaf etməkdə olan ölkələr işçi qüvvəsinin təhsil və hazırlıq səviyyəsini yaxşılaşdırmalıdır. Bu, işçilərin bacarıqlarını artırmağa, iş məhsuldarlığını artırmağa və daha çox investisiya cəlb etməyə kömək edəcəkdir.

- Ticarət maneələrinin aradan qaldırılması: inkişaf etməkdə olan ölkələr ticarət üçün tariflər, kvotalar və digər məhdudiyyətlər kimi maneələri aradan qaldırmalıdırlar. Bu, ticarətin artmasına və daha çox investisiya cəlb etməyə kömək edəcəkdir.

- Xarici investisiyaların cəlb edilməsi: inkişaf etməkdə olan ölkələr xarici investisiyaların cəlb edilməsi üçün əlverişli investisiya mühiti yaratmalıdırlar. Bu, investisiyaların həcmini artıracaq, xərcləri azaldacaq və iqtisadi böyüməni sürətləndirəcəkdir.

## Ədəbiyyat


1. Милены Карман, Яна Кулакова, Марии Марковой и Елены Яковлевой. «Экономическая интеграция и политика: от теории к практике». М. 2021 г.
2. Hurram I., Rachel M. “Economic integration and interaction in the world after the pandemic”. 2021 y.
3. Shujiro U., Naoyuki Y. “The future of economic integration in Asia: trade, investment and innovation”. 2021


**РЕЗЮМЕ**

**ПОСТУЛАТЫ РАЗВИТИЯ ЭКОНОМИЧЕСКОЙ ИНТЕГРАЦИИ В ПОСТПАНДЕМИЧЕСКИЙ ПЕРИОД**


***Мустафаев А.М.***



***Ключевые слова:*** *пандемия, интеграция, международная торговля, технологии, инфраструктура, инвестиции, финансы*



Представленная статья посвящена проблемам развития экономической интеграции. Специально для постпандемического периода также исследуются проблемы экономической интеграции развивающихся стран. В статье также отмечен ряд мер Азербайджана по усилению экономической интеграции в глобальном масштабе в период постпандемии. Далее в статье отмечается, что в постпандемический период состояние экономической интеграции остается динамичным и зависит от многих факторов, включая геополитические и экономические условия, доступность технологических инноваций и уровень готовности правительств и компаний к сотрудничеству и интеграции.


**SUMMARY**

**DEVELOPMENT POSTULATES OF ECONOMIC INTEGRATION IN THE POST-PANDEMIC PERIOD**


***Mustafayev A.M.***



***Key words:*** *pandemic, integration, international trade, technology, infrastructure, investment, finance*



The presented article is devoted to the problems of development of economic integration. The problems of economic integration of developing countries, especially for the post-pandemic period, are being investigated. The article also highlights a number of measures by Azerbaijan to strengthen economic integration on a global scale in the post-pandemic period. Further in the article, it is noted that the state of economic integration in the post-pandemic period remains dynamic and depends on many factors, including geopolitical and

economic conditions, the availability of technological innovations and the level of readiness of governments and companies for cooperation and integration.

## AZƏRBAYCANIN BEYNƏLXALQ MALİYYƏ BAZARLARINDA İŞTİRAKI PERSPEKTİVLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Nəbiyeva Türkan Hamlet qızı**
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*
tnabiyeva23@gmail.com

***Açar sözlər**: Azərbaycan, beynəlxalq maliyyə bazarları, beynəlxalq əmək bölgüsü, maliyyə bazarlarının xüsusiyyətləri, maliyyə bazarlarının inkişaf problemləri, Azərbaycanın beynəlxalq maliyyə bazarlarında iştirakı.*

Qeyd edək ki, maliyyə bazarı müxtəlif təsərrüfat subyektləri arasında vəsaitlərin yenidən bölüşdürülməsi prosesinin tənzimlənməsindən irəli gələn bazar münasibətlərinin məcmusunu ifadə edən ümumi anlayışdır. Maliyyə bazarının bütün komponentləri, ayrı-ayrılıqda fəaliyyət göstərməsinə baxmayaraq, bir-biri ilə bağlıdır və bir-birini tamamlayır. Maliyyə bazarının mənası təkcə maliyyə resurslarının yenidən bölüşdürülməsində deyil, ilk öncə yenidən bölüşdürmənin istiqamətlərinin müəyyən edilməsindədir. Məhz maliyyə bazarında pul resurslarının tətbiqi üçün ən səmərəli sahələr müəyyən edilir. Maliyyə bazarlarının fəaliyyəti böyük milli iqtisadi əhəmiyyət kəsb edir: 1) onların sayəsində pul vəsaitlərini istehsala yatırmaq mümkün olur ki, bu da ölkənin istehsal gücünü artırmağa və resurs potensialını toplamağa imkan verir; 2) maliyyə bazarının köməyi ilə müəssisələrin inkişafı təmin edilir; 3) maliyyə bazarlarında həyata keçirilən kapitalın daşınması ETT-nin sürətləndirilməsinə, elmi-texniki nailiyyətlərin ən sürətlə tətbiqinə kömək edir; 4) maliyyə bazarı büdcə kəsirini sivil şəkildə ödəməyə imkan verir, çünki artan dövlət xərclərini ödəmək üçün məhz maliyyə bazarında sərbəst vəsaitlər axtarılır. Digər tərəfdən, ölkə iqtisadiyyatına daim maliyyə resurslarının cəlb edilməsi vacibdir. Azərbaycanda aparılan iqtisadi islahatlar və onun dünya iqtisadiyyatına inteqrasiyasının dərinləşməsi ölkənin davamlı inkişafına münbit şərait yaratmışdır. İqtisadi inkişaf üçün müxtəlif resursların cəlb edilməsini təmin edən maliyyə bazarlarının mövcudluğu obyektiv zərurətə çevrilmişdir. Maliyyə bazarları bütün istənilən təsərrüfat subyektinin maliyyə resursları ilə təminatında önəmli rol oynayır. Odur ki, maliyyə bazarları olmadan bazar iqtisadiyyatının inkişafı mümkün deyil [1, s.21].

Azərbaycanda maliyyə bazarının inkişafının yüksək səviyyəyə çatması üçün həll edilməli olan vəzifələri iki qrupa bölmək olar. Bu, birincisi, maliyyə sektorunun özünün inkişafı, ikincisi, beynəlxalq maliyyə mərkəzlərinin formalaşması üçün digər zəruri ilkin şərtlərin yaradılmasıdır. Beynəlxalq maliyyə mərkəzinin qurulmasının əsas prinsipi investisiya fəaliyyətinin dəstəklənməsi və irimiqyaslı investisiya layihələrinin reallaşdırılması məqsədilə bazar alətlərindən istifadənin səmərəliliyinin təmin edilməsidir. Ölkədə beynəlxalq maliyyə mərkəzlərinin formalaşmasında vacib olan amillərə aşağıdakılar daxildir: ölkədə siyasi və sosial sabitlik; əlverişli coğrafi yerləşmə; inkişaf etmiş maliyyə infrastrukturu; iqtisadiyyatın kapitalın sərbəst hərəkətinə açıqlığı; xarici maliyyə institutları üçün milli rejimin təmin edilməsi; biznesə və iqtisadi azadlığa liberal münasibət; informasiyanın ötürülməsinin müasir texnologiyaları; müvafiq peşəkar bacarıqlara və xüsusi maliyyə biliklərinə malik olan insan kapitalı; mühasibat uçotu, hesabat, nəzarət və tənzimləmə sahəsində müasir beynəlxalq standartlara uyğunluq və s.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımlar və özəl sektorda təmərküzləşmə maliyyə bazarının yeni institutlarının, alətlərinin və xidmətlərinin yaranmasına və inkişafına səbəb olur. İqtisadiyyatın prioritet sektorları da daxil olmaqla real sektorda kapitalın sərbəst hərəkətini və maliyyə inklüzivliyini təmin etmək üçün makroiqtisadi institusionallaşma və maliyyə çevikliyi zəruridir. Bu məqsədlə daxili bazarın xüsusiyyətləri nəzərə alınmaqla beynəlxalq təcrübəyə əsaslanan ənənəvi alətlərlə yanaşı, alternativ maliyyə alətləri və mexanizmlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir [6, s.1075]. Maliyyə bazarlarının inkişafı bu sahədə dövlət proqramlarının qəbulunu zəruri edir. Həmin bazarların inkişafı ilə bağlı dövlət proqramı iki hissədən ibarət ola bilər: 1) Maliyyə bazarının hüquqi tənzimlənməsi və 2) Maliyyə bazarına nəzarət. Maliyyə bazarının hüquqi tənzimlənməsi ilə bağlı fəaliyyətlər dörd istiqamətdə qruplaşdırıla bilər. 1. Maliyyə alətlərinin genişləndirilməsi, maliyyə infrastrukturunun və bazarlarının inkişafı. 2. Maliyyə bazarlarının dövlət tənzimlənməsinin təkmilləşdirilməsi. Bu problemin həlli məqsədilə qeyri-dövlət pensiya fondlarının fəaliyyəti tənzimlənməli, maliyyə bazarında pozuntulara görə sanksiyaların tətbiqi mexanizmləri təkmilləşdirilməli, kredit bürolarının fəaliyyət dairəsi genişləndirilməli, sığorta

qanunvericiliyində dəyişikliklər edilməlidir. 3. Korporativ münasibətlər sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, həmçinin, məlumatların açıqlanması, bank sektorunda konsolidə edilmiş nəzarətin təşkili, peşəkar iştirakçılar üçün kompensasiya mexanizmlərinin yaradılması, sığorta bazarının iştirakçıları üçün tələblərin unifikasiyası və s. [7, s.214].

Maliyyə bazarlarının inkişafında əsas məqamlardan biri onların tənzimlənməsidir. Maliyyə bazarının tənzimlənməsi sistemi bir-biri ilə əlaqəli elementlər qrupunu özündə birləşdirən geniş anlayışdır: tənzimləmə obyekti (maliyyə bazarı: bazar modeli, fəaliyyət parametrləri, ayrı-ayrı seqmentlər, maliyyə institutları), tənzimləmə subyektləri (dövlət orqanları, özünütənzimləmə təşkilatları), subyektin (və ya subyektlərin) tənzimləmə obyektinə təsir üsulları və vasitələri, əks əlaqənin ötürülməsi yolları. Maliyyə bazarının fəaliyyəti maliyyə aktivlərinin ödənişli əsaslarla yenidən bölüşdürülməsindən ibarətdir. İlk öncə, maliyyə bazarı maksimum səmərəliliyə nail olmaq üçün həmin bazar iştirakçıları arasında sonradan yenidən bölüşdürülməsi üçün müvəqqəti sərbəst pul vəsaitlərinin və digər aktivlərin toplanmasına hesablanıb. Burada maliyyə bazarının rolu əhalinin əmanətlərini və müəssisənin resurslarını real sektora investisiyalara çevirməkdən ibarətdir. Həmçinin maliyyə bazarı bütövlükdə (qlobal və ya yerli) iqtisadiyyatın vəziyyətini əks etdirən dəqiq göstəricidir. Maliyyə bazarının səmərəliliyi valyuta məzənnəsi, dövlət borcu, inflyasiya səviyyəsi, pul kütləsi, dövlət büdcəsinin profisiti (defisiti) və tədiyə balansını əhatə edən iqtisadi göstəricilər məcmusu ilə müəyyən edilir. Dünya iqtisadi təcrübəsində maliyyə bazarlarının tənzimlənməsinin iki əsas modeli mövcuddur: 1) əsas nəzarət funksiyaları özünütənzimləyən təşkilatlara verilir və 2) nəzarətin əsas funksiyaları dövlət qurumlarına həvalə edilir. Ölkədə maliyyə bazarını vicdansız və zəif oyunçulardan təmizləmək üçün işlər aparılmalı, bank sektorunda və mikromaliyyələşdirmədə proporsional tənzimləmə tətbiq edilməlidir. Bu cür tədbirlər təkcə bütövlükdə sektorun dayanıqlığını artırmağa imkan vermir, həm də kiçik bazar iştirakçılarına biznes fəaliyyətini davam etdirmək şansı verir ki, bu da iqtisadi inkişaf üçün vacibdir. Qloballaşma prosesləri çərçivəsində ölkənin bank sisteminin rolu və inkişaf etdirilməsi problemləri aktuallaşır. İqtisadi inkişafın intensivləşdirilməsi və modelləşdirilməsi proseslərində əsas mərkəzi halqanı maliyyə bazarları daha çevik və səmərəli mexanizmlərə, əsas fəaliyyət sahələrinə malik olmalı və bu sırada birinci yeri banklar tutmalıdır. Banklar sistem əhəmiyyətli olmaqla maliyyə bazarının ən fəal və mühüm iştirakçılarından hesab olunur. Maliyyə resursları həmin bazarlarda davamlı dövriyyədədir. Pul bazarlarının əsas institutlarından olan sistem əhəmiyyətli bankların yerinə yetirdiyi funksiyalar müxtəlifdir [3, s.160].

Qeyd edək ki, 2016-cı ilin dekabrın 6-da ölkə prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiqlənmişdir. Həmin sənəddə beş strateji hədəf müəyyənləşdirilmişdir ki, bunlardan biri maliyyə bazarlarının inkişafına yönləndirilimişdir. Bu strateji hədəfə nail olunması məqsədilə ölkəmizin maliyyə bazarlarının qlobal iqtisadi məkana səmərəli şəkildə inteqrasiyası, maliyyə vasitəçiləri və emitentlər üçün münbit mühitin yaradılması, investorların maliyyə bazarlarına çıxış imkanlarının genişləndirilməsi, banklararası pul bazarında fəallığın artırılması prioritet istiqamətlər kimi müəyyənləşdirilib [2]. Həmin strateji yol xəritəsi dünya iqtisadiyyatında və beynəlxalq maliyyə bazarlarında müşahidə olunan proseslərə uyğunlaşma çevikliyi və postneft dövründə maliyyə sektorunun üzləşdiyi yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanıb. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyinin, rəqabət qabiliyyətinin, innovasiyaların və iqtisadi inkişafın dəstəklənməsi prinsipləri əsasında hazırlanıb [5, s.60].

Maliyyə bazarlarının formalaşması və inkişafında əsas məsələ həmin bazarların vasitəçiləri üçün münbit şəraitin yaradılmasıdır. Maliyyə bazarlarının vasitəçiləri və emitentlər üçün münbit şərait yaratmaqla yanaşı, infrastrukturun təkmilləşdirilməsi, şəffaflığın artırılması və likvidliyin təmin edilməsi, özəl sektorla əməkdaşlığın təşviqi üzrə tədbirlərin müəyyənləşdirilməsi təşəbbüsləri investorların bazara çıxış imkanlarını yaxşılaşdırmaq baxımından çox vacibdir [4, s.19]. Müasir maliyyə bazarında fərdi investorların əhəmiyyəti artır. Bu, şəxsi əmanətlərin sərfəli şəkildə bölüşdürülməsi üçün investisiya prosesinin populyarlaşması ilə bağlıdır. Bu, həm də tənəzzül, böhran və müxtəlif şoklarla bağlı risklərə baxmayaraq, maliyyə bazarında etibarlılıq və inamın artması ilə əlaqəlidir. İnam bazarın təşkili səviyyəsinin və onun özünütənzimləmə mexanizminin işinin artmasına səbəb olur. Müasir şəraitdə demək olar ki, əsas tendensiya maliyyə bazarının qloballaşması və beynəlmiləlləşməsidir. Sonuncu milli valyutanın ölkə daxilində və xaricdə işləməsi deməkdir. Odur ki, texnologiyanın inkişafı ilə investorlar öz ölkələrindəki şirkətlərin və xarici təşkilatların səhmlərinə investisiya edə bilərlər. Buna uyğun olaraq qloballaşma bütün ölkələrin beynəlxalq maliyyə bazarı adlanan bir sistemdə birləşməsi prosesidir. Maliyyə bazarlarının qloballaşma tempini artırmaq üçün dövlətlər qanunvericilik səviyyəsində dəstəklənəcək və formalaşacaq əlverişli investisiya mühiti yaratmalıdırlar. Dövlətin bu cür tədbirlər görməsinin səbəbi ölkə iqtisadiyyatına xarici sərmayəni artırmaqdır ki, bu da onun dünya səviyyəsində rəqabət qabiliyyətini artırır. Həmçinin, bu investisiyalar iqtisadi artıma töhfə verir. Azərbaycanda maliyyə bazarlarının formalaşması və inkişafı investorlara cəlbedici aktivlərin və layihələrin təklifi və ortamüddətli perspektivdə investisiyalara davamlı yüksək daxili tələbatla stimullaşdırıla

bilər. Növbəti tendensiya iqtisadiyyatın maliyyə sektoru ilə real sektor arasında əlaqələrin artması ilə bağlıdır. Hər bir bazar iştirakçısı keyfiyyəti yüksəltməklə yanaşı, yüksək mənfəət əldə etməyə və istehsal xərclərini azaltmağa çalışır. Son zamanlar yaradılmış sənaye müəssisələrinə gəlincə, onlar üçün qiymətli kağızların buraxılması investisiya resurslarının səfərbər edilməsinin əsas vasitəsidir.

Beləliklə, maliyyə bazarlarının iqtisadi inkişafda rolunun artırılması aşağıdakı vəzifələrin həllini zəruri edir: bank olmayan maliyyə institutlarının, kollektiv investisiya fondlarının inkişafı; yeni maliyyə bazarı alətlərinin yaradılması yolu ilə iqtisadiyyatın real sektorunun, ilk növbədə kiçik və orta biznesin kreditləşdirilməsi məsələlərinin sadələşdirilməsi; ölkənin və onun regionlarının iqtisadiyyatının sosial-iqtisadi inkişafının prioritet sahələrini maliyyələşdirməyə imkan verən maliyyə bazarı alətlərinin genişləndirilməsində inkişaf institutlarının rolunun artırılması və s. Bu vəzifələrin uğurla reallaşdırılması məqsədilə maliyyə bazarlarının inkişafı üzrə dövlət proqramının hazırlanması və qəbulu zəruri şərtdir. Fikrimizcə, maliyyə bazarının inkişafı proqramına aşağıdakılar daxil edilməlidir:

– investorlar (fiziki şəxslər və biznes subyektləri) üçün müştəri diqqətinin gücləndirilməsi və maliyyə bazarı məhsullarının dərin diversifikasiyası üzrə tədbirlər kompleksinin formalaşdırılması;

– vətəndaşların hesabları üzrə vəsaitlərinin sığortalanması sisteminin yaradılması (birinci mərhələdə - fərdi investisiya hesabları üzrə);

– maliyyə bazarının özünütənzimləyən təşkilatlarının həmin bazarda vicdansız davranışının qarşısının alınması;

– maliyyə bazarında müxtəlif fəaliyyətlər və hətta fərdi əməliyyatlar üçün standartlarının tətbiqi təcrübəsinin genişləndirilməsi, o cümlədən standartların pozulmasına görə bazar iştirakçılarının məsuliyyətinin artırılması;

– sindikatlaşdırılmış kredit bazarının inkişafı, o cümlədən ölkədə sindikatlaşdırılmış kreditləşmə üçün ümumdövlət qaydalarının (və ya tənzimləməsinin, standartının) işlənib hazırlanması;

– maliyyə bazarında aktivlərin və əməliyyatların diversifikasiyası və s.

## Ədəbiyyat


1. Ataşov, B.X. Maliyyə bazarları. Ali məktəblər üçün dərslik. Bakı: Kooperasiya nəşriyyatı, 2016, – 456 s.
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”. Bakı, 6 dekabr 2016.
3. Əliyev, V.Ə. Maliyyə xidmətləri bazarında sistem əhəmiyyətli bankların səmərəliliyinin nəzəri-metodoloji məsələləri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (iyul-avqust), – s.159-166.
4. Hacıyeva, A.M. Qloballaşma şəraitində maliyyə bazarlarının müasir vəziyyəti və inkişaf istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2018, – 26 s.
5. Kərimova, G.R. Azərbaycanda maliyyə bazarlarının inkişafının nəzəri və praktiki aspektləri. Audit 3 (2020), Cild 29, – s. 53-64.
6. Мамедов, З.Ф. Финансовый рынок Азербайджана: новые тренды и перспективы / З.Ф. Мамедов, В.Ф. Намазов // Финансы и кредит. – 2021. – Т. 27, № 5(809). – с. 1074-1092
7. Раджабова, З.К. Формирование Международного финансового центра (МФЦ), его роль в устойчивом развитии финансового рынка / З.К. Раджабова // Вестник научной мысли. – 2020. № 3, – с. 210-216.



**РЕЗЮМЕ**

**ОЦЕНКА ПЕРСПЕКТИВЫ УЧАСТИЯ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНЫХ ФИНАНСОВЫХ РЫНКАХ**



***Набиева Т. Г.***



***Ключевые слова:*** *Азербайджан, международные финансовые рынки, международное разделение труда, особенности финансовых рынков, проблемы развития финансовых рынков, участие Азербайджана в международных финансовых рынках*



Исследованы вопросы оценки перспективы участия Азербайджана в международных финансовых рынках в современных условиях. Обоснована важность участия страны в международных финансовых рынках с учетом приоритетов экономического развития и глобальных вызовов. Исследован уровень развития рынка финансовых услуг и финансово-кредитных институтов в Азербайджане. Рассмотрена важность усиления финансовой системы и с этой целью активного участия Азербайджана в международных финансовых рынках на основе повышения валютных запасов и интенсификации финансовых потоков, исходящих от экспорта нефтегазовых сырьевых ресурсов. Оценены перспективы активного участия Азербайджана в международных финансовых рынках и подготовлен ряд предложений по усилению конкурентоспособности экономики страны и ее финансовой системы.

**SUMMARY**
**ASSESSMENT OF PROSPECTS FOR PARTICIPATION OF AZERBAIJAN IN INTERNATIONAL FINANCIAL MARKETS**
***Nabiyeva T. H.***

***Key words:*** *Azerbaijan, international financial markets, international division of labor, peculiarities of financial markets, problems of development of financial markets, participation of Azerbaijan in international financial markets.*

The issues of assessing the prospects for participation of Azerbaijan in international financial markets in modern conditions are investigated in the article. The importance of the country's participation in international financial markets, taking into account economic development priorities and global challenges, is justified. The level of development of the financial services market and financial and credit institutions in Azerbaijan is investigated. The importance of strengthening the financial system and, to this end, Azerbaijan's active participation in international financial markets on the basis of increasing foreign exchange reserves and intensifying financial flows from the export of oil and gas raw materials is considered. The prospects for active participation of Azerbaijan in international financial markets and a number of proposals to strengthen the competitiveness of the country's economy and its financial system are given then.

# REGİONLARDA AQRAR SƏNAYE KOMPLEKSLƏRİNİN FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**Nəsibov Afiq Cavanşir oğlu**
*Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan*
*zumrud.nesibova87@gmail.com*

***Açar sözlər:*** *aqrar sənaye kompleksi (ASK), investisiya, istehsal, kənd təsərrüfatı, məhsul*

Ölkənin və onun regionlarının iqtisadi fəaliyyətində əsas məsələ ASK-nın səmərəli inkişafıdır. ASK - ölkə əhalisini onların həyatı üçün zəruri olan yüksək keyfiyyətli qida məhsulları ilə təmin etməyin ən vacib vəzifələrindən birini yerinə yetirir. İstənilən ölkə öz resurs potensialına əsaslanaraq öz aqrar sənaye istehsalını formalaşdırır. ASK-nın çoxfunksiyalı bir sistem kimi roluna iqtisadi, sosial, ekoloji və siyasi mövqelərdən baxmaq lazımdır. Regionların ASK-larının rolunu artırmaq məqsədilə onların fəaliyyətinə dövlət dəstəyi zəruridir. ASK sahəsində dövlət siyasətinin strateji məqsədi kənd təsərrüfatı sektorunda istehsalının sabitliyini və səmərəliliyini artırmaq və bunun əsasında bazarı ərzaq məhsulları ilə doydurmaq, sosial vəziyyəti yaxşılaşdırmaq üçün lazımi təşkilati və iqtisadi şərait yaratmaqdır.

Bu sahədə dövlət dəstəyi istiqamətləri aşağıdakılar ola bilər:

- əhalinin ərzaq məhsulları ilə təmin edilməsinin sabitliyini qorumaq;
- kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarının formalaşdırılması və tənzimlənməsi, infrastrukturunun inkişafı;
- aqrar sahə istehsalçılarına dövlət dəstəyi, kənd yerlərinin davamlı inkişafı;
- ölkənin kənd təsərrüfatı istehsalçılarının müxtəlif bazarlarda iqtisadi maraqlarının qorunması;
- ASK sahəsində elm və innovasiyanın inkişafı;
- kənd təsərrüfatı üçün kadr hazırlığı və əlavə peşə təhsili sisteminin təkmilləşdirilməsi [3, s.75].

ASK-ların səmərəli inkişafı məqsədilə kənd təsərrüfatı istehsalında istifadə olunan texnika və texnologiyalara əhəmiyyətli maliyyə investisiyaları tələb olunur. Kənd təsərrüfatı istehsalçılarının əsas kapitalına qoyulan investisiya mənbəyi öz vəsaitləri və kredit resurslarıdır. Yeni texnika və texnologiyaların inkişafının sürətlənməsini təmin edəcək lizinq əməliyyatları da inkişaf etdirilməlidir. Eyni zamanda kənd təsərrüfatının investisiya cəlbediciliyinin artırılması mühəndis və nəqliyyat infrastrukturunun inkişafı və investisiya layihələrinə sistematik dəstək olmadan mümkün deyil. Potensial investorlar üçün ASK-nın investisiya imkanlarını genişləndirə biləcək zəruri tədbir dövlət-özəl tərəfdaşlığı ola bilər. Dövlət-özəl tərəfdaşlığı prinsiplərinin iqtisadiyyatın aqrar sektorunda tətbiqi ASK-ya xüsusi kapitalın cəlb edilməsi üçün optimal şərait yaradacaqdır ki, bu da bələdiyyə torpaq mülkiyyətinin istifadəsinin səmərəliliyinin artırılmasına, kompleksin investisiya potensialının inkişafına, sosial əhəmiyyətli obyektlərin texniki və texnoloji inkişafına, kənd təsərrüfatı torpaqlarının ən səmərəli torpaq istifadəçiləri arasında bölüşdürülməsinə imkan verəcək büdcə vəsaitlərindən effektiv istifadəyə, əlverişli infrastruktur şəraiti yaratmaqla kənd təsərrüfatı sektorunun investisiya cəlbediciliyini artırmağa gətirib çıxaracaqdır.

ASK-ların səmərəliliyinin artırılmasında xüsusi yeri məhz investorların tapılması və iqtisadiyyatın bu sektorunun məhsullarının istehsalı və satışı üçün investisiya cəlbediciliyinin artırılması problemləridir. ASK-ların investisiya cəlbediciliyi problemlərini həll etmək baxımından aşağıdakı tədbirlər tələb olunur:

- investisiya fəaliyyətinə dövlət dəstəyinin göstərilməsi;

- vergi güzəştlərinin verilməsi;

- dövlət-özəl tərəfdaşlığı əsasında investisiya layihələrinin reallaşdırılması;

- kənd təsərrüfatı xidmətləri, sənaye və sosial infrastrukturun inkişafı yolu ilə kənd yerlərinin investisiya cəlbediciliyinin artırılması, yol, su idarəetməsi, nəqliyyat, rabitə, ticarətin dəstəklənməsi, kənd yerlərində xidmət bazarının inkişafına təkan vermək;

- yeni iş yerləri açarkən yerli əmək ehtiyatlarından maksimum istifadə;

- bazar iqtisadiyyatı aqrar sahədə kadr hazırlığı ilə bağlı yanaşmalarda əsaslı dəyişikliklərin edilməsini tələb edir. ASK-larda dəyişikliklərin bazar qanunlarını yaxşı bilən, yaranan mühitdə məharətlə çıxış edən, müasir texnologiyaların istifadəsi sahəsində biliklərə yiyələnən, təşəbbüskarlıq bacarıqları ilə işləyən kadrların hazırlanması ilə başlamalı [1, s.116];

- məqsədlərə çatmaq üçün müəyyən şərtlərdən biri kənd yerlərində iqtisadi işlərin bərpası və yaxşılaşdırılması olmalı;

- kənd təsərrüfatı müəssisələrində islahatların aparılması, təşkilati və hüquqi formalarının Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğunlaşdırılması;

- kənd təsərrüfatına dövlət dəstəyinin dəyişdirilməsi və ən böyük gəliri təmin edən müəssisələrin, təsərrüfatların, özəl təsərrüfat sahələrinin investisiyalarla təmin edilməsi;

- tələb və təklifin, yəni bazarın diktə etdiyi qiymətlərlə ASK-larda maliyyə-kredit münasibətlərinin yaxşılaşdırılması və prioritet investisiya layihələri siyahısının formalaşdırılması;

- obyektin istifadəyə verilməsinə qədər investisiya layihələrinin dəstəklənməsi;

- kənd təsərrüfatı obyektlərinin yerləşdirilməsi üçün investisiya sahələrinin reyestrinin formalaşdırılması;

- regionlarda ASK-lara investisiya cəlb etmək üçün şərait yaratmaq məqsədilə bələdiyyələrin işinin aktivləşdirilməsi.

Beləliklə, yerli ASK-ların fəaliyyətinin səmərəliliyinin artırılması baxımından bəzi mümkün yollar aşağıdakı kimi formalaşdırıla bilər:

1. Kənd təsərrüfatı məhsullarının istehsalı, nəqli, saxlanması və emalı sahələrindəki balanssızlıqları aradan qaldıraraq ASK-nın strukturunu təkmilləşdirmək lazımdır.

2. Bitkiçiliklə bərabər heyvandarlıq məhsullarının da ahəngdar inkişafına kömək etmək;

3. Heyvandarlığın balanslaşdırılmış qarışıq yemlə təmin edilməsi məqsədilə tədbirlər görülməlidir. Bu, alt istehsal sahələri ilə yem istehsal edən sənayenin intensiv inkişafını tələb edir;

4. Otlaq sahələrinin mümkün qədər genişləndirilməsi və məhsuldarlığının artırılması zəruridir. Bəzi ərazilərdə torpağın quruluşunu yenidən nəzərdən keçirmək və əkinçilik və yüksək məhsuldar otlaqları bərpa etmək məntiqlidir;

5. İxracatı dəstəkləmək və idxaldan asılılığı azaltmaq üçün istehsal olunmuş mallarla xarici ticarəti optimallaşdırmaq;

6. Regionların beynəlxalq əmək bölgüsündə iştirakını stimullaşdırmaq;

7. Bazar infrastrukturlarını təkmilləşdirmək;

8. İstehlakçıya birbaşa çıxış məqsədi ilə sahələrarası münasibətlərdə ASK-nın rəqabət potensialını artırmaq;

9. Ümumi istehsalda nisbətən daha az artımla satıla bilən məhsulun əhəmiyyətli dərəcədə artmasına kömək edəcək kənd təsərrüfatı məhsullarının itkilərini səlahiyyətli şəkildə azaltmaq;

10. Bitki və heyvanların genofondunun toplanması və istifadəsi, onların seçilməsi və becərilməsi texnologiyası, ərzaq bazarının iqtisadi mexanizmi və infrastrukturunun formalaşdırılması, ərzaq məhsulları üçün normativ sənədlərin hazırlanması sahəsində tədqiqatları əhəmiyyətli dərəcədə genişləndirmək;

11. ASK-ların investisiya cəlbediciliyini artırmaq.

ASK-ların səmərəli fəaliyyətinin təşkili istiqamətlərindən biri kimi onların özlərinin və məhsullarının rəqabətqabiliyyətliliyinin artırılmasıdır. ASK sahələrinin və məhsullarının rəqabət qabiliyyətini artırmaq üçün regional proqramlar önəmli rol oynaya bilər. Həmin proqramların qəbulu aşağıdakı şəkildə əks olunan istiqamətlərdə inkişafa kömək edərək rəqabətqabiliyyətliliyi təmin edə bilər (şəkil).




**Şəkil. Regionlarda rəqabətə davamlı ASK-ların formalaşmasının əsas istiqamətləri**

Təklif olunan tədbirlər dəsti menecerlərin, dövlət qurumlarının, müəssisələrin, mütəxəssislərin, elm adamlarının səylərini birləşdirər, idxalın əvəzlənməsi və istehsalın şaxələndirilməsi üçün əsas olar və regionun ixrac potensialını genişləndirər.

Ümumiyyətlə, ASK-ların səmərəli fəaliyyətinin təşkili baxımından aşağıdakı istiqamətlərdə bir sıra konkret tədbirlər görülməsi məsləhətdir:

1. ASK-ların rəqabət qabiliyyətinin artırılması sahəsində tənzimləmə bazasının təkmilləşdirilməsi. Kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətini artırmaq üçün praktik tədbirlərin qəbulu yerli istehsalçılara dövlət dəstəyini gücləndirmədən, dövlət tərəfindən kifayət qədər büdcə, kredit, vergi siyasəti aparılmadan, kənd təsərrüfatı məhsullarının ixracının əlaqələndirilməsi üçün müvafiq şöbənin yaradılması olmadan mümkün deyil;

2. Aqrar sahə tərəfindən istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədilə regional siyasətin aparılması;

3. İnstitusional dəstəyin yaxşılaşdırılması. Ərzağın keyfiyyəti üzərində dövlət nəzarəti problemlərinin həlli məqsədilə standartlaşdırma və sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi, ərzaq məhsullarının sınaqdan keçirilməsi üçün laboratoriya və avadanlıqların yaradılması vacibdir. Təklif olunan tədbirlərin icrası məhsulun keyfiyyəti üzərində dövlət nəzarətinin yaxşılaşdırılmasına və gücləndirilməsinə kömək edəcəkdir;

4. İstehsal zəncirlərinin - aqrar sənaye klasterlərinin formalaşması. Regionlarda ASK-ların davamlı və effektiv inkişafı üçün rəqabət qabiliyyətli emal klasterlərinin fəal formalaşdırılması strategiyasıdır [2, s.23]. Müasir şəraitdə ASK-ların sabitliyi və rəqabət qabiliyyəti birbaşa regional və milli kənd təsərrüfatı sistemlərinin sabitliyindən asılıdır. Hal-hazırda bir-biri ilə əlaqəli sənaye klasterləri regional ASK-ların inkişafında hərəkətverici qüvvəyə çevrilməlidir.

Nəticə olaraq, deyə bilərik ki, ümumiyyətlə, ASK-ların inkişafı və fəaliyyətinin səmərəliliyinin artırılması yolları çoxşaxəlidir və əsasən məhsulların keyfiyyətinin yüksəldilməsinə və yerli istehsalçıların rəqabət qabiliyyətinin qorunmasına yönəlib. Bütövlükdə ASK-ların səmərəliliyinin artırılması onun təsərrüfat subyektlərinin fəaliyyətinin yaxşılaşdırılması amillərinin daha dolğun reallaşdırılması, aqrar sahəyə daha da inteqrasiyası yolu ilə əldə edilə bilər.

## Ədəbiyyat

1. Адаменко А.А. Государственное управление устойчивым развитием сельских территорий. Сборник тезисов по материалам Национальной конференции, 2018, с. 114-117
2. Бочарова О.Н., Потокина С.А., Ланина О.И. 2013. Конкурентоспособность предприятий агропромышленного комплекса регионов: глобальный подход. Социально-экономические явления и процессы, 2013, № 2 (048), с.22-25
3. Мусаев. М.М. Пути повышения эффективности функционирования отраслей и предприятий АПК. Деловой вестник предпринимателя, 2020, № 2(2), с.73-75



**РЕЗЮМЕ**

**НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ АГРОПРОМЫШЛЕННЫХ КОМПЛЕКСОВ В РЕГИОНАХ**

***Насибов А.Дж.***

***Ключевые слова:*** *агропромышленный комплекс (АПК), инвестиции, производство, сельское хозяйство, продукция*

Развитие агропромышленного комплекса является одним из главных приоритетов страны в современное время. Эта область имеет большое значение для народного хозяйства во многих отношениях. Поэтому следует повысить эффективность деятельности агропромышленных комплексов (АПК). С этой точки зрения тема статьи отличается своей актуальностью. В статье обосновывается необходимость развития АПК в регионах. Изучены пути повышения экономической эффективности их деятельности. Составлена блок-схема основных направлений формирования конкурентоспособного АПК в регионах.



**SUMMARY**

**DIRECTIONS FOR IMPROVING THE EFFICIENCY OF AGRO-INDUSTRIAL COMPLEXES IN THE REGIONS**

***Nasibov A.J.***

***Key words:*** *agro-industrial complex (AIC), investments, production, agriculture, products*

The development of agricultural industry is one of the main priorities of the country in modern times. This area is of great importance for the national economy in many respects. Therefore, it is necessary to increase the efficiency of the agro-industrial complexes (AIC). From this point of view, the topic of the article is distinguished by its relevance. The article substantiates the need for the development of the AİC in the regions. The ways of increasing the economic efficiency of their activities are studied. A block diagram of the main directions for the formation of a competitive agro-industrial complex in the regions has been compiled.


# QARABAĞ İQTİSADİ RAYONUNUN İNKİŞAF ETDİRİLMƏSİNİN RESURS POTENSİALININ TƏDQİQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ


**Nəsibova Zümrüd Cümşüd qızı**

*Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan*

nasibova.zumrud22@gmail.com



***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, Qarabağ iqtisadi rayonu, Qarabağın resurs potensialı, Qarabağın iqtisadi inkişaf prioritetləri, Qarabağın dirçəldilməsi prosesləri*


Müasir dövrdə Azərbaycanın özünün iqtisadiyyat quruculuğunun iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi prosesləri də nəzərə alınmaqla yeni çağırışlara uyğun şəkildə iqtisadiyyat quruculuğu mərhələsinə daxil olmasını qeyd etmək olar. Bütün bu proseslər yeni iqtisadi mənbələrin formalaşdırılmasına, resurslardan daha səmərəli istifadə olunmasına, mövcud resurs potensialının obyektiv olaraq tədqiq edilməsinə və qiymətləndirilməsinə əlavə zərurət yaranmışdır [3, s.14]. Hazırda ölkəmizdə iqtisadi rayonlaşmanın yeni modeli üzərində iş başa çatdırılmış və iqtisadi rayonların sayı 12-dən 14-ə çatdırılmışdır [1]. Bu iqtisadi rayonların hər birinin özünəməxsus resursları, resurs potensialı və imkanları vardır. Bunlardan səmərəli istifadə olunması, resursların təsərrüfat və maliyyə dövriyyəsinə cəlb edilməsi, bununla bağlı əlavə tədbirlərin görülməsi, əlavə rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, emal müəssisələrinin formalaşdırılması vacib şərtlərdəndir. Xüsusilə, uzun illər ərzində işğal altında qalmış ərazilərimizin erməni murdarlarının ayaqları altından təmizlənməsi və bu ərazilərin dirçəldilməsi məqsədilə iki iqtisadi rayonunun - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması tarixi əlamətdar hadisə kimi yadda qalmışdır.

Qarabağ iqtisadi rayonu özünəməxsus resurs potensialı xüsusiyyətləri və iqtisadi inkişaf drayverləri ilə fərqlənir [2, s.65]. Bir tərəfdən, Qarabağ mədəniyyət ənənələrini və xidmət sektoru ənənələrini özündə ehtiva etsədə, bu əsasən Şuşa şəhərində mərkəzləşmişdir. Şuşa şəhəri dünyanın ən cəlbedici şəhərlərindən biri, Qafqazın incisi və Azərbaycanın mədəniyyət mərkəzi olmaqla iqtisadiyyat quruculuğunun və buradakı resurslardan istifadə edilməsinin özünəməxsus yanaşmaları vardır. Əlbəttə, Şuşa şəhərində hansısa bir iri

zavodun tikilməsindən söhbət gedə bilməz. Burada məhz mədəniyyət abidələrinin-tarixi abidələrin, muzey və teatrların, konsert salonlarının və bununla bağlı müxtəlif tədbirlərin, musiqi, mədəniyyət, teatr tədbirlərin keçirilməsi hesabına mədəniyyət iqtisadiyyatının formalaşdırılması imkanları genişlənmişdir.

Maraqlıdır ki, son dövrlərdə bununla bağlı ciddi diskussiya gedir və Şuşa şəhərinin sahəvi strukturu ilə bağlı təkliflər də səslənməkdədir. Dövlət tərəfindən I Böyük Qayıdış proqramı çərçivəsində Şuşada əsas etibarilə mədəni və tarixi abidələrin bərpası, burada muzey və teatrların, mədəniyyət müəssisələrinin bərpa edilməsi və yenilərinin tikilməsi, xidmət sahələrinin inkişaf etdirilməsi, xüsusilə turizmin inkişaf etdirilməsi nəzərdə tutulur və artıq bu istiqamətlərdə çoxsaylı layihələr də həyata keçirilməkdədir. Əsas etibarilə xidmət sahələrinin inkişaf etdirilməsində otellərin və dünya səviyyəli brendlərin burada yaradılması və turizm sahəsində turizm-rekreasiya imkanlarının dəyərləndirilməsi, obyektiv olaraq qiymətləndirilməsi tələb olunur. Hələ keçmiş sovetlər birliyi dövründə fəaliyyt göstərən və işğal dövründə tamamilə dağıdılmış "Şuşa sanatoriyası"nın yenidən tikintisi və onun müasir texnologiyalar əsasında fəaliyyətinin təşkili istiqamətində addımlar atılmaqdadır.

Qeyd edək ki, Qarabağın digər iqtisadi, inzibati ərazilərində, xüsusilə Ağdam və Füzuli rayonlarında geniş miqyaslı işlər gedir. Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiq olunmuş və bu şəhərin mərkəzi hissəsinin necə olacağı haqqında konkret layihələr hazırlanmış, artıq bir-birinin ardınca bu istiqamətdə həm sosial, həm əhaliyə kommunal xidmətlər göstərməsi üçün lazım olan, həm də istehsal təyinatlı obyektlərin təməlqoyma mərasimləri keçirilir, yaşayış massivləri tikilir. Bütün bunlar yaxın perspektivdə Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsində, onun resurs potensialından daha geniş şəkildə və məhsuldar istifadə olunmasında əlavə stimullar yaradır.

Qarabağda turizm-rekreasiya ehtiyatları və imkanları ilə yanaşı hesab edirik ki, ehtiyatları kifayət qədər güclü olan tikinti materialları sənayesinin inkişafına diqqət yönəldilməlidir. Bunlardan ilk növbədə, Qarabağın iqtisadiyyat quruculuğunda, şəhərlərin salınmasında və əlavə olaraq həyata keçiriləcək layihələrin reallaşdırılmasında, yaşayış evlərinin, ictimai binaların, zavod və fabriklərin tikintisində yerli tikinti materiallarından istifadə olunması bir tərəfdən məsrəflərin azaldılmasına, digər tərəfdən isə yeni iş yerlərinin yaradılmasına və məsafə itkisinin aradan qaldırılmasına imkanlar verməkdədir. Keçmiş SSRİ dövründə Ağdamda və Qarabağın digər rayonlarında tikinti materialları istehsal olunurdu və burada tikinti materiallarının təsdiqlənmiş ehtiyatları da kifayət qədərdir. Belə ki, Qarabağda əhəng, təbaşir, gil, qranit, mərmər kimi tikinti materiallarının istehsalını təmin etmək olar.

Eyni zamanda, çoxlu sayda filiz və qeyri-filizlərin olması və digər sahələrin inkişaf etdirilməsi baxımından Qarabağda rəqabətqabiliyyətli sənaye müəssisələri şəbəkəsinin yaradılması mümkündür və bütün bunlar regionun resurs potensialının maliyyə-təsərrüfat və iqtisadi artım dövriyyəsinə cəlb edilməsi baxımından ciddi önəm kəsb edir. Qarabağda daha çox fərqlənən iqtisadiyyat quruculuğu baxımından geniş imkanlara malik olan sahələrdən biri də - aqrar sənaye sahəsidir. Aqrar sənayenin inkişaf etdirilməsi haqqında xeyli söhbətlər gəzir və bir çox opponentlər belə hesab edirlər ki, Qarabağda geniş şəkildə kənd təsərrüfatı müəssisələrinin yaradılmasına ehtiyac yoxdur, daha çox yüksək texnologiyalara üstünlük verilməli və yüksək texnologiyalar əsaslı müəssisələr tikilməlidir. Əlbəttə, bu başa düşüləndir. Region "yaşıl iqtisadiyyat" zonası elan olunub və bu baxımdan emal müəssisələrinin tikilməsi və yaxud kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti üçün daha çox ərazilərin ayrılması müəyyən mənada suallar doğurur. Amma hesab edirik ki, həm əhalinin məşğulluğu baxımından, həm də ənənəvi məşğulluğun inkişaf etdirilməsi nöqteyi-nəzərindən, eyni zamanda, Böyük Qayıdışda nəzərdə tutulan keçmiş məcburi köçkünlərin doğma yerlərində özlərini daha komfort şəkildə hiss etmələri baxımından ənənəvi məşğulluq sahələrinin əhəmiyyətli hissəsinin saxlanılması daha düzgün olardı [4, s.74].

Bu istiqamətdə cəlbedici görünən məqamlardan biri də, ilk növbədə, aqrar emal sənayesi kompleksi müəssisələrinin yaradılması və yüksək texnologiyalar əsaslı müəssisələrin təşkili, rəqabətqabiliyyətli müəssisələrin formalaşdırılması hesabına ixracyönlü məhsulların dünya bazarlarına çıxarılması və milli brendlərin yaradılması istiqamətində ciddi addımların atılması daha çox məqsədəuyğundur. Artıq Qarabağın müxtəlif rayonlarında bununla bağlı işlər görülməkdədir. Ağdamda Azərbaycan üçün hələ də problemli qalan məsələlərdən birinin həllinə, ərzaqlıq buğdanın istehsalının artırılmasına əlavə töhfələr verə biləcək işlər görülməkdədir. Belə ki, ərzaqlıq buğdanın istehsalının genişləndirilməsi və onun emal olunması ilə bağlı burada real addımlar atılmaqdadır.

Digər tərəfdən, sənaye infrastrukturunun yaradılması baxımından Ağdam Sənaye Parkının rezidentlərinin sayının sürətlə artması və burada aqrar-emal təyinatlı, həmçinin regionun tələblərinə uyğun olaraq, sənaye məhsullarının istehsal olunması nöqteyi-nəzərdən burada işlər intensivləşməkdədir. Qarabağ iqtisadi rayonunun resurs potensialının emal sahələrinə cəlb olunması, məşğulluq problemlərinin həll olunması əhalinin işlə təminatı baxımından əlavə tədbirlərin görülməsi və bu sahədə olan resursların təsərrüfat-maliyyə dövriyyəsinə cəlb edilməsi nöqteyi-nəzərindən görülən işlər içərisində bir çox sahələr

vardır ki, onların obyektiv olaraq potensialının qiymətləndirilməsi, innovasiya-investisiya layihələrinin həyata keçirilməsi və maliyyə mexanizmlərinin gücləndirilməsi tələb olunur.

Yaxın perspektivdə Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi üçün resurs potensialından daha səmərəli istifadə edilməsindən ötrü bir qrup tədbirlərin daha çox diqqət mərkəzində saxlanılmasını vacib hesab edirik:

- Regionda mövcud olan resursların ehtiyatlarının yenidən dəqiqləşdirilməsi, bu ehtiyatların təsdiqi istiqamətində əlavə araşdırmaların aparılması, onların sənaye əhəmiyyətinin müəyyənləşdirilməsi və rəqabət qabiliyyətli emal sənayesi müəssisələrinin yaradılması üzrə xüsusi dövlət proqramının işlənməsinə ehtiyac vardır;
- Qarabağ iqtisadi rayonunda mövcud resursların daha tez təsərrüfat və maliyyə dövriyyəsinə cəlb olunması üçün kiçik və orta sahibkarlığın stimullaşdırılması tədbirlərində daha mütərəqqi maliyyə mexanizmlərinin işlənilməsi və tətbiqi vacibdir;
- Uzunmüddətli, faiz dərəcələri 4-5 % arasında olan kredit resurslarının ayrılması, maliyyə-kredit məsləhət mərkəzlərinin yaradılması və burada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işinin şəffaflığının təmin olunması, əlavə olaraq onların motivasiyasının artırılması istiqamətində daha çox işlər görülməlidir;
- Regiona birbaşa investisiyaların cəlb olunması istiqamətində məqsədli tədbirlərin görülməsi, əlavə işlərin aparılması, regionun prioritet olan fəaliyyət istiqamətləri üzrə biznes planların hazırlanması, müxtəlif səviyyələrdə və biznes dairələrində, dünyanın müxtəlif ölkələrində və maliyyə-investisiya mərkəzlərində planlı şəkildə təqdimatların keçirilməsi, daha çox xarici investorların işğaldan azad olunmuş ərazilərə gəlməsi üçün əlavə tədbirlərin görülməsi məqsəduyğundur və s.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, – 7 iyul 2021-ci il.
2. Əliyev Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. Geostrategiya jurnalı, Bakı, 2021, №4, s.67-72.
3. Бадахова И.Т. Сущность государственного регулирования регионального социально-экономического развития / И. Т. Бадахова // Chronos. 2020, № 10(49), с. 13-15.
4. Селиверстов А.А. и др. Влияние инфраструктуры на социально-экономическое развитие региона / А.А. Селиверстов, Н.Р. З. Шадейко, И.В. Волчкова [и др.] // Национальная Ассоциация Ученых. 2016, № 8(24), с. 74-75.


## РЕЗЮМЕ
## ИССЛЕДОВАНИЕ И ОЦЕНКА РЕСУРСНОГО ПОТЕНЦИАЛА РАЗВИТИЯ КАРАБАХСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

***Насибова З. Дж.***

***Ключевые слова:*** *Азербайджан, Карабах, Карабахский экономический район, ресурсный потенциал Карабаха, приоритеты экономического развития Карабаха, процессы возрождения Карабаха*

Рассмотрены вопросы оценки ресурсного потенциала развития Карабахского экономического района. Анализирована эффективность использования ресурсного потенциала в контексте целей возрождения Карабахского экономического района. Рассмотрена эффективность реализуемых социальных и производственных инфраструктурных проектов, осуществляемых в Карабахе. Оценен потенциал и обобщены перспективные направления развития Карабахского экономического района. Подготовлены рекомендации и даны предложения по эффективному использованию ресурсного потенциала Карабаха в контексте I Государственной Программы Большого Возвращения.

## SUMMARY
## RESEARCH AND ASSESSMENT OF THE RESOURCE POTENTIAL OF THE DEVELOPMENT OF THE KARABAKH ECONOMIC REGION

***Nasibova Z. J.***

***Key words:*** *Azerbaijan, Karabakh, Karabakh economic region, resource potential of Karabakh, priorities of Karabakh economic development, Karabakh revival processes*

The issues of assessing the resource potential of the development of the Karabakh economic region are considered. The effectiveness of the use of resource potential in the context of the goals of the revival of the Karabakh economic region is analyzed. The effectiveness of the implemented social and production infrastructure projects carried out in Karabakh is revealed. The potential and perspective directions for the development of the Karabakh economic region are summarized. Recommendations and proposals on the effective use of the resource potential of Karabakh in the context of the I State Program on the Great Return are given then.

# MARKETİNQ İNFORMASİYA SİSTEMLƏRİNİN MÜƏSSİSƏLƏRİN XARİCİ BAZARLARA ÇIXIŞINDA ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

**Pənahəliyeva Məlahət Ömər qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*penahliyeva@mail.ru*

***Açar sözlər:*** *marketinq, informasiya, marketinq informasiya sistemləri, texnologiya, müəssisə*

Bazar şəraitində fəaliyyət göstərən müəssisələr üçün istehlakçıların müvafiq məhsul və xidmətlərə olan tələbatını ödəmək məqsədilə tədbirlər sistemi olan səmərəli marketinq fəaliyyəti məsələsi olduqca aktualdır. Təsərrüfat subyektlərinin marketinq fəaliyyətinin səmərəliliyini təmin edən amillərdən biri informasiya texnologiyalarının geniş spektrindən istifadə edilməsidir ki, bunlar arasında iki sahəni ayırmaq lazımdır.

Birinci istiqamətin inkişafı üçün ilkin şərt ondan ibarətdir ki, elektron ticarət və biznesin firmaların, korporasiyaların və bankların praktikasına daxil olması ilə əlaqədar olaraq kommersiya və maliyyə əməliyyatlarının xarakterində, onlarla münasibətlərdə də dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər ənənəvi marketinq yanaşmalarına birbaşa təsir edir, onların mahiyyətini dəyişdirir və modernləşməni stimullaşdırır. Burada çox vacib olur:

- müxtəlif növ marketinq informasiya sistemlərinin (MİS) müəssisənin fəaliyyətində tətbiqi;
- marketinq fəaliyyətinin aparılması üçün marketinq informasiya resurslarından və internet texnologiyalarından istifadə;
- virtual marketinq məkanının imkanlarının tədqiqi;
- elektron ticarətin aparılması prinsip və üsullarının mənimsənilməsi;
- MİS-lərin təhlükəsizliyinin təmin edilməsi yollarının müəyyənləşdirilməsi.

İnformasiya texnologiyaları marketinq texnologiyalarının inkişafı, yaradılması və istifadəsinin səmərəliliyini artırmaq vasitəsidir. İnformasiya texnologiyaları - kumulyativ təsiri hesabına iqtisadiyyatın bu və ya digər iyerarxik səviyyəsində marketinq fəaliyyətinin planlaşdırılması, həmin fəaliyyət sahəsinin təşkili və idarə edilməsi prosesinin səmərəliliyini təmin etmək məqsədilə nəzərdə tutulmuş, texnoloji sistem olan alətlər və metodlar məcmusudur. İnformasiya texnologiyalarının əsas elementləri kompüter kompleksləri, kompüter şəbəkələri, intellektual terminallar, verilənlər massivlərinin təşkili, məlumatların kodlaşdırılması və axtarışı üçün alətlər və üsullar toplusu və s [4, s.358].

Marketinq fəaliyyəti və marketinq tədqiqatları üçün proqram təminatı yaratmaq məqsədilə müasir texnologiyalar marketoloqun demək olar ki, bütün funksional vəzifələrini avtomatlaşdıran proqram təminatı məhsullarını reallaşdırmağa imkan verir: fəaliyyətlərin planlaşdırılmasından malların təşviqi və onların reallaşdırılmasına nəzarətdən tutmuş bazarın müxtəlif seqmentlərində şirkətin rəqabət qabiliyyətinin qiymətləndirilməsinə qədər [1, s.164].

Müəssisənin marketinq fəaliyyətində istifadə oluna bilən proqram məhsulları içərisində aşağıdakıları ayırd etmək olar:

1. Xarici marketinq mühitinin dinamikasını izləyən sistemlər - müəssisə və rəqiblər haqqında məlumat toplamaq problemini həll edir (məsələn, xüsusilə, məhsulların çeşidi və qiymətləri).
2. Əmtəə və maliyyə əməliyyatları haqqında məlumatları təhlil etməyə və statistik hesabatlar yaratmağa imkan verən satış və məhsulların təhlili sistemləri.
3. Mühasibat uçotu məlumatlarının informasiya sistemləri - əsas vəzifəsi informasiyanın uçotu olan sistemlərdir: mühasibat uçotu, ticarət, istehsal, kadrlar, əmək haqqı və s. məlumatların avtomatlaşdırılması.
4. İnternet vasitəsilə məlumatların toplanması və təhlili, həmçinin tədqiqatın nəticələrinin və verilənlər bazalarının məzmununun vizuallaşdırılması üçün istifadə olunan marketinq tədqiqat sistemləri [3, s.47].
5. CRM-sistemləri - satışları artırmaq, marketinqi optimallaşdırmaq, müştərilər və onlarla əlaqələrin tarixi haqqında məlumat bankını toplamaq yolu ilə müştəri xidmətlərinin, biznes proseslərinin səmərəliliyini artırmaq məqsədilə müştərilərlə qarşılıqlı əlaqə strategiyalarını avtomatlaşdırmaq üçün nəzərdə tutulmuş tətbiqi proqram təminatıdır [2, s.184].
6. Mətn massivləri ilə işləmə sistemləri - böyük mətn massivlərinin emalı üçün axtarış və analitik sistemlər.
7. Statistik sistemlər - əsas vəzifəsi statistika sahəsində işlərin avtomatlaşdırılmasıdır.
8. İnformasiya və analitik onlayn sistemlər öz sorğu dili və təhlil vasitələrinə malik olan ağıllı axtarış sistemləridir.

9. Reklama dəstək sistemləri - zamanla baş verən dəyişikliklərin dinamikası əsasında auditoriyanı təhlil etmək və reklamın ən effektiv qrafikini müəyyənləşdirmək məqsədilə nəzərdə tutulmuşdur.

MİS-in informasiya sisteminin ümumi modelini aşağıdakı kimi qura bilərik (şəkil).

MİS-in əsas üstünlüyü qəbul edilən qərarların keyfiyyətinin yüksəldilməsi üçün daim aktual məlumatların alınmasıdır.

Yuxarıda qeyd olunanlardan belə nəticə çıxır ki, MİS aşağıdakıları təmin edir:

- məlumatın mütəşəkkil toplanması, işlənməsi və təhlili;
- bazara, rəqiblərə və istehlakçılara geniş baxış;
- risklərin və onların baş verməsi ilə bağlı itkilərin proqnozlaşdırılması;
- marketinq planının koordinasiyası;
- qərarların qəbul edilməsinin səmərəliliyi;
- mənfəət-xərc təhlili aparmaq bacarığı;
- bazar haqqında çoxaspektli biliklərin olması hesabına gəlirliliyin artırılması üçün əlavə imkanların yaranması və s.




***Mənbə:*** *müəllif tərəfindən tərtib edilib*

**Şəkil. MİS modeli**

Müəssisələrdə marketinq fəaliyyətinin inkişafı məqsədilə əsas şərtlər bunlardır:

- yuxarı rəhbərliyin lazımi köməyi və dəstəyinin olması;
- yüksək rəhbərlik, marketoloqlar və müəssisələrin digər şöbələrinin nümayəndələri arasında səmərəli əlaqələrin yaradılması;
- uzunmüddətli planlaşdırmanın olması;
- marketinqin rolu və əhəmiyyətinin düzgün başa düşülməsi;
- müəssisədə marketinqin rolunun onun bütün funksiyaları çərçivəsində genişləndirilməsi;
- müəssisənin yuxarı rəhbərliyi və işçi heyəti tərəfindən marketinq yanaşmasının əhəmiyyətinin və onun nəticələrinin düzgün başa düşülməsi;
- marketinq şöbəsi ilə müəssisənin digər şöbələri arasında əlaqələrin səmərəliləşdirilməsi;
- ümumi bazar konsepsiyasını və müəssisənin marketinq fəaliyyəti proqramını müəyyən edən sənədin olması;
- marketinq sahəsində ixtisaslı mütəxəssislərin olması;
- habelə marketinq xidmətləri üzrə mütəxəssislərin marketinq funksiyalarını yerinə yetirmək məqsədil xüsusi biliklərinin olması;
- marketinq fəaliyyətinin aparılması, işçilərin bacarıqlarının artırılması, iş təcrübəsi olan ixtisaslı mütəxəssislərin cəlb edilməsi üçün maliyyə vəsaitinin kifayət qədər olması;
- marketinq xidmətinin işinə kifayət qədər məlumat dəstəyinin olması;

- marketinq xidmətinin fəaliyyətini tənzimləyən və onun effektivliyini qiymətləndirən normativ-metodiki bazanın olması və s.

Yuxarıda göstərilən bütün məsələləri aşağıdakı növlərə bölmək olar: idarəetmə, təşkilati, kadr, funksional və maliyyə. Onların həlli, şübhəsiz ki, istənilən müəssisə üçün əsas vəzifədir. Bu məsələlərin həlli müəssisələrin xarici bazarlara çıxışında əsas vasitələrdəndir.

**Ədəbiyyat**


1. Золотухина Л.Ю. Организация маркетинговой деятельности предприятия. Международный научный журнал «Вестник науки» №8 (8), Том 1, с.163-165
2. Мусиенко Д. О. Сущность маркетинговой деятельности на предприятиях // Молодой ученый. 2013. №6. С. 383-386.
3. Шеломенцев В.В. Интернет-маркетинг и современные информационные технологии в маркетинговых исследованиях // Агропродовольственная политика России. 2015. № 7(43), С. 46-50
4. Шишкова, А. С. Информационные технологии в маркетинговой деятельности предприятия / А. С. Шишкова, О. Д. Овсянникова, Л. И. Шулятьева // Трибуна ученого. – 2021. – № 5. – С. 358-363



**РЕЗЮМЕ**

**ОЦЕНКА РОЛИ МАРКЕТИНГОВЫХ ИНФОРМАЦИОННЫХ СИСТЕМ ПРИ ВЫХОДЕ ПРЕДПРИЯТИЙ НА ЗАРУБЕЖНЫЕ РЫНКИ**

***Панахалиева М.О.***

***Ключевые слова:*** *маркетинг, информация, маркетинговые информационные системы, технология, предприятие*

В статье представлена информация о значении информационных технологий как одного из факторов, обеспечивающих эффективность маркетинговой деятельности предприятий. Изучены основные программные продукты, которые можно использовать в маркетинговой деятельности предприятия. Исследована роль информационных технологий в формировании систем маркетинговой информации на предприятиях. Общая модель системы маркетинговой информации представлена в виде блок-схемы. Также определены основные условия развития маркетинговой деятельности на предприятиях.



**SUMMARY**

**ASSESSMENT OF THE ROLE OF MARKETING INFORMATION SYSTEMS IN THE OUTPUT OF ENTERPRISES INTO FOREIGN MARKETS**

***Panahaliyeva M.O.***

***Key words:*** *marketing, information, marketing information systems, technology, enterprise*

The article provides information on the importance of information technology as one of the factors that ensure the effectiveness of the marketing activities of enterprises. The main software products that can be used in the marketing activities of the enterprise have been studied. The role of information technologies in the formation of marketing information systems at enterprises has been studied. The general model of the marketing information system is presented in the form of a block diagram. The main conditions for the development of marketing activities at enterprises are also determined.


# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNDƏ İŞTİRAKININ MÜASİR VƏZİYYƏTİ


**Rüstəmova Gülbəs Rəsul qızı, Rəhimli Elxan Şəfahət oğlu**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*

rrufet1979@mail.ru



***Açar sözlər:*** *qloballaşma, beynəlxalq əmək bölgüsü, dünya iqtisadiyyatı, idxal, ixrac, beynəlxalq iqtisadi münasibətlər*


Beynəlxalq əmək bölgüsü (BƏB) istehsalın qloballaşmasının əsasını təşkil edir, dünya bazarının və ümumilikdə dünya iqtisadiyyatının formalaşmasında və inkişafında həlledici amil kimi çıxış edir. Bu, ölkələr arasında sosial-ərazi əmək bölgüsünün inkişafının ən yüksək mərhələsidir ki, bu da müxtəlif ölkələrin iqtisadi cəhətdən sərfəli istehsalda ixtisaslaşmasında özünü göstərir. BƏB prosesi müxtəlif növ məhsulların istehsalının iqtisadi səmərəliliyinin artırılmasına əsaslanır. Odur ki, BƏB-i sənaye kooperasiyası olmadan təsəvvür etmək olmaz. BƏB prosesi dünya iqtisadiyyatının inkişafına güclü təsir göstərməklə yanaşı, inteqrasiya, qloballaşma və elmi-texniki inqilabı əlaqələndirir. İstehsalın iqtisadi səmərəsində BƏB prosesi xərcləri azaltmaq və mənfəəti maksimuma çatdırmaqdan ibarətdir.

BƏB-də iştirak edən istənilən bir ölkədə əmtəə və xidmətlərin beynəlxalq mübadiləsi prosesində ixrac və idxal olunan mal və xidmətlərin beynəlxalq və milli dəyəri arasında fərq (fayda) təmin edilir, habelə milli mallara qənaət edilir. BƏB məhsuldar qüvvələrin və BİM-in inkişafı funksiyası kimi dünya ölkələrinin reproduktiv proseslərinin qarşılıqlı əlaqəsini və bir-birindən asılılığını gücləndirmək üçün obyektiv şərait, qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq üçün stimullar yaradır. Beləliklə, iqtisadiyyatın qloballaşması BƏB-in keyfiyyətcə yeni səviyyəsinə əsaslanır [1, s.8].

Dünya iqtisadiyyatının və BİM-in hazırkı inkişaf mərhələsi BƏB-in dərinləşməsi ilə xarakterizə olunur ki, bu da bir çox səbəblərdən qaynaqlanır:

- dünyanın müxtəlif ölkələrində və regionlarında ETT-nin qeyri-bərabər inkişafı;
- milli bazarların müxtəlif dərəcədə doyması;
- ölkələr üzrə istehlakın fərqli strukturu;
- ayrı-ayrı ölkələrin həyat səviyyəsinin və sosial-iqtisadi inkişafının bərabərləşdirilməsi zərurəti;
- idarəetmə təcrübəsinin mübadiləsi ehtiyacı.

İstənilən bir ölkə üçün BƏB-in əhəmiyyətini qiymətləndirmək çox çətindir. Bu, bütün dünya ölkələri arasında ticarət-iqtisadi, sənaye, elmi-texniki əlaqələrin obyektiv əsasıdır.

BƏB-in müasir inkişaf tendensiyalarını müəyyən edən ümumi qanunauyğunluqları aşağıdakı əsas hallarla xarakterizə etmək olar:

1. Bir çox ölkələrin (əsasən də İEOÖ qrupunda) beynəlxalq bölgüdə yeri. Əmək, onların strateji vəzifələrin həllinə və beynəlxalq korporasiyaların məqsədlərinin həyata keçirilməsinə nə dərəcədə "inteqrasiya olunduğu" ilə müəyyən edilir.

2. Müasir BƏB-in mühüm elementinin həm ənənəvi (beynəlxalq nəqliyyat, rabitə, turizm və s.), həm də yeni (maliyyə, bank, sığorta, reklam, informasiya və digər biznes xidmətləri) xidmət sektoruna çevrilməsi.

3. Dünya iqtisadiyyatında üç qrup ölkələr arasında BƏB-in məzmununun dəyişməsi.

4. Ölkələr arasında sahələrarası əmək bölgüsünün sənayedaxili əmək bölgüsü ilə tamamlanması [2, s.284].

Müasir şəraitdə Azərbaycan dünya iqtisadiyyatına optimal şəkildə inteqrasiya etməyə və BİM sistemində öz layiqli yerini tutmağa imkan verən bir sıra spesifik xüsusiyyətlərə və üstünlüklərə malikdir. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının ayrılmaz hissəsidir və onun xarici iqtisadi əlaqələrləri (XİƏ) BİM-də bir əlaqədir.

XİƏ-lərin keyfiyyətcə transformasiyasının ən mühüm şərti iqtisadiyyatın texniki cəhətdən modernləşdirilməsi və onun emal sənayesinin üstünlük təşkil edən inkişafı yolu ilə şaxələndirilməsidir. XİƏ-lərin əsas problemi valyuta gəlirləri mənbəyi kimi ixracın artmasıdır. Əsas problem valyuta gəlirlərinin analoqu olmayan və ölkədə istehsalı mümkün olmayan istehlak mallarının alınması, yeni texnologiyanın əldə edilməsi, ölkədə yeni malların istehsalı üçün rasional istifadəsidir. İndi əhəmiyyətli kapital qoyuluşları olmadan ixrac resursları tapmaq lazımdır və bunun üçün ölkənin milli sərvətini bütövlükdə və ərazi baxımından qiymətləndirmək lazımdır ki, dünya bazarında məhz nəyin böyük fayda gətirəcəyini müəyyənləşdirə bilək. Beləliklə, Azərbaycan XİƏ-lərində problemləri həll etməklə, xammal və material ixrac edən ölkələr kateqoriyasından çıxaraq BƏB sistemində yeri və rolunu yaxşılaşdıracaqdır ki, bu da ölkəyə iqtisadi potensialından daha səmərəli istifadəyə imkan verəcəkdir.

Ümumiyyətlə, Azərbaycan getdikcə BƏB-ə daxil olmaq üçün böyük səylər göstərir, bu istiqamətdə irəliləyişin müsbət və mənfi tərəfləri var. Müsbət cəhət odur ki, Azərbaycan dünya bazarında ehtiyac duyduğu malları öz istehsalının maya dəyərindən aşağı qiymətə ala bilər. Öz növbəsində, öz məhsulunu ixrac edərkən, xarici qiymətlər daxili qiymətlərdən yüksək olarsa, ölkə qazanır. Bu günə qədər Azərbaycanın BƏB-də rolu böyük deyil, bütün bunlar aşağıdakı səbəblərlə bağlıdır:

- beynəlxalq ticarətdə ixrac və idxalın əsas payını yüksək texnologiyalardan istifadəyə əsaslanan hazır məhsul və xidmətlər tutur və Azərbaycanda ixracın əsas payını yanacaq və xammal tutur;
- dünya iqtisadiyyatı ilə iqtisadi əlaqələrin mövcud xarakterini nəzərə alaraq, yerli əmtəə istehsalçıları beynəlxalq sənaye və investisiya əməkdaşlığı sferasından kənarda qalırlar. Onların xarici tərəfdaşlarla güclü əməkdaşlıq əlaqələri yoxdur və beynəlxalq artım zəncirlərinə daxil deyillər.

Azərbaycanın BƏB sistemindəki mövqeyini dəyişdirmək üçün üç istiqaməti ayırmaq olar:

1) İxracda yeni istiqamətlərin inkişafı. Həlledici amillər Azərbaycanın digər ölkələrlə müqayisədə üstünlükləri olmalıdır;

2) İxrac olunan xammalın emal dərəcəsinin artırılması;

3) Nəqliyyat infrastrukturunun keyfiyyətinin yüksəldilməsi.

Beləliklə, BƏB-in rolu xüsusilə ölkələr arasında mal və xidmətlərin mübadiləsində çox əhəmiyyətlidir. BƏB ölkələrin müəyyən məhsul növlərinin istehsalında ixtisaslaşmasıdır. Onun əsasında ölkələr arasında coğrafi mövqe, iqlim şəraiti, xammal və enerji resursları fərqlənir. İqtisadi sistemlər əmək

bölgüsünə, yəni fəaliyyətin nisbi diferensiasiyasına əsaslanır. Dünya iqtisadiyyatının bütün səviyyələrində müəyyən dərəcədə əmək bölgüsü mövcuddur.

Müasir dövrdə Azərbaycanın beynəlxalq ixtisaslaşması üçün neft və qazla yanaşı, bir qayda olaraq, aşağı istehsal qabiliyyəti və ətraf mühitə uyğunluğu ilə seçilən bəzi digər sənaye sahələrinin məhsulları da xarakterikdir. Onların arasında kənd təsərrüfatı məhsullarının istehsalı sahəsini göstərmək olar. Yanacaq və xammal ixtisaslaşması Azərbaycanın BƏB-də iştirakının dominant formasıdır ki, bu da ölkəmizin dünya xammal bazarında baş verən bazar dalğalanmalarından əhəmiyyətli dərəcədə asılılığına səbəb olur.

Azərbaycan xidmətlər ticarətində, beynəlxalq istehsal kooperasiyasında, birbasa xarici investisiyalar (BXİ) şəklində beynəlxalq kapital miqrasiyasında, ölkələrarası informasiya və elmi-texniki mübadilədə zəif iştirak edir. Ölkə iqtisadiyyatı dar çeşiddə malların, əsasən də neft və neft-qaz sənayesi məhsullarının ixracından, həmçinin bir çox istehlak mallarının, xüsusilə də yüksək texnologiyaların idxalından asılıdır. Mövcud şəraitdə dünya iqtisadiyyatının və beynəlxalq ticarətin inkişaf tendensiyalarını nəzərə alaraq Azərbaycan iqtisadiyyatının artımının sabitləşdirilməsi və davamlılığının təmin edilməsi, habelə ölkənin BƏB-ə bərabərhüquqlu inteqrasiyasının təmin edilməsi vəzifələrini həll etmək məqsədilə ölkə qarşısında aşağıdakı əsas məqsədlər durur:

- Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin daha da artırılması;
- Azərbaycanın dünya əmtəə bazarlarında mövqeyinin qorunması, həmçinin hazır məhsul və xidmətlər üzrə ixracın getdikcə genişləndirilməsi;
- BİM sahəsindəki təcrübəyə uyğun olaraq Azərbaycanın daxili bazarının ədalətsiz xarici rəqabətdən qorunması məqsədilə yerli mal və xidmətlərin dünya bazarlarına səmərəli şərtlərlə çıxışı üçün bərabər şəraitin yaradılması;
- daxili bazarda rəqabət mühitinə mənfi təsir etməmək şərtilə milli istehsalın genişləndirilməsi və onun rəqabətqabiliyyətinin artırılması və bunun üçün ölkədə əlverişli şəraitin yaradılmasına töhfə verə biləcək gömrük tarif siyasətinin tətbiqi;
- Azərbaycanda daha əlverişli və münbit iqtisadi şəraitin yaradılması yolu ilə xaricə kapital axınının azaldılması, həmçinin ixrac-idxal əməliyyatlarının reallaşdırılmasına nəzarətin, o cümlədən gömrük və valyuta nəzarətinin gücləndirilməsi, qaçaqmalçılıq yolu ilə malların alqı-satqısının qarşısının alınması.

Bu məqsədlərə nail olmaq və xarici iqtisadi fəaliyyətin (XİF) səmərəliliyini artırmaq üçün dövlətin iqtisadiyyatın real sektorunun dəstəklənməsi siyasətinə uyğun olaraq XİƏ-lərin dövlət tənzimlənməsi sisteminin hazırlanması zəruridir ki, bu da dörd istiqamətdə reallaşdırılacaqdır.

Birinci istiqamət Azərbaycanın xarici iqtisadi siyasətinin (XİS), o cümlədən yanacaq və xammal ixracının optimallaşdırılması, hazır məhsul və xidmətlərin ixracının dəstəklənməsi prioritetlərinin hazırlanması və reallaşdırılmasıdır. Prioritetlərdən biri dövlət səviyyəsində Azərbaycan istehsalçılarının, ilk növbədə, yeni yaradılmış dəyərdə yüksək paya malik məhsul istehsal edənlərin ixrac fəaliyyətinin stimullaşdırılması oolmalıdır. Bu baxımdan, dövlətin iştirakı ilə ixracatçıların kreditləşdirilməsi və sığortalanması sisteminin formalaşdırılması, yerli yüksək texnologiyalı məhsulların istehsalının təşviqi reallaşdırılmalıdır.

İkinci istiqamət XİƏ-lərdə Azərbaycan müəssisələri üçün əlverişli şəraitin və həmin müəssisələrin dünya ticarətində bərabər iştirakının təmin edilməsi, əsassız olaraq tədbiq edilən məhdudiyyətlərin aradan qaldırılması istiqamətində dövlətin rolunun gücləndirilməsi və yerli malların xarici ölkələrə təşviqi məqsədilə daha əlverişli şərait yaradılmasıdır.

Üçüncü istiqamət, beynəlxalq norma və qaydalara əsaslanan və Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş bütün vasitələrdən istifadə etməklə daxili bazarın qorunmasıdır. Bu tədbirlər rəqabət qabiliyyətinin və perspektivli yerli sənayelərin qorunmasına kömək edəcəkdir.

Dördüncü istiqamət XİS-in ən mühüm tərkib hissəsi kimi onun beynəlxalq prioritetlərinin formalaşdırılmasıdır.

Azərbaycanın ilə MDB ölkələri arasında ticarət-iqtisadi əlaqələr ölkəmizin XİƏ-lərində strateji istiqamətdir. Avropa qitəsində Azərbaycanın əsas tərəfdaşları idxal və ixracda ilk yerlərdə qərarlaşan Türkiyə və İtaliyadır. Amerika qitəsində Azərbaycanın ən mühüm ticarət tərəfdaşı ABŞ-dır. Bu ölkə ilə əməkdaşlığın əsas istiqamətləri müəyyən edilərkən ABŞ-ın dünya iqtisadiyyatında liderliyi, nəhəng elmi-texniki və maliyyə potensialı, eləcə də Amerika bazarının ən perspektivli bazarlardan biri olması nəzərə alınır. Azərbaycanın 2021-ci ildə ABŞ-dan idxalı 442411,4 min ABŞ dolları olub ki, bu da ümumi idxalın 3,8%-i deməkdir. İxracda bu göstəricilər müvafiq olaraq 75147,3 min ABŞ dollar və ya 0,34% olub.

Azərbaycanın idxal və ixracında ən yüksək xüsusi çəkisi olan ilk 10 ölkənin tutduğu mövqeyi aşağıdakı qrafik təsvir vasitəsilə əks etdirə bilərik (qrafik 1 və 2)




***Mənbə:*** *DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib*

**Qrafik 1. 2020-ci ildə Azərbaycanın ixracda ilk onluqdakı əsas tərəfdaşları, faizlə**

Qeyd edək ki, xarici ticarət dövriyyəsindəki əsas tərəfdaşlardan İtaliya, Türkiyə və Rusiya son illərdə öz mövqeyini qorumuşdur. Digər yerdə qalan 7 ölkə isə bəzi illərdə müəyyən fərqlə yerini dəyişmişdir. Azərbaycandan məhsulların ixrac olunduğu ilk üç ölkə İtaliya, Türkiyə və Rusiyadır. 2016-2019-cu illər ərzində ixracda 4-cü yeri İsrail tutduğu halda, 2020-ci ildə 8-ci yerə tutmuşdur. 2021-ci ildə İsrail ixracda yenidən ilk dördlüyə düşmüşdür. İtaliyaya ixracın əsas hissəsi neft-qaz sənayesinin məhsullarıdır. Azərbaycana ən çox məhsul idxal edən ilk üç ölkə isə Rusiya, Türkiyə və Çin tutur. Onlar da son illərdə idxalın həcmində öz mövqeyini qoruyub saxlamışdır.




***Mənbə:*** *DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib*

**Qrafik 2. 2020-ci ildə Azərbaycanın idxalda ilk onluqdakı əsas tərəfdaşları, faizlə**

Azərbaycan üçün Avropa qitəsinin əhəmiyyəti ölkə ixracatının strukturunun təkmilləşdirilməsi üçün unikal imkanlar yaradılmasında özünü göstərir. Bu region ölkələri üzrə Azərbaycan əhəmiyyətli investisiya potensialına malikdir.

Ölkə idxal tarifləri, kənd təsərrüfatına subsidiyaların səviyyəsi, xidmətlər bazarına çıxış, habelə qanunvericilik və onun tətbiqi təcrübəsi sahəsində öhdəliklər toplusunu öz üzərinə götürməklə ümumdünya ticarət təşkilatının (ÜTT) tamhüquqlu üzvü ola bilər. Azərbaycan iqtisadiyyatının açıqlığının artırılması, ÜTT-yə daxil olması, ilk növbədə, iqtisadiyyatın strukturunun şaxələndirilməsi, daxili bazarlarda inhisarçılıq dərəcəsinin azaldılması üçün birbaşa stimullar kimi nəzərdən keçirilməlidir. Azərbaycanın ÜTT-yə daxil olması sosial-iqtisadi inkişafın sürətlənməsinə, o cümlədən regionların inkişafına, istehsal və elmi potensialdan səmərəli istifadəyə səbəb ola bilər. Azərbaycanın ÜTT-yə daxil olması bir tərəfdən ölkə ixracatçılarının xarici bazarlarda fəaliyyəti üçün şəraiti yaxşılaşdıracaq, digər tərəfdən isə rəqabət mühitinin formalaşdırılması və iqtisadiyyatın modernləşdirilməsini sürətləndirəcək.

Azərbaycan iqtisadiyyatı artıq dünya iqtisadiyyatına kifayət qədər sıx inteqrasiya olunub. Onun bazar statusu Aİ və ABŞ da daxil olmaqla bir çox ticarət tərəfdaşları tərəfindən tanınır. Azərbaycan bir çox inteqrasiya qruplarının və beynəlxalq təşkilatların işində fəal iştirak edir. İqtisadiyyatın açıqlığının artırılması və dünya iqtisadi əlaqələrinə daha dolğun inteqrasiyası istiqamətində işləri davam etdirmək lazımdır.

Beləliklə, indiki mərhələdə Azərbaycanın BƏB-də iştirak dərəcəsini artırmaq üçün kifayət qədər güclü potensiala malikdir. Bu, həm təbii resurs potensialının, həm də müəyyən növ hazır məhsulların istehsalının inkişafı üçün yaxşı ilkin şərtlərdir. Bütün dünyanı bürümüş və bir çox ölkələrin iqtisadiyyatında tənəzzül yaradan pandemiya ilə bağlı son hadisələrə baxmayaraq, Azərbaycan davamlı iqtisadi inkişafı qoruyub saxlaya bilmişdir. İstər beynəlxalq təşkilatlarla, istərsə də ayrı-ayrı ölkələrlə dünya iqtisadi əlaqələrinin genişlənməsi nəticəsində yeni texnologiyalardan istifadə yaxşılaşır, istehsal sektoru transformasiya olunur.

XİƏ-lərin inkişafının təmin edilməsi üçün təbii və sənaye ehtiyatlarını elə bölüşdürmək lazımdır ki, onlar əsas ehtiyaclara uyğun olsun. XİƏ-lərin inkişafı strategiyasında ölkədə yüksək rəqabət qabiliyyətli iqtisadiyyatın gücləndirilməsinə böyük diqqət yetirilir [3, s.42].

Bu gün Azərbaycan bir çox beynəlxalq təşkilatlarda təmsil olunur və bir çox qlobal nəqliyyat və kommunikasiya layihələrinin iştirakçısıdır. Qeyri-neft sənayesinin inkişafı ilə yanaşı innovasiyaların təşviqi və genişləndirilməsi ölkənin BƏB-də iştirakının yaxşılaşdırılması üçün münbit zəmin yaradır. Son zamanlar ölkədə sənayeləşmə, texnoparkların yaradılması prosesi gedir. Onların bir çoxu artıq fəaliyyət göstərir və bununla yanaşı, kənd təsərrüfatında da sənaye parkları yaradılır. Regionlarda aqroparkların yaradılması nəticəsində iş yerləri açılır, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı artır.

Beləliklə, Azərbaycanın BƏB-də fəal iştirak etməsinə baxmayaraq, ölkəmizin bu iştirakdan əldə edə biləcəyi faydaların artırılması üçün müxtəlif institusional şərtlər mövcuddur.

Azərbaycanın BƏB-də iştirakının prioritet istiqamətləri kimi aşağıdakılar təklif olunur:

- MDB və Avropa İttifaqı ölkələrinin inteqrasiya birlikləri ilə əməkdaşlığın dərinləşdirilməsi;
- Cənub-Şərqi Asiya, Yaxın Şərq, Afrika və Latın Amerikası ölkələri ilə XİƏ-lərin aktivləşdirilməsi;
- yüksək və perspektivli müqayisəli üstünlüklərə malik (fiskal və maliyyə stimulları, inzibati və informasiya yardımı) sənaye sahələrinə BXİ-lərin cəlb edilməsi siyasətinin təkmilləşdirilməsi;
- kənd təsərrüfatı məhsullarının Avropa İttifaqı bazarına daxil olması üçün standartlaşdırma və sertifikatlaşdırma prosedurlarının tətbiqi;
- müxtəlif elmi-tədqiqat qurumları (tədqiqat mərkəzləri, universitetlər, özəl şirkətlər) arasında əməkdaşlığın stimullaşdırılması, regional klasterlərə və yerli resurslara əsaslanan müvafiq infrastrukturun yaradılması.

Azərbaycanın BƏB-də öz mövqelərini kökündən dəyişdirməyin yeganə yolu var - iqtisadiyyatın xammaldan innovativ modelə dinamik keçidi, innovativ inkişaf tipinin həyata keçirilməsi. Azərbaycanda innovativ texnologiya yönümlü inkişaf növü milli iqtisadiyyatın strukturunun keyfiyyət xüsusiyyətlərini nəzərə almalıdır, ölkə iqtisadiyyatının ənənəvi sahələrinin (neft və qaz, kənd təsərrüfatı) modernləşdirilməsinə arxalanmalıdır. Çünki bu sahələr hələ uzun müddət ÜDM istehsalının və büdcə gəlirlərinin təmin edilməsinin əsas sektorları olaraq qalacaq.

## Ədəbiyyat


1. Караганова, О. С. Международное разделение труда / О. С. Караганова, И. А. Филиппова // Бенефициар. – 2018. – № 31. – С. 7-9
2. Самородова, Е. М. Новейшие тенденции развития международного разделения труда: место России / Е. М. Самородова // Образование и наука без границ: фундаментальные и прикладные исследования. – 2016. – № 3. – С. 278-286
3. Азизов, Р. Н. Стратегия развития внешнеэкономических связей и экономическая безопасность Азербайджана / Р. Н. Азизов // Экономическая безопасность социально-экономических систем: вызовы и возможности: сборник трудов III Международной научно-практической конференции, Белгород, 22 апреля 2021. – С. 41-44


**РЕЗЮМЕ**

**СОВРЕМЕННОЕ СОСТОЯНИЕ УЧАСТИЯ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНОМ РАЗДЕЛЕНИИ ТРУДА**


***Рустамова Г.Р., Рахимли Э. Ш.***



***Ключевые слова:*** *глобализация, международное разделение труда, мировая экономика, импорт, экспорт, международные экономические отношения*

В настоящее время экономические и общественно-политические процессы вызывают важные изменения в мировом хозяйстве, формируют новые, многогранные этапы и пути его развития. В современных условиях эффективность народнохозяйственного комплекса любого государства во многом зависит от степени и характера его включенности в процессы международного разделения труда. В статье рассматривается влияние международного разделения труда на мирохозяйственные связи, определяется положение Азербайджана в системе международного разделения труда, а также предлагается ряд направлений повышения эффективности внешнеэкономической деятельности.

**SUMMARY**
**THE CURRENT SITUATION OF AZERBAIJAN'S PARTICIPATION IN THE INTERNATIONAL DIVISION OF LABOR**
***Rustamova G.R., Rahimli E.S.***

***Key words:*** *globalization, international division of labor, world economy, import, export, international economic relations*
Currently, economic and socio-political processes are causing important changes in the world economy and shaping its new, multifaceted stages and ways of development. In modern conditions, the efficiency of the national economic complex of any state depends greatly on the extent and nature of its inclusion in the processes of international division of labor. The impact of the international division of labor on world economic relations, defines Azerbaijan's position in the international Division of labor system, and proposes a number of directions for increasing the efficiency of foreign economic activity are studied in the article.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İNZİBATİ RAYONLARINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Şabanova Arzu Elxan qızı**
*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*
sh.arzu@yahoo.com

***Açar sözlər:*** *Qarabağ, kənd təsərrüfatı, bərpa işləri, əkin sahələri, işğal*

Sovet hakimiyyəti dağıldığı zaman xarici qüvvələrin vasitəçiliyi ilə ermənilər tərəfindən işğal olunmuş 20% torpaqlarımız, 30 ildən sonra xalqın "Dəmir yumruq" şüarı altında birləşərək bu işğala son qoyması ilə nəticələndi. Əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən bu torpaqlar həmin illər ərzində istismara məruz qalmış, keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə aşağı düşmüş, burada mövcud olan infrastruktur obyektləri məhv edilmişdir. Hal-hazırda həm Respublika, həm də bir xalq olaraq qarşımızda duran ən vacib məsələlərdən biri həmin ərazilərin iqtisadi göstəricilərini nəinki əvvəlki vəziyyətinə qaytarmaq, həmçinin bu göstəriciləri mümkün maksimum həddə çatdırmaqdır.

İşğaldan azad olunmuş torpaqlardan didərgin salınmış əhalinin geri qaytarılması, həmin ərazilərin bərpası, təhlükəsiz və müasir tələblərə cavab verən həyat şəraitinin yaradılması, ümumilikdə, bu rayonların ölkənin iqtisadi inkişafında qabaqcıl yer alması üçün artıq həmin rayonların işğalına son qoyulduğu vaxtdan mühüm işlər görülməyə başlanılmışdır. Bu məqsədlə 24 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi üçün bir sıra dövlət qurumlarının daxil edildiyi Əlaqələndirmə Qərargahı yaradılmışdır [1, s.1]. "Azərtac" informasiya agentliyinin verdiyi məlumata əsasən 30.11.2022-ci il tarixində Qərargahın fəaliyyətinin yekunlarına dair iclası keçirilmiş və bildirilmişdir ki, taxıl əkini üçün artıq on minlərlə hektar ərazi şumlanıb, heyvandarlıq və bitkiçiliyin inkişaf etdirilməsi məqsədilə əsas istiqamətlər təyin edilib.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri, o cümlədən Böyük Qayıdış çərçivəsində aparılan tədbirlər minatəmizləmə işləri ilə müşayiət olunur. İşğaldan azad olunmuş ərazilərdə ötən il ərzində 20 min ha-a yaxın ərazinin minalardan təmizləndiyi qeyd olunub [2]. Görülən işlər sadalanarkən Zəngilan rayonun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin həyata keçirilməsinə başlanılmasını qeyd etmək yerinə düşər. Bu layihə çərçivəsində suvarma sistemlərinin, əkin-biçin, məhsul yığımı işlərinin və digər əmək yönümlü kənd təsərrüfatı fəaliyyətinin avtomatlaşdırılması nəzərdə tutulur. Təməli 2020-ci il noyabrın 16-da qoyulmuş və 2021-ci ilin noyabrın 7-də istifadəyə verilmiş Zəfər yolu (Füzuli-Şuşa avtomobil yolu) regionun nəqliyyat problemlərinin həllində vacib rol oynayır. Bu yol həmçinin ərazidə kənd təsərrüfatının inkişafına logistik baxımdan yardım edəcəkdir.

Ümumi sahəsi 8.99 min $km^2$ olan Qarabağ inzibati rayonu Füzuli, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Xankəndi, Ağcəbədi, Bərdə və Tərtər rayonlarını, sahəsi 7.47 min $km^2$ olan Şərqi Zəngəzur inzibati rayonu isə əsasən dağlıq zonada yerləşən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarını əhatə edir. I Qarabağ müharibəsi illərinə qədər olan dövr ərzindəki statistik göstəricilərə əsasən demək olar ki, bu inzibati rayonlarda kənd təsərrüfatının taxılçılıq, üzümçülük, pambıqçılıq, tərəvəzçilik, bostançılıq, meyvəçilik, xırda

və iribuynuzlu heyvandarlıq sahələri inkişaf etmişdir [10, s.323]. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya mərkəzinin hesablamalarına əsasən Şərqi Zəngəzur inzibati rayonun ümumi əkinə yararlı ərzailərinin təqribən 21.8 min ha sahəsi taxılçılıq, 11.8 min ha yem bitkiləri, 6.5 min ha meyvə və giləmeyvə, 2.6 min ha üzümçülük, 1.1 min ha tərəvəz və bostan bitkiləri, 0.9 min ha tütünçülük üçün əlverişli şəraitə malikdir [6].

Ulu öndər H.Əliyevin uzaqgörənliyi və şəxsi təşəbbüsü ilə dağlıq zonada kənd təsərrüfatı bitkilərinin su təminatının yaxşılaşdırılması üçün hələ 1976-cı ildə tikilmiş [9, s.49] Azərbaycanın hündürlüyünə görə (125 metr) ən yüksək, ümumi su tutumu 560 milyon kubmetr olan su anbarı – Sərsəng su anbarının işğaldan azad olunması ilə Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonları suvarma suyu ilə təmin olunacaq. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması 75 min hektar yeni ərazinin suvarılması deməkdir. “Köndələnçay” su anbarı ilə isə Füzuli rayonun əkin sahələri su ilə təmin olunacaqdır. Qələbəyə qədərki dövrdə ermənilərin hədə-qorxu vasitəsi kimi istifadə etidiyi “Suqovuşan” su anbarı da kənd təsərrüfatı üçün çox mühüm əhəmiyyətə malikdir. Ümumilikdə, azad edilmiş torpaqlarda hal-hazırda 9 su anbarı inşa edilir və ya yararlı vəziyyətə gətirilir [4, s.1]. Həmçinin regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi də ehtimal edilir.

Dövlət Qarabağda şərab zavodunun tikintisi üçün yeni layihə hazırlamışdır və bu istiqamətdə ayrılacaq investisiya qoyuluşu təqribən 12.5 mln. ABŞ dolları dəyərində qiymətləndirilir. Zavodda il ərzində 1.6 mln. şərab şüşələrinin istehsal ediləcəyi gözlənilir. Tikintinin reallaşdırılması üçün investorların cəlb olunması nəzərdə tutulmuşdur. Dövlət dəstəyi olaraq isə üzüm bağlarının salınması üçün güzəştli kreditlər və subsidiyalar veriləcəkdir. Bu üzüm bağlarının salınması Füzuli rayonunun Yuxarı Veysəlli, Qubadlı rayonun Xəndək və Soltanlı, Xocavənd rayonun Tuğ kəndində planlaşdırılır. Həmin ərazilərdə hal-hazırda 225.5 ha istifadəyə yararlı üzüm sahələri vardır və əlavə olaraq təqribən elə bu qədər ərazidə (225 ha) yeni bağların yaradılması nəzərdə tutulur. Layihənin realizə olunması məşhur “Ağdam şərabı” brendinin yenidən daxili və xarici bazara çıxarılmasına yardım edəcəkdir.

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, Qarabağ və Şərqi Zəngəzur inzibati rayonlarında aparılan və həyata keçirilməsi planlaşdırılan quruculuq işləri ölkə miqyasında sosial-iqtisadi inkişafa böyük töhfə verəcəkdir.

## Ədəbiyyat


1. “AR işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması” haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 noyabr 2020-ci il
2. https://azertag.az/xeber/Alaqelendirme_Qerargahinin_oten_bir_illik_fealiyyetinin_yekunlarina_ve_qarsida_duran_vezifelere_hesr_olunmus_iclasi_kechirilib-1939500
3. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 16 noyabr 2022-ci il
4. https://president.az/az/articles/view/55855
5. Qasımlı V.Ə. “Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu”, 2022
6. https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf
7. https://karabakh.center/az
8. “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 04 yanvar 2021-ci il
9. Məmmədov Q. “Heydər Əliyev – Torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır”, 2008
10. Məmmədov N. “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inikişaf (1923-1991)”. 2008, səh. 323-328
11. “İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı torpaqlarından istifadə vəziyyətinin monitorinqi” Qubad İbadoğlunun rəhbərliyi ilə İqtisadi Tədqiqatlar Mərkəzinin ekspert qrupu tərəfindən hazırlanmış hesabat, 2022



**РЕЗЮМЕ**

**НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОМ АДМИНИСТРАТИВНЫХ РАЙОНАХ**

***Шабанова А.Э.***

***Ключевые слова:*** *Карабах, сельское хозяйство, восстановительные работы, посевные площади, оккупация*

Восстановление территориальной целостности страны после Второй Карабахской войны открыло для республики новую историческую страницу. Эта победа требует проведения значительных восстановительных работ в освобожденных

от оккупации регионах, осуществления необходимых мер по превращению этих территорий в движущую силу в развитии экономики Азербайджана. Для этого одной из главных задач является переоценка земельных ресурсов Карабахского и Восточно-Зангезурского административных районов.


**SUMMARY**

**DEVELOPMENT DIRECTIONS OF AGRICULTURE IN KARABAKH AND EASTERN ZANGAZUR ADMINISTRATIVE REGIONS**

***Shabanova A.E.***

***Key words:*** *Karabakh, agriculture, restoration work, crop area, occupation*

The restoration of the country's territorial integrity after the second Karabakh War opened a new historical page for the Republic. This proud victory requires the implementation of significant reconstruction works in the liberated regions and the implementation of necessary measures to turn these territories into a driving force in the development of the Azerbaijani economy. For this purpose, revaluation of land resources of Karabakh and East Zangazur administrative districts, assessment of the direction in which agricultural areas will be developed are one of the main tasks.


# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ÖZƏLLƏŞDİRMƏ PROSESİNİN YENİ MƏRHƏLƏSİ


**Şirinova Rəsmiyyə Varış qızı**

*İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan*

rasmiyyashirinova@gmail.com



***Açar sözlər:*** *özəlləşdirmə, rəqabət, səmərəlilik, sahibkar, ərazi, planlaşdırma*


Azərbaycanın azad edilmiş ərazilərində yeni özəlləşdirmənin həyata keçirilməsi bir neçə əsas amilin diqqətlə planlaşdırılmasını və nəzərə alınmasını tələb edəcək:

* birincisi, investisiya və iqtisadi artımın imkanlarını müəyyənləşdirmək üçün bölgədəki mövcud iqtisadi mənzərəni və infrastrukturu hərtərəfli qiymətləndirmək lazımdır. Bu məlumatlar özəlləşdirmədən ən çox faydalanacaq iqtisadi sektorları prioritetləşdirmək üçün istifadə edilə bilər;

* ikincisi, özəlləşdirmə prosesinin idarə olunması üçün şəffaf və ədalətli normativ-hüquqi baza yaradılmalıdır. Bu çərçivədə dövlət aktivlərinin satılması üçün aydın qaydalar və prosedurlar daxil edilməli, bütün iddiaçılara ədalətli münasibət göstərilməlidir. Bundan əlavə, özəlləşdirmənin iş yerlərinin itirilməsi və ya xidmətlərə çıxışın azaldılması kimi mənfi sosial təsirlərini azaltmaq üçün tədbirlər görülməlidir;

* üçüncüsü, hökumətin özəlləşdirmə prosesi zamanı texniki və maliyyə yardımı göstərmək üçün Dünya Bankı və ya Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq etməsi lazımdır. Bu təşkilatlar tənzimləmə islahatı və rəqabətli təklif prosesləri kimi sahələrdə mütəxəssis bilik və dəstək verə bilər;

* dördüncüsü, Azərbaycanın azad edilmiş ərazilərində yeni özəlləşdirmənin həyata keçirilməsində yerli əhalinin, digər maraqlı tərəflərin münasibətlərini və fikirlərini nəzərə almaq vacibdir. Açıq və şəffaf ünsiyyət hər hansı bir problemi həll etmək səyləri, xalqın inamını və prosesə dəstəyini artırmağa da kömək edə bilər;

Rəqabətqabiliyyətlilik və özəlləşdirmə arasındakı əlaqə mürəkkəb və çoxşaxəlidir. Özəlləşdirmə dövlətin iqtisadiyyatdakı rolunu azaltmaq və bazar iştirakçılarını təşviq etməklə rəqabətqabiliyyətini artırmaq üçün bir vasitə kimi qəbul edilir. Xüsusi mülkiyyət və bazar rəqabətini tətbiq etməklə özəlləşdirmə şirkətlərin səmərəliliyini və məhsuldarlığını artırmağa, istehlakçı qiymətlərini azaltmağa və yeniliyi təşviq etməyə kömək edir.

Bununla birlikdə, rəqabətqabiliyyəti ilə özəlləşdirmə arasındakı əlaqə həmişə birmənalı deyil. Özəlləşdirmə, bir neçə dominant şirkət ortaya çıxarsa və daha çox bazar payı qazanarsa, rəqabətin azalmasına və bazar konsentrasiyasına səbəb ola bilər. Bu, istehlakçılar üçün qiymətlərin artmasına, keyfiyyətin və yeniliyin azalmasına gətirib çıxarda bilər ki, nəticədə bazarın inhisarlaşması baş verər. Bundan başqa, özəlləşdirmə sosial və siyasi nəticələrlə də nəticələnə bilər, çünki mülkiyyətin və nəzarətin dövlətdən özəl qurumlara verilməsi cəmiyyətdə iqtisadi resursların və iqtisadi gücün qeyri-proporsional paylanmasına təsir göstərə bilər. Məsələn, bəziləri özəlləşdirmənin gəlir bərabərsizliyinin artmasına səbəb ola biləcəyini iddia edirlər, çünki sahibkarlar öz maraqlarını işçilərin və istehlakçıların maraqlarından adətən üstün tuturlar [3].

Sonda onu da qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətlilik ilə yeni özəlləşdirmə arasındakı əlaqə mürəkkəbdir və hər bir konkret işin xüsusiyyətlərindən asılı olaraq həm müsbət, həm də mənfi nəticələrə

səbəb ola bilər. Özəlləşdirmə ilə bağlı kompromisləri diqqətlə nəzərdən keçirmək və rəqabət qabiliyyətinin artırılmasının faydalarının potensial çatışmazlıqlarla tarazlaşdırılmasını təmin etmək olduqca vacibdir.

1. Maliyyə gəliri: özəlləşdirmə vergi gəlirlərinin artması və ya aktivlərin mükafatla satılması kimi dövlətə maliyyə gəliri gətirməlidir. Bəli, dövlət üçün maliyyə gəlirləri özəlləşdirmə prosesinin uğurunun vacib göstəricisi ola bilər. Dövlət aktivlərinin əlavə ödənişlə satılması və ya özəlləşdirilmiş müəssisələrdən vergi gəlirlərinin artması dövlət borcunun azaldılmasına, digər vacib icma layihələri və xidmətlərinin maliyyələşdirilməsinə kömək edə bilər [4]. Bununla birlikdə qeyd etmək vacibdir ki, maliyyə gəlirləri özəlləşdirmənin yeganə məqsədi olmamalıdır. Şəffaflıq, ədalət, rəqabət və səmərəlilik kimi digər amillər də nəzərə alınmalıdır.

2. Sosial nəticələr: özəlləşdirmə cəmiyyətə həm müsbət, həm də mənfi təsir göstərə bilər, buna görə də prosesin uğurunu qiymətləndirərkən iş yerlərinin yaradılması, xidmətlərə çıxış və gəlir bölgüsü kimi amilləri nəzərə almaq vacibdir. Özəlləşdirmə prosesini qiymətləndirərkən həm dövlət üçün maliyyə gəlirləri, həm də cəmiyyət üçün sosial nəticələr nəzərə alınmalıdır. Bundan əlavə, prosesin bütün maraqlı tərəflər üçün faydalı olmasını təmin etmək üçün iş yerlərinin yaradılması, xidmətlərə çıxış və gəlir bölgüsü kimi amilləri nəzərə almaq vacibdir.

3. Tənzimləmə bazası: özəlləşdirmənin uzunmüddətli uğurunu təmin etmək və istehlakçıların və işçilərin hüquqlarını qorumaq üçün güclü bir tənzimləmə bazası lazımdır. Yaxşı düşünülmüş və düzgün tətbiq olunan tənzimləmə bazası özəlləşdirmə prosesinin şəffaflığını, ədalətliliyini təmin etməyə, rəqabəti təşviq etməyə, istehlakçı və işçi hüquqlarını qorumağa kömək edə bilər. O, həmçinin cəmiyyətə mənfi təsirləri azaltmaqla yanaşı, səmərəliliyin artırılması və iqtisadi artım kimi özəlləşdirmənin faydalarının həyata keçirilməsinə kömək edə bilər. Tənzimləyici çərçivə, rəqabəti təşviq etmək və özəl sektorun böyüməsini, ictimai maraqları qorumaq, əsas xidmətlərin ədalətli və əlçatan bir şəkildə göstərilməsini təmin etmək ehtiyacı ilə tarazlaşdırmaq üçün hazırlanmalıdır.

4. İctimai rəy: özəlləşdirmə prosesinin ictimai rəyi və dəstəyi də vacib bir göstəricidir. İctimaiyyəti qərar qəbul etmə prosesinə cəlb etmək və özəlləşdirmənin üstünlüklərini və çatışmazlıqlarını şəffaf, aydın şəkildə çatdırmaq vacibdir. Bu, inam yaratmağa və prosesə ictimai dəstəyi artırmağa kömək edə bilər.

Bu meyarlar özəlləşdirmə prosesinin gedişatını qiymətləndirmək üçün ümumi bir mexanizmi təmin edir.

Ölkədəki mövcud iqtisadi vəziyyət, siyasi və normativ-hüquqi mühit, habelə özəlləşdirmə prosesinin məqsəd və vəzifələri barədə əlavə təhlil və qiymətləndirmə olmadan Azərbaycanda yeni özəlləşdirmə ilə əhatə olunmalı olan iqtisadiyyatın yeni sahələrini müəyyən etmək çətindir. İqtisadiyyatın hansı sahələrinin özəlləşdirmə prosesinə daxil edilməli olduğunu müəyyənləşdirərkən dövlət müəssisələrinin mövcudluğu, müəyyən sahələrdə rəqabət səviyyəsi və özəl sektorun, investisiya qoyuluşunun artması potensialı kimi amillər nəzərə alınmalıdır. Bundan əlavə, özəlləşdirmənin potensial sosial və iqtisadi nəticələrini nəzərə almaq, prosesin şəffaf, ədalətli və ölkənin ümumi inkişaf məqsədlərinə uyğun olmasını təmin etmək vacibdir.

## Ədəbiyyat


1. "The Blue Ocean strategy: creating an undeniable market space and making competition irrelevant" U. Chan Kim and Rene Moborn (2005)
2. "Lean Startup: how modern entrepreneurs use continuous innovation to create well-established successful businesses" Eric Rice (2011)
3. Özəlləşdirmə: dövlət aktivlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi vasitəsi kimi. 2017
4. http://anl.az/down/meqale/azerbaycan/2011/avqust/194811.htm


**РЕЗЮМЕ**

**НОВЫЙ ЭТАП ПРОЦЕССА ПРИВАТИЗАЦИИ НА ТЕРРИТОРИЯХ ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ**


***Ширинова Р.В.***



***Ключевое слово:*** *приватизация, конкуренция, эффективность, предприниматель, территория, планирование*



В представленной статье подчеркивается, что процесс приватизации может оказать положительное влияние на конкурентоспособность экономики за счет повышения ее эффективности. Необходимо расставить приоритеты и извлечь выгоду из реализации и планирования новой приватизации на освобожденных территориях. При проведении новой приватизации на освобожденных территориях Азербайджана важно учитывать настроения и мнения местного населения и других заинтересованных сторон. Открытое и прозрачное общение также может помочь укрепить общественное доверие и поддержать любые усилия по решению проблем.

**SUMMARY**
**THE NEW STAGE OF THE PRIVATIZATION PROCESS IN THE TERRITORIES FREED FROM OCCUPATION**
***Shirinova R.V.***

***Key words:*** *privatization, competition, efficiency, entrepreneur, territory, planning*

The presented article emphasizes that the privatization process can have a positive effect on the competitiveness of the economy by increasing its efficiency. It is necessary to prioritize and benefit from the implementation and planning of new privatization in the liberated territories. In the implementation of new privatization in the liberated territories of Azerbaijan, it is important to take into account the attitudes and opinions of the local population and other interested parties. Open and transparent communication can also help build public confidence and support for any problem-solving efforts.

# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNDƏ İXTİSASLAŞMASININ STRATEJİ SƏMTLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**Şirvani Könül Vaqif qızı**
*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan*
*konul.sirvani.75@mail.ru*

***Açar sözlər:*** *beynəlxalq əmək bölgüsü, beynəlxalq ixtisaslaşma, kooperasiyalaşma, dünya təsərrüfatı, milli iqtisadiyyat*

BƏB - təbii amillərin təsiri ilə formalaşan ölkələrin istehsal ixtisaslaşmasıdır [1, s.6]. BƏB, ölkədə mal və xidmətlərin yaradılması məqsədilə lazım olan resursların mövcudluğu ilə əlaqədar baş verir, hazır məhsulların və yarımfabrikatların ölkələr arasında aktiv iqtisadi mübadiləsinə əsaslanır. Ölkələr arasında qarşılıqlı fəaliyyət zərurəti ona görə yaranır ki, mallara daxili tələbat onu ödəmək üçün real imkanlarla üst-üstə düşmür. Yəni ölkədə əhalinin müəyyən məhsul və ya xidmətə olan tələbatını ödəyə biləcək kifayət qədər zəruri resurslar yoxdur.

BƏB-in əsas xüsusiyyətləri aşağıdakılardır:

• ölkənin təbii iqtisadi, və sosial şəraiti ilə müəyyənləşdirilən spesifik tarixi xarakteri;

• şüurlu xarakteri, bu, iqtisadi subyektlərin və milli dövlətlərin maraqlarını əks etdirən rasional qərarlarının nəticəsidir [2, s.58].

İstehsalda beynəlxalq ixtisaslaşma və kooperasiya kapitalın intensivliyini azaldır və yeni əmtəələrin istehsal müddətini qısaldır ki, bu proseslər BƏB-in mühüm xüsusiyyətlərindəndir.

BƏB-in indiki mərhələsinin özəlliyi bütün ölkələrin (qabaqcıl sənayeləşmiş və "yetişən" ölkələr) öz inkişafları zamanı maksimum zəmin əsasında çalışmasından ibarətdir. BƏB ölkələrin onlara böyük üstünlüklər (mütləq, müqayisəli, rəqabətqabiliyyətli və s.) gətirən əmtəə və xidmətlərin istehsalı və beynəlxalq bazarlarda kommersiyalaşdırılması üzrə mürəkkəb ixtisaslaşma prosesindən ibarətdir. BƏB mexanizmi bütün milli iqtisadiyyatlar üçün ümumidir, çünki heç bir bütün ehtiyac və tələbatlarını ödəyə biləcək bütün malları istehsal edə bilməzlər. Bu şəraitdə milli iqtisadiyyatlar açıq sistemlər kimi təqdim olunur ki, onların mövcudluğu və inkişafı xarici dünya ilə daimi mübadilə ilə bağlıdır ki, bu da dövlətlər arasında iqtisadi asılılıqlar formasını alır.

Ümumiyyətlə, BƏB prosesi ictimai məhsuldar qüvvələrin və bütövlükdə dünya təsərrüfat münasibətləri sisteminin müasirləşməsi funksiyasıdır. Onun köməyi ilə müxtəlif ölkələrdə baş verən istehsal proseslərinin qarşılıqlı əlaqəsini və korrelyasiyasını gücləndirən obyektiv baza yaradılır. BƏB-in nəticəsi həmişə müsbət olmaya bilər, bəzi hallarda bu, iqtisadiyyat və ya cəmiyyətdə qeyri-sabitlik üçün problemli olur (Cədvəl 1).

***Cədvəl.***

**BƏB-in üstünlükləri və çatışmazlıqları**

| Üstünlüklər | Mənfi cəhətlər |
|---|---|
| 1. Xərcləri azaltmaqla təşkilatın və cəmiyyətin tələbatının ödənilmə dərəcəsinin yüksəldilməsi | 1. Monotonluq |
| 2. İri istehsalın formalaşması imkanlarının və realizminin artırılması | 2. İstehsalçıların qarşılıqlı asılılığı |
| 3. Dünya iqtisadiyyatlarının tarazlı inkişafının təmin edilməsi | 3. Qlobal bazarda rəqabət qabiliyyətinin itirilməsi zamanı gözlənilməz halların baş verməsi |

***Cədvəl.(davamı)***

| | |
|---|---|
| 4. Məhsulun keyfiyyətinin və istehsalın texniki səviyyəsinin yüksəldilməsi imkanlarının artırılması | |
| 5. Maliyyə alətlərinin dünya iqtisadiyyatlarının inkişafı üçün stimullar şəklində istifadəsi | |

***Mənbə:*** *müəllif tərəfindən tərtib edilib*

BƏB aşağıdakıları əvvəlcədən müəyyənləşdirir:

- dünyanın müxtəlif ölkələrinin əmtəə və xidmətlərinin mübadiləsi;
- dövlətlər arasında kapitalın hərəkəti;
- əmək resurslarının likvidliyi;
- beynəlxalq iqtisadi inteqrasiya.

Təzahür formalarına görə BƏB qlobal ola bilər, yəni ölkələrin istehsal ixtisaslaşmasına əsaslanır. Bir qayda olaraq, bunlara istehsal amillərinin və resursların məcmusu üçün optimal olan faydalar yaradan sahələr daxildir. Əmək bölgüsü özəl ola bilər, yəni ölkə müəyyən məhsul növünün istehsalı üzrə ixtisaslaşa bilər. Mexanizmin ayrı-ayrı hissələrinin yaradılmasında özünü göstərən texnoloji ixtisaslaşma da mövcuddur. BƏB dünya iqtisadi münasibətlərinin bir hissəsidir ki, bu da ticarət, əmək miqrasiyası, kapitalın hərəkəti, maliyyə qarşılıqlı əlaqəsi sahəsindəki münasibətləri əhatə edir. İstənilən ölkə BƏB-ə maraq göstərir, çünki o, ümumi əmək məhsuldarlığını artırır, bu isə gəlirin artması deməkdir.

BƏB-in iki əsas formasını ayırmaq olar: beynəlxalq ixtisaslaşma və kooperasiyalaşma. Bunların hər birinin ayrılıqda izahını verək. Beynəlxalq ixtisaslaşması istehsal və ərazi kimi sahələrdə həyata keçirilir. İstehsal istiqaməti ixtisaslaşmaya bölünür: sahələrarası, sahədaxili, ayrı-ayrı müəssisələr. Onlar milli iqtisadiyyatların inkişafına mühüm təsir göstərir və əsasən ixrac üçün nəzərdə tutulan beynəlxalq ixtisaslaşma sahələrinin yaradılmasına kömək edir.

Beynəlxalq ixtisaslaşma sahəsi dedikdə, ölkənin beynəlxalq ixtisaslaşma xarakterini və səviyyəsini müəyyənləşdirən sənaye və ya sahələr qrupunu başa düşmək olur. Beynəlxalq ixtisaslaşma təkcə öz ehtiyaclarını deyil, həm də maraqlı ölkələrin ehtiyaclarını ödəmək üçün bir və ya bir neçə ölkədə homogen məhsulların istehsalının cəmləşməsidir.

BƏB-in ikinci forması beynəlxalq kooperasiyadır ki, bu da məhsulların texniki cəhətdən təkmilləşdirilməsi üzrə vahid istehsal proqramının reallaşdırılması maraqları naminə iki və ya daha çox ölkənin istehsal strukturlarının birləşdirilməsi deməkdir. Beynəlxalq əməkdaşlığın əsas xüsusiyyətləri bunlardır:

- əməkdaşlıq şərtləri haqqında ölkələr arasında müqavilə sazişi bağlanır;
- istehsal fəaliyyəti əlaqələndirilir;
- əməkdaşlığın subyektləri iştirakçı ölkələr, sənaye müəssisələri, firmalardır [3, s. 185].

Beynəlxalq kooperasiyanın mühüm xüsusiyyəti müqavilə xarakteridir. Bu zaman maraqlı subyektlər, məsələn, müxtəlif ölkələrin müəssisə və firmaları müəyyən məhsul növlərinin istehsalı üzrə əməkdaşlıq şərtlərini razılaşdırır, müqavilə əsasında istənilən texnoloji prosesləri, məhsul növlərini əsas məhsul kimi müəyyən etməklə istehsal ixtisasını müəyyən edir. Beynəlxalq kooperasiya uzunmüddətlidir və bu onu beynəlxalq ticarətdən fərqləndirir [4, s.111].

Beynəlxalq ixtisaslaşma və kooperasiya təkamül proseslərində BƏB-in inkişafının əsas istiqamətlərinə çevrilmişdir. Dünya inteqrasiya proseslərinin yaranması ilə BƏB inkişaf edir. BƏB, iqtisadi proseslərə təsirinin çoxşaxəli olması ilə əmək bölgüsü qanununun kəmiyyət ifadəsi bir sıra göstəricilərlə əlaqələndirilir: əmək bölgüsünün səmərəliliyi, ixtisaslaşma səviyyəsi, kapital qoyuluşlarının geri qaytarılma müddəti və s.

İstənilən dövlətin dünya iqtisadiyyatında, eləcə də beynəlxalq ixtisaslaşma və kooperasiyada mövqeyi bir sıra səbəblərdən asılıdır, bunlara aşağıdakılar daxildir:

- daxili iqtisadiyyatın hərəkət səviyyəsi və mexanizmi;
- milli iqtisadiyyatın açıqlığı və BƏB-ə cəlb olunma dərəcəsi;
- XİƏ-lərin müasirləşmə və inkişaf səviyyəsi;
- milli iqtisadiyyatın beynəlxalq iqtisadi həyatın şərtlərinə uyğunlaşmaq və onlara arzu olunan istiqamətdə təsir göstərmək qabiliyyəti.

BƏB-in səbəbləri iqlim şəraiti və nisbətən ucuz istehsal amillərinin olmasıdır. Odur ki, əmək bölgüsü çox vaxt ölkənin istehsal ixtisaslaşması ilə əlaqələndirilir.

BƏB-ə aşağıdakı kimi amillər təsir göstərir:

1. ETT-nin iqtisadiyyata gətirdiyi dəyişikliklər. Ölkə ETT-nin ən son nailiyyətlərini tətbiq etmək məqsədilə texniki, texnoloji imkanlara malik olmalıdır. Müvafiq ixtisas səviyyəsinə malik mütəxəssislərin olması da vacibdir;

2. Ölkənin aid olduğu kateqoriya. Məsələn, inkişaf etməkdə olan ölkələrin (İEOÖ) ucuz əmək resursları, inkişaf etmiş ölkələrin (İEÖ) isə sərvət yaratmaq üçün lazım olan kapitalı vardır;

3. Dünya bazarında tələb təklifi müəyyən edir, yəni dünya birliyinin dəyişən ehtiyacları beynəlxalq sənaye əməkdaşlığının yeni formalarının formalaşması üçün stimul olur;

4. Ekoloji problemlər təbii ehtiyatların mühafizəsi sahəsində ölkələrin qarşılıqlı fəaliyyətini tələb edir.

Ölkədə BƏB-in inkişaf dərəcəsi ümumi amillərdən (təbii-iqlim, resurs, tarixi-texnoloji, sosial-iqtisadi və s.) əlavə olaraq aşağıdakılardan da asılıdır:

- təbii ehtiyatların mövcudluğunda müqayisəli üstünlüklərdən;
- ETT-dən və ölkənin elm, texniki təminat, sənaye, kənd təsərrüfatı və s. sahələrinə inkişaf və investisiya qoyuluşunun səviyyəsindən;
- idarəetmə növü və XİƏ-lərin xarakterindən;
- regional iqtisadi inteqrasiya proseslərinin inkişaf etmə dərəcəsindən;
- əhalinin təhsil səviyyəsindən, onun mədəniyyətindən və millətin ümumi mentalitetindən;
- hökumətin siyasətindən və dövlətin rolundan. Bu amil hər bir ölkənin BƏB-ində əsasdır, çünki onun vətəndaşlarının həyat səviyyəsi hökumətin təklif etdiyi tədbirlərdən asılıdır [5, s.691].

Beləliklə, ölkənin BƏB üzrə ixtisaslaşması həm daxili resurslardan və imkanlardan, müəyyən növ malların istehsalına hazırlığından, həm də bu əmtəəyə qlobal ehtiyacdan asılıdır. Dünya iqtisadi sistemi ölkələr arasında yaranan qarşılıqlı əlaqənin nəticəsi olmuşdur. Deyə bilərik ki, BƏB vahid iqtisadi məkanın formalaşmasına təsir göstərmişdir. İstehsalın beynəlmiləlləşməsi, ölkələr arasında yaranan qarşılıqlı əlaqənin dərinləşməsi prosesi davam edir.

İstehsal sahəsində beynəlxalq kooperasiya getdikcə daha fəal inkişaf edir, əmək kooperasiyasında və qarşılıqlı əlaqənin digər formalarında özünü göstərir.

BƏB resursların ölkələr arasında bölüşdürülməsinin tənzimləyicisi kimi çıxış edir. O, qlobal iqtisadiyyatın miqyasında regional və sektorial nisbətlərin formalaşmasına kömək edir. BƏB-də iştirakın iqtisadi səmərəsi ondan ibarətdir ki, ölkə dünya bazarına qlobal qiymətlərdən aşağı qiymətlərlə məhsul çıxara bilər və istehsalı çox baha olan malları idxal edə bilər. Burada xərclərin miqdarı üç əsas istehsal amili - əmək, torpaq, kapital vasitəsilə qiymətləndirilir.

Dünya iqtisadiyyatı inteqrasiya və beynəlmiləlləşmə prosesləri ilə xarakterizə olunur. Beynəlmiləlləşmə prosesi əsasən BƏB-ə əsaslanır. BƏB ölkə daxilində baş verən ictimai əmək bölgüsünün bilavasitə davamıdır, istehsalçıların kooperasiyası ilə ayrı-ayrı ölkələrin, birliklərin, müəssisələrin ayrı-ayrı məhsulların və ya onların hissələrinin istehsalında son məhsulların birgə əldə edilməsi sahəsində bir-biri ilə əlaqəli ixtisaslaşması prosesidir.

BƏB iki istiqamətdə inkişaf edir, bunlar ərazi və sənaye istiqamətləridir. Öz növbəsində istehsal istiqaməti şaquli və üfüqi bölünür. Birincisi, müxtəlif istehsalçılar birxətli texnoloji zəncir təşkil etdikdə və ardıcıl istehsal əməliyyatlarını yerinə yetirdikdə baş verir ki, bu müddət ərzində hər bir əvvəlki mərhələnin məhsulu tamamlanmamış istehsalatdır və hər bir sonrakı mərhələ üçün əmək predmetinə çevrilir. Üfüqi əmək bölgüsü ayrı-ayrı istehsalçılar tərəfindən komponentlərin istehsalını nəzərdə tutur, ondan sonra texniki və ya texnoloji cəhətdən mürəkkəb məhsul yığılır. Artıq həm üfüqi, həm də şaquli BƏB beynəlxalq səviyyədə ümumi (böyük sənaye qrupları arasında), xüsusi (sənaye qruplarının alt sektorları arasında) və vahid (sənayedaxili bölmə) formalara bölünür.

Ərazi aspektində beynəlxalq ixtisaslaşma ayrı-ayrı ölkələrin, ölkə qruplarının və regionların ayrı-ayrı məhsulların və onların hissələrinin dünya bazarı üçün istehsalında ixtisaslaşması deməkdir. Beynəlxalq ixtisaslaşmanı heç vaxt bitməyən proses hesab etmək olar, lakin zaman keçdikcə onun dəyişən formalar meydana çıxır. Cəmiyyətin və bütövlükdə iqtisadiyyatın inkişafı zamanı aşağıdakı ixtisaslaşma növləri ayrılır:

- əşya üzrə - hazır məhsul istehsalı üzrə ixtisaslaşma;
- detal üzrə - hissələrin və birləşmələrin istehsalı üzrə ixtisaslaşma;
- texnoloji - texnoloji əməliyyatlar üzrə ixtisaslaşma.

İstehsalda beynəlxalq kooperasiya prosesinin təsiri zamanı təfərrüatlı və texnoloji ixtisasa malik tam hüquqlu sənaye sahələri və yarımsahələr formalaşır. Ölkənin oriyentasiyalarının qorunub saxlanması inkişaf etməmiş ölkələrin üstünlüyü hesab edilir. Bununla yanaşı, elmi-texniki bazanın inkişafında, elmi nailiyyətlərin cəmiyyətdə istifadəsində nəzərəçarpacaq ləngimə müşahidə olunur.

Beynəlxalq ixtisaslaşmanın müəyyənedici amilləri bunlardır: iqtisadi, təbii-ekoloji, texniki və sosial-siyasi və s. Müxtəlif əsas məhsullar (taxıl, çay, qəhvə, kakao, sitrus meyvələri, yağ, müxtəlif minerallar) üzrə beynəlxalq ixtisaslaşma təbii və iqlim amillərindən asılıdır. İstehsal malları üzrə ixtisaslaşma iqtisadi, texniki və sosial amillərə əsaslanır.

Beynəlxalq bazarın müasir xüsusiyyətləri və qloballaşma prosesləri fonunda BƏB-in sürətli inkişafı bir çox problemlərin meydana çıxmasına gətirib çıxarmışdır. BƏB-in təsir etdiyi mühüm müasir problemlərdən biri sənayeləşmiş ölkələrlə İEOÖ-lər arasında fərqlərin dərinləşməsidir, çünki birincilər öz növbəsində BƏB-də daha çox iştirak edirlər, ikincilər isə əmək bölgüsünün subyekti olmaqdan daha çox obyektə çevrilmək riski ilə üzləşirlər. Bu, BƏB prosesindən əldə edilən mənfəətin ədalətsiz bölüşdürülməsi ilə müşayiət olunur ki, bu da müxtəlif səviyyələrdə münaqişələr təhlükəsinə səbəb olur və gəlirlərin bərabərləşdirilməsi yox, əksinə onların qütbləşməsi yaranır. Bu prosesdə sürətlə inkişaf edən ölkələr zəngin dövlətlər dairəsinə daxil olur, yoxsul ölkələr isə getdikcə onlardan geri qalır.

Ümumiyyətlə, BƏB qarşılıqlı faydalı əməkdaşlığı nəzərdə tutan məhsuldar qüvvələri və ölkələr arasındakı mövcud olan iqtisadi əlaqələri inkişaf etdirməklə yanaşı, istehsalın beynəlmiləlləşməsini də genişləndirir, kapitalın hərəkətinə, ölkələr arasında mal və xidmətlərin mübadiləsinə, beynəlxalq miqrasiyaya və əmək inteqrasiyasına səbəb olur. Bu onun göstəricisidir ki, iqtisadi qloballaşma prosesi BƏB-in keyfiyyətcə yeni səviyyəsinə əsaslanır. Siyasi, sosial və iqtisadi sahədə baş verən son dəyişikliklər təkcə ümumən dünya iqtisadiyyatına deyil, xüsusən BƏB-ə ciddi təsir göstərmişdir. Odur ki, BƏB-də mövcud tendensiyalara aşağıdakılar daxildir:

1) İndi əksər İEÖ-lər öz inkişaflarını torpaqlarının zəngin olduğu təbii sərvətlərə deyil, ölkənin özünün yaratdığı sərvətlərə yönəldirlər (Məsələn, neft və qaz yataqları olmayan Yaponiyanın inkişafı robot texnikası ilə idarə olunur və bir çox ölkələrin fikrincə, dünya ölkələrinin gələcəyi ondan asılıdır).

2) Hazırda bütün dünya iqtisadiyyatı transmillliləşir, yəni ölkənin istehlakı, istehsalı, gəliri, idxalı və ixracı transmilli şirkətlər tərəfindən müəyyənləşdirilir.

3) Üçüncüsü, milli iqtisadiyyatların qarşılıqlı əlaqəsi (ölkələr arasında ixrac-idxal) istehsal prosesinin özündə milli iqtisadiyyatların sıx birləşməsinə səbəb olan müasir tendensiyalarla əvəz olunur.

4) Beynəlxalq ixtisaslaşma və kooperasiya emal sənayesinə, daha az dərəcədə - hasilat sənayesinə və kənd təsərrüfatına böyük rol verir ki, bu da iqtisadi sistemin sənayesizləşməsinə gətirib çıxarır.

5) Müasir BƏB-in əsas elementi həm ənənəvi (beynəlxalq nəqliyyat, rabitə, turizm və s.), həm də yeni (maliyyə, bank, sığorta, reklam və digər biznes xidmətləri) xidmət sektoruna çevrilir.

6) BƏB-in məzmununda üç qrup ölkələr arasında aşağıdakı kimi dəyişiklik baş verir:

- iqtisadi cəhətdən İEÖ-lər elm tutumlu məhsulların (o cümlədən silah və biznes xidmətlərinin göstərilməsi) istehsalında ixtisaslaşır və ən böyük ixracatçılar kimi çıxış edir;
- İEOÖ-lər daha çox xammal, enerji daşıyıcıları və s. təmin edir, həmçinin yüngül sənaye məhsulları (toxuculuq, geyim, ayaqqabı və s.) hesabına ixracını diversifikasiya edir,
- keçid iqtisadiyyatlı ölkələr resurs və əmək tutumlu sahələr üzrə ixtisaslaşırlar (neft-qaz, metallurgiya, kimya və yüngül sənaye). Beləliklə, qloballaşma şəraitində fikir mübadiləsini, təcrübə mübadiləsini, qarşılıqlı yardımı nəzərdə tutan, bütün ölkələr üçün faydalı olan BƏB-in, kooperasiya və istehsalın ixtisaslaşmasının rolu artmışdır.

BƏB-in nəticələrini təkcə ölkələr və regionlar deyil, ayrı-ayrı sənaye sahələri də hiss edə bilər. BƏB-də transmilli korporasiyalar (TMK) mühüm rol oynayır. Hazırda TMK-ların fəaliyyətinin mənfi nəticələrinə rast gəlmək olar. Bu, təbiətə və sərvətlərə israfçı münasibətdə, ucuz işçi qüvvəsinin istismarında, təbii mühitin çirkləndirilməsində özünü göstərir. Həmçinin, TMK-lar çox vaxt öz maraqlarını dövlət maraqlarından üstün tutur, nəticədə milli dövlətlərin rolu zəifləyir, bəzi funksiyalar müxtəlif dövlətlərüstü təşkilat və birliklərə verilir. TMK-lar dövlətlərin milli yönümlü iqtisadi siyasət yeritmək imkanlarını məhdudlaşdırır. Beləliklə, ayrı-ayrı ölkələrin iqtisadiyyatı üzərində nəzarətin suveren hökumətlərdən digər əllərə, o cümlədən ən güclü dövlətlərə, transmilli və ya qlobal korporasiyalara və beynəlxalq təşkilatlara keçməsi təhlükəsi artır. Qloballaşma və BƏB kimi proseslər hökumətlərin manevr imkanlarını azaldır.

Beləliklə, BƏB-in nəzarətsiz inkişafı bu proseslə bağlı mərkəzdənqaçma qüvvələrinin məhvinə zərərli təsir göstərə bilər ki, bu da ölkə daxilində ənənəvi əlaqələrin qırılmasına, rəqabət qabiliyyətli olmayan sənaye sahələrinin deqradasiyasına, iqtisadi vəziyyətin kəskinləşməsinə səbəb ola bilər.

Hazırda beynəlxalq transmilli korporasiyalar (TMK) BİM sahəsində əsas elementlərdən biridir. Onların intensiv fəaliyyəti, ilk növbədə, BİM-in beynəlmiləlləşməsini təmin etmək, daha doğrusu, əsas şirkətin müxtəlif ölkələrdə yerləşən filiallarını birləşdirən TMK-ların köməyi ilə beynəlxalq bazar münasibətlərini şirkətdaxili münasibətlərə çevirmək istəyi ilə bağlıdır. Transmilli korporasiyalar öz fəaliyyətlərini dünyanın bir çox ölkələrində xarici filialları vasitəsilə reallaşdırırlar. Xarici filiallar xarici

bazarlara çıxışın təmin edilməsində, istehsal xərclərinin azaldılmasında, mənfəətin artırılmasında mühüm rol oynayır ki, bu da transmilli korporasiyaların maliyyə sabitliyini yaradır.

TMK-ların fəaliyyəti böyük ölçüdə təkcə ayrı-ayrı regionların və ya ölkələrin rəqabət qabiliyyətini deyil, həm də müasir və gələcək dünya iqtisadiyyatının ümumi konturlarını müəyyənləşdirir. Beynəlmiləlləşmə dünya iqtisadiyyatının bütün tərkib hissələrinin qarşılıqlı əlaqələrinin möhkəmlənməsinə gətirib çıxarır, iqtisadi inkişafın ümumi qloballaşmasına şərait yaradır. Əslində, TMK-lar bu prosesin əsas maddi daşıyıcısı və hərəkətverici qüvvəsidir. Nəzarət olunan müəssisələr arasında vahid əmək bölgüsü əsasında sıx əməkdaşlıq əlaqələri formalaşdıran TMK-lar qlobal iqtisadiyyatın bütövlüyü və qarşılıqlı asılılığı üçün möhkəm zəmin yaradır. Hazırda TMK-lar BİM sahəsində əsas elementlərdən biridir. Onların intensiv fəaliyyəti, ilk növbədə, BİM-in beynəlmiləlləşməsini təmin etmək, daha doğrusu, əsas şirkətin müxtəlif ölkələrdə yerləşən filiallarını birləşdirən TMK-ların köməyi ilə beynəlxalq bazar münasibətlərini şirkətdaxili münasibətlərə çevirmək istəyi ilə bağlıdır. Transmilli korporasiyalar öz fəaliyyətlərini dünyanın bir çox ölkələrində xarici filialları vasitəsilə reallaşdırırlar. Xarici filiallar xarici bazarlara çıxışın təmin edilməsində, istehsal xərclərinin azaldılmasında, mənfəətin artırılmasında son dərəcə mühüm rol oynayır ki, bu da transmilli korporasiyaların maliyyə sabitliyini yaradır [6, s.107].

İqtisadi təhlükəsizliyin BƏB meyarlarına görə müəyyən edilməsi üçün dünya iqtisadiyyatı sisteminə "açıq qapı" siyasəti prizmasından baxsaq, Azərbaycan dünyanın İEÖ-ləri ilə eyni səviyyədədir (Böyük İngiltərə, Almaniya, İtaliya və s.). Çünki, beynəlxalq iqtisadi təşkilatların nöqteyi-nəzərindən hər bir ölkənin iqtisadi inkişafının əsas amillərindən biri onun enerji resursları ilə təmin olunmasıdır. Beləliklə, bu resurslarla təminat ixrac fəaliyyətindən səmərəli istifadənin təşkili və onun çeşidinin genişləndirilməsi məqsədilə əlverişli şərait yaradır. OPEC təşkilatını buna nümunə göstərmək olar ki, bu ölkələrin ÜDM-də ixrac kvotasının payı 50%-dən çoxdur. Azərbaycanda isə ixracın 80%-dən çoxu neft və neft məhsullarıdır. Hazırda Azərbaycanda gedən iqtisadi inkişaf prosesində bu amili nəzərə alaraq, məhsulların çeşidinin genişləndirilməsi ilə qeyri-neft sektorunun inkişafı hesabına emal sənayesinin gücləndirilməsi mümkündür ki, bu da ixracın strukturunun genişləndirilməsində mühüm rol oynayır.

Azərbaycanın BƏB sisteminə daxil edilməsi və yerini tutması kifayət qədər mürəkkəb və ikili xarakter daşıyır. Azərbaycan BƏB sistemində öz mövqelərini daha inamla möhkəmləndirir. Azərbaycanı BƏB-in real iştirakçısı kimi tanımaq üçün yanacaq-xammal yönümündən uzaqlaşmaq və xammalın emalı dərəcəsini yüksəltmək, yeni sahələri inkişaf etdirmək lazımdır. Amma eyni zamanda unutmaq olmaz ki, BƏB-də həddindən artıq iştirak milli iqtisadiyyata mənfi təsir göstərə bilər.

Beləliklə, BƏB dövlətlər arasında malların, xidmətlərin, biliklərin mübadiləsi üçün əhəmiyyətlidir. Amma bu münasibətlər suverenliyin natamam itirilməsinə və dövlətlərin iqtisadi təhlükəsizlik səviyyəsinin aşağı düşməsinə də səbəb ola bilər. İstənilən dövlətin BƏB-ə qoşulmasının səbəbi iqtisadi mənfəət əldə etməyə meyilli olmasıdır. BƏB beynəlxalq iqtisadiyyatın və beynəlxalq iqtisadi əlaqələrin təkmilləşdirilməsi və möhkəmlənməsinin bilavasitə iştirakçısıdır və bütün bunlar olduqca əlverişli an kimi görünür. Bu istiqamətdə təkmilləşmə BƏB-in danılmaz effektivliyinin əsasını təşkil edir.

**Ədəbiyyat**


1. Акопов, А. А. Международное разделение труда в современных условиях мировых экономик / А. А. Акопов // Новая наука: Теоретический и практический взгляд. – 2016. – № 2-1(63). – С. 6-8
2. Махмудова, К. Р. Международное разделение труда и мировой рынок / К. Р. Махмудова // Академическая публицистика. – 2020. – № 7. – С. 57-60
3. Полесская, О.П. Международное разделение труда и его значение в современном обществе / О.П.Полесская, Т.Н.Сидорина // Современная экономика: актуальные вопросы, достижения и инновации: сборник статей XV Международной научно-практической конференции, Пенза, 25 марта 2018. – С. 184-187
4. Гринькевич А. В. Анализ международного разделения труда и положение России в нем // Молодой ученый. -2017. -№ 26 (160). –С. 110-114.
5. Алтынбаева, Л.Е. Тенденции в развитии международного разделения труда / Л.Е.Алтынбаева, З.Р. Ибрагимова // Аллея науки. – 2018. – Т. 7. – № 5(21). – С. 690-692
